# MƏSUM İMAMLARIN HƏYATI

MEHDİ PİŞVAYİ

بسم الله الرحمن الرحيم

**Kitabın adı: ..........................Məsum İmamların həyatı**
**Müəllif:.....................................................Məhdi Pişvayi**
**Nəşr edən:..........................................................................**
**Çap növbəsi:..........................................................Birinci**
**Çap tarixi:.................................................................2005**
**Tiraj:........................................................................3000**

# I FƏSİL

# ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİB ƏLEYHİSSƏLAMIN HƏYATI

***Əli (əleyhissəlam) Peyğəmbər (səlləllahu əleyhi və alih) qucağında**
*** İlk müsəlman olmuş şəxs**
*** Böyük bir şücaət**
*** Peyğəmbərin (səlləllahu əleyhi və alih) xüsusi nümayəndəsi**
*** İki əsas yol ayrıcı**
*** Üç cəbhədə mübarizə**

## Əmirəl-möminin Həzrət Əli əleyhissəlamın həyatı barədə qısa məlumat

Həzrət Əli (əleyhissəlam) «Amul-fil»-in (fil ilinin) otuzuncu ilində (hicrətdən iyirmi üç il əvvəl) rəcəb ayının on üçü Kəbə evində dünyaya göz açmışdır.[1] Atası Əbutalib[2], anası Fatimə Əsəd qızı olmuşdur. Hicrətin qırxıncı ili ramazan ayının iyirmi birində Kufə şəhərində şəhadətə qovuşmuşdur. Müqəddəs məzarı Nəcəf şəhərindədir.

### Həzrət Əli əleyhissəlamin həyatinin bölmələri

Həzrət Əli əleyhissəlamın besətdən (Məhəmməd (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçilməzdən) on il qabaq dünyaya gəlməsini, İslami hadisələrdə Peyğəmbərlə (səlləllahu əleyhi və alih) çiyin-çiyinə olmasını və o Həzrətin vəfatından sonra otuz il yaşamasını nəzərə almaqla onun (Həzrət Əlinin) altımış üç illik mübarək ömrünü aşağıdakı beş hissəyə bölmək olar:

**1)** Təvəllüddən Peyğəmbərin (səlləllahu əleyhi və alih) besətinə qədər;

**2)** Besətdən Peyğəmbərin (səlləllahu əleyhi və alih) Mədinəyə hicrətinədək;

**3)** Hicrətdən Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatınadək;

**4)** Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından Əli əleyhissəlamın xəlifə olmasına qədər;

**5)** Həzrət Əli əleyhissəlamın xəlifəlik dövrü (şəhadətinə qədər).

---

[1] Mürucuz-zəhəb (Məs`udi), 21965, 2, səh. 349; Təzkirətül-xəvas, səh. 10; Nurul-əbsar... (Mö`min Şəblənci) səh. 76.

[2] Əli (ə)-ın atasının adının İmran və kunyəsinin Əbu Talib olması və ya müstəsna olaraq adının elə kunyəsi olması yaxud, onun Əbdümənaf olması barədə nəzər müxtəlifliyi vardır. Şiə alimləri arasında "rical" katiblərindən olan Cəmaləddin Əhməd ibn Ənbə (təv. 828 hicri) üçüncü nəzəri səhih hesab etmişdir. ("Ümdətüt-talib fi mənaqibi Ali Əbi Talib", səh. 20-21)

## 1. Əli əleyhissəlamın dünyaya gəlməsindən Həzrət Məhəmmədin (səlləllahu əleyhi və alih) besətinə (peyğəmbərliyə seçilməsinə) qədər

Yuxarıda qeyd etdik ki, əgər Əli əleyhissəlamın ömrünü beş hissəyə bölsək birinci hissə o Həzrətin təvəllüdündən Peyğəmbərin (səlləllahu əleyhi və alih) besətinə qədərki dövrü əhatə edəcək. Əli əleyhissəlamın ömrünün bu hissəsi on ildən çox deyil. Çünki Həzrət Əli (əleyhissəlam) doğulanda Peyğəmbərin (səlləllahu əleyhi və alih) artıq otuz yaşı var idi və o, peyğəmbərliyə qırx yaşında olarkən yetişmişdir. Deməli, Məhəmməd (səlləllahu əleyhi və alih) Peyğəmbər seçilərkən Əli əleyhissəlamın cəmi on yaşı var idi.

## Əli (əleyhissəlam) Peyğəmbər qucağında

Əli (əleyhissəlam) ömrünün həssas olan ruhi və fiziki cəhətdən formalaşma dövrünü Məhəmməd (səlləllahu əleyhi və alih) peyğəmbərin evində və onun təlim-tərbiyəsi altında keçirmişdir. İslam tarixçiləri bu barədə yazırlar:

«Bir il Məkkədə aclıq üz vermişdi.Bu zaman peyğəmbərin əmisi Əbutalib böyük bir ailəyə başçılıq edirdi. Onları çox çətinliklə dolandırırdı. Peyğəmbər (səlləllahu əleyhi və alih) Bəni–Haşim tayfasının varlılarından olan digər əmisi Abbasa təklif etdi ki, Əbutalibin dolanışığına kömək etmək məqsədilə gedib hərəmiz onun bir uşağını götürüb öz evimizdə saxlayaq. Abbas Peyğəmbərin (səlləllahu əleyhi və alih) bu təklifi ilə razılaşdı. Beləliklə də, Abbas Cəfəri, Peyğəmbər (səlləllahu əleyhi və alih) isə Əli əleyhissəlamı öz öhdəsinə götürüb öz evlərinə apardılar. Əli (əleyhissəlam) Məhəmməd (səlləllahu əleyhi və alih) Peyğəmbər seçilənədək onun evində qaldı. Peyğəmbər (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçildikdən dərhal sonra Əli (əleyhissəlam) onun peyğəmbərliyini təsdiq edib onun ardıcılı oldu.[1]»

Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlamı öz öhdəsinə götürərkən buyurmuşdur: «O kəsi seçdim ki, Allah –taala da onu mənim üçün seçmişdir.[2]»

Peyğəmbər (səlləllahu əleyhi və alih) öz uşaqlıq illərini babası Əbdül Mütəllibin vəfatından sonra əmisi Əbutalibin evində keçirtdiyinə görə istəyirdi ki, böyüdükdən sonra Əbutalibin uşaqlarından birini öz öhdəliyinə götürsün. Beləliklə də, əmisi Əbutalibin və Fatimə Əsəd qızının onun üçün çəkdikləri əziyyətlərin əvəzini çıxsın. Əbutalibin uşaqları arasında Əli əleyhissəlamı Peyğəmbərin (səlləllahu əleyhi və alih) gözü tutmuşdu.

---

[1] İbn Əsir: Əl-Kamilu fit-tarix .c.2, s-58; İbn Hişam: Əs-sirətün-nəbəviyyə, Təhqiqi-Mustəfas-Siqa; Təbəri: Tarixül-üməm vəl-mülük; Darul-qamusul-hədis, c.2, səh.213; İbn Əbil-Hədid: Şərhi Nəhcül-bəlağə, c.13, səh.119.

[2] Əbul-Fərəc İsfahani, Məqatilut-talibin, səh.15.

Əli (əleyhissəlam) öz xəlifəlik dövründə «Qasiə» xütbəsində uşaqlıq illərinin tərbiyəsinə işarə edərək buyurmuşdur: «Siz (peyğəmbərlərin səhabələri) mənim peyğəmbərlə yaxın qohumluğumu və mənim onunla olan xas mövqeyimi yaxşı bilirsiniz. Bilirsiniz ki, mən uşaq olarkən Peyğəmbər (səlləllahu əleyhi və alih) məni öz qucağına alıb bağrına basar və məni öz yatağında yatızdırardı. Belə ki, mən onun bədəninə yapışaraq onun iyini hiss edərdim. O, mənə yemək yedizdirərdi.

Mən anasının ardınca düşən uşaq kimi həmişə onun ardınca düşərdüm. Gündə bir əxlaqi məsələni mənə öyrədər və tapşırardı ki, ona riayət edim.»[1]

## Əli (əleyhissəlam) hira[2] mağarasında

Məhəmməd (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçilməzdən qabaq ilin bir ayını Hira mağarasında keçirərdi. (Hira Məkkənin Şimal səmtində bir dağdır. Həmin dağın başında bir mağara var. Mağaranı dağın adı ilə əlaqədar olaraq Hira mağarası adlandırmışlar.) Bu bir ay ərzində ibadətlə məşğul olardı. Əgər bir nəfər ac onun yanına getsəydi, ona yemək verərdi. Bir ay başa çatdıqdan sonra əvvəl gəlib Kəbəni yeddi, ya da müəyyən bir miqdarda təvaf edib sonra evə qayıdardı.[3]

Tarixi faktlardan məlum olur ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlama olan xüsusi əlaqəsinə görə onu da özü ilə Hira mağarasına aparardı.

Vəhy mələyi (Cəbrail) ilk dəfə Hira mağarasına gəlib Məhəmmədin (səlləllahu əleyhi və alih) Allah-taala tərəfindən peyğəmbərliyə seçilməsi xəbərini çatdıranda, Həzrət Əli (əleyhissəlam) da onun yanında idi. O gün də peyğəmbərin Hira mağarasına ibadətə gedən ayın günlərindən biri idi.

Əli (əleyhissəlam) «Qasiə» xütbəsində bu barədə buyurur: «Peyğəmbər (səlləllahu əleyhi və alih) hər il Hira mağarasına ibadətə gedərdi. Məndən başqa heç kim onu görməzdi... Ona ilk dəfə vəhy nazil olan zaman mən Şeytanın fəryadını eşitdim. Peyğəmbərə (səlləllahu əleyhi və alih) dedim: "Bu nə qışqırıqdır?" Cavab verdi ki, bu, Şeytanın qışqırığıdır. Qışqırmasının səbəbi də odur ki, o, camaatı yer üzündə aldatmaqdan naümid oldu. Mən eşidənləri sən də eşidirsən, mən görənləri sən də görürsən. Təkcə fərqimiz budur ki, sən Peyğəmbər deyilsən. Sən mənim vəzirim, canişinimsən və xeyir-bərəkətlisən.»

Bu ifadənin Peyğəmbərin (səlləllahu əleyhi və alih) Peyğəmbər olduqdan sonra Hira mağarasındakı ibadətlərinə aid olmasının mümkünlüyünə baxmayaraq, ötən sübutlardan və peyğəmbərin Hira mağarasında ibadətə məşğul olmasının adətən

---

[1] Nəhcül-bəlağə, 192-ci xütbə (Sübhi Salehin redaktəsi olan nüsxə).

[2] Hira mağarası Peyğəmbərin (səlləllahu əleyhi və alih) orada peyğəmbərliyə seçildiyi yerdir. Bə’ziləri onu Həra kimi tələffüz edir. Lakin doğru tələffüzü Hiradır. (Mütərcimdən)

[3] İbn Hişam: Sireyi Nəbəviyyə, c.1, səh.252.

peyğəmbərlikdən qabaq olmasından başa düşmək olar ki, bu ifadə peyğəmbərlikdən qabaqkı dövrə aiddir.

Hansı halda olursa-olsun bu ifadə bunu göstərir ki, Əli (əleyhissəlam) ruhunun paklığı və uşaqlıq dövründən Peyğəmbər tərbiyəsi ilə tərbiyələnməsi nəticəsində elə uşaqlıq dövründən adi insanların eşitmədiyi və görmədiyi (və yalnız peyğəmbərlərin eşidib gördüyü) şeyləri eşidib və görüb.

İbn Əbil Hədid Nəhcül-bəlağənin şərhində yazır:

«Səhih[1] kitablarında rəvayət olunmuşdur ki, Cəbrail birinci dəfə peyğəmbərə nazil olub onun Peyğəmbər seçildiyini bildirdikdə Əli (əleyhissəlam) da peyğəmbərin yanında idi.[2]»

## 2. Besətdən Peyğəmbərin hicrətinədək

Həzrət Əli əleyhissəlamın ömrünün ikinci hissəsini besətdən Mədinəyə hicrətə qədərki dövr təşkil edir. Bu hissə on üç ildən ibarətdir. Həzrət Əli əleyhissəlamın İslamın dirçəlişi yolunda göstərdiyi bir sıra şücaətlər və xidmətlər bu hissəyə aiddir. Elə xidmətlər ki, İslamda Əli əleyhissəlamdan başqa heç kimə nəsib olmayıb.

## İslamı qəbul etmiş ilk insan

Əli əleyhissəlamın bu dövrdəki ilk iftixarı onun ilk növbədə İslamı qəbul etməsidir. Daha dəqiq desək, Əli (əleyhissəlam) bu dövrdə özünün əvvəldən olan İslami əqidəsini aşkar etmişdir. Əli (əleyhissəlam) əvvəldən təkallahlığa inanmış və əsla bütpərəst olmamışdır.[2] Yəni, Əli əleyhissəlamın İslamı qəbul etməsi bu mənaya deyil ki, o, bütpərəstlikdən əl çəkmiş və İslamı qəbul etmişdir. (Ancaq peyğəmbərlərin digər səhabələrinin İslamı qəbul etmələri bu mənayadır.)

İslamı qəbul etməkdə irəli düşmək elə bir dəyər, fəzilətdir ki, Quran açıq-aşkar ona işarə edərək buyurmuşdur: ***«Bir də öndə olanlar, öndə olanlar! Bunlar [Allahın dərgahına, Allahın lütfünə və mərhəmətinə] yaxın olanlardır.»[3]***

Quranın İslamı qəbul etməkdə irəli düşməyə xüsusi diqqəti o qədərdir ki, hətta Məkkənin fəthindən qabaq müsəlman olanlar Məkkə fəthində sonra müsəlman olanlardan üstün sayılır. Gör indi hicrətdən qabaq müsəlman olanlar nə dərəcədədirlər? ***«Sizlərdən [mal-dövlətini] fəthdən [Məkkənin fəthindən] əvvəl [Allah yolunda] sərf edənlər və [müşriklərə qarşı] vuruşanlar [başqaları ilə]***

---

[1] Səhih kitablar sünni məzhəbinin mö'təbər bildiyi altı kitabdır. O kitablar bunlardır: **1)** Səhihi-Müslim. **2)** Səhihi-Buxari. **3)** Sünəni-Termizi. **4)** Sünəni-İbn Macə. **5)** Sünəni-Nəsai. **6)** Sünəni-İbn Davud. (Mütərcimdən)

[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), səh.208.

[2] Əxtəb Əl-Mənaqibi Xarəzm, səh.18.

[3] "Vaqiə" surəsi, ayə 10-11.

***eyni deyillər. Onlar [mallarını Allah yolunda] fəthdən sonra sərf edib döyüşənlərdən dərəcə etibarı ilə daha üstündürlər. Bununla belə, Allah-taala onların hamısına [həm birincilərə, həm də ikincilərə] ən gözəl mükafat [Cənnət] vəd buyurmuşdur.»***[1]

Məkkənin fəthindən (hicrətin səkkizinci ilindən) qabaq müsəlman olanların dərəcələrinin üstün olması ona görədir ki, onlar İslamı qəbul edəndə İslam dini hələ Ərəbistan yarımadasına tam yayılmamışdı, müşriklərin qərargahı olan Məkkə şəhəri İslamın düşməni olaraq qalırdı. Müsəlmanlar hələ qorxu içərisində yaşayırdılar. Düzdür, müsəlmanlar Mədinəyə hicrət etdikdən və Mədinənin böyük qəbilələri Ovs və Xəzrəcin və bir çox başqa qəbilələrin İslama gəlməsindən sonra müsəlmanlar bir qədər gücləndilər və bir çox müharibələrdə meydandan qalib kimi çıxdılar. Belə bir zamanda İslamı qəbul etmək böyük üstünlüyə malikdirsə, şübhəsiz ki, İslamın ilkin çağlarında (hicrətdən qabaq) Qüreyşin və bütpərəstlərin camaata meydan oxuduqları bir dövrdə İslamı qəbul etmək daha çox üstünlüyə malik olmalıdır. Buna əsasən də, peyğəmbərin səhabələri arasında İslamı qəbul etməkdə irəli düşmək (və hətta birinci olmaq) böyük bir şərəfdir.

Beləliklə də, Əli əleyhissəlamın İslamı birinci qəbul etməsinin də nə dərəcədə üstün olması məlum olur.

## Əli əleyhissəlamın ilk müsəlman olması haqda sübutlar

Əli əleyhissəlamın birinci şəxs olaraq İslamı qəbul etməsi haqda kitablarda o qədər sübutlar qeyd etmişlər ki, onların hamısını bu kitabda qeyd etmək mümkün deyil. Ancaq nümunə üçün onların bir neçəsini oxucuların nəzərinə çatdırırıq:

**a)** Hamıdan əvvəl Peyğəmbərin (səlləllahu əleyhi və alih) özü Əli əleyhissəlamın İslamı birinci qəbul etməsini təsdiqləmiş və camaat arasında buyurmuşdur: *«Qiyamət günü Kövsər (hovuzunun) bulağının başında mənə birinci birləşən şəxs İslamı birinci qəbul etmiş şəxs Əli ibn Əbutalib olacaqdır.»*[2]

**b)** Alimlər və rəvayətçilər söyləmişlər:

*«Həftənin birinci günü Məhəmməd (səlləllahu əleyhi və alih) Peyğəmbər seçildi və Əli (əleyhissəlam) səhərisi gün onunla birgə namaz qıldı.»*[3]

**v)** Həzrət Əli (əleyhissəlam) özü «Qasiə» xütbəsində buyurur: "O vaxt (İslamın təzəcə vaxtı) İslam dini peyğəmbərlə Xədicənin evindən başqa yerdə yox idi. Mən isə onların üçüncüsü idim. Vəhy və nübüvvət iyini duyur və görürdüm.»

**q)** Həzrət Əli (əleyhissəlam) başqa bir hədisdə özünün İslamı qəbul etməkdə irəli düşməsi barədə belə buyurmuşdur: *«İlahi! Mən Sənin yoluna gəlmiş ilk şəxsəm. İlk dəfə olaraq mən Sənin xəbərini eşitdim və Peyğəmbərin (səlləllahu*

---

[1] "Hədid" surəsi, ayə 10.

[2] Əl-İstiab fi mə'rifətil əshab, c.3, səh.28. və buna oxşar çoxlu sayda hədislər.

[3] İbn Əbil Hədid, Şərhi Nəhcül-bəlağə, c.13, səh.229.

*əleyhi və alih) dəvətini qəbul etdim. O vaxt məndən başqa ancaq Peyğəmbər namaz qılırdı.»*

**d)** Əli (əleyhissəlam) buyurardı: *«Mən Allah bəndəsi, peyğəmbərin qardaşı və çox doğru danışan bir şəxsəm. Bu sözü məndən başqa kim deyərsə, bilin ki, o yalançıdır. Mən camaatdan yeddi il qabaq Peyğəmbərlə birgə namaz qılmışam.»*[1]

**e)** Üfeyr ibn Qeys Kendi deyir: «Mən cahiliyyət dövründə ətriyyat satıcısı idim. Ticarət səfərlərimin birində Məkkəyə getdim və (Məkkə tacirlərindən biri olan) Abbasın qonağı oldum. Günlərin birində Məscidül–həramda Abbasla birgə oturmuşduq. Günəş göyün ortasına çatanda, sifəti parlaq ay parçasına bənzər bir cavan kişi məscidə gəldi. Göyə baxdı və sonra üzünü Kəbəyə çevirərək namaz qılmağa başladı. Bir az keçməmiş gözəl bir gənc oğlan da gəlib ona qoşularaq onun sağında durdu. Sonra çadraya bürünmüş bir qadın gəlib o iki nəfərin arxasında durdu. Beləliklə, üçü də namaz qılmağa başladı.

Mən (bütpərəstliyin mərkəzi olan Məkkədə üç nəfərin ayrı dinə sitayiş etməsindən) çox təəccübləndim. Üzümü Abbasa tutub dedim: "Bu çox böyük hadisədir!" O da mənə dedi: "Bu üç nəfəri tanıyırsan?" Dedim ki, xeyr. Abbas dedi: "Birinci gəlib hamıdan qabaqda duran mənim qardaşım oğlu Məhəmməd ibn Abdullahdır. İkinci gələn başqa bir qardaşımın oğlu Əli ibn Əbutalibdir. Üçüncü gələn də, Məhəmmədin (səlləllahu əleyhi və alih) həyat yoldaşıdır. Məhəmməd (səlləllahu əleyhi və alih) iddia edir ki, onun dini Allah-taala tərəfindən nazil olub. İndi yer üzündə bu üç nəfərdən başqa heç kim bu dinə qulluq etmir.»[2]

Bu hadisədən çox gözəl məlum olur ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) dəvətini əvvəllər həyat yoldaşı Xədicədən başqa ancaq Əli (əleyhissəlam) qəbul etmişdir.

## Peyğəmbərin (səlləllahu əleyhi və alih) hamisi və canişini

İslam peyğəmbəri öz dəvətini üç il gizli saxladı. Ancaq xüsusi və gizli şəkildə dəvətini həyata keçirirdi. Kimdə qəbul hissi görürdüsə, onu da İslama dəvət edirdi.

Üç ildən sonra vəhy mələyi nazil olub bildirdi ki, Peyğəmbər dəvətini aşkara çıxartmalı və ilk növbədə öz qohum-əqrabasından başlamalıdır.

Bu barədə Allah-taala Quranda belə buyurmuşdur: ***Və ən yaxın qohumlarını qorxut!Sənə tabe olan möminləri qanadın altına al! [Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat!] Əgər [yaxın qohumların] sənə qarşı çıxsalar, onlara belə de: «Şübhəsiz ki, mən sizin əməllərinizdən uzağam[3]!»***

---

[1] Tarixül-üməm vəl-mülük, c.2, səh.57.
[2] Tarixül-üməm vəl-mülük, c.2, səh.212.
[3] "Şüəra" surəsi, ayə 214-216.

Ümumi və aşkar dəvətin qohum-əqrəbadan başlanmasının səbəbi odur ki, əgər bir nəfərin dəvətini onun öz qohum-əqrabası qəbul etməsə, onun sözü başqalarına əsla təsir göstərməyəcəkdir. Çünki yaxın qohum-əqrəba onun pis və yaxşı cəhətlərinə çox gözəl bələddirlər. Bu səbəbdən onların iman gətirməsi, peyğəmbəri təsdiq etməsi onun doğruluğuna sübut hesab olunur. Əksinə, qohum–əqraba onun dəvətini qəbul etmədikdə bu, iddianın düzgün olmadığını bildirir. Buna görə də, Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlama tapşırdı ki, Bəni–Haşim qəbiləsinin qırx beş nəfər böyük şəxsiyyətlərini nahara qonaq çağırıb onlar üçün ət yeməyi bişirsin. Süfrəyə süd qoymağı da unutmasın.

Qonaqlar hamı bir nəfər kimi təyin olunmuş vaxtda gəlib çıxdılar. Yemək yeyildikdən sonra Peyğəmbərin (səlləllahu əleyhi və alih) əmisi Əbu-Ləhəb öz yersiz söhbətlərilə məclisi bir-birinə vurub məclisin hazırlığını aradan apardı. Beləliklə də, məclis heç bir nəticə vermədən başa çatdı. Qonaqlar da durub hərə öz evinə getdi.

Peyğəmbər (səlləllahu əleyhi və alih) qərara gəldi ki, səhəri gün yenə qohumlarını nahara dəvət etsin və Əbu-Ləhəbdən başqa dünən gələnlərin hamısını bir daha evə çağırsın. Yenə Əli (əleyhissəlam) qonaqlar üçün yemək və süd hazırlayaraq qohumları nahara və peyğəmbərin söhbətinə qulaq asmaq üçün evə çağırdı. Qonaqlar yenə də təyin olunmuş vaxtda gəlib çıxdılar. Yemək yeyildikdən sonra Peyğəmbər (səlləllahu əleyhi və alih) söhbətə başlayaraq buyurdu: *«Mənim öz qohumlarım üçün gətirdiyim şeydən yaxşı bir şey heç kim öz qohumları üçün gətirməyib. Mən sizin üçün dünya və Axirət xeyrini gətirmişəm. Allahım mənə əmr edib ki, sizi tövhidə, təkallahlığa və öz nübüvvətimə dəvət edim. Bu işdə kim mənə kömək etməklə mənim qardaşım, varisim və sizin aranızdakı nümayəndəm olar?»*

Peyğəmbər (səlləllahu əleyhi və alih) bunu deyib bir az sükut etdi. İstəyirdi görsün kim onun sualına müsbət cavab verəcək. Ancaq bütün məclisi sükut bürümüşdü. Hamı təəccüblü halda başını aşağı salıb fikirləşirdi. Bu zaman on dörd yaşlı[1] Əli ibn Əbutalib məclisin sükutunu pozaraq ayağa qalxdı, üzünü Peyğəmbərə (səlləllahu əleyhi və alih) tutub buyurdu: *«Ey Allahın Rəsulu! Mən bu işdə sənə kömək edərəm!»* Bunu deyib peyğəmbərlə beyət etmək üçün (razılıq əlaməti olaraq) əlini ona tərəf uzatdı. Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlama əmr etdi ki, yerində əyləşsin.

İkinci dəfə Peyğəmbər (səlləllahu əleyhi və alih) öz sözlərini yenə təkrar etdi. Yenə də Əli (əleyhissəlam) ayağa qalxıb bu işə hazır olduğunu

---

[1] Əli (ə)-ın müsəlman olduğu, həmçinin Peyğəmbər (s)-i himayət edəcəyini e`lan etdiyi vaxt yaşının neçə olduğu barədə əlavə mə`lumat almaq üçün "Şər`i Nəhcül-Bəlağə", c. 13, səh. 234-235; "Rövzətül-kafi", səh. 339-a müraciət edin.

bildirdi.Peyğəmbər (səlləllahu əleyhi və alih) ikinci dəfə də Əli əleyhissəlama oturmasını əmr etdi.

Üçüncü dəfə də Əli əleyhissəlamdan başqa peyğəmbərə cavab verən olmadı. Təkcə Əli (əleyhissəlam) ayağa qalxıb Peyğəmbərin (səlləllahu əleyhi və alih) müqəddəs fikrini dəstəklədi. Bu vaxt Peyğəmbər (səlləllahu əleyhi və alih) əlini Əli əleyhissəlamın əlinin üzərinə qoyaraq Bəni–Haşim qəbiləsinin böyükləri arasında Əli (əleyhissəlam) barədə öz tarixi cümləsini buyurdu: *«Ey mənim qohum-əqrəbam! Əli mənim qardaşım, varisim və sizin aranızda xəlifəmdir (canişinimdir).»*[1]

Beləliklə, sonuncu peyğəmbərin birinci xəlifəsi İslamın əvvəllərində və çox az insanın müsəlman olduğu bir dövrdə təyin olundu.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz peyğəmbərliyini Əli əleyhissəlamın İmaməti ilə bir gündə qeyd etməsi, yəni, Peyğəmbər camaata (qohum-əqrəbasına) «mən sizin peyğəmbərinizəm» buyurduğunu «Əli mənim canişinimdir» buyurduğu ilə birgə qeyd etməsi İslam dinində İmamət məqamının nə dərəcədə yüksək olduğunu sübut edir. Bundan məlum olur ki, bu iki məqam (nübüvvət və İmamət məqamı) bir-birindən ayrı deyil və İmamət məqamı nübüvvətin təkmil edicisidir.

## Böyük bir şücaət

Besətin on üçüncü ili zilhiccə ayının on üçündə peyğəmbərlə Yəsrib (Mədinə) şəhərinin sakinləri arasında ikinci Əqəbə peymanı bağlanır. Mədinəlilər peyğəmbərin Yəsribə gəlməsini istəyərək bildirdilər ki, onlar peyğəmbəri himayə və müdafiə edəcəklər. Həmən günün səhərindən etibarən Məkkə müsəlmanları yavaş-yavaş Yəsribə köçməyə başladılar. Bundan xəbər tutan müşriklər bildilər ki, İslam dini üçün yeni mərkəz qurulur və bu onlar üçün böyük bir təhlükə yaradır. Onlar qorxurdular ki, Peyğəmbər Yəsribə köçdükdən sonra çəkdiyi əzab-əziyyətlərin, müşriklərin ona və müsəlmanlara qarşı göstərdiyi təzyiqlərin intiqamını almaq fikrinə düşüb müşriklərlə müharibəyə başlayacaq. Əgər müharibə etmək fikri də olmasa, Qüreyş tayfasının (Məkkənin) Yəsrib şəhərinin kənarından keçdiyi Şam (indiki Dəməşq) şəhəri ilə Məkkəni birləşdirən ticarət yolunun qarşısını kəsəcək. Bu təhlükənin qarşısını almaq üçün besətin on dördüncü ili səfər ayının sonunda «Darun-nədvə»də – Məkkənin şura yığıncağında yığışıb təkliflər irəli sürdülər. Bəziləri belə təklif verdilər ki, Məhəmmədi (səlləllahu əleyhi və alih) ya sürgün etsinlər, ya da həbsə alsınlar. Ancaq bu təklif hamı tərəfindən qəbul olunmadı. Çox götür-qoy etdikdən sonra nəhayət belə qərara gəldilər ki, peyğəmbəri öldürsünlər. Ancaq onu öldürmək heç

---

[1] Tarixül-üməm vəl-mülük, c.2, səh.217; Əl-Kamilu fit-tarix, c.2, səh.63; Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.13, səh.211.

də asan iş deyildi. Çünki əgər onu öldürsələr, Bəni–Haşim sakit oturmayıb ayağa qalxacaq və qatildən qisas tələb edəcəkdi. Nəhayət belə planlaşdırdılar ki, hər qəbilədən bir nəfər (gənc) yığışıb gecə vaxtı Məhəmmədi (səlləllahu əleyhi və alih) yuxuda olarkən qətlə yetirsinlər. Belə olduqda qatil təkcə bir nəfər olmayacaq və Bəni-Haşim qisas tələb edə bilməyəcək. Çünki Məhəmmədin (səlləllahu əleyhi və alih) qətlində hər bir qəbilənin nümayəndəsi var və onlar bütün qəbilələrlə vuruşa bilməzlər. Çarəsiz qalıb Məhəmmədin (səlləllahu əleyhi və alih) qan bahasını (qan pulunu) almaqla kifayətlənəcəklər. Beləliklə də, hər şey bitəcək.

Bu planı həyata keçirmək üçün müşriklər rəbiül-əvvəl ayının birinci gecəsini təyin etdilər.

Allah-taala Quranda müşriklərin irəli sürdükləri hər üç təklifi açıqlayaraq buyurmuşdur: ***«[Ya Məhəmməd!] Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da [Məkkədən] çıxarıb qovmaq üçün [Darun-nədvədə] sənə qarşı hiylə qururdular. Allah onların da [bu hiyləsinə qarşı] tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır[1].»***

Müşriklərin bu pis təklifindən sonra vəhy mələyi nazil olub Peyğəmbəri (səlləllahu əleyhi və alih) bu işdən xəbərdar etdi və bildirdi ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) (doğma vətəni olan) Məkkəni tərk edib, Yəsribə getməlidir.

Burada Peyğəmbər (səlləllahu əleyhi və alih) Məkkədən çıxmaq üçün «iz itirmək» taktikasından istifadə etməli idi. Buna görə də, canından keçmiş şücaətli, ürəkli bir nəfər lazım idi ki, gecəni peyğəmbərin yatağında yatsın. Beləliklə, evi mühasirəyə almış müşriklər yatan şəxsin Məhəmməd (səlləllahu əleyhi və alih) olduğunu güman edib bütün nəzərlərini evə cəlb etsinlər və yollara nəzarət etmək fikrindən daşınsınlar. Belə bir şəxs Əli əleyhissəlamdan başqa kim ola bilərdi?

Bu səbəbdən Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlamı müşriklərin qurduğu hiylədən agah edib ona dedi ki, bu gecə o, peyğəmbərin yerində yatmalı və Peyğəmbərin yatarkən üstünə örtdüyü yaşıl parçanı üstünə çəkib kafirlərin fikrini özünə cəlb etməlidir. (Bu yolla onlar məni təqib edə bilməyəcəklər.)

Əli (əleyhissəlam) peyğəmbərin dediyi kimi də etdi.

Müşriklər gecə olan kimi Peyğəmbərin (səlləllahu əleyhi və alih) evini mühasirəyə aldılar. Səhərə yaxın əllərində qılınc Peyğəmbərin (səlləllahu əleyhi və alih) evinə tökülüşdülər. Bu vaxt Əli (əleyhissəlam) yataqdan qalxdı. Səhərə qədər planlarını dəqiqliklə və yüz faiz həyata keçdiyini güman edən müşriklər yataqda olan şəxsin Əli (əleyhissəlam) olduğunu gördükdə, bərk qəzəblənərək Əli əleyhissəlamdan soruşdular: "Məhəmməd (səlləllahu əleyhi və alih) hardadır?"

---

[1] "Ənfal" surəsi, ayə 30.

Əli (əleyhissəlam) onların cavabında buyurdu: "Məgər Məhəmmədi (səlləllahu əleyhi və alih) mənə tapşırmışdınız ki, indi də məndən istəyirsiniz? Siz elə iş gördünüz ki, o evini atıb getməli oldu." Vəziyyəti belə görən müşriklər Əli əleyhissəlamı tutub (Təbərinin dediyinə görə) ona əziyyət verməyə başladılar. Onu Məscidül-hərama aparıb bir az saxladıqdan sonra buraxdılar. Sonra Peyğəmbəri (səlləllahu əleyhi və alih) tutmaq məqsədilə Yəsribə tərəf hərəkət etdilər.

Bu zaman Peyğəmbər (səlləllahu əleyhi və alih) Sur mağarasında gizlənmişdi.[1]

Qurani-Məcid Əli əleyhissəlamın fədakarlığını əbədi tarixə yazaraq bir ayədə bu məsələyə toxunmuş və Əli əleyhissəlamı canını Allah-taala yolunda fəda edən şəxs kimi qələmə vermişdir: ***«İnsanlardan eləsi də var ki, Allah-taalanın razılığını qazanmaq yolunda [Allah Rizası üçün] öz canını fəda edər. Allah-taala Öz bəndələrinə qarşı çox mehribandır.»*** ("Bəqərə" surəsi, ayə 207)

Təfsirçilər deyirlər: «Bu ayə Əli əleyhissəlamın böyük fədakarlığı, Peyğəmbərin (səlləllahu əleyhi və alih) yatağında yatması barədə nazil olmuşdur". (O gecə İslam tarixində «Leylətül-məbit» adı ilə məşhur olmuşdur.)

Əli əleyhissəlamın özü də Ömərin əmrilə xəlifə təyin etmək üçün təşkil olunmuş altı nəfərlik şurada bu məsələyə toxunaraq şura üzvlərinə meydan oxumuş və buyurmuşdur: *«Sizi and verirəm Allaha, deyin görüm o təhlükəli gecədə Peyğəmbər Sur mağarasına gedərkən kim onun yerində yatıb* özünü *Peyğəmbərə (səlləllahu əleyhi və alih) qalxan etdi?»*

Hamı «Səndən başqa heç kim» deyə cavab verdilər.[2]

## 3. Hicrətdən Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatınadək

### Əli (əleyhissəlam) Peyğəmbərin qardaşı

İslami qardaşlıq və qardaşlıq siğəsi İslam dininin ictimai qanunlarındandır. Peyğəmbər (səlləllahu əleyhi və alih) müxtəlif yollarla bu əlaqəni (qardaşlıq əlaqəsini) yaratmaq və onu genişləndirmək üçün çox səylər etmişdir. O cümlədən, Peyğəmbər (səlləllahu əleyhi və alih) Yəsribə[3] gəldikdən sonra mühacirlər (hicrət etmiş müsəlmanlar) və ənsar (Peyğəmbərin Mədinədəki silahdaşları) arasında qardaşlıq əlaqəsi yaratmaq fikrinə düşdü. Buna görə də, bir gün müsəlmanlar arasında ayağa qalxıb buyurdu: *«Allah xatirinə bir-birinizlə iki-iki (bir mühacirlə*

---

[1] İbn Hişam, Sirətun-nəbəviyyə, c.2, səh.124-128.

[2] Əl-Xisal, c.2, səh.560; Ehticaci-Təbərsi, c.1, səh.75.

[3] Yəsrib şəhəri Peyğəmbərin (səlləllahu əleyhi və alih) hicrətindən sonra «Mədinətur-rəsul» adlandırıldı. Mə'nası Peyğəmbər şəhəri deməkdir. Sonralar qısa olaraq Mədinə adı ilə məşhur oldu.(Mütərcimdən)

*bir ənsar) qardaş olun.»* Bundan sonra müsəlmanlar iki-iki qardaş oldu və beləliklə, onlar arasında mehribançılıq daha da artdı.

Bu qardaşlıq əlaqəsi qardaş olmaq istəyən iki nəfərin imanı və fəzilətinin bir-biri ilə münasib gəlməsi şərtilə icra olunurdu. Bunu bir-birilə qardaş olanların vəziyyətindən də müşahidə etmək olar.

Müsəlmanlar bir-biri ilə qardaş olduqdan sonra Əli (əleyhissəlam) tək qaldı. Yaşarmış gözlərlə Peyğəmbərin (səlləllahu əleyhi və alih) hüzuruna gəlib buyurdu: *«Məni heç kimlə qardaş etmədin.»* Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: *«Sən hər iki dünyada mənim qardaşımsan!*[1]*. »* Sonra özü ilə Əli (əleyhissəlam) arasında qardaşlıq siğəsi oxudu.[2]

Bu məsələ Əli əleyhissəlamın fəzilət və əzəmətinin nə dərəcədə olduğunu göstərməklə yanaşı, həm də Əli əleyhissəlamın peyğəmbərə nə qədər yaxın olduğunu göstərir.

## Əli (əleyhissəlam) döyüş meydanlarında

Əli əleyhissəlamın həyatı Peyğəmbərin (səlləllahu əleyhi və alih) hicrətindən o Həzrətin vəfatına qədər çoxlu hadisələrlə, xüsusən döyüş meydanlarında göstərdiyi hünər və şücaətlərlə doludur.

Peyğəmbər (səlləllahu əleyhi və alih) Mədinəyə hicrət etdikdən sonra müşriklər və yəhudilərlə bir çox müharibələr aparmışdır. Bu müharibələrin iyirmi yeddisinə (böyüklü-kiçikli) peyğəmbərin özü komandanlıq etmiş və iyirmi yeddi döyüşün iyirmi altısında Əli (əleyhissəlam) iştirak etmişdir. Təkcə Təbuk döyüşündə Əli (əleyhissəlam) iştirak etməmişdir. Onda da Peyğəmbərin (səlləllahu əleyhi və alih) əmrilə Mədinədə qalmışdır. Çünki münafiqlər peyğəmbərin olmamasından istifadə edib Mədinədə çevriliş edə bilərdilər. Buna görə də, Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlamı Mədinədə saxlamışdı ki, münafiqlərin çevrilişinin qarşısını alsın.

Bu müharibələrin hamısı haqqında danışmaq bu kitabın tutumundan xaric olduğu üçün təkcə Əli əleyhissəlamın Peyğəmbər dövründəki dörd əsas müharibədə göstərdiyi hünər və şücaətlərdən söhbət edəcəyik.

## 1) Əli (əleyhissəlam) Bədr döyüşündə

Hamıya məlumdur ki, Bədr döyüşü müsəlmanlarla müşriklər arasında baş vermiş ilk döyüşdür. Bu döyüş ilk döyüş olduğundan iki tərəf arasında bir imtahan rolunu oynayırdı və bu döyüşdə hər hansı tərəfin qalib gəlməsi çox mühüm idi.

Bədr döyüşü hicrətin ikinci ilində baş vermişdir. Hicrətin ikinci ili Peyğəmbərə (səlləllahu əleyhi və alih) xəbər çatır ki, Qüreyşin ticarət karvanı İslamın köhnə

---

[1] Əl-Mustədrəku ələs-səhihəyn, c.3, səh.35.

[2] Əl-İstiabu fi mə’rifətil-əshab, c.3, səh.35.

düşməni olan Əbu Süfyanın başçılığı ilə Şamdan Məkkəyə qayıtmaq istəyir. Əvvəldə dediyimiz kimi Şama gedən ticarət yolu Mədinənin kənarından keçirdi.

Peyğəmbər (səlləllahu əleyhi və alih) mühacir və ənsardan təşkil olunmuş üç yüz on üç nəfərlik bir ordu götürüb Qüreyşin karvanını ələ keçirtmək məqsədilə Bədr məntəqəsinə yola düşdü.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) bu hərəkətdən məqsədi müşriklərə əsas ticarət yolunun müsəlmanların əlində olduğunu çatdırmaq idi. Əgər müşriklər İslamı yaymaqda müsəlmanlara mane olmaqla onları rahat buraxmasalar, müsəlmanlar da onların əsas ticarət yolunu kəsəcəklər.

Müsəlmanların hərəkətindən xəbər tutan Əbu Süfyan karvanın yolunu dəyişib Qırmızı dənizin kənarı ilə hərəkət edərək Mədinədən uzaqlaşdı. Bir nümayəndə göndərib müşrikləri vəziyyətdən xəbərdar edərək Məkkə əhlindən müsəlmanlarla vuruşmaq üçün kömək istədi.

Əbu Süfyanın başçılığı ilə doqquz yüz əlli nəfərdən min nəfərə qədər cəngavər müşrik Mədinəyə tərəf yola düşdü. Ramazan ayının (hicrətin ikinci ilində) on yeddisində müsəlmanlarla müşriklər Bədr quyuları kənarında üz-üzə gəldilər. Müşriklər sayca üç dəfə müsəlmanlardan artıq idilər.

Döyüş başlayanda Qüreyşin ən güclü qəhrəmanlarından üçü–Ütbə (Əbu Süfyanın qaynatası, Hindənin atası), Şeybə (Ütbənin böyük qardaşı) və Vəlid (Ütbənin oğlu) meydana çıxıb döyüşçü tələb etdilər. Bu zaman ənsardan üç nəfər irəli çıxıb özlərini tanıtdıraraq onlarla vuruşmaq istədilər. Qüreyş pəhləvanları onlarla vuruşmağa razı olmayıb qışqırdılar: “Ey Məhəmməd! Bizimlə vuruşmağa öz qohumlarımızdan, bizim şənimizə layiq olan adamlardan göndər!”

Bu zaman Peyğəmbər (səlləllahu əleyhi və alih) Übeydə ibn Haris ibn Əbdül Müttəlibə, Həmzə ibn Əbdül Müttəlibə və Əli ibn Əbutalibə əmr etdi ki, meydana çıxıb o üç nəfərlə vuruşsunlar. Onlar meydanın ortasına gəlib özlərini tanıtdırdılar. Müşriklər (Ütbə, Şeybə və Vəlid) onların üçünü də qəbul edib dedilər: “Bəli, siz bizim şənimizə layiqsiniz”. Beləliklə, Həmzə Şeybə ilə, Übeydə Ütbə ilə və döyüşçülərin ən cavanı olan Əli (əleyhissəlam) Müaviyənin dayısı (Əbu Süfyanın qaynı, Hindənin qardaşı və Ütbənin oğlu) Vəlidlə vuruşmalı oldu. Təkbətək döyüş başlandı. Əli və Həmzə tez bir zamanda öz rəqiblərini öldürdülər. Ancaq Übeydə ilə Ütbə hələ də vuruşurdular. Heç biri digərini məğlub edə bilmirdi. Buna görə də, rəqiblərini öldürmüş Əli (əleyhissəlam) ilə Həmzə Übeydənin köməyinə çatıb Ütbəni də öldürdülər.[1]

Əli (əleyhissəlam) (xəlifə olduğu dövrdə və Müaviyənin ona düşmən kəsildiyi bir vaxtda) Müaviyəyə yazdığı məktubların birində bu hadisəyə işarə edərək

[1] Əs-sirətün-nəbəviyyə, c.2, səh.277; Əl-Kamilu fit-tarix, c.2, səh.125.

buyurur: *«Bədr döyüşündə baban Ütbəni, dayın Vəlidi və qardaşın Hənzələni öldürdüyüm qılınc indi də məndədir.»*[1]

İslamın üç böyük qəhrəmanlarının təkbətək döyüşdə qalib gəlmələri müşriklərin ordu başçılarının ruhiyyəsini tamamilə zəiflətdi. Bundan sonra ümumi döyüş başlandı. Ancaq bunun da bir xeyri olmadı. Müşriklər məğlub oldu və yetmiş nəfər əsir düşdü...

Bu döyüşdə ölən müşriklərin yarıdan çoxu Əli əleyhissəlamın qılıncı ilə qətlə yetirildi.

Mərhum Şeyx Müfid Bədr döyüşündə ölənlərin otuz altısının Əli (əleyhissəlam) tərəfindən öldürüldüyünü qeyd etmiş və onların hamısının adını çəkmişdir. O yazır ki, «şiə və sünni hədis söyləyənləri hamı yekdilliklə qeyd etmişlər ki, bunları (otuz altı nəfəri) Əli (əleyhissəlam) təkbaşına öldürmüşdür. Yalnız bir neçə nəfərin qatili barədə mübahisə var. Bir neçə nəfərin qətlində isə Əli (əleyhissəlam) başqaları ilə şərik olmuşdur.»[2]

## 2) Əlİ əleyhİssəlamın Ühüd döyüşündəkİ mİsİlsİz şücaətİ

Qüreyş müşriklərinin ruhiyyəsi Bədr döyüşündəki məğlubiyyət nəticəsində çox zəiflədi. Buna görə də, onlar qərara aldılar ki, bu məğlubiyyətin əvəzini çıxmaq və ölənlərin intiqamını almaq üçün sayca çoxlu və qüvvətli bir ordu ilə Mədinəyə hücum etsinlər.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) kəşfiyyat dəstəsi Qüreyşin bu fikrini Peyğəmbərə (səlləllahu əleyhi və alih) çatdırdı. Peyğəmbər (səlləllahu əleyhi və alih) nizami bir şura təşkil etdi. Şuradakıların bir çoxu belə bir təklif irəli sürdülər ki, müsəlmanlar müşriklərlə vuruşmaq üçün Mədinədən kənara çıxmalıdırlar.

Peyğəmbər (səlləllahu əleyhi və alih) min nəfərlik ordu ilə Mədinənin şimalında yerləşən Ühüd dağına tərəf hərəkət etdi. Yolun yarısında İslam ordusundan məşhur münafiq Abdullah ibn Übeyyin üç yüz tərəfdarı onun sözü ilə Mədinəyə qayıtdı. Beləliklə, İslam ordusunda cəmi yeddi yüz nəfər döyüşçü qaldı. Hicrətin üçüncü ili şəvval ayının yeddisi səhər çağı iki qoşun Ühüd dağının ətəyində bir-biri ilə üz-üzə gəldi.

Peyğəmbər (səlləllahu əleyhi və alih) döyüş başlamazdan qabaq bütün məntəqəni nəzərdən keçirtdi. Peyğəmbərin nəzərini dağın başında olan yol özünə cəlb etdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) fikirləşdi ki, kafirlər döyüşün qızğın vaxtında oradan keçib müsəlmanlara arxadan zərbə endirə bilərlər. Bu təhlükənin qarşısını almaq məqsədilə, Peyğəmbər (səlləllahu əleyhi və alih) Abdullah ibn Cübeyr adlı şəxsi əlli nəfər oxatanla həmin yolu nəzarət altına almağa göndərdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) ona dönə-dönə tapşırdı ki,

[1] Nəhcül-bəlağə, 64-cü məktub.
[2] Əl-İrşad, səh.29.

əsla oranı boş qoymamalı, hətta müsəlmanlar qalib gəldiyi halda da, oradan uzaqlaşmasınlar.

Digər tərəfdən o vaxtın döyüşlərində bayraqdar (bayrağı əlində tutan) çox böyük əhəmiyyət daşıyırdı. Buna görə də, bayraq həmişə şücaətli və qüvvətli şəxsə verilirdi. Bayraqdarın ayaq üstə olması və bayrağın daima uca qalması döyüşçülərin ruhiyyəsini artırırdı. Eləcə də əksinə, bayraqdarın ölməsi və bayrağın yerə düşməsi döyüşçülərin ruhiyyəsini zəiflədirdi. Buna görə də, döyüşçülərin ruhiyyəsini artırmaq üçün döyüşdən qabaq neçə nəfər bayraqdar təyin olunurdu. (Əgər biri öldü o biri bayrağı tutardı. Əgər o da ölsə, üçüncü, dördüncü... şəxs bayrağı tutardı.)

Ühüd döyüşündə Qüreyş bu qaydaya əməl edib ən şücaətli tayfa olan «Bəni–Əbdüddar» qəbiləsindən bir neçə bayraqdar təyin etdi. Ancaq döyüş başlanan kimi onların bayraqdarları bir-birinin ardınca Əli əleyhissəlamın qılıncı ilə həlak olurdu. Beləliklə də, müşriklərin bayrağı yerə düşür və qoşun qaçmağa üz tuturdu.

İmam Sadiq (əleyhissəlam) bu barədə buyurmuşdur: «Ühüd döyüşündə müşriklərin doqquz bayraqdarı olmuş və onların doqquzu da Əli əleyhissəlamın qılıncı ilə qətlə yetirilmişdir.»[1]

Həmçinin ibn Əsir yazır:«Qüreyşin bayraqdarlarını həlak edən Əli (əleyhissəlam) idi.»[2]

Mərhum Şeyx Səduq rəvayət edir ki, Əli (əleyhissəlam) Ömərin ölümündən sonra xəlifə təyin etmək üçün təşkil olunmuş altı nəfərlik şurada öz rəqiblərinə meydan oxuyaraq bu məsələyə toxunub buyurmuşdur: *«Sizi and verirəm Allaha, deyin görüm, burada (bu altı nəfərin arasında) Ühüd döyüşündə Bəni–Əbdüddar qəbiləsinin doqquz nəfər bayraqdarını məndən başqa öldürən varmı?»* Daha sonra İmam (əleyhissəlam) əlavə edib buyurdu: *«Bu doqquz nəfər bayraqdarın ölümündən sonra Bəni–Əbdüddar qəbiləsinin iri bədənli Səvəb adlı nökəri meydana çıxdı, ağzı köpüklənmiş, gözləri qanla dolmuş halda deyirdi ki, ağalarımın qisasını almaq üçün Məhəmmədən (səlləllahu əleyhi və alih) başqa heç kimi öldürməyəcəyəm. Siz onu görcək qorxub hərəniz bir kənara çəkildiniz. Ancaq mən onun döyüşünə getdim. Bizim aramızda iki tərəfli vuruş oldu. Mən ona, o da mənə zərbələr endirirdi. Nəhayət, mən ona elə bir zərbə endirdim ki, o, kəmərdən aşağı iki hissəyə bölündü.»*

Şura üzvləri hamı yekdilliklə Əli əleyhissəlamın dediklərini təsdiqlədilər.[3]

Qüreyş ordusu zəiflədi, bayraqdarları bir-birinin ardınca yerə sərildilər. Dağın başındakı yolu qoruyan oxatanlar bunu görüb qənimət ələ keçirtmək üçün yerlərini boşaldıb aşağı enmək istədilər. Onların başçısı Abdullah Peyğəmbərin (səlləllahu əleyhi və alih) tapşırığını bir daha onlara xatırlatdı. Ancaq onlar

[1] Əl-İrşad, səh.47.
[2] Əl-Kamilu fit-tarix (İbn Əsir), c.2, səh.154.
[3] Əl–Xisal, səh.560.

Abdullahın sözünə heç bir məhəl qoymayıb qırx nəfərdən çox oxatan qənimət ələ keçirtmək üçün dağdan aşağı endi. Abdullah isə on nəfərdən az oxatanla dağın başında qaldı.

Bu hadisəni müşahidə edən Xalid ibn Vəlid müsəlmanların dağın başındakı yolu gözdən buraxdıqlarını dərhal görüb bir dəstə ilə ora hücum edərək orada qalan beş-on nəfər oxatanı öldürdü və arxadan müsəlmanlara hücum etdi. Bunu görən Əmrə binti Əlqəmə adlı Qüreyşin müşrik qadınlarından biri Qüreyşin ayaq altına düşmüş bayrağını qaldıraraq döyüşçülərin ruhiyyəsini artırdı. Bundan sonra döyüşün gedişatı tamamilə dəyişdi. Müsəlmanların nizami sıraları bir-birinə dəydi. Səflər bir-birindən ayrıldı. Döyşçülərin baş komandanla əlaqəsi kəsildi. Beləliklə, müsəlmanlar məğlubiyyətə uğradılar. İslam mücahidlərinin təxminən yetmiş nəfəri, o cümlədən Həmzə ibn Əbdül Müttəlib (Peyğəmbərin (səlləllahu əleyhi və alih) əziz əmisi) və İslam ordusunun bayraqdarlarından biri Müsəb ibn Ümeyr şəhid oldular.

Digər tərəfdən döyüş meydanında müşriklər Peyğəmbərin (səlləllahu əleyhi və alih) öldürülməsi şayiəsini yaymaqla müsəlmanların bir çoxunun ruhiyyəsini zəiflətdilər. Bir tərəfdən Peyğəmbərin (səlləllahu əleyhi və alih) ölüm şayiəsi, digər tərəfdən isə müşriklərin yenidən hücuma keçməsi müsəlmanların əksəriyyətinin döyüş meydanından qaçmasına səbəb oldu. Döyüş meydanında Peyğəmbərin (səlləllahu əleyhi və alih) kənarında tək-tük adam qalmışdı. İslamın həssas və böhranlı anları gəlib çatmışdı.

Burada Həzrət Əli əleyhissəlamın rolu məlum oldu. Çünki Əli (əleyhissəlam) misilsiz şücaət və rəşadətlə Peyğəmbərin (səlləllahu əleyhi və alih) kənarında vuruşur və İslamın müqəddəs və ulu rəhbəri Həzrət Məhəmmədi (səlləllahu əleyhi və alih) müşriklərin amansız və ardıcıl hücumlarından qoruyurdu.

İbn Əsir öz kitabında yazır: «Peyğəmbər (səlləllahu əleyhi və alih) hücum etmək məqsədində olan bir dəstə müşriki görüb Əli əleyhissəlama əmr etdi ki, onlara hücum etsin. Əli (əleyhissəlam) Peyğəmbərin (səlləllahu əleyhi və alih) əmrilə onlara hücum edərək bir neçəsini öldürməklə onları bir-birindən ayırdı. Sonra Peyğəmbər (səlləllahu əleyhi və alih) başqa bir dəstə görüb yenə Əli əleyhissəlama onlara hücum etməyi əmr etdi. Əli (əleyhissəlam) da onların bir neçəsini öldürərək onları bir-birinin ətrafından dağıtdı. Bu zaman vəhy mələyi Peyğəmbərə (səlləllahu əleyhi və alih) nazil olub dedi: *"Əli (əleyhissəlam) son dərəcə şücaət göstərir."* Peyğəmbər (səlləllahu əleyhi və alih) ona buyurdu: *"O məndən, mən də ondanam."* Bu vaxt göydən belə bir səs eşidildi: *«La seyfə illa Zulfiqar və la fəta illa Əli.»* (Zülfiqardan başqa heç bir qılınc və Əlidən başqa heç bir cavan yoxdur.)[1] »

[1] Əl-Kamilu fit-tarix, c.2, səh.154.

İbn Əbil Hədid yazır: «Elə ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələrinin çoxu qaçmağa başladı, müşriklər peyğəmbərə hücumlarını artırdılar. Bəni–Kənanə qəbiləsindən bir dəstə, Bəni–Əbd Mənat dəstəsindən də digər bir dəstə Peyğəmbərə (səlləllahu əleyhi və alih) tərəf hücum etdilər. Onların arasında dörd adlı-sanlı pəhləvan gözə dəyirdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlama əmr etdi ki, bunların hücumunun qarşısını alsın. Əli (əleyhissəlam) piyada vuruşurdu. Əlli nəfərdən ibarət olan bu dəstəyə hücum edib onları bir-birindən ayırdı. Onlar bir neçə dəfə birləşib Peyğəmbərə (səlləllahu əleyhi və alih) hücum etmək istəsələr də, ancaq Əli əleyhissəlamın müqavimətini qıra bilmədilər. Bu hücumlarda yuxarıda qeyd etdiyimiz dörd pəhləvan və tarixdə adları məlum olmayan digər on nəfər Əli əleyhissəlamın qılıncı ilə yerə sərildilər.

Cəbrail Peyğəmbərə dedi: *"Əli (əleyhissəlam) doğrudan da sənə çox kömək edir. Mələklər bu cavanın sənə etdiyi köməkdən (göstərdiyi şücaətdən) heyran qalmışlar."* Peyğəmbər (səlləllahu əleyhi və alih) Cəbrailə buyurdu: *"Nəyə görə də belə olmasın? O məndən, mən də ondanam."* Cəbrail dedi: *"Mən də sizdənəm."* Həmin gün asimandan belə bir səs eşidilirdi: *«La seyfə illa Zulfiqar və la fəta illa Əli.»* (Zülfiqardan başqa heç bir qılınc və Əli əleyhissəlamdan başqa heç bir cavan yoxdur.) Bu cümlə dəfələrlə təkrar edilirdi. Səs eşidilir, ancaq deyən görünmürdü. Peyğəmbərdən (səlləllahu əleyhi və alih) soruşdular ki, bunu deyən kimdir? Cavab verdi ki, Cəbrail.[1]

## 3) Əli (əleyhissəlam) «Əhzab» (Xəndək) döyüşündə

Əhzab[2] döyüşü adından da məlum olduğu kimi İslamın müxtəlif düşmənlərinin əl-ələ verib təzəcə çiçəklənmiş İslamı aradan aparmaq istədikləri döyüşdür.

Bəzi tarixçilər bu döyüşdə iştirak edən kafirlərin sayının on mindən çox olduğunu bildirmişlər. İslam ordusu isə cəmi üç min nəfər idi.

Bu döyüşün rəhbərliyini öhdələrinə götürmüş Qüreyş başçıları öz ordularının say çoxluğunu və əllərində olan çoxlu döyüş avadanlıqlarını nəzərə alaraq belə güman edirdilər ki, bu döyüşlə onlar müsəlmanları tamamilə məhv edəcək və Məhəmmədi (səlləllahu əleyhi və alih) aradan götürməklə onun və silahdaşlarının əlindən bir dəfəlik yaxa qurtaracaqlar.

Kafirlərin hərəkət xəbəri Peyğəmbərə (səlləllahu əleyhi və alih) çatdırıldıqda, Peyğəmbər (səlləllahu əleyhi və alih) nizami şura təşkil etdi. Bu şurada Salman Farsi belə təklif etdi ki, Mədinənin kənarında xəndək qazıb kafirlərin şəhərə girməsinə mane olsunlar. İrəli sürülən bu təklif hamı tərəfindən razılıqla qarşılandı. Bir neçə gün müddətində müsəlmanların göstərdiyi işgüzarlıq nəticəsində xəndək hazır oldu. Xəndəyin eni elə idi ki, düşmən atlıları onu keçə

---

[1] Şərhi-Nəhcül-bəlağə, c.14, səh. 250-251; Mənaqibi Xarəzmi, səh. 223.

[2] Əhzab hizb sözünün cəmi olub dəstələr,qruplar mə'nasını ifadə edir.

bilməzdilər. Dərinliyi də elə idi ki, onun içinə düşən asanlıqla qırağa çıxa bilməzdi.

Kafirlər yəhudilərin köməyi ilə gəlib şəhərin kənarına çıxdılar. Onlar güman edirdilər ki, əvvəlki (Bədr və Ühüd döyüşlərində olduğu) kimi yenə müsəlmanlarla Mədinə şəhərinin kənarında üzləşəcəklər. Ancaq onlar bu dəfə şəhərin kənarında müsəlmanlardan əsər-əlamət görməyib Mədinəyə tərəf irəliləməyə başladılar. Şəhərə çatanda, şəhər kənarında qazılmış enli və dərin xəndək onları təəccübləndirdi. Çünki onlar o vaxta qədər ərəb müharibələrində xəndəkdən istifadə etməyi görməmişdilər. Məcbur olub xəndəyin kənarından Mədinə şəhərini mühasirəyə aldılar.

Bəzi rəvayətlərə görə Mədinə şəhəri bir ay mühasirədə qaldı.

Qüreyş əsgərləri nə vaxt xəndəyi keçmək fikrinə düşürdülərsə, müsəlmanların xəndəkdə qoyduqları yaxın fasiləli gözətçilərlə üzləşməli olurdular. Müsəlmanlar ox və daş atmaqla onların ehtimal olunan bütün hücumlarının qarşısını alırdılar. Hər iki tərəfin ox atması gecə-gündüz davam edirdi. Ancaq tərəflərin heç biri digərinə üstün gələ bilmirdi.

Digər tərəfdən Mədinənin belə bir ordunun mühasirəsində qalması müsəlmanların bir çoxunun ruhiyyəsini zəiflətmişdi. Üstəlik Mədinənin daxilində yaşayan yəhudilərin, Bəni–Qüreyzə tayfasının əhdinə vəfasız çıxması və kafirlər xəndəyi aşdıqdan sonra düşmən ordusuna birləşərək arxadan müsəlmanlara hücum edəcəyi planı məlum olduqdan sonra müsəlmanların ruhiyyəsi daha da zəiflədi.

## Həssas və böhranlı günlər

Qurani-Məcid müsəlmanların bu mühasirədəki çətin və böhranlı vəziyyətini «Əhzab» surəsində çox gözəl şəkildə bəyan etmişdir:

***«Ey iman gətirənlər! [Xəndək, yaxud Əhzab vuruşunda Qüreyş, Qətfan və yəhudilərin Bəni-Nəzir qəbilələrindən təşkil olunmuş] ordular sizin üstünüzə gəldiyi zaman Allahın sizə olan nemətini yada salın. O vaxt Biz onların üstünə külək və sizin görmədiyiniz [mələklərdən ibarət] qoşun göndərmişdik. Allah o zaman sizin nə etdiyinizi görürdü. O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən [vadinin üst və alt tərəfindən] hücum etmiş və [qorxudan] gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşmüşdünüz. [Möminlər Allahın Öz vədinə doğru olduğuna inanır, münafiqlər və etiqadı zəif olanlar isə Məhəmmədin bu bəladan xilas ola bilməyəcəyini güman edirdilər]. Məhz onda [Xəndək vuruşunda] möminlər imtahana çəkilmiş [kimin həqiqi mömin, kimin münafiq olduğu bəlli olmuş] və möhkəm sarsılmışdılar. O zaman münafiqlər və qəlblərində mərəz [şəkk] olanlar: «Allah və Onun peyğəmbəri bizə yalan vəd etmişdir. [Biz zəfər çala bilməyəcəyik]» –deyirdilər. O zaman onlardan biri: «Ey Yəsrib [Mədinə] əhli!***

***[Burada] sizin üçün duracaq bir yer yoxdur, [evinizə] qayıdın!»-demişdi. Başqa bir dəstə isə: «Evlərimiz açıqdır [kimsəsizdir, oğru girməsindən qorxuruq]»-deyə [geri qayıtmaq üçün] Peyğəmbərdən izn istəyirdi. Həqiqətdə isə evləri açıq [kimsəsiz] deyildi. Onlar ancaq [döyüşdən] qaçmaq istəyirdilər. Əgər [Mədinənin] hər tərəfindən üstlərinə yüyürülüb [cumulub] onlardan fitnə törətmək [imandan dönmək, yenidən müşrikliyə qayıtmaq] istənilsəydi, sözsüz ki, dərhal onu edər və bunda [bu işdə] azacıq da olsa yubanmazdılar.»***[1]

Ancaq müsəlmanların bu çətinliyinə baxmayaraq xəndək, kafirlərin hücumunun qarşısını alırdı və onlar (kafirlər) vəziyyətin bu cür davam etməsinə davam gətirə bilmirdilər. Çünki hava üzü soyuğa gedirdi və digər tərəfdən də kafirlərin özləri və heyvanları üçün gətirdikləri yemək qurtarmaq üzrə idi. Onlar Bədr, Ühüd kimi kiçik müddətli döyüş üçün tədarük hazırlamışdılar. Ancaq mühasirə uzun çəkdiyindən və müsəlmanların müqavimətini uzun müddət qıra bilmədiklərindən yeməkləri yavaş-yavaş qurtarır və az qalırdı ki, vuruşmaq fikrindən daşınıb geri qayıtsınlar. Ruhiyyələri get-gedə zəifləyirdi. Nəhayət ordu başçıları belə qərara gəlirlər ki, cəsur və şücaətli pəhləvanlar nəyin bahasına olursa–olsun birtəhər xəndəyi aşıb o tərəfə keçsinlər. Bəlkə bununla müsəlmanların müqavimətini qıra bilələr. Beləliklə, kafirlərin qəhrəmanlarından beşi atlarını xəndəyin kənarında oynadaraq xəndəyin ensiz hissəsindən o biri tərəfə atılırlar. Xəndəyi aşdıqdan sonra təkbətək döyüşmək üçün rəqib istədilər.

Bu pəhləvanlardan biri ərəblərin ən qüdrətli, ən şücaətli cəngavəri olan Əmr ibn Əbdəvəd idi. Ərəblər onu min döyüşçüyə bərabər sanırdılar. O, Yəlyəl adlı bir yerdə bir orduya təkbaşına qalib gəldiyi üçün onu «Yəlyəl atlısı» (Yəlyəl qəhrəmanı) adlandırmışdılar. O, Bədr döyüşündə yaralandığı üçün Ühüd döyüşündə iştirak edə bilməmişdi. İndi Xəndək vuruşuna gəlmişdi ki, öz şücaətini göstərsin.

Əmr ibn Əbdəvəd xəndəyi aşdıqdan sonra vuruşmağa rəqib tələb etdi. Onunla vuruşmağa heç kimin çıxmadığını görüb bir az ürəkləndi və müsəlmanların əqidələrinə istehza (rişxənd) məqsədilə toxunub dedi: «Siz ki, deyirsiniz sizin ölülər Cənnətə, bizimkilər isə Cəhənnəmə gedir, onda sizdən biri gəlsin mən onu Cənnətə göndərim, ya da o məni Cəhənnəmə göndərsin.» Sonra bir az rəcəz (nizami şer) oxuyub dedi: «Sizin aranızdan bir rəqib tələb etmək üçün o qədər qışqırıb «mənimlə vuruşan varmı?» dedim ki, səsim tutuldu.»

Əmrin qışqırığı müsəlmanların ürəyinə elə qorxu salmışdı ki, yerlərində quruyub qalmışdılar və tərpənməyə belə cürət etmirdilər. Hər dəfə Əmr qışqırıb rəqib istədikdə, yalnız Əli (əleyhissəlam) ayağa qalxıb Peyğəmbərdən (səlləllahu əleyhi və alih) vuruşmaq üçün izn istəyirdi. Ancaq Peyğəmbər (səlləllahu əleyhi və alih) ona izn vermirdi. Əli (əleyhissəlam) üç dəfə ayağa qalxdı, lakin

---

[1] "Əhzab" surəsi, ayə 9-14.

Peyğəmbər (səlləllahu əleyhi və alih) razılıq vermədi. Əli (əleyhissəlam) bir daha icazə istədikdə Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlama buyurdu: «Əli! Bu Əmr ibn Əbdəvəddir!» Əli (əleyhissəlam) da dedi ki, ya Rəsuləllah, mən də Əliyəm![1] Nəhayət Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlama izn verdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) öz qılıncını Əli əleyhissəlama verib öz əmmaməsini onun başına bağlayaraq onun üçün dua etdi.

Əli (əleyhissəlam) meydana gedərkən Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: *«İndi bütün İslam bütün şirklə (müşrikliklə) üz-üzə gəlir.»*[2]

Bu hədisdən asanlıqla məlum olur ki, bu iki nəfərdən birinin digərinə qalib gəlməsi imanın şirkə, yaxud da şirkin imana qalib gəlməsidir. Başqa sözlə desək, bu döyüş çox həlledici rol oynayırdı. Belə ki, İslamın, yaxud şirkin gələcək taleyi bu döyüşdən asılı idi.

Əli (əleyhissəlam) piyada meydana yollandı. Əmrlə üz-üzə gəldikdə ona dedi: "Sən söz vermişdin ki, Qüreyş tayfasından bir kişi səndən üç şey istəsə, onun birini yerinə yetirəcəksən." (Əli (əleyhissəlam) özü də Qüreyş tayfasından idi.)

Əmr dedi: "Düzdür."

Əli: "Mənim birinci istəyim budur ki, İslam dinini qəbul edib müsəlman olasan."

Əmr: "Bundan keç."

Əli: "Gəl Məhəmmədlə (səlləllahu əleyhi və alih) döyüşmək fikrini başından at, çıx get. Əgər Məhəmmədin (səlləllahu əleyhi və alih) dedikləri düz olarsa, onda sən onun vasitəsilə dünyanın ən səadətli insanı olacaqsan, yox əgər onun dedikləri yalan olarsa, onda sən dava etmədən də öz istəyinə nail olmuş olarsan."

Əmr: "Xeyr, Qüreyş qadınları belə fikirləşməyəcəklər. (Onlar mənim səndən qorxub meydandan qaçdığımı zənn edəcəklər.) Mən nəzir etmişəm ki, Məhəmməddən (səlləllahu əleyhi və alih) intiqamımı almayınca başıma yağ çəkməyəcəyəm."[3]

Əli: "Elə isə onda atdan düş mənimlə vuruşaq."

Əmr: "Heç güman etməzdim ki, bir ərəb məndən belə istək diləsin. Mən istəmirəm sən mənim əlimlə qətlə yetiriləsən. Çünki atanla dostluq etmişəm. Qayıt get, sən hələ cavansan."

Əli: "Ancaq mən səni öldürmək istəyirəm."

Əmr Həzrət Əli əleyhissəlamın bu sözündən qəzəblənib atdan yerə endi və qəzəbindən dərhal atın qıçlarını kəsdi. Əli əleyhissəlamın üstünə hücum etdi. Gərgin döyüş başladı. Hər iki cəngavər bir-birinə zərbələr endirirdilər. Əmr fürsət tapıb Əli əleyhissəlamın başına güclü bir zərbə endirdi. Həzrət Əli (əleyhissəlam)

---

[1] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.13, səh.284.

[2] Biharul-ənvar, c.20, səh.215.

[3] O vaxt ərəblərdə başlarına yağ çəkmək adət idi.

özünü müdafiə etmək üçün qalxanı başına tutdu. Lakin qalxan iki yerə bölündü və Əli əleyhissəlamın başı yaralandı. Həzrət Əli (əleyhissəlam) da fürsətdən istifadə edib Əmrə güclü zərbə endirdi. Həmin zərbə nəticəsində Əmr yerə sərildi. Döyüş meydanında qalxmış toz-torpaq hər iki qoşuna öz döyüşçülərinin vuruşunu öz gözlərilə izləməyə mane olurdu. Birdən Əli əleyhissəlamın təkbir (Allahu əkbər) səsi göyə ucaldı.

İslam ordusu sevincindən fəryad edirdi. Hamı bildi ki, Əli (əleyhissəlam) ərəblərin ən məşhur pəhləvanını öldürmüşdür.[1]

Əmrlə birgə xəndəkdən aşmış digər dörd pəhləvan meydanda durub Əli əleyhissəlamla Əmrin mübarizəsinin nəticəsini gözləyirdilər. Elə ki, onlar Əmrin öldürüldüyünü gördülər, qaçmağa üz tutdular. Onlardan üçü xəndəyi aşıb öz ordularına qoşula bildi. Lakin onlardan biri – Nofəl adlı pəhləvan xəndəyi keçərkən yıxılıb xəndəyə düşdü. Əli (əleyhissəlam) xəndəyə qayıdıb onu da öldürdü.

Əmrin ölməsi düşmənin ruhiyyəsinin zəifləməsinə səbəb oldu. Onlar artıq Mədinəyə hücum etmək fikrindən daşınıb naümid olaraq hər qəbilə öz yurduna dönmək fikrinə düşdü.

Düşmənə sonuncu zərbəni Allah-taala güclü külək və tufanla endirdi. Düşmən naçar qalıb öz vətəninə dönməli oldu.[2]

İslam peyğəmbəri Əli əleyhissəlamın o gün göstərdiyi şücaət münasibətilə ona buyurdu: *«Əgər sənin bu gün gördüyün işi ümmətimin bütün əməlləri ilə müqayisə etsələr, sənin gördüyün bu iş onlardan üstün olacaq. Çünki Əmrin ölümü ilə müşriklərin bütün evləri zillətlə, müsəlmanların bütün evləri isə izzətlə doldu.*[3]

Sünni məzhəbinin görkəmli hədis söyləyəni Hakim Nişaburi Peyğəmbərin (səlləllahu əleyhi və alih) bu ifadəsini aşağıdakı şəkildə qeyd etmişdir:

*«Ləmubarəzətu Əliyy ibn Əbitalib li Əmr ibn Əbdəvəd yəvməl xəndəqi əfzəlu min əmali ümməti ila yəvmil qiyaməh.» «Xəndək döyüşündə Əli ibn Əbutalibin Əmr ibn Əbdəvədlə mübarizəsi mənim ümmətimin Qiyamətədək edəcəkləri əməllərin hamısından üstündür.»*[4]

Bu sözün fəlsəfəsi məlumdur. O gün İslam və Quran nizami səhnədə məhv olmaq həddinə yetişmiş və özünün ən böhranlı anlarını yaşayırdı. Həmin gün öz misilsiz şücaətilə İslama nicat verib onun Qiyamətədək yaşamasını təmin edən və İslamı öz şücaətilə rişələndirən şəxs Əli ibn Əbutalib olmuşdur. Deməli, bütün

---

[1] Əl-Məğazi, c.2, səh.471.

[2] Bu hadisə müxtəlif mənbələrdə qeydə alınmışdır:
Biharül ənvar, c. 20, səh. 203-206; Xisal (təshih) səh. 560; Sirətün-nübüvvə (təhqiq), c. 3, səh. 236; Əl-kamil fit-tarix, c. 2, səh. 181; İrşad, səh. 54; Şərhi Nəhcül-Bəlağə, c. 19, səh. 62-64.

[3] Biharul ənvar, c.20, səh.216.

[4] Əl-Mustədrəku ələs-səhiheyn, c.3, səh.32.

ümmətin ibadəti onun sayəsində həyata keçir və bu yolda hamı Əli əleyhissəlama borcludur.

## 4) Əli - Xeybər qalasının fatehi

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) hicrətin yeddinci ili belə qərara gəlir ki, Mədinənin kənarındakı Xeybər qalasının yəhudilərinə hücum etsin. Peyğəmbərin (səlləllahu əleyhi və alih) bu işə əl atmasının iki səbəbi var idi:

**1)** Xeybər qalası yenicə çiçəklənməkdə olan İslam hökuməti üçün fitnə-fəsad mərkəzinə çevrilmişdi. Bu qalanın yəhudiləri dəfələrlə İslam düşmənlərilə əl-ələ verib Mədinəyə hücum etmişdilər. Xüsusilə onların xəndək döyüşündə böyük rolu olmuşdu.

**2)** O zamanlar dünyanın ən böyük imperiyaları olan İran və Roma imperiyalarının bir-biri ilə uzun-uzadı müharibə etmələrinə baxmayaraq İslamın üçüncü bir qüdrətli dövlət kimi meydana çıxması onlar üçün dözülməz idi. Buna görə də, Xeybər yəhudiləri bu iki imperiya ilə əl-ələ verib İslamın əleyhinə yürüşlər edə bilər, yaxud müşrikləri təzə müsəlmanların əleyhinə qızışdırıb döyüşdürdükləri kimi bu iki böyük imperiyanı da cavan İslama qarşı döyüşə qaldırardılar.

Bu iki məsələ Peyğəmbərin (səlləllahu əleyhi və alih) min altı yüz nəfərlik bir ordu ilə Xeybər qalasına hücum etməsinə səbəb oldu.

Xeybər qalaları böyük divarlara və çoxlu müdafiə qurğularına malik idi və yəhudilərin döyşçüləri onları möhkəm qoruyurdular. İslam ordusunun döyüşçülərinin şücaəti nəticəsində qalalar çətinliklə də olsa, bir-birinin ardınca süqut edirdi. Lakin ən böyük və ən güclü pəhləvanların yığıldığı Qəmus qalası hələ də müqavimət göstərirdi. İslam mücahidləri nə qədər cəhd göstərsələr də, o qalanın müqavimətini qıra bilmədilər. Peyğəmbər (səlləllahu əleyhi və alih) möhkəm başağrı nəticəsində özü bilavasitə döyüş səhnəsində iştirak edə bilmir və orduya birbaşa başçılıq etmirdi. Buna görə də, Peyğəmbər (səlləllahu əleyhi və alih) hər gün bayrağı bir nəfərin əlinə verib qalanı fəth etməyi ona tapşırırdı. Ancaq onlar heç bir nəticə almadan geri dönürdülər. Bir gün Peyğəmbər (səlləllahu əleyhi və alih) bayrağı Əbu Bəkrin əlinə, səhəri gün isə Ömərin əlinə verib onları qalaya tərəf göndərdi. Ancaq onlar heç bir qələbə qazanmadan geri döndülər.

Vəziyyətin bu cür gedişinə Peyğəmbər (səlləllahu əleyhi və alih) tab gətirə bilmirdi. İşin belə olduğunu görən Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: *«Sabah bu bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah-taala o qalanı həmin şəxsin əli ilə fəth edəcək. O elə bir şəxsdir ki, Allahı və peyğəmbəri sevir, Allah və Peyğəmbər də onu sevirlər.»*[1]

[1] Əl-İstiab fi mə’rifətil-əshab, c.3, səh.36.

O gecə Peyğəmbərin (səlləllahu əleyhi və alih) bütün səhabələri fikirləşirdilər ki, görəsən Peyğəmbər (səlləllahu əleyhi və alih) bayrağı sabah kimə verəcək? Səhər olcaq səhabələr Peyğəmbərin (səlləllahu əleyhi və alih) çadırının qarşısında durub hamı ümid edirdi ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) bayrağı ona verəcək. Bu zaman Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: «Əli haradadır?» Səhabələr cavab verdilər ki, o, gözü ağradığı üçün istirahət edir. Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: «Əlini bura gətirin!» Əli (əleyhissəlam) gəldikdə, Peyğəmbər (səlləllahu əleyhi və alih) onun gözünün sağalması üçün dua etdi. Peyğəmbərin (səlləllahu əleyhi və alih) duası nəticəsində Əli əleyhissəlamın gözü sağaldı. Sonra Peyğəmbər (səlləllahu əleyhi və alih) bayrağı ona verdi. Əli (əleyhissəlam) dedi: “Ya Rəsuləllah! Onlarla İslamı qəbul edənə qədər vuruşacağam.” Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: “İndi ora get! Elə ki qalaya yetişdin əvvəl onları İslama dəvət et, onların Allah-taala qarşısında olan vəzifələrini (İslam dininə itaət etməyi) onlara xatırlat! And olsun Allaha ki, bir nəfərin sənin dəvətinlə müsəlman olmasının xeyri sənin qırmızı tüklü dəvələrə yiyələnməyindən üstündür.[1] ” (Qırmızı tüklü dəvə ən qəşəng və ən baha dəvədir.) (Səhihi-Müslim, c.7, səh121)

Əli (əleyhissəlam) bu vəzifəni yerinə yetirmək üçün qalaya tərəf yollandı və o möhkəm və qüdrətli qalanı misli görünməmiş bir şücaətlə fəth etdi.

## Peyğəmbərin (səlləllahu əleyhi və alih) xüsusi nümayəndəsi

İyirmi ildən artıq idi ki, İslam dini Hicazda ərəblərin müşrik qəbilələri arasında şirk və bütpərəstliyin ziddi olaraq yayılmışdı. Bu müddətdə ərəblərin demək olar ki, hamısı İslamın büt və bütpərəstlik haqqındakı məntiqindən xəbərdar olmuş və bilirdilər ki, bütpərəslik əcdadlardan kor-korana təqlid etməkdən başqa bir şey deyil, onların (əcdadların) sitayiş etdiyi bütlər o qədər ləyaqətsizdirlər ki, nəinki başqaları üçün bir iş görə bilməzlər, hətta özlərindən belə təhlükəni uzaqlaşdırmağa qadir olmayıb yaxud da özlərinə bir xeyir yetirə bilməzlər. Ona görə də, bu cür ləyaqətsiz bütlərə sitayiş etməyə dəyməz.

Vicdanı ayıq və qəlbi təmiz olanlar Peyğəmbərin (səlləllahu əleyhi və alih) sözlərini eşitməklə öz həyatlarında böyük dəyişikliklər etdilər və bütpərəstlikdən əl götürüb tövhidə (təkallahlığa) tərəf gəldilər. Xüsusən Peyğəmbər (səlləllahu əleyhi və alih) Məkkəni fəth etdikdən sonra din təbliğatçıları dini aşkar şəkildə azad bir mühitdə təbliğ etməyə başladılar. Nəticədə Hicazın bir çox şəhər, qəsəbə və kəndlərində bütlər sındırıldı və ürəkaçan tövhid və haqq nidası hər tərəfdə eşidilməyə başladı. Ancaq inadkar və nadan insanlar öz keçmiş adət-ənənələrindən əl çəkə bilmir və bütpərəstlikdən əl götürmək onlara çox çətin

[1] Dəvə ərəblər üçün hər şey demək idi. Həm minik vasitəsi, həm yemək, həm də içmək idi. Bu ifadə bir nəfəri müsəlman etməyin nə qədər xeyirli olduğunu göstərir.

gəlirdi. Onlar öz vicdanlarının əksinə hərəkət edərək öz çirkin adətlərindən əl çəkmir və onlarla əxlaqi və ictimai pozğunluqlara səbəb olan bu cür işlərdən itaət edirdilər. Buna görə də, əziz Peyğəmbər (səlləllahu əleyhi və alih) hər cür bütpərəstlik və qeyri-insani hərəkətlərə qarşı nizami qoşun yeritməklə və qüdrətə arxalanmaqla əxlaqi və ictimai pozğunluqların mənşəyi olan, daha doğru desək, insaniyyət məqamının hörmətini aradan aparan bütpərəstliyi birdəfəlik məhv etmək istəyirdi.

Bununla həmzaman olaraq Quranın «Bəraət» (Tövbə) surəsi nazil oldu. Bu surənin nazil olması ilə əlaqədar Peyğəmbərə (səlləllahu əleyhi və alih) Allah-taalanın və peyğəmbərin müşriklərdən zəhləsi getdiyini dünyanın hər tərəfindən Məkkəyə gələn hacıların arasında həcc mərasimində elan etməsi tapşırılır. Uca səslə Hicaz müşriklərinə bildirilməlidir ki, dörd ay müddətində məsələni həll etsinlər. Əgər dönüb müsəlman olurlarsa, onda digər müsəlmanlara qoşulub İslamın maddi və mənəvi nemətlərindən bəhrələnəcəklər. Yox əgər öz inadkarlıqlarına davam edib bütpərəstlikdə qalsalar, onda dörd aydan sonra (haram aylar çıxdıqdan sonra) döyüşə hazırlaşsınlar. Bunu da bilsinlər ki, nə vaxt harada tutulsalar dərhal öldürüləcəklər.

«Bəraət» surəsi elə bir vaxtda nazil oldu ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) həcc mərasiminə getmək fikri yox idi. Çünki ondan bir il qabaq – Məkkənin fəth olunduğu ildə Allah evini ziyarət etmiş və bir də gələn il (sonralar bu ziyarət «Həccətül-vida» (vida həcci) adlandırıldı) həccə ziyarətə getmək istəyirdi. Buna görə də, Allahın hökmünü çatdırmaq üçün bir nəfəri Məkkəyə göndərməli idi. Peyğəmbər (səlləllahu əleyhi və alih) əvvəl Əbu Bəkri yanına çağırıb «Bəraət» surəsinin ilkin ayələrini ona öyrətdi və onu qırx nəfərlə Məkkəyə göndərdi. Tapşırdı ki, Qurban bayramı günü bu ayələri müşriklərə oxusun. Əbu Bəkr Məkkəyə təzəcə yola düşmüşdü ki, vəhy nazil olub Peyğəmbərə (səlləllahu əleyhi və alih) əmr edildi ki, bu xəbəri ya peyğəmbərin özü, ya da peyğəmbərdən olan bir nəfər müşriklərə çatdırmalıdır. Bu iki nəfərdən başqa heç kimin bu işə səlahiyyəti çatmır.

Vəhy baxımından Peyğəmbərdən (səlləllahu əleyhi və alih) olan və bu xəbərin çatdırılması ona həvalə olunan şəxs kim ola bilər? Vaxt ötmədən Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli əleyhissəlamı çağırtdırıb ona əmr etdi ki, Məkkəyə tərəf yola düşsün və yolda Əbu Bəkri görüb ayələri ondan alsın. Həmçinin, ona desin ki, peyğəmbərə vəhy gəlib bildirildi ki, bu ayələri ya Peyğəmbərin (səlləllahu əleyhi və alih) özü, ya da ondan olan bir nəfər müşriklərə oxumalıdır. Buna görə də, bu ayələri oxumaq mənə həvalə edilmişdir.

Əli (əleyhissəlam) Cabir və Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələrinin bir dəstəsi ilə Peyğəmbərə (səlləllahu əleyhi və alih) məxsus dəvəyə minib Məkkəyə yola düşdü. Əli (əleyhissəlam) yolda Əbu Bəkri görüb Peyğəmbərin (səlləllahu əleyhi və alih) buyurduğunu ona dedi. Əbu Bəkr də

ayələri Əli əleyhissəlama təhvil verdi. Əli (əleyhissəlam) Məkkəyə daxil olub zil-həccə ayının onu (Qurban bayramı günü) Cəmərəyi-Əqəbənin üstünə çıxıb uca səslə «Bəraət» surəsinin ilk ayələrini və Peyğəmbərin (səlləllahu əleyhi və alih) dörd maddədən ibarət xəbərdarlığını müşriklərə çatdırdı.[1]

Bunu eşidən müşriklər başa düşdülər ki, artıq onların cəmi dörd ay vaxtları qalıb ki, İslam hökumətinə qarşı öz münasibət və fikirlərini bildirsinlər.

Quran ayələri və Peyğəmbərin (səlləllahu əleyhi və alih) xəbərdarlığı müşriklərdə böyük təsir qoydu və dörd ay keçməmiş onlar dəstə-dəstə İslam dinini qəbul etdilər. Hicrətin onuncu ili qurtarmamış Hicazda bütpərəsliyin kökü kəsildi.

Əbu Bəkr ayələri Əli əleyhissəlama təhvil verdikdən sonra narahat halda Mədinəyə qayıtdı. Peyğəmbərin (səlləllahu əleyhi və alih) hüzuruna gəlib gileylənərək dedi: "Nə oldu ki, əvvəl məni bu iş (Allahın hökmünü müşriklərə çatdırmaq) üçün layiq gördün, bir az keçməmiş məni bu işdən saxladın? Bu barədə Allahdan bir hökümmü nazil oldu?"

Peyğəmbər (səlləllahu əleyhi və alih) cavab verdi ki, vəhy mələyi nazil olub bildirdi ki, bu iş üçün mənim özüm, ya da özümdən olan bir şəxsdən başqa heç kimin səlahiyyəti çatmır.[2]

## 4. Peyğəmbərin (s) vəfatından Əli əleyhissəlamın zahiri xilafətinədək

Bu bölməyə başlamazdan əvvəl xatırladırıq ki, İmamət məsələsi Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından (hicrətin on birinci ili səfər ayının iyirmi səkkizi) İmam Həsən Əskəri əleyhissəlamın vəfatınadək (hicrətin iki yüz altımışıncı ili rəbbiül-əvvəl ayı) təxminən dörd mərhələdən ibarətdir. Hər mərhələ İmamların dövrün hakiminə qarşı tutduqları mövqelərə əsasən bir sıra xüsusiyyətlərə malikdir. Bu dörd mərhələ aşağıdakılardır:

**1)** İmamın səbr etməsi və ya dövrün hakimləri ilə yola getməsi mərhələsi.

Bu mərhələ Əli əleyhissəlamın Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından (18-ci hicri ili) Əli əleyhissəlamın zahiri xilafətinə qədərki (35-ci hicri ili) dövrünü əhatə edir.

**2)** Əli əleyhissəlamın xilafət başına gəlməsi mərhələsi. Bu mərhələ Əli əleyhissəlamın dörd il doqquz ay, ondan sonra isə İmam Həsən əleyhissəlamın bir neçə aylıq xəlifəliyini əhatə edir. Bu mərhələnin az müddət olmasına baxmayaraq bu iki İmam (Əli (əleyhissəlam) və Həsən (əleyhissəlam)) bir çox çətinliklərlə

---

[1] Peyğəmbərin (səlləllahu əleyhi və alih) dörd maddədən ibarət xəbərdarlığı belə idi: **a)** Müşriklərin sazişi ləğv olunur. **b)** Müşriklərin həcc mərasimində iştirak etmək hüququ yoxdur. **v)** O vaxtadək müşriklər arasında adət olmuş lüt şəxslərin təvaf etməsi qadağan olunur. **q)** Müşriklərin Məscidül-hərama girməsi qadağandır.

[2] Ruhul-məani, c.1, ("Tövbə" surəsinin təfsiri).

üzləşmiş, İslamın müxtəlif düşmənləri tərəfindən təzyiqlərə məruz qalmışdır, ancaq bununla belə, bu mərhələ İslam hökumətinin ən parlaq mərhələsi hesab olunur.

**3)** Həqiqi İslam hökuməti və dövlət quruluşu qurmaq üçün aparılan az müddətli səylər mərhələsi. Bu mərhələ İmam Həsən əleyhissəlamın sülhündən (hicrətin qırx birinci ili) İmam Hüseyn əleyhissəlamın şəhadətinə qədər (hicrətin altımış birinci ili məhərrəm ayına qədər) olan iyirmi ili əhatə edir. İmam Həsən əleyhissəlamın sülhündən sonra şiənin yarımgizli işi başlamış və məqsədi, hökumətin münasib fürsətdə Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinə qaytarılması olan proqramlar hazırlanmışdı. Bu imkan elə də çətin şey deyildi. Yəni, Müaviyənin ölümündən sonra bu işi həyata keçirmək olardı.

**4)** Nəhayət dördüncü mərhələ həmin məqsədin və proqramların uzun müddət davam etməsi mərhələsi. Bu mərhələnin iki əsrə yaxın müxtəlif sahələrində bir sıra müvəffəqiyyətlər və uğursuzluqlar əldə olmuş, ideoloji işlərdə, yüzlərlə münasib taktikalarda və minlərlə ixlas və şücaətlə dolu işlərdə qəti uğurlar əldə edilmişdir.

## Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatı və İmamət məsələsi

Əli (əleyhissəlam) Peyğəmbərdən (səlləllahu əleyhi və alih) sonra İslam hökumətini idarə etmək üçün ən səlahiyyətli şəxs olmuşdur. İslam aləmində Peyğəmbərdən (səlləllahu əleyhi və alih) başqa heç kəs fəzilət, təqva, fiqh, hökumət (qəzavət), Allah yolunda cihad etmək və bu kimi gözəl xüsusiyyətlərdə Əli əleyhissəlama çatmazdı. Məhz bu üstünlüklərə görə Əli (əleyhissəlam) dəfələrlə Allah və Peyğəmbər tərəfindən müsəlmanların gələcək rəhbəri təyin olunmuşdu. Onların hamıdan əsası «Qədir Xum» hadisəsidir. Buna görə də, Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra ehtimal verilirdi ki, Əli (əleyhissəlam) hökumətə gələrək müsəlmanlara başçılıq edəcək. Ancaq heç də belə olmadı və xilafət yolu Peyğəmbərdən (səlləllahu əleyhi və alih) sonra tamamilə dəyişdi. Əli (əleyhissəlam) siyasi səhnədən və İslam hökumətinin idarə işlərindən uzaqlaşdırıldı.

## İki əsas yol ayrıcı

Əli (əleyhissəlam) İslam hökumətinin təhrif olunmasına heç vaxt dözə bilməzdi və bu cür işin qarşısında sakit durmağı da ar sayırdı. Dəfələrlə sübutlar və mətin ehticacları (meydan oxuması) ilə xəlifə və onun ətrafındakıları tənqid atəşinə tutaraq onlara öz etirazını bildirirdi. Ancaq tarix və hadisələrin sonrakı cərəyanı göstərdi ki, bunların heç bir faydası yoxdur. Xəlifə və onun ətrafındakılar öz vəzifələrindən möhkəm yapışmışdılar. Belə olduqda Əli (əleyhissəlam) iki əsas

yolayrıcında durmalı olur; Ya yeni hökuməti qanunsuz sayan öz həqiqi səhabələrinin və Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin həqiqi dostlarının köməyi ilə ayağa qalxmalı və qüdrətə arxalanaraq hökuməti ələ keçirməli, ya da bu vəziyyətə dözməli və mümkün olan qədər müsəlmanların müşkülatını həll etməli və öz vəzifəsini yerinə yetirməli idi. İlahi rəhbərlərin rəhbərlik məqamından məqsədləri vəzifəyə yetişmək deyil. Onların məqsədləri vəzifədən qat-qat üstün bir şeydir. Rəhbərin vücudu ona görədir ki, məqsədə çatmaqda səy etsin. Buna görə də, əgər bir gün rəhbər iki yolayrıcına çatıb vəzifə və məqsədin ikisindən birini buraxmalı olsa, gərək vəzifədən əl çəkib məqsədi vəzifədən üstün tutsun. Belə iki yolayrıcına çatan Əli (əleyhissəlam) ikinci yolu seçdi. O vəziyyətin gedişatı və İslam cəmiyyətinin vəziyyətini araşdırıb belə nəticəyə gəldi ki, əgər o, hökuməti ələ keçirmək üçün ayağa qalxıb mübarizə aparsa, Peyğəmbərin (səlləllahu əleyhi və alih) iyirmi üç il çəkdiyi bütün əziyyətlər heç olacaq, bu yolda tökülən bütün qanlar hədər gedəcək. Əli (əleyhissəlam) bu məsələyə «Şiqşiqiyyə» xütbəsində toxunaraq buyurur: *«Mən xəlifəlik vəzifəsindən əl çəkdim, ondan kənar oldum. Mən bu fikirdə idim ki, təkbaşına ayağa qalxıb özümün və camaatın haqqını müdafiə edim, yoxsa bu cür qaynar bir mühitdə və belə bir zülmətdə səbr edim? Bu mühit qocaları əldən salmış, cavanları isə qocaltmışdır. İmanlı kişiləri ömrünün son anlarına qədər əziyyətdə qalmağa vadar etmişdir. (Nəhayət) gördüm ki, səbr etmək ağıl və düşüncəyə daha yaxındır. Buna görə də, səbr etdim. Ancaq səbr edərkən gözünə tikan batmış, boğazına sümük qalmış şəxsə bənzəyirdim. Öz gözümlə görürdüm ki, mirasımı qəsb edirlər.»*[1]

Əli (əleyhissəlam) İslam hökumətinin özünün əsl yolundan çıxmaması və İslam dininin əsasını qorumaq üçün səbr etdiyinə başqa yerlərdə də işarə etmişdir. O cümlədən, Osman xəlifə seçilərkən şuranın rəyi Osmanın lehinə başa çatdıqdan sonra və o, xilafət başında oturduqdan sonra üzünü şuranın digər üzvlərinə tutub buyurdu: *«Mənim xəlifə olmağa hamıdan səlahiyyətli olduğumu hamınız yaxşı bilirsiniz. And olsun Allah-taalaya ki, müsəlmanların işi nə qədər öz qaydasındadır və nə qədər məndən başqasına zülm olunmursa, səbr edəcəyəm.»*[2]

## Daxili və xarici təhlükələr

Qeyd etdik ki, Əli (əleyhissəlam) qiyam edib xilafəti ələ keçirdiyi təqdirdə irəli çıxacaq təhlükələri nəzərə alıb səbr etməli oldu. Ola bilər biri fikirləşsin ki, o vaxt yenicə təməli qoyulmuş İslam hökuməti üçün hansı təhlükələr ola bilərdi?

[1] Nəhcül-Bəlağə (Sübhi Saleh), Xütbə 3.
[2] Nəhcül-bəlağə (Sübhi Saleh), Xütbə 74.

Bu sualın cavabını daxili və xarici təhlükələr və Əli əleyhissəlamın qiyam etməsinin qarşısını alan maneələrlə aydınlaşdırıb onları aşağıdakı şəkildə bəyan etmək olar:

**1)** Əgər Əli (əleyhissəlam) xilafəti ələ keçirmək üçün qiyam etsəydi, özünün həqiqi dostlarını və qəlbən o Həzrətin İmamətinə etiqadları olan bir çox yoldaşlarını mübarizə nəticəsində itirəcəkdi.[1] Həmçinin Həzrət silahdaşlarının az olduğunu qiyama qalxa bilmədiyinin səbəbləri kimi vurğulayaraq bir yerdə belə deyir: "Kaş, qırx nəfər cəsur adamım olaydı!..."[2] Bundan əlavə, Əli əleyhissəlamın xəlifə olmasına razılıq verməyən peyğəmbərin səhabələri də arada qırılacaqdılar. Bu dəstənin xilafət məsələsində Əli əleyhissəlamla müxalif olması, kinə və qərəz üzündən Əli əleyhissəlamın xəlifə olmasına razılıq verməməsinə baxmayaraq, onlar başqa işlərdə Əli əleyhissəlamla müxalif deyildilər. Bütpərəstlik, məsihiyyət və yəhudiliklə müqabil olan bu dəstənin ölümü ilə İslam çox zəifləyərdi. Əli (əleyhissəlam) əhdlərinə vəfasız çıxan Təlhə və Zübeyrin başlarına topladığı ordunu dağıtmaq üçün Bəsrəyə hərəkət edərkən bu məsələyə toxunaraq buyurmuşdur: *"Peyğəmbər (səlləllahu əleyhi və alih) dünyasını dəyişdikdən sonra Qüreyş eqoistcəsinə özlərini bizdən üstün sayıb rəhbərliyə hamıdan səlahiyyətli olduğumuz halda, bizi öz haqqımızdan məhrum etdilər. Mən gördüm bu işin müqabilində səbr etmək müsəlmanlar arasında təfriqə salıb boş yerə qan tökməkdən üstündür. Çünki camaat təzəcə müsəlman olmuş, din südlə dolub köpüklənmiş bir tuluğa bənzəyirdi. Balaca bir səhv, qəflət onu xarab edər və balaca bir insan onu dağıda bilərdi..."*[3]

**2)** Peyğəmbərin (səlləllahu əleyhi və alih) ömrünün sonlarında müsəlman olmuş bir çox qəbilə və tayfalar hələ lazım olan İslami təlimləri tam öyrənməmişdilər. İman nuru onların qəlbində hələ tam şəkildə təşəkkül tapmamışdı. Elə ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfat xəbəri onların arasında yayıldı, onların bir çoxu yenidən müşrik olub bütpərəstliyə qayıtdılar. Mədinədə İslam hökuməti ilə açıq-aşkar müxalifət etməyə başladılar, İslam vergilərini (xums, zəkat və s.) ödəməkdən boyun qaçırdılar. Hələ bu azmış deyə nizami ordu toplayıb Mədinəni möhkəm qorxuya da saldılar. Buna görə də, yeni qurulmuş İslam hökumətinin bunlara qarşı ilk tədbiri o oldu ki, müsəlmanlardan ibarət bir ordu təşkil olundu və müxaliflərin qiyamı müsəlman ordusunun səyi nəticəsində yatızdırıldı. (Əlbəttə, bu o demək deyil ki, yeni xəlifə Əbu Bəkrin gördüyü bütün işlər düzgün olmuşdur.)

İslamın əvvəlki düşmənlərinin qiyam qaldırıb İslam hökumətini hədələdiyi bir vəziyyətdə İmamın başqa bir bayraq qaldırıb qiyam etməsi əsla düzgün olmazdı.

---

[1] Şərhi Nəhcül-bəlağə, c.2, səh. 20.
[2] Şərhi Nəhcül-bəlağə, c.2, səh. 20; Bihaul-Ənvar, c. 30, səh. 15.
[3] Şərhi Nəhcül Bəlağə (İbn Əbil Hədid) c. 1, səh. 308; Biharül Ənvar, c. 29, səh. 633.

İmam Misir əhalisinə yazdığı məktubda bu məsələyə toxunaraq buyurmuşdur: *«And olsun Allaha, mən fikir eləməzdim və heç ağlıma belə gəlməzdi ki, ərəblər Peyğəmbərdən (səlləllahu əleyhi və alih) sonra İmamət və rəhbərliyi onun ailəsindən alsınlar, (başqa yerdə qərar versinlər, inanmazdım ki,) məni xilafətdən uzaqlaşdırsınlar. Məni narahat edən yalnız camaatın, filankəsin (Əbu Bəkrin) başına toplaşıb onunla beyət etmələridir. (Vəziyyəti belə görüb) əl saxladım. Hətta iş o yerə gəlib çıxmışdı ki, bir dəstənin dindən çıxıb Məhəmmədin (səlləllahu əleyhi və alih) dinini məhv etmək istədiklərini öz gözümlə gördüm. Belə olduqda qorxdum ki, əgər İslama və (hökumətə) müsəlmanlara kömək etməsəm, İslamın məhv olmasının şahidi olaram. Bunun müsibəti mənə xilafətdən uzaq düşməyimdən və sizlərə hakimlik etməkdən məhrum olmağımdan da baha başa gələrdi. Çünki bu, dünyanın bir neçə günlük faydasıdır, bir müddətdən sonra qurtarıb gedəcək. Necə ki, yolda görünən ilğım qurtarır və necə ki, buludlar aralanıb gedirlər. Belə olduqda mən ayağa qalxdım. Bununla da batil aradan getdi və din möhkəmcə yerində qaldı.»*[1]

Əli (əleyhissəlam) bu məsələyə xilafətə gəldiyi ilk günlərdə də toxunmuşdur. Abdullah ibn Cüneyd deyir: "Mən Əlinin xilafətinin ilk günlərində Məkkədən Mədinəyə gəldim. Gördüm bütün camaat Peyğəmbərin (səlləllahu əleyhi və alih) məscidində əyləşib İmamın gəlməsini gözləyir." Birdən Əli (əleyhissəlam) əlində qılınc evdən bayıra çıxdı. Bütün gözlər ona zilləndi. O, minbərdə əyləşib Allaha həmd-səna etdikdən sonra sözlərinə belə başladı: *«Ey camaat! Peyğəmbər (səlləllahu əleyhi və alih) bizim aramızdan getdikdən sonra belə fikirləşirdik ki, xilafət barəsində heç kəs bizimlə mübarizə etməyib bizim haqqımıza göz dikməyəcək. Çünki biz Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsi və onun varisi idik. Ancaq gözlədiyimizin əksinə olaraq camaatın bir dəstəsi bizim haqqımıza təcavüz edib xilafəti bizim əlimizdən aldı. Xilafət başqasının əlinə keçdi. And olsun Allaha, əgər müsəlmanlar arasında təfriqə yaranması, küfr və bütpərəstliyin bir daha İslam məmləkətinə qayıtması və İslamın məhv olması qorxusu olmasaydı, mən onlarla başqa cür rəftar edərdim.»*[2]

**3)** Dindən çıxmış şəxslərin qiyam etməsi təhlükəsindən başqa bir sıra yalançı peyğəmbərlərin, o cümlədən Müseyləmə, Tüleyhə və Səccah kimilərin meydana gəlməsi və hər birinin öz ətrafına dəstə toplayaraq Mədinəyə hücum etmək fikrində olmaları da bu təhlükələrdən biri idi. Ancaq müsəlmanların birləşib müqavimət göstərməsi nəticəsində bu təhlükə də sovuşdu.

**4)** Roma imperiyasının hücum etmə ehtimalı da digər tərəfdən müsəlmanlar üçün təhlükə yaratmışdı. Çünki o vaxta qədər müsəlmanlarla romalılar üç dəfə vuruşmuşdular və elə buna görə də, romalılar müsəlmanları özlərinə böyük

---

[1] Nəhcül-bəlağə, 62-ci məktub (Sübhi Saleh); Əl-ğarat, c. 1, səh. 306 çox cüz`i fərqlə.

[2] İbn Əbil Hədid, Şərhi Nəhcül-bəlağə, c.1, səh.307; İrşad (Şeyx Müfid) səh. 131.

təhlükə sanır və onlara hücum etmək üçün fürsət axtarırdılar. Əgər Əli (əleyhissəlam) xilafət uğrunda mübarizəyə qalxsaydı, müsəlmanlar arasında vətəndaş müharibəsi baş verər və daxili cəbhənin zəifləməsi nəticəsində romalılar üçün ən yaxşı əlverişli bir fürsət yaranardı.

Bu dörd məsələni nəzərə aldıqda, İmamın səbr etməyi mübarizədən üstün tutması və səbr etməklə, uzaqgörənliklə İslam cəmiyyətini böyük təhlükədən qurtarması yaxşı məlum olur.

Əgər Əli (əleyhissəlam) müsəlmanların birliyini istəməsəydi və həmçinin, onların ayrılması nəticəsində irəli gələn təhlükələrin qorxusu olmasaydı, heç vaxt xilafətin Peyğəmbərin (səlləllahu əleyhi və alih) həqiqi xəlifələrinin əlindən çıxıb başqalarının əlinə düşməsinə icazə verməzdi.

## Əli əleyhissəlamın xəlifələr dövründəki fəaliyyəti

Əli əleyhissəlamın xəlifələr dövründəki fəaliyyəti aşağıdakı sahələri əhatə edirdi.

**1)** Allah-taalaya ibadət, özü də Əli (əleyhissəlam) kimi bir şəxsiyyətə məxsus olan ibadət! Gör Əli (əleyhissəlam) necə ibadət edirmiş ki, ibadətlə məşhur olan İmam Səccad (əleyhissəlam) öz ibadətini Əli əleyhissəlamın ibadəti qarşısında heç hesab edir.

**2)** Quranın təfsiri və bir çox ayələrdəki müşküllərin həlli və İslam aləminin böyük təfsirçisi Abdullah ibn Abbas kimi tələbələr yetişdirmək;

**3)** Dünya alimlərinin, xüsusilə Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra onun dini barədə maraqlanan və Mədinəyə gəlib müsəlmanlara suallar verən yəhudi və məsihi alimlərinin suallarına cavab vermək; Bu suallara danışığında Tövrat və İncildən xəbərdar olması başa düşülən Əli əleyhissəlamdan başqa cavab verən tapılmırdı. Əgər bu suallara cavab verən tapılmasaydı, İslam aləmi rüsvay olardı. Elə ki, Əli (əleyhissəlam) onların suallarına qəti və qaneedici şəkildə cavab verirdi, Peyğəmbərin (səlləllahu əleyhi və alih) yerində oturmuş xəlifələrin üzü gülümsəyirdi.

**4)** İslamda o vaxtadək görünməyən yeni hadisələrin şəri hökmlərini bəyan etmək; Bəzi vaxtlar mühakimə və qəzavət elə dolaşıq olurdu ki, qazılar onun həllində aciz qalırdılar. Bu cür mühakimələrin həlli Əli əleyhissəlamın həyatının əsas məsələlərindən biri idi. Əgər səhabələrin içində Peyğəmbərin (səlləllahu əleyhi və alih) buyurduğuna görə, ümmətin ən biliklisi və qəzavət (mühakimə) işlərinə hamıdan yaxşı xəbərdar olan Əli (əleyhissəlam) kimi bir şəxsiyyət olmasaydı, İslamın ilk vaxtlarında bir çox məsələlər müəmmalı olaraq qalacaqdı.

Bu cür yeni məsələlərin irəli gəlməsi İslamın bütün məsələlərinə (istər kiçik olsun, istərsə də böyük) elmi olan Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra elmli və hər şeydən xəbərdar olan öz geniş elmi ilə ümməti səhv yönəlmələrdən və gümana, qiyasa əməl etməkdən qoruyan məsum bir İmamın

peyğəmbərin yerində olmasını tələb edirdi. Bu ləyaqət isə Peyğəmbərin (səlləllahu əleyhi və alih) bütün səhabələrinin etirafına əsasən, Əli əleyhissəlamdan başqa heç kəsdə yox idi.

Əli əleyhissəlamın qəzavətləri və onun Quran ayələrindən çıxardığı gözəl yeniliklər hədis və tarix kitablarında öz yerini tapıb. Bəzi alimlər bunlar haqqında ayrıca kitablar yazmışlar.

**5)** Ruhu təmiz, pak və seyri-süluk üçün hazır olan insanları təlim-tərbiyə etmək; Bu yolla onlar İmamın mənəvi rəhbərliyi sayəsində mənəvi kamal qüllələrini fəth edir və zahiri gözləri ilə görə bilmədiklərini batini və mənəvi gözlə görürdülər.

**6)** Bir çox kimsəsizlər və kasıbların dolanışığını təmin etmək; Hətta İmam öz zəhməti ilə bağlar salıb, quyular qazıb onları vəqf edirdi.

**7)** Xilafətdə olanlar siyasi məsələ və ya başqa işlərdə çətinliklə rastlaşıb çıxılmaz vəziyyətə düşdükdə, etimadlı məşvərətçi kimi yalnız Əli əleyhissəlamı görürdülər. Əli (əleyhissəlam) özünəməxsus həqiqət görünüşü ilə müşkülatı həll edir və yolu təyin edirdi. Bu məşvərətlərin bəziləri Nəhcül-bəlağədə və başqa tarix kitablarında gəlmişdir.

## ƏlI (əleyhIssəlam) və xəlIfələrIn elmI və sIyasI müşkülatının həllI

Tarix şahiddir ki, Əbu Bəkr və Ömər öz xəlifəlik dövrlərində siyasi, maarif, əqaid, (əqidələr) Quranın təfsiri, İslami məsələlərin əsl və fərlərində Əli əleyhissəlama müraciət edirdilər və İmamın bu barədə verdiyi məşvərətlərdən, yol göstərmələrindən bəhrələnirdilər. İndi bunların bir neçəsini oxucuların nəzərinə çatdırırıq.

## Romalılarla müharIbə

Yeni İslam hökumətinin əsas düşmənlərindən biri Roma imperiyası olmuşdur. Roma daima İslamı Şimal tərəfdən hədələyirdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) ömrünün son anlarınadək Roma imperiyasının təhlükəsindən qafil olmamışdı. Hətta bir dəfə hicrətin səkkizinci ilində Cəfəri-Təyyarın başçılığı ilə Şam istiqamətində bir ordu da göndərmişdi.Ancaq İslam ordusu üç başçısını və bir çox əsgərini itirərək heç bir nəticə almadan Mədinəyə qayıtmışdı. Sonradan bu məğlubiyyətin əvəzini çıxmaq məqsədilə hicrətin doqquzuncu ili Peyğəmbər (səlləllahu əleyhi və alih) böyük bir ordu ilə Təbuk məntəqəsinə tərəf getdi. Ancaq müsəlmanlar düşmənlə rastlaşmadan Mədinəyə qayıtdılar. Bu səfərin bir sıra parlaq nəticələri oldu. Tarixdə bunların hamısı qeyd olunmuşdur. Romalıların hücum təhlükəsi həmişə Peyğəmbərin (səlləllahu əleyhi və alih) fikrini cəlb edirdi. Bu cəhətdən Peyğəmbər (səlləllahu əleyhi və alih) ömrünün son anlarında xəstə olarkən müsəlmanlardan ibarət bir ordu təşkil edib Şama tərəf göndərdi. Bu

ordu bir sıra səbəblər üzündən Mədinədən çıxmadı. Ordu Mədinənin bir neçə kilometrliyində olarkən Peyğəmbər (səlləllahu əleyhi və alih) dünyasını dəyişdi.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra Mədinənin siyasi vəziyyəti Əbu Bəkrin xəlifə seçilməsi ilə keçirdiyi böhrandan sonra sakitləşdi. Xilafəti ələ keçirən Əbu Bəkr Peyğəmbərin (səlləllahu əleyhi və alih) fərmanını (romalılarla döyüş fərmanını) yerinə yetirməkdə ikiürəkli idi. (Yəni, bilmirdi romalılarla vuruşsun, yoxsa vuruşmasın.) Buna görə də, səhabələrin bir dəstəsini toplayıb onlarla məsləhət etdi. Hərə bir təklif irəli sürdü. Ancaq bunların heç biri Əbu Bəkri qane etmədi. Nəhayət Əbu Bəkr Əli əleyhissəlamla məsləhət etdi. Əli (əleyhissəlam) onu Peyğəmbərin (səlləllahu əleyhi və alih) fərmanını yerinə yetirmək üçün ürəkləndirdi və buyurdu ki, əgər vuruşsan, qalib gələcəksən. Xəlifə (Əbu Bəkr) İmamın onu ürəkləndirməsindən sevinib dedi: "Yaxşılığa yozdun və xeyirliyə müjdə verdin.[1]"

## Əlİ (əleyhİssəlam) və İkİncİ xəlİfənİn onunla sİyasİ məsləhətlərİ

Əli (əleyhissəlam) ikinci xəlifənin dövründə də siyasi, elmi, ictimai bir məsləhətçi idi. İndi ikinci xəlifənin Əli əleyhissəlamla siyasi məsləhətlərindən bir nümunəni sizin nəzərinizə çatdırırıq:

Hicrətin on dördüncü ili müsəlmanlarla Sasani imperiyası (iranlılar) arasında Qadisiyyə adlı məntəqədə çox çətin bir döyüş baş verdi. Gərgin gedən bu döyüşdə müsəlmanlar qalib gəldilər. Bu döyüşdə Sasanilərin ordu başçısı Rüstəm Fərruxzad çoxlu sayda döyüşçüsü ilə qətlə yetirildi. Bu qələbə nəticəsində İraq bütünlüklə İslamın nəzarəti altına keçdi və Sasani imperiyasının paytaxtı Mədain şəhəri müsəlmanların əlinə düşdü. İran döyüşçüləri canlarını qurtarmaq üçün ölkənin içərisinə tərəf geri çəkildilər. Sasanilər qorxurdular ki, İslam ordusu yavaş-yavaş irəliləyib bütün ölkəni ələ keçirə bilərlər. Bu təhlükənin qarşısını almaq məqsədilə Sasani imperatoru Yəzdigərd, Firuzanın başçılığı altında yüz əlli minlik bir ordu təşkil etdi. Firuzana tapşırdı ki, müsəlmanların ehtimal verilən hücumunun qarşısını alsın və vəziyyət yaxşı olarsa, hücuma da əl atsın.

Müsəlmanların ordu başçısı Səd ibn Vəqqas (bir ehtimala görə isə Kufə hökmdarı Əmmar Yasir) xəlifə Ömərə məktub yazaraq onu düşmənin hərəkətindən xəbərdar edib bildirdi ki, Kufə ordusu (o vaxtlar İslamın əsas nizami bazası Kufə şəhərində yerləşirdi) döyüşə başlamağa hazırdır. Düşmən hücuma keçməzdən qabaq yaxşı olar ki, biz onları qorxutmaq üçün hücuma başlayaq.

Xəlifə məscidə gəlib səhabə başçılarını toplayaraq onları öz məqsədindən xəbərdar etdi. Xəlifə bildirdi ki, özü, Mədinədən Bəsrə ilə Kufə arasında olan bir

[1] Tarixi-Yə'qubi, c.3, səh.39.

yerə gedib oradan orduya başçılıq etmək istəyir. Bu zaman Təlhə qalxıb xəlifənin fikrini bəyəndiyini bildirdi. Təlhənin sözlərindən xəlifəyə yaltaqlanması açıq-aşkar hiss olunurdu.

Ondan sonra Osman qalxıb nəinki xəlifənin Mədinədən çıxmaq istəmək fikrini bəyəndiyini bildirdi, hətta ona belə bir məsləhət verdi: "Şam və Yəmən ordusuna da məktub yaz ki, öz yerlərini tərk edib xəlifəyə qoşulsunlar. Beləliklə, böyük bir ordu ilə düşmənlə qarşı-qarşıya çıxa bilərsən".

Bu zaman Əli (əleyhissəlam) ayağa qalxaraq buyurdu: *«Bu işin (İslamın) qalib gəlib-gəlməməsi ordunun az ya çox olmasına bağlı deyil. Bu, Allahın dinidir və O Özü onu qalib edər. O, ordusunu Özü hazırlayır və onlara da kömək edir. Allah-taala lazım olduğu yerə qədər İslamı gətirib çıxartdı, hara yayılmalı idisə, ora yaydı. Allah-taala bizə qalib gələcəyimizi vəd edib. Biz də bilirik ki, Allah Öz vədəsinə əməl edib Öz ordusuna kömək edəcək.*

*Xəlifənin mövqeyi zəncir halqalarına bənzəyir, xəlifə bu zəncirləri bir-birinə bağlamalıdır. Əgər zəncirlər bir-birindən qırılarsa, dağılıb parça-parça olacaq, daha onu bir yerə yığmaq da mümkün olmayacaq.*

*Bu gün ərəb ordusu sayca az olsa da, İslam qüvvəsi sayəsində çoxdur və birlik, vəhdət sayəsində isə əziz və qüdrətlidir.*

*Buna görə sən (xəlifə) bir dəyirman daşının mərkəzi kimi müsəlmanları hərəkətə gətir və onların köməyilə döyüşə başla. Əgər sən şəxsən Mədinədən çıxıb Kufəyə tərəf getsən, ordu künc-bucaqdan dağılaraq sənin ətrafına toplaşacaqdır. Belə olduqda da, arxada qalanlar qarşıdakılardan mühüm olacaqdır.*

*Əgər sabah qeyri-ərəbin gözü sənə sataşsa, deyəcəklər ki, bu, ərəblərin rəhbəridir. Əgər onu aradan götürsək, rahat olacağıq. Bu fikir onları səninlə mübarizədə daha da həvəsləndirəcək və düşmənin daha ciddi hərəkətinə səbəb olacaq. Deyirsən, bundan narahatsan, bil ki, Allah bu işdə səndən də çox narahatdır və Onun bəyənmədiyi işi dəyişdirməyə qüdrəti çatır.*

*Ancaq o ki, deyirsən düşmənin ordusunun sayı bizdən çoxdur, (unutma ki) biz keçmiş döyüşlərimizdə ordumuzun sayına deyil, Allah-taalanın köməyinə arxalanıb qalib gəlmişik!»*[1]

Ömər Əli əleyhissəlamın sözlərini bəyənib Kufəyə tərəf tək getmək fikrindən daşındı.[2]

Bu cür çıxılmaz məsələləri həll etməyinə görə Ömər deyərdi: «Bir çətinlik üz verərkən bunun həlli üçün Əbül Həsənin (Əli əleyhissəlamın) tapılmamasından Allaha pənah aparıram.»[3]

---

[1] Nəhcül-bəlağə (Sübhi Saleh), Xütbə 146.

[2] İbn Əsir, Əl-Kamilu fit-tarix, c.3, səh.8.

## 5. Xilafətdən şəhadətədək

## Əli əleyhissəlamla beyət tərzi

Osmanın maliyyə və idarə pozğunluqları, beytül-malı yüz faiz qeyri-şəri yollarla istifadə etməsi, Bəni-Üməyyə qəbiləsindən və öz qohumlarından olan nalayiq və səlahiyyətsiz şəxsləri vəzifəyə gətirməsi, mühacir və ya ənsardan olan səlahiyyətli şəxsləri işdən uzaqlaşdırması və dövlətin bütün işlərini Bəni-Üməyyənin ixtiyarında qoyması camaatı qəzəbləndirmişdi. Osman camaatın, ləyaqətsiz icra başçılarının dəyişdirilməsi haqqındakı şikayətlərinə baxmadığına görə, nəhayət camaat onun hökumətinin əleyhinə qiyam qaldırdı. Bu qiyam Osmanın ölümü ilə nəticələndi. Sonra camaat Əli əleyhissəlama beyət etdi. Bu baxımdan Osmanın ölümündən sonra iş başına keçən Əli əleyhissəlamın hökuməti qiyam və camaatın sabiq hökumətin zülmlərinə qarşı qaldırdığı qiyam nəticəsində yaranmış bir hökumət idi.

Osmanın hökumətinin pozğunluqlarından biri də bu idi ki, Həkəm ibn Əbul-Ası oğlu Mərvanla birgə Mədinəyə gətizdirmişdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) onu Taifə sürgün etmiş və hətta birinci və ikinci xəlifələr (Əbu Bəkr və Ömər) də onu Mədinəyə qaytarmağa cürət etməmişdilər. Osman onları Mədinəyə gətizdirdikdən sonra öz qızını Mərvana ərə vermiş və Mərvanı xilafətin icra aparatına başçı təyin etmişdi. Bu da təbiidir ki, camaatın qəzəblənməsinə səbəb olmuşdu.

Osmanın evi qırx doqquz gün qiyamçıların mühasirəsində qaldı.[1] Osman nə vaxt camaatla yumşaq davranmaq istyirdisə, Mərvan daha çox camaatı qəzəbləndirirdi. Axırda müsəlmanlar qəzəblənib Osmanın evinə tökülərək onu qətlə yetirdilər.

## Əli əleyhissəlamın parlaq məqamı

Qiyamçıların yeganə məqsədi Osmanı hökumətdən kənarlaşdırmaq idi. Düzdür, Əli əleyhissəlamın adı Osmanın evi mühasirədə olan müddətdə dillərdə gəzirdi, lakin qiyamçılar gələcək üçün (yeni xəlifə təyin etmək üçün) qəti bir qərara gəlməmişdilər. Elə buna görə də, Osmanı öldürdükdən sonra yeni bir çətinliklə-xəlifə seçmək çətinliyi ilə üzləşməli oldular.

---

[3] Əl-İstiabu fi mə'rifətil-əshab, c.3, səh.39. Xəlifələrin müxtəlif zamanlarda müsəlmanların çətinliklərinin həlli üçün Əli (ə) ilə müşavirə etmələri barədə geniş mə`lumat üçün Əsgər Qaidanın "Əli ibn Əbu Talibin siyasi mövqelərinin təhlili" kitabına müraciət edə bilərsiniz.

[1] Məs'udi, Mürucuz-zəhəb, c.2, səh. 346.

Digər tərəfdən Əli (əleyhissəlam), Əbdürrəhman ibn Ovf, Osman, Təlhə, Zübeyr və Səd ibn Əbil Vəqqasdan ibarət altı nəfərlik şura üzvlərindən ikisi, yəni, Əbdürrəhman ibn Ovf və Osman artıq dünyadan getmişdilər. Qalan dörd nəfər arasında Əli (əleyhissəlam) camaatın daha sevimlisi idi. Belə ki, fəzilət və İslamdakı parlaq keçmişinə görə digər şura üzvlərinin heç biri ona çatmırdı. Bu da camaatın Əli əleyhissəlama tərəf gəlməsinə səbəb oldu.

Əli (əleyhissəlam) vəziyyəti nəzərə alıb Osmanın dövründəki dəyişiklikləri mülahizə etməklə, həmçinin müsəlmanların ilkin həqiqi İslamdan uzaq düşmələrini nəzərə alaraq yaxşı bilirdi ki, Osmanın fəsadla dolu olan hökumətindən sonra xəlifə olmaq çox çətin bir işdir. Camaat, xüsusilə tayfa başçıları onun nəzərdə tutduğu islahatlarla razılaşmayacaq və onun ədalətinə dözə bilməyəcəklər. Buna görə də, qiyamçılar Əli əleyhissəlama xəlifə olmasını təklif edəndə, Əli (əleyhissəlam) qəbul etmədi.

Tarixçilər yekdil nəzərlə Osmanın hicrətin otuz beşinci ili zil-həccə ayında öldürüldüyünü qeyd edir, ancaq hadisənin hansı gündə baş verməsi haqqında müxtəlif fikirlər söyləmişlər.[1] Bir məsələ məlumdur ki, Osmanın ölümü ilə Əli əleyhissəlamın xəlifə olması arasında azı dörd-beş gün fasilə olub.[2] Bu bir neçə gün ərzində müsəlmanlar heyrət və hökumətsizlik mühitində yaşadılar.

Qiyam başçıları Əli əleyhissəlama müraciət edirdilər. Amma Həzrət o qədər də zahir olmurdu. Çünki qiyamçıların onunla beyət etmək istədiklərini gördüyündən və xilafət başına keçmək üçün vəziyyətin yaxşı olmadığını bildiyi üçün qiyamçıların bu təklifini özünə hüccət bilməyib buyurardı: *«Məndən əl çəkin, gedin başqa adam tapın. Çünki indi vəziyyətin siması müxtəlif olub cəhətləri ayrı-ayrıdır. (Vəziyyət çox qarışıqdır.) Ürəklər bu vəziyyətə dözməz, ağıl bunu qəbul edə bilməz. Fəsad buludları İslam səmasının üstünü örtmüş və doğru yol tanınmaz qalmışdır. Bilin ki, əgər sizin təklifinizi qəbul etsəm, sizinlə öz elmimlə rəftar edəcək və onun-bunun sözlərinə qulaq asmayıb dedi-qoduçuların sözlərinə etina etməyəcəyəm. Ancaq məndən əl çəksəz, mən də sizin kimilərdən biri olacağam. Bəlkə də mən yeni xəlifənin sözlərinə sizdən yaxşı qulaq asacaq və əmrlərini sizdən yaxşı yerinə yetirəcəyəm. Mənim sizin rəhbər və xəlifəniz olmağımdansa, sizin vəzir və məsləhətçiniz olmağım yaxşıdır.»*[3]

Ancaq get-gəllər, müsəlmanların təkidli istəkləri, keçmiş zülmlərdən cana gəlmiş və ədalət aşiqi olan camaatın axınları Həzrət Əli əleyhissəlamın evinə çoxaldığından Əli (əleyhissəlam) özünə vəzifə bilib camaatın beyətini qəbul etdi.

---

[1] Yə'qubi Osmanın ölümünü zil-həccənin on səkkizi, c.2,səh.165, Məs'udi isə zil-həccənin qurtarmasına üç gün qalmış bildirir.(Mürucuz-zəhəb) c.2, səh.346.

[2] Yə'qubi Əli əleyhissəlamın xilafət başına gəlməsini zil-həccənin qurtarmasına bir həftə qalmış, Məs'udi isə deyir ki, Osman ölən kimi camaat Əli əleyhissəlama bey'ət etdi. Başqa bir yerdə isə deyir ki, deyilənə görə Əli əleyhissəlamla bey'ət dörd gün sonra baş vermişdir.

[3] Nəhcül-bəlağə (Sübhi Saleh), Xütbə 92.

Əli (əleyhissəlam) Nəhcül-bəlağənin bir neçə yerində camaatın onun xilafət başına gəlməsi üçün evinə axınları və camaatın beyət etmək üçün təkidləri barədə söhbətlər etmişdir. Bir yerdə belə buyurur: *«Camaat susamış dəvənin su görərkən sarbanın əlindən azad olub suya hücum etdikləri kimi mənim üstümə hücum etdi. Bir-birini sıxışdırıb çiyin-çiyinə dəyirdilər. Vəziyyət o hala çatmışdı ki, mən deyərdim məni öldürmək istəyirlər, ya da bir dəstə başqa bir dəstəni öldürmək istəyir. Sonra bu işi (xilafətin qəbul etməsini) araşdırdım. Bütün cəhətlərini ölçüb biçdim. Belə ki, yuxunu gözümdən çəkmişdi.»* [1] Başqa bir yerdə İmam (əleyhissəlam) camaatın onun ətrafına toplaşmasını canlandırıb camaatın onun xilafəti qəbul etməsini eşidib sevindiklərini, həyəcanlanmalarını bəyan edərək buyurur: *«Siz mənim əlimi (beyət etmək məqsədilə) açdınız, mən isə bağladım. Siz onu özünüzə tərəf çəkirdiniz, mən isə onu geri dartırdım. Ondan sonra susamış dəvələrin su içmək üçün suya yaxınlaşarkən bir-biri ilə çiyin-çiyinə dəydiyi kimi mənim ətrafıma toplaşdınız. Belə ki, ayaqqabımın bağı qırıldı, əba çiynimdən düşdü və zəif insanlar ayaq altında qaldılar.*

*O gün camaatın mənimlə beyət etmək üçün yaranmış sevinci o həddə çatmışdı ki, hətta uşaqlar belə sevinirdilər. Evdə oturmuş qocalar ayaqları titrəyən halda beyət mənzərəsini müşahidə etmək üçün yola düşmüşdülər. Xəstələr də bu mənzərəni müşahidə etmək üçün yataqlarından qalxmışdılar.»*[2]

Əli (əleyhissəlam) məşhur «Şiqşiqiyyə» xütbəsində də camaatın şüurlu pişvazı barədə və eləcə də xilafəti qəbul etməsi barədə söhbət etmişdir: *«Məni qorxudan o idi ki, camaat kaftar kimi sıx şəkildə hər tərəfdən mənim üstümə hücum çəkib məni əhatə etmişdi. Belə ki, Həsən (əleyhissəlam) və Hüseyn (əleyhissəlam) ayaq altda qaldılar, paltarım iki tərəfdən cırıldı, camaat qoyun sürüsü kimi mənim ətrafıma toplaşdı. And olsun toxumu bölən və insanı yaradan Allaha! Əgər o camaat beyət üçün ətrafıma toplaşaraq mənə arxa olmaları ilə hüccət mənə tamamlanmasaydı və həmçinin, Allahın alimlərdən zülmkarların zülmü və məzlumların aclığı qarşısında sükut etməmələri barədə peymanı olmasaydı, mən xilafət məqamından əl götürüb ondan üz döndərər, onun sonunu başlanğıcındakı piyalə ilə doyuzdurardım. (Yəni, necə ki, ilk üç xəlifənin dövründə kənarda qalmışdım indi də kənarda qalardım.) Onda yaxşı bilərdiniz ki, sizin dünyanız mənim nəzərimdə keçi burnunun suyundan da dəyərsizdir.»*[3]

## Üç cəbhədə mübarizə

Əli əleyhissəlamın hakimiyyətinin əsl ədalət əsasında olduğuna və xilafətin əsl İslam sünnələrinin diriltməsinə bir sıra şəxslər dözə bilmirdilər. Beləliklə də, bu

---

[1] Nəhcül-bəlağə (Sübhi Saleh), Xütbə 54.
[2] Nəhcül-bəlağə (Sübhi Saleh), Xütbə 229.
[3] Nəhcül-bəlağə, Xütbə 3 (Şiqşiqiyyə xütbəsi), (Sübhi Saleh).

dəstə Əli əleyhissəlamın hökuməti qarşısında müxalif bir dəstə yaratdı. Bu müxalifət sonda «Nakisin», «Qasitin» və «Mariqin» döyüşləri ilə nəticələndi. İndi də həmin döyüşlər barədə ayrı-ayrılıqda qısa məlumat veririk:

## Nakisin[1] döyüşü (cəməl döyüşü)

Nakisin döyüşünün səbəbi bu idi ki, Təlhə və Zübeyr Əli əleyhissəlama beyət etdikdən sonra ondan Bəsrə və Kufə şəhərlərinə vali (başçı) təyin olunmalarını istədikdə, İmam (əleyhissəlam) onların bu istəyi ilə razılaşmadı. Nəhayət onların hər ikisi "ümrə"ni bəhanə edərək Məkkəyə yola düşdülər. Orada (Məkkədə) Bəni-Üməyyə tərəfindən qarət olunmuş beytül-maldan istifadə edərək ordu yaradıb Ayişə ilə birlikdə Osmanın qanını almaq qəsdi ilə Bəsrəyə üz tutdular. Bəsrəni tutub öz əllərinə keçirdilər. Əli (əleyhissəlam) bu hadisədən xəbərdar olub onları aradan götürmək məqsədilə ordu ilə Bəsrəyə tərəf hərəkət etdi. Bəsrə yaxınlığında qızğın döyüş nəticəsində Əli (əleyhissəlam) qalib gəldi və «nakisinlər» məğlubiyyətə uğradılar. Bu döyüş hicrətin otuz altıncı ilində baş vermişdir.

## Qasitin[2] döyüşü (siffeyn döyüşü)

Müaviyə hələ Əli (əleyhissəlam) xəlifə olmazdan neçə il qabaq Şamda özü üçün xilafətə keçmək hazırlıqlarını görmüşdü. Əli (əleyhissəlam) xilafətə gəlcək Müaviyənin işdən kənarlaşması əmrini verdi (Müaviyə Osman tərəfindən Şama vali təyin edilmişdi.) və onun bir an belə işdə qalmasına razılıq vermədi. (Müaviyə də təbii ki, İmamın fərmanı ilə razılaşmadı.) Bu müxalifətin nəticəsi o oldu ki, İraq və Şam qoşunları «Siffeyn» adlı bir çöldə üz-üzə gəldilər. Əli (əleyhissəlam)ın ordusunun qələbəyə bircə addımı qalmışdı. Ancaq Müaviyə (Əmr Asın köməyilə) hiylədən istifadə edərək Əli əleyhissəlamın ordusunda təfriqə və ixtilaf yaratdı. Nəhayət Əli (əleyhissəlam) ordusunun təkidi nəticəsində məcbur qalıb Əbu Musa Əşəri ilə (Əli əleyhissəlamın tərəfindən) Əmr Asın (Müaviyə tərəfindən) danışıqlarına razı oldu. Belə ki, onlar (Əbu Musa Əşəri və Əmr As) İslam və müsəlmanların məsləhətləri haqda araşdırmalar aparmalı və öz nəzərlərini bildirməli idilər. Əli əleyhissəlamın ordusundan olanların onu Əbu Musa Əşərini Əmr Asla danışıqlara göndərməsi barədəki təkidləri o dərəcəyə çatmışdı ki, əgər Əli (əleyhissəlam) bununla razılaşmasaydı, bəlkə də bu narazılıq İmamın ölümü ilə nəticələnərdi. Bunun da nəticəsində müsəlmanlar böyük böhranla üzləşməli olardılar.

---

[1] Nakisin ərəb sözü olub, «Əhdlərini sındıranlar» mə'nasını bildirir. Əli əleyhissəlama bey'ət etdikdən sonra bir dəstə bey'ətini sındırıb Əli əleyhissəlamın üstünə qoşun çəkdilər. Təlhə və Zübeyr onlara başçılıq edirdi. (Mütərcimdən)

[2] «Qasitin» haqdan dönmüşlər, zülmkarlar deməkdir.

Tərəflərin öz nəzərlərini bildirmək zamanı çatdıqda Əmr As Əbu Musa Əşərini aldatdı[1] və Müaviyənin alçaq niyyətini camaata aşkar etdi. Danışıqlar başa çatdıqdan sonra Əli əleyhissəlamın ordusundan bir dəstəsi İmamın danışıqları qəbul etməsinə görə onunla müxalifət etməyə başladı. Onlar İmamı danışıqlarla razılaşdığına görə tənqidə tutdular.

Qasitin döyüşü hicrətin otuz yeddinci ilində baş vermişdir.(Bu döyüş tarixdə Siffeyn döyüşü adı ilə məşhur olmuşdur.)

## Mariqin döyüşü (Nəhrəvan döyüşü)

Mariqin (yolunu azmışlar) Əli əleyhissəlamı Əbu Musa Əşəri ilə Əmr Asın danışıqlarına razı olmağa məcbur etmiş dəstədir. Danışıqlardan bir neçə gün sonra bu dəstə öz işlərindən peşman olub İmamdan danışıqların nəticəsi ilə razılaşmamasını istədilər. Ancaq Əli (əleyhissəlam) elə bir şəxs deyildi ki, öz əhdinə vəfasız çıxsın və peymanı sındırsın. Bu dəstə işi belə görüb Əli əleyhissəlama qarşı ordu toplamağa başladı. Nəhrəvan adlı bir yerdə Əli əleyhissəlamla bu dəstə arasında döyüş baş verdi. Əli əleyhissəlamın ordusu bu döyüşdə də qalib gəldi. Ancaq kin-küdurət yenə ürəklərdə qaldı. Tarixçilərin yazdığına görə bu döyüş hicrətin 38 yaxud 39-cu ilində baş vermişdir.

## Əlinin (ə) dövləti idarə sistemİndə tutduğu əhəmiyyətli islahat addımları

Peyğəmbər (s)-in hicrətindən sonra Mədinədə qurduğu İslam hökumətinin ikinci nümunəsi olan Əli (ə)-ın bərpa etdiyi həmin dövlət təəssüflər olsun ki, çox da ömür sürmədi. Hərçənd Əli (ə) daxildə baş verən münaqişələr, xəyanətkar ünsürlərin törətdiyi təxribatların ucbatından nəzərdə tutduğu islahat ideyalarının həyata keçirməyə nail olmadı, lakin İslam hökumətinin prinsiplərinə əsaslanan ideal dövlət numunəsini ərsədə işıqlandıra bildi. Həzrətin təşkil etdiyi dövlətin parlaq strukturu ətrafında geniş mülahizələrə burada macal olmasa da, imkan daxilində hökuməti idarə istiqamətində onun əhəmiyyət verdiyi çox qiymətli örnək və ülgü kimi mahiyyət kəsb edə biləcək yüksək ideyalarına müxtəsər də olsa toxunacağıq:

---

[1] Əmr As danışıqlardan qabaq Əbu Musa Əş'ərini görmüş onunla danışıqlar barədə söhbət etmişdir. O, söhbətində bildirmişdi ki, müsəlmanlar iki nəfərin - Əli və Müaviyənin üstündə bir-biri ilə müxalifət yaradıblar. Gəl sən Əli əleyhissəlamın nümayəndəsi kimi onu xilafətdən kənara qoy, mən də Müaviyənin nümayəndəsi kimi onu xilafətdən kənara qoyum. Sonra müsəlmanlar yığışıb özlərinə yeni bir xəlifə tə'yin etsinlər. Əbu Musa Əş'əri Əmr Asın hiyləsinə aldanıb onunla razılaşdı. Ancaq Əmr As öz dediyinə əməl etməyib Müaviyəni xilafətdə saxladı. (Mütərcimdən)

1. Əli (ə) elə ilk başdan xilafəti qəbul etməyinin mahiyyətini ədalətin icrası kimi irəli çəkərək onu, xüsusilə ictimaiyyətdə rifah və maddi tə`minatın, bir-birinə tam əks olan iki sinfi qütbün həlli perspektivində arayırdı.[1]

Qabaqda keçdiyi kimi çox qabarıq dərəcədə sosial problemə çevrilən iki aclar və toxlar təbəqələri arasındakı sinfi ayrıseçkiliyə öz münasibətini bildirən Həzrət deyirdi: Allah bilici və alimlərlə əhd-peyman bağlayıb ki, belə vəziyyətin qarşısında sükut etməsinlər.

2. Həzrət (ə) mənsəb və iqtidarı yalnız xalqa xidmət, ictimai hüquqların bərpası və batili (zülm və haqsızlıq) məhv etmək üçün vəsilə bilmiş[2] və heç vaxt ona sui-istifadə mənbəyi yaxud yağlı bir tikə kimi tamah gözü ilə baxmamışdır. Deyilənlərə açıq və aydın dəlil onun dövlətçiliyidir. Elə buna görə də, nə vaxtdan bəri iqtidara susamış Təlhə və Zubeyr kimilərinə hər hansı mənsəb və rəhbərliyi tapşırmaqdan qəti imtina etmiş və nəticədə onların müxalifəti və təxribatları ilə qarşılaşmışdır.

3. O, mö`minlərin əmiri və xəlifəsi olduğuna baxmayaraq son dərəcə sadə bir güzaranla keçinir və vəzifələrə seçdiyi şəxslərə də orta və sadə tərzdə həyat sürməyi tövsiyə edirdi.[3] Dünyanın cazibədarlığına tam e`tinasızlıq, cəlbedici maddi rəngarənglik və təmtəraqdan uzaqlıq Həzrətin şəxsiyyətində ən spesifik xüsusiyyətləri, onun dövlətçiliyində ən üstün xarakterik çalarları aşılayır.

4. Onun dövlət nümayəndələrinin seçki və tə`yinində əsas qarşıya qoyduğu me`yarları təqva, sağlam ömür və parlaq keçmiş, rəhbərlik bacarığı, qətiyyətli dindarlıq və digər layiqli keyfiyyətlərdən ibadət idi. Qohumluq və digər nisbət əlaqələrini onun vəzifə bölgüsündə hətta zərif izlərini belə görə bilmərik. Həzrətin bütün İslam ölkəsində rəhbərlik etdiyi 51 nəfər vali və nümayəndəsi arasında mühacir, ənsar, yəmənli, nəzarlı, haşimi və qeyri-haşimi, hicazlı, iraqlı, qoca və cavan şəxslər göründüyü halda oğulları imam Həsən, imam Hüseyn və Məhəmməd Hənəfiyyə, qızı Zeynəbin (ə.h.) əri Abdullah ibn Cə`fər kimilərindən əsər-əlamət yoxdur. Halbuki, bu adamların özləri də yaş və qabiliyyət baxımından vəzifə və rəhbərliyə layiq kəslər idi və bir çox həssas mövqelərdə, müharibə və döyüş meydanlarında mühüm rol oynayırdılar. Lakin Həzrət hər hansı vəzifənin öz qohum-əqrəbasına həvaləsində ciddi pəhriz edirdi.

5. İmam (ə) bir çox hakim və rəhbərlərin (keçmişdə və indi) yeritdiyi “hədəf vəsiləyə bəraət qazandırır” siyasi prinsipinin tam əksinə olaraq öz ali və müqəddəs məqsədlərinin həyata keçməsində heç vaxt mənafe yönümlü əyri yollara əl atmırdı. Mə`lum olduğu kimi elə xəlifəliyin ilk günlərində bə`zi xeyirxah tərəfdarlarının beytül-malın bölüşdürülməsində hələlik mənsəb, şərəf və sərvət sahiblərinin səhm və payına qismən də olsa artıq ödəyərək yeni qurulmuş

[1] Nəhcül-Bəlağə, xütbə 3.
[2] Nəhcül-Bəlağə, xütbə 33.
[3] Nəhcül-Bəlağə, məktub 45.

hökumətin dayaqlarını möhkəmləndirmək təklifini rədd edərək buyurmuşdu: Siz deyirsiniz ki, hal-hazırda rəhbəri olduğum adamlara zülmə yol verərək qalib gəlim?! Allaha and olsun, nə qədər ki, dünya durur, belə şeyə yol verməréəm! Əgər bu mal öz malım olsaydı belə etməzdim. O ki qaldı bu Allah malıdır![1]

Əks tərəfdə isə qatı düşmən olan Müaviyə öz çirkin və şeytani məqsədlərinə nail olmaq üçün heç nəyi əsirgəmir, şəriətə zidd olaraq hər bir alçaqlığa əl atırdı. Beləliklə də, bə`zi sadəlövh və şüursuz adamlar Müaviyənin ağıllı, siyasətçi və zirək kimi İmamdan üstün olduğunu təsəvvür edirdilər. Həzrətin isə bu məqamda buyurduğu kəlamı diqqəti özünə cəlb edir: Allaha and olsun, Müaviyə məndən ağıllı deyildir. O, həqiqətdə kələkbazlıq, yaramazlıq və alçaqlıq edir. Əgər kələkbazlıq və hiyləgərlik çirkinlik olmasaydı, mən ən zirək adam olardım.[2]

6. Həzrət heç vaxt müxaliflər və ya düşmənlərlə üsul və zabitəni tapdamır, ixtiyarındakı qüdrətdən istifadə edərək onları öz azadlıq hüquqlarından məhrum etmirdi. Bu o vaxta qədər davam edirdi ki, özləri öz əleyhinə zəmin hazırlamasınlar. Həzrətin, vəzifəyə çatmayacağından naümid olub e`tiraz hissi ilə kənara çəkilmiş Təlhə və Zubeyrin ümrə həccini bəhanə edərək Məkkəyə getməsinə icazə verməsi bunun aşkar nümunəsidir.[3] Zahirən sırf təxribat yönümlü bu səfərin gedişatını aydın görən İmam (ə) hələ bir xəta baş verməmiş onların qarşısını almadı. Həmçinin nadan və cahil qövm olan Xəvaric “siffeyn” döyüşündən sonra qayıdarkən yolda qoşundan ayrılıb Nəhrivan ərazisində düşərgə saldıqdan, eləcə də təxribat və terror əməliyyatlarına başlamazdan əvvəl Həzrət onlara belə buyurmuşdu: Nə qədər ki, bizimləsiniz (düşmənə qoşulmamısınız) sizin üç hüququnuz qorunur:

1. Əgər məscidlərdə namaz qılmaq istəsəniz, azadsınız, sizə mane olunmayacaq.
2. Nə qədər ki, bizimlə əl-ələ verib çalışırsınız beytül-maldan məhrum olunmayacaqsınız.
3. Nə vaxta qədər ki, bizimlə müharibəyə başlamamısınız sizinlə döyüşə girməyəcəyik.

Həzrətin əlində onları tam yatırmaq iqtidarı olduğu halda, beləcə, onların yersiz müxalifət və e`tirazlarını böyük təmkinlə qarşıladı və nəhayət dinc qalmayaraq terror əməliyyatlarına əl atmaqla çox yaramaz işlər ilə iğtişaş yaratdıqları zaman çarəsiz onların üzərinə qoşun yeritdi.

7. Əli (ə) iş başına ləyaqətli, sağlam nümayəndələr tə`yin etməsinə baxmayaraq onların iş üsulu və rəftarlarından daim xəbərdar olmaq üçün nəzarət məqsədi ilə xüsusi adamlar ayırmışdı. Heç bir hərəkət və hadisə onun gözündən yayınmır, lazım gəldikdə onların haqqında münasib yerli qərarlar verirdi. Bunun gözəl

[1] Nəhcül-Bəlağə, xütbə 126.
[2] Nəhcül-Bəlağə, xütbə 200.
[3] Tarixi Yaqubi, c. 2, s. 180.

nümunəsi Həzrətin ə`yan-əşrafların ziyafət məclisində iştirak etmiş Osman ibn Hüneyfə və yazdığı şiddətli danlaq məktubudur.[1] Məsələnin incəliyi burasındadır ki, məktubun yazıldığı tarix Həzrətin xilafətə gəldiyi ilk aylara təsadüf edir (çünki Osman ibn Hüneyf "cəməl" döyüşünədək Bəsrənin valisi olmuş və bu döyüş Həzrətin xilafətinin 6-cı ayında baş vermişdi) və o vaxt İmamın başı çox gərgin surətdə quruculuq, nizam-intizam işlərinə qarışmış, demək olar bütün vaxtını üçüncü xəlifə Osmanın qətlindən sonra bütün İslam ictimaiyyətini bürüyən böhranlı vəziyyətin həllinə ayırmışdı. Bununla belə İmamın uzaq bir nahiyədə öz valisinin hətta bir qonaqlıqda belə hüzurundan xəbərdar olub onu məzəmmət etməsi dəqiqliyi və digər xüsusiyyətləri onu əbədi rəhbər kimi cahanda yaşadır.

Əli (əleyhissəlam) nəhayət, dörd il bir neçə ay (9 ay) hökumətdə olduqdan sonra hicrətin qırxıncı ili Ramazan ayının on doqquzuncu gecəsi həmin mariqindən biri olan Əbdürrəhman ibn Mülcəm tərəfindən (Kufə məscidində namaz qılarkən) zərbətlənib iki gün sonra şəhadətə qovuşmuşdur.

---

[1] Tarixi Təbəri, c. 4, səh. 53.

# II FƏSİL

# İMAM HƏSƏN MÜCTƏBA ƏLEYHİSSƏLAMIN HƏYATI

*** Məzlumların köməkçisi**
*** Misilsiz bir bəxşiş**
*** Müaviyə ilə sülhün (atəşkəsin) səbəbləri**
*** Sülhün səbəbləri İmamın öz dilindən**
*** Sülh müqaviləsinin mətni**
*** Nəyə görə İmam Həsən (əleyhissəlam) sülh, İmam Hüseyn (əleyhissəlam) isə qiyam etdi?**

## İmam Həsən əleyhissəlamın həyatı barədə qısa məlumat

Əli əleyhissəlamın Peyğəmbərin (səlləllahu əleyhi və alih) əziz qızı xanım Zəhra (səlamullahi əleyha) ilə evlənməsinin ilk meyvəsi, şiələrin ikinci İmamı Həzrət Həsən Müctəba (əleyhissəlam) hicrətin üçüncü ili ramazan ayının on beşində Mədinə şəhərində dünyaya gəlmişdir.[1]

İmam Həsən (əleyhissəlam) öz cəddinin dövrünü çox görməmişdi. Çünki İmam Həsən (əleyhissəlam) təxminən yeddi yaşında olarkən Peyğəmbər (səlləllahu əleyhi və alih) dünyadan köçmüşdü. Peyğəmbərdən (səlləllahu əleyhi və alih) sonra təxminən otuz il atası Əli əleyhissəlamla birgə olmuşdur. Atasının şəhadətindən sonra (hicrətin qırxıncı ilindən) on il müddətinə qədər müsəlmanlara İmamlıq (başçılıq) etmiş və nəhayət hicrətin əllinci ilində Müaviyənin hiyləsi ilə qırx səkkiz yaşında zəhərlənmiş və şəhadətə qovuşmuşdur. Müqəddəs məzarı Mədinə şəhərindəki Bəqi qəbiristanlığındadır.

## Məzlumların köməkçisi

İslam dinində (İslam nöqteyi-nəzərindən) varlı və imkanlı şəxslər kasıb və imkansız şəxslərə qarşı böyük məsuliyyət daşıyırlar. Dərin mənəvi əhdlər və müsəlmanlar arasında bərqərar olmuş dini qardaşlıqlara əsasən, varlılar kasıbların ehtiyaclarını mümkün qədər təmin etməyə çalışmalıdırlar. İslam peyğəmbəri və dini rəhbərlər (İmamlar) bu barədə nə təkcə sifarişlər etmiş, hətta hərə öz zamanında insansevərliyin və zəifpərvərliyin bir nümunəsi olmuşlar.

İkinci İmam elm, təqva, zahidlik və ibadətlə yanaşı eyni zamanda öz dövrünün səxavətli şəxsi, məzlumların köməkçisi miskinlərə kömək edən bir şəxs kimi də tanınmışdır. O Həzrətin vücudu dərdli ürəklərin, fağır və imkansızların pənahı, ehtiyacı olanların ümid yeri idi. Belə ki, bir kasıb belə onun evindən əliboş geri qayıtmamışdır. Qəlbi sınmış hər hansı bir şəxs dərdini ona açıb söyləsəydi, İmam (əleyhissəlam) onun dərdinə mütləq bir məlhəm qoyardı. Hətta bəzi vaxtlar imkansız şəxs özü ehtiyacını deməzdən və xəcalət təri tökməzdən qabaq İmam (əleyhissəlam) onun ehtiyacını ödəyər və ona xəcalət təri tökməyə, utanmağa icazə verməzdi.

Süyuti öz kitabında yazır:«Həsən ibn Əli (əleyhissəlam) bir çox əxlaqi dəyərlər və insani fəzilətlərə malik idi. O, alicənab, səbirli, vüqarlı, mətin, səxavətli və camaatın hörmət bəslədiyi (rəğbətini qazanmış) bir şəxsiyyət idi.»[1]

## İbrətamiz incəlik

İmam Həsən (əleyhissəlam) bəzi vaxtlar ehtiyacı olan şəxslərə külli miqdarda pul bağışlayardı. Belə ki, bu miqdar pulu bir yerdə bağışlamaq camaatı heyran qoyardı. İmam əleyhissəlamın bu cür külli miqdarda pulu bir dəfəyə bağışlamasının bir incəliyi o idi ki, İmam (əleyhissəlam) ehtiyacı olan şəxsi bir dəfəlik ehtiyacsız edərdi. İmkansız şəxs bu pulla bütün ehtiyaclarını ödəyər və bundan sonra da ehtiyacsız

---

[1] Mənaqibi-Ali-Əbutalib (İbn Şəhr Aşub) c.4, səh.28; İrşadi-Şeyx Müfid, səh.187.
[1] Tarixül-xüləfa (Süyuti), səh.189.

yaşaya bilərdi. Həmçinin, bu pulla əlinə sərmayə də gətirə bilərdi. İmam Həsən (əleyhissəlam) kasıba onun bir günlük ehtiyaclarını ödəyən miqdarda pul verməyi rəva görmürdü. Belə olan halda, həmin şəxs məcbur olub gündəlik yeməyi üçün ona-buna əl uzatmalı idi. Bu səbəbə görə də Həzrət Həsən (əleyhissəlam) kasıba çoxlu pul verərdi.

## Elm və fəzilət ailəsi

Bir gün Osman məscidin kənarında oturmuşdu. Kasıb bir kişi ondan kömək istədi. Osman çıxarıb ona bir dirhəm pul verdi. Kişi Osmana dedi: "Məni elə bir adamın yanına göndər ki, mənə bir az çox kömək etsin." Osman məscidin bir küncündə əyləşmiş İmam Həsən (əleyhissəlam) və Abdullah ibn Cəfərə tərəf işarə edib kişiyə dedi ki, orada oturmuş cavanların yanına get və onlardan kömək istə. Kişi onların yanına gəlib kömək istədi. İmam Həsən (əleyhissəlam) buyurdu: "Ancaq üç halda başqalarından maddi kömək istəmək olar: Boynunda diyə (qan bahası) olub onu ödəyə bilmədikdə; külli miqdarda borclu olub qaytarmaq iqtidarında olmadıqda və ehtiyac içində olub əli heç bir yerə çatmadıqda. İndi bu üç şeyin hansı biri sənə üz vermişdir?" Kişi cavab verdi ki, mənə də məhz bu üç şeydən biri üz verib. İmam Həsən (əleyhissəlam) çıxarıb əlli dinar (bir dinar on dirhəmə bərabərdir) pul kişiyə verdi. Bunu görən İmam Hüseyn (əleyhissəlam) da qırx doqquz dinar, daha sonra Abdullah ibn Cəfər qırx səkkiz dinar kişiyə verdilər.

Kasıb kişi qayıdarkən Osmanın yanından keçirdi. Osman kişiyə dedi: "Nə oldu?" Kişi cavab verdi ki, səndən pul istədim verdin, ancaq heç soruşmadın pulu nəyə görə istəyirəm. Ancaq o üç nəfərin yanına gedəndə, onlardan biri (İmam Həsən (əleyhissəlam)) istəyimin səbəbini soruşdu. Mən də cavab verdim. Sonra onların hərəsi mənə bu qədər pul verdi. Osman dedi: "Bu ailə elm, hikmət çeşməsi, fəzilət və yaxşılıq mənbəyidir. Onlar kimisini nə vaxt tapa bilərsən?[1] "

## Misilsiz bəxşiş

İmam Həsən (əleyhissəlam) bütün qüdrətini yaxşı və Allah bəyənən yollarda sərf edər, Allah yolunda çoxlu miqdarda pul bəxşiş edərdi. Tarixçilər və alimlər o Həzrətin şərəfli həyatı haqqında misilsiz bir bəxşiş qeyd etmişlər ki, bu da heç bir rəhbərin həyatında gözə dəymir. İmamın bu hərəkəti o Həzrətin əliaçıqlığından əlavə onun dünyanın aldadıcı naz-nemətinə olan etinasızlığını da göstərir. Tarixçilər yazırlar: «İmam Həsən Müctəba (əleyhissəlam) ömründə iki dəfə bütün mal-dövlətini, üç dəfə isə mal-dövlətinin tən yarısını Allah yolunda xərcləmişdir.»[2]

## Vasitəli köməklik

İmam Həsən əleyhissəlamın şəxsiyyətinin böyük və ali olması bir nəfər imkansız şəxsin onun evindən əliboş geri qayıtmasına icazə vermirdi. İmamın birbaşa və bilavasitə kömək etməyə imkanı olmadıqda, vasitəli şəkildə imkansızların ehtiyacını

[1] Biharül-ənvar, c.43, səh.333.
[2] Tarixül xüləfa. səh.190; Tarixi-Yə'qubi, c.2, səh.215; Təzkirətül-xəvas səh.196.

ödəməyə çalışardı. O, müxtəlif yollarla tədbir görüb ehtiyacları ödəyər və müşkülatı həll edərdi.

Belə rəvayət olunur ki, bir gün Həzrətin cavanlıq dövrlərində ikinci xəlifənin zamanında kasıb bir kişi onun (ə) yanına gəlib kömək istədi. İş elə gətirmişdi ki, həmin vaxt İmamın pulu yox idi. Digər tərəfdən də kasıb kişinin onun evindən əliboş geri qayıtması İmam əleyhissəlamı utandırırdı. Buna görə İmam Həsən (əleyhissəlam) kişiyə buyurdu:

— Səni məqsədinə çatmaq üçün bir yerə göndərsəm razı olarsan?

— Hara?

— Bu gün xəlifənin qızı rəhmətə getmişdir, xəlifə qızına əza saxlayır, hələ heç kəs ona gəlib başsağlığı verməmişdir. Xəlifənin yanına get və sənə öyrədəcəyim ifadə ilə ona başsağlığı ver. Sən bu yolla öz məqsədinə nail olarsan.

— Xəlifəyə necə başsağlığı verim?

— Xəlifənin yanına gedib belə de: "Əlhəmdu lillahilləzi sətərəha biculusikə əla qəbriha və la hətəkəha biculusiha əla qəbrik.» İfadənin mənası belədir: "Həmd olsun Allaha ki, səni qızının qəbri üstündə oturmaqla onun həyasını saxladı və onu sənin qəbrin üstündə oturmaqla həyasını aparmadı.» Yəni qızın səndən qabaq dünyasını dəyişib torpaq altında yatmışdırsa, bu, atasının sayəsindədir. Yox əgər sən ondan tez ölsəydin, ola bilərdi ki, onun həyası getsin.

Kasıb kişi İmam əleyhissəlamın dediyi kimi də etdi.

Məhəbbətlə dolu olan xəlifənin qəlbində böyük təsir göstərdi və onun kədərini, qəm-qüssəsini azaltdı. Xəlifə əmr etdi ki, kişiyə bəxşiş versinlər. Sonra xəlifə kişidən soruşdu: "Bu sözləri sən özündən dedin, yoxsa səni bir öyrədən var?" Kişi cavab verdi ki, xeyr, bunları mənə Həsən ibn Əli (əleyhissəlam) öyrətmişdir. Xəlifə dedi: "Doğru deyirsən, o, fəsahətli və şirin sözlər mənbəyidir."[1]

## İmam Həsən əleyhissəlamın Müaviyə ilə bağladığı sülhün səbəbləri haqqında araşdırmalar

İmam Həsən əleyhissəlamın həyatının ən əsas və ən mühüm hissəsi onun Müaviyə ilə sülh bağlaması və İmamın məcburi şəkildə xilafətdən, eləcə də İslam hökumətindən kənarlaşdırılmasıdır. İmam əleyhissəlamın həyatının bu hissəsi barədə çoxlu söhbətlər olmuş və hətta bu hissə diqqətsiz dostların və qərəzçi düşmənlərin səhvə yol verməsinə səbəb olmuşdur.

Bəziləri İmam Həsən əleyhissəlamın həyatını və o günkü dövrün hadisələrini mütaliə edərək belə suallar irəli sürürlər ki, nəyə görə İmam Həsən (əleyhissəlam) Müaviyə ilə sülh etmişdir? Məgər Əli əleyhissəlamın şəhadətindən sonra o Həzrətin şiələri və ardıcılları onun oğlu İmam Həsən əleyhissəlama beyət etməmişdilər? Yaxşı olmazdımı ki, İmam Hüseyn (əleyhissəlam) qaldıran qiyamı, İmam Həsən (əleyhissəlam) elə əvvəlcədən qaldıraydı? Belə olduqda ya qalib gələrdi, ya da şəhadəti ilə Müaviyənin hökumətini laxladardı.

Bu suallara cavab verməzdən qabaq üç məsələyə diqqət yetirmək lazımdır:

---

[1] Həyatul-imamil-Həsən (əleyhissəlam), c.1, səh.302.

## 1. İmam Həsən əleyhissəlamın imamətindən qabaqkı mübarizələri

Tarix şahiddir ki, İmam Həsən (əleyhissəlam) çox şücaətli və dözümlü bir insan olmuşdur. Qorxu heç vaxt ona yol tapa bilməmişdir. O, İslamın inkişafı yolunda əlindən gələni əsirgəmirdi və daima Allah yolunda cihad etməyə hazır idi.

## İmam Həsən (əleyhissəlam) Cəməl döyüşündə

İmam Həsən (əleyhissəlam) Cəməl döyüşündə atası ilə bərabər cəbhənin ön xəttində vuruşur və Əli əleyhissəlamın şücaətli və dilavər dostlarını ötərək düşmən ordusuna güclü hücumlar edirdi.[1] Döyüş başlamazdan qabaq isə atasının əmri ilə Əmmar Yasir və Əli əleyhissəlamın bir neçə digər dostları ilə birgə Kufə şəhərinə gəlib əhalini bu döyüşdə iştirak etməyə çağırmışdı.[2]

İmam Həsən (əleyhissəlam) Kufəyə gələndə, hələ Əbu Musa Əşəri Kufənin Osman tərəfindən təyin edilmiş hökumət başçılarından biri kimi qalırdı. Əbu Musa Əşəri bu vəzifəsindən istifadə edərək Əli əleyhissəlamın ədalət əsasında qurulmuş hökuməti ilə müxalifət edir və şəhər əhalisini Cəməl döyüşündə iştirak etməkdən və o Həzrətə arxa durmaqdan çəkindirirdi. Ancaq buna baxmayaraq İmam Həsən (əleyhissəlam) Kufədən doqquz min nəfərlik ordu yığıb Cəməl döyüşünə getmişdi.[3]

## İmam Həsən (əleyhissəlam) Siffeyn döyüşündə

İmam Həsən əleyhissəlamın Siffeyn döyüşündə də ordunu səfərbər edib Əli əleyhissəlamın başçılığı altına gətirməkdə böyük rolu olmuşdur. O Həzrət öz mətin və kəskin çıxışları ilə Kufə əhalisini Əli əleyhissəlamın ordusuna qoşularaq xainlər və İslam düşmənlərinə qarşı vuruşmağa dəvət edirdi.[4]

İmam Həsən əleyhissəlamın haqq yolunda fədailiyi o dərəcədə idi ki, Əli (əleyhissəlam) Siffeyn döyüşündə öz səhabələrinə deyirdi ki, Həsən və qardaşı Hüseynin (əleyhimassəlam) mübarizə etməkdən qarşısını alın, məbada onların ölümü ilə Peyğəmbərin (səlləllahu əleyhi və alih) nəsli kəsilə.[5]

### 2. İmam Həsən əleyhissəlamın Bəni-Üməyyə ilə kəskin mübarizələri

İmam Həsən (əleyhissəlam) haqqı bəyan etməkdə və İslam əsaslarını qorumaqda əsla səhlənkarlıq etməzdi. O, Müaviyənin qeyri-İslami hərəkətlərini açıq-aşkar tənqid edir və Müaviyənin, ümumiyyətlə, bütün Bəni-Üməyyənin nankor və çirkin sabiqələrini qorxmadan açıb söyləyirdi.

İmam Həsən əleyhissəlamın Müaviyə və onun əlaltıları ilə, o cümlədən Əmr As, Ütbə ibn Süfyan, Vəlid ibn Ütbə, Müğeyrə ibn Şübə və Mərvan ibn Həkəm kimilərlə apardığı kəskin mübahisələri bu iddianın şahididir.[6]

---

[1] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.21.
[2] Tarixi-Yə'qubi, c.2, səh.170; Əl-İmamətu vəs-siyasət, c.1, səh.67.
[3] Əl-Əxbarut-təval, səh.144-145.
[4] Vəq'ətu Siffeyn, səh.113.
[5] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.11, səh.25 (Xütbə 200).
[6] Ehticac, səh.144-150.

İmam Həsən (əleyhissəlam) hətta sülh bağladıqdan və Müaviyənin qüdrəti bir az artıb mövqeyi gücləndikdən sonra o, Kufəyə gələndən sonra İmam (əleyhissəlam) minbərə çıxıb sülh bağlamasının səbəblərini söyləyərək Əli əleyhissəlamın ailəsinin üstünlüklərini (fəzilətlərini) bəyan etdi və sonra hər iki dəstənin (həm öz dəstəsinin, həm də Müaviyənin dəstəsinin) qarşısında Müaviyənin zəif cəhətlərinə işarə edib onun idarə etdiyi hökuməti aşkar şəkildə tənqid etdi.[1]

Əli əleyhissəlamın şəhadətindən və İmam Həsən əleyhissəlamın Müaviyə ilə sülh bağlamasından sonra xəvaric (Əli əleyhissəlamın üstünə qiyam çəkib Nəhrəvan döyüşündə məğlub olanlar) bütün qüvvələrini Müaviyənin əleyhinə səfərbər etdilər. Kufədə Müaviyəyə xəbər çatdı ki, Hövsəreyi-Əsədi adlı xəvaric başçılarından biri onun əleyhinə qiyam qaldırıb öz ətrafına ordu toplamışdır. Müaviyə öz mövqeyini qoruyub saxlamaq və İmam Həsən əleyhissəlamın ona tabe olduğunu sübut etmək üçün Mədinəyə getməkdə olan İmam əleyhissəlama xəbər göndərdi ki, Hövsərənin qiyamını yatızdırıb sonra öz yoluna davam etsin. İmam Həsən (əleyhissəlam) ona cavab göndərdi ki, mən müsəlmanların qanının tökülməməsinə görə səndən əl çəkdim (səninlə sülh bağladım). Bu o demək deyil ki, mən sən deyənə qulaq asıb başqaları ilə vuruşam. Əgər vuruşmalı olsam, hamıdan qabaq birinci səninlə vuruşaram. Çünki, səninlə mübarizə etmək xəvariclə vuruşmaqdan daha vacibdir.[2]

İmam əleyhissəlamın bu cümlələrində mübarizə ruhu açıq-aşkar hiss olunur. Xüsusən İmamın əzəmətlə Müaviyəyə dediyi «səndən əl çəkdim» ifadəsi bu mənanı vurğulayır.

## 3. İslamda sülhün qaydası

Nəzərə almaq lazımdır ki, İslam dinində müharibə və cihad haqqında ümumi bir qanun yoxdur. İslam dini müəyyən şəraitdə müsəlmanlara kafirlərə qarşı vuruşmağı əmr etdiyi kimi bəzi vaxtlarda da vuruşmağın bir nəticə verməyəcəyini görüb işi sülhlə həll etməyi əmr edir.

Biz İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) həyatında bu iki halın hər ikisini müşahidə edirik. İslam peyğəmbəri Bədr, Ühüd, Xəndək və Hüneyndə döyüşürdüsə, digər şəraitdə isə qələbəni qeyri-mümkün gördükdə, kafirlərlə sülh bağlayır və müvəqqəti olaraq döyüşdən əl çəkir və bu yolla İslamın inkişafına şərait yaradırdı.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) Bəni-Zəmrə və Bəni-Əşcə eləcə də (Məkkə əhalisi ilə) Hüdeybiyyə sülhü bağlaması buna bir nümunədir.[3]

Buna əsasən, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) o günlər bəziləri üçün məlum olmayan ali məsləhətlərə görə düşmənlə müvəqqəti sülh bağladı, İmam Həsən (əleyhissəlam) da Allah tərəfindən dini rəhbər seçildiyi üçün hadisənin bütün cəhətlərindən başqalarından daha yaxşı xəbərdar idi. Buna görə də, özünəməxsus uzaqgörənliyi ilə İslam cəmiyyətinin xeyrini sülhdə görüb sülh bağlayır.

---

[1] Ehticac, səh.156.

[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid) c.5, səh.98; Əl Kamilu fit-tarix. c.3, səh.409.

[3] İmam Həsən (əleyhissəla) ona Müaviyə ilə sülh bağlamasına irad tutan bir kişiyə belə cavab verir: Mən Peyğəmbərin (səlləllahu əleyhi və alih) sülh bağladığı səbəblərə əsasən sülh bağladım. Biharül-ənvar, c.144, səh.2

Bu mövzu (İmam Həsən əleyhissəlamın sülhü) pis mənada başa düşülməməlidir. Əksinə, o Həzrətin elədiyi hərəkət eynilə Peyğəmbərin (səlləllahu əleyhi və alih) (Hüdeybiyyə sülhündə) elədiyi hərəkət kimi nəzərə alınmalıdır.

İndi isə İmam Həsən əleyhissəlamın sülhünün səbəblərini və onun tarixi əhəmiyyətini yaxşı anlamaq üçün tarixi səhifələməli və bu məsələni əsas tarixi faktlara istinad edərək araşdırmalıyıq.

Qısa olaraq deməliyik ki, əslində İmam Həsən (əleyhissəlam) öz istəyi ilə sülh etmədi, əksinə, o sülh etməyə məcbur oldu. Yəni, vəziyyətin və şəraitin yaxşı olmaması və bir çox digər səbəblər üzündən elə bir vəziyyət yarandı ki, sülh etmək İmam Həsən (əleyhissəlam) üçün zəruri bir məsələyə çevrildi və o Həzrət sülh etməkdən savayı başqa bir çarə görmədi. Belə ki, kim o Həzrətin yerində olub həmin şəraitdə olsaydı, sülhdən başqa çarəsi olmazdı. Çünki İslam hökumətinin həm xarici şəraiti, həm də İraqın daxili vəziyyəti və habelə, İmamın ordusu döyüşə hazır deyildi. İndi isə bu məsələləri ayrı-ayrılıqda araşdıraq.

## Xarici siyasət nöqteyi-nəzərindən

O vaxtkı xarici siyasət nöqteyi-nəzərindən müsəlmanların bir-biri ilə vuruşması İslam aləminə heç bir fayda verməyəcəkdi. Çünki İslamdan güclü zərbələr alan Şərqi Roma imperiyası bu məğlubiyyətlərin əvəzini çıxmaq və özünü İslam nüfuzundan azad etmək üçün münasib bir fürsət axtarırdı. İmam Həsən əleyhissəlamın Müaviyə ilə vuruşmaq istədiyini eşidən Roma imperiyasının başçıları belə fikirləşdilər ki, öz məqsədlərini həyata keçirmək üçün ən yaxşı fürsətdir. Buna görə də, müsəlmanlardan əvəz çıxmaq, böyük bir ordu ilə İslam ölkəsinə hücum etmək qərarına gəldilər. Belə bir vaxtda vəzifəsi İslamın əsasını qorumaq olan İmam Həsən (əleyhissəlam) kimi bir şəxsiyyət bu təhlükəni İslam ölkəsindən dəf etmək üçün ruhu sıxıntılı və düşüncəsiz insanların tənələri ilə nəticələnməsinə baxmayaraq sülhü qəbul etməkdən başqa bir yol seçə bilərdimi?

Görkəmli tarixçi Yəqubi yazır: «Müaviyə (İmam Həsən əleyhissəlamla sülh bağlayıb) Şama qayıdandan sonra ona xəbər çatdı ki, Roma imperatoru İslam ölkəsinə hücum etmək məqsədilə böyük və nizamlı bir ordu ilə Romadan çıxmışdır. Müaviyənin belə böyük bir ordu ilə üzləşməyə imkanı olmadığından onlarla sülh bağlayıb yüz min dinar Şərqi Roma imperatoruna verməli oldu.»[1] Bu tarixi sənəd göstərir ki, iki müsəlman dəstənin bir-biri ilə döyüşmək istədiyi bir vaxtda onların müştərək düşməni - Roma imperiyası bu fürsətdən istifadə edib onlara hücum etməyə hazırlaşmışdı. Təbii ki, belə bir vəziyyət də İslam ölkəsini çox ciddi bir təhlükə ilə üzləşdirirdi. Əgər belə bir vaxtda İmam Həsən (əleyhissəlam) qoşun çəkib Müaviyə ilə vuruşsaydı, bu döyüşdə nə İmam Həsən (əleyhissəlam) qalib gələcəkdi, nə də Müaviyə. Əksinə, bu döyüşdə qalib gələn tərəf Şərqi Roma imperiyası olacaqdı. Ancaq bu təhlükə İmamın uzaqgörənliyi, tədbir və güzəştə getməsi nəticəsində dəf oldu. İmam Baqir (əleyhissəlam) İmam Həsən (əleyhissəlam)ın sülhünə irad tutan bir

---

[1] Tarixi-Yə'qubi, c.2, səh.206

nəfərə buyurdu ki, əgər İmam Həsən (əleyhissəlam) sülh etməsəydi, İslamı böyük təhlükə gözləyirdi.[1]

## Daxili siyasət nöqteyi-nəzərindən

Hamıya məlumdur ki, hər hansı bir rəhbər və ya başçı döyüş meydanında düşmənə qalib gəlmək istəyirsə, gərək güclü və hazırlıqlı orduya malik olsun. Lakin belə bir orduya malik olmadan döyüşə girmək biabırçı məğlubiyyətdən başqa heç bir nəticə verməyəcək. İmam Həsən əleyhissəlamın sülhünün səbəblərini daxili siyasət nöqteyi-nəzərindən araşdırdıqda, gözə çarpan əsas səbəb məhz belə bir ordunun olmamasıdır. Çünki İraq camaatının, xüsusilə də Kufə əhalisinin İmam Həsən əleyhissəlamın dövründə nə ruhən döyüşə hazırlığı var idi, nə də ordu təşəkkül tapa bilmişdi.

## Döyüş yorğunluğu

Cəməl, Siffeyn və Nəhrəvan döyüşləri, həmçinin Əbu Musa Əşəri ilə Əmr As arasındakı danışıqlardan sonra İraq, Hicaz və Yəməndə baş verən və bir çox tələfatlarla nəticələnən Əli əleyhissəlamın və Müaviyənin qoşunları arasındakı qırğınlar Əli əleyhissəlamın dostlarının əksəriyyətində yorğunluq əmələ gətirmiş, onlar daha döyüşməmək və sülh etmək fikrinə düşmüşdülər. Çünki onlar Əli əleyhissəlamın beş illik hakimiyyəti dövründə başdan-başa müharibələrdə olmuşdular. Digər tərəfdən də onların döyüşü heç də yadelli işğalçılara qarşı deyil, əksinə, dünən onlarla qardaş olub bu gün Müaviyənin ordusuna qatılmış adamlarla olmuşdu.[1]

İraq camaatı bəhanələr gətirməklə Şam ordusunun Hicaz, Yəmən və İraqda törətdikləri vəhşiliklərinə qarşı vuruşmaq üçün ordunu göndərməkdə tənbəllik edib, başlarının dinc olması ilə əslində döyüşdən yorulduqlarını bildirirdi. İraq camaatının Əli əleyhissəlamın yenidən qüvvə toplayıb Siffeyn döyüşünə dəvətini gec qəbul etməsi bu yorğunluğa açıq-aşkar bir nümunədir.[2]

Doktor Taha Hüseyn Əbu Musa Əşəri ilə Əmr As arasındakı danışıqlardan və Siffeyn döyüşünün sonundakı vəziyyətin gərginləşməsini qeyd etdikdən sonra yazır: «Sonra Əli (əleyhissəlam) Şama hücum etmək qərarına gəldi. Lakin ordusundakı münafiqlər – “Kufəyə qayıdıb işlərimizi səliqə-sahmana salaq, ondan sonra bir az da çox qoşunla düşmənin üstünə hücum edərik” – dedilər. Əli (əleyhissəlam) onlarla birgə Kufəyə gəldi və bir daha döyüşə getmədi. Çünki ordusunda olanların hər biri öz evinə dağılışıb şəxsi işlərilə məşğul olmağa başladılar. Döyüşmək üçün o qədər səhlənkarlıq edib süstləşdilər ki, Əli (əleyhissəlam) artıq onlara qarşı naümid oldu. Əli (əleyhissəlam) daima onları cihada dəvət edir və bunu dəfələrlə təkrar edirdi, ancaq onlar İmamın dəvətini nə eşidir, nə də qəbul edirdilər. Hətta iş o yerə çatmışdı ki, Əli (əleyhissəlam) bir gün xütbələrinin birində buyurdu: «Öz asiliyinizlə mənim

---

[1] Biharül-ənvar, c. 44, səh.1.

[1] Cəməl döyüşündə otuz mindən çox, Nəhrəvan döyüşündə xəvaricdən dörd min, Siffeyn döyüşündə isə iki tərəfdən yüz on mindən çox itki olmuşdur. (Tarixi-Yə’qubi, c.2, səh.172-182; Mürucuz-zəhəb, c.2,səh.393).

[2] Səvrətül Hüseyn (əleyhissəlam), səh.197-200.

əmrimdən çıxdınız. Hətta iş o yerə çatdı ki, Qüreyş dedi: Əbutalibin oğlu şücaətli kişidir, ancaq döyüşməkdən xəbəri yoxdur. Allah babalarına rəhmət eləsin, kim döyüşməyi məndən yaxşı bilir?»

Əli (əleyhissəlam) şəhadətə yetişdikdən sonra onun yerinə İmam Həsən (əleyhissəlam) hakimiyyətə gəldikdə, bu məsələ daha da qabarıq surətdə aşkar oldu. Xüsusilə İmam (əleyhissəlam) Kufə camaatını Şam ordusuna qarşı vuruşmağa dəvət edəndə onlar İmam əleyhissəlamın dəvətini çox gec qəbul etdilər.

Müaviyənin ordusunun Kufəyə tərəf hərəkət etməsi xəbəri İmam Həsən əleyhissəlama yetişdikdə, İmam camaatı məscidə yığdı. Xütbəyə başlayıb Müaviyənin ordusunun səfərbər olmasını camaata çatdırdıqdan sonra camaatı Allah yolunda cihada və batilin tərəfdarlarına qarşı vuruşmağa dəvət etdi. İmam (əleyhissəlam) bildirdi ki, səbirli olmaq, fədakarlıq etmək və çətinliklərə dözmək lazımdır. İmam Həsən (əleyhissəlam) camaatın ruhiyyəsindən xəbərdar olduğundan onların bu dəvətə qarşı müsbət cavab verməməsindən nigaran idi. Elə belə də oldu. İmam (əleyhissəlam) camaatı döyüşə dəvət etdiyi xütbəni qurtardıqdan sonra hamı sükut etdi, İmamın sözlərini təsdiq edən bir nəfər də tapılmadı. Bu hadisə o qədər təəssüfləndirici və acınacaqlı idi ki, məclisdə hazır olan Əli əleyhissəlamın şücaətli səhabələrindən biri camaatı bu səhlənkarlıqlarına görə möhkəm danladı və onları yalançı qəhrəmanlar, qorxaq və şücaətsiz insanlar kimi qələmə verərək onları İmamla birgə Şam ordusuna qarşı vuruşa çağırdı.[1] Bu tarixi sənəd İraq camaatının döyüşdən nə qədər yorulduqlarını, onlardakı mübarizə və döyüş ruhiyyəsinin ölməsini çox yaxşı bəyan edir. Onlar döyüşməyə hazır deyildilər. Nəhayət İmam Həsən əleyhissəlamın yaxın səhabələrindən bir neçəsi camaatı səfərbər etmək məqsədilə çıxışlar etdi. Bundan sonra İmam Həsən (əleyhissəlam) kiçik bir ordu ilə Kufədən çıxaraq şəhərin yaxınlığında Nüxeylə adlı bir yerdə düşərgə saldı. İmam əleyhissəlamın ordusu təzə qüvvələrin gəlib onlara birləşməsi məqsədilə on gün Nüxeylədə qaldı. Nəhayət, dörd min nəfər İmamın başına toplaşdı. Buna görə də, İmam (əleyhissəlam) məcbur olub güclü ordu toplamaq məqsədilə Kufəyə qayıtdı.[1]

## Müxtəlif ünsürlü cəmiyyət

Yuxarıda deyilənlərdən əlavə, o dövrün İraq camaatı mütəşəkkil və vahid deyildi. Əksinə, cəmiyyət müxtəlif ünsürlü və bir-biri ilə zidd olan dəstələrdən təşkil olunmuşdu. Belə ki, bəzi vaxtlar bu dəstələr bir-biri ilə heç cür yola gedə bilmirdilər. Bir dəstə çox təhlükəli olan Əməvilər sülaləsinin tərəfdarı, digər bir dəstə həm Əməvilərlə, həm də İmam Həsən əleyhissəlamla vuruşmağı özlərinə vacib bilən xəvaric dəstəsi, başqa bir dəstə müxtəlif yerlərdən gəlib İraqda məskunlaşmış və sayı iyirmi min nəfərə çatan qeyri-ərəb müsəlmanlar, başqa bir dəstə də əqidəsi sabit olmayan, İmam Həsən əleyhissəlamla Müaviyə arasında hansı birinin üstün olmasında şəkk edən insanlardan ibarət idi. O dövrün İraq və Kufə əhalisi bu

---

Hüseyn (əleyhissəlam), səh.197-200.

[1] İslam aynası səh.250[1] İslam aynası səh.250-251

Nəhcül-bəlağə (İbn Əil Hədid c.16,səh.38) Ənsabul-Əşraf səh.60

[1] İmam Həsən əleyhissəlamın sülhü (Şeyx Razi), səh.102.

dəstələrdən təşkil olunmuşdu. Bunlardan fərqli olaraq digər bir dəstə də Əli əleyhissəlamın həqiqi dostları idi.[1]

## Pərakəndə ordu

Əhali arasındakı bu dəstələr təbii ki, İmam Həsən əleyhissəlamın ordusunda da yayılmış, ordunu pərakəndə hala gətirib çıxarmışdı. Buna görə də, xarici düşmənlərə qarşı mübarizədə belə bir orduya arxalanmaq heç cür mümkün deyildi.

Şiə məzhəbinin böyük ustadı mərhum Şeyx Müfid və başqa tarixçilər İmam Həsən əleyhissəlamın ordusundakı bu təhlükə barədə belə yazırlar: «İraq əhalisi çox gec və süstlüklə İmam Həsən əleyhissəlamın ordusuna qoşuldu. İmam Həsən əleyhissəlamın təşkil etdiyi qoşun aşağıdakı dəstələrdən ibarət idi:

**1)** Əli əleyhissəlamın şiələrindən ibarət tərəfdarları;

**2)** Xəvaric; (Onlar Müaviyə ilə döyüşmək üçün bütün yollara əl atmışdılar. Onların İmam Həsən əleyhissəlamın dəstəsinə qoşulması Müaviyə ilə düşmənçiliklərinə görə idi.)

**3)** Dünyapərəst və mənfəətpərəst şəxslər; Bunlar da özlərinə maddi mənfəət əldə etmək üçün İmam Həsən əleyhissəlamın ordusuna qoşulmuşdular.

**4)** İkiürəkli və şəkk edən insanlar; Onların nəzərincə İmam Həsən (əleyhissəlam) kimi böyük bir şəxsiyyətin Müaviyədən elə bir üstünlüyü yox idi.

**5)** Nəhayət, din xatirinə yox, əksinə, qəbilə düşmənçiliyinə görə və sadəcə olaraq öz qəbilə başçılarından itaət edib mübarizəyə qoşulanlar.[2]

Beləliklə də, İmam Həsən əleyhissəlamın ordusu Müaviyə kimi bir düşmənə qarşı mübarizədə lazımi təşəkkülü tapmamış və pərakəndə şəkildə olmuşdu.

## Canlı sənəd

O dövrün İraq əhalisinin pərakəndəliyini və camaatın döyüşə qarşı süstlüyünü, əslində heç kim İmam Həsən əleyhissəlamın özündən yaxşı bəyan edə bilməz. İmam Həsən (əleyhissəlam) ordusunun irəlilədiyi son məntəqə olan Mədaində çox geniş və ruhlandırıcı bir çıxış etdi. O, sözlərinin əsnasında buyurdu: *«Bizi Şam əhlinə qarşı (Müaviyənin ordusuna qarşı) mübarizədən heç bir şəkk-şübhə saxlaya bilməz. Biz bundan qabaq da sizin dözümünüz və daxili anlayışınızla Şam əhlinə qarşı mübarizə etmişik. Ancaq bu gün kin-küdurət nəticəsində vəhdət və qarşılıqlı anlaşma sizdən uzaqlaşmış, öz müqavimətinizi itirmiş və indi də giley-güzar edirsiniz. Siffeyn döyüşünə gedəndə dininizin mənfəətini dünya mənfəətinizə üstün tutdunuz, lakin indi isə dünyanızı dininizdən üstün tutursunuz. Biz indi də keçmişdə olduğumuz kimiyik, ancaq siz bizə qarşı keçmişdə olduğunuz kimi vəfadar deyilsiniz. Sizlərdən bəziləri Siffeyn döyüşündə, bəziləri də Nəhrəvan döyüşündə öz qohum-əqrəbasını, yaxınlarını itirmişdir. Birinci dəstə öz ölülərinə ağlayır, ikinci dəstə isə ölülərinin qan bahasını istəyir. Qalanları da bizim əmrlərimizdən boyun qaçırırlar. Müaviyə bizə insafdan uzaq, bizim izzət və böyük məqsədimizin əksinə olan bir təklif etmişdir. İndi əgər Allah yolunda ölməyə hazırsınızsa, deyin, onda mübarizəyə qalxaq və onun bu*

---

[1] İmam Həsən əleyhissəlamın sülhü, səh.68-74.

[2] Əl-İrşad, səh.189.

*təklifinə qılıncla cavab verək. Yox, əgər sağ qalmaq istəyirsinizsə, deyin, onda bu təklifi qəbul edib sizin razılığınızı təmin edək.»*

İmam əleyhissəlamın sözləri bu yerə çatanda hamı bir ağızdan biz yaşamaq istəyirik, biz sağ qalmaq istəyirik[1]– deyə qışqırdı.

Döyüş ruhiyyəsindən məhrum olmuş belə bir ordu ilə İmam Həsən (əleyhissəlam) Müaviyəyə qarşı necə mübarizəyə girişə bilərdi? Müxtəlif ünsürlü dəstələrdən təşkil olunmuş və kiçik bir qəflət nəticəsində özləri xətər törədə bilən bir ordu ilə qələbəmi əldə etmək olar? Fərz edək ki, İmam Həsən (əleyhissəlam) deyil, Müaviyə belə bir qoşuna başçılıq edir, o İmam əleyhissəlamın gördüyü bu, işdən (sülhdən) başqa bir iş görə bilərdimi?

Bəli, bu səbəblər yığışıb İslam cəmiyyətini qəti təhlükənin iki addımlığına çatdırdı və çox acınacaqlı hadisələr əmələ gətirdi. İndi bunun şərhini sizin nəzərinizə çatdırırıq.

## İmam Həsən əleyhissəlamın ordunu səfərbər etməsi

Keçmiş və müasir tarixçilər bəzi tarixi hadisələri dəyişdirib onun əksini yazırlar. Onlardan bəziləri belə iddia edirlər ki, güya İmam Həsən əleyhissəlamın Müaviyə ilə vuruşmaq məqsədi yox idi. Elə xilafətin ilk günlərindən bu fikirdə idi ki, Müaviyədən maddi imkanlar alıb rahat yaşasın. Müaviyə ilə müxalifət edirdisə də, bu imkanları təmin etmək üçün edirdi.

Əldə olan tarixi sənədlər göstərir ki, bu töhmətlər tamamilə yalandır və tarixi həqiqətlərlə heç cür uyğun gəlmir. Çünki əgər İmam Həsən (əleyhissəlam) Müaviyə ilə vuruşmaq fikrində deyildisə, bəs nəyə görə ordu toplayırdı? Halbuki bütün tarixçilər deyirdilər ki, İmam Həsən (əleyhissəlam) ordu toplayıb döyüşə hazır oldu. Lakin bir tərəfdən İmam əleyhissəlamın ordusundakı dəstəbazlıq və pərakəndəliklər, digər tərəfdən də Müaviyənin xaincəsinə qurduğu hiylələr nəticəsində İmam əleyhissəlamın nizami qoşunu döyüş başlamazdan qabaq və heç bir vuruş olmadan bir-birindən ayrıldı və camaat İmam əleyhissəlamın ətrafından dağıldı. İmam Həsən (əleyhissəlam) da çarəsizlikdən döyüşməyib, sülhü qəbul etdi.

Buna əsasən, İmam Həsən əleyhissəlamın hərəkəti qiyam, müharibə elan etmək və ordu toplamaqla başladı, sonra da vəziyyəti və İslam cəmiyyətinin şəraitini dərindən yoxlayıb zamanın məsləhətinə uyğun olaraq şərti sülhlə nəticələndi.

İndi isə oxucuların nəzərini bu barədə daha geniş məlumata cəlb edirik.

## Əhdini danan camaat

Bir az bundan qabaq deyildiyi kimi İraq və Kufə camaatı sözübütöv və mütəşəkkil deyildi. Əksinə, onlar vəfasız, etimad edilməyən və hər gün bir bayraq altında yığışan (külək hara əsdi, ora meyl edən), mövcud olan vəziyyətdən və zəmanənin qüdrətindən istifadə edən adamlar idi. Elə buna görə də, İmam əleyhissəlamın ordusunda yaranan böhran və hər iki tərəfin öz qoşunlarını səfərbər etməsilə həmzaman Kufənin adlı-sanlı qəbilələrinin başçılarından bir neçəsi İmam Həsən əleyhissəlama xəyanət edərək

---

[1] Usdul-Qabə fi mə’rifətis-səhabə, c.2, səh.13-14; Əl-kamilu fit-tarix c.3, səh.406; Biharul-ənvar, c.44, səh.21.

Müaviyəyə məktub yazıb bildirdilər ki, onlar onun hökumətini himayə edirlər. Onlar məktubla Müaviyəni məxficə İraqa tərəf hərəkət etməyə dəvət edərək söz verdilər ki, Müaviyə İraqa yaxınlaşan kimi ya İmam Həsən əleyhissəlamı tutub ona verəcək, ya da ona sui-qəsd edəcəklər.

Müaviyə həmin məktubları olduğu kimi İmam Həsən əleyhissəlama göndərib bildirdi ki, bu cür insanlara arxalanıb döyüşə necə hazır ola bilərsən?[1]

## Xain sərkərdə

İmam Həsən (əleyhissəlam) Müaviyə ilə döyüşmək məqsədi ilə Kufəni tərk etdikdən sonra Übeydullah ibn Abbası on iki min nəfərlik döyüşçü ilə ordunun ön hissəsinə, özünün ən yaxın dostlarından olan Qeys ibn Səd və Səid ibn Qeysi[2] isə Übeydullaha müşavir və canişin təyin etdi. Belə ki, bu üç nəfərdən birinin başına bir iş gəlsəydi, növbə ilə digəri onun işini görməli idi.

İmam Həsən (əleyhissəlam) qoşunun hərəkət edəcək səmtini müəyyən edib belə göstəriş verdi ki, Müaviyənin qoşunu ilə rastlaşdıqda onların hərəkətinin qarşısını alıb İmamı bu işdən xəbərdar etsinlər və İmam da əsas ordu ilə onlara qoşulsun.[3]

Übeydullah ibn Abbas öz ordusunu hərəkətə gətirdi. Onun ordusu Məskin adlı bir yerdə Müaviyənin ordusu ilə üz-üzə gəldi və Übeydullahın ordusu elə oradaca düşərgə saldı. Az bir zamanda İmama xəbər çatdı ki, Übeydullah Müaviyədən bir milyon dirhəm alıb səkkiz min nəfərlə onun tərəfinə keçmişdir.

Təbii ki, bu sərkərdənin xəyanəti vəziyyətin böhran içində olduğu belə bir vaxtda ordunun ruhiyyəsinin zəifləməsinə və İmam Həsən əleyhissəlamın nizami mövqeyinin bir-birinə dəyməsinə çox böyük təsir göstərmişdi. Çox şücaətli, imanlı və Əli əleyhissəlamın ailəsinə qarşı vəfalı olan Qeys ibn Səd ordunun sərkərdəliyini öz öhdəsinə götürür və özünün ruhlandırıcı çıxışı ilə döyüşçülərin ruhiyyəsini artırmağa çalışır. Müaviyə onu da pulla ələ almaq istəyir, lakin Qeys ona aldanmayıb İslam düşmənlərinin qarşısında axıra qədər durur.[4]

## Xaincəsinə görülmüş hiylələr

Müaviyə təkcə Übeydullahı ələ almaqla kifayətlənmədi. Eyni zamanda o, İmam əleyhissəlamın ordusunu zəiflətmək və ordu arasında şayiə yaymaq məqsədilə öz casus və muzdurlarını İmam əleyhissəlamın başçılıq etdiyi orduya göndərdi. Onlar İmam əleyhissəlamın başçılıq etdiyi orduda belə bir şayiə yaydılar ki, Qeys (ön xəttin başçısı) Müaviyə ilə saziş bağlayıb, eyni zamanda Qeysin də ordusu arasında şayiə yaydılar ki, İmam Həsən (əleyhissəlam) də Müaviyə ilə sülh bağlamışdır. İş o yerə çatdı ki, Müaviyə camaatın gözündə zahirən yaxşı olan adamlardan bir neçəsini İmam Həsən əleyhissəlamın hüzuruna göndərdi. Onlar gəlib Mədain düşərgəsində İmam əleyhissəlamla görüşdülər. İmam əleyhissəlamın çadırından kənara çıxdıqda, camaat

---

[1] Əl-İraşd, səh.191.

[2] Yə'qubi öz kitabında Səid ibn Qeysin adını qeyd etməmişdir. Lakin digər tarixçilər onun adını yazmışlar.

[3] Məqatilut-talibin, səh.40.

[4] Məqatitul-talibin, səh.42.

arasında car çəkdilər ki, Allah Peyğəmbər (əleyhissəlam) nəvəsinin vasitəsi ilə fitnəni yatırtdı və müharibəni sakitləşdirdi. Həsən ibn Əli (əleyhissəlam) Müaviyə ilə sülh edərək camaatın qanının tökülməsinin qarşısını aldı.

Onlar özlərinə qarşı camaatın etimadını doğrultduqlarına görə heç kim araşdırma aparmadan onların sözlərinə inanıb İmam əleyhissəlamın əleyhinə qiyam qaldıraraq o Həzrətin çadırına hücum edib çadırda nə var idisə, hamısını qarət etdilər. Hətta İmam əleyhissəlamı öldürmək fikrinə də düşdülər. Ancaq sonradan hamı dağıldı.

## Xəvaricin xəyanəti

İmam Həsən (əleyhissəlam) (ordu ilə birgə) Mədaindən Sabata tərəf hərəkət etdi. Yolda gizlənmiş və qabaqcadan İmam əleyhissəlamı güdən xəvaricdən biri o Həzrətə güclü bir zərbə endirdi. İmam Həsən (əleyhissəlam) bu zərbə nəticəsində ağır yaralanaraq çoxlu qan itirdi və zəiflədi. İmam əleyhissəlamın bir neçə yaxın dostu onu yenidən Mədainə qaytardı. Mədaində İmam əleyhissəlamın halı aldığı zərbə nəticəsində çox ağırlaşdı. Bundan istifadə edən Müaviyə vəziyyəti tam ələ aldı. Lazım olan nizami ordunu itirib tək qalmış İmam Həsən (əleyhissəlam) məcbur olub sülh təklifini qəbul etdi.[1] Deməli, əgər İmam Həsən (əleyhissəlam) sülhü qəbul edibsə, bundan başqa çarəsi olmayıb. Necə ki, Təbəri və digər tarixçilər yazırlar: «Həsən ibn Əli (əleyhissəlam) yalnız ordusu onun başından dağılıb tək qaldığı halda sülhü qəbul etməyə razı oldu.»[2]

## Sülhün səbəbləri barədə İmam Həsən əleyhissəlamın buyurduqları

İmam Həsən (əleyhissəlam) onun sülhünə etiraz edən bir nəfərin cavabında bu acı həqiqətlərə işarə edərək öz sülhünün səbəblərini belə bəyan etdi:

*«Mən hökuməti Müaviyəyə onunla vuruşmağa heç bir tərəfdarım olmadığından həvalə etdim, əgər tərəfdarım olsaydı, gecə-gündüz onunla vuruşub işi birdəfəlik həll edərdim. Mən Kufə camaatını yaxşı tanıyıram və onları dəfələrlə sınamışam. Onlar islah olunmayacaq azğın insanlardır. Nə vəfalıdırlar, nə də ki, iki nəfəri bir-biri ilə yola gedirlər. Onlar zahirdə bizə itaət edir, batində isə bizim düşmənlərimizlə əlbirdirlər.»*[3]

İkinci İmam öz dostlarının bu süstlüyündən və ona arxa olmadıqlarından çox narahat olmuş və bir gün çox şiddətli bir xütbə söyləmişdir. Xütbədə bəzi məsələlərə işarə edib buyurmuşdur:

*«Nə dinləri, nə də abır-həyaları olmayan adamlara təəccüb edirəm! Vay olsun sizlərə! Müaviyə məni öldürmək üçün sizə verdiyi vədələrin heç birinə əməl etməyəcək. Əgər mən Müaviyəyə beyət etsəm, öz şəxsi vəzifələrimi indi olduğundan da yaxşı yerinə yetirərəm. Lakin hökumət Müaviyənin əlinə düşsə, o qoymayacaq mən öz cəddimin şəriətini cəmiyyətdə icra edim.*

*And olsun Allaha, (sizin xəyanətiniz səbəbindən) məcbur olub hökuməti Müaviyəyə təhvil versəm, yəqin bilin ki, Bəni–Üməyyənin hökumət bayrağı altında heç vaxt*

---

[1] Tarixi-Yə’qubi, c.2, səh.205.

[2] Tarixi-Təbəri, səh.92; Usdul ğabə, c.2, səh.14.

[3] Biharül-ənvar, c.44, səh.147.

*üzünüz gülməyəcək və cürbəcür əzab-əziyyətlərlə rastlaşacaqsınız. İndi elə bil öz gözlərimlə görürəm ki, sabah sizin uşaqlarınız onların uşaqlarının qapısı qarşısında durub onlardan su, çörək istəyəcəklər. Hansı ki, həmin su və çörəyi Allah sizin uşaqlarınız üçün qərar verib və sizin uşaqlar onun həqiqi sahibidirlər. Bəni–Üməyyənin uşaqları onları öz qapılarından qovub öz haqlarından məhrum edəcəklər.»*

Daha sonra İmam (əleyhissəlam) əlavə edib buyurdu:

*«Əgər Allah düşmənlərinə qarşı mübarizə etmək üçün silahdaşlarım olsaydı, heç vaxt hökuməti Müaviyəyə təhvil verməzdim. Çünki hökumət Bəni–Üməyyəyə haramdır...»*[1]

Müaviyənin çirkin hökumətinin mahiyyətini yaxşı tanıyan İmam Həsən (əleyhissəlam) bir gün Müaviyənin hazır olduğu bir məclisdə çıxış etmiş və çıxışında buyurmuşdur: *«And olsun Allaha, nə qədər ki hökumət Bəni–Üməyyənin əlindədir, xoş həyat görməyəcəksiniz.»*[2]

Bu, tənbəllik səbəbindən və gələcəkdə rahat yaşamaq məqsədilə Müaviyə ilə mübarizə etməkdən boyun qaçıran İraq əhlinə bir xəbərdarlıq idi. Daha onların xəbəri yox idi ki, Müaviyənin hökumətində heç vaxt öz arzularına çatmayacaqlar.

## Sülh müqaviləsi və İmam Həsən əleyhissəlamın məqsədləri

İmam Həsən (əleyhissəlam) yuxarıda qeyd etdiyimiz səbəblərə görə Müaviyə ilə vuruşmağı İslam cəmiyyətinin ali məsləhətləri və İslamın qorunub saxlanmasının zərərinə görüb atəşkəs və sülhü qəbul etmək məcburiyyətində qaldığı üçün öz ali və müqəddəs məqsədlərini mümkün olduğu qədər sülh yolu ilə həyata keçirməyə çox çalışdı. Digər tərəfdən də Müaviyə sülhü bərqərar etmək və qüdrəti ələ keçirtmək üçün hər cür imkanatı İmam əleyhissəlamın ixtiyarında qoymuşdu. Hətta Müaviyə İmam (əleyhissəlam) üçün möhürlənmiş ağ bir kağız göndərib bildirdi ki, İmam (əleyhissəlam) ona nə yazsa, Müaviyə qəbul edəcək və razılıq əlaməti olaraq qabaqcadan öz möhrünü də vurmuşdu.[3] İmam Həsən (əleyhissəlam) bu fürsətdən necə lazım idisə istifadə edərək İmam əleyhissəlamın ali məqsədlərindən hesab olunan əsas və mühüm məsələləri sülh müqaviləsində yerləşdirdi və Müaviyənin dilindən sülh müqaviləsinə əməl edəcəyinə zəmanət aldı. Tarixi qaynaqlarda sülh müqaviləsinin mətni tam, mükəmməl və tərtiblə deyil, pərakəndə şəkildə verilmişdir. Hər tarixçi onun bəzi maddələrini qeyd etmişdir. Ancaq bunların hamısını bir yerə yığdıqda, təxminən kamil şəkildə bir müqavilə düzəltmək olar. Kiçik bir baxışda İmam Həsən əleyhissəlamın sülh müqaviləsində qeyd etdiyi məsələlərə və onları həyata keçirməkdə etdiyi israr və təkidə nəzər salmaqla İmam Həsən əleyhissəlamın siyasi mübarizə zamanı düşməndən xal almaq üçün işlətdiyi fövqəladə tədbirini müşahidə etmək olar.

İndi sülh müqaviləsinin maddələrini ayrı-ayrılıqda araşdırmazdan qabaq beş maddədə cəmlənmiş sülh müqaviləsinin hamısını əziz oxucuların nəzərinə çatdırırıq.

---

[1] Cəlaul-uyun, c.1,səh.345-346.

[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.3,səh.405.

[3] Əl-Kamilu fit-tarix, c.3, səh.405; Əl-İstiab, c.1,səh371.

## Sülh müqaviləsinin mətni

**Birinci maddə**: Həsən ibn Əli (əleyhissəlam) hökuməti Müaviyəyə o şərtlə təhvil verir ki, Müaviyə hökuməti Quran qayda-qanunu və Peyğəmbərin (səlləllahu əleyhi və alih) sünnəsi əsasında idarə etməlidir.

**İkinci maddə**: Müaviyədən sonra hökumət Həsən ibn Əli əleyhissəlamın ixtiyarına keçməlidir. Əgər onun (İmam Həsən əleyhissəlamın) başına bir iş gələrsə, Hüseyn ibn Əli (əleyhissəlam) hökumət başına gələcək. Həmçinin, Müaviyənin özündən sonra canişin təyin etməyə haqqı yoxdur.

**Üçüncü maddə**: Əmirəlmöminin Əli əleyhissəlama namaz qılarkən hörmətsizlik edib onu söyməyin, lənətlənməyin qarşısı alınsın və o Həzrət yaxşılıqla yad edilsin.

**Dördüncü maddə**: Kufə beytül-malında olan beş milyon dirhəm pul Müaviyənin hökumətinə verilməkdən istisna olunur və həmin pulu İmam Həsən əleyhissəlamın özü lazımi yerlərə sərf edəcək. Həmçinin, Müaviyə beytül-maldan ayrılan payda Bəni Haşimi Bəni Üməyyədən üstün tutmalıdır. Eləcə də Müaviyə Darabegərd şəhərinin xəracının bir milyon dirhəmini Əli əleyhissəlamın rəhbərliyi altında Cəməl və Siffeyn döyüşlərində şəhid olanların ailələri arasında bölüşdürməlidir.[1]

**Beşinci maddə**: Müaviyə bütün əhaliyə, istər Şam, istər İraq, istərsə də Hicaz əhalisinə hər hansı millətdən olursa olsun, bir daha təqib etməməsi və əzab-əziyyət verməməsi barədə zəmanət verməlidir. Onları Müaviyənin hökumətinə qarşı keçmişdəki fəaliyyətlərinə görə axtarışa məruz qoymamalı, xüsusilə keçmiş kin-kudurətə görə İraq əhalisinə əziyyət verilməməlidir. Bundan əlavə, Müaviyə Əli əleyhissəlamın dostlarını harda olursa olsunlar amanda saxlamalı və onların heç birinə əziyyət etməməlidir. Əli əleyhissəlamın şiələrinin canı, malı və pulunun hörməti qorunmalıdır. Onlar əsla axtarışa məruz qalmamalı və onlara zərrə qədər də narahatçılıq yetişməməlidir. Hər kəsin haqqı onun özünə çatmalıdır. Əli əleyhissəlamın şiələrindəki beytül-mal onların özlərində qalmalıdır.

Həmçinin, Həsən ibn Əli (əleyhissəlam) və qardaşı Hüseyn ibn Əli (əleyhissəlam) və eləcə də, Peyğəmbərin (səlləllahu əleyhi və alih) ailəsindən olan hər hansı bir şəxs üçün Müaviyə tərəfindən heç bir xətər icad olmamalı, heç bir yerdə onlar üçün qorxu hissi yaranmamalıdır.

Müqavilənin sonunda Müaviyə maddələrin hamısına əməl edəcəyinə söz verərək Allahı bu işdə şahid tutdu və bütün Şam əyan-əşrafı buna şəhadət verdilər.

Beləliklə də, İmam Həsən (əleyhissəlam) hələ uşaq olarkən Peyğəmbərin (səlləllahu əleyhi və alih) gələcəkdən verdiyi xəbər həyata keçdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) bir gün İmam Həsən əleyhissəlamı (uşaq olarkən) minbərin başına çıxmış görüb buyurdu: *«Mənim bu övladım müsəlmanların ağasıdır. Allah onun vasitəsilə iki müsəlman dəstə arasında sülh yaradacaq.»*[2]

---

[1] Biharül-ənvar, c.44, səh.10.

[2] Təzkirətül-xəvas, səh.194; Usdul-ğabə, c.2, səh.12; Nurul əbsar, səh.121 və Ət-təbəqatul-kubra, c.1, səh.26; Ənsabul-əşraf, c.3, səh.42.

## İmam Həsən əleyhissəlamın Müaviyə ilə sülh etməkdə məqsədi

Dünyanın böyük şəxsiyyətləri, ölkə başçıları vəziyyətin öz məqsədləri ilə zidd olduğunu görüb iki yol ayrıcına çatanda, çalışırlar işi elə həll etsinlər ki, ziyanı az olsun. Bu da siyasi və ictimai gedişatda bir əsas kimi götürülmüşdür.

Bu məsələyə əsaslanaraq İmam Həsən (əleyhissəlam) da çalışırdı ki, öz yüksək məqsədlərini mümkün qədər təmin etsin. Buna görə də, Müaviyə ilə sülh etmək məcburiyyətində qalanda müqavilənin birinci maddəsinə əsasən, hökuməti Müaviyəyə bu şərtlə təhvil verdi ki, Müaviyə hökuməti Quran qayda-qanunları və Peyğəmbərin (səlləllahu əleyhi və alih) sünnəsi əsasında idarə etsin. Məlumdur ki, İmam əleyhissəlamın məqsədi qüdrəti ələ almaq və İslam hökuməti təşkil verməklə yanaşı həm də cəmiyyətdə İslam qayda-qanununu qoruyub saxlamaq və cəmiyyətə bu qayda-qanun əsasında rəhbərlik etmək idi. Əgər bu qayda-qanun Müaviyə tərəfindən də icra olunsaydı, yenə İmam əleyhissəlamın məqsədi az da olsa təmin olunardı. Buna əlavə olaraq ikinci maddəyə əsasən, Müaviyənin ölümündən sonra İmam Həsən (əleyhissəlam) İslam cəmiyyətinin rəhbərliyini azad şəkildə öz öhdəsinə götürə bilərdi. Müaviyənin otuz yaş İmam Həsən əleyhissəlamdan böyük olduğunu[1], o dövrdə artıq Müaviyənin qocalıq vaxtlarını keçirtməsini və adi halla onun ömrünün sonlarının yaxınlaşdığını nəzərə alanda, bu maddənin adi hesablamalar əsasında İslam və müsəlmanlar üçün nə qədər faydalı olduğu məlum olur. Müqavilənin digər maddələri də bu cür əhəmiyyət daşıyır. Çünki cümə namazında və eləcə də digər namazlarda Əli əleyhissəlamın rəsmi şəkildə heç bir qorxu olmadan lənətləndiyi, bu işin bir bidət kimi camaat arasında yayıldığı və Əli əleyhissəlamın şiə və dostlarının, eləcə də Peyğəmbərin (səlləllahu əleyhi və alih) ailəsinin (qohum-əqrəbasının) hər yerdə təqib olunduğu və tutularaq cürbəcür təzyiqlərə məruz qaldığı bir dövrdə bu işlərin bundan belə təkrar olunmayacağı barədə maddə yazıb onu Müaviyəyə qəbul etdirmək və Müaviyənin onlara əməl edəcəyi vədini onun dilindən almağın nə qədər böyük nailiyyət olduğunu inkar etmək mümkün deyil.

## Kufədə toplanış

Sülh müqaviləsi bağlandıqdan sonra tərəflər (İmam Həsən əleyhissəlamla Müaviyə) hərə öz ordusu ilə birlikdə Kufə şəhərinə gəlib şəhərin böyük məscidində bir yerə toplaşdılar. Camaat gözləyirdi ki, indi sülh müqaviləsinin maddələri hər iki tərəfin rəhbərliyinin iştirkı ilə camaat üçün oxunulacaq və daha onun icra olunacağında heç kimin şəkk-şübhəsi qalmayacaqdır.

Əlbəttə, camaatın bu intizarı heç də yersiz deyildi. Çünki camaat qarşısında çıxış etmək sülh proqramının əsaslarından biri idi. Buna görə də, Müaviyə minbərə çıxıb xütbəyə başladı. Ancaq o, nəinki sülhün maddələrinə əməl edəcəyi haqqında söhbət etmədi, hətta tənə və təhqirlə dedi: «Mən sizinlə namaz qılıb həcc yerinə yetirmək, zəkat ödəmək üçün vuruşmadım. Mən bilirəm ki, onsuz da siz bunları yerinə yetirirsiniz. Mən sizinlə ona görə vuruşdum ki, sizi özümə tabe edib hökuməti ələ keçirəm.»

[1] Həsən ibn Əli əleyhissəlamın sülhü, səh.278.

Daha sonra dedi: «Bunu bilin ki, Həsən ibn Əli əleyhissəlamla bağladığım sülh müqaviləsinin bütün maddələrini ayağım altına qoyub tapdalayıram və onların heç birinin dəyəri yoxdur.»[1]

Beləliklə də, Müaviyə İmam Həsən əleyhissəlamla bağladığı sülh müqaviləsini ayağı altına saldı və onu açıqcasına pozdu.

## Müaviyənin cinayətləri

Müaviyə bu siyasəti yürütdükdən sonra öz işlərini düzəltmək əvəzinə əksinə, cinayətlərini daha da artırdı. O, Əli əleyhissəlama əvvəlkindən daha çox hörmətsizlik etməyə başladı. Yaşayışı, Əli əleyhissəlamın vəfalı, böyük dost və şiələrinə həddən artıq darısqallaşdıraraq Hicr ibn Ədiyy kimi İslamın böyük şəxsiyyətlərini qətlə yetirdi. Əli əleyhissəlamın şiələrinə yönələn qətl, işkəncə və əzab-əziyyəti daha da şiddətləndirdi. Belə ki, Əli əleyhissəlamın əksər dostları ya tutulub həbs edilir, ya dərbədər düşür, ya da öz ev-eşiklərindən uzaq düşüb sıxıntılı mühitdə yaşayırdılar. Müaviyə təkcə Əli (əleyhissəlam) və şiələrinin hörmətinin qorunması maddəsini pozmaqla kifayətlənməyib hətta Darabegərd məntəqəsinin xəracına da müqavilədə olduğu kimi əməl etmədi.

Təbəri bu barədə yazır: «Bəsrə əhalisi Darabegərdin xəracını verməyib dedi ki, bu mal bizim beytül-malın olub və bizə məxsusdur.»[2]

İbn Əsir yazır: «Bəsrə əhalisi Darabegərd məntəqəsinin xəracını verməkdən boyun qaçırtdı. Onlar bu işi Müaviyənin göstərişi ilə etdilər.»[3]

## Xalqın oyanıb xəbərdar olması

Bir çox ardıcıl döyüşlər nəticəsində artıq vuruşmaqdan yorulub öz tayfa başçılarının sözü, Müaviyənin təbliğatçılarının hiyləgər tabliğatı və yağlı vədələri ilə sülh etməyə razılaşan camaat nə vaxtsa oyanmalı idi. Onlar döyüşə qarşı yorğunluq göstərməklə, Müaviyənin yalan və yağlı vədələrinə inanmaqla və kor-koranə öz tayfa başçılarının sözü ilə sülhü qəbul etməklə necə böyük səhvə yol verdiklərini anlamalı idilər. Bu isə təkcə bir yolla – öz gördükləri işin acınacaqlı nəticələrini görməklə mümkün idi. Bundan əlavə, müsəlmanlar Əməvi hökumətinin əsl və həqiqi sifətini görməli, onların cəmiyyətdə yaratdıqları çətinlikləri, məhrumiyyətləri, ardıcıl axtarışları və zülmləri öz gözləri ilə görməli idilər.

İmam Həsən əleyhissəlamın və onun ən yaxın dostlarının o həssas dövrdə həyata keçirmək istədiyi məsələ o idi ki, bu hadisələri olduğu kimi camaata göstərsinlər, camaatın ağıl və düşüncəsi nəticəsində onları Əməvi hökumətinin bu cür acınacaqlı işlərinin əleyhinə qiyama hazırlasınlar. Deməli, İmam Həsən (əleyhissəlam) sülh edibsə, bu ağır yükü boynundan atmaqdan ötəri sülh etməyib, əksinə ona görə sülh edib ki, mübarizəni başqa sahədə aparsın. Elə sülhdən sonra baş vermiş hadisələr də bu məsələyə kömək etdi və İraq əhalisini qəflət yuxusundan oyatdı. Təbəri yazır: «Müaviyə (sülh müqaviləsi bağlanandan sonra Kufə yaxınlığındakı) Nüxeylə adlı bir

[1] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.16, səh.15; İrşad (Şeyx Müfid), səh.191.
[2] Tarixül-üməmi vəl-mülük, c.6, səh.95.
[3] Əl-Kamilu fit-tarix, c.3, səh.405.

yerdə düşərgə saldı. Bu zaman xəvaricin bir dəstəsi Müaviyənin əleyhinə qiyam edib Kufə şəhərinə daxil oldu. Müaviyə Şam əhalisindən bir dəstəsini onlara qarşı vuruşmağa göndərdi, lakin xəvaric onları məğlubiyyətə uğratdı. Bundan sonra Müaviyə Kufə ordusuna xəbər göndərdi ki, xəvarici məhv etsinlər, əks təqdirdə Kufə əhalisi amanda olmayacaq.»[1]

Beləliklə, Əli əleyhissəlamın və İmam Həsən əleyhissəlamın ordusunda vuruşmağa razı olmayan İraq əhalisi onların və xəvaricin müştərək düşməni olan Müaviyə tərəfindən xəvariclə vuruşmağa məcbur oldular. Bu da onu göstərir ki, camaat Müaviyənin hökumətində arzuladığı sülh və asayişə heç vaxt çatmamışlar.

## Qorxu içində saxlamaq və aclıq siyasəti

Bundan əlavə, Müaviyə camaata qarşı insaniyyətdən uzaq olan bir siyasət də yeridirdi. Bu siyasəti qorxu içində saxlamaq və aclıq siyasətindən başqa bir şey adlandırmaq olmaz. O, bu yolla İraq əhalisini həyat səhnəsindən götürürdü. Müaviyə bir tərəfdən İraq əhalisini hər cür çətinliklər qarşısında qoyur, digər tərəfdən də onları öz hüquqlarından məhrum edirdi.

Sünni məzhəbinin görkəmli alimi ibn Əbil Hədid yazır: «Harada şiə var idisə, qətlə yetirilirdi. Bəni–Üməyyə tərəfindən şiə olduğunu ehtimal verən şəxslərin əl-ayaqları kəsilirdi. Peyğəmbərin (səlləllahu əleyhi və alih) ailəsinə məhəbbəti olanların hamısı ya həbs edilir, ya mal-dövlətləri müsadirə olunur, ya da evi viran edilirdi. Şiələrə qarşı təzyiqlər o qədər artmışdı ki, Əli əleyhissəlamı sevmək nisbəti küfr nisbətindən pis sayılırdı və onun ardınca acınacaqlı əzablar gözlənilirdi. Kin-küdurət doğuran bu siyasətin icrasında Kufə şəhərinin vəziyyəti hər yerdən pis idi. Çünki Kufə Əli əleyhissəlamın şiələrinin mərkəzi hesab olunurdu. Müaviyə Ziyad ibn Süməyyəni Kufənin valisi təyin etdi, sonradan Bəsrənin də hökumətini ona tapşırdı. Bir vaxtlar Əli əleyhissəlamın şiələrindən olan Ziyad onları çox yaxşı tanıyırdı. O, şiələri harada gizlənmişdilərsə, tapıb öldürdüyünü öldürdü, bəzilərini hədələyərək əl-ayaqlarını kəsdi, gözlərini çıxartdı, xurma ağaclarının budaqlarından asdırdı və onları İraqdan didərgin saldı. Belə ki, daha şiənin tanınmış şəxsiyyətlərindən heç biri İraqda qalmadı.»

## Kufə və Bəsrədə təzyiqlərin artması

Yuxarıda qeyd etdik ki, İraq əhalisi, xüsusən də kufəlilər hamıdan çox təzyiqlərə məruz qalırdılar. İş o yerə çatmışdı ki, onlar öz etibarlı, inamlı dostlarının evinə get-gəl edib bir gizli söhbət etmək istədikdə, ev sahibinin xidmətçisindən qorxduqları üçün ondan xəbərçilik etməyəcəyi barədə and almayınca sözə başlamazdılar.

Müaviyə ölkənin bütün valilərinə məktub yazıb onlara tapşırdı ki, şiə və Əli (əleyhissəlam) övladlarının şəhadətini də qəbul etməsinlər.

O, məktubların birində belə yazır: «Əgər iki nəfər bir nəfərin şiə olduğuna şəhadət verərsə, dərhal onun adını beytül-maldan silin və onu hüququndan məhrum edin.»[2]

[1] Tarixül-üməmi vəl-mülük, c.6, səh.95.
[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.11, səh.43-45.

Növbə ilə altı ay Kufədə, altı ay Bəsrədə vali olan Ziyad Bəsrədə olmadığı dövrdə öz işlərini Səmürə ibn Cündəbə tapşırırdı. Səmürə bu müddətdə (altı ayda) səkkiz min nəfəri qətlə yetirdi. Ziyad ona dedi: Qorxmursan ki, onların arasında biri günahsız olar? Səmürə dedi: "Onların iki bərabərini öldürsəm də, yenə qorxmaram."

Əbu Səvar Ədəvi deyir: «Səmürə bir gün hamısı Quranı əzbərdən bilən qırx yeddi qohumumu öldürdü.»[1]

## Sülh – Aşura hərəkatı üçün zəminə yaradan

Bu qorxulu hadisələr İraq əhalisini möhkəm oyatdı və əhali Əməvi hakimiyyətinin əsl mahiyyətini az da olsa, tanıdı. Onlar artıq sakit oturmaqdan, süst qalmaqdan bezmişdilər. Tayfa başçılarının İmam Həsən əleyhissəlamın sülhündən istifadə edib Müaviyənin «səxavətindən» bəhrələndiyi bir vaxtda İraqın adi əhalisi öz ayaqları ilə tərəfinə getmiş və öz əlləri ilə ona beyət etmiş Müaviyənin zalım hökumətinin əsl mahiyyətini yavaş-yavaş tanımağa başlayırdı.

Müaviyə Müğeyrə ibn Şübəni Kufəyə, Abdullah ibn Amiri isə Bəsrəyə başçı təyin etdi. Osmanın ölümündən sonra Bəsrədən çıxıb getmiş Abdullah yenidən oraya qayıtdı. Müaviyənin özü isə Şama gedib Dəməşqdə ölkə işlərinin tədbirinə başladı.

İraq camaatı hər dəfə Əli əleyhissəlamın dövründəki yaşayışlarını yada saldıqda, qəmgin olur və Əli əleyhissəlamı himayə etmədiklərinə görə peşmançılıq çəkirdilər. Eləcə də, Şam əhalisi ilə bağladıqları sülhə görə peşman olmuşdular. Onlar bir-biri ilə rastlaşanda, bir-birini danlayır, bir-birindən soruşurdular ki, görəsən, nə olacaq, nə etməliyik? Sülhdən bir neçə il keçməmişdi ki, Kufə şəhərinin nümayəndələri İmam Həsən əleyhissəlamı görüb onunla söhbət etmək və onun sözlərinə qulaq asmaq üçün Kufədən Mədinəyə get-gəl etməyə başladılar.[2]

Bu əsasa görə İmam Həsən əleyhissəlamın sülh dövrü gələcək günə qədər camaatın azğın Əməvi hökumətinə qarşı hazırlıq və döyüş üçün məşq etmək dövrü hesab olur. Elə bir gün ki, İslam cəmiyyəti artıq həmin gün mübarizə etmək üçün hazır olacaqdı.

## Qiyam etmək üçün hazırlığı bildirmək

İmam Həsən (əleyhissəlam) sülh edəndə, hələ camaatın düşüncə tərzi o dərəcəyə çatmamışdı ki, İmam əleyhissəlamın məqsədini təmin etsin. O zaman İslam cəmiyyəti arzu və istək zəncirlərinin əsiri idi. Bu həmin arzu və istək idi ki, camaatda məğlubiyyət ruhiyyəsi yaratmışdı. Buna görə də, İmam Həsən əleyhissəlamın qarşısında duran məqsəd camaatın fikrini Əməvi hökumətinə qarşı qiyama yönəltmək, camaata Əməvi hökumətinin həqiqi mahiyyətini başa düşüb fikirləşmək üçün fürsət verməkdən ibarət idi. Xüsusilə qeyd etmək lazımdır ki, İmam Həsən əleyhissəlamın Əməvi hökumətinin cinayət və zülmlərinə, onların Quran və İslam qayda-qanunlarını kəskin surətdə pozmasına işarə etməsi, camaatın fikrini tamamilə

[1] Tarixül-üməmi vəl-mülük, c.6, səh.132.
[2] Əli (əleyhissəlam) və övladları, səh.207.

oyadırdı. Yavaş-yavaş bu oyanış artdı və İraqın böyük şəxsiyyətləri İmam Hüseyn əleyhissəlamın yanına gəlib ondan qiyam etməsini istədilər.[1]

## Hadisələrin Mədinədə təsiri

İmam Həsən əleyhissəlamın şəhadətindən sonra İmam Hüseyn (əleyhissəlam) İmamət məqamını öz öhdəsinə götürdü. Bu vaxtlar Müaviyənin törətdiyi cinayətlər Mədinədə səs-küyə səbəb olmuş və İmam Hüseyn əleyhissəlamın böyük şiə şəxsiyyətləri ilə İraq, Hicaz və başqa yerlərdə təşkil etdiyi ictimai yığıncaqların əsas söhbətinə çevrilmişdi. Məsələn, Müaviyə Hicr ibn Ədiyy və onun yol yoldaşlarını öldürdükdən sonra Kufənin adlı-sanlı şəxsiyyətlərindən bir neçəsi İmam Hüseyn əleyhissəlamın yanına gedərək məsələdən onu xəbərdar etdilər. Bu xəbərin yayılması ilə bütün möminlər arasında hökumətə qarşı böyük nifrət hissi oyandı.

Bu məsələdən məlum olur ki, artıq o vaxtlar Əməvi hökumətinə qarşı müntəzəm olaraq müxalifətlər irəli sürülürdü. Bu müxalifətin təbliğatçıları və əsas aparıcı qüvvələr İmam Həsən əleyhissəlamın sayca az olan ən yaxın dostları idi. İmam Həsən (əleyhissəlam) öz ağıllı tədbiri ilə onların canını Müaviyənin apardığı çirkin bəlasından qoruyub saxlamışdı. Bu azsaylı dəstənin məqsədi o idi ki, qiyamın yetişməsi və camaatı qiyama hazırlamaq məqsədilə Müaviyənin hakimiyyəti dövrü ərzində törətdiyi bütün cinayətləri camaatın yadına salsın.[2]

## Nəyə görə İmam Həsən (əleyhissəlam) sülh, İmam Hüseyn (əleyhissəlam) isə qiyam etdi?

Ötən araşdırmalarda İmam Həsən əleyhissəlamın sülhünün səbəblərini aydınlaşdırdıq. Burada belə bir sual irəli gəlir ki, nəyə görə İmam Həsən (əleyhissəlam) sülh, İmam Hüseyn (əleyhissəlam) isə qiyam etdi? Əgər sülh etmək düzgün fikirdisə, bəs onda nəyə görə İmam Hüseyn (əleyhissəlam) Yezidlə sülh bağlamadı? Yox əgər vuruşmaq lazım idisə, onda nəyə görə İmam Həsən (əleyhissəlam) vuruşmadı?

Bu sualların cavabını bu iki böyük İmamın yaşadığı müxtəlif şəraitli dövrdə və Yezidlə Müaviyənin rəftarında axtarmaq lazımdır. İndi Müaviyə ilə Yezidin rəftarındakı fərqli cəhətlər haqqında az da olsa, sizə məlumat veririk.

## Müaviyənin baş aldatmaları

Müaviyə hakimiyyəti dövründə avam, aldadıcı plan və siyasətlərlə öz hökumətini şəri və İslami bir hökumət kimi göstərməyə çalışırdı. O, camaatın fikrini onun hökumətinin həqiqi İslam siyasətindən kənar olduğunu anlamaqdan yayındırırdı. Düzdür, Müaviyə əməldə İslamı təhrif etmiş və əsl İslam hökumətinin yerinə Əməvi hakimiyyətini gətirib çıxarmaqla İslami cəmiyyəti qeyri-İslami cəmiyyətə çevirmişdi, lakin bununla belə yenə də İslamın zahirinə əməl edir, zahirdə İslam qayda-qanunlarına riayət edirdi. Arada olan pərdələri cırmırdı, sarayında azca da olsa,

---

[1] İmam Hüseyn (əleyhissəlam) yanına gələnləri İmam Həsən əleyhissəlamın yanına göndərərək bildirirdi ki, indi ayağa qalxmaq vaxtı deyil. Nə qədər ki, Müaviyə sağdır, inqilab heç cür baş tutmayacaq.

[2] İmam Hüseyn (əleyhissəlam) inqilabının araşdırılması, səh.178-179.

İslamın zahiri qayda-qanunlarını dəyişməyə qoymurdu. O, çox yaxşı bilirdi ki, din və İslam xilafəti adı ilə camaata başçılıq edir. Buna görə də, aşkarda elə bir iş görməməli idi ki, camaat o işi dinə qarşı mübarizə kimi qələmə versin. Çünki Müaviyə də elə bu dinə əsasən, camaata rəhbərlik edirdi. Əksinə, o tutduğu mövqeyə uyğun olaraq həmişə öz əməllərini din çərçivəsində yerləşdirirdi. İslam və din qayda-qanunlarına uyğun olmayan işləri isə gizlində görürdü.

Bundan əlavə, Müaviyə çətinlikləri həll etməkdə və müşkülatı yoluna qoymaqda fövqəladə bir siyasət işlədirdi. Çətinlikləri xüsusi yollarla həll edirdi. Ancaq Yezid bu cür siyasət yeritmirdi. Elə bu iki səbəbə görə Müaviyənin hakimiyyəti dövründə qiyamın qələbə ilə nəticələnməsi və şəhadətin müsbət təsir verəcəyi sual altında qalırdı. Çünki camaat o vaxt Əməvi hakimiyyətinə qarşı qiyam etməyi düzgün hesab etmirdi. O vaxt camaatda Əməvi hakimiyyətinə qarşı hələ nifrət hissi oyanmamışdı. Cəmiyyətin ümumi fikri Müaviyənin İslamdan kənar olduğunu hələ anlamadığına görə, bəzi gözlənilməz ünsürlər səbəbindən İmam Həsən əleyhissəlamın Müaviyə ilə mübarizəsi haqqın batilə qarşı mübarizəsi kimi yox, hakimiyyət uğrunda mübarizə kimi hesab olunurdu. Belə bir vaxtda şəhid olmaq qiyamın məqsədlərini irəli aparmaqda heç bir kömək etməz, camaatın ümumi rəyi səhv formalaşar və bununla da, həqiqət heç olardı.

## Münasib olmayan mühit

Yuxarıda qeyd etdik ki, Müaviyənin dövründəki siyasi vəziyyət elə bir halda deyildi ki, bir nəfər islahedici müəyyən bir yolla işi həll edə bilsin. Cəmiyyət öz ağlı ilə öz yolunu təyin edə biləcək səviyyədə deyildi. Əksinə, onda vəziyyət elə idi ki, o vəziyyətdə hər hansı bir islahedici fəsad rəhbərlərin əməllərini gözləməli, fürsət düşdükdə öz imkanlarını, ətrafdakıları və düşmənlə mübarizəsini nəzərə almaqla əks tədbirlər görməli idi. Bununla da, “məğlub olmuş həqiqət”ə “qalib gəlmiş yalan” qarşısında qələbə qazandırmalı idi. İmam Həsən əleyhissəlamın dövründəki əsas müşkül də elə bu idi. O dövrdə şəhadət lazımi şərait istəyirdi ki, fərdi şəhadətdən çıxıb ictimai şəhadətə çevrilsin. Şəhidin qanı camaatda yeni fikir yaratmalı idi.

Tarixi faktlar göstərir ki, İmam Həsən (əleyhissəlam) onun ətrafına toplaşmış süst ordu ilə (onların gördükləri bəzi işləri sizin nəzərinizə çatdırmışıq) ayağa qalxıb Müaviyə ilə vuruşsaydı, onu tezliklə bir qəhrəman kimi şəhid etməzdilər. Onu əsir tutardılar. Müaviyə istəyirdi ki, özünün və ailəsinin (qohum-əqrabasının) İslam ordusu qarşısında rüsvayçılığını və bu orduu tərəfindən əsir olunmalarının əvəzini Məhəmmədin (səlləllahu əleyhi və alih) ailəsinin böyüklərindən birini əsir tutmaqla çıxsın. Deməli, əgər İmam Həsən (əleyhissəlam) məğlub olsaydı, qəhrəman bir şəhid kimi (Aşurada olduğu kimi) öldürülməz, Müaviyə tərəfindən əsir olar və nəhayət müəmmalı şəkildə öldürülərdi. Bu da o dövrdə haqqa dəyəcək böyük bir ziyan olardı. Əgər İmam Həsən əleyhissəlamın ordusu Müaviyənin ordusu ilə döyüşdə məğlub olsaydı, Müaviyənin ordusu müsəlman şəhərlərinə hücum edib bacardığı qədər əhalini qırardı. Xüsusilə də, Həzrət Əli (əleyhissəlam) və İmam Həsən əleyhissəlamın tabeçiliyində olan Məkkə, Mədinə, Kufə, Bəsrə və digər şəhərləri talan edərdi.

Beləliklə də, ölənlərin sayı Kərbəladan fərqli olaraq məhdud qalmaz və həddi aşıb-daşardı. İmamın qarşısını aldığı hədər qanın tökülməsi də elə bu idi.[1]

Bəlkə də elə bu səbəblərə görə (və İmam Hüseyn əleyhissəlamın İmam Həsən əleyhissəlamın sülhünə razılıq bildirmək məqsədilə) İmam Hüseyn (əleyhissəlam) qardaşının şəhadətindən sonra Müaviyənin son on il hakimiyyəti dövründə, yəni, təxminən hicrətin əllinci ilindən altımışıncı ilinədək qiyam etmədi. İmam Hüseyn (əleyhissəlam) o vaxt münasib fürsətin ələ düşməsi üçün günləri sayır və camaatın ümumi fikrini oyatmaqla kifayətlənirdi. Çünki İmam Hüseyn (əleyhissəlam) əgər o vaxt qiyam etsəydi, bu qiyam İslam cəmiyyətində necə nəticələnəcəyi və camaatın fikrində necə cilvələnəcəyi məlum deyildi.

## Yezid – İslam cəmiyyətinin nifrətamiz siması

Yuxarıda dediyimiz məsələlər Yezid barəsində tamamilə əksinədir. Çünki Yezidin, həm atası Müaviyənin yeritdiyi siyasətdən başı çıxmırdı, həm də din adı altında camaata rəhbərlik etdiyi İslam dininin zahirindən də çox uzaq idi.

Yezid hələ bişməmiş, şəhvətpərəst, özbaşınalıq edən, ehtiyat və uzaqgörənlikdən uzaq olan bir gənc idi. O, ağılsız, qorxusuz, kefcil, əyyaş və çox aşağı səviyyəli fikir düşüncəsinə malik olan bir adam idi.

Hakimiyyətə gəlişindən qabaq həvayi-nəfsinin qulu və dünya təmayüllü Yezid hakimiyyətə gəldikdən sonra da, atasından fərqli olaraq heç İslamın zahirinə də əməl etmirdi. O, hətta zahirdə də özünü dindar və imanlı bir şəxs kimi göstərmirdi. Əksinə, qorxusuzluğu nəticəsində İslamın zahiri qayda-qanunlarını da pozur və şəhvətini doyuzdurmaqdan ötrü əlindən gələni edirdi. O, açıq-aşkar şərab içir və açıqcasına fitnə-fəsad törədirdi. Yezid siyasi nöqteyi-nəzərdən o qədər zəif idi ki, İslamla barışmaz düşmən olan və cahiliyyət dövrünü xatırladan Bəni–Üməyyə hakimiyyətinin əsl mahiyyətini camaata aşkar etdi. Yezidin bu qanun pozuntuları və işlərə laqeyd yanaşması artıq onun xilafət məqamını qoruyub saxlamağa ləyaqəti olmadığını və müsəlmanların rəhbəri olmasına səlahiyyəti çatmadığını hamıya sübut etmişdi. Buna əsasən, Bəni–Üməyyə hakimiyyətinin muzdurları İmam Hüseyn əleyhissəlamın qiyamını camaatın fikrində müttəhəm edə bilməzdilər. Çünki camaat Yezidin dini qayda-qanunlarla heç cür uyğunluğu olmayan işlərini öz gözləri ilə görürdü. Elə Yezidin bu rəftarı onun hökumətini devirmək üçün qiyam etmək fikrini camaatda oyatmaq üçün mühüm amil hesab olunurdu. Belə bir dövrdə camaat İmam Hüseyn əleyhissəlamın qiyamını siyasi ixtilaf və vəzifə üstündə mübarizə kimi yox, Peyğəmbər (səlləllahu əleyhi və alih) balasının İslamı qorumaq məqsədilə batil hökumət əleyhinə mübarizəsi kimi qələmə verirdi.

## Qiyamçılar qüvvə toplayır

İmam Hüseyn əleyhissəlamın qiyamının başqa bir səbəbini də, İmam Həsən əleyhissəlamın sülhündən sonra şiələrin dəvətinin genişlənməsində və ümumi fikrin oyanmasında axtarmalıyıq. Çünki İmam Həsən əleyhissəlamın sülhündən sonra Əməvi hökumətinə qarşı yaranmış hərəkat günbəgün artır və hərəkatın dairəsi

[1] İmam cəmiyyət gözündə, səh.121, 133, 171.

genişlənirdi. Müaviyənin də siyasəti istər bilərəkdən, istərsə də, bilməyərəkdən bu hərəkatın genişlənməsinə gətirib çıxarmışdı. Çünki İmam Həsən əleyhissəlamın şəhadətindən sonra meydanı bir az açıq görən Müaviyə get-gedə vəziyyəti camaata (xüsusən də, Əli əleyhissəlamın şiələrinə) çətinləşdirir və əlindən gələn zülmü edirdi. Müaviyənin müsəlmanların hüquqlarına dəfələrlə təcavüz etməsi və onun ordusunun günahsız insanları qırması, yaxud əziyyət verməsi, sülh müqaviləsini pozması, sülh müqaviləsində qeyd olunanın əksinə olaraq özündən sonra Yezid üçün vəliyyi-əhd adı ilə camaatdan beyət alması, nəhayət İmam Həsən əleyhissəlamı zəhərləməsi Bəni–Üməyyə hakimiyyətini daha da ləkələyən və onun mövqeyini bir qədər də zəiflədən məsələlər idi. Bu hadisələr şiələrin birləşməsi və Əməvi hökumətinə qarşı cəbhənin güclənməsinə və tədricən İmam Hüseyn əleyhissəlamın qiyamının başlanmasına səbəb oldu.

Görkəmli Misir alimi və yazıçısı doktor Taha Hüseyn sülh müqaviləsindən sonra Müaviyənin şiələri tənə və tənqid etməsini qeyd edərək yazır: «Müaviyənin son on il hakimiyyəti dövründə şiələrin işi artdı və onların dəvəti İslam ölkəsinin Şərqində və ərəb məntəqələrinin Cənubunda həddən artıq yüksəliş tapdı. Belə ki, Müaviyənin ölümü zamanı camaatın əksəriyyəti, xüsusən də, İraq əhalisi Müaviyəni lənətləməyi və Əhli-beyt məhəbbətini özlərinə bir dini vəzifə kimi hesab edirdi.»[1] Beləliklə də, İslam cəmiyyəti Əməvi hökumətinin həqiqi simasını kifayət qədər tanıdı. Onlar bu hökumətin işkəncələrini kifayət qədər daddılar və bu hökumətin müsəlmanların hüquqlarına etdiyi təcavüz və zülmləri gördülər. Bu hökumətin Müaviyənin hakimiyyəti dövründə üzünə keçirdiyi üzlük kənara çəkilərək camaat onun həqiqi qiyafəsini tanıdı. Bunun da nəticəsində Müaviyənin ölümü və İslam cəmiyyətinin oyanması ilə Müaviyənin dövründə baş tutacaq bir qiyama mane olan səbəblər aradan qaldırıldı və Əməvi hökumətinə qarşı qiyam üçün yol açıldı. Belə bir vaxtda Hüseyn ibn Əli (əleyhissəlam) azğın Bəni–Üməyyə hökumətinə qəti zərbə endirərək o böyük və misilsiz qiyamı həyata keçirtdi.

## İlhamverən qiyam

İmam Hüseyn əleyhissəlamın qiyamı cəmiyyətdə böyük dönüş yaradaraq vəziyyəti dəyişdirdi. Bütün fikirləri Əməvi hökumətinə qarşı yönəldərək «Təvvabin» qiyamı, Mədinə əhalisinin qiyamı, Muxtari-Səqəfinin qiyamı, Zeyd ibn Əli ibn Hüseyn əleyhissəlamın qiyamı və bir neçə başqa ardıcıl qiyamlara səbəb oldu. Əgər bu qiyam İmam Həsən əleyhissəlamın dövründə və o Həzrətin başçılığı altında həyata keçsəydi, heç bir nəticəsi olmayacaqdı.

İmam Hüseyn (əleyhissəlam) həqiqətdə öz əziz qardaşının tutduğu proqramla irəliləyirdi. Çünki İmam Həsən (əleyhissəlam) son dərəcə vüqarla kütbeyin insanların səhvlərinə dözərək o dövrün həqiqətlərinin üstü-örtülü olması nəticəsində sülh imzalamaqla yavaş-yavaş qiyam üçün zəminə yaradaraq camaatın beynində inqilabi fikirlər oyatdı. Elə ki şərait tamamilə hazır oldu, Hüseyn ibn Əli (əleyhissəlam) fəsad mərkəzinə hücumun rəhbərliyini öz öhdəsinə götürdü.

[1] Əli (əleyhissəlam) və övladları, səh.298

## Tərəfdarların fərqi

İmam Həsən əleyhissəlamla İmam Hüseyn əleyhissəlamın yaşadığı dövr arasındakı fərqdən əlavə, bu iki İmamın tərəfdarları arasındakı fərqi də nəzərə almaq lazımdır. İrəlidə qeyd etmişdik ki, İmam Həsən əleyhissəlamın ordusu bir şayiə eşitməklə bir-birinə dəydi və bəziləri İmamın çadırına hücum edərək hətta onun ayağı altındakı xalçanı da qarət etdilər. İmamla Şam ordusuna qarşı vuruşmaq və bu yolda can vermək istəyənlərin özləri fitnə yaradaraq İmamı tək qoydular. İndi onları İmam Hüseyn əleyhissəlamın tərəfdarları ilə müqayisə edin. İmam Hüseyn əleyhissəlamın tərəfdarları Aşura gecəsi (Tasua günü) (İmam Hüseyn əleyhissəlama) deyirdilər: *«And olsun Allaha, əgər bilsək ki, öldürüləcəyik, sonra bizi dirildib yenə öldürərək yandırıb külümüzü küləyə verəcəklər və bu işi yetmiş dəfə təkrarlayacaqlar, sənin yolunda can verməmiş yenə səndən ayrılmarıq. Ölmək ki, bir dəfədən çox deyil! Özü də şəhadətə yetişmək kimi ölmək. Bu, əbədi səadət və izzətdir!»*

Bəli, bu cür insanlarla bəşəriyyət tarixində «şəhadət» adlı bir şövq, göylərdə «Aşura» adlı bir zümzümə yaratmaq olar. Lakin o cür şəxslərlə (İmam Həsən əleyhissəlamın dövründəki adamlarla) nə qələbə mümkündür, nə də şəhadət. Onlar adamı əl-qolu bağlı düşmənə təhvil verər və adama əsirlik zillətindən başqa heç bir şey nəsib etməzlər. İmam Həsən əleyhissəlamın mübarizə səngərini dəyişməsinin səbəbi də elə bu idi. Başqa sözlə desək, İmam Həsən (əleyhissəlam) mübarizə məqsədini yox, formasını dəyişdi. Elə bil ki, nəqliyyat vasitəsi gedə-gedə namaz qılan şəxs nəqliyyat vasitəsi sağa-sola dönərkən o da yerini dəyişir, ancaq cəhəti (qibləyə tərəf durmaq) olduğu kimi qalır. Haqq tərəfdarlarının məqsədi də daima batilə qarşı mübarizə etmək olub. İstər bu mübarizə Aşurada (Kərbəla çölündə), istər Kufənin məhəllə və küçələrində, istər Mədinə məscidində, istər Bağdad zindanında və istərsə də ayrı yerlərdə olsun.

İmam Həsən (əleyhissəlam) o dövrdə haqq-ədalətin yayılmasına böyük mane olan Müaviyəni hədəf tutmuşdu. Bu ali məqsədə gah ordu hazırlamaqla yetişmək istəyir, gah da sülhü qəbul etmək tədbiri ilə.[1]

## Bir vəzifənin iki tərəfi

Mücahid Əllamə Seyyid Şərəfüddin Amili görkəmli alim Şeyx Razi Ali-Yasinin çox dəyərli olan «Sülhül-Həsən» (İmam Həsən əleyhissəlamın sülhü) adlı kitabına yazdığı ön sözdə deyir: «...İmam Həsən əleyhissəlamın ən əsas məqsədi o idi ki, cəddi Peyğəmbərin (səlləllahu əleyhi və alih) dinini aradan aparmaq üçün çəkilmiş planların qarşısını almaq üçün bu zalımların üzündəki pərdəni götürüb onları camaata olduğu kimi tanıtdırsın. İmam bu məqsədinə tam şəkildə nail oldu. Əməvilərin çirkin üzündəki pərdə götürüldü və onların həqiqi siması aşkar oldu. (Bu nemətə görə Allaha şükr olsun!) İmam Həsən əleyhissəlamın bu tədbirinin nəticəsində qardaşı İmam Hüseyn (əleyhissəlam) həqiqəti üzə çıxaran və ağıl sahiblərinə ibrət dərsi olan o böyük inqilabı həyata keçirtdi. Bu iki qardaş bir işin iki tərəfi idi. Hər birinin öz işi və öz vəzifəsi yerində, özünəməxsus şəraitdə bu işi icra etmək və çətinliklərə dözmək baxımından, eləcə də fədakarlıq və canfəşanlıq göstərmək baxımından bir-biri ilə tam

[1] İmam cəmiyyətin gözündə, səh.129-130.

uyğun gəlir. İmam Həsən (əleyhissəlam) öz canını bu yolda qurban verməkdən əsirgəmədi. İmam Hüseyn (əleyhissəlam) Allah yolunda canından keçməkdə heç də İmam Həsən əleyhissəlamdan irəli deyil. Əsas məsələ budur ki, İmam Həsən (əleyhissəlam) öz canını sakit və aram cihadda (soyuq müharibədə) qurban verdi. Elə ki, sükutu qırmağın vaxtı yetişdi, Kərbəla şəhadəti meydana çıxdı. Elə bir şəhadət ki, İmam Hüseyn əleyhissəlamın başına gəlməzdən qabaq İmam Həsən əleyhissəlamın başına gəlmişdi.

Nəzər sahibləri olan düşüncəli insanların fikrincə Sabat günündəki fədakarlıq hadisəsi Aşura gününün hadisəsindən daha artıq olmuşdur. Çünki İmam Həsən (əleyhissəlam) həmən gün fədakarlıq səhnəsində səbirli və dözümlü bir qəhrəman rolunu məğlub olub əldən düşmüş bir şəx simasında oynadı. Buna görə də, Aşura şəhadəti ilk növbədə İmam Həsən əleyhissəlama sonra isə İmam Hüseyn əleyhissəlama yetişmişdi. Çünki Aşura hərəkatının əsas banisi İmam Həsən (əleyhissəlam) olmuş, İmam Hüseyn (əleyhissəlam) isə onu sona çatdırmışdır.

İmam Həsən əleyhissəlamın qiyamının həqiqəti, öz səbr və hikməti sayəsində aşkar etməyə bağlı idi. İmam Hüseyn əleyhissəlamın parlaq qələbəsinin səbəbi də, məhz həqiqətin bu cür aşkara çıxması idi. Elə bil ki, İmam Həsən əleyhissəlamla İmam Hüseyn (əleyhissəlam) (İslamın ziddinə olan Əməvi hökumətinin əsl mahiyyətini aşkar etmək və camaatı qəflət yuxusundan oyatmaq üçün) müttəfiq olaraq bir proqram əsasında hərəkət etmiş və hər biri bir rolda çıxış etmişlər. Təkcə fərq budur ki, İmam Həsən (əleyhissəlam) öz rolunu hikmətli səbr əsasında, İmam Hüseyn (əleyhissəlam) isə mərdcəsinə qiyam etmək əsasında ifa etmişdir. Beləliklə də, bir məqsədə çatmaq üçün mükəmməl bir taktika yaranmışdır.

Sabat və Kərbəla hadisəsindən sonra camaat oyanıb hadisələr və vəziyyətin gedişi haqqında və Bəni–Üməyyə hakimiyyətinin əsl mahiyyəti barədə fikirləşməyə başladı.»[1]

Bu həqiqətləri nəzərə alaraq deyə bilərik ki, əgər İmam Hüseyn (əleyhissəlam) öz əziz qardaşı İmam Həsən əleyhissəlamın vaxtındakı şəraitdə olsaydı, eynilə İmam Həsən əleyhissəlamın gördüyü işi görəcəkdi. Eləcə də, İmam Həsən (əleyhissəlam) İmam Hüseyn əleyhissəlamın yerində olsaydı, eynilə İmam Hüseyn əleyhissəlamın gördüyü işi görəcəkdi. Çünki bu iki İmam hərə öz vaxtının şəraitinə uyğun olaraq öz vəzifələrini yerinə yetirmişlər.

İslam peyğəmbəri bu hadisələri nəzərə alaraq öz uzaqgörənliyi ilə bu iki övladı barədə buyurmuşdur: *«Həsən (əleyhissəlam) və Hüseyn (əleyhissəlam) İslamın iki İmamıdırlar. İstər sülh etsinlər, istərsə də qiyam.»*[1]

## Sülh, yoxsa məsləhət?

Bu bölməni Tehran şəhərində çap olunmuş «Günün qadını» jurnalından götürülmüş «Sülh, yoxsa məsləhət?» adlı başlıqla yekunlaşdırırıq.

İmam Həsən əleyhissəlamın sülhünü, başqa sözlə desək, Müaviyə ilə bağladığı atəşkəsi bəlkə də, İslam dünyasında İmamət məqamının ən çətin mərhələlərindən biri

[1] İmam Həsən əleyhissəlamın sülhü, səh.20-21.

[1] Mənaqibi-Ali-Əbutalib, c.3, səh.394.

kimi adlandırmaq olar. Tarixin bu inqilabi hərəkəti və onun insanı üzən çətinliklərinə dözmək həmişə mübahisələr törətmiş və suallara səbəb olmuşdur. Bu hadisənin acınacaqlı çətinliklərinə Həzrət Əli əleyhissəlamın oğlu İmam Həsən (əleyhissəlam) imana nisbət öz ali məqamı ilə dözmüş, ondan başqa heç kəs bunlara dözməmiş və dözə də bilməz. Ancaq təəssüflər olsun ki, qərəzi olanlar qərəz məqsədi ilə, cahillər də öz nadanlıqları nəticəsində bu cür iman əsasında çəkilmiş planı təhrif etmiş və pis mənalara yozmuşlar.

İmamların hamısı təqva nümunəsi və hərənin özünəməxsus yolu olmuşdur. Təqva hamısında müştərək cəhət olmuş, yolları isə bir-birindən fərqlənmişdir.

Əli əleyhissəlamın seçdiyi yol iki hissədən – sükut və qiyamdan təşkil olmuş və ümməti qabağa aparmışdır. İmam Həsən əleyhissəlamın yolu birinci mərhələdə, İmam Hüseyn əleyhissəlamın yolu isə ikinci mərhələdə atalarının yolu kimidir. Əli (əleyhissəlam) sükut etmədən qiyam edib xəbərdaredici və həyatverən şəhadətə çatmazdı. İmam Hüseyn əleyhissəlamın da fəryadı və canfəşanlığı qardaşının sülhü olmadan özünü tarixə sala bilməzdi.

İmam Həsən əleyhissəlamı öz sağlamlığını güdən bir şəxs kimi fikirləşənlər və eləcə də, şur və həyəcan nəticəsində İmam Həsən əleyhissəlamın da şəhadəti seçib Sabatda (Sabat sülh müqaviləsi bağlanan yerin adıdır. Onunla əlaqədar olaraq sülh bağlanan günün də adı Sabat günü adlandırılmışdır. İmam Həsən əleyhissəlamın bu sülhü inqilabi və tarixi bir hadisə olmuş, başqa sözlə desək, İmam Həsən əleyhissəlamın Aşurası olmuşdur.) yeni bir Aşura, Kufədə yeni bir Kərbəla yaratmasını arzulayanların hamısı səhv fikirdədir.

## Yol seçmək mübarizənin ən əsas cəhətidir

Ola bilsin şəhadətə dözmək İmam Həsən (əleyhissəlam) üçün daha asan olardı. Ancaq o da, təkcə İslam və müsəlmanları fikirləşməli və mübarizənin ən əsas yolunu seçməli idi. Bir az fikirləşdikdə, görürük ki, İmam Həsən əleyhissəlamın dövründə sülhdən başqa heç bir yol yox idi. O da ancaq yaxşı ölmək və məqsədə çatmaq üçün idi. Əgər İmam Həsən (əleyhissəlam) tək qaldığı bir dövrdə qardaşı kimi qiyam edib şəhid olsaydı, İmamət xətti qırılardı. Əgər İmam Həsən əleyhissəlamın da qardaşı Hüseyn (əleyhissəlam) kimi yetmiş iki dostu olsaydı, bəlkə o da, İmam Hüseyn (əleyhissəlam) kimi qiyam edərdi. Ancaq düşmən onun ordusunu başından uzaqlaşdırdığı və hətta İmam əleyhissəlamın öz arvadını onu zəhərləmək üçün razı saldığı, İmam əleyhissəlamın ordusunun başçılarını İmam əleyhissəlamı qolubağlı Müaviyəyə təslim etmək üçün pulla aldatdığı və nəhayət İmam əleyhissəlamın qiyam üçün kömək istəyəcəyi bir ordunun başçısını İmam əleyhissəlamın öz əleyhinə qiyama qaldırdığı bir halda, İmam əleyhissəlamın sülhdən başqa çarəsi vardımı? İmam əleyhissəlamın etibar edəcəyi təkcə insan var idisə, o da İmam Hüseyn (əleyhissəlam) idi. Ancaq onu da sabahın Aşurası gözləyirdi. Əgər Kərbəla şəhadətinin İmam Hüseyn əleyhissəlamın başına gəlməzdən qabaq İmam Həsən əleyhissəlamın başına gəldiyini qeyd etməsək və İmam Həsən əleyhissəlama Sabat günü fədakarlıq meydanında məğlub olmayan bir qəhrəman rolunu məzlum və əldən düşməmiş məğlub (yəni, sülhü məcbur olub qəbul etmişdir) bir şəxs simasında ifa etməsinə nəzər salmasaq, insafsızlıq etmiş olarıq.

Əgər İmam Həsən (əleyhissəlam) Müaviyə ilə sülh sazişi bağlamasaydı və həmən sülhün pozulması sınağı camaat üçün irəli gəlməsəydi, şübhəsiz ki, İmam Hüseyn əleyhissəlamın qiyamı da baş tutmayacaqdı. Əgər İmam Həsən (əleyhissəlam) Müaviyəni özündən sonra canişin təyin etmək hüququndan məhrum etməsəydi və Müaviyə Yezidi özündən sonra canişin təyin etməklə bu maddəni pozmasaydı, nə İmam Hüseyn əleyhissəlamın qiyam etməyə bir səbəbi olardı, nə də onun ardıcılları ona bəraət qazandırmaq üçün bir sübut tapa bilərdilər.

## Sabat və Aşura – Əməvilərin çirkin cahiliyyətinin ifşaçısı

O vaxtın camaatı Sabat və Aşura hadisələrinə nəzər salıb Əməvilərin çirkin cahiliyyətini açıq-aşkar gördü. Gördülər ki, İmam Həsən (əleyhissəlam) sülh bağladı, ancaq Müaviyə sülhün şərtlərini pozaraq beş maddənin heç birinə riayət etmədi. Nə öz hakimiyyəti dövründə Quran və Peyğəmbər (səlləllahu əleyhi və alih) sünnəsi ilə hərəkət etdi, nə özündən sonra hakimiyyəti onun əsl sahibinə verdi, nə xəlifə seçməyi şuraya tapşırdı, nə minbərin hörmətini Əli əleyhissəlamı söymək üzündən qoruyub saxladı, nə söz verdiyi (Darabegərd məntəqəsinin) xəracını verdi, nə də Əli əleyhissəlamın şiələrini kişilikdən uzaq olan əzab-əziyyətlərdən qorudu. Nəhayət İmam Həsən əleyhissəlamı da zəhərlədi.

## Ən böyük istək və bacarmamaq

İmam Həsən əleyhissəlamın sakit, İmam Hüseyn əleyhissəlamın isə səs-küylü qiyamı nəticəsində gizli məsələlər üzə çıxaraq gizli fikirlər aşkar oldu. Bu, İslamın İmam Həsən əleyhissəlamda gizlənmiş qəzəbi idi. Bu qəzəb İmam Həsən əleyhissəlamda qalaraq İmam Hüseyn əleyhissəlamın bədənində cuşa gələn İmamət bünövrəsinin qanına çevrildi.

İmam Həsən (əleyhissəlam) istəyib, ancaq istədiyini yerinə yetirə bilməməyin bir nümunəsi idi. O, elə bir mücahid idi ki, döyüşlərdəki şücaəti hamını heyran qoymuş və elə bir övlad idi ki, atasının rəşadət məktəbindən şəhadət məktəbinə qədər ondan bəhrələnmiş və irs aparmışdı. İmamət meydanındakı vəzifəsini təkcə sülhdə görüb necə böyüklük və səbirlə onu qəbul edərək dözdü. Bu İmam Həsən əleyhissəlamın seçdiyi yolun gözəlliyi idi. Bundan başqa heç bir şey deyildi. O, sükut və sülhü qılıncın tiyəsinə oturtmaqla, İslamı qoruyub saxladı. Onun kəsici dili, qəti xütbələri və kəskin çıxışları qılınc sükutunun əvəzini lazımi şəkildə çıxaraq bu yolla qardaşının qanlı qiyamı üçün lazım olan şəraiti hazırladı. İş o yerə çatmışdı ki, Müaviyə onunla söhbət etməkdən qorxur və hiylə ilə çalışırdı ki, onun səsini boğsun və mümkün qədər onu məclislərdə danışmağa qoymasın.

## Geniş meydanlarda cihad

İmam Həsən (əleyhissəlam) islah yolunda ən böyük addımı atdı. Fitnə-fəsad və silahın hakim olduğu bir dövrdə əxlaq, məhəbbət və islah məktəbinin qapılarını açaraq məqsədi islahdan başqa heç nə olmayan bir şəxs kimi öz adını Allah Rizası ilə əvəz etdi. O, ilk mərhələdə sülhə əl atmadı, əksinə, işin axırında və bütün mübarizə meydanlarında məğlub olduqdan sonra sülhü qəbul etdi. Onun mübarizəsi müxtəlif cəhətləri olan geniş meydanlarda oldu. Düşmənlə mübarizə zamanı həm ordunu, həm

səngəri, həm də hiylə və kələklərlə üzləşməyi imtahana çəkdi. Münafiq səhabələrinə qarşı islah qüvvəsindən, nəfslə mübarizədə isə, qəzəbini boğub məcbur edilmiş sülhü qəbul etməkdən istifadə etdi.

Bu məzlum və sakit İmamın cihadlarına hətta gözucu da olsa, nəzər salmaqla hər etiraza cavab vermək olar...

# III FƏSİL

# İMAM HÜSEYN ƏLEYHİSSƏLAMIN HƏYATI

*** Müaviyənin dövründə qiyamın maneələri**
*** İmam Hüseyn əleyhissəlamın Müaviyə ilə mübarizələri**
*** Aşura inqilabının səbəbləri və mahiyyəti**
*** Xanım Zeynəb (səlamullahi əleyha) ibn Ziyad sarayında**
*** İmam Səccad əleyhissəlamın Şam məscidində buyurduğu xütbə**
*** Aşura inqilabının nəticə və sonucları**

## İmam Hüseyn əleyhissəlamın həyatı barədə qısa məlumat

Üçüncü məsum İmamımız Həzrət Hüseyn (əleyhissəlam) hicrətin dördüncü ili Şəban ayının üçü (ya dördü) Mədinə şəhərində dünyaya gəlmişdir. O, Həzrət Əli (əleyhissəlam) və Peyğəmbər qızı xanım Zəhranın (səlamullahi əleyha) ikinci övladı idi.

Hüseyn ibn Əli (əleyhissəlam) öz həyatı boyu zülm və haqsızlığa qarşı mübarizədə şücaət və azadlıqsevərliyi ilə məşhur olmuşdur.[1]

## İmam Hüseyn əleyhissəlamın həyat mərhələləri

Hüseyn ibn Əli (əleyhissəlam) uşaqlıq dövrünün altı ilini babası Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanında keçirmişdir. Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra otuz il atası Əli əleyhissəlamla birgə yaşamış və Əli əleyhissəlamın hakimiyyəti dövründə irəli çıxan çətinliklərdə fəal iştirak etmişdir. Əli əleyhissəlamın şəhadətindən sonra (hicrətin qırxıncı ilindən) siyasi və ictimai səhnələrdə qardaşı Həsən ibn Əli əleyhissəlamla çiyin-çiyinə çalışmışdır. İmam Həsən əleyhissəlamın şəhadətindən sonra (hicrətin əllinci ilindən) on il müddətinə qədər Müaviyə ibn Əbu Süfyanın hakimiyyəti dövründəki İslami vəzifələr İmam Hüseyn əleyhissəlamın boynuna düşmüşdür. Müaviyənin ölümündən sonra hakimiyyət başına gələn Yezidin dövründə inqilab etmiş və nəhayət, hicrətin altmış birinci ili məhərrəm ayının onunda Kərbəla çölündə şəhid olmuşdur.

İmam Hüseyn əleyhissəlamın həyat mərhələlərinin sonuncusu, yəni, o Həzrətin İmamət dövrü onun həyatının ən əsas hissəsi hesab olunur. Elə bu kitabda da, əsasən, bu hissədən söhbət edəcəyik.

## Hüseyn ibn Əli əleyhissəlamın İmamətdən qabaqkı mübarizələri

Hüsyen ibn Əli (əleyhissəlam) gənclik dövründən başlayaraq İslam hökumətinin əsl yolundan döndüyünü müşahidə etdiyi vaxtdan atasının siyasi mövqeyini himayə etmiş və ona tabe olmuşdur. Bir gün İmam Hüseyn (əleyhissəlam) Ömər ibn Xəttabın hakimiyyəti dövründə məscidə girib gördü ki, Ömər minbərdə oturmuşdur. Bunu görcək, tez minbərin başına qalxıb Ömərə dedi: *«Mənim atamın minbərindən aşağı düş və get öz atanın minbərində otur.»* Ömər özünü itirmiş halda dedi: *«Mənim atamın minbəri olmayıb.»* Sonra Ömər onu yanında əyləşdirdi. Minbərdən düşdükdən sonra İmam Hüseyn əleyhissəlamı öz evinə aparıb ondan soruşdu: *«Bu sözü sənə kim öyrədib?»* İmam Hüseyn (əleyhissəlam): *«Heç kim»* –deyə cavab verdi.

## İMAM HÜSEYN (ƏLEYHİSSƏLAM) CƏMƏL VƏ SİFFEYN DÖYÜŞLƏRİNDƏ

İmam Hüseyn (əleyhissəlam) atasının hakimiyyəti dövründə siyasi və nizami səhnələrdə atası ilə çiyin-çiyinə çalışmışdır. O, atasının hakimiyyəti dövründə baş vermiş hər üç döyüşdə fəal iştirak etmişdir.[2]

[1] Şərhi Hədidi, c. 3, səh. 249.
[2] Əl-İsabətu fi təmyizis-səhabə, c.1, səh.333.

Cəməl döyüşündə ordunun sol cinahının başçılığı İmam Hüseyn əleyhissəlamın öhdəsində idi.[1] Siffeyn döyüşündə istər ordunu döyüşə həvəsləndirmək məqsədilə etdiyi çıxışlarda, istərsə də düşmənlə mübarizədə əsas rol oynamışdır.[2] Əbu Musa Əşəri ilə Əmr ibn As arasında gedən danışıqlarda da İmam Hüseyn (əleyhissəlam) Əli (əleyhissəlam) tərəfindən seçilmiş əsas şahidlərdən biri idi.[3]

İmam Hüseyn (əleyhissəlam) atasının şəhadətindən sonra zəmanənin rəhbər və İmamı İmam Həsən əleyhissəlamla birgə olmuşdur. İmam Həsən əleyhissəlamın ordusu Şama tərəf hərəkət edəndə, mübarizə meydanında İmam Hüseyn (əleyhissəlam) İmam Həsən əleyhissəlamla çiyin-çiyinə olmuşdur. Müaviyə İmam Həsən əleyhissəlama sülh təklif etdikdə, İmam Həsən (əleyhissəlam) İmam Hüseyn (əleyhissəlam) və Abdullah ibn Cəfəri çağırıb bu təklif barədə onlarla məsləhət etdi.[4] Nəhayət sülh müqaviləsi bağlanandan sonra qardaşı ilə birlikdə Mədinəyə qayıtdı və elə orada da yaşamağa başladı.[5]

## İmam Hüseyn əleyhissəlamın İmaməti dövründəki siyasi-ictimai vəziyyət

Səqifədən[6] başlayaraq İslamın əsl yolundan, həqiqi xəttindən uzaqlaşmağa başlayan və Osmanın hakimiyyəti dövründə öz yolunu İslamdan uzaqlaşdıran hakimiyyət İmam Hüseyn əleyhissəlamın dövründə artıq həddini aşıb daşmışdı.

O dövrlərdə Müaviyə ikinci və üçüncü xəlifə tərəfindən Şama vali seçilmişdi. Müaviyə vali olduğu bu müddətdə öz mövqeyini daha da möhkəmlətmiş və İslam ölkəsinin taleyini həll edərək xəlifə kimi hakimiyyəti ələ keçirmişdi. Beləliklə də, o, İslamın qatı düşməni olan Əməvilər sülaləsini müsəlmanların başı üstündə rəhbər etmiş və Ziyad Əmr ibn As, Səmürə ibn Cündüb kimi zalım şəxslərin köməyi ilə zor gücünə hökumət təşkil verərək İslamı alt-üst etmişdi. Müaviyə bir tərəfdən həqiqi müsəlmanlara qarşı siyasi və iqtisadi çətinlik siyasətini yeridərək, qırğın, qətl, əzab-əziyyət, onları aclıqda saxlamaqla hər hansı bir müxalifət hərəkatının qarşısını alır, digər tərəfdən də millət və qəbilələrarası rəqabəti ortaya ataraq qəbilələri bir-birinin canına salırdı. Onun hökumətinə bir təhlükə yetişməsin deyə, bu yolla onların gücünü zəiflədirdi. Başqa bir tərəfdən isə onun hökuməti üçün işləyən nökər və muzdurların vasitəsilə yalançı hədislər söyləmək, Quranı öz xeyrinə təfsir etməklə camaatın hökumətin əleyhinə yönəlmiş fikrini dağıdır və öz hökumətinə şəri və İslami ad verirdi. İslamın tam ziddinə olan bu siyasət həmçinin, Müaviyənin siyasəti ilə əqidə cəhətdən üst-üstə düşən «Murciə» və «Cəbriyyə» kimi batil firqələrin yayılmasına şərait yaratmaq cəmiyyətdə pis və acınacaqlı təsirlər yaradaraq cəmiyyəti zillətlə dolu olan bir sükut (mənəvi ölüm) meydanına çıxartdı. Bu acınacaqlı siyasət nəticəsində İslam cəmiyyətinin əsl mahiyyəti itib batdı və İslami dəyərlər bir-birinə dəydi. Belə

---

[1] Dəməşq tarixi (İmam Hüseyn əleyhissəlamın həyatı bölməsi), səh.164.

[2] Siffeyn döyüşü, səh.144, 249, 530.

[3] Siffeyn döyüşü, səh.507.

[4] Əl-Kamilu fit-tarix, c.3, səh.405

[5] Əl-İsabə, səh.333

[6] Səqifə hadisəsi Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra şura təşkil edib Əbu Bəkrin xəlifə tə’yin edilməsi hadisəsidir.

ki, müsəlmanların İslamın onlara din adı ilə rəhbərlik edən zalım xəlifələri dəstəkləmək icazəsini vermədiyini bildikləri halda, yenə də onlar qorxudan, xəbərsizlik və zəiflik ucbatından həmin xəlifələri dəstəkləyirdilər. Bu siyasət nəticəsində müsəlmanlar Quran məntiqi və Peyğəmbər (səlləllahu əleyhi və alih) təliminin əksinə olaraq qorxaq, zahirbaz və saziş qəbul edən şəxslərə çevrilmişdilər.

Müsəlmanların həyatının bu mərhələsi tarixi azğınlığın bütün cəmiyyətə yayılması və cəmiyyəti özünə tərəf çəkməsi nümunələri ilə doludur.

Müsəlmanların Osman və onun tərəfdarlarının yeritdiyi siyasətin müqabilindəki əks tədbirlərini Müaviyənin tutduğu siyasətə qarşı seçdikləri yol ilə müqayisə etdikdə, bu şeytani siyasətin cəmiyyətdə yaranan acınacaqlı nəticələri açıq-aşkar göz qabağında durur. Çünki müsəlmanlar Osmanın siyasətinə qarşı ümumi qiyama qalxmaqla onun bu siyasətinə cavab verdilər. Bu qiyam İslam ölkəsinin böyük şəhərlərinə, yəni, Mədinə, Məkkə, Kufə, Bəsrə, Misir və digər şəhər və kəndlərə yayılmış və əhali qiyamda iştirak etmişdi. Ancaq Müaviyənin dövründə zülmün qat-qat artmasına, qətl və hədələmələrin sayının çoxalmasına, müsəlmanların öz hüquqlarından, gəlirlərindən açıq-aşkar məhrum olmalarına baxmayaraq, onun İslama zidd olan hökumətinə qarşı belə bir ümumi qiyam baş vermədi. Əksinə, camaat kor-korana Müaviyəyə itaət edirdi. Düzdür, arabir Hicr ibn Ədiyy, Əmr ibn Həmiqi Xüzai və bu kimi şəxslərin pərakəndə etirazları olurdu. Bu da göstərir ki, camaat Müaviyənin zülmü altında əl-qol atırdı. Ancaq pərakəndə olan bu etirazlar lazımi nəticəni vermir və ümumxalq hərəkatına çevrilmirdi. Buna görə də, bu etirazların qarşısı tezliklə alınırdı. Çünki dövrün hökuməti qiyam başçılarını öldürür, məntəqədəki hərəkatı boğur, camaat isə heç bir əks tədbir göstərə bilmirdi.

## Müaviyə dövründə qiyamın maneələri

Müaviyənin qüdrətinin hakim olduğu belə acınacaqlı vəziyyətdə bir çox şeyləri nəzərə almaqla, o vaxtda qiyam etməyə nə imkan var idi, nə də qiyamın bir faydası olacaqdı. Aşağıdakı iki səbəbi Müaviyənin dövründə İmam Hüseyn əleyhissəlamın inqilabına mane olan əsas iki amil kimi qeyd etmək olar.

## 1. İmam Həsən əleyhissəlamin Müaviyə ilə sülh müqaviləsi

Əgər İmam Hüseyn (əleyhissəlam) Müaviyənin dövründə qiyam etsəydi, Müaviyə İmam Həsən əleyhissəlamın onunla bağladığı və İmam Hüseyn əleyhissəlamın da təsdiqlədiyi sülh müqaviləsini bəhanə gətirib İmam Hüseyn əleyhissəlamı sülh müqaviləsini pozmaqda ittihamlandıracaqdı. Çünki hamı bilirdi ki, İmam Həsən (əleyhissəlam) və İmam Hüseyn (əleyhissəlam) nə qədər ki, Müaviyə sağdır, onun hökuməti qarşısında sükut edəcəklərinə və heç bir qiyama əl atmayacaqlarına söz veriblər. Əgər belə bir vaxtda İmam Hüseyn (əleyhissəlam) qiyam etsəydi, Müaviyə İmamı vəzifətələb və əhd-ilqar sındıran bir şəxs kimi qələmə verərdi. Düzdür, İmam Hüseyn (əleyhissəlam) Müaviyə ilə bağlanan müqaviləyə əməl etməyi vacib bilmirdi. Çünki bu müqavilə azad, könüllü və ixtiyari şəkildə deyil, məcburiyyət qarşısında və danışıqların heç bir fayda verməyəcəyi bir dövrdə bağlanmış bir müqavilə idi. Bundan əlavə, artıq Müaviyənin özü müqaviləni pozmuş və daha müqavilənin şərtlərinə riayət etmirdi. Deməli, belə bir müqaviləyə (baxmayaraq ki, əslində düzgün

müqavilədir) İmam Hüseyn (əleyhissəlam) əhəmiyyət verməzdi. Çünki Müaviyə özü onu pozmuş və onun pozulmasında əlindən gələni əsirgəmirdi. Ancaq nə qədər müqavilə var idi, Müaviyə onunla İmam Hüseyn əleyhissəlamın qiyamına qarşı bəhanə gətirə bilərdi. Digər tərəfdən də baxmalıyıq ki, görək camaatın İmam Hüseyn əleyhissəlamın qiyamı barədə fikri necədir?

Məlumdur ki, İmam Hüseyn əleyhissəlamın dövründəki camaatda qiyam həvəsi yox idi. Onlar qılınclarını açıb kənara qoymuşdular. Salamatçılıq ardınca olan bu camaatın beynində təbii ki, İmam Hüseyn (əleyhissəlam) Müaviyə ilə sülh bağlayıb (sülhə razı olub), indi də ona əməl etməlidir fikirləri dolanırdı. Deməli, belə bir vaxtda əgər İmam Hüseyn (əleyhissəlam) qiyam etsəydi, Müaviyə onun qiyamını qeyri-qanuni və sülh müqaviləsinin əksinə olan bir üsyan kimi qələmə verəcəkdi. Əvvəldə də qeyd etdik ki, o dövrün camaatında qiyam həvəsi olmadığına görə onlar da Müaviyənin sözlərini təsdiqləyəcəkdilər.

## 2. Müaviyənin dini jesti

İmam Hüseyn əleyhissəlamın Yezidin dövründə etdiyi inqilab o qədər qüvvətli idi ki, camaatın qəlbində əbədi qalmışdır. Müşahidə etdiyimiz kimi üstündən neçə əsrlər keçməsinə baxmayaraq, camaat indi də Kərbəla şəhidlərini özləri üçün örnək, nümunə qərar verərək fədakarlıq, qəhrəmanlıq meydanlarında onlardan ilham alırlar. Əgər İmam Hüseyn (əleyhissəlam) Müaviyənin dövründə qiyam etsəydi, çox ehtimal ki, onun qiyamı belə nəticə verməyəcəkdi. Bu məsələnin sirrini Müaviyənin nüfuzu, hoqqabazlığı, hiyləsi və dini jestində və onun müşkülatı həll etməkdə seçdiyi xüsusi yolda axtarmaq lazımdır. Düzdür, Müaviyə hökumətində İslamı tamamilə təhrif etmiş, Bəni–Üməyyəni İslamın sadə hökumətinin əvəzinə hökumətə gətirmiş və İslami cəmiyyəti qeyri-İslami cəmiyyətə çevirmişdi. Ancaq o, bunu da yaxşı bilirdi ki, camaata İslam adı altında rəhbərlik etdiyi üçün dinə zidd olan işlər görməməlidir. Əksinə o, həmişə çalışırdı ki, öz işlərinə dini ad qoysun. Bununla da gördüyü işləri tutduğu mövqeylə uyğunlaşdırırdı. Şəri görülməsi mümkün olmayan işləri isə gizlində görürdü. Bəzi tarixi sənədlər göstərir ki, Müaviyə dinsiz və heç nəyə inanmayan bir insan olmuşdur. Belə ki, özü elə də əməlli və düzgün adam olmayan Müğeyrə ibn Şübə Müaviyənin xüsusi məclislərində onun özündən eşitdiyi sözlər barədə fikirləşərək narahat olub deyirdi: «Müaviyə camaat arasında ən pis adamdır.» Ancaq bununla belə, Müaviyənin dinin bəzi zahiri işlərinə riayət etməsi onun əsl mahiyyətini anlamaqda camaat üçün çox çətin olmuşdu. Müaviyə öz hökumətini dini hökumət kimi göstərmək üçün vəziyyət və şəraitdən lazımi qədər istifadə edirdi. O, bir tərəfdən Osmanın qisasını bəhanə edir, digər tərəfdən də, Əbu Musa Əşəri ilə Əmr ibn As arasında gedən danışıqlardan, İmam Həsən əleyhissəlamla sülh bağladıqdan və camaatın onunla beyət etməsindən sonra özünü camaatın gözündə xəlifəliyə layiq qələmə verirdi. Buna əsasən, əgər İmam Hüseyn (əleyhissəlam) onun dövründə qiyam etsəydi, Müaviyə asanlıqla İmam əleyhissəlamın qiyamını haqqın batilə qarşı qiyamı kimi yox, hökumət və vəzifə üstündə siyasi mübarizə kimi qələmə verəcəkdi.

## İmam Hüseyn əleyhissəlamın Müaviyənin hökumətinə qarşı mübarizələri

Qeyd etdiyimiz maneələrin heç biri İmam əleyhissəlamın Müaviyənin saysız-hesabsız bidətlərinə və zülmlərinə qarşı sükut etməsinə mane olmurdu. İmam Hüseyn (əleyhissəlam) heç kəsin etiraz etməyə cürəti olmadığı bir dövrdə ayağa qalxıb bacardığı qədər Müaviyənin zülmlərinə qarşı mübarizə aparırdı. İndi İmam Hüseyn əleyhissəlamın Müaviyə ilə apardığı mübarizələrdən üçünü araşdırmağa başlayırıq.

### 1) Etirazlı məktublar və çıxışlar

İmam Hüseyn əleyhissəlamın Müaviyə ilə həmzaman olduğu on il İmamət dövründə onunla Müaviyə arasında bir çox məktublaşmalar olmuşdur. Bu da İmam Hüseyn əleyhissəlamın Müaviyənin müqabilində tutduğu inqilabi və möhkəm mövqeyinin nişanəsidir. İmam (əleyhissəlam) Müaviyənin İslam dininə zidd olan hər hansı bir hərəkətindən sonra onu möhkəm danlayır, tənqid edir və həmən işə öz etirazını bildirirdi. Bu işlərin ən əsasından biri Yezidin vəliəhdliyi idi.

### Yezidin vəliəhdliyinə qarşı mübarizə

Müaviyə Yezidi vəliəhd təyin etmək məqsədi ilə irəli sürdüyü siyasəti davam etdirərək Mədinə şəhərinin camaatından, xüsusən də, başda İmam Hüseyn (əleyhissəlam) olmaqla şəhərin adlı-sanlı şəxsiyyətlərindən Yezid üçün beyət almaq məqsədi ilə Mədinə şəhərinə gəldi. Müaviyə Mədinəyə gəldikdən sonra İmam Hüseyn (əleyhissəlam) və Abdullah ibn Abbasla görüşüb söhbət əsnasında Yezidin vəliəhdliyi məsələsini ortaya atdı. O, çalışırdı ki, onları bu işə razı salsın. İmam Hüseyn (əleyhissəlam) Müaviyənin bu sözü qarşısında bir müqəddimə (ön söz) qeyd etdikdən sonra sözə belə başladı:

*«Sən özünü üstün tutmaqla ifrata düçar olmusan. Camaatın ümumi malını qəsb etməklə zülm etmisən! Sən camaatın malını onların özlərinə qaytarmaqdan çəkindin və bu işdə xəsislik etdin. Açıq-aşkar o qədər qarətlər etdin ki, öz həddini aşdın. Haqq sahiblərinin haqqını özlərinə qaytarmadığın üçün Şeytan (səni yoldan çıxarmaqda) öz arzusuna çatdı. Yezid üçün saydığın fəzilətləri və İslam ümmətini idarə etmək üçün qeyd etdiyin ləyaqətləri başa düşdüm. Sən camaata elə adamı tanıtdırmaq istəyirsən ki, elə bil camaat onun həyat sabiqəsini tanımır. Sanki, burada olmayan bir nəfərdən xəbər verirsən ki, camaat onu görməyib. Elə bil ki, onu ancaq sən tanıyırsan. Xeyr, Yezid öz batinini açıb aşkar etmişdir. Yezidi olduğu kimi tanıtdır. Yezid itbaz, quşbaz və keyf adamıdır. O, ömrünü çalmaq, oxumaq və əyyaşlıqla keçirir. Yezidi bu cür tanıtdır. Bu boş təbliğlərini kənara qoy! Bu ümmətin müqabilində boynuna yığdığın öz günahların bəsdir. Elə bir iş görmə ki, Allah qarşısında günahların bundan da ağır olsun. Sən o qədər öz batil və zülm yoluna davam edib ağılsızlıq, düşüncəsizlik üzündən zülmlər etdin ki, artıq camaatın səbr kasasını doldurmusan. İndi səninlə ölüm arasında bir göz qırpımından artıq vaxt qalmayıb. Bunu bil ki, sənin bütün*

*əməllərin Allah yanında qorunub saxlanır və sən onlardan ötrü cavab verməli olacaqsan.»*[1]

## Müaviyənin İmam Hüseyn əleyhissəlamın qiyamından nigarançılığı

Elə həmən günlərdə Müaviyə tərəfindən bir il Mədinəyə vali seçilmiş Mərvan ibn Həkəm Müaviyəyə yazır: «Əmr ibn Osman xəbər verib ki, İraq və Hicazın nüfuzlu şəxsiyyətləri İmam Hüseyn əleyhissəlamın yanına get-gəl edirlər.» Daha sonra bildirmişdi: «Mən inanmıram ki, o, qiyam etməsin.» Mərvan məktubda əlavə edib demişdi: «Bu haqda axtarış aparmışam. Əldə olan məlumata görə hələ onun qiyam etmək fikri yoxdur. Ancaq inanmıram ki, gələcəkdə də bu cür olsun. İndi bu barədə öz fikrini bildir.»

Müaviyə bu xəbəri eşitdikdən sonra Mərvanın məktubuna cavabından əlavə aşağıdakı məzmunda Hüseyn ibn Əli əleyhissəlama da bir məktub yazdı:

«Sənin gördüyün bəzi işlər barədə mənə xəbər çatmışdır. Əgər bunlar doğrudursa, mən səni bu işlərə layiq görmürəm. (Bu işlər sənə yaraşmaz.) And olsun Allaha, kim bir nəfərlə əhd bağlasa, gərək əhdinə vəfa etsin. Əgər mənə gəlib çatan xəbərlər yalan olarsa, sən bu işə (əhdə vəfalı olmağa) ən layiq adamsan. Özündən muğayat ol və əhdinə vəfa et. Əgər mənimlə müxalifətçilik etsən, müxalifətçiliklə, əgər pislik etsən, pisliklə üzləşərsən. Ümmətin arasında ixtilaf salmaqdan çəkin.»[2]

## İmam Hüseyn əleyhissəlamın Müaviyəyə yazdığı tarixi cavab

İmam Hüseyn (əleyhissəlam) Müaviyənin məktubunun cavabında belə yazdı:

*«Sənin məktubunu aldım. Yazmısan ki, mənim barəmdə sənə bəzi xəbərlər çatır və sən məni o işlərə layiq görmürsən. Bunu deyim ki, insanı yaxşı işlərə tərəf cəlb edən və yaxşı işlər görməyə kömək edən yalnız Allahdır. Mənim barəmdə sənin qulağına çatmış xəbərlərin hamısı boş və əsassız sözlərdir. Bu sözləri sənin yalan danışan yaltaqların özlərindən deyirlər. Bu dinsiz yalançılar yalan demişlər. Mən sənə qarşı nə döyüş tədarükü görmüşəm, nə də sənə qarşı qiyam etmək məqsədim var. Sənin özünün və dinsiz, zalım və Şeytanın qardaşları olan dostlarının əleyhinə qiyam etməməyimin səbəbi də Allahdan olan qorxumdur.*

*Hicr ibn Ədiyy və dostlarının qatili sən deyilsən? Onların hamısı namaz qılan, Allaha itaət edən insanlar idi. Onlar bidətlərə qarşı mübarizə aparan şəxslər idi. Onların işi yalnız əmr be-məruf və nəhy əz-münkər idi. Sən onlara aman verdikdən, keçmiş işlərinə görə onlara heç bir əziyyət verməyəcəyinə and içdikdən sonra andını pozaraq onları vəhşicəsinə qətlə yetirdin. Bu işinlə Allaha hörmətsizlik edib öz əhdini pozdun.*

*Təqvalı müsəlman, ibadətin çoxluğundan bədəni zəifləmiş Əmr ibn Həmiqi sən öldürmədinmi? Sən onlara əziyyət verməyəcəyin barədə söz verib əhd bağladıqdan*

[1] Əl-İmamətu vəs-siyasət, c.1, səh.184.
[2] İxtiyaru mə’rifətir-rical, səh.48.

*sonra onları öldürdün. Əgər o əhd-peymanı çöl ceyranlarına da versəydin, dağlardan aşağı enərdilər.*

*(Süməyyənin oğlu) Ziyadı özünə qardaş edən və onu Əbu Süfyanın oğlu qələmə verən sən deyilsənmi? Halbuki Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: «Uşaq ataya bağlıdır, zinakar isə daşqalaq edilməlidir.» (Ziyad da zinadan olmuş bir insan idi.) Kaş iş bununla sona yetəydi. Ancaq belə olmadı. Hələ bu azmış kimi Süməyyənin oğlunu özünə qardaş elan etdikdən sonra müsəlmanların başı üstünə gətirdin. O da sənin gücünə arxalanaraq müsəlmanları öldürdü. Əl-ayaqlarını kəsdi, onları xurma ağaclarından asdı.*

*Ey Müaviyə! Sən müsəlmanların vəziyyətini elə çətinləşdirdin ki, elə bil heç sən bu ümmətin adamı və bu ümmət də sənin camaatın deyil.*

*Həzrəmini öldürən sən deyilsənmi? Onun günahı bu idi ki, Ziyad sənə xəbər vermişdi ki, o, Əli əleyhissəlamın şiələrindəndir. Əli əleyhissəlamın dini elə əmisi oğlu Məhəmmədin (səlləllahu əleyhi və alih) dinidir. İndi sən həmən din adı ilə camaata başçılıq edirsən. Əgər bu din olmasaydı, sən və əcdadın indi də cahiliyyət içində yaşayardınız. Sizin ən şərəfli işiniz ildə iki dəfə - yayda və qışda Yəmən və Şama getmək idi. Ancaq Allah biz Əhli-beytin sayəsində sizi bu acınacaqlı yaşayışdan qurtardı.*

*Ey Müaviyə! Sənin sözlərindən biri də bu idi ki, deyirsən mən camaat arasında ixtilaf və fitnə yaratmayım. Mən bu ümmət üçün sənin hökumətindən böyük fitnə tanımıram.*

*Sözlərindən bir başqası bu idi ki, deyirsən rəftarımdan muğayat olum və öz dinimi və Məhəmməd (səlləllahu əleyhi və alih) ümmətinin dinini qoruyum. (Mən öz vəzifəmi düşünüb özümün və Məhəmməd (səlləllahu əleyhi və alih) ümmətinin dininə fikir verəndə) səninlə vuruşmaqdan böyük vəzifə görmürəm. Bu vuruş Allah yolunda cihad olacaq. Əgər (bəzi səbəblər üzündən) sənə qarşı qiyam etməkdən çəkinirəmsə, bunun üçün Allahdan üzr istəyirəm. (Çünki ola bilər mənim bu səbəblərim Allah dərgahında üzürlü sayılmaya.) Allahdan istəyirəm ki, məni Özü razı olan işə yönəltsin.*

*Ey Müaviyə! Sənin sözlərindən biri də bu idi ki, əgər sənə pislik etsəm, sən də mənə pislik edəcəksən, səninlə düşmənçilik etsəm, sən də mənimlə düşmənçilik edəcəksən. Qoy bunu deyim ki, bu dünyada yaxşı insanlar daima pis insanların düşmənçiliyi ilə üzləşiblər. Mən ümid edirəm ki, sənin düşmənçiliyin mənə bir ziyan vurmayacaq, pis fikirlərinin ziyanı hamı özünə deyəcək və öz əməllərini məhv edəcək. Elə isə nə qədər bacarırsansa, düşmənçilik et.*

*Ey Müaviyə! Allahdan qorx, bil ki, bütün günahların, istər böyük, istərsə də kiçik Allah yanında qorunub saxlanır. Bunu da bil ki, Allah sənin törətdiyin cinayətləri, sırf güman nəticəsində camaatı qətlə yetirməyini, ittiham edərək onları tutub həbs etməyini, şərabxor və itbaz bir uşağı hökumət başına gətirməyini heç vaxt unutmayacaq. Sən bu işinlə özünü fəlakətə saldın (öz başına iş açdın), öz dinini əlindən verdin və millətin hüququnu tapdaladın.»*[1]

---

[1] Əl-İmamətu vəs-siyasət, c.1, səh.180; Ehticac c.2, səh.161.

## 2) İmam Hüseyn əleyhissəlamın böyük həcc mərasimində ifşaedici və sərt çıxışı

Müaviyənin ölümündən bir (ya da iki) il qabaq onun hökumətinin şiələrə qarşı əzab-əziyyət və işkəncələrinin kulminasiya nöqtəsinə çatdığı bir dövrdə İmam Hüseyn (əleyhissəlam) həcc ziyarətinə getdi. Abdullah ibn Abbas və Abdullah ibn Cəfər də o Həzrətlə idilər. O vaxt camaat arasında təqva, xeyir və paklıqla tanınan Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələri, tabein[1] və bütün Bəni Haşim nümayəndələri İmam Hüseyn əleyhissəlamın Minadakı çadırına yığışmaq istədilər. İki yüz nəfər Peyğəmbər səhabəsi və yeddi yüz nəfər tabein İmam Hüseyn əleyhissəlamın çadırının yanına toplaşdı. İmam Hüseyn (əleyhissəlam) ayağa qalxıb aşağıdakı məzmunda bir çıxış etdi:

*«Gördünüzmü bu zalım və qəddar kişi biz və şiələrimizlə necə rəftar etdi? Mən indi bəzi məsələlərə toxunmaq istəyirəm. Əgər (dediklərim) düz olarsa, təsdiq edin, yox əgər yalan olarsa,, təkzib edin. Mənim sözlərimi eşidin və danışığımı yazın. Elə ki, öz şəhərlərinizə qayıtdınız, mənim sözlərimi etibarlı və inanılmış şəxslərə çatdırın və onları bizə tabe olmağa dəvət edin. Mən bundan qorxuram ki, bu məsələ (camaatın biz Əhli-beyt tərəfindən idarə olunması) tamamilə unudula və haqq məğlub olub aradan gedə.»*

Sonra İmam (əleyhissəlam) atasının və Əhli-beytin parlaq sabiqəsini, onların fəzilətlərini sadaladı və Müaviyənin hökumətinin bidətlərini, cinayətlərini və İslama zidd olan hərəkətlərini açıqladı.[2] Beləliklə də, Müaviyənin pozğun hökumətinə qarşı böyük bir təbliğ edərək qiyam üçün zəminə yaratdı.

Dördüncü əsrin (hicri tarixi ilə) görkəmli alimi Həsən ibn Əli ibn Şübə «Tühəfül-üqul» kitabında İmam Hüseyn əleyhissəlamdan tarixi və harada söylənildiyi məlum olmayan bir xütbə qeyd etmişdir. Ancaq bəzi nişanələrdən və xütbənin məzmunundan məlum olur ki, bu xütbə elə İmam Hüseyn əleyhissəlamın Minada (həcc mərasimində) buyurduğu xütbədir. İndi həmən xütbəni mövzumuza münasib bilib bəzi hissələrinin tərcüməsini oxucuların nəzərinə çatdırırıq:

*«...Ey qüdrətli kişilər! Siz camaat arasında elmlə, xeyirxahlıqla tanınmış adamlarsınız. Siz Allahın dini sayəsində camaatın qəlbində yer tapmısınız. Şərəfli insanlar sizlərdən ad aparır, zəiflər sizə hörmət edirlər. Sizinlə bərabər olan insanlar onlara heç bir minnətiniz olmadığı halda, sizi özlərindən üstün hesab edirlər...*

*Mən (sizin keçmişinizdən və imanınızdan xəbərdar olub) sizin Allahın boynuna minnət qoyduğunuz üçün Allah tərəfindən sizə əzab gəlməsindən qorxuram. Çünki siz başqalarının çatmadığı böyük məqamlara çatmısınız. Buna görə də, başqalarından üstünsünüz. Yaxşı və pak insanlara hörmət etmirsiniz. Halbuki, siz özünüz Allaha xatir camaat arasında hörmət sahibi olmusunuz.*

*Allahın qayda-qanunlarının, əhdinin pozulmasını siz öz gözlərinizlə görürsünüz. Ancaq bundan heç qorxmursunuz. Öz atalarınızın əhd-peymanının pozulmasından təşvişə düşürsünüz, ancaq peyğəmbərin əhdinin pozulmasından, ona qarşı hörmətsizlik olmasından heç narahat olmursunuz. Kor, lal, çolaq insanlar İslam*

---

[1] Tabein peyğəmbərin özünü görməyən, lakin onun səhabələrini görmüş şəxslərə deyilir.

[2] Ehticac (Təbərsi), c.2, səh.161; Əl-Qədir, c.1, səh.198.

*ölkəsində başsız qalmış və onlara heç bir rəhm olunmur. Siz öz məqam və mövqeyinizin müqabilində heç bir iş görmür, bu yolda öz vəzifəsini yerinə yetirən adama da kömək etmirsiniz. Zalımlarla saziş bağlayıb özünüzü rahat edirsiniz. Allah, pis işlərdən çəkinməyi və camaatı pisliklərdən qorumağı əmr etmişdir, ancaq siz bundan qafilsiniz. Siz - ümmət alimlərinin müsibəti hamıdan çoxdur. Çünki din alimlərinin məqamı qəsb olunmuşdur. Kaş ki, bunu başa düşəydiniz.*

*Hökuməti Allahın ehkamından xəbərdar olan, halal-haramı tanıyan adam ələ almalıdır. Bu məqama siz layiq olduğunuz halda, onu sizin əlinizdən alıblar. Bu məqamı o vaxt sizin əlinizdən aldılar ki, siz haqqın ətrafından uzaqlaşdınız. Açıq-aşkar sübutlar ola-ola Peyğəmbər sünnəsində ixtilaf yaratdınız. Əgər Allah yolunda müşkülata qatlaşıb əzab-əziyyətə dözsəydiniz, indi hökumət sizin əlinizdə olar və bütün işlərə siz nəzarət edərdiniz. Ancaq siz zalımları öz işlərinizə rəhbər tutdunuz və Allahın əmanətini (hökuməti) onlara verdiniz. Onlar da halalı harama qatıb öz həvayi-həvəslərinə məşğul oldular. Onları hökumətə gətirən ancaq sizin ölümdən qaçıb bir-iki günlük həyata bel bağlamağınız oldu. Siz vəzifənizdə bu cür tənbəllik etməklə məzlumları onlara əlaltı etdiniz. Onlar da bunun nəticəsində bir dəstəni özlərinə nökər, xidmətçi, bir dəstəni isə daima acınacaqlı həyat sürməyə məcbur etdilər. Onlar zalımlara itaət edərək Allah qarşısında süstlük etmək nəticəsində hökuməti öz meylləri əsasında idarə edib həvayi-həvəsə tabe oldular. Onlar bütün şəhərlərdə (öz məqsədlərinə nail olmaq üçün) minbər başına təbliğatçılar göndərirlər. İslam ölkəsi tamamilə onların ixtiyarındadır. Əlləri hər yerdə açıqdır və camaat onların nökərinə çevrilmişdir. Bu çarəsiz camaata hər hansı istədikləri zülmü edirlər, camaat isə özünü müdafiə edə bilmir. Onların bəziləri elə zalımdırlar ki, hər bir məzluma əziyyət verir, bəziləri elə hakimlərdir ki, heç insanı dirildən və öldürən Allaha da etiqadı yoxdur.*

*Bu vəziyyət çox təəccüblüdür! Necə təəccüb etməyim, halbuki ölkə zalım və dılğır bir şəxsin ixtiyarındadır və o möminlərə ürəyi yanmadan və rəhmsizcəsinə başçılıq edir. Aramızdakı bəzi ixtilaflara Allah Özü hakimdir və Öz hökmü ilə qəzavət edir.*

*İlahi! Bizim hərəkətimiz (qiyamımız) nə hökumət başına gəlmək üçündür, nə də mal-dövlətə yiyələnmək üçün. Məqsədimiz yalnız budur ki, Sənin dininin nişanələrini camaata göstərək və islahatı İslam ölkəsində həyata keçirək. Qoy bunun nəticəsində məzlum bəndələr zalımlar əlindən amanda olsunlar və Sənin ehkamın və peyğəmbərin sünnəsi həyata keçsin.*

*İndi (ey ümmətin qabaqcılları) əgər siz mənə kömək etməsəniz, zalımlar sizə qalib gələcək və peyğəmbərimizin nurunu söndürmək üçün çalışacaqlar...»*[1]

## 3) Dövlət əmlakının müsadirə edilməsi

Elə həmən günlərdə bir qədər beytül-mal daşıyan bir karvan Yəməndən çıxıb Mədinəni keçərək Şama tərəf gedirdi. Bundan xəbər tutan İmam Hüseyn (əleyhissəlam) karvanın qarşısını kəsib malları müsadirə edərək onu Bəni–Haşim yoxsulları və digər yoxsullar arasında bölüşdürdü. Sonra aşağıdakı məzmunda Müaviyəyə bir məktub yazdı:

---

[1] Tühəfül-üqul, səh.237-239.

*«Yəməndən gələn karvan buradan keçirdi. Onlar sənin üçün pul, müxtəlif parçalar və ətriyyat gətirirdilər ki, sən onları alıb Dəməşq xəzinəsinə tökəsən və sonra onları qarın və cibləri indiyədək beytül-mal yeməkdən dolan qohumların arasında bölüşdürəsən. Mənim o mallara ehtiyacım var idi, ona görə də, onları müsadirə etdim. Vəssəlam!»*

Müaviyə İmamın bu hərəkətindən bərk narahat olub İmama qəzəbli bir məktub yazdı.[1]

Şübhəsiz ki, İmamın bu hərəkəti Müaviyənin hökumətinin qanunsuz və qeyri-şəri tanıtdırması yolunda atılmış aşkar addım hesab olunur. Elə bir zamandada belə bir hərəkəti görməyə İmam Hüseyn əleyhissəlamdan başqa heç kim cürət etməzdi.

## Aşura inqilabının mahiyyəti və səbəbləri

İmam Hüseyn əleyhissəlamın inqilabı barədə bir sıra suallar vardır ki, o Həzrətin inqilabının səbəblərinin aydın olması məhz o sualların cavabından asılıdır. Suallar belədir:

**1.** Əgər Yezid İmam Hüseyn əleyhissəlamdan beyət almaq üçün onu sıxışdırmasaydı, İmam Hüseyn (əleyhissəlam) yenə qiyam edəcəkdi?

**2.** Kufə camaatı İmam Hüseyn əleyhissəlamı Kufəyə dəvət etməsəydi, yenə bu qiyam baş verəcəkdi?

**3.** Bu qiyam və çevriliş bu günkü zəmanədə materialistlərin irəli sürdüyü kor-korana və hesabsız ictimai partlayışdır, yoxsa hesab-kitablı və əvvəlcədən hazırlıqlı bir qiyam?

Bu sualların cavablarının aydın olması üçün əvvəlcə bunu qeyd etməliyik ki, adətən təkmahiyyətli olan təbii şeylərdən fərqli olaraq ictimai hadisələr ola bilsin bir neçə mahiyyətə malik olsun. Məsələn, bir filiz eyni zamanda həm qızıl, həm də mis mahiyyətini daşıya bilməz. Ancaq ictimai hadisələrin eyni zamanda həm bir neçə cəhəti ola bilər və həm də onun meydana çıxmasında bir neçə vasitə təsir göstərə bilər. Məsələn, bir inqilab ola bilər bir işə qarşı reaksiya olsun, yəni, onun mahiyyəti bir işə qarşı reaksiyadan ibarət olur. Lakin eyni zamanda həmin inqilabın hücum mahiyyəti də ola bilər. Üstəlik reaksiya mahiyyəti daşıdığı anda ola bilər bir hadisəyə qarşı mənfi reaksiya versin, digər bir hadisəyə isə müsbət reaksiya.

İmam Hüseyn əleyhissəlamın inqilabı da bu cür hadisələrdən idi və bu cəhətlərin hamısı onda mövcud olmuşdur. Çünki həmən inqilabın müxtəlif səbəbləri olmuşdur. İndi həmən səbəbləri sizin nəzərinizə çatdırırıq.

## İmam Hüseyn əleyhissəlamın inqilabının səbəbləri

Aşağıda qeyd edəcəyimiz üç səbəbin İmam Hüseyn əleyhissəlamın inqilabında böyük təsiri olmuşdur:

**1.** İmam Hüseyn əleyhissəlamdan Yezid üçün beyət almaq və bu məqsədlə İmam Hüseyn əleyhissəlama təzyiqlər göstərmək;

**2.** Kufə camaatının İmam Hüseyn əleyhissəlamı İraqa (Kufəyə) dəvət etməsi;

---

[1] İmam Hüseyn əleyhissəlamın həyatı, c.2,səh.231 (Şərhi Nəhcül Bəlağənin c. 18, səh. 409-dan nəql edərək).

**3.** Əmr be-məruf və nəhy əz-münkər amili. İmam Hüseyn əleyhissəlamın Mədinədən çıxdığı andan şüarı da məhz bu olmuşdur.

İndi bu səbəblərin hər birini ayrı-ayrılıqda izah edəcəyik. Bununla da, İmam Hüseyn əleyhissəlamın inqilabının bu səbəblərini nəzərə alaraq hansı mahiyyət daşıdığını və bu səbəblərin inqilabın yaranmasında nə qədər təsir göstərdiyini biləcəyik.

## 1. Yezidə beyət etməyə qarşı müxalifət

Zaman nöqteyi-nəzərindən İmam Hüseyn əleyhissəlamın inqilabının ilk səbəbi, Yezidin hökuməti tərəfindən İmam Hüseyn əleyhissəlamdan beyət istəmək və o Həzrətin bununla müxalifəti olmuşdur. Tarixçilərin dediyi kimi hicrətin altımışıncı ili rəcəb ayının on beşində Müaviyə öldükdən sonra Yezid Mədinənin valisi Vəlid ibn Ütbə ibn Əbu Süfyana məktub yazdı ki, İmam Hüseyn əleyhissəlamdan onun üçün beyət alsın və bu işi əsla yubatmasın.[1] Məktub çatan kimi Mədinənin valisi İmam Hüseyn əleyhissəlamı çağırtdırıb onu məsələdən agah etdi. Hələ Müaviyənin sağlığında Yezidin vəliəhdliyi ilə müxalif olan İmam Hüseyn (əleyhissəlam) bu dəfə də beyətdən boyun qaçırtdı. Çünki Yezidə beyət etmək təkcə Yezid kimi alçaq bir şəxsin hakimiyyətini təsdiqləmək deyil, həm də əsasını Müaviyə qoymuş diktatura rejimi kimi böyük bir bidəti təsdiqləmək demək idi.

Mədinənin hakimi tərəfindən bir neçə gün təzyiqlər davam etdi. Ancaq bu təzyiqlər Hüseyn ibn Əli əleyhissəlamın müqavimətini qıra bilmədi. Təzyiqlərin artması nəticəsində İmam Hüseyn (əleyhissəlam) rəcəb ayının iyirmi səkkizində ailəsi və Bəni–Haşimdən olan bir dəstə ilə birlikdə Mədinəni Məkkə məqsədi ilə tərk etdi və şəban ayının üçü Məkkəyə çatdı. Şəhərlər arasından məhz Məkkəni seçməyin səbəbi oranın əmin-amanlıq yeri olması idi. Bundan da əlavə, qarşıdan həcc mərasimi gəlirdi. Hacıların tez bir zamanda Məkkəyə yığılacağını nəzərə aldıqda, bu şəhər İmam Hüseyn əleyhissəlamın öz məqsədini müsəlmanlara çatdırması üçün ən münasib yer idi.

İmam Hüseyn əleyhissəlamın inqilabı bura qədər reaksiya mahiyyəti daşıyırdı. Özü də qeyri-şəri bir istəyə qarşı mənfi reaksiya. Çünki Yezid hökuməti ondan zor gücünə beyət almaq istəyir, amma İmam Hüseyn (əleyhissəlam) da buna razı olmurdu. Hər necə olur-olsun, bu məsələ məlumdur ki, İmam Hüseyn əleyhissəlamı Kufə əhalisi dəvət etməzdən qabaq o Həzrət Yezid hökumətinin təzyiqlərinə qarşı müxalifət edirdi. Əgər Kufə əhalisinin dəvəti olmasaydı da, İmam Hüseyn (əleyhissəlam) Yezidə beyət etməyəcəkdi.

## 2. Kufəlilərin dəvəti

İmam Hüseyn (əleyhissəlam) şəban ayının üçündə Məkkəyə çatıb orada düşərgə saldı və hökumətin əsl mahiyyətini açıb söyləməyə məşğul oldu. İmam Hüseyn əleyhissəlamın Yezidin hökumətinə qarşı müxalifəti və onun Məkkədə düşərgə salması xəbəri İraqa çatdı. Təxminən iyirmi il qabaq Həzrət Əli əleyhissəlamın ədalətli hakimiyyəti yadında qalmış, o Həzrətin təlim-tərbiyəsi hələ tamamilə

---

[1] Əl-İrşad, səh.200.

yadlarından çıxmamış Kufə əhalisi, o Həzrətin böyütdüyü yetimlər və himayəsinə aldığı dul qadınlar bir yerə toplaşaraq vəziyyəti yoxladıqdan sonra qərara gəldilər ki, Yezidin hakimiyyətinə qarşı çıxaraq İmam Hüseyn əleyhissəlamı Kufəyə dəvət edib ona itaət etsinlər.

Bu müzakirədən sonra Kufə şiələrinin başçıları, o cümlədən, Süleyman ibn Sürəd, Müsəyyib ibn Nəcəbə, Rüfaə ibn Şəddadi Bəcəli və Həbib ibn Məzahir İmam Hüseyn əleyhissəlama məktub yazıb onu dəvət etdilər ki, İraqa gəlib onlara rəhbərlik etsin. İlk məktub hicrətin altımışıncı ili ramazan ayının onunda İmam Hüseyn əleyhissəlama çatdı.[1]

Hər gün Kufənin müxtəlif şəxsiyyət və dəstələri tərəfindən məktublar gəlməkdə davam edirdi. Belə ki, İmam Hüseyn əleyhissəlama təkcə bir gündə altı yüz məktub gəlib çatdı. Məktubların ümumi sayı təxminən on iki minə çatırdı.[2] İmam Hüseyn (əleyhissəlam) camaatın müsbət reaksiya göstərməsini, məktubların axınını və istəkləri nəzərə alaraq iraqlıların dəvətinə müsbət cavab verməyi qərara aldı. Buna görə də, əmisi oğlu Müslim ibn Əqili oranın vəziyyətini araşdırıb nəticəni ona xəbər vermək üçün İraqa göndərdi. Əgər (İraq) Kufə camaatı əməldə, yazdıqlarına vəfalı qalacaqdılarsa, İmam (əleyhissəlam) özü də ora yola düşəcəkdi.

Göründüyü kimi İmam Hüseyn əleyhissəlamın kufəlilərin dəvətinə qarşı münasibəti və münasibətin mahiyyəti müsbət olmuş və iraqlılarla bir növ həmkarlıq xüsusiyyəti daşımışdır. Tarixi faktlardan məlum olur ki, İmam Hüseyn əleyhissəlamın Məkkədə Yezidin hökumətinə beyət etməməkdən başqa vəzifəsi yox idi. Onu da yerinə yetirmişdi. (Yəni, beyət etməkdən imtina etmişdi.) Ancaq Kufə camaatının dəvəti hadisəyə təzə bir cəhət verdi və İmam Hüseyn (əleyhissəlam) üçün yeni bir məsuliyyət ortaya çıxdı. Elə bil İmam Hüseyn (əleyhissəlam) belə bir nəticəyə gəldi ki, əgər Kufə camaatı bu cür həvəslə məni dəvət edirsə, onda mən də İraqa getməliyəm. Əgər vədələrinə vəfa etsələr, çox yaxşı, əgər vəfa etməsələr, onda yenə də Məkkəyə qayıdaram, ya da başqa bir İslami məntəqəyə gedərəm.

Buna əsasən, zaman nöqteyi-nəzərindən İmam Hüseyn əleyhissəlamın Yezidə beyət etməkdən imtina etməsi kufəlilərin dəvətindən qabaq olmuşdur. Kufədən gəlmiş ilk məktub İmam Hüseyn (əleyhissəlam) Məkkəyə çatdıqdan qırx gün sonra yetişmişdir. Məsələ belə deyil ki, Kufə camaatı İmamı dəvət etdiyi üçün İmam Hüseyn (əleyhissəlam) Yezidə beyət etməkdən imtina etmişdi və Kufə olmasaydı, camaat məktub göndərməsəydi, İmam Yezidə beyət edəcəkdi. Xeyr, hətta yer üzünü İmama darısqal etsəydilər də, yenə İmam Hüseyn (əleyhissəlam) Yezidə beyət etməyəcəkdi.

## 3. Əmr be-məruf və nəhy əz-münkər amili

İmam Hüseyn (əleyhissəlam) ilk gündən Mədinədən əmr be-məruf və nəhy əz-münkər şüarı ilə hərəkət etmişdi. Bu cəhətdən məsələ belə deyildi ki, İmam Hüseyn əleyhissəlamdan beyət tələb olunduğuna görə o inqilab etmişdi. Xeyr, İmamdan beyət istəməsəydilər belə, yenə İmam inqilab edəcəkdi. Həmçinin, məsələ belə deyildi ki,

[1] Əl-İrşad, səh.203.
[2] Əl-Lühüf, səh.15.

Kufə camaatı İmamı dəvət etdiyinə görə İmam inqilab etmişdi. Bundan əvvəl qeyd edildiyi kimi İmamın beyətdən imtina etməsindən bir ay yarım sonra Kufə camaatının məktubları gəlməyə başlamışdı. Bu baxımdan İmam Hüseyn əleyhissəlamın məntiqi İslama zidd olan hökumətə qarşı yönəlmiş etiraz və hücum məntiqidir. İmam Hüseyn əleyhissəlamın məntiqi bu idi ki, İslam aləmini fəsad bürüdüyü və hakimiyyətin fəsadın mənbəyinə çevrildiyi üçün o, öz şəri və Allah qarşısında olan borcunu yerinə yetirməkdən ötrü inqilab edir.

* * *

Öncə də qeyd etdiyimiz kimi bu üç səbəbin hər birinin İmam Hüseyn əleyhissəlamın inqilabında rolu olmuş, onların hər biri İmam üçün yeni bir təklif və vəzifə irəli çıxartmışdı. İmam Hüseyn əleyhissəlamın bu üç amilə nisbət mövqeyi bir-birindən fərqli olmuşdur.

Birinci amil baxımından İmam Hüseyn (əleyhissəlam) müdafiə rolunu oynayırdı. Çünki ondan zorla beyət istəyirdilər, o da bundan imtina edirdi.

İkinci amil baxımından İmam Hüseyn (əleyhissəlam) köməkçi rolunu ifa edirdi. Çünki onu (Kufə camaatı) həmkarlığa dəvət etmiş, o da bu dəvətə müsbət cavab vermişdi.

Üçüncü amil baxımından isə İmam Hüseyn (əleyhissəlam) etiraz edərək hücuma keçmişdi. Çünki İmam Hüseyn əleyhissəlamdan heç beyət istəməsəydilər də o, hökumətə qarşı inqilab edib onu qeyri-İslami hökumət adlandıracaqdı.

## Hər üç amilin öz dəyəri

İndi gəlin görək bu üç amildən hansı biri daha çox əhəmiyyət daşıyır?

Şübhəsiz, Kufə camaatının dəvətini qəbul etmək amilinin özünəməxsus əhəmiyyəti vardır. Çünki İmam Hüseyn (əleyhissəlam) Yezidin qanunsuz hakimiyyətinə etiraz edib İmamı rəhbər olmağa dəvət edən camaata öz hazırlığını bildirdi. Əgər şərait yaxşı olsaydı, şübhəsiz, İmam İslami hökumət quracaqdı. Lakin İmam Hüseyn əleyhissəlamın Yezidə beyət etməkdən imtina etməsi amili bundan daha çox əhəmiyyət daşıyır. Çünki İmam Hüseyn (əleyhissəlam) dəfələrlə elan etmişdi ki, nəyin bahasına olursa olsun, bütün təzyiqlərə dözüb Yezidə beyət etməyəcək. Bu, İmam Hüseyn əleyhissəlamın təzyiqə və zorakılığa qarşı dözüm və müqavimətini göstərir.

Bunlardan daha çox əhəmiyyəti isə üçüncü amil, yəni, əmr be-məruf və nəhy əz-münkər amili daşıyır. Çünki burada İmam Hüseyn əleyhissəlamın hərəkəti nə hökumətə qarşı bir reaksiya, nə müdafiə, nə də köməklik və dəvətə qarşı cavab idi. İmamın hərəkəti yalnız hökumətə qarşı etiraz və hücum idi.

Əgər Kufə camaatının dəvəti əsas səbəb olsaydı, kufəlilərin vəfasızlıq xəbəri o Həzrətə yetişərkən öz məqsədindən dönüb mövqeyini dəyişərək İraq səmtinə hərəkətini saxlayardı. Ancaq görürük ki, İmam Hüseyn əleyhissəlamın ən əsas xütbələri, ən həyəcanlı və təhrikedici çıxışları məhz Həzrət Müslimin şəhadətindən sonra olmuşdur. Buradan İmam Hüseyn əleyhissəlamın əmr be-məruf və nəhy əz-

münkər amilinə nə qədər üstünlük verməsi və Yezidin azğın hökumətinə nə qədər kəskin etiraz edib hücuma keçməsi məlum olur.[1]

Bura qədər verdiyimiz şərhlərdən sonra bu bölmənin əvvəlindəki birinci və ikinci sualın cavabı aydın oldu. Məlum oldu ki, əgər Yezid İmam Hüseyn əleyhissəlamdan beyət almaq üçün onu təzyiqlərə məruz qoymasaydı da, İmam Hüseyn (əleyhissəlam) yenə Yezidin hakimiyyətinə qarşı müxalifətçilik edəcəkdi. Həmçinin, əgər kufəlilər İmam Hüseyn əleyhissəlamı dəvət etməsəydilər belə, yenə bu inqilab həyata keçəcəkdi.

İndi isə üçüncü sualın cavabının aydın olması üçün bu inqilabda İmam Hüseyn əleyhissəlamın əmr be-məruf və nəhy əz-münkər amilinə nə dərəcədə diqqət yetirməsini göstərən bir neçə canlı sənədi nəzərinizə çatdırırıq.

## 1) İmam Hüseyn əleyhissəlamın əqidəvi-siyasi vəsiyyətnaməsi

İmam Hüseyn (əleyhissəlam) Mədinədən hərəkət etməzdən əvvəl qardaşı Məhəmməd Hənəfiyyəyə bir vəsiyyətnamə yazdı. Vəsiyyətnamədə İmam öz inqilabının səbəbini İslam ümmətinin islah edilməsi, əmr be-məruf və nəhy əz-münkər və cəddi Peyğəmbər (səlləllahu əleyhi və alih), atası Əli əleyhissəlamın sünnəsinin dirçəldilməsi olduğunu bildirmişdir. İmam Hüseyn (əleyhissəlam) bu vəsiyyətnamədə özünün tövhid, nübüvvət və məada olan əqidəsini bildirdikdən sonra belə yazmışdır:

*«...Mən Mədinədən nə özümü qorumağa, nə azğınlığa, nə həvayi-nəfsə tabe olmağa, nə də fəsad və zülm törətməyə görə çıxmıram. Mənim bu hərəkətdən məqsədim cəddimin ümmətinin fəsadını islah, əmr be-məruf və nəhy əz-münkəri icra etməkdir. Mən cəddimin və atamın sünnəsi ilə hərəkət etmək istəyirəm. Kim haqqın hörmətini qorumaq xatirinə bu yolda mənə qoşularsa, mən öz yolumla hərəkət edəcəyəm. Qoy Allah mənimlə bu qövm arasında hakim olsun. Həqiqətən O, hakimlərin ən yaxşısıdır.»*[2]

Göründüyü kimi İmam Hüseyn (əleyhissəlam) bu vəsiyyətnamədə aşağıdakı dörd şeyi öz inqilabının səbəbi kimi qeyd etmişdir:

**1)** Ümməti islah etmək;

**2)** Əmr be-məruf;

**3)** Nəhy əz-münkər;

**4)** Babası Peyğəmbərin (səlləllahu əleyhi və alih), atası Əli əleyhissəlamın sünnəsinə itaət etmək və onların sünnəsini cəmiyyətdə dirçəltmək.

## 2) Bağışlanılmaz sükut

İmam Hüseyn (əleyhissəlam) İraqa gedərkən yolda Beyzə adlı bir məntəqədə Hürrün qoşunu ilə üz-üzə gəldi. İmam Hüseyn (əleyhissəlam) üzünü Hürrün qoşununa tərəf tutub bir xütbə söylədi və xütbədə öz inqilabının səbəbini belə açıqladı:

---

[1] Həmaseyi-Hüseyni, c.2.

[2] Biharül-ənvar, c.44, səh.329.

*«Camaat! Allahın peyğəmbəri buyurmuşdur: "Kim Allahın haramını halal edən, Allahın əhdini sındıran, Peyğəmbərin (səlləllahu əleyhi və alih) qanun və sünnəsinə müxalif olub Allahın bəndələri arasında günah, fəsad və düşmənçilik edən bir hökmdarla üzləşsə və bu cür bir hökmdara qarşı əməli, hərəkəti və ya sözü ilə etiraz etməsə, Allah (sükut edən) həmən şəxsi o hökmdarın düçar olacağı əzaba (Cəhənnəm əzabına) düçar edər.*

*Camaat! Agah olun, bunlar (Bəni–Üməyyə) Allahın itaətindən çıxmış və Şeytana itaət etməyi özlərinə vacib bilmişlər. Bunlar fəsadı yaymış, Allahın qanunlarının icra olunmasının qarşısını almışlar. Peyğəmbər ailəsinə məxsus olan payı özlərinə götürmüşlər. Mən müsəlman cəmiyyətini hidayət edib onlara rəhbərlik etməkdə, cəddimin dinini min cür fəsadlarla dəyişmiş bir hökumətə qarşı inqilab etməkdə hamıdan layiqliyəm...»*[1]

## 3) Sünnənin məhv olması, bidətlərin yayılması

İmam Hüseyn (əleyhissəlam) Məkkəyə gəldikdən sonra Bəsrə şəhərindəki qəbilələrin başçılarına məktub yazdı. O, məktubda keçmiş xəlifələrin dövründə İslamın həqiqi rəhbərlərinin siyasət səhnəsindən uzaqlaşdırıldığını, onların ixtilaf və təfriqənin qarşısını almaq və İslamın ali məsləhətləri naminə bu vəziyyətə dözmələrini vurğuladıqdan sonra belə yazır:

*«...Mən öz qasidimi bu məktubla sizə tərəf göndərirəm. Sizi Allahın kitabı və peyğəmbərin sünnəsinə dəvət edirəm. İndi elə bir vəziyyətdəyik ki, peyğəmbərin sünnəsi tamamilə itib batmış, aradan getmiş və onun yerini bidətlər tutmuşdur. Əgər mənim sözümə qulaq assanız, sizi düz yola hidayət edərəm. Allahın salamı, rəhməti və bərəkəti sizə olsun!»*[2]

## 4) Artıq haqqa əməl olunmur

Hüseyn ibn Əli (əleyhissəlam) İraq yolunda Zi-Husum adlı bir yerdə ayağa qalxıb öz səhabələrinə aşağıdakı xütbəni buyurdu:

*«Vəziyyəti artıq özünüz görürsünüz. Zəmanə doğrudan da, dəyişmişdir. Pisliklər meydana çıxmış, yaxşılıqlar və fəzilətlər isə aradan getmişdir. Fəzilətlərdən isə ancaq su qabının dibində bir-iki damcı su qaldığı kimi qalmışdır. Camaat zillət və alçaqlıq içində ömür sürür. Həyat səhnəsi daş-kəsəkli, az otlu bir otlağa, çətin və əziyyətli bir yerə çevrilmişdir. Görmürsünüz ki, daha haqqa əməl olunmur və batilin qarşısı alınmır? Belə bir vaxtda imanlı bir şəxsin (canından keçib) Allaha qovuşmağa haqqı var. Belə bir çirkin və alçaq həyatda mən ölməyi səadət, zalımlarla bir yerdə yaşamağı isə zillət və alçaqlıq hesab edirəm. Bu camaat dünyanın qullarıdır. Din onların dilində lağlağaya çevrilib. Nə qədər ki, asayiş və rifahdadırlar, dinə kömək edirlər, elə ki, imtahana çəkilirlər, sayları azalır.»*[3]

---

[1] Məqtəlül-Hüseyn, səh.85; Əl-Kamilu fit-tarix, c.4, səh.48.
[2] Tarixül-üməmi vəl-mülük, c.6, səh.200.
[3] Tühəfül-üqul, səh.245; Tarixül-üməmi vəl-mülük, c.5, səh.229.

## Düşünülmüş və hazırlıqlı qiyam

Bu günkü zamanda materialistlərin qiyam üçün verdiyi təfsirə görə qiyam cəmiyyətdə buxar qazanının havasının çıxmağa yeri olmadığı zaman partlaması kimidir. Bu vəziyyətdə insan istəsə də, istəməsə də, buxarın çoxalıb sıxlaşması nəticəsində partlayış olacaq. Cəmiyyətdəki təbəqələr arasında çətinliklər və ziddiyyətlər artdıqda, camaat daha zülmə dözə bilmir, təbii ki, belə bir vəziyyətdə də qiyam baş verməlidir. Başqa sözlə desək, qiyam - kiçik miqyasda qəzəblənmiş və kinli bir şəxsin səbr kasası dolduqda ürəyində olanları bayıra çıxarmasıdır. Hətta ola bilər sonradan buna peşiman da olsun.

İmam Hüseyn əleyhissəlamın tarixi məktub və çıxışlarından (qeyd etdiyimiz çıxışlardan) gözəl məlum olur ki, bu böyük şəxsiyyətin qiyamı bu cür ictimai partlayış olmamışdır. Onun qiyamı agahlıq əsasında, məsuliyyət hiss etmək nəticəsində və bütün təhlükələri nəzərə almaqla baş vermişdir. İmam Hüseyn (əleyhissəlam) təkcə özü agah halda şəhadətə tərəf getmədi, hətta səhabələrə də şəhadəti könüllü olaraq seçməyi aşıladı. Bu səbəbdən İmam Hüseyn (əleyhissəlam) Aşura gecəsi səhabələrini bir yerə yığıb onlara bildirdi ki, onların hamısı azaddır, kim istəsə, çıxıb gedə bilər. Sabah onunla qalanların hamısı şəhid olacaqdır. Səhabələr də bunların hamısını nəzərə alaraq qaldılar və şəhadətə qovuşdular.

Bundan əlavə, materialistlərin fikrincə qiyamda rəhbərin və qiyamçıların bir o qədər də rolu olmur. Sadəcə olaraq onlar uşaq doğulanda, uşaq tutan dayə rolunu oynayırlar. Onların qiyam qəhrəmanları bu cür inqilab həyata keçirmək iqtidarında olmadıqlarından inqilabları da heç bir əxlaqi dəyərlərə malik olmur. Lakin İmam Hüseyn əleyhissəlamın Kərbəla qiyamındakı rolu heç kəsə naməlum qalmamışdır.

## Əməvilərin iqtidar daxilində nüfuzu

İmam Hüseyn əleyhissəlamın inqilabında əmr be-məruf və nəhy əz-münkərin rolu barədə dediklərimizdən məlum oldu ki, o Həzrətin qiyam etməsinin əsas səbəbi İslami hökumətin öz əsl xəttindən uzaqlaşması və bunun ardınca bidətlərin yayılması, Peyğəmbər sünnəsinin itib batması, fəsad, pozğunluq və İslama zidd olan hərəkətlərin artması olmuşdur.

İndi bu barədə bir az ətraflı danışaq.

Bir daha xatırladırıq ki, o vaxt İslam hakimiyyəti və müsəlmanların bütün işləri İslamla zidd olan cahil Bəni–Üməyyə dəstəsinin əlində idi. Bu dəstə İslam peyğəmbərinə qarşı illərlə mübarizə etdikdən sonra nəhayət Məkkənin fəthində zahirdə müsəlman oldular. Ancaq öz küfr və münafiqliyini gizlədib peyğəmbərin vəfatından sonra islamnüma şəkildə öz gizli fəaliyyətlərinə başlayaraq yavaş-yavaş hökumətdə nüfuz tapıb xilafətin əsas işlərini öz əllərinə keçirdilər. Axırda da Həzrət Əli əleyhissəlamın şəhadətindən sonra Müaviyənin başçılığı ilə hökumət başına gəldilər.

Düzdür, bu dəstənin əsas başda olanları və idarəedici qüvvələri öz çirkin məqsədlərini (daxildən İslama zərbə vurmaq planını və insanların «cahiliyyət» dövrünün adət-ənənələrinə qaytarmaq fikirlərini) üzə çıxarmadılar, ancaq onların gördükləri işləri mütaliə etmək bu mənanı açıq-aşkar bəyan edir. Eləcə də, onlar öz aralarında təşkil vermiş və söz-söhbətlərinin kənara çıxmamasını güman etdikləri

məclislərdə öz məqsədlərini açıb söyləyirdilər. Misal üçün qeyd etmək olar ki, bu dəstənin başında duran Əbu Süfyan Osmanın (Bəni–Üməyyənin birinci xəlifəsi) xilafət başına gəldiyi birinci gün Bəni–Üməyyə Osmanın evinə yığışıb qapını bağladıqları vaxtda dedi: «Sizdən başqa burada kimsə var? » (Artıq o vaxt Əbu Süfyanın gözləri tutulmuşdu.) Dedilər: «Xeyr.» Əbu Süfyan dedi: «İndi ki, hökumət sizin əlinizə düşüb, onu bir top kimi bir-birinizə ötürün. Çalışın ki, hökumət Bəni–Üməyyədən qırağa çıxmasın. Mən and içirəm əqidə bəslədiyim şeyə, nə əzab var, nə hesab-kitab, nə Cənnət var, nə Cəhənnəm, nə də Qiyamət.»[1]

Həmən bu Əbu Süfyan Osmanın xəlifəlik dövründə bir gün Ühüd qəbiristanlığının ətrafından keçirdi.O, təpiklə Həmzənin qəbrinə vurub dedi: «Dünən sizinlə üstündə qılıncla vuruşduğumuz şey bu gün bizim uşaqlarımızın əlindədir və onlar onunla oynayırlar.»[1]

## Müaviyənin İslama zidd olan hərəkətləri

Müaviyə ibn Əbu Süfyan öz xəlifəlik dövründə bir gecə (öz valilərindən biri olan) Müğeyrə ibn Şübə ilə oturub söhbət edərkən özünün İslamı aradan aparmaq arzusunu açıqlamışdır. Bu xəbər Müğeyrənin oğlu Mütərrif tərəfindən faş edildi. Mütərrif deyir: «Atam Müğeyrə ilə birlikdə Dəməşqdə Müaviyənin qonağı idik. Atam tez-tez Müaviyənin sarayına gedər və onunla söhbət edərdi. Qaldığımız yerə qayıtdıqda, onun ağıl-kamalından danışar, onu tərifləyərdi. Ancaq bir gecə Müaviyənin sarayından qayıdanda gördüm ki, atam bərk narahatdır. Başa düşdüm ki, onun narahatlığına səbəb olan bir hadisə baş vermişdir. Narahatlığının səbəbini soruşduqda, mənə dedi: «Oğlum, mən indi dünyanın ən çirkin adamının yanından gəlirəm.» Dedim: «Məgər nə olub?» Cavab verdi: «Müaviyə ilə tək oturmuşduq, ona dedim: “İndi ki öz arzuna çatıb hökuməti ələ keçirmisən, heç olmasa ömrünün axırlarında camaatla ədalət və yaxşılıqla davran, Bəni–Haşimlə bu qədər bədrəftar olma. Axı onlar necə olsa, yenə sənin qohumlarındırlar, bundan da əlavə, onlar indi elə bir vəziyyətdədirlər ki, daha onlardan sənə bir xətər yetişməz.» Müaviyə cavab verdi: «Əsla, əsla! Əbu Bəkr xəlifə oldu, ədalətlə davrandı, ölümündən sonra təkcə adı qaldı. Ömər də on il xəlifə oldu, zəhmətlər çəkdi, ancaq ölümündən sonra təkcə qalan adı oldu. Sonra şərafətdə heç kəs ona çata bilməyən bizim Osman qardaşımız xəlifə oldu. O ölən kimi adı da özü ilə dəfn olundu. Ancaq İslam aləmində hər gün bu Haşimi kişinin (peyğəmbərin) adını beş dəfə çəkərək «əşhədu ənnə Muhəmmədən rəsulullah» deyirlər. İndi (o üç nəfərin adının itib batdığı, lakin Məhəmmədin (səlləllahu əleyhi və alih) adının yaşadığı) bu vəziyyətdə onun adını itirib batırmaqdan başqa hansı yol var?»

Müaviyənin küfr simasının üzərindən pərdə götürən bu söz rəvayətçilər tərəfindən (Abbasi xəlifəsi) Məmunun qulağına çatdıqda, o, İslam ölkəsinin hər tərəfinə əmr verir ki, camaat Müaviyəni lənətləsin.[2]

---

[1] Şərhi Nəhcül Bəlağə (İbn Əbil Hədid), səh. 53, 139-cu xütbənin şərhi, həmçinin c. 2, səh. 44-45.

[1] Qamusur-rical, c.10, səh.80.

[2] Mürucuz-zəhəb, c.3, səh.454.

Cahiz "Süfyaniyyə" kitabında yazır: "Əbuzər Şama sürgün olunduğu vaxt Müaviyə ilə danışıqlarının birində şiddətlə ona e`tirazını bildirərək demişdi: Səninlə atan Allah və Peyğəmbərin düşmənisiniz. Zahirdə özünüzü müsəlman kimi göstərib kafir olduğunuzu gizlədirsiniz və Peyğəmbər dəfələrlə səni lə`nətləmişdir."[1]

Həmçinin İbn Əbil Hədid Mö`təzili yazır: "Bizim şeyxlərimizin − Allah onlara rəhmət eləsin − (alim və bilicilərimiz) nəzərinə görə Müaviyənin müsəlman olmağı şübhəlidir və onun kafir olduğu ehtimalı vardır. Bu barədə mən "Nəqdis Süfyaniyyə" kitabında şeyximiz Əbu Osman əl-Cahizlə əshabımızın "kəlam" kitablarında nəql etdiyi Müaviyənin Peyğəmbər (s)-ə qarşı mülhid və müxalif fikirdə olduğunu, həmçinin ondan "cəbr" və digər küfr doğuran ideyaları təzahür etdiyini göstərən materialların ətrafında söhbətimizi qeyd etmişəm."[2]

Bunlar Əməvilərin İslamı dağıtmaq fikrini və onların mürtəce bir hərəkətə başçılıq etdiyini göstərir.

## Yezidin fəsadları

Belə bir ailədə tərbiyə alaraq bu cür adamların mədəniyyəti ilə böyümüş Yezidin İslam dini adı ilə camaata başçılıq etmək istədiyi dinə zərrə qədər də olsun etiqadı yox idi.

Yezid təcrübəsiz, şəhvətpərəst, özbaşına, ehtiyat və uzaqgörənliyi olmayan bir gənc idi. O, ağılsız, qorxu bilməyən, kefcil, əyyaş və düşüncəsi az olan bir insan idi. Hakimiyyətə gəlməzdən əvvəl həvayi-həvəs, nəfsani meyllər əlində əsir olmuş Yezid, hakimiyyətə gələndən sonra heç olmasa atası kimi İslamın zahirinə də əməl etmədi. O, ruhunun qorxmazlığı və həvayi-nəfs nəticəsində İslamın müqəddəs işlərini də açıqcasına ayaq altına ataraq şəhvətini doyuzdurmaqdan ötrü əlindən gələni etdi. Yezid açıq-aşkar şərab içir və günah edirdi. O, gecə məclislərində əyan-əşrafla oturub şərab içərkən heç bir qorxu hiss etmədən aşağıdakı məzmunda şerlər deyərdi: «Ey mənim piyalə dostlarım! Qalxın və xoşavaz xanəndələrin səsinə qulaq asın. Şərab piyalələrini bir-birinin ardınca başınıza çəkin və elmi-ədəbi söhbətləri bir qırağa qoyun. Saz-avaz sədası mənə azan və «Allahu əkbər» səsini eşitməkdən daha xoşdur. Mən (nisyə olan) Behişt hurilərini (nəqd olan) şərabla dəyişməyə hazıram. Nəqd mal bizim, nisyə isə Qiyamətə əqidəsi olanların olsun!»[3] Yezid bu cür həyasızlığı ilə İslamın müqəddəs etiqadını ələ salırdı. O, peyğəmbərlik və Həzrət Məhəmmədə (səlləllahu əleyhi və alih) vəhy nazil olmasını açıq-aşkar inkar edir, bunların hamısını cəddi Əbu Süfyan kimi xam xəyal hesab edirdi. İmam Hüseyn əleyhissəlama zahiri qələbə çaldıqdan sonra bu məzmunda bir şer deyir: «Haşim hökumət və mülklə oyun oynamışdır. Nə qeybdən bir xəbər gəlib, nə də vəhy nazil olmuşdur.» Sonra İslam bayrağı altında Bədr döyüşündə vuruşaraq Yezidin qohum-əqrəbasını qılıncdan keçirmiş İslam fədailərinə olan kin-küdurətini aşkar edərək İmam Hüseyn

---

[1] Əd-dərəcatür rəfiə fi təbəqatiş-şiə, səh. 243; Şərhi Nəhcül-bəlağə, c.8, səh. 257. Mə`munun xilafəti bəhslərində qeyd olunduğu kimi ona belə fərman verməyə təşviq və təbliğ edənlər də elə "mö`təzililər" olmuşdur. Çünki onlar Bəni-Üməyyə ilə müxalif idilər və onların xilafətini qanunsuz hesab edirdilər.

[2] Şərhi Nəhcül-Bəlağə, c. 1, s. 340

[3] Təzkirətül-xəvass, səh.291.

əleyhissəlamı öldürməyi bunlara əvəz kimi hesab edib deyir: «Kaş Bədr döyüşündə ölmüş böyüklərimiz indi sağ olub deyəydilər: Afərin, Yezid![1]»

Bir dəfə Müaviyə Yezidi Roma imperiyası ilə döyüşə göndərdi. (Müaviyə bununla bildirmək istəyirdi ki, Yezid təkcə kef adamı deyil, həm də mübarizə və döyüş adamıdır.) Süfyan ibn Ovf Qamidini də onunla göndərdi. Yezid sevimli arvadı Ummu Külsümü də özü ilə apardı. Süfyan Yeziddən qabaq ordu ilə birlikdə Roma imperiyasının torpaqlarına daxil oldu. Oranın pis iqlimi nəticəsində İslam ordusu Qəzqəzunə[2] adlı bir yerdə qızdırma xəstəliyinə tutuldu. Belə bir vəziyyətdə Yezid öz kefi ilə məşğul olub deyir:

«Dəyri-Murran adlı bir yerdə Ummu Külsüm də yanımdadır, daha nəyimə lazımdır ki, İslam ordusu Qəzqəzunədə qızdırmaya tutulub ölür.»[3]

Məlumdur ki, ölkənin cavanlarına və ordusuna bu qədər biganə olan şəxs hakimiyyətə gələrsə, İslam ümmətinin başına gör nələr gətirər?

Yezidin sarayı günah mərkəzinə çevrilmişdi. Onun sarayındakı günahların mənfi nəticəsi o qədər yayılmışdı ki, onun qısa müddətli hakimiyyəti dövründə hətta Məkkə və Mədinə kimi şəhərlərin müqəddəs mühiti də pozulmuşdu.[4]

Yezid axırda öz kefinə görə canını əldən verdi və çox şərab içmək onun zəhərlənməsi və nəhayət ölümü ilə nəticələndi.[5]

İslam aləminin görkəmli tarixçilərindən olan Məsudi deyir: «Yezid camaatla Firon kimi davranırdı, bəlkə də Fironun rəftarı ondan yaxşı idi.»[6]

Yezidin fəsad və pozğunluğuna, alçaq həyat sürməsinə və zalım hökumətinə dair şahid və faktlar o qədərdir ki, onların hamısını bu qısa bəhsdə qeyd etmək mümkün deyil. Güman edirik ki, bu deyilənlər Yezidin əsl mahiyyətini tanımaq üçün kifayət edər.

## Yezidin təhrif olunmuş məsihiyyətə meyli

Bu deyilənlərdən əlavə, Yezid əsasən, məsihi təlim-tərbiyəsi ilə böyümüş, ya da ən azı məsihiyyətə meylli olmuşdur. Ustad Abdullah Əlaili buna işarə edərək yazır:

«Yezidin məsihi təlim-tərbiyəsi altında böyüməsi haqda az da olsa, xəbərimiz yoxdur. Bəlkə də əziz oxucu bu məsələni ilk baxışda inkar edər. Ancaq Yezidin ana tərəfdən İslamdan qabaq məsihi olmuş Bəni–Kəlb qəbiləsindən olduğunu nəzər alsaq, daha buna təəccüb yeri qalmaz. Çünki bütün camaat bilir ki, bir millətin əsas adət-ənənələri, ictimai dəyərləri və mədəniyyətinin mənbəyi olan əqidəni tamamilə aradan aparmaq üçün uzun müddət vaxt lazımdır. Tarix bizə deyir ki, Yezid gənclik dövrünə qədər bu qəbilədə böyümüşdü. Bunun mənası isə o deməkdir ki, o, tərbiyəçilərin diqqətini cəlb edən tərbiyə dövrünü belə bir mühitdə keçirmişdir. Beləliklə də,

---

[1] Tətimmətül-müntəhəl-amal, səh.44.

[2] Qəzqəzunə - Şam və Roma sərhədləri kənarında yer adıdır. Tərtus və Museysə də orada yerləşir.

[3] Tarixi-Yə’qubi, c.2, səh160.

[4] Mürucuz-zəhəb, c.3,səh67.

[5] Mürucuz-zəhəb, c.3.səh.68.

[6] Məqtəlul-Hüseyn, c.2, səh.183.

məsihiyyətdən təsir görməyindən əlavə, kəndin və səhranın təbiətinin çətinlikləri də onun ruhiyyəsinə qarışmışdı.

Bunlardan əlavə, bəzi tarixçilərin o cümlədən məsihi alimi Lamensin «Müaviyə» və «Yezid» adlı kitablarında dediyinə görə Yezidin bəzi ustadları Şam şəhərinin xristianlarından olmuşdur. Müsəlmanlara rəhbərlik etmək istəyən bir şəxsdə bu tərbiyənin mənfi təsirləri heç kimə naməlum qalmayıb.»

Əlaili əlavə edərək deyir: «Yezidin məsihi şairi Əxtəli Ənsarı tənə edib danlamağa məcbur etməsinin, eləcə də bütün tarixçilərin dediyinə görə oğlunu tərbiyələndirmək üçün bir nəfər məsihiyə tapşırmasının da səbəbi onun özünün məsihi tərbiyəsi görməsi nəticəsindədir.»[1] Tarix şahiddir ki, Yezidin özü məsihiyyətə olan meylini gizlətmir, əksinə, açıq-aşkar deyirdi: «Əgər şərab Əhmədin (İslam peyğəmbərinin) dinində haramdırsa, onda onu Məsihin dininə əsasən iç.»[2] (Əlbəttə, qeyd etmək lazımdır ki, həqiqi xristian dinində də şərab içmək haram sayılır.)

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Roma imperiyası Bəni–Üməyyənin sarayında böyük nüfuz tapmışdı. Bəzi Roma məsihiləri Şam sarayında məsləhətçi idilər. Tarixçilərin hamısı bir nəfər kimi deyir ki, İmam Hüseyn (əleyhissəlam) Kufəyə tərəf hərəkət etdikdə Yezid romalı Sərcunun məsləhəti ilə o vaxtadək Bəsrənin valisi olan Übeydullah ibn Ziyadı (Bəsrəni də onun ixtiyarında saxlamaqla) Kufənin valisi təyin edir. O vaxta qədər Kufəyə Noman ibn Büşeyr başçılıq edirdi.[3]

İndi ki, Yezidin alçaq siması və onun İslama qarşı olan düşmənçiliyi məlum oldu, onda İmam Hüseyn əleyhissəlamın onun qanunsuz hökumətinə qarşı qaldırdığı inqilabın səbəbi yaxşı aydın olur. Başa düşürük ki, Yezidin hökuməti təkcə irsi səltənət rejiminin bidətçisi baxımından deyil, həm də Yezidin səlahiyyətsiz olduğu cəhətdən onun hökuməti İmam Hüseyn əleyhissəlamın yanında qeyri-qanuni hökumət sayılırdı. Buna əsasən, Müaviyənin ölümü ilə onun dövründəki maneələrin çəkildiyi bir vaxtda növbə İmam Hüseyn əleyhissəlamın müxalifətinə yetişmişdi. Əgər İmam Hüseyn (əleyhissəlam) Yezidə beyət etsəydi, bu beyət Yezidin hökumətinə haqq qazandıran və onu şəri sayan ən böyük sübut olardı.

İmam Hüseyn əleyhissəlamın müxalifətçiliyinin səbəbi o Həzrətin məktub və çıxışlarında açıq-aşkar görünür. İmam Hüseyn (əleyhissəlam) elə Mədinədəki ilk günlərdə ondan beyət almaq üçün çətinliklərlə üzləşdiyi zaman Yezidə beyət etmək məsələsini irəli sürən (Mədinə valisi) Vəlidin cavabında buyurdu: "İndi ki, müsəlmanlara Yezid kimi bir şəxsiyyət başçılıq edir, onda İslamın fatihəsi oxunmalıdır."[4] Həmçinin, kufəlilərin məktublarına yazdığı cavabda müsəlmanların başçısının hansı xüsusiyyətlərə malik olmasını belə açıqladı: «...Müsəlmanların rəhbəri elə bir adam olmalıdır ki, Allahın kitabına (Qurana) əməl etsin, ədalətlə rəftar etsin, haqqı müdafiə edərək bütün qüvvəsi ilə Allahın qayda-qanununa tabe olsun.»[5]

---

[1] Sumuvvul-mə'na fi sumuvviz-zat, səh.58.
[2] Müntəhəl-amal, c.3, səh.43.
[3] Məqtəlül-Hüseyn, səh.2; Əl-Kamilu fit-tarix, c.4, səh 23; İrşad (Şeyx Müfid), səh.205.
[4] Əl-Lühuf, səh.11.
[5] Əl-İrşad, səh.204.

## Kərbəla qiyamının mübəlliğləri

Hər bir inqilab əsasən iki hissədən - qan və xəbərdən (müraciətdən) ibarət olur. Qandan məqsəd qanlı və silahlı mübarizədir. Təbii ki, bu da müqəddəs məqsədlər uğrunda ölmək, öldürmək və candan keçməyi tələb edir. Xəbərdən məqsəd isə qiyamın xəbərini yaymaq və onun müqəddəs məqsədlərini açıb bəyan etməkdir.

Bir inqilabın qələbə çalmasında ikinci hissənin əhəmiyyəti birinci hissənin əhəmiyyətindən heç də az deyil. Çünki inqilabın məqsədləri camaat arasında bəyan olunmasa, onda camaat inqilabı himayə etməyəcək, bunun nəticəsində də inqilab tamamilə unudulacaq, bəlkə düşmənlər tərəfindən inqilabda bəzi təhrif və dəyişikliklər də baş verəcək. İmam Hüseyn əleyhissəlamın inqilabını araşdırdıqda, bu iki hissə tam şəkildə nəzərə çarpır. Çünki İmam Hüseyn əleyhissəlamın inqilabında Aşura gününün günortasına qədər birinci hissə, yəni qan və şəhadət hissəsi cilvələnirdi. Bunun başında da, İmam Hüseyn əleyhissəlamın özü dururdu. Aşura gününün günortasından sonra isə inqilabın ikinci hissəsi başladı. Buna isə İmam Səccad əleyhissəlamla xanım Zeynəb (səlumullahi əleyha) başçılıq edirdilər. Onlar İmam Hüseyn əleyhissəlamın və səhabələrinin qanlı şəhadətini öz kəskin söz və çıxışları ilə camaata çatdırdılar və çirkin Əməvi hakimiyyətini rüsvay etdilər.

Əməvi hökumətinin Müaviyənin dövründən başlayaraq Əhli-beytə qarşı zidd təbliğat yaymasını (xüsusilə də Şamda) nəzərə aldıqda, aydın olur ki, əgər İmam Hüseyn əleyhissəlamın inqilabından sonra İmam Səccad (əleyhissəlam) və Həzrət Zeynəb (səlamullahi əleyha) Əməvi hökumətini rüsvay etməyə və camaatı oyatmağa məşğul olmasaydılar, İslam düşmənləri və iqtidarın yaltaq qulluqçuları İmam Hüseyn əleyhissəlamın əbədi və böyük inqilabını tarix səhifəsində çirkin bir qiyam kimi qələmə verər və onu olduğunun əksinə qiymətləndirərdilər. Necə ki, onlardan bəziləri İmam Həsən əleyhissəlamın ölümünü o Həzrətin ciyərinin şişməsi ilə əlaqələndirmişlər. Bir dəstə belə iddia edirdi ki, İmam Hüseyn (əleyhissəlam) xərçəng xəstəliyindən dünyadan getmişdir. Ancaq Aşura inqilabının təbliğçiləri əsirlikdə olarkən Yezidin ağılsız düşmənçiliyi onlara bu fürsəti verdi ki, onlar geniş təbliğat nəticəsində İmam Hüseyn əleyhissəlamın düşmənlərinə onun inqilabını təhrif etmək və dəyişdirmək icazəsi verməsinlər.

İndi Kərbəlanın azadlıq bəxş edən əsirlərinin camaatın fikrini oyatmaqda və İmam Hüseyn əleyhissəlamın inqilabını camaata çatdırmaqda göstərdikləri fəaliyyətin yaxşı aydın olması üçün bir az geri qayıtmalı və Müaviyənin Şamdakı hakimiyyətinə nəzər salmalıyıq.

## Müaviyənin Şamdakı hakimiyyət dövrü

Qeyd etməliyik ki, Şam şəhəri müsəlmanların əlinə keçən gündən Vəlidin oğlu Xalid və Əbu Süfyanın oğlu Müaviyə kimi şəxslər tərəfindən idarə olunmuşdu. Buranın əhalisi nə Peyğəmbər moizələri (söhbətləri) eşitmiş, nə onun səhabələrini görmüş, nə də İslamı heç olmasa Mədinədə yayıldığı kimi tanımışdılar. Düzdür, bu şəhər alınarkən peyğəmbərin yüz on üç səhabəsi burada olmuş və ya sonradan yaşamaq üçün bura köçmüşlər, ancaq onların tərcümeyi-hallarına nəzər yetirdikdə, məlum olur ki, onların bir neçəsindən başqa qalanları peyğəmbəri çox az görmüş, və

o Həzrətdən bir, ya da bir neçə hədisdən artıq hədis eşitməmişdilər. Bundan da əlavə, onların əksəriyyəti Müaviyənin hakimiyyətindən qabaq Ömər və Osmanın hakimiyyəti dövründə dünyadan getmişdilər. İmam Hüseyn əleyhissəlamın inqilabı baş verən zaman onlardan yalnız on bir nəfəri sağ qalıb Şamda yaşayırdı. Onlar da artıq yetmiş-səksən yaşlarına çatmış və künc-bucaqda qalmağı cəmiyyətə qoşulmaqdan üstün tutmuşdular. Onların cəmiyyət arasında heç bir nüfuzu yox idi. Bunun nəticəsində də onların (Yezid yaşda olan) gənc nəsli həqiqi İslamdan xəbərsiz idi. Bəlkə də onlar elə bilirdilər ki, İslam bu vaxtadək onlara rəhbərlik etmiş xəlifələrin hökuməti kimi bir hökumətdir. Müaviyənin sarayının gözəl görünüşlü olması, iqtidarda olan qüvvələrin camaatın haqqını kəsib böyük saraylar düzəltməsi, keşikçilər təşkil etmək, əyan-əşraf toplamaq və nəhayət müxalif qüvvələri tutub həbs etmək, sürgünə göndərmək və ya öldürmək onlara təbii məsələ kimi gəlirdi. Çünki təxminən yarım əsr qabaq hökumətdə olmuş xəlifələr də bu işləri görürdülər. Orada olanlar da belə fikirləşirdilər ki, Peyğəmbər dövründəki Mədinə şəhəri də bu cür olmuşdur.[1] Bunun nəticəsində də Şam əhalisi Əbu Süfyanın oğlu Müaviyənin rəftarını tam İslam rəftarı kimi qəbul edirdi.

Müaviyə təxminən qırx iki il Dəməşqdə hakimiyyətdə olub. Beş il ikinci xəlifə tərəfindən, on iki il isə üçüncü xəlifə tərəfindən Şamın valisi olmuşdur. Beş ildən az Həzrət Əli əleyhissəlamın dövründə və təxminən altı ay da İmam Həsən əleyhissəlamın zahiri hakimiyyəti dövründə Şamın valisi olub. İyirmi ildən az da İslam hökumətinin xəlifəsi olmuşdur.[2]

## Çirkin təbliğlər

Müaviyə uzunmüddətli hakimiyyəti dövründə Şam əhalisini elə "tərbiyələndirmişdi" ki, onlar din barədə az da olsa, xəbərdar deyildilər. Onlar Müaviyənin sözünə can-başla boyun əyib tabe olurdular. Müaviyə bu müddətdə Şam əhalisini təkcə nizami və siyasi cəhətdən öz əmri altına almamış, üstəlik öz dediklərini onlara İslam təlim-tərbiyəsi kimi qəbul etdirmək üçün onları, fikri və məzhəbi cəhətdən də kor-koranə yetişdirmişdi. O, özünəməxsus hiyləsi ilə bu sahədə öz istəklərinə nail oldu. Bunlar hamısı nəzəri cəlb edən məsələlərdir. Onun Həzrət Əli (əleyhissəlam) kimi bir şəxsiyyətin (camaatın fikrində) əsl simasını dəyişdirmək üçün işlətdiyi hiylələri, o Həzrəti söyməyi bir bidət kimi cəmiyyətdə yaydığını hamı bilir. Peyğəmbər (səlləllahu əleyhi və alih) (İslamın qocaman, pak və doxsan yaşlı mücahidi) Əmmar Yasirin zalımların əli ilə şəhadətə yetişməsi barədə qabaqcadan xəbər verdiyi halda, Əmmar Yasir Siffeyn döyüşündə Həzrət Əli əleyhissəlamın ordusunda şəhid olduqdan sonra Müaviyə adam aldadan hiyləsi ilə Şam ordusu arasında xəbər yaydı ki, Əmmarın qatili Əlidir. Çünki onu döyüş meydanına Əli (əleyhissəlam) göndərmişdir.[3]

Müaviyənin adamlarının erkək dəvəni dişi dəvədən seçə bilməmələri, Müaviyənin rəhbərliyi ilə həftənin üçüncü günü biabırçı şəkildə cümə namazının qılınması da bir

---

[1] İmam Hüseyn əleyhissəlamın qiyamı, səh.185.
[2] Aşura tarixinin araşdırması, səh.47.
[3] Ənsabul-əşraf, səh.317.

daha bu mənanı təsdiqləyir. Bunlar o qədər aydın məsələlərdir ki, daha əlavə izahata heç ehtiyac da yoxdur.[1]

Bəni–Üməyyənin çirkin hökuməti əks təbliğlər və şəxsiqərəzlər nəticəsində Peyğəmbərin (səlləllahu əleyhi və alih) pak ailəsini Şam əhalisinin fikrində pis, pozğun, bunun müqabilində isə Bəni–Üməyyəni Peyğəmbərin (səlləllahu əleyhi və alih) ailəsi kimi qələmə verirdi. Belə ki, tarixçilər yazırlar: «Abbasilərin qiyamının qələbəsindən sonra Əbül Abbas Səffah hakimiyyətə gələndə, Şam əmirlərindən on nəfəri onun yanına gedib hamılıqla and içərək bildirdilər ki, biz (sonuncu Əməvi xəlifəsi) Mərvanın ölümünə qədər peyğəmbərin Bəni–Üməyyədən başqa qohumu olduğunu bilmirdik. Nəhayət siz hakimiyyətə gəldikdən sonra biz bunu bildik.»[2]

Buna əsasən, tarix kitablarında yazılmış aşağıdakı ibarələri oxuduqda heç də təəccüblənməməliyik:

«Kərbəla əsirləri Şama daxil olduqda bir kişi İmam Zeynülabidin əleyhissəlamın qarşısında durub dedi: «Həmd olsun o Allaha ki, sizi öldürməklə camaatı sizin şərrinizdən qurtardı və Əmirəl-möminini (Yezidi) sizin üzərinizdə qalib etdi.»

İmam Səccad (əleyhissəlam) sakit qalıb gözlədi. Şamlı kişi bütün ürəyində olanları dedi. Sonra İmam Səccad (əleyhissəlam) ondan soruşdu:

— Quran oxumusan?

— Bəli!

— Bu ayəni oxumusanmı? ***«De: Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində Əhli-beytimə məhəbbətdən başqa bir şey istəmirəm.»***[3]

— Bəli!

— Bəs bu ayəni necə? ***«Qohum-əqrəbanın haqqını ödə.»***

— Bəli!

— Bu ayəni də oxumusan? ***«Ey peyğəmbərin Əhli-beyti, Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz [pak] etmək istəyir.»***[4]

— Bəli!

— Ey qoca, bu ayələr bizim haqqımızda nazil olmuşdur. Bizik Peyğəmbərin qohum-əqrəbası, hər cür çirkinlikdən uzaq olanlar bizik.

Qoca bildi ki, bu əsirlər barədə eşitdikləri doğru deyil. Onlar heç də xarici deyillər, əksinə, Peyğəmbər övladlarıdırlar. Buna görə də, dediyindən peşman olub dedi: «İlahi, mən bunlara qarşı ürəyimdə olan kin-küdurətdən Sənə pənah aparıram! Mən Məhəmməd (səlləllahu əleyhi və alih) və Ali-Məhəmmədin (səlləllahu əleyhi və alih) düşmənlərinə nifrət edirəm!»

## Əsirlərin səfər sovqatı

Peyğəmbər ailəsinin ziddinə yayılmış bu geniş təbliğatı nəzərə aldıqda, Kərbəla əsirlərinin Şama səfərinin mahiyyəti çox yaxşı şəkildə aydın olur. Çünki onlar bu səfərdə qırx illik əks təbliğatı aradan apararaq Əməvilər sülaləsinin əsl mahiyyətini aşkar etdilər. Həmçinin, Şam camaatının yatmış fikirlərini oyadıb məsələyə diqqətlə

---

[1] Mürucuz-zəhəb, c.3,səh.31.
[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.7, səh.159.
[3] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.7, səh.159.
[4] "Əhzab" surəsi, ayə 33.

baxmalarına səbəb oldular. Bu əsirlər barədə qətiyyətlə demək olar ki, onlar Mədinəyə qayıdanda öz borcunu lazımıncasına yerinə yetirmiş fateh bir ordu rolunu oynayırdılar.

İndi Kərbəla inqilabının təbliğinin göstərdiyi fəaliyyət və risalətin nə dərəcədə böyük olduğunu tam şəkildə başa düşmək üçün iki tarixi nümunəyə işarə edək.

## 1. İmamət ailəsinin «Hirrə» faciəsində qorunması

İmam Hüseyn əleyhissəlamın şəhadətindən sonra İslam ölkəsinin digər şəhərləri ilə həmzaman olaraq Peyğəmbərin qohum-əqrəbasının əsas yaşayış yeri olan Mədinə şəhəri də yavaş-yavaş həyəcana gəldi. Mədinənin hakimi öz fikrinə görə belə bir tədbir töküb gənc xəlifəni (Yezidi) yaxından görmək və onun mərhəmətindən bəhrələnmək üçün şəhərin böyüklərini Şama göndərdi ki, onlar Mədinəyə qayıtdıqdan sonra camaatı Yezidə itaət etməyə cəlb etsinlər. Lakin nə düzgün tərbiyəsi, nə tədbir və uzaq görənliyi olan və nə də İslamın zahirinə əməl edən Yezid Mədinə şəhərinin nümayəndələri qarşısında da şərab içməyə, it oynatmağa və şəriətdən kənar olan işlər görməyə başladı. Nümayəndələr Şamdan qayıdan kimi fəryad çəkib dedilər: «Yezid şərab içən, it oynadan fasiq bir adamdır. Belə bir şəxs müsəlmanların rəhbəri ola bilməz!» Nəhayət şəhərin hər tərəfində qiyam qalxdı və qiyamçılar Mədinə hakimini və Əməvi sülaləsini şəhərdən qovdular. Bu xəbər Şama çatdıqda, Yezid Mədinə camaatını cəzalandırmaq üçün bir ordu toplayıb qoca bir kişi olan Müslim ibn Üqbəni orduya başçı təyin etdi. Müslim Mədinəni mühasirəyə aldı. Bir müddətdən sonra şəhər əhalisi orduya müqavimət göstərə bilməyib təslim oldu. Şam ordusu üç gün Mədinədə kütləvi qırğın törətdi və heç bir çirkinlikdən çəkinmədi. Nə qədər dindar, təqvalı və mömin kişilər qırıldı, nə qədər hörmətsizliklər oldu, nə qədər qadın və qızlar bu vəhşi ordunun təcavüzünə məruz qaldılar.[1] Bu hadisə tarixdə «Hirrə» faciəsi adı ilə məşhur oldu.

Lakin bu böyük faciədə İmam Zeynül-abidin (əleyhissəlam) və Bəni–Haşimdən olanların evi hər hansı bir zorrakılıqdan toxunulmaz qalmışdı. Məhz buna görə də, Mədinə şəhəri mühasirədə olan zaman onlarla müsəlman ailəsi o Həzrətin evinə gəlməklə təcavüzdən qorunmuşdu. Təbəri yazır:

Yezid Müslim ibn Üqbəni Mədinəyə göndərəndə, ona dedi: «Əli ibn Hüseynin (İmam Zeynül-abidin əleyhissəlamın) qiyamçılara heç bir qarışacağı yoxdur. Ona toxunma və onunla yaxşı rəftar et!»[2]

Şeyx Müfid yazır: «Müslim ibn Üqbə Mədinəyə daxil olduqda İmam Zeynül-abidin əleyhissəlamı yanına dəvət etdi. İmam Zeynül-abidin (əleyhissəlam) gəldikdə, Müslim ona çox hörmət edib yanında əyləşdirdi və dedi: «Əmirəl-möminin (Yezid) mənə tapşırıb ki, sənə yaxşılıq edəm və səni başqalarından fərqləndirəm.» İmam Zeynül-abidin (əleyhissəlam) ona öz təşəkkürünü bildirdi. Sonra Müslim ətrafında olanlara dedi: «Mənim qatırımı onun üçün yəhərləyin.» Sonra isə İmam Zeynül-Abidin əleyhissəlama dedi: «Ailənin yanına qayıt. Bəlkə də, biz onları qorxutduq və

---

[1] İslamın Əməvilər sülaləsinin sonunadək olan dövrü əhatə edən təhlili tarixi, səh.170.

[2] Tarixül-üməmi vəl-mülük, c.7, səh.421.

səni bura gəlməyinlə zəhmətə saldıq. Əgər bizim ixtiyarımızda bir şey olsaydı, sənə əta edərdik. Həqiqətən sən buna layiqsən.»[1]

Dördüncü İmamın həyatından bəhs edərkən deyəcəyimiz səbəblərə görə şübhə yoxdur ki, Müslimin İmamla yaxşı rəftar etməsinin əsas səbəblərindən biri bu idi ki, İmam Zeynül-abidin (əleyhissəlam) qiyamın əvvəlindən kənara çəkildi və qiyamçılarla əlbir olmadı. Ancaq bu da məlumdur ki, İmam Hüseyn əleyhissəlamın şəhadəti Yezidə baha başa gəlmişdi və hələ o, törətdiyi bu böyük cinayətə görə ümumi camaatın fikir təzyiqinə məruz qalmışdı. Buna görə də, Yezid İmamət ailəsinə yenidən əziyyət verməklə öz adını daha da pisləşdirmək istəmirdi.

## 2. Əbdülməlik ibn Mərvanın Həccaca əmri

Yəqubi yazır:

«Əbdülməlik ibn Mərvan Hicaza vali təyin etdiyi Həccaca yazır: «Məni Əbu Talibin balalarının qanına bulaşdırma. Çünki mən özüm gördüm ki, Əbu Süfyanın ailəsi onlarla mübarizə apardı, axırda özləri məhv oldu.»[2]

Əbdülməlik ibn Mərvanın Bəni–Üməyyənin siyasətçi və fərasətli[3] bir xəlifəsi olduğunu bildiyimiz halda və onun Kərbəla hadisəsindən beş il sonra hakimiyyət başına gəldiyini nəzərə aldıqda, bu etirafın hansı dəyərə malik olduğunu hiss edirik. Bu əmr göstərir ki, Əbu Süfyanın ailəsi Əbu Talibin ailəsinə qarşı göstərdikləri bu qədər təcavüz və zorakılıqlara baxmayaraq, onlar yenə də öz çirkin məqsədlərinə nail ola bilmədilər. Onlara qalan isə təkcə üzüqaralıq və lənət oldu.

## Əməvilərin ideoloji təbliğatı

Bəşəriyyət aləmində zalım və mürtəce hökumətlər nə qədər güclü olsalar da, yenə onlara dayaq olan ideologiyaya ehtiyac duyurlar. Yəni, onların yaratdıqları ideologiya iqtisadi–siyasi durumlarına arxa olur. Başqa sözlə desək, zalım hökumətlər nizami qüvvədən əlavə camaatı asanlıqla özlərinə tabe etmək üçün güclü ideologiyaya da malik olmalıdırlar. Əgər xalq sağlam fikirli olub hökuməti qeyri-qanuni hökumət bilərsə, heç vaxt onun hakimiyyətini qəbul etməz. Bu baxımdan belə hökumətlərin ideologiyaya olan ehtiyacı daha aydın şəkildə büruzə çıxır. Əlbəttə, ideologiya cəmiyyətlərin fərqli olmasına görə müxtəlif şəkillərdə ola bilər. Zalım və İslama zidd olan Bəni–Üməyyə hökumətinin də təbii ki, belə bir ideologiyaya ehtiyacı var idi. Ölkədə İslam cəmiyyəti hakim olduğundan onlar da öz cinayətlərinin üstünü şəri bəhanələrlə ört-basdır etməyə və xalqın fikrini məzhəbi təbliğatla qarışdırmağa məcbur idilər. Belə deyildi ki, Bəni-Üməyyə xalqın hökm və rəyinə qarşı etinasızlıq etsin və özlərinin cinayətlərinə qarşı xalqda oyanan fikirlərə məhəl qoymasınlar. Xeyr, onlar camaatın fikrini qəflətdə saxlamaq üçün insanların hazırkı vəziyyətini ən yaxşı vəziyyət bilib bu vəziyyətin qorunub saxlanmasına görə bir sıra ideoloji təbliğatlara ehtiyac duyurdular.

[1] Əl-İrşad, səh.260.

[2] Tarixi-Yə’qubi, c.3, səh.49; Biharül-ənvar, c.46, səh.119; Əl-ixtisas (Şeyx Müfid), səh. 315.

[3] Əl-Fəxri fil-adabis-sultaniyyəti vəd-duvəlil-İslamiyyə (İbn Təqtəqi) səh.122.

## Cəbriyyə məzhəbinə meyl

İnsanların fikrini yayındırıb onları ram etməyin yollarından biri də insanlar arasında iradə məcburiyyəti əqidəsini yaymaqdır. Ümumiyyətlə, zalım hökumətlər öz cinayətlərinə bəhanə gətirəndə iradə məcburiyyəti əqidəsinə meylli olurlar. Yəni, hər şeyi Allahın adına yozaraq, "bu Allahın işidir" –deyə öz cinayətlərini boyunlarından atırlar. Onlar "Allah məsləhət bilməsəydi, belə olmazdı və heç Allahın Özü işin bu cür olmasına şərait yaratmazdı" kimi ifadələrdən məharətlə istifadə edirlər. Məcburiyyətə meylliliyin məntiqi budur ki, nə ki var, elə o da olmalıdır və nə də ki, yoxdur, o da olmamalıdır.[1]

Bəni–Üməyyə hakimiyyətinin ideoloji dayaqlarından biri iradə məcburiyyəti əqidəsi idi. Onlar camaat arasında cəbriyyə əqidəsini yayıb hər şeyi Allahın işi kimi qələmə verməklə camaatın ehtimal verilən hər hansı bir etirazını dəf etmək istəyirdilər. Əməvilər öz hakimiyyətlərini qoruyub saxlamaq və eləcə də xalqın qiyamının qarşısını almaq üçün Cəbriyyə firqəsini genişləndirir və onu himayə edirdilər. Bunun müqabilində isə onlar Qədəriyyə məzhəbinin yayılması təhlükəsi ilə üz-üzə gəlirdilər. Bu məzhəb insanı öz əməli qarşısında azad bilir və belə bir məntiq irəli sürür ki, insan hər hansı bir işi görürsə, öz iradəsi və istəyi ilə görür.[2] Əməllərində azad olduğu üçün də məsuliyyət daşıyır. Çünki hər bir azadlıq məsuliyyət tələb edir.

Bu məzhəb müsəlmanların müxalifətçiliyindən qorxan Əməvilər üçün böyük təhlükə hesab olunurdu. Buna görə də, onlar Qədəriyyə məzhəbinin başçılarını təzyiqlərə məruz qoyur, bu məzhəbin qarşısında duran Cəbriyyə məzhəbini isə himayə edirdilər. Səbəbi də bu idi ki, Cəbriyyə məzhəbi siyasi mübarizə meydanında Əməvilərin məqsədi ilə tam uyğun gəlirdi. Bu məzhəb camaata deyirdi: «Əməvilər və onların əməlləri nə qədər pis və haqdan uzaq olsa da, Allahın təqdiridir və heç cür bunu dəyişmək olmaz. Buna görə də, onlara qarşı müxalifətçiliyin heç bir əhəmiyyəti yoxdur.» Müaviyə öz çirkin əməllərini Allahın təqdiri, qəza-qədəri kimi adlandırmaq və bunların dəyişilməsinin heç cür mümkün olmadığını bildirmək üçün zahirdə özünü Cəbriyyə məzhəbinə mənsub edirdi. Bundan əlavə, Müaviyə İslam xəlifəsi olduğu üçün onun elədiyi günahlar onun məqamına heç bir zərər yetirmir və bu günahlar onunla müxalifət etməyə əsas vermirdi.

Aydındır ki, Müaviyə kimi mühüm mənfəətləri güdən bir şəxs onun bu istəklərini ehtiva edən Cəbriyyə məzhəbindən qəflətdə qala bilməzdi. Müaviyə və Əməvilərin digər nümayəndələri yaxşı bilirdilər ki, onların hökuməti müsəlmanlar üçün dözülməzdir. Onlar yaxşı bilirdilər ki, bir sıra müsəlmanların gözündə onlar hiyləgər, yalançı, Peyğəmbər ailəsinin düşməni, günahsız və təqvalı insanların qatili kimi tanınmışlar. Bunu da yaxşı bilirdilər ki, camaatı onların əleyhinə qiyamdan saxlaya bilən yeganə məzhəb varsa, o da Cəbriyyə məzhəbidir. Bu elə bir məzhəbdir ki, camaata deyir: «Allah ilk gündən yazıb ki, bu sülalə hakimiyyətə gəlsin. Buna görə

[1] Həmaseyi-Hüseyni, c.1, səh.312-313.
[2] Fəcrul-İslam (Əhməd Əmin), səh.284.

də, onların bütün əməlləri Allahın qəza-qədəridir.» Bu baxımdan bu cür fikirləri müsəlmanların zehnində yaymaq tamamilə Əməvilərin xeyrinə idi.[1]

## Məstedici ədəbiyyat

Bu fikirləri təsdiq etməkdən ötəri yuxarıda dediyimiz dini bəhanələrdən əlavə, şer variantından da istifadə olunurdu. Müaviyə müasirləri olan şairlərin fövqəladə nüfuzundan camaatın ümumi fikrində öz məqsədlərini həyata keçirmək üçün istifadə edirdi. Müaviyə və eləcə də ondan sonrakı digər Əməvi xəlifələri onların hökumətini tərifləyib Allahın istədiyi hökumət olduğunu bildirən şairlərin şerlərini şən əhval-ruhiyyə və son dərəcə Rizayətlə dinləyir və hətta onları heç bir imanlı şəxsin qiyam etmək fikrinə düşməməsi üçün şer deməyə məcbur edirdilər. Müaviyənin adamları belə göstəriş almışdılar ki, Müaviyənin xüsusi fikirlərini qəliblərə salıb avam camaatın arasında asanlıqla yaysınlar. İstər peyğəmbərin dilindən rəvayətlər söyləməklə, istərsə də şer deməklə.

## Xanım Zeynəb İbn Ziyadın sarayında

Aşura hadisəsindən sonra Yezidin adamları yuxarıda dediyimiz variantdan istifadə edərək təbliğə başlayıb Yezidin qələbəsini Allahın istəyi kimi qələmə verirdilər.

Übeydullah ibn Ziyad İmam Hüseyn əleyhissəlamın şəhadətindən sonra camaatı Kufənin Cami məscidinə yığıb öz işlərinə məzhəbi don geydirdirərək dedi: «Həmd olsun o Allaha ki, haqqa qələbə qazandırdı, Əmirəl-mömininə (Yezidə) və onun tərəfdarlarına kömək etdi və yalançı oğlu yalançını (İmam Hüseyn əleyhissəlamı) öldürdü.»[2] Buna cavab olaraq düşmənin təbliğ vasitəsindən xəbərdar olan İmam Zeynül-abidin (əleyhissəlam) və xanım Zeynəb (səlamullahi əleyha) Bəni-Üməyyənin bu fikir dayağını hədəfə olaraq öz əsaslı və mətanətli sözləri ilə ona cavab verərək Yezid və onun davamçılarının öz əməlləri qarşısında məsuliyyət daşımalarını bildirdilər. Bir-birinin ziddinə olan iki təfəkkür tərzinin toqquşmasının nümunələrindən biri Əhli-beyt qadın və uşaqlarının Übeydullah ibn Ziyadın sarayına daxil olduğu zaman olmuşdur.

Həmən gün ibn Ziyad sarayda ümumi görüş elan etmiş və əmr etmişdi ki, İmam Hüseyn əleyhissəlamın kəsilmiş başını onun qarşısında qoysunlar. Sonra əsirləri saraya daxil etdilər. Xanım Zeynəb (səlamullahi əleyha) ən dəyərsiz paltarlarını geymiş və onun dövrəsini əhatə etmiş qadınlar və kənizlər arasında naməlum şəkildə içəriyə daxil oldu və heç kəsə etina etmədən bir güncdə əyləşdi. Übeydullahın gözü ona sataşdıqda, soruşdu: «Özünü kənara çəkmiş və digər qadınlar onun dövrəsinə toplaşmış bu qadın kimdir?» Xanım Zeynəb (səlamullahi əleyha) cavab vermədi. Übeydullah sualını bir daha təkrar etdi. Kənizlərdən biri dedi: «O, Peyğəmbər qızı Fatimənin (səlamullahi əleyha) qızı Zeynəbdir.» Übeydullah üzünü Zeynəbə (səlamullahi əleyha) tutub dedi: «Həmd olsun o Allaha ki, sizin ailənizi rüsvay edib qırdı və göstərdi ki, sizin dediyiniz, yalandan başqa bir şey deyil.»

---

[1] Hüseyn əleyhissəlamın inqilabının araşdırılması, səh.135-137.
[2] Lühuf (Seyyid ibn Tavus), səh.29.

Xanım Zeynəb (səlamullahi əleyha) cavab verdi: *«Həmd olsun o Allaha ki, bizi (bizim ailədən çıxmış) Peyğəmbərin vasitəsilə əzizlədi və çirkinliklərdən uzaq etdi. Fasiqdən başqa heç kəs rüsvay olmaz, pis adamdan başqa heç kəs yalan deməz. Şükürlər olsun ki, pis adam biz deyilik, başqalarıdır. (Yəni, siz və dəstənizdir.)»*[1]

İbn Ziyad: "Gördün, Allah ailənizin başına nə gətirdi?"

Xanım Zeynəb: *"Yaxşılıqdan başqa heç bir şey görmədim. Allah onların şəhadətini qabaqcadan müəyyənləşdirmişdi. Onlar da itaət edib öz Axirət mənzillərinə yollandılar. Tezliklə Allah səni və onları (Qiyamət günü) bir-birinizlə üzləşdirəcək, onlar səndən Allaha şikayət edib ədalət tələb edəcəklər. İndi fikirləş, gör o gün kim qalib gələcək? Anan sənin matəmində otursun, ey Mərcanənin oğlu!"*

İbn Ziyad (Xanım Zeynəbin açıq-aşkar və mətanətlə dediyi sözlərdən və onu pozğun nənəsi Mərcanənin adı ilə çağırmasından) bərk qəzəbləndi və pis qərar çıxarmaq istədi. Məclisdə olanlardan biri Əmr ibn Həris adlı bir şəxs dedi ki, ey hökmdar, bu bir qadındır və heç kim qadını sözlərinə görə cəzalandırmaz.

İbn Ziyad yenə xanım Zeynəbə (səlamullahi əleyha) üz tutaraq dedi: "Allah boyunəyməyən qardaşının və qiyamçı ailənizin öldürülməsi ilə qəlbimə şəfa verdi".

Xanım Zeynəb (səlamullahi əleyha) buyurdu: *«Canıma and olsun, mənim (əzizimi, qardaşımı, ağamı) öldürdün, belimi qırdın və kökümü kəsdin, əgər sən bu işinlə şəfa tapırsansa, onda şəfa tapmısan.»*

Xanım Zeynəbin (səlamullahi əleyha) sözlərinin gözəlliyinin təsirindən qəzəblənən ibn Ziyad qəzəb və rişxəndlə dedi: «Bu da atası kimi sözdüzəldəndir. Canıma and olsun, atan da şair idi və qafiyə ilə (yerli-yerində) söz deyirdi.»

---

[1] Əl-İrşad, səh.244.

Xanım Zeynəb (səlamullahi əleyha) buyurdu: Qadının qafiyə ilə nə işi var? (İndi qafiyə vaxtı deyil ki?)[1]

İbn Ziyad sübut eləmək istəyirdi ki, döyüş meydanında hansı tərəf zahirdə məğlub olubsa, o da rüsvay olmuşdur. Məğlub olan tərəf haqq olsaydı, qalib gələrdi.

İbn Ziyadın haradan danışdığını çox yaxşı bilən xanım Zeynəb onun fikir dayağını söküb dağıtdı. O, bu sözləri ilə sübut etdi ki, şərəf və fəzilətin ölçüsü və əsası qüdrətdə yox, həqiqət axtarmaq və haqtələblikdədir. Xanım Zeynəb (səlamullahi əleyha) bildirdi ki, Allah yolunda şəhid olan şəxs rüsvay olmaz. Rüsvay o şəxs olar ki, zülm, haqsızlıq etsin və haqq yolundan çıxsın.

Übeydullah ibn Ziyad belə güman edirdi ki, başı müsibətlər çəkmiş, əzizini itirmiş Zeynəb (səlamullahi əleyha) kiçik bir tənə ilə təslim olub göz yaşı tökəcək, ağlayıb-sıtqıyacaq. Lakin şirürəkli Zeynəb (səlamullahi əleyha) onun sözlərini ağzındaca dondurub onun qürurunu sındırdı.

Doğrudan, bəşəriyyət tarixində hansı bir qadını tapmaq olar ki, onun yeddi (bu barədə tarixçilər müxtəlif versiyalar irəli sürmüşlər) qardaşını öldürsünlər, oğlunu şəhadətə yetirsinlər, on qardaşoğlu və əmioğlusunu qılıncdan keçirsinlər, sonra da özünü bütün bacıları və qardaşı uşaqları ilə birlikdə əsir alsınlar, belə bir vaxtda o, əsir ola-ola öz haqqını və eləcə də şəhid olanların haqqını müdafiə etsin? Özü də elə bir şəhərdə, elə bir binada ki, atasının hakimiyyət mərkəzi olmuş və atası təqribən hakimiyyətinin dörd ilini həmən binada keçirmişdi. Belə bir vəziyyətdə və bu cür narahatçılıqlarla nə təkcə başına gələnlərdən narazı deyil, hətta qətiyyətlə bildirir ki, biz öz meylimizə zidd olan heç bir iş görməmişik. Əgər bizim kişilərimiz şəhadətə yetişiblərsə, elə gəlişlərindən məqsədləri də bu olmuşdur. Əgər bundan başqa bir iş olsaydı, onda narahat olmağa dəyərdi. (Yəni, biz öz istəyimizə çatmışıq.) İndi ki onlar Allah qarşısındakı öz vəzifələrini çox yüksək səviyyədə yerinə yetirib şəhadət zirvəsinə nail olublar, biz bu işin müqabilində Allah qarşısında şükürdən başqa hansı layiqli bir iş görə bilərik?[2]

## Xanım Zeynəbin (səlamullahi əleyha) Kufədə buyurduğu xütbə

Bura Kufədir. Kufənin Dəməşqlə çox fərqi var. Kufə həmən şəhərdir ki, iyirmi il bundan qabaq (Aşura hadisəsindən qabaq) Həzrət Əli əleyhissəlamın hökumət mərkəzi olmuşdur. Bu şəhər şiələrin mərkəzi idi. Bir hissəsi iraqlılardan ibarət olan şəhərin əhalisi ədalətli İslam hökuməti qurulmasını, zalımların əlindən azad olmalarını istəyən Əhli-beyt tərəfdarıdır. Ancaq onlar bu cür nemətə çatmağa hələ hazır deyildilər. Bunlar həm maddi həyat, mal-dövlət və vəzifə, həm də zalımların əlindən azad olmaq istəyirdilər. Ancaq əgər bunlara azacıq təzyiq olunsa, yaxud mal-dövlətlərini təhlükədə görsələr, bütün arzularından və məqsədlərindən əl çəkərlər. Bunlar ikiüzlü adamlardırlar. Bir növ daxili ziddiyyətə malik olan şəxslərdirlər. Bir tərəfdən böyük həvəslə Peyğəmbər balasını öz şəhərlərinə dəvət edir, digər tərəfdən də təzyiqlərə məruz qaldıqları üçün nə təkcə öz vədlərini (dəvətlərini) unudur, üstəlik Peyğəmbər balasının qətlinə də hazırlaşırlar. Deməli, bunları ayıltmaq lazımdır.

[1] Lühuf, səh.68.

[2] Aşura tarixini araşdırılması, səh.203.

Onlara səhvlərini anlatmaq lazımdır. Onlara demək lazımdır ki, Hüseyn ibn Əli əleyhissəlamı öldürməklə böyük bir cinayətə yol vermişlər.

Onları oyatmaq vəzifəsi bütün qadınlardan çox xanım Zeynəbin (səlamullahi əleyha) boynuna düşürdü. Çünki yaşı otuzu keçmiş bütün Kufə qadınları iyirmi il bundan qabaq (bu hadisədən qabaq) Həzrət Əli əleyhissəlamın hakimiyyəti dövründə Zeynəbi (səlamullahi əleyha) bu şəhərdə görmüş, onun Həzrət Əli (əleyhissəlam) yanındakı və eləcə də, onun öz ataları və ərləri (yəni həmən qadınların ataları-ərləri) yanındakı hörmətini öz gözləri ilə müşahidə etmişdilər. Onlar Zeynəbi (səlamullah əleyha) çox yaxşı tanıyırdılar. İndi xanım Zeynəbin (səlamullahi əleyha) digər əsirlər arasında acınacaqlı şəkildə əsir düşməsi, ötən xatirələri fikirlərdə oyadırdı. Zeynəb (səlamullahi əleyha) bu fürsətdən istifadə edib söhbətə başladı. Səs camaata tanış gəldi. Elə bil Əli (əleyhissəlam) söhbət edirdi. Elə bil boğaz Əli əleyhissəlamın boğazı, səs Əli əleyhissəlamın səsi idi. Doğrudan da, danışan Əli (əleyhissəlam) idi, yoxsa Əli əleyhissəlamın qızı? Bəli, danışan Zeynəbi-Kübra (səlamullahi əleyha) idi.

İbn Təyfur adı ilə tanınmış Əhməd ibn Əbu Tahir (204-280 h.q) qədim tarixi qaynaqlardan biri sayılan, İslam və ərəb qadınlarının bəlağətli çıxışları toplanmış «Bəlağatun-nisa» kitabında yazır:

«Xədim Əsədi deyir: «Hüseyn ibn Əli əleyhissəlamın şəhadətə yetişdiyi hicrətin altımış birinci ili Kufə şəhərinə getdim. Gördüm ki, Kufənin qadınları yaxalarını cırıb ağlayırlar. Əli ibn Hüseyn əleyhissəlamı (İmam Səccadı) da orada gördüm. Xəstəliyi onu lap əldən salmışdı. Əli ibn Hüseyn (əleyhissəlam) başını qaldırıb buyurdu: *"Ey Kufə əhli! Bizim məzlumiyyət və müsibətimizə ağlayırsınız? Məgər bizi öldürənlər elə siz deyildiniz?"* Bu zaman xanım Zeynəb (səlamullahi əleyha) əli ilə camaata işarə edib onların sakit olmasını istədi. Onun işarəsi ilə nəfəslər sinələrdə boğuldu. Dəvələrin zınqırovlarının səsi kəsildi. Bundan sonra xanım Zeynəb (səlamullahi əleyha) söhbətə başladı. Mən ondan hayalı, ondan fəsahətli söhbət edən qadın görməmişdim. Elə bil Əli əleyhissəlamın dilindən danışırdı. Zeynəbin (səlamullahi əleyha) söhbəti belə idi: *«Ey Kufə camaatı! Ey hiyləgər və xain insanlar! Sizi görüm heç vaxt gözünüzdən yaş əskilməsin! Siz o qadına bənzəyirsiniz ki, bütün əlindəkiləri əyirir, sonra da bütün əyirdiklərini söküb-tökür. Sizin nə əhdinizin bir dəyəri var, nə də andınızın bir etibarı! Sizin öyünmək, kənizlər kimi yaltaqlanmaq, boş-boşuna danışmaqdan başqa nəyiniz var? Siz peyinlikdə bitmiş bitkilərə və qəbirə vurulmuş zinət əşyalarına bənzəyirsiniz. Axirətiniz üçün nə pis tədarük hazırladınız –Allah qəzəbi və Cəhənnəm əzabı! Ağlayırsınız? Bəli, ağlayın, Allaha and olsun ki, siz ağlamağa layiqsiniz. Çox ağlayın, az gülün! Bu cür alçaqlıq qazandığınız halda nəyə görə də ağlamayasınız? Elə bir alçaqlıq ki, onu heç bir su ilə yumaq olmaz. Peyğəmbər balasını və Cənnət cavanlarının ağasını öldürməkdən böyük nə alçaqlıq ola bilər? Elə bir şəxs ki, sizin yolunuzun çırağı, dar gününüzün köməkçisi idi. Ölün! Xəcalətli başlarınızı aşağı salın! Keçmişinizi bütünlüklə bir dəfəyə itirdiniz, gələcəyiniz üçün də heç nə qazanmadınız. Bundan sonra gərək alçaqlıq içərisində yaşayasınız. Çünki Allahın qəzəbinə düçar oldunuz. Elə bir iş gördünüz ki, az qaldı göy yerə tökülsün, yer yarılsın və dağlar parça-parça olsun.*

*Bilirsiniz nə qan tökdünüz? Açıq-açığına küçə-bazara çıxardığınız bu qız-gəlinlərin kim olduğunu heç bilirsiniz? Peyğəmbərin ciyərini parçaladığınızı*

*anlayırsınızmı? Nə pis və axmaq iş tutdunuz! Elə pis iş gördünüz ki, onun pisliyi bütün dünyanı doldurub. Göydən qan damcılarının dammasına təəccüb edirsiniz?! Ancaq bunu bilin ki, Qiyamət əzabının rüsvayçılığı daha da acınacaqlı olacaq. Əgər Allah gördüyünüz günaha görə indi sizi cəzalandırmırsa, bundan sevinməyin. Allah günahın cəzasını elə o saat vermir. Ancaq məzlumların da qanını cəzasız qoymur. Allah hər şeyin hesabını çəkəcək.»*

Od tutub yanan qəlbdən gələn və Allaha olan imandan qüvvə alan bu gözəl ifadəli sözlər hamını dəyişdirdi. Dinləyicilər peşimançılıq əlaməti olaraq barmaqlarını dişləri ilə sıxır və təəssüflənirdilər. (Ancaq necə deyərlər: «Sonrakı peşmançılıq fayda verməz.») Belə qəmli və ibrət dərsi olan bir səhnədə Bəni-Cüfi qəbiləsindən olan, saqqalı göz yaşından islanan bir kişi bu məzmunda belə bir şer dedi: *«Bu sülalənin oğulları ən yaxşı oğullardır. Bu sülalənin oğullarının adına heç vaxt alçaqlıq ləkəsi yapışmamışdır.»*[1]

## Xanım Zeynəb (səlamullahi əleyha) Yezidin sarayında

Yezid əmr etdi ki, əsirləri şəhidlərin kəsilmiş başları ilə birlikdə Şama göndərsinlər. Əsirlər karvanı Şama tərəf hərəkət etdi. İbn Ziyadın adamları çox bədxasiyyətli idilər. Şam şəhərinin saray adamları (Yezid və onun adamları) böyük fəth və qələbə hesab olan bu karvanın yetişməsi üçün dəqiqələri sayırdı. Tarixçilərin dediyinə görə əsirlər karvanı minlərlə tamaşaçının gözü qarşısında şəhərə (Şama) daxil oldu. Həmən gün Şam şəhəri sevinc və fərəh içində idi və camaat Yezidin qələbəsini bayram edirdi. Əsirlər karvanı camaatın arası ilə küçələri bir-bir arxada qoyaraq Yezidin böyük hökumət sarayına yetişdi.

Saraydakılar xüsusi yerlərdə oturmuş, Yezid taxtın üzərində qürur və təkəbbürlə əsirləri görmək intizarında idi. Übeydullah ibn Ziyadın məclisindən fərqli olaraq Yezidin məclisinə hər adam gələ bilmirdi. Ancaq ölkə böyükləri, qəbilə başçıları və bəzi xarici ölkələrin nümayəndələri iştirak edirdilər. Buna görə də, bu məclis çox əhəmiyyətli bir məclis hesab olunurdu.

Əsirlər saraya daxil olub onlar üçün nəzərdə tutulmuş yerdə dayandılar. Yezidin gözü Peyğəmbər ailəsindən olan əsirlərə sataşdıqda, onları öz qarşısında ayaq üstə durmuş görüb əmr etdi ki, İmam Hüseyn əleyhissəlamın başını bir ləyənə qoysunlar. Sonra o, əlində olan çubuqla İmam Hüseyn əleyhissəlamın dişlərinə vura-vura Abdullah ibn Zəbəri Səhminin kafir olduğu zaman yazdığı cahillik kin-küdurətini xatırladan şerini oxuyaraq deyirdi: «Kaş indi mənim Bədr döyüşündə vuruşub Xəzrəc qəbiləsinin əzabını çəkməli olmuş əcdadım burada olub sevinərək deyəydilər ki, Yezid çox sağ ol! Əli (əleyhissəlam) övladlarına Bədr gününün acısını dadızdırdın və intiqamımızı onlardan aldın...»[2]

## Xanım Zeynəbin (səlamullahi əleyha) fəryadı

Əgər məclis bununla (yuxarıda dediklərimizlə) başa çatsaydı, Yezid qalib hesab olunardı, yaxud göstərişi ilə görülən işlər bir o qədər də pis nəticələnməzdi. Ancaq

[1] Bəlağatun-nisa, səh.24.
[2] Bəlağatun-nisa, səh.20.

xanım Zeynəb (səlamullahi əleyha) işin bu cür qurtarmasına imkan vermədi və Yezid üçün fərəh hesab olunan şadlığı onun üçün zəhərdən də acı etdi. Oradakılara göstərdi ki, onların qarşısında ayaq üstə duran adamlar o Peyğəmbərin qızlarıdır ki, indi Yezid həmən Peyğəmbərin adı ilə hökumət başına gəlmişdir. Xanım Zeynəb (səlamullahi əleyha) son dərəcə mətanət, şücaət və vüqarla sözə başlayıb Yezidə xitab edərək belə buyurdu: *«Allah və Onun Peyğəmbəri doğru buyurmuşlar ki, pis əməl sahiblərinin aqibəti budur ki, Allahın ayətlərini yalan sayıb onlara rişxənd edərlər.*

*Yezid, belə fikirləşirsən ki, yeri-göyü bizə daraltmaqla, bizi əsirlər kimi bu şəhərdən o şəhərə aparmaqla bizi rüsvay edib özünü hörmətləndirdin? Elə bilirsən ki, bu işinlə yüksək məqama nail olub ona-buna təkəbbürlük edirsən? Qüdrətin hazır olub hakimiyyətini səliqə-sahmanda gördükdə, sevincindən dərinə sığışmırsan. Bilmirsən ki, sənə verilən bu fürsət ondan ötrüdür ki, əsl həqiqətini, iç üzünü camaata açıb göstərəsən? Məgər Allahın* ***«Küfr edənlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar! Bizim onlara verdiyimiz möhlət ancaq günahlarını daha da artırmaları üçündür. Onlar zəliledici bir əzab görəcəklər»*** *deyə buyurduğunu unutmusan?*

*Ey azad edilmişlərin oğlu!*[1] *Heç bu ədalətdirmi ki, sənin qadın, qız və kənizlərin pərdə arxasında otursun, ancaq sən Peyğəmbərin qızlarını əsir edəsən, onların hörmət pərdəsini parçalayasan, onların səslərini boğazlarında boğasan və yad (naməhrəm) kişilər onları dəvələrlə o şəhərdən bu şəhərə dolandırsınlar? Heç ədalətdəndirmi ki, kimsə onlara yer verməsin, kimsə onları qorumasın və öz kişilərindən heç biri onların yanında olmasın?*

*Axı ürəyi bizim hirs və qəzəbimizdən dolu olan bir şəxsdən bundan artıq nə gözləmək olar? Deyirsən ki, kaş Bədr döyüşündə ölən əcdadın indi burada olaydı və bunu deyərək Peyğəmbər balasının dişlərinə vurursan? Nə üçün də etməyəsən? Sən yer üzünün ulduzları olan Peyğəmbər balalarının və Əbdülmüttəlib ailəsinin qanını tökməklə iki nəsil arasında olan düşmənçiliyi yenidən bərpa etdin. Sevinmə! Tezliklə Allah dərgahında hazır olacaqsan. Həmən gün arzulayacaqsan ki, kaş kor, lal olaydın və bu günü görməyəydin, kaş «indi əcdadım bu məclisdə olsaydı, sevinclərindən dərilərinə sığmazdılar» deməyəydin. İlahi, bizə zülm edən şəxsdən Özün haqq və intiqamımızı al!*

*And olsun Allaha, Peyğəmbər, onun Əhli-beyti və ciyərparaları Allahın lütf-mərhəmətində qərar tapacaqları gün (Qiyamət günü) Sən Allah qarşısında öz ətini-dərini didib-dağıdacaqsan. Allah Öz vədəsinə əməl edəcəyi gün künc-bucaqda qalmış bu məzlumları bir yerə yığacaq. Allah Özü buyurur ki,* ***«Allah yolunda öldürülənləri [şəhid olanları] heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi [Cənnət ruzisi] yeyirlər.»*** *Ancaq səni nahaqdan müsəlmanların boynunda otuzduran şəxs (Müaviyə) ədalət, Allah məhkəməsi, Məhəmməd (səlləllahu əleyhi və*

---

[1] İslam Peyğəmbəri Məkkəni fəth etdikdən sonra Qüreyşin başçıları, onların da başında Yezidin babası Əbu Süfyan olmaqla öz keçmişlərindən peşiman olub qorxurdular ki, Peyğəmbər onları cəzalandıracaq. Ancaq Peyğəmbər (səlləllahu əleyhi və alih) onlara buyurdu: «Gedin, siz azad olmuşsunuz!» Xanım Zeynəb (səlamullahi əleyha) yuxarıdakı ifadə ilə öz babası Peyğəmbərin Yezidin babası Əbu Süfyanı əfv etməsinə işarə edir.

*alih) və sənin öz əl-ayağın sənin cinayətlərinə şəhadət verəcəyi gün biləcək ki, sizlərdən hansınız daha bədbəxtsiniz.*

*Yezid, ey Allahın düşməni və Allah düşməninin oğlu! And olsun Allaha, sən mənim gözümdə elə dəyərli deyilsən ki, mən səni danlayam, (yəni sənin heç danlanmağa da ləyaqətin yoxdur) sənin heç təhqir olunmağa da ləyaqətin yoxdur. Ancaq nə edim, yaş gözlərimdə həlqələnib, ah-nalə sinəmdə fəqan edir. Hüseyn (əleyhissəlam) öldürüldükdən sonra, Şeytan ordusu Peyğəmbər ailəsinin hörmətini qırmaqla müsəlmanların beytül-malından mükafat almaq üçün bizi Kufədən ağılsızlar məmləkətinə gətirdikdən sonra, bu cəlladların əli bizim qanımıza sirab olduqdan sonra, ac qurdlar pak cənazələrin üstündə at çapdıqdan sonra səni danlamaq, tənə etmək hansı dərdə məlhəm olar? Əgər bizi öldürüb əsir etməklə xeyir qazandığını güman edirsənsə, tezliklə başa düşəcəksən ki, qazandığın ziyandan başqa bir şey deyil. Qiyamət günü gördüyün işin nəticəsindən başqa heç nə qazanmayacaqsan. O gün sən ibn Ziyadı öz köməyinə çağıracaq, ibn Ziyad da səndən kömək istəyəcək. Sən və sənin yolunu gedənlər həmən gün Allahın ədalət məhkəməsində yığışacaq, onda biləcəksən ki, Müaviyənin sənin Axirət səfərin üçün hazırladığı ən yaxşı tədarük Peyğəmbər balalarını öldürməyin olub. And olsun Allaha ki, mən Allahdan başqa heç kimdən qorxmur və Ondan başqa heç kəsə şikayət etmirəm! Hər nə istəyirsən, elə! Hər nə hiylən var, istifadə et! Hər nə düşmənçiliyin var, göstər! Allaha and olsun, sənin adına yapışan bu ləkə heç vaxt silinməyəcək. Allaha şükürlər olsun ki, Cənnət gənclərinin ağasının (İmam Hüseynin) aqibətini səadətlə nəticələndirdi və Behişti onlara vacib etdi. Allahdan istəyirəm ki, onların məqamını daha da ucaltsın və Öz rəhmətini onlara daha çox şamil etsin. Allah bacarıqlı himayədar və yaxşıköməkçidir.»*[1]

Dağlanmış ciyərdən, təqvalı qəlbdən qüvvət alan bu çıxışın necə nəticə verməsi məlumdur. Ən daşürəkli insan belə iman və təqva ilə üzləşdikdə, öz zəifliyini və rəqibin güclülüyünü görür, bir neçə anlığa da olsa, bir qərar çıxarmaqdan aciz olur. Bütün saray ölüm sükutuna qərq olmuşdu. Yezid məclisdəkilərin simasında narazılıq əlaməti müşahidə edib dedi: «Allah öldürsün Mərcanənin oğlunu – (ibn Ziyadı) – mən Hüseyn əleyhissəlamın öldürülməsinə razı deyildim...»[1]

## Dördüncü İmamın təbliği mübarizələri

Zillət və alçaqlıqdan qurtarmaq, izzət, şərəf və azadlıq qazanmaq, həqiqi təhriflər, zülm və haqsızlara qarşı cəmiyyətdə əsaslı inqilab əmələ gətirmək üçün camaatı oyatmaq və ziyalılandırmaqdan başqa yol yoxdur. Deməli, camaatın məsuliyyət hiss etməsi üçün onları oyatmaq lazımdır. Bundan sonra inqilab öz-özünə yaranacaq.

Bu İmam Hüseyn əleyhissəlamın hərəkatının bir hissəsi idi. Birinci mərhələni özü və dostları şəhadətə çatmaqla yerinə yetirdilər. Ancaq inqilabın ikinci mərhələsi, yəni, Kərbəla inqilabını camaata çatdırmaq isə İmam Səccad (əleyhissəlam) və xanım Zeynəbin (səlamullahi əleyha) öhdəsində idi. Təkcə bu cür mübarizə ilə Bəni-Üməyyənin otuz neçə illik tör-töküntülərini aradan aparmaq, Bəni–Üməyyəyə qarşı

[1] Bəlağatun-nisa, səh.12-23.

[1] İmam Hüseyn əleyhissəlamın inqilabı, səh.187-189.

camaatı inqilaba çəkib Yezidin və Əməvilərin sarayını birdəfəlik yerindən tərpədib söküb-dağıtmaq olardı.

Əhli-beytin məzlumiyyətini ehtiva edən və Aşura gününün günortasından başlayan mübarizənin ikinci mərhələsi Həzrət Əli (əleyhissəlam) qızı xanım Zeynəbin (səlamullahi əleyha) Kufə bazarında, ondan sonra isə elə həmən şəhərdə İmam Zeynül-abidin əleyhissəlamın kiçik və sadə, lakin çox şüurlu və təsirli çıxışları ilə davam etdi.

Böyük əksəriyyəti əsirlərə tamaşa etməyə gəlmiş camaata İmam Səccad (əleyhissəlam) sakit olmalarını bildirdi. Hamı sakitləşdi. İmam Allaha həmd-səna etdikdən sonra buyurdu: *«Camaat, məni tanıyan tanıyır, tanımayana isə indi özümü tanıtdıraram. Mən Əbu Talibin oğlu Əlinin oğlu Hüseyn oğlu Əliyəm. Mən hörmətini sındırdığınız, mal-dövlətini qarət etdiyiniz və qohum-əqrəbasını əsir aldığınız şəxsin oğluyam. Mən Fərat çayı kənarında başı kəsilmiş adamın oğluyam. Halbuki, o nə bir kimsəyə zülm etmiş, nə də kimə qarşısa hiylə işlətmişdi. Mən başı arxadan kəsilən şəxsin oğluyam. Bu mənim üçün böyük bir şərəfdir. Camaat, siz atama məktub yazmadınızmı? Onunla beyət etmədinizmi? Onunla əhd-peyman bağladıqdan sonra onunla vuruşmağa başlamadınızmı? Nə pis iş, nə pis düşüncə və hərəkətdir!*

*Əgər Allahın Peyğəmbəri sizə desə ki, siz mənim övladlarımı öldürdünüz, mənim hörmətimi qırdınız, siz mənim ümmətimdən deyilsiniz, onda nə üzlə ona baxarsınız?»*

Bu qısa və ürəktitrədici sözlər o vahiməli və sıxıcı mühitdə tufan qaldırıb Kufə camaatının ruhunda elə təsir bağışladı ki, dərhal hər tərəfdən şivən səsi ucaldı. Camaat bir-birinə deyirdi: "Bilmirsiniz, bədbəxt oldunuz!" Əli ibn Hüseyn (əleyhissəlam) (İmam Səccad) buyurdu: «Mənim nəsihətimi qəbul edən və dediklərimi Allaha və Peyğəmbərinə xatir qulaqlarında sırğa edən şəxsi Allah bağışlasın. Bizim davranışımız Peyğəmbərin davranışı kimi olmalıdır. Çünki onun davranışı ən gözəl davranışdır.» Hamı dedi: "Ey Peyğəmbər balası! Biz sənə qulaq asır, sənə itaət edib sənə vəfadarıq. Səndən ayrılmarıq, kiminlə desən vuruşar, kiminlə desən sülh edərik. Yezidi tutarıq. Biz zülmkarların sənə qarşı hərəkətinə nifrət edirik." İmam Səccad (əleyhissəlam) buyurdu: «Heyhat, (əsla) ey hiyləgərlər! Ey şəhvətlərinin (nəfslərinin) əsiri olanlar! Əcdadımla etdiyiniz rəftarı mənimlə də etmək istəyirsiniz? Yox, Allaha and olsun, hələ vurduğunuz yaradan qan axır, sinəm atam və qardaşlarımın ölümündən yaralıdır. Bu qəm-qüssənin acısı adamı boğur. Mənim qüssəm təsəlli tapmazdır. Sizdən istəyirəm ki, nə bizdən, nə də bizim əleyhimizə olasınız.»[1]

## İmam Səccad əleyhissəlamın ibn Ziyadla söhbəti

Ötən səhifələrdə qeyd etdik ki, Bəni-Üməyyə hökuməti Cəbriyyə məzhəbindən istifadə edir və öz günahlarını Allahın iradəsi ilə əsaslandırırdılar. Bu yolla da camaatın fikrini azdırırdılar. İmam Səccad (əleyhissəlam) və xanım Zeynəb (səlamullahi əleyha) düşmənin bu hiyləsindən xəbərdar olduqları üçün ona qarşı ciddi mübarizə aparırdılar. Bu mübarizənin bariz nümunələrindən biri İmam Səccad əleyhissəlamın Kufədə ibn Ziyadla söhbətidir. Əhli-beyt əsirlərini ibn Ziyadın

[1] Lühuf, səh.66.

sarayındakı ümumi məclisə gətirdikdən və xanım Zeynəb (səlamullahi əleyha) ilə ibn Ziyad arasında kəskin söz-söhbət getdikdən sonra ibn Ziyadın gözü İmam Səccad əleyhissəlama sataşdı və dedi: “Bu kimdir?” Məclisdəkilərdən bəziləri dedilər: “Əli ibn Hüseyndir.” İbn Ziyad: “Məgər Allah Əli ibn Hüseyni öldürmədi?”

İmam Səccad (əleyhissəlam): “Mənim qardaşım var idi, camaat ona da Əli İbn Hüseyn deyirdi. Siz onu öldürdünüz.”

İbn Ziyad: “Yox, onu Allah öldürdü.”

İmam Səccad (əleyhissəlam): ***«Allah [əcəli çatan kimsələrin] canlarını [ruhlarını] onlar öldüyü zaman, ölməyənlərin [hələ əcəli çatmayanların] canlarını isə yuxuda alar. [Çünki yuxu da ölüm kimi bir şeydir, yuxu zamanı ruhun bədənlə əlaqəsi kəsilir.]*** [1]

İbn Ziyad: “Nə cürətlə belə cavab verirsən? Aparın onun boynunu vurun.”

Bu zaman İmamət əmanətinin (İmam Səccadın) qoruyucusu xanım Zeynəb (səlamullahi əleyha) buyurdu: *«Ey Ziyadın oğlu! Bizim kişilərimizdən birini də sağ qoymadın, əgər onu öldürmək istəyirsənsə, məni də onunla birlikdə öldür!»*

İmam Səccad (əleyhissəlam) buyurdu: *«Bibi, sakit ol, qoy onunla mən söhbət edim.»* İmam sonra buyurdu: *«Ey Ziyadın oğlu! Məni öldürməklə hədələyirsən? Bilmirsən ki, ölüm bizim üçün adi bir iş, şəhadət bizim üçün şərəfdir?»*[2]

## İmam Səccad əleyhissəlamın Şamda buyurduğu xütbə

Bundan öncə də qeyd etdik ki, Əhli-beyt əsirlərinin Şama səfəri İmam Hüseyn əleyhissəlamın inqilabının xəbərini yaymaqda və Yezidin çirkin və nankor hakimiyyətinin əsl mahiyyətini tanıtdırmaqda böyük rol oynadı. Onlar əsirlik libası ilə eynilə İmam Hüseyn əleyhissəlamın şəhadət libası ilə apardığı müqəddəs cihadı yerinə yetirdilər. Əsirlərin Şamda saxlanılması, Müaviyənin qırx illik təbliğləri nəticəsində, İslam və Peyğəmbər ailəsi haqqında düzgün məlumatı olmayan Şam camaatına İslam və Peyğəmbər (səlləllahu əleyhi və alih) barəsində düzgün məlumat verilməsi üçün yaxşı fürsət yaratdı. Buna görə də, əsirlər yeri gələn kimi bu barədə hərəkət edirdilər. Şamda olan günlərin birində İmam Səccad əleyhissəlamın buyurduğu xütbə bu arada çox əsaslı rol oynadı və Yezidi bütün camaat arasında rüsvay etdi.

Mərhum Əllamə Məclisi «Mənaqib» kitabının müəllifinə və başqa yazıçılara istinad edərək yazır: «Rəvayət edirlər ki, bir gün Yezid məclis təşkil edib vaizə dedi ki, Hüseyn (əleyhissəlam) və Əli əleyhissəlamın pisliklərinə dair söhbət etsin. Vaiz minbərə qalxıb Allaha həmd-səna etdikdən sonra Əli (əleyhissəlam) və İmam Hüseyn əleyhissəlamı pisləməyə başladı, sonra da Müaviyə və Yezidi kifayət qədər tariflədi. İmam Səccad (əleyhissəlam) camaatın arasından uca səslə qışqırdı: *«Vay sənin halına, ey vaiz! Camaatın razılığını Allahın qəzəbi ilə dəyişdin və Cəhənnəmdə özünə yer hazırladın!»* Sonra İmam Səccad (əleyhissəlam) əlavə edib buyurdu: *«Yezid, icazə verirsən bu çubuqların (minbərin) üstünə çıxım və Allahın Rizayəti olan və camaata əcr-savab verəcək bir neçə kəlmə söz deyim?»* Yezid icazə vermədi. Camaat dedi:

[1] “Zumər” surəsi, ayə 42.
[2] Lühuf, səh.68.

*"Əmir, icazə ver minbərə çıxsın, bəlkə ondan bir söz eşitdik. (Görək nə deyir?)"* Yezid dedi: "Əgər o, bu minbərə çıxsa, məni və Əbu Süfyanın ailəsini rüsvay etməyincə aşağı enməyəcək."

Bir nəfər dedi: "Əmir, məgər bu (gənc əsir) nə bilir və nə edə bilər?" Yezid dedi: "O, elə bir ailədəndir ki, onlar elmi uşaqlıqda südlə birgə əmmiş və elm onların qanına qatışmışdır."

Camaat o qədər təkid etdi ki, Yezid nəhayət icazə verdi. İmam Səccad (əleyhissəlam) minbərə qalxıb əvvəl Allaha həmd-səna etdi, sonra isə elə bir xütbə buyurdu ki, gözlərdən yaş axmağa, ürəklər titrəməyə başladı.

İmam Səccad (əleyhissəlam) buyurdu: *«Camaat, Allah bizə (Peyğəmbər ailəsinə) altı üstünlük vermiş və yeddi fəzilətə görə bizi başqalarından üstün tutmuşdur.*

*Bizim altı üstünlüyümüz budur ki, Allah bizə elm, helm, səxavət, fəsahət, şücaət vermiş və möminlərin qəlbində bizə qarşı məhəbbət hissi oyatmışdır. Yeddi fəzilətimiz isə odur ki, Allahın seçilmiş peyğəmbəri, doğru danışan (Əli ibn Əbu Talib (əleyhissəlam)), Cəfər Təyyar, Allahın və Allah peyğəmbərinin şiri (Həmzə), bu ümmətin iki böyük rəhbəri-Həsən (əleyhissəlam) və Hüseyn (əleyhissəlam) və Fatimeyi-Zəhra (səlamullahi əleyha) (ya da Həzrət Məhdi (əleyhissəlam))*[1] *bizdəndir.*

*Camaat, kim ki məni tanıyır, heç, kim də tanımırsa, indi özümü ona tanıtdıraram. Mən Məkkə və Minanın oğluyam. Mən Zəmzəm və Səfanın oğluyam. Mən Həcərül-əsvədi (Məkkədəki qara daşı) öz əbası arasında qaldırıb yerinə qoyan şəxsin oğluyam.*[2] *Mən ehram bağlayıb təvaf və səy edən şəxsin oğluyam. Mən insanların ən yaxşısının (Peyğəmbərin) oğluyam. Mən (merac gecəsi) Məscidül-həramdan Məscidül-əqsaya aparılan şəxsin oğluyam. Mən (merac zamanı yeddinci göydəki) Sidrətül-müntəhaya çatan şəxsin oğluyam. Mən merac zamanı Allaha yaxın olduğundan onunla Allah arasında iki kamandan da az məsafə qalan şəxsin oğluyam. Mən asiman mələkləri ilə namaz qılan şəxsin oğluyam! Mən böyük Allahın ona vəhy etdiyi şəxsin oğluyam. Mən Məhəmməd Mustafanın (səlləllahu əleyhi və alih) oğluyam. Mən Əliyyi–Murtəza əleyhissəlamın oğluyam. Mən müşriklərə «La ilahə illəllah» deyənə qədər (müsəlman olanadək) vuruşan şəxsin oğluyam. Mən Allah Peyğəmbərinin hüzurunda iki qılınc və iki nizə ilə*[3] *vuruşan şəxsin oğluyam. Mən iki dəfə hicrət edən,*[4] *Peyğəmbərlə iki dəfə beyət edən, Hüneyn döyüşündə*

---

[1] Yeddinci fəzilət barəsində tarixçilər arasında fikir müxtəlifliyi var.

[2] Bu ifadə ilə imam Səccad (əleyhissəlam) be'sətdən beş il qabaq Kə'bənin uçulub tökülməsi nəticəsində oradakı qara daşın yenidən ora qoyulması uğrunda gedən qəbilələr mübarizəsinə işarə edir. Bu böyük şərəfi hər qəbilə özünə məxsus etmək istəyirdi. Lakin nəticədə hamının razılığı ilə Peyğəmbər (səlləllahu əleyhi və alih) (hələ Peyğəmbər olmazdan beş il qabaq) bir əbanı yerə salmış və dörd qəbilənin hərəsindən bir nümayəndə əbanın dörd tərəfindən yapışmış. Peyğəmbər (səlləllahu əleyhi və alih) öz mübarək əli ilə qara daşı yerinə qoymuşdu.

[3] Ola bilsin bu, aşağıdakı hadisəyə işarədir: Ühüd döyüşündə Əli əleyhissəlamın qılıncı sındı və Allah tərəfindən ona «Zülfüqar» qılıncı göndərildi. Başqa bir ehtimal da budur ki, Əli (əleyhissəlam) iki qılınc ilə vuruşardı.(nizənin iki olmasına istinad edərək.)

[4] Həzrət Əli əleyhissəlamın iki dəfə hicrət etməsində aşağıdakı versiyalar irəli sürülmüşdür:

**a)** Məkkədən Mədinəyə və sonra Peyğəmbərin son vaxtlarında o Həzrətin əmrilə Yəmən əhalisinə təbliğ etmək üçün Yəmənə;

**b)** Məkkədən Mədinəyə və öz xilafəti dövründə Mədinədən Kufəyə;

*qəhrəmancasına vuruşan və bir an belə Allaha şəkk etməyən şəxsin oğluyam. Mən möminlərin ən salehinin, peyğəmbərlər varisinin, kafirləri məhv edən, müsəlmanların rəhbəri, mücahidlərin nuru, abidlərin zinəti, (Allah qorxusundan) ağlayanların fəxri sayılan, səbirlilərin ən dözümlüsü, Allah Peyğəmbərinin ailəsindən çıxmış ən yaxşı inqilab edən şəxsin oğluyam. Mənim nəslim (cədd-əqrəbam) o şəxsdir ki, Cəbrail onun himayədarı, Mikail onun köməkçisi, özü də müsəlmanların himayədarı və namuslarının mühafizəçisidir. Mən dindən çıxanlarla (mariqinlə), əhd-peymanını dananlarla (nakisinlə), zalımlarla (qasitinlə) mübarizə aparıb Allahın kinli düşmənlərinə qarşı cihad edən şəxsin oğluyam. Mən Peyğəmbərə (səlləllahu əleyhi və alih) hamıdan qabaq iman gətirən, müsəlmanların qabaqcılı olan və Qüreyşin ən üstün şəxsiyyəti sayılanın oğluyam. O, zalımların düşməni, müşrikləri məhv edən, münafiqləri qırmaq üçün atılmış Allah oxu, abidlərin hikmət dili, Allah dininin köməkçisi, Allahın təyin etdiyi rəhbər, Allah hikmətinin gülzarı və Allah elminin mərkəzi idi...»*

İmam Səccad (əleyhissəlam) daha sonra əlavə edib buyurdu: *«Fatimeyi-Zəhranın (səlamullahi əleyha) oğlu mənəm. Qadınlar şahının (Xanımlar xanımının) oğlu mənəm...»*

İmam Səccad (əleyhissəlam) özünü, əslində isə İmamət şəcərəsini tanıtdırmaq üçün o qədər söz dedi ki, camaatın ağlamaq səsi göyə ucaldı.

Yezid çaxnaşma düşəcəyindən qorxub azançıya əmr etdi ki, azan versin. Azançı ayağa qalxıb azan deməyə başladı: «Əllahu əkbər, Əllahu əkbər.»

İmam Səccad (əleyhissəlam) buyurdu: «Bəli, heç bir şey Allahdan böyük deyil.»

Azançı «Əşhədu əlla ilahə illəllah» deyəndə, İmam Səccad (əleyhissəlam) buyurdu: «Bəli, mənim tük, dəri, ət və qanım Allahın təkliyinə şəhadət verir.» Elə ki, azançı «Əşhədu ənnə Muhəmmədən rəsulullah» dedi İmam Səccad (əleyhissəlam) minbərin üstündən üzünü Yezidə tutub buyurdu: *«Yezid, Məhəmməd (səlləllahu əleyhi və alih) mənim cəddimdir, yoxsa sənin cəddin? Əgər desən ki, sənin cəddindir, yalan demiş və haqqı danmış olarsan. Yox, əgər desən ki mənim cəddimdir, bəs onda nə üçün onun övladlarını öldürdün?»*[1]

Təxminən on dördüncü əsr tarixçisi İmaməddin Təbəri «Kamili-Bəhayi» kitabında İmam Səccad əleyhissəlamın xütbəsinin sonunda yazır: (İmam Səccad (əleyhissəlam)) buyurdu: *«Ey Yezid! Bu hörmətli və kəramətli Peyğəmbər mənim cəddim olmuşdur, yoxsa sənin cəddin? Əgər desən sənin cəddin olub, bütün camaat biləcək ki, sən yalan deyirsən, yox, əgər desən ki, mənim cəddim olub, bəs onda nə üçün atamı günahı olmaya-olmaya şəhid edib mal-dövlətini qarət edərək ailəsini əsir aldın?»* Bunu deyib əlini atdı yaxasına, yaxasını cırıb ağlayaraq buyurdu: *«And olsun Allaha, əgər dünyada bir nəfər varsa ki, Peyğəmbər onun cəddi olmuş olsun, o da mənəm. Bəs nə üçün bu kişi (Yezid) mənim atamı zalımcasına öldürdü və bizi (Roma imperiyasından tutulmuş) əsirlər kimi gətirdi?»* İmam sonra əlavə edib buyurdu: *«Ey Yezid! Bu cür iş görürsən, sonra da «Muhəmmədun rəsulullah» deyib üzü qibləyə*

---

**v)** Məkkədən (müsəlmanların iqtisadi böhran keçirdiyi üç il müddətində) Əbu Talib dərəsinə, sonra da Məkkədən Mədinəyə hicrət etmişdir.

[1] Biharul-ənvar, c.45, səh.137.

*durursan? Vay olsun sənin halına! Qiyamət günü atam və cəddim sənin düşmənin olacaqlar.»*

Məlun Yezid bu zaman azançının üstünə qışqırdı ki, iqamə de. Məclisdə böyük səs-küy əmələ gəldi. Kimisi namaz qılıb, kimisi də namaz qılmadan dağılıb getdi.»[1]

## Aşura inqilabının nəticələri

İmam Hüseyn əleyhissəlamın inqilabı İslam cəmiyyətinə böyük təsir və nəticələr bağışladı. İndi həmin nəticələrin bir neçəsini nümunə üçün qeyd edib araşdıracağıq.

### 1. Hakim dairələrin rüsvayçılığı

Bəni-Üməyyə sülaləsi öz hakimiyyətinə din adı verib İslam hökuməti adlandırdığı, həmçinin, Peyğəmbər canişini adı ilə camaata hakim olduqları və öz dini mövqelərini cəmiyyətdə qoruyub saxlamaq, cürbəcür üsullardan (məsələn, yalançı hədis düzəltməklə, şair və tarixçiləri özlərinə cəlb etməklə, Cəbriyyə kimi məzhəbləri yaymaqla) istifadə etdikləri üçün İmam Hüseyn əleyhissəlamın inqilabı onların hökumətinə ağır zərbə vuraraq onları rüsvay etdi. Xüsusilə qeyd etmək lazımdır ki, Yezidin qoşunu Aşura hadisəsində su yolunu bağlamaq, uşaqları öldürmək, Peyğəmbər ailəsini, arvad-uşaqları əsir etmək kimi insanlıqdan uzaq olan bir sıra işlər onların rüsvayçılığında böyük rol oynadı və bununla da, Yezid özünə camaatın nifrətini qazandı. Belə ki, həmən dövrün şəxsiyyətlərindən biri olan Mücahid deyir: "And olsun Allaha, camaat hamı bir nəfər kimi Yezidi lənətləyib söydü və ona eyb tutub ondan üz döndərdi."[2]

Yezid qələbəsinin əvvəlində şad və qürurlu görünməsinə baxmayaraq camaatın etirazı nəticəsində bu şadlığı itirib İmam Hüseyn əleyhissəlamın öldürülməsinin günahını Übeydullah ibn Ziyadın (Kufə hakiminin) boynuna atdı. Tarixçilər deyirlər: "Yezid Aşura hadisəsindən sonra Übeydullah ibn Ziyadı göstərdiyi xidmətə görə mükafatlandırmaq üçün Dəməşqə dəvət etdi. Ona çoxlu mal-dövlət və bahalı hədiyyələr verdi. Onu öz yanında otuzdurub məqamını yüksəltdi, öz hərəmxanasına aparıb özünə həmsöhbət etdi."[3] Ancaq camaatın etirazı artdığı üçün tez bir zamanda özünü kənara çəkib bütün məsuliyyəti ibn Ziyadın boynuna atdı.

İbn Əsir yazır: "Elə ki İmam Hüseyn əleyhissəlamın başını Yezidin hüzuruna apardılar, İbn Ziyadın mövqeyi onun yanında möhkəmləndi, onun bu hərəkətindən xoşhal olub ona hədiyyə verdi. Ancaq çox çəkmədi, Yezidə xəbər çatdı ki, camaat

---

[1] Kamili Bəhayi, səh.301.

[2] Təzkirətül-xəvass, səh.262.

[3] Təzkirətül-xəvass, səh.290.

onun bu işindən bərk qəzəblənmiş və onu lənətləyib söyür. Buna görə də, Yezid İmam Hüseyn əleyhissəlamı öldürməkdən peşiman oldu. O deyirdi: "Kaş əziyyətə qatlaşıb Hüseyn əleyhissəlamı öz evimə gətirəydim, İslam Peyğəmbərinə xatir və Hüseyn əleyhissəlamın ona olan qohumluğu hörmətinə hökuməti ona təhvil verəydim. Allah Mərcanənin oğluna (İbn Ziyada) lənət etsin. Hüseyn əleyhissəlamı bu işə o məcbur etdi. Halbuki, İmam Hüseyn (əleyhissəlam) bildirmişdi ki, o, beyət etməyəcək, ya onu azad buraxsınlar, ya da onun sərhəd kənarlarından birinə çəkilməsinə izn versinlər. Ancaq Mərcanənin oğlu onun bu təklifi ilə razılaşmadı, onu qətlə yetirməklə camaatda mənə qarşı kin-küdurət, nifrət yaratdı və müsəlmanların qəlbində mənə qarşı düşmənçilik toxumu səpdi. İndi hər yerindən duran mənimlə düşmən olmuşdur. Bu nə müsibət idi ki, Mərcanənin oğlu mənim başıma gətirdi? Allah ona lənət eləsin və onu Öz qəzəbinə düçar etsin."[1] Digər tərəfdən də, Yezid əvvəl Əhli-beyt əsirləri ilə kobud rəftar etmiş və onların xaraba bir evdə saxlanılmasına əmr vermişdi. Ancaq camaatın etirazı nəticəsində çox çəkmədi ki, onlarla mülayim davranmağa başladı, yerlərini dəyişərək dedi: "İstəyirsinizsə, sizi Mədinəyə göndərim."

İmadəddin Təbəri bu barədə yazır: "Xanım Zeynəb (səlamullahi əleyha) Yezidin yanına bir nəfər göndərib İmam Hüseyn əleyhissəlama əzadarlıq etmək üçün icazə istədi. Yezid icazə verib bildirdi ki, onları əzadarlıq etmək üçün Darul-hicarəyə aparsınlar, qoy orada ağlasınlar. Yeddi gün orada əzadarlıq etdilər. Hər gün oraya o qədər qadın gəlirdi ki, heç sayı-hesabı yox idi. Camaat Yezidin evinə tökülüb onu öldürmək istəyirdi. Mərvan[2] bu işdən xəbər tutub Yezidin yanına gəldi və dedi ki, Əhli-beytin orada qalması sənin taxt-tacın üçün heç məsləhət deyil. Yaxşı olar ki, onları Mədinəyə göndərəsən. And olsun Allaha, bu qadınlar sənin hökumətinin axırına çıxacaqlar.

Yezid İmam Səccad əleyhissəlamı yanına çağırıb öz kənarında əyləşdirdi, şirin-şirin danışaraq dedi: "Allah Mərcanənin oğluna lənət eləsin. Əgər mən sənin atanın tərəf müqabili olsaydım, işi bu yerə çatmağa qoymazdım və məndən nə istəsəydi, razılaşardım. Ancaq olan oldu, keçən keçdi. Mədinəyə çatdıqdan sonra bir işin olsa, mənə məktub yaz." İmam Səccad əleyhissəlama xalat verib qadınlar üçün də hədiyyələr göndərdi. Ancaq deyirlər ki, qadınlar hədiyyələrin heç birini qəbul etmədilər."[3]

Yezid Aşura hadisəsindən sonra cəmi dörd il yaşadı. Ancaq onun bu nankorluğu Bəni-Üməyyə üçün əbədi rüsvayçılıq miras qoydu. Belə ki, Yeziddən sonrakı azacıq ağlı olan Əməvi xəlifələri Yezidin gördüyü işləri təkrar etməkdən çəkinirdilər. Bu barədə İslamın görkəmli tarixçisi Yəqubi yazır: "Əbdülməlik ibn Mərvan (öz hakimiyyəti dövründə) onun tərəfindən Hicaza vali seçilmiş Həccaca yazdı ki, məni

---

[1] Əl-Kamilu fit-tarix, c.4, səh.87.

[2] Mərvan Müaviyənin ölümündən sonra Mədinədə olmuşdur, lakin bu halda ola bilər ki, o, Şama səfər etmişdi.

[3] Kamili-Bəhayi, səh.302.

Əbu Talibin övladlarının qanına bulaşdırma. Mən özüm gördüm ki, Hərbin (Əbu Süfyanın) ailəsi onlarla düşmənçilik etdi, nəticədə süquta uğradı."[1]

## 2. Şəhadət sünnəsinin dirçəlməsi

İslam Peyğəmbəri Allaha iman əsasında qurulmuş yeni bir din gətirməklə şəhadət sünnəsini yaydı. Tarixin şahidliyinə əsasən, müsəlmanların şanlı qələbələrinin bir çoxunun səbəbi onların Allah yolunda haqqın qalib gəlməsi üçün şəhadətin pişvazına çıxmaları olmuşdur. Ancaq Peyğəmbərin vəfatından sonra İslam hökumətinin öz həqiqi yolundan çıxması, şəhərlərin fəth olunmasının artması, əldə olunan qənimətlərin xilafət mərkəzinə keçməsi və bir çox başqa səbəblər nəticəsində yavaş-yavaş müsəlmanlar öz döyüş ruhiyyələrini itirib başlarını rifah və asayişə qatdılar. Belə ki, hər kəs hər hansı yolla olursa-olsun, hökuməti ələ keçirir, camaat da rahat yaşayışın əldən çıxacağından qorxub heç bir müqavimət göstərmədən ona tabe olurdu. İslam adı ilə camaata hakimlik edən zalım hakimlər də bundan istifadə edirdilər.

Bəni-Üməyyənin hökuməti möhkəmləndikcə, bu vəziyyət daha da artırdı. Müaviyənin ömrünün axır-axırında və Yezidin hakimiyyətinin əvvəllərində isə bu vəziyyət öz kuliminasiya nöqtəsinə çatdı.

O dövrdə qəbilə başçıları əsasən mal-dövlət və gücə tabe idilər. Öz vicdan və şəxsiyyətlərini dünyanın dəyərsiz mal-dövlətinə satırdılar. O dövrün dini–siyasi rəhbərləri Übeydullah ibn Ziyadın ailəsindən tamamilə xəbərdar olduqları halda yenə də onun qarşısında baş əyirdilər. Bu cür adamlar nə təkcə Yezid və İbn Ziyadın, hətta onların köməkçilərinin də qarşısında mumiya kimi yumşaq və sözəbaxan idilər. Çünki mal-dövlət, ad-san hamı onların ixtiyarında idi və bu cür adamlar onlara yaxınlaşmaqla mal-dövlət əldə edib ad-san qazana bilərdilər.

Alçaqlıqda birinci dəstədən heç də geri qalmayan ikinci dəstə isə avam camaatın başını aldadan "möminlər" və "zahidlər" idilər. Onlar riyakarlıqla özlərini təqvalı göstərir və bu yolla yağlı tikələr əldə edirdilər. Öz dövrlərinin zalım hakimlərinin rəğbətini qazandıqda onların ətrafındakılarla bir sırada dururdular.

O dövrün camaatı bu cür insanları çox yaxşı tanıyırdı. Bu cür insanların çirkin əməlləri ilə o qədər ünsiyyətdə olmuşdular ki, daha onların gördüyü işlər camaatın nəzərində adi və təbii görünür və heç bir etiraza səbəb olmurdu. O dövrün adi camaatının yaşayışı da belə idi ki, onların yeganə məqsəi öz şəxsi ehtiyaclarını təmin etmək idi. Hamı öz şəxsi həyatı üçün iş görür, hərə öz şəxsi məqsədinə çatmaq üçün çalışırdı və heç kəsin şəxsi məqsəddən başqa heç bir fikri yox idi. Cəmiyyəti və onun böyük çətinliklərini heç bir adi şəxs nəzərə almırdı. Diqqətlərini cəlb edən yekanə şey vardısa, o da məvaciblərinin kəsilməməsi idi və buna çox diqqətlə yanaşırdılar. Camaat məvacibinin kəsilməsindən qorxub qəbilə başçılarının əmrlərini əyər-əskiksiz yerinə yetirirdi. Elə buna görə də, zülm və haqsızlıqla üzləşdikdə, heç bir etiraz etmirdilər.

İmam Hüseyn əleyhissəlamın inqilabı bu vəziyyəti tamamilə dəyişdirdi və cəmiyyət arasında şəhadət sünnəsini, şəhadət ruhiyyəsini oyatdı. İmam Hüseyn

[1] Tarixi Yə'qubi, c.3, səh.49.

(əleyhissəlam) öz inqilabı ilə müsəlmanların olacaq həyatı üzərindəki pərdəni kənara çəkərək onlara yeni bir yol göstərdi. Düzdür, bu yolda çətinliklər, məhrumiyyətlər var, ancaq rüsvay olmaq, alçalmaq yoxdur.

İmam Hüseyn (əleyhissəlam) inqilabının cəmiyyətdə igidlik və hünər ruhiyyəsini oyatmasının təsir dərəcəsinin aydın olması üçün nəzərə almaq lazımdır ki, İslam cəmiyyəti Aşura hadisəsi baş verməmişə qədər ("Hicr hərəkəti" kimi səthi etirazlar istisna olmaq şərti ilə) iyirmi il sükut içərisində yaşamış və nisbətən çox olan bu müddətdə inqilab üçün şəraitin hazırlanmasına baxmayaraq kiçik də olsa, belə bir ictimai etiraz baş verməmişdi.

Həzrət Müslim əleyhissəlamın gəlişi nəticəsində yaranmış Kufə camaatının hərəkatı da yalançı bir hədə-qorxu - Şam ordusunun gəlişi ilə dağıldı.

Kərbəla inqilabı cəmiyyətin dini vicdanını oyatdı və elə bir ruhiyyə dəyişikliyi əmələ gətirdi ki, onun şüası hər tərəfi bürüdü. Bu da camaata öz din, şəxsiyyət və şərafət hörmətini qorumaq, camaat arasında itib batmış mübarizə ruhiyyəsini oyatmaq və ölmüş qəlblərə yeni nəfəs verib onları həyata qaytarmaq üçün kifayət edirdi. Bu dəyişiklik və oyanışın ilkin nümunəsi Abdullah ibn Əfif Əzdinin Kufədə etdiyi etiraz idi. İbn Ziyad döyüşdən sonra qələbə münasibətilə söylədiyi birinci çıxışını İmam Hüseyn əleyhissəlama nalayiq sözlər deməyə başladığı zaman kor bir kişi olan Abdullah ibn Əfifin etiraz sədası ilə üzləşdi.[1] İbn Ziyad onun həbs olunmasını əmr etdi. Abdullahın qəbiləsindən olan adamlar onu aradan çıxarıb tez evə çatdırdılar. İbn Ziyad onu tutmaq üçün bir dəstə məmur göndərdi. Abdullah onlara qarşı şücaətlə müqavimət göstərsə də, axırda tutulub şəhadətə yetişdi.[2]

## 3. İslam ümmətində qiyam

İmam Hüseyn əleyhissəlamın böyük və hünər yaradan inqilabı İslam cəmiyyətində baş vermiş çoxsaylı qiyam və hərəkatların başlanğıcı oldu. İndi onlardan bir neçəsini oxucuların nəzərinə çatdırırıq.

### a) Təvvabin qiyamı

İmam Hüseyn əleyhissəlamın şəhadətinin ilk müsbət nəticəsi Kufə şəhərində "Təvvabin" hərəkatı oldu. Elə ki İmam Hüseyn (əleyhissəlam) şəhadətə yetişib ibn Ziyad Nüxeylədəki hərbi hissəsindən şəhərə qayıtdı, Aşura hadisəsində İmam Hüseyn əleyhissəlamın yanında olma fürsətini əldən vermiş şiələr özlərini möhkəmcə danladılar. Onlar indi başa düşdülər ki, böyük səhvə yol veriblər. Çünki onlar əvvəl İmam Hüseyn əleyhissəlamı Kufəyə dəvət etmiş, sonra isə ona kömək etməkdən imtina etmişdilər. İmam Hüseyn (əleyhissəlam) da onların bu dəvətinə əsasən, İraqa gəlmiş, onların şəhəri yaxınlığında şəhadətə çatmış, onlar isə heç yerlərindən belə tərpənməmişdilər. Onlar başa düşdülər ki, İmam Hüseyn əleyhissəlamın qatillərindən qisas almayınca, ya da bu yolda ölməyincə bu alçaqlıq ləkəsi onların üstündən götürülməyəcək. Bu fikrə əsasən, şiələr Kufədə olan beş nəfər rəhbərlərinin -

---

[1] Abdullah ibn Əfif Həzrət Əli əleyhissəlamın səhabələrindən olmuş, bir gözünü Cəməl, digər gözünü isə Siffeyn döyüşündə əldən vermişdi.

[2] Tarixül-üməmi vəl-mülük, c.6, səh.263.

Süleyman ibn Surəd Xüzai, Müsəyyib ibn Nəcəbə Fəzari, Abdullah ibn Səd Nüfeyl Əzdi, Abdullah ibn Val Təmimi və Rüfaə ibn Şəddad Bəcəlinin yanına getdilər. Süleyman ibn Surədin evində məclis quruldu. Əvvəl Müsəyyib ibn Nəcəbə sözə başlayıb kiçik bir müqəddimədən sonra belə dedi: "...Biz həmişə öz mövhumi xeyirlərimizin ardınca olub öz dostlarımızı təriflәmişik. Ancaq Allahın Peyğəmbər balası üçün irəli çıxardığı bu imtahanda bizim yalanımız aşkar oldu. Biz bu imtahandan başıaşağı və xəcalətli çıxdıq və hər cəhətdən Peyğəmbər balasına soyuq yanaşdıq. Hüseyn (əleyhissəlam) – Peyğəmbər balası bizə məktublar yazdı, qasidlər göndərdi və dəfələrlə, istər aşkara, istərsə də, gizlicə bizdən kömək istədi və hər cür bəhanənin qarşısını aldı. Biz isə onun yolunda canımızı əsirgədik. Nəticədə bizim qulağımız dibində (yaxınlığımızda) acınacaqlı şəkildə şəhid edildi. Biz o qədər süstlük etdik ki, nə dil və əməlimizlə ona kömək etdik, nə öz mal-dövlətimizlə onun köməyinə tələsdik, nə də öz qəbilələrimizi onun köməyinə çağırdıq. İndi Allah və Onun Peyğəmbəri qarşısında nə üzrümüz var? And olsun Allaha, üzrümüz ancaq bu ola bilər ki, ya Hüseyn əleyhissəlamın qatillərini öz cəzalarına çatdıraq, ya da bu yolda ölək. Bəlkə Allah bizdən razı qala..."

Sonra isə bir neçə nəfər də sərt çıxışlar etdi. Daha sonra isə bu dəstəyə başçı seçilmiş Süleyman ibn Surəd Xüzai aşağıdakı məzmunda bir çıxış etdi: "Biz Peyğəmbər ailəsinin gəlməsinin intizarında idik və onlara kömək vədəsi verib İraqa gəlməsini dəstəklədik. Ancaq elə ki bizim istəyimiz yerinə yetdi və Peyğəmbər balası bizim diyara gəldi biz süstlük edib zəiflik göstərdik. Günü-günə satmaqla vaxt keçirib hadisələrin intizarında oturduq. Nəticədə də, Peyğəmbər balası şəhid edildi. İndi ayağa qalxın və qılınca əl atın! Çünki Allahın qəzəbinə düçar olmusunuz. Nə qədər ki, Allahın Rizayətini cəlb etməmisiniz, arvad-uşaqlarınızın yanına qayıtmayın. Peyğəmbər balasının qanını almayınca, Allah sizdən razı olmayacaq. Ölümdən qorxmayın. And olsun Allaha, kim ki, ölümdən qorxur, o zillət və məğlubiyyətə məhkumdur. Gərək Bəni-İsrail kimi olasınız. Musa Peyğəmbər onlara buyurdu: "Siz buzova sitayiş etməklə, həqiqətən, özünüzə zülm etdiniz. Buna görə də, yaradanınıza tərəf üz tutaraq tövbə edin, özünüzü (Tanrı bilən adamlarınızı) öldürün."[1]

Bu yığıncaqdan sonra Süleyman ibn Surəd, Səd ibn Hüzeyfə ibn Yəmana və digər Mədain şiələrinə məktub yazaraq hadisənin gedişatını onlara çatdırdı və onlardan kömək istədi. Onlar Süleymanın dəvətini qəbul etdilər. Həmçinin, Süleyman ibn Surəd Müsənna ibn Müxrimə Əbdiyə və digər Bəsrə şiələrinə də məktub yazdı. Onlar da Süleymana müsbət cavab verdilər.

## Təvvabin hərəkatının səbəbi

Təvvabin dəstəsi bu fikirdə idi ki, İmam Hüseyn əleyhissəlamın qətlinin günahkarı ilk növbədə camaat yox, Bəni-Üməyyə hökumətidir. Buna görə də, intiqam məqsədi ilə Şama tərəf hərəkət edib dedilər ki, Bəni-Üməyyədən intiqam aldıqdan sonra Kufə cinayətkarlarının işinə yetişəcəyik.

Qeyd etdiyimiz kimi bu hərəkatın səbəbi günahdan peşiman olmaq və səhvi düzəltmək idi. Təvvabin dəstəsinin çıxış, məktub və xütbələrindən peşmançılıq və

---

[1] "Bəqərə" surəsi, ayə 54.

günahı aradan aparmaq fikri açıq-aydın hiss olunur. Kim onların bu çıxış, məktub və xütbələrini oxusa, bu mövzunu asanlıqla dərk edə bilər. Elə bu səbəbə görə də, Təvvabin hərəkatı zahiri araşdırmada intiharamiz bir qiyam şəklində nəzərə çarpır. Təvvabinin yeganə məqsədi intiqam almaq və öz günahlarını yumaq idi və bundan başqa heç bir ayrı fikirləri yox idi. Onlar nə qələbə etmək fikrində idilər, nə də hökumətə gəlmək istəyirdilər. Təkcə məqsədləri intiqam idi. Onlar evlərindən çıxarkən yəqin bilirdilər ki, bir daha geri dönməyəcəklər. Onlar öz məqsədlərinə çatmaq uğrunda ölmək arzusunda idilər. Hətta düşmən onlara aman da vermişdi, ancaq onlar bu amandan imtina etmişdilər. Çünki onlar amanı hərəkatın məğlub olmasına uğrayacaq bir tor bilirdilər.

## Təvvabin hərəkatının qüvvələri

Təvvabin hərəkatına qoşulanlar təkcə şiələr deyildi. O cümlədən vəziyyətin dəyişməsini istəyən və Əməvi hökumətinin zülmündən qanlı bir hərəkatla azad olmaq istəyən bütün qüvvələr də Təvvabin hərəkatına qoşulmuşdular. Düzdür, bu qiyamın əsasən intiqam xarakteri daşımasına və qiyamçıların şəhadət fikrində olduqlarına görə bir çoxları bu hərəkata qoşulmadılar. Süleyman ibn Sürədin siyahısında on altı min nəfər ad yazdırmış və bu ədədin yalnız beş min nəfəri qiyamda iştirak etmişdi. Şam ordusunun sayı isə otuz min nəfər idi. Əlbəttə, bunun da səbəbi məlumdur. Öz məsləki uğrunda yüksək səviyyədə fədakarlıq göstərib şəhadət tələb edən şiələrin vurğunu olan şəxslər təbii ki, hər zaman azlıq təşkil edirlər.

## Təvvabin hərəkatının əməliyyatı

Təvvabin hərəkatı hicrətin altmış birinci ilində başlandı. Təvvabin bu tarixdən etibarən döyüş hazırlıqları görüb camaatı gizlicə İmam Hüseyn əleyhissəlamın intiqamını almağa çağırırdı. Camaat da istər şiə, istərsə də başqaları onlara birləşirdi. Təvvabin qiyamı hazırlanan zaman Yezid öldü. Təvvabin camaatla həmkarlıq etmək üçün ətraf məntəqələrə qasidlər göndərdi. Bu zaman qiyamçılar ehtiyatı kənara qoyub açıq-aşkar silah toplamağa başladılar. Nəhayət hicrətin altmış beşinci ili rəbiüs-sani ayının beşinci günü cümə axşamında qiyamın ilk şöləsi alovlandı. Həmən gecə Təvvabin İmam Hüseyn əleyhissəlamın pak məzarına tərəf hərəkət etdi. Elə ki İmam Hüseyn əleyhissəlamın qəbrinin üstünə yetişdilər, ürəkdən bir fəryad edib özlərindən çıxaraq aşağıdakı cümlələri göz yaşlarına qatdılar: "İlahi! Biz Peyğəmbər (səlləllahu əleyhi və alih) balasına kömək etmədik. Bizim ötən günahlarımızı bağışla və tövbəmizi qəbul et! Hüseyn (əleyhissəlam) və onun şəhid olmuş həqiqi dostlarının ruhuna rəhmət göndər. Biz şəhadət veririk ki, Hüseyn əleyhissəlamın şəhid olduğu məslək fikrindəyik. İlahi! Əgər bizim günahlarımızı bağışlamasan, bizə rəhmət gözü ilə baxmasan, ziyankar və bədbəxt olarıq..."

Bu şüurlu və həyacanlı hadisədən sonra şəhidlərin qəbrindən aralanıb Şama tərəf hərəkət edərək Eynül-vərdə adlı bir yerdə Şam ordusu ilə üz-üzə gəldilər. Şam ordusuna Übeydullah ibn Ziyad başçılıq edirdi. Üç gün davam edən ağır döyüşdən sonra Təvvabin qiyamı məğlubiyyətə uğradı. Hərəkatın başçıları Rüfaə ibn Şəddad

Bəcəli istisna olmaqla hamı şəhid oldu. Ordunun qalan hissəsi Rüfaənin başçılığı ilə Kufəyə qayıdıb orada fəaliyyət göstərən Muxtarın tərəfdarlarına birləşdi.[1]

Təvvabin qiyamının ictimai və aydın bir məqsəd güdməsinə və tez bir zamanda məğlub olmasına baxmayaraq o, Kufə camaatına böyük təsir bağışladı və ümumi fikri bəni-Üməyyəyə qarşı mübarizə etməyə hazırladı.

## b) Muxtar qiyamı

Hicrətin altımış altıncı ili Muxtar ibn Əbu Übeyd Səqəfi İmam Hüseyn əleyhissəlamın qatillərindən intiqam almaq üçün İraqda qiyam etdi.

Həzrət Müslim (əleyhissəlam) Kufəyə gəldikdən sonra Muxtar onunla yaxından həmkarlıq edirdi. Həzrət Müslim əleyhissəlamın ibn Ziyad tərəfindən tutulub şəhid olması ilə həmzaman Muxtar da ibn Ziyadın əmrilə tutulub həbs edilmişdi. O, Aşura hadisəsindən sonra (bacısının həyat yoldaşı) Abdullah ibn Ömərin Yezidin yanındakı vasitəçiliyi ilə həbsdən azad edildi. O vaxt Abdullah ibn Zübeyr Məkkədə qiyam qaldırıb özünü müsəlmanların xəlifəsi elan etdiyi üçün Muxtar da Məkkəyə tərəf yola düşüb Abdullah ibn Zübeyrlə əlbir oldu.

Hicrətin altımış dördüncü ili Yezidin ölümündən beş ay sonra Muxtar İraq camaatının Bəni-Üməyyə hökumətinə qarşı qiyama hazır olduğunu və onların Abdullah ibn Zübeyrin hakimiyyətinə meylsiz olduqlarını görüb Kufəyə gələrək öz fəaliyyətinə başladı.[2]

## Abdullah ibn Zübeyrin İraqdakı nakamlığının səbəbi

İraq camaatının əvvəl Abdullah ibn Zübeyrin ətrafına toplaşmasını, sonra isə Muxtarın dəvətini qəbul edib Abdullah ibn Zübeyrə qarşı etiraz etməsinin səbəbini bilmək üçün nəzərə almalıyıq ki, İraq əhalisinin o dövrdə iki əsas tələbi var idi: Biri ictimai islahat və mövliyaları (Bəni-Üməyyə hakimiyyəti altında zülm çəkən qeyri-ərəb müsəlmanlardan) himayə etmək, ikincisi isə Bəni–Haşimin qanının qisasını Əməvilərdən almaq. Bu iki tələbin yerinə yetiriləcəyinə ümid edərək İraq camaatı Abdullah ibn Zübeyrin başına toplaşdı. Çünki o həm Əməvilərin düşməni idi, həm də zahirdə özünü zahid şəxs kimi göstərib dünyaya etinasız yanaşırdı. Əmələ gəldikdə isə, məlum oldu ki, Abdullah ibn Zübeyrin hakimiyyətinin Bəni–Üməyyə hakimiyyəti ilə heç də elə bir fərqi yoxdur. Düzdür, Abdullah ibn Zübeyr İraqı Əməvilərin hakimiyyəti altından çıxara bildi, lakin Aşura faciəsində çox böyük cinayətlər törətmiş Şimr ibn Zil-Cövşən, Şəbəs ibn Rəbiə, Əmr ibn Həccac kimi canilər nə təkcə hələ də Kufədə yaşayırdılar, hətta hökumətin (Abdullah ibn Zübeyrin hökumətinin) ən yaxın adamlarından olmuşdular. Abdullah ibn Zübeyr ədalətin icra olunması nöqteyi-nəzərindən də, iraqlıların istəyini təmin etmədi. Çünki mövliyalar hələ də Bəni–Üməyyə hakimiyyəti dövründə olduğu kimi məhrumiyyət içərisində güzəran keçirirdilər. Bütün qüdrət və imkanlar yenə də qəbilə başçılarının əlində idi. İraqlıların bu iki tələbinin təmin olunmaması camaatın Abdullah ibn Zübeyrin ətrafından dağılıb Muxtarı himayə etməsinə səbəb oldu.

---

[1] Məqtəlül-Hüseyn, səh.248-310.
[2] Əl-Kamilu fil-luğəti vəl ədəb.

Muxtar öz dəvətinin Həzrət Əli əleyhissəlamın oğlu Məhəmməd Hənəfiyyə ilə bağlılığını bildirdi. Elə bu da camaatın onun hökumətinə qarşı arxayınçılığına səbəb oldu. O, "Hüseyn əleyhissəlamın qanının intiqamı naminə irəli" şüarı altında hərəkata başladı ki, bu məsələ də iraqlıları öz tələblərinin təmin olunacağına ümidvar edirdi. Muxtar hakimiyyət başına gələndən sonra mövliyaları himayəyə götürərək onların ictimai hüquqlarının təmin olunması üçün mühüm addımlar atdı. Muxtarın bu hərəkəti ərəb qəbilə başçılarının onun əleyhinə çıxış etməsinə səbəb oldu. Onlar Abdullah ibn Zübeyrin ordusundan kömək alaraq Muxtarla döyüşə hazırlaşdılar. Müxalif dəstələrin başında İmam Hüseyn əleyhissəlamın qatilləri dururdu. Bu məsələ də qiyamçıların (Muxtarın dəstəsinin) təmkinli olmasına və sonadək müqavimət göstərib qələbə qazanmaq fikrində olmalarına səbəb oldu.

Muxtar İmam Hüseyn əleyhissəlamın qatillərini möhkəm izləyərək onları öz cəzalarına çatdırdı. Belə ki, bir gün ərzində onlardan iki yüz səksən nəfərini qətlə yetirdi və qaçıb aradan çıxmış bir neçə cinayət başçılarının evlərini viranəliyə çevirdi. O cümlədən, Məhəmməd ibn Əşəsin evini sökdürüb əmr etdi ki, onun ev ləvazimatı ilə vaxtikən Həzrət Əli əleyhissəlamın fədakar dostu olub şəhid olmuş Hicr ibn Ədinin Ziyad ibn Mərcanə tərəfindən sökülmüş evini təmir etsinlər.[1]

## 4. Bəni-Üməyyənin süqutu

Təvvabin və Muxtar qiyamları haqqında qısaca məlumatları ona görə verdik ki, bu qiyamlar İmam Hüseyn əleyhissəlamın şəhadətindən az sonra baş vermişdir. Ancaq bunu da bilirik ki, İmam Hüseyn əleyhissəlamın inqilabından nəşələnmiş hərəkatlar təkcə bu iki qiyamla bitmir. Sonrakı illərdə də neçə-neçə qiyamlar baş vermişdir. Onların ən böyüyü hicrətin yüz otuz ikinci ilində qələbə ilə başa çatan və Bəni-Üməyyənin hökumətinə son qoyan Abbasilər qiyamı olmuşdur. Abbasilər qiyamının qalib gəlməsinin ən başlıca səbəbi Bəni-Üməyyənin Bəni-Haşimə qarşı etdiyi zülmləri və həmçinin, bu sülalənin məzlumiyyətini aşkar etmələri oldu. Camaatın qəzəbini Bəni-Üməyyəyə qarşı artırmaq baxımından İmam Hüseyn əleyhissəlamın şəhadətini xatırlatmaq böyük təsir bağışlamışdı. Tarixçilər yazırlar: "Elə ki sonuncu Əməvi xəlifəsi Mərvanın kəsilmiş başını ilk Abbasi xəlifəsi Əbül-Abbasın hüzuruna gətirdilər, Əbül-Abbas uzun-uzadı bir səcdə etdi. Başını səcdədən qaldırdıqdan sonra Mərvanın kəsilmiş başına xitab edərək dedi: "Şükr olsun Allaha ki, mənim qisasımı səndən və qəbiləndən aldı. Şükr olsun Allaha ki, mənə sənin üzərində qələbə qazandırdı." Sonra əlavə edib dedi: "İndi mənim üçün nə vaxt öləcəyim mühüm deyil, çünki Hüseyn əleyhissəlamın intiqamı naminə Bəni-Üməyyədən iki min nəfəri öldürdüm."[2]

Bəni–Üməyyə nümayəndələrinin sağ qalanlarının ölümcül cəsədlərini Əbül-Abbasın hüzurunda bir-birinin üzərinə yığdıqdan sonra o əmr etdi ki, cəsədlərin üstündə süfrə salıb yemək hazırlasınlar. Özü isə cəsədlərin üstündə oturub yemək yeməyə başladı. Cəsədlərin bir neçəsi hələ də onun altında o tərəf-bu tərəfə çırpınırdı. Yeməyi yeyib qurtardıqdan sonra dedi: "Heç ömrümdə bu cür iştaha ilə yemək

---

[1] Əl-Kamilu fit-tarix, c.4, səh.211-244.

[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c.7,səh.130.

yeməmişdim.” Sonra əlavə edib dedi: “Bunların ayaqlarından tutub sürükləyərək yollara atın. Qoy camaat bunları öləndən sonra da lənətləsin. Çox çəkmədi camaat gördü ki, itlər əyinlərində bahalı və zərli tikişlərlə tikilmiş paltarlar olan cənazələri yerlə sürükləyirlər.”[1]

[1] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c.7,səh139.

# IV FƏSİL

# İMAM ZEYNÜL-ABİDİN ƏLEYHİSSƏLAMIN HƏYATI

*** Diktatura mühitində Kərbəla inqilabının carçısı**
*** Nə üçün İmam Səccad (əleyhissəlam) qiyam etmədi?**
*** İmamın mübarizəsinin cəhətləri**
*** Səhifeyi-Səccadiyyə – maarif xəzinəsi**
*** Kimsəsizlərə yardım**
*** Tərbiyə mərkəzi**

## İmam Səccad əleyhissəlamın həyatı barədə qısa məlumat

İmam Səccad (əleyhissəlam) şiələrin üçüncü İmamı Həzrət Hüseyn ibn Əli əleyhissəlamın oğludur. Anası Şəhrəbanu[1] olmuş, ən məşhur ləqəbi Zeynül-abidin və Səccaddır. İmam Səccad (əleyhissəlam) hicrətin otuz səkkizinci ilində[2] dünyaya gəlmişdir. Uşaqlıq illərini Mədinə şəhərində keçirmişdir. O, təxminən iki il babası Əli əleyhissəlamın hakimiyyət illərini görmüş, ondan sonra isə on il əmisi Həzrət Həsən əleyhissəlamın İmamət dövrünü dərk etmişdir. İmam Həsən (əleyhissəlam) bu on ilin yalnız altı ayını zahiri hakimiyyət başında durmuşdur. Hicrətin əllinci ili İmam Həsən əleyhissəlamın şəhadətindən sonra Müaviyənin hakimiyyətinin möhkəmləndiyi bir dövrdə onunla mübarizə aparan İmam Hüseyn (əleyhissəlam) ilə on il çiyin-çiyinə durmuşdur. Hicrətin altmış birinci ilinin məhərrəm ayında atasının inqilab və şəhadəti zamanı Kərbəlada olmuşdur. Kərbəla faciəsindən sonra digər Əhli-beyt əsirləri ilə birlikdə Kufəyə, sonra isə Şama əsir aparılmışdır. Bu səfərdə o, müsibət və çətinliklər zamanı digər əsirlərin pənahı və himayədarı olmuşdur. O, bu səfər zamanı öz mətin çıxışları ilə Yezidin hakimiyyətini rüsvay etdi və Şamdan qayıtdıqdan sonra Mədinə şəhərində yaşamağa başladı. Nəhayət hicrətin doxsan dörd, ya da doxsan beşinci ili şəhadətə qovuşdu. O Həzrət Bəqi qəbiristanlığında əmisi İmam Həsən əleyhissəlamın qəbrinin kənarında dəfn olunmuşdur.

## İmam Səccad (əleyhissəlam) ilə həməsr olmuş xəlifələr

İmam Səccad (əleyhissəlam) öz İmamət dövründə aşağıda adları çəkilmiş xəlifələrlə həməsr olmuşdur:

**1.** Yezid ibn Müaviyə (61-64 h.q);[3]
**2.** Abdullah ibn Zübeyr (61-73 h.q);[4]
**3.** Müaviyə ibn Yezid (altmış dördüncü ilin bir neçə ayı);
**4.** Mərvan ibn Həkəm (altmış beşinci ilin doqquz ayı);
**5.** Əbdülməlik ibn Mərvan (65-86 h.q);
**6.** Vəlid ibn Əbdülməlik (86-96 h.q).

## İmamın xəstəliyi İlahi bir məsləhət idi

Təəssüflə qeyd etməliyik ki, müsəlmanların savadsız təbəqələrinin əksəriyyəti dördüncü İmamı həmişə xəstə kimi yad edir və bununla da, camaatın fikrində o Həzrət çox zəif, əldən düşmüş, saralıb-solmuş bir şəxs kimi canlanır. Halbuki, əslində heç də belə olmamışdır. Çünki dördüncü İmam ancaq Kərbəlada, özü də çox qısa

---

[1] Üsuli-kafi, c.1, səh.467; Əl-İrşad, səh.253.
[2] Əl-İrşad, səh.253; Dəlailül-imamət, səh.80.
[3] Mö’tərizənin içərisində olan rəqəmlər xəlifələrin hakimiyyətdə olduğu illəri göstərir.
[4] Abdullah ibn Zübeyr Yezidə bey’ət etməyən şəxslərdən idi. Buna görə də, Müaviyənin ölümündən sonra imam Hüseyn əleyhissəlamın Məkkəyə hərəkətindən bir az qabaq bu şəhərə qaçıb öz siyasi fəaliyyətləri ilə məşğul oldu. İmam Hüseyn əleyhissəlamın şəhadətindən sonra Hicazda özünə rəqib görməyib özünü xəlifə e’lan etdi. Yezid ömrünün axırına qədər onu məğlub edə bilmədi. O, 73-cü ilə qədər Məkkədə hökumət bayrağını əlində saxladı. Nəhayət, Əbdülməlikin qüvvələri tərəfindən (73-cü hicri ilində) qətlə yetirildi. Bundan sonra hakimiyyət Mərvanlıların əlinə düşdü, Şam şəhəri yenidən mərkəz oldu.

müddətdə xəstə olmuşdur. Kərbəla hadisəsindən sonra isə sağalmış və təxminən otuz beş il o biri İmamlar kimi sağlam bədənlə fəaliyyət göstərmişdir. Şübhəsiz ki, o Həzrətin Kərbəla hadisəsindəki müvəqqəti xəstəliyi Allahın bir məsləhəti olmuşdur. Belə ki, İmam (əleyhissəlam) bu vasitə ilə cihad vəzifəsindən azad olmuş,[1] müqəddəs vücudu Yezidin muzdurlarının ölüm təhlükəsindən amanda qalaraq İmamət xətti davam etmişdir. Əgər İmam Səccad (əleyhissəlam) xəstələnməsəydi, gərək cihadda iştirak edəydi. Bu təqdirdə də atasının başqa oğul və dostları kimi şəhid olar və beləliklə də, İmamət nuru birdəfəlik sönmüş olardı. Səbt ibn Əl-Cuzi yazır: "Əli ibn Hüseyn (əleyhissəlam) (İmam Səccad) xəstə olduğu üçün öldürülmədi."[2]

Məhəmməd ibn Səd yazır: "Əli ibn Hüseyn əleyhissəlamın o gün (Aşura günü) atası ilə olan zaman iyirmi üç, ya iyirmi dörd yaşı var idi. Onun o vaxt azyaşlı uşaq olduğunu söyləyənlər tamamilə əsassızdırlar. O, həmən gün xəstə olmuş, buna görə də, döyüşdə iştirak edə bilməmişdir."[3] Həmçinin, Məhəmməd ibn Səd qeyd edir ki, Şimr İmam Hüseyn əleyhissəlamı öldürdükdən sonra İmam Səccad əleyhissəlamın üstünə gəldi. O, xəstə olduğu üçün yataqda yatmışdı. Şimr dedi: "Bunu öldürün!" Onun yanındakılardan biri dedi: "Sübhanəllah! Xəstə olan və heç döyüşdə də iştirak etməyən bir gənci öldürək?" Bu zaman Ömər ibn Səd gəlib dedi: "Qadınlar və bu xəstə ilə işiniz olmasın."[4]

Şeyx Müfid Yezidin ordusunda iştirak etmiş Həmid ibn Müslimin dilindən rəvayət edib deyir: "(Aşura günü) Əli ibn Hüseynin çadırına yetişdik. O, bərk xəstə idi və yataqda yatmışdı. Şimr bir neçə nəfərlə onun yanına gəldi. Yanındakılar Şimrə dedilər: "Bu xəstəni öldürmürsən?" Mən dedim: "Sübhanəllah! Uşaqları da öldürürsünüz? Bu ki, bir uşaqdır, özü də xəstəlik onu əldən salıb." O qədər bu cür sözlərdən dedim ki, axır onları o Həzrəti öldürmək fikrindən yayındırdım. Bu vaxt Ömər ibn Səd gəldi. Qadınlar onun üstünə qışqırıb ağladılar. O, öz adamlarına dedi: "Heç biriniz bu qadınların evlərinə (çadırlarına) girməyin və bu cavanla işiniz olmasın."[5]

Qeyd olunduğu kimi dördüncü İmamın sağ qalmasına səbəb olan xəstəlik İlahi bir məsləhət olmuşdur. Bu, onun düşmən qarşısında heç də ruhiyyə zəifliyi və gücsüzlüyü demək deyil.

İmam Səccad (əleyhissəlam) o çətin və acınacaqlı əsirlik müddətində əsirlərin ümid və pənah yeri olmaqla yanaşı, həm də düşmənə qarşı şücaət və vüqarla hərəkət etmişdi. İmam əleyhissəlamın Kufə və Şam şəhərlərindəki mətin və kəskin çıxışları bu məsələni bir daha təsdiq edir. Belə ki, əsirləri Kufəyə gətirdikdən sonra Übeydullah ibn Ziyadın məclisində onunla İmam Səccad (əleyhissəlam) arasında gedən kəskin söz-söhbətdən Übeydullah ibn Ziyad bərk qəzəblənib İmamın qətlinə əmr verərkən İmam Səccad (əleyhissəlam) ona buyurdu: "Məni öldürməklə

[1] Təzkirətül–xəvvas, səh.324.
[2] Təzkirətül–xəvvas, səh.324.
[3] Ət-Təbəqatül-kubra, c.5, səh.221.
[4] Ət-Təbəqatül-kubra, c.5, səh.212.
[5] Əl-İrşad, səh.242.

hədələyirsən? Bilmirsən ki, ölmək bizim üçün adi bir iş, şəhadət bizim üçün şərəf və fəzilətdir?”[1]

## Kərbəla inqilabının carçısı

Qeyd etdiyimiz kimi İmam Səccad (əleyhissəlam) Kərbəla faciəsində iştirak etmiş, atasının şəhadətindən sonra Əhli-beyt əsirlərinin başında olmaqla inqilabın və İmam Hüseyn əleyhissəlamın qızılqanlı şəhadətinin carçısı olmuş, öz söhbət və çıxışları ilə Əməvi hakimiyyətinin çirkin üzünü tanıtdırmaq və camaatın fikrini oyatmaqla məşğul olmuşdur.

Əməvi hökumətinin Müaviyyənin dövründən etibarən Peyğəmbər ailəsinin əleyhinə uzun-uzadı təbliğatlarını (xüsusən Şamda) nəzərə almaqla şübhəsiz ki, əgər Əhli-beyt əsirləri Əməvi hakimiyyətinin iç üzünü açaraq camaatın fikrini oyatmasaydılar, İslam düşmənləri və hökumət nümayəndələri İmam Hüseyn əleyhissəlamın böyük və həmişəyaşar inqilabını tarix səhifəsindən pozar və onun simasını dəyişdirərdilər. Ancaq İmam Səccad əleyhissəlamın və eləcə də, digər əsirlərin əsir olduqları müddətdə apardıqları təbliğat (qeyd etməliyik ki, bu fürsəti onlara Yezidin axmaqlığı və şəxsi düşmənçiliyi vermişdir) İmam Hüseyn əleyhissəlamın düşmənlərinə bu fürsəti vermədi və Yezidi hər yerdə rüsvay etdi.

İmam Səccad əleyhissəlamın təbliğati mübarizələrini İmam Hüseyn əleyhissəlamın həyatı bölməsində geniş şəkildə izah etdiyimiz üçün burada yalnız bununla kifayətlənirik.

## Diktatura mühiti

İslam peyğəmbərinin vəfatından sonra İmamət silsiləsinin dörd dövrə bölünməsinə əsasən (bu dörd dövrü Həzrət Əli əleyhissəlamın həyatı bölməsində izah etmişik), İmam Səccad əleyhissəlamın həyatı dördüncü dövrə təsadüf edir. Yəni, silahlı mübarizə yolu ilə qələbədən naümid olmaq; Peyğəmbər ailəsi vasitəsilə uzun müddətli İslam hökuməti yaratmaq uğrunda səy göstərmək; bu məqsədə çatmaqdan ötrü zəminə yaratmaq üçün mədəni tədbirlər vasitəsilə münasib insani qüvvələri tərbiyə etmək; əsl İslami fikirləri bəyan etmək, mövhumat və bidətləri üzə çıxarmaq.

Bu məsələ haqqında qısa məlumat verək.

Faciəli Aşura hadisəsi (tez bir zamanda) şiə məzhəbinə ağır zərbə vurdu. Bu hadisənin xəbərinin yayılması ilə İslam dövlətinin hər tərəfində, xüsusən İraq və Hicazda şiə məclislərində ümumi bir qorxu hökm sürməyə başladı. Çünki məlum oldu ki, (İslam aləmində hamı tərəfindən əzəmətlə, etibarla və müqəddəs bir şəxs kimi tanınan) Peyğəmbər balasını öldürüb Əhli-beyt qız-gəlinini və arvad-uşaqlarını əsir almaqla öz hakimiyyətini qoruyub saxlayan Yezid hakimiyyət dayaqlarını möhkəmlətmək üçün heç bir cinayətdən çəkinməz. Kufə və Mədinədə artıq öz əsərlərini büruzə verən qorxu və vəhşət (hicrətin altımış üçüncü ilində zil-həccə ayında baş vermiş) “Hirrə faciəsi” və Mədinə camaatının Yezidin ordusu tərəfindən amansızcasına qırılması ilə daha da şiddətləndi, Peyğəmbər ailəsinin nüfuz etdiyi yerlərdə, xüsusilə Hicazda Mədinəyə, İraqda isə Kufəyə möhkəm represiya hakim

[1] Əl-İrşad, səh.242.

kəsildi. Bəni-Üməyyənin düşmənləri olan İmamların dostları zəifləyib süstləşdilər, öz təşəkküllərini itirdilər. İmam Səccad (əleyhissəlam) bu acınacaqlı vəziyyətə işarə edərək buyurur: "Bütün Məkkə və Mədinədə bizi sevən iyirmi nəfər yoxdur."[1] Görkəmli tarixçi Məsudi yazır: "Əli ibn Hüseyn (əleyhissəlam) (İmam Səccad) İmaməti gizli və təqiyyə şəklində və çox çətin bir vaxtda öhdəsinə götürmüşdü."[2] İmam Sadiq (əleyhissəlam) bu dəhşətli və acınacaqlı vəziyyəti təsvir edərək buyurur: "Camaatın üç nəfər istisna olmaqla hamısı Hüseyn ibn Əli əleyhissəlamdan sonra (onun şəhadətindən sonra) döndü: (Peyğəmbər ailəsinin ətrafından uzaqlaşdılar): Əbu Xalid Kabili, Yəhya ibn Ummut-Təvil və Cübeyr ibn Mutim."[3] Sonra bir neçə nəfər onlara qoşuldu və sayları artdı. Yəhya ibn Ummut-Təvil Mədinədə Peyğəmbər məscidinə gedib camaata xitab edərək deyərdi: "Biz sizinlə (yolunuzla) müxalifik, bizimlə sizin aranızda aşkar və əbədi düşmənçilik və kin-küdurət var..."[4]

Deyilməsə də, məlumdur ki, o cür şəraitdə belə bir açıq-aşkar mövqedə durmağa yalnız acınacaqlı nəticələrə sinə gərə bilən Yəhya ibn Ummut-Təvil kimi şəxslərin qüdrəti çata bilərdi. Məhz buna görə də, Həccac ibn Yusif Yəhyanın Həzrət Əli əleyhissəlamın dostu olmasına görə əl-ayağını kəsdirmiş, sonra da onu şəhadətə yetirmişdir.[5]

Onuncu əsrin ortalarının görkəmli alimlərindən və hədisçilərindən biri və həm də İmam Cavad (əleyhissəlam), İmam Hadi (əleyhissəlam) və İmam Həsən Əskəri əleyhissəlamın şagirdlərindən olan Fəzl ibn Şazan deyir: "İmam Səccad əleyhissəlamın İmamət dövrünün əvvəllərində yalnız beş nəfər ona itaət edirdi: Səid ibn Cübeyr, Səid ibn Müsəyyib, Məhəmməd ibn Cübeyr ibn Mutim, Yəhya ibn Ummut-Təvil və Əbu Xalid Kabili."[6]

## Əbdülməlikin çirkin hakimiyyəti

İmam Səccad əleyhissəlamın İmamət dövrü İslam tarixində hakimiyyət dövrlərinin ən çirkinlərindən biri olan bir dövrlə həmzaman olmuşdur. Düzdür, o Həzrətdən qabaq da İslam dövləti zalım və azğın hakimlərin oyuncağına çevrilmişdi, ancaq dördüncü İmamın dövrü ötən dövrlərlə bununla fərqlənirdi ki, o dövrün hakimləri İslam qayda-qanunlarından açıq-aşkar boyun qaçırır, onları ayaq altına salır və heç kim də, bir zərrə olsun belə, etiraz edə bilmirdi.

İmam Səccad əleyhissəlamın İmamət dövrünün ən çoxu Əbdülməlik ibn Mərvanın hakimiyyəti dövrünə təsadüf edirdi. Əbdülməlik iyirmi bir il hakimiyyətdə olmuşdur. Tarixçilər Əbdülməliki zirək, ehtiyatlı, uzaqgörən, ədib (ədəbiyyatla məşğul olan), istedadlı və alim kimi qələmə vermişlər.[7] "Əl-Fəxri" kitabının müəllifi deyir:

---

1 Biharül-ənvar, c.46, səh.143.
2 İsbatül-vəsiyyə, səh.167.
3 Qamusür-rical, c.9, səh.399.
4 Əl-İxtisas, səh.64.
5 İxtiyaru mə'rifətir-rical, səh.123.
6 İxtiyaru mə'rifətir-rical, səh.115.
7 Əl-Kamilu fit-tarix, c.4, səh.520.

“Əbdülməlik ağıllı, düşüncəli, alim, fəzilətli, ədib, istedadlı, çox zülmkar, çox heybətli, dahi siyasətçi və gözəl tədbirli bir şəxs olmuşdur.”[1]

Hinduşah yazır: “O, ağıllı, fəzilətli, fəsahətli, fiqh, hədis, şer elmlərini yaxşı bilən və gözəl tədbir sahibi olmuşdur.”[2]

Əbdülməlik hakimiyyət başına gəlməzdən qabaq Mədinə şəhərinin fəqihlərindən (şəriət elminin alimlərindən) biri sayılırdı.[3] O, zahidlik, ibadət və dindarlıqla məşhur olmuşdu. Öz vaxtını məsciddə ibadət etməklə keçirərdi. Belə ki, ona “məscidin göyərçini” ləqəbini vermişdilər.[4] Deyirlər ki, Əbdülməlik atası Mərvan öldükdən sonra hakimiyyətə yetişərkən Quran oxuyurdu. Bu xəbəri eşitcək Quranı bağlayıb dedi: “Daha mənimlə sənin aranda ayrılıq düşdü. Artıq mənim səninlə işim yoxdur.”[5] Əbdülməlik doğurdan da, Qurandan ayrıldı. Qüdrətə qürrələnməsi nəticəsində öz şəxsiyyətini elə dəyişdirdi ki, tarixçilər onun çirkin hökumətini acı xatirələr tək yad edirlər.

Süyuti və İbn Əsir yazırlar: “İslam tarixində Əbdülməlik əhdini danan və xəyanət edən (Əmr ibn Səid ibn Ası aman verdikdən sonra öldürdü), camaatı xəlifənin hüzurunda söz deməkdən məhrum edən və əmr be-mərufun qarşısını alan ilk şəxs olmuşdur.[6]

Əbdülməlik Məkkədə Abdullah ibn Zübeyri məğlub etdikdən iki il sonra (hicrətin yetmiş beşinci ilində) həcc səfəri zamanı Mədinəyə gəlmiş və camaata xitab edərək demişdi: “Mən nə rüsvay olmuş (Osman), nə də səhlənkar xəlifə (Yezid) deyiləm. Mən bu camaatla qılıncdan başqa heç bir şeylə rəftar etməyəcəyəm. Siz bizdən Allah adamlarının, təqvalı şəxslərin işini istədiyiniz halda özünüz heç də onlar kimi rəftar etmirsiniz (bizi təqvalı olmağa çağırırsınız, ancaq özünüz ona əməl etmirsiniz). And olsun Allaha, bundan belə kim məni təqvalı olmağa çağırsa, boynunu vuracağam.”[7]

Sonuncu cümləni deməsinin səbəbi o idi ki, vaiz və İmam cümələr (cümə namazını qılan şəxslər) öz söhbətlərini “təqvalı olun” ifadəsi ilə başlayırdılar.[8]

Özünü peyğəmbərin canişi elan edib Peyğəmbər şəhərində, özü də Peyğəmbərin müqəddəs məzarı kənarında bu cür sözlər deməklə onun sünnəsinə hücum edən xəlifənin ucqar şəhərlərdəki valiləri də gör nə oyunlardan çıxırdılar?

Əbdülməlik özünün uzunmüddətli hakimiyyəti dövründə o qədər zülm və haqsızlıq etdi ki, onun qəlbində iman nuru tamamilə söndü. O, bir gün özü bu məsələyə toxunaraq Səid ibn Müsəyyibə dedi: “Elə olmuşam ki, yaxşı iş görəndə sevinmirəm, pis iş görəndə də narahat olmuram.” Səid ibn Müsəyyib dedi: “Sənin qəlbin tamamilə ölmüşdür.”[9]

---

[1] İbn Təqtəqa, “Əl-Fəxri”, səh.122-124.
[2] Təcaribüs-sələf, səh.75.
[3] İbn Təqtəqa, “Əl-Fəxri”, səh.122.
[4] Təcaribüs-sələf, səh.76.
[5] Tarixül-xüləfa, c.4, səh.100.
[6] Tarixül xüləfa, səh.218, Əl-Kamilu fit-tarix, c.4, səh252.
[7] Tarixül-xüləfa, səh.218.
[8] İmam Səccad əleyhissəlamın həyatı, səh.98.
[9] Əl-Fəxri, səh.122; İbn Əsir, Əl-Kamilu fit-tarix, c.4, səh521.

Əbdülməlik çox vaxt Ummud-Dərda adlı bir qadınla söhbət edərdi. Bir gün Ummud-Dərda ona dedi: “Ey Əmirəl-möminin, eşitmişəm ibadət və razi-niyazdan sonra şərab içmisən?!” Əbdülməlik cavab verdi: “Təkcə şərab yox, hətta camaatın qanını da içmişəm.[1]

Bir vaxtlar Yezidin (Abdullah ibn Zübeyri təslim etmək üçün) Məkkəyə ordu göndərməsinə nifrət edən və bu işdən Allaha pənah aparan Əbdülməlik hakimiyyət başına gəldikdən sonra nə təkcə özü bu işi davam etdirdi, hətta Həccac kimi qaniçən bir şəxsi bu işi yerinə yetirmək üçün təyin etdi və o da Məscidül-həram və Kəbəni (Abdullah ibn Zübeyr qaçıb orada gizlənmişdi) mancanaq ilə daşa basdı.[2]

## Zalım valilər

İslam məmləkətinin hər bir yerində Əbdülməlikin nümayəndələri də ona baxıb camaatla zülm və ədavətlə rəftar edirdilər. Ölkənin hər bir yerində haqsızlıq və vəhşət hökm sürürdü. Məsudi yazır: “Əbdülməlik qantökən adam idi. Onun təyin etdiyi valilər – İraq hakimi Həccac, Xorasan hakimi Muhlib və Mədinə hakimi Hişam ibn İsmayıl da onun özü kimi rəhmsiz və qantökən idilər.”[3]

Mədinə hakimi Hişam ibn İsmayıl camaatı o qədər təzyiqlərə məruz qoymuş və Peyğəmbər ailəsinə o qədər əziyyət vermişdi ki, Əbdülməlikin oğlu Vəlid atasının ölümündən sonra hakimiyyətə gəldikdə, məcbur olub onu işdən çıxartdı.[4]

Bunların hamısından ən pisi Həccac olmuşdur. Onun İslam tarixində törətdiyi cinayətlər hamıya məlumdur. Əbdülməlik, Abdullah ibn Zübeyri Həccacın vasitəsilə məğlubiyyətə uğratdıqdan sonra Həccacı iki illik Hicaza (Məkkə, Mədinə və Taifə) vali təyin etdi.[5]

Həccac Mədinədə Cabir ibn Abdullah Ənsari, Ənəs ibn Malik, Səhl ibn Saidi kimi bir sıra səhabələri rüsvay etmək üçün onların boynuna damğa vurdu. Bu işdə bəhanəsi də o idi ki, bunlar Osmanın qatilləridirlər![6] Həccac Mədinədən çıxıb gedərkən belə dedi: “Allaha şükr edirəm ki, məni bu çirkin şəhərdən qırağa aparır. Bu şəhər bütün şəhərlərdən çirkindir. Buranın əhalisi Əmirəl-mömininə qarşı münasibətdə çox hiyləgər, həyasız və tənbəldir. Əgər Əmirəl-mömininin sifarişi olmasaydı, bu şəhəri yerlə yeksan edərdim. Bu şəhərdə Peyğəmbər minbəri adlanan bir parça çubuqdan və Peyğəmbər qəbri adlanan bir qədər çürümüş sümükdən başqa heç nə yoxdur.[7]

Yaxud Kufədə söylədiyi xütbəsində Mədinədə Peyğəmbər (s)-in müqəddəs qəbrinin ətrafında fırlanaraq onu yad edən ziyarətçiləri təhqir edərək belə demişdi: “Vay olsun onlara! Elə fırlanırlar ki, lap belə qoca mal-qaranın yerişlərinə bənzəyir. Niyə gedib əmirəlmö`minin Əbdül Məlikin qəsrinin ətrafında təvaf etmirlər! Məgər onlar bilmirlər ki, adamın xəlifəsi onun peyğəmbərindən üstündür?!”[8]

---

[1] Tarixül-xüləfa, səh.216.
[2] Tarixül-xüləfa, səh.216.
[3] Mürucuz-zəhəb, c.3, səh.91.
[4] Tarixi-Yə’qubi, c.3, səh.27-29.
[5] Əl-İmamətu vəs-siyasət, c.2, səh.31.
[6] Tarixi-Yə’qubi, c.3,səh.18.
[7] Əl-Kamilu fit-tarix, c.4, səh.359.
[8] Şərhi Nəhcül Bəlağə, c. 15, səh. 242.

## Həccac İraqda

Həccac Məkkə və Mədinəni öz nəzarəti altına aldıqdan sonra Əbdülməlik başa düşdü ki, iraqlıları öz yerlərində oturda bilən və onları özünə tabe edə biləcək şəxs ancaq Həccac ola bilər. Buna görə də, hicrətin yetmiş beşinci ilində İraq valiliyini (Kufə və Bəsrəni) onun öhdəsinə qoydu. Həccac Kufəyə gəldiyi andan heç də xəlifə tərəfindən təyin olunmuş vali kimi deyil, üz-gözünü örtmüş halda məscidə daxil olaraq camaatın arasından keçməklə minbərə qalxdı və uzun müddət sakit oturdu. Səs-küy qalxdı ki, bu kimdir? Bir nəfər dedi: "Gəlin onu daşqalaq edək". Camaat dedi: "Yox, qoyun görək nə deyir?" Elə ki hər tərəf sakitləşdi Həccac üzünü açaraq söhbətə belə başladı: "Ey Kufə camaatı! Mən dərilmək vaxtı yetişmiş meyvələrə bənzər və bədəndən ayrılmaları labüd olan başlar görürəm. Mən bu işi mütləq yerinə yetirəcəyəm. Əmmamə ilə saqqallar arasında parıldayan qanlar görürəm." Sonra öz dəhşətli sözlərinə davam edib camaatı elə qorxutdu ki, bir kişinin onu daşqalaq etmək üçün əlində tutduğu daş parçası ixtiyarsız olaraq yerə düşdü.[1]

Həccacın Bəsrəyə gəlişi də eynilə Kufəyə gəlişi kimi oldu. İbn Qüteybə Dinvəri onun Bəsrəyə gəlişini belə izah edir: "Həccac iki min nəfərlik Şam ordusu və onların tərəfdarlarından əlavə dörd min nəfərlik ordu ilə Bəsrəyə tərəf yollandı. Bəsrəyə girərkən onların iki min nəfərini özü ilə götürdü və belə qərara gəldi ki, cümə günü namaz vaxtı şəhərə daxil olsun. O, ətrafdakılara əmr etdi ki, məscidi mühasirəyə alsınlar və məscidin on səkkiz qapısının hər birinin ağzında yüz nəfər durub qılınclarını paltarların altında gizlətsinlər. Sonra da onlara dedi: Elə ki məsciddə səs-küy qalxdı və kimsə məsciddən kənara çıxmaq istədi, elə bir iş görün ki, başları bədənlərindən tez qırağa çıxsın.

Məmurlar qapıların ağzında dayanıb gözləməyə başladılar. Həccacı qılınclarını paltarların altında gizlətmiş yüz nəfər önündə, yüz nəfər də arxasında müşayiət edərək məscidə gətirdi. Onun özü də qılıncını paltarının altında gizlətmişdi. Həccac gözətçilərinə dedi: "Məscidə girəndən sonra mən camaat üçün söhbət edəcəyəm. Onlar məni daşa basacaqlar. Elə ki, gördünüz mən əmmaməmi götürüb dizimin üstünə qoydum, qılınclarınızı qınından çıxarıb onları qılıncdan keçirin."

Bu plan əsasında namaz vaxtı çatan kimi Həccac minbərə qalxıb söhbət əsnasında belə dedi: "...Əmirəl-möminin (Əbdülməlik) məni sizin şəhərə vali və beytül-malı sizin aranızda bölmək üçün göndərib. Mənə əmr edib ki, məzlumların köməyinə çatam, zalımların cəzasını verəm, yaxşı iş görənləri alqışlayıb, pis iş görənləri cəzalandıram. Xəlifə məni bura vali təyin edəndə mənə iki qılınc verdi? Biri rəhmət və mərhəmət qılıncı, digəri isə əzab və cəza qılıncı. Mərhəmət qılıncı yolda əlimdən düşdü, ancaq əzab qılıncı indi də əlimdədir..."

Camaat minbərin aşağısından Həccacı daşlamağa başladı. Bu zaman Həccac əmmaməsini başından götürüb dizinin üstünə qoydu. Gözətçilər dərhal camaatın üstünə düşdülər. Vəziyyətin belə olduğunu görən camaat məsciddən qaçmağa başladı. Ancaq kim məsciddən qırağa çıxırdısa, başı bədənindən ayrılırdı. Beləliklə, qaçanları geri qayıtmağa məcbur etdilər, sonra da onları məsciddə qırdılar. İş o yerə çatdı ki,

[1] Əl-Kamilu fil-lüğəti vəl-ədəb, c.1, səh.311; Əl-əxbarül-müvəffəqiyyat, səh. 93-97; İsbatül-vəsiyyə, c. 3, səh. 127.

qan məscidin qapısına, hətta bazara qədər axıb gəlmişdi.»[1] Bununla da, Həccac İraqın hər bir yerində öz qorxulu hakimiyyətini yaratdı. O, bir çox təqvalı və günahsız insanları qırdı. O, ürəklərdə elə bir qorxu yaratdı ki, bu qorxu nə təkcə İraqı, habelə Xuzistanı[2] və bütün Şərqi bürüdü.

## Diktatura və qırğın dalğası

Görkəmli tarixçi Məsudi yazır: "Həccac iyirmi il vali oldu. Bu müddət ərzində onun cəlladlarının qılıncı ilə, yaxud işkəncə altında öldürülənlərin sayı yüz iyirmi min nəfər idi. Əlbəttə, hələ burada Həccaca qarşı döyüşdə ölənlərin sayı nəzərdə tutulmamışdır.

Həccac ölən zaman onun zindanında (onun adı gələndə bədənlərə titrətmə düşürdü) əlli min kişi, otuz min qadın var idi. Bu qadınların on altı mini çılpaq vəziyyətdə idi.

Həccac kişi və qadınları zindanda bir yerdə saxlayırdı. Onun zindanları tavansız olduğundan məhbuslar yayın istisindən, həmçinin, qışın soyuğu və qar-yağışından bərk əziyyət çəkirdilər.[3]

## Vəlid ibn Əbdülməlikin müsbət və mənfi cəhətləri

Əbdülməlikin ölümündən sonra onun oğlu Vəlid hakimiyyət başına gəldi. Bəzi tarixçilər onu müsbət qələmə vermiş və onu atası Əbdülməlik, babası Mərvan və bir çoxlarından üstün tutmuşlar. Çünki Ömər ibn Əbdüləzizdən başqa Əməvi xəlifələrindən heç biri öz hakimiyyəti dövründə onun qədər hamı üçün xeyirli olan işlər görməmişdi. Vəlid öz hakimiyyəti dövründə məscidlər və müqəddəs yerlər tikdirməkdə, onları artırmaqda, təmir etməkdə böyük addımlar atmış öz valilərini bu işə cəlb etmişdi. Tarixçilər deyirlər: "Vəlid Dəməşqin cami məscidini tikdirdi. O, həmçinin, Peyğəmbər məscidini və eləcə də, Əqsa məscidini (Beytül-müqəddəsi) genişləndirdi. Onun əmrilə hansı şəhərdə namaz qılmaq üçün yer yox idisə, orada məscid tikildi. O, İslam dövlətini qorumaq məqsədi ilə sərhədlərdə müxtəlif qalalar tikdirdi və müxtəlif əlaqə yolları çəkdirdi, həmçinin, ölkənin müxtəlif yerlərində su quyuları qazdırdı, məktəb (mədrəsə) və xəstəxanalar saldırdı, sədəqə və dağınıq (pərakəndə) köməklikləri ləğv edib əlillər, xəstələr və ehtiyacı olanlar üçün müəyyən maaş təyin etdi. O, kor, əldən düşmüş və cüzam xəstəliyinə tutulmuşlar üçün istirahət yerləri tikdirdi, onlara yetişmək üçün həkim və xidmətçilər təyin etdi, onların yemək və istirahətlərinə yaxşı baxılmasını əmr etdi. O, həmçinin, yetim və sahibsiz uşaqları tərbiyələndirmək üçün uşaq evləri tikdirdi. Çox vaxtlar özü şəhər və bazara çıxır, qiymətlərin endirilib, yaxud qaldırılmasına şəxsən nəzarət edirdi.[4]

[1] Əl-İmamətu vəs-siyasət, c.2, səh.32.
[2] İranın Cənub hissəsi.
[3] Mürucuz-zəhəb, c.3, səh.166-167.
[4] Muxtəsəru tarixil-ərəb, səh.123.

## Vəlidin çirkin işləri

Vəlidin həyatı və hakimiyyəti dövründəki müsbət cəhətlərlə yanaşı, onun bir sıra mənfi, zəif cəhətləri və açıq-aşkar pozğunluqları vardır ki, bunları onun həyatında qeyd etmədən keçmək olmaz. Tarixçilərin dediyinə görə Vəlid çox zalım şəxs olmuşdur. Ata-anası onu uşaqlıqda ərköyün böyütmüş, buna görə də, o, ədəbsiz və insani dəyərlərdən uzaq olan bir adam olmuşdur.[1] Vəlid ərəb dilinin qrammatika və ədəbiyyatından xəbərsiz idi. Ömrünün axırına qədər ərəb qrammatikasının qaydalarına riayət edə bilmədi. Danışarkən qrammatik cəhətdən çox kobud səhvlər buraxırdı. Bir gün atasının məclisində bir dəstə adamın hüzurunda bir nəfər ərəblə söhbət edərkən çox asan bir cümləni səhv dedi. Atası onu danlayıb dedi: "Ərəblərin dilini bilməyən şəxs onlara hakim ola bilməz." Vəlid bu hadisədən sonra bir neçə ərəb dilçisi ilə birlikdə bir otağa girib altı ay orada qaldı. Bu müddətdə o, ərəb qrammatikasını öyrənməyə başladı. Ancaq altı aydan sonra əvvəlkindən də, savadsız vəziyyətdə qırağa çıxdı.[2]

Vəlidin elmin inkişafına diqqət yetirməsinin səbəblərindən biri də, bəlkə də, onun özünün elmdən məhrum olması olmuş və o, bu yolla öz zəif cəhətini ört-basdır etmək istəyirmiş.

## Zalım hakimlər

Vəlid zalım və pozğun adamları vali, hakim və əmir təyin edirdi. Bu adamlar müsəlmanları çox təzyiqlərə məruz qoyurdular. Vəlidin valilərindən biri Həccac ibn Yusif idi. Vəlid atası Əbdülməlikin ölümündən sonra Həccacı öz vəzifəsində saxladı.

O dövrdən etibarən Şam məntəqəsi Vəlidin öz nəzarəti altında idi. İraqda Həccac, Hicazda Osman ibn Həbarə, Misirdə Qürrə ibn Şüreyk valilik edirdilər. Adı çəkilən bu şəxslərin zülm etməkdə misli yox idi. Bir qədər ədalət və insaf tərəfdarı olan Ömər ibn Əbdüləziz (Vəlidin qardaşı oğlu) bu bir neçə nəfərin hakimiyyətinə işarə edərək deyir: "Yer üzü zülm ilə dolmuşdur. İlahi, camaatı bu müsibətdən qurtar![3]"

Sanki hakimlərin bu zülmkarlıqlarına və müsəlmanların bu məzlumiyyətinə və pənahsız qalmalarına işarə edərək İmam Səccad (əleyhissəlam) öz söhbəti əsnasında o dövrün camaatını altı dəstəyə bölmüşdür. Hakimləri şirə, müsəlmanları isə şir, canavar, tülkü, it və donuz arasında qalmış və ət, dəri və sümükləri şir tərəfindən parçalanan qoyunlara bənzətmişdir.[4]

## Nə üçün İmam Səccad (əleyhissəlam) qiyam etmədi?

İmam Səccad əleyhissəlamın dövrünün siyasi aləmi bir az aydın olduqdan sonra, o Həzrətin nəyə görə qiyam etməməsini çox yaxşı başa düşmək olar. Cəmiyyət arasında hökm sürən qorxu, diktatura və zalım Əməvi hökumətinin camaat üzərindəki güclü nüfuzu hər hansı bir hərəkat və silahlı mübarizəni məğlubiyyətə məhkum edirdi. Hətta kiçik hərəkatlar belə Əməvi casuslarının gözündən qaçmırdı. Necə ki, bir gün

[1] Tarixül-xüləfa, səh.223.
[2] Əl-Kamilu fit-tarix, c.5, səh.11.
[3] Əl-Kamilu fit-tarix, c.5, səh.11.
[4] Əl-Xisal, səh.339.

Əbdülməlikin Mədinədəki casusu ona xəbər verdi ki, Əli ibn Hüseyn əleyhissəlamın (İmam Səccadın) bir kənizi var idi. O, kənizi azad etmiş, sonra isə onunla evlənmişdir. Əbdülməlik İmam Səccad əleyhissəlama yazdığı məktubda bu işi İmam (əleyhissəlam) üçün nöqsan saymış və etiraz etmişdi ki, nəyə görə İmam özünə tay olan bir qüreyşli qadınla evlənməmişdir? İmam Səccad (əleyhissəlam) onun cavabında yazdı: "Peyğəmbərdən böyük və üstün bir şəxs yox idi. O, öz kənizi ilə evlənmişdi. Allah hər bir kiçikliyi İslamın sayəsində ucaldır və hər bir nöqsanı İslam vasitəsi ilə aradan qaldırır. Hər bir alçaq şəxs İslam sayəsində əzizlənir. Müsəlman olan heç bir şəxs alçaq deyil. Alçaqlıq ancaq cahiliyyət alçaqlığıdır."[1] Əbdülməlik bununla bildirmək istəyirdi ki, İmamın hər bir işi, hətta onun daxili və şəxsi işləri belə onun nəzarəti altındadır. Belə bir şəraitdə qiyam etmək necə mümkün ola bilər? Sanki İmam Səccad (əleyhissəlam) bu acı və dözülməz şəraiti duymuş və öz duasında Allah dərgahına belə buyurmuşdur: *"Nə çox düşmənlər vardır ki, düşmənçilik qılıncını mənə qarşı sivirmiş, qılıncının və nizəsinin ucunu mənə vurmaq üçün itiləmişlər. Məhvedici zəhərlərini mənə içirtmək üçün piyaləyə tökmüş, məni öz oxlarının hədəfi qərar vermiş və pusqu gözləri məni güdmək üçün yatmamışdır. Onlar hazırlaşmışlar ki, öz zərbələrini mənə vurub zəhərlərini mənə içirsinlər.*

*İlahi, çətinliklər və ağır əziyyətlər müqabilində gücsüzlüyümü, mənimlə döyüşmək istəyənin müqabilində acizliyimi, mənimlə düşmənçilik edib məni tora salmaq üçün pusquda olanların çoxluğu qarşısındakı təkliyimi nəzərə alıb mənə kömək etməyə başladın və mənə qüvvət verdin."*[2]

## İki çətin yolayrıcı

Deyilənlərdən belə məlum olur ki, İmam Səccad (əleyhissəlam) Aşura hadisəsindən sonra iki çətin yolayrıcına yetişmişdi: Ya öz dostları arasında həyəcan və etiraz hissi oyatmaqla (bunu İmam Səccad (əleyhissəlam) çox asanlıqla yerinə yetirə bilərdi) çox qəti bir hərəkata əl atıb müxalifət bayrağı ucaldaraq inqilabi bir hadisə yaratmalıydı ki, bu inqilabın da davamlı və nəticəli olması üçün lazımi şəraitin olmaması məcbur edirdi ki, İmam (əleyhissəlam) mübarizədən çəkinsin və meydanı Bəni–Üməyyə üçün azad qoysun. Ya da səthi etirazı, gözəl və ölçüb-biçilmiş tədbirlə cilovlamalı, ilk növbədə öz böyük işinin müqəddiməsini hazırlamalı, yolgöstərici bir fikir və həmçinin, əsas işə başlamaq üçün yaxşı kadrlar (İslam həyatının işini təzələmək, İslam cəmiyyətini və İslam nizam-intizamını yenidən qurmaq kimi işləri) hazırlamalıydı. O, Həzrət həmçinin, qısa bir vaxtda özünün və etibar etdiyi azsaylı dostlarının canını təhlükədən qorumalı, düşmən qarşısında meydandan çəkilməməliydi. Öz həyatı boyu o Həzrət, Bəni–Üməyyə hakimiyyətinin axtarıcı və qorxu yaradan gözündən gizlində qalmalı, bu cəbhədə (yaxşı insanlar tərbiyə etmək və yolgöstərən bir fikir öyrətmək cəbhəsində) amansız, ancaq gizli mübarizəyə məşğul olmalı, sonra da şübhəsiz ki, məqsədə yaxın olan bu yolu davam etdirərək özündən sonrakı İmama çatdırmalıydı. Məlumdur ki, birinci yol fədailər yoludur. Ancaq məsləki uğrunda mübarizə aparan bir rəhbər, özü də elə bir rəhbər ki, onun

[1] Fürui-kafi, c.5, səh.344.
[2] Səhifeyi-Səccadiyyə, 49-cu dua, səh.610.

işinin təsir şüası nə təkcə öz dövrü ilə məhdudlaşır, hətta bütün tarixi əhatə edir və belə bir rəhbərin təkcə fədai olması kifayət etmir. O, eyni zamanda hövsələli, dözümlü, uzaqgörən, gələcəyi fikirləşən və tədbirli də olmalıdır. Bu şəraitin yığılıb toplanması ikinci yolu İmam Səccad (əleyhissəlam) üçün labüd edir.[1]

## Mədinə əhalisinin qiyamı

İmam Səccad əleyhissəlamın Mədinə qiyamçılarına qoşulmamasını da məhz bu cəhətdən araşdırmalıyıq. Mədinə qiyamı hicrətin altımış üçüncü (ya da altımış ikinci) ilində baş verib. Bu qiyam tarixdə Hirrə faciəsi[2] adı ilə tanınmışdır. Bu hadisə İmam Hüseyn əleyhissəlamın şəhadətindən sonra müxtəlif yerlərdə Yezidin hakimiyyətinə qarşı camaatda nifrət oyanmasına səbəb oldu. Peyğəmbər ailəsinin, qohum-əqrəbasının, səhabə və tabeinlərin[3] mərkəzi olan Mədinə şəhəri də cuşa gəlmişdi. Təkəbbür, nadanlıq və təcrübəsizlikdə Yeziddən heç də geri qalmayan Mədinə hakimi Osman ibn Məhəmməd ibn Əbu Süfyan, Yezidin göstərişi ilə[4] Mədinə şəhərinin böyüklərini əhali tərəfindən gənc xəlifə Yezidi yaxından görüb onun mərhəmətindən bəhrələnmək və Mədinəyə qayıtdıqdan sonra camaatı onun hökumətinə tabe olmağa çağırmaq üçün Dəməşqə göndərdi. Yezidin görüşünə gedən Osmanın nümayəndə heyəti Münzir ibn Zübeyr ibn Əvam, Übeydullah ibn Əbu Əmr Məxzumi, və Abdullah ibn Hənzələ Qəsilül-məlaikə və Mədinənin bir neçə başqa adlı-sanlı adamlarından ibarət idi. Yezid nə İslami ədəb-ərkana malik olmadığından və nə də heç olmasa özünün nümayəndə heyətinin yanında ədəbli göstərməyi və ona tövsiyə edən bir müşaviri olmadığından, İslamın zahiri qayda-qanunlarına əməl etmədən nümayəndə heyətinin yanında da şərab içməklə, it oynatmaqla, eyş-işrətlə və cürbəcür çirkin işlərlə məşğul olmağa başladı. Ancaq nümayəndə heyətini öz sarayında çox təntənəli şəkildə qarşıladı, onlara çox hörmətlə yanaşdı və onların hər birinə müxtəlif hədiyyələr və qiyməti əlli, yüz min dinara çatan bahalı xələtlər bağışladı. O, belə güman edirdi ki, nümayəndə heyəti Dəməşqin yaşıl sarayında bu pulları və bu ziyafəti qəbul etməklə Mədinəyə qayıtdıqdan sonra onu tərifləyəcək. Ancaq bu görüş nəinki onun xeyrinə səbəb olmadı, hətta tamamilə əks təsir bağışladı. Nümayəndə heyətinin hamısı Münzir ibn Zübeyr istisna olmaqla (o, Bəsrəyə getdi) Mədinəyə qayıdıb camaatın hüzurunda dedi: "Biz elə bir şəxsin yanından gəlirik ki, onun dini yoxdur, şərab içir, musiqi dinləyir, it oynadır, gözəl səsli qadınlar və xanəndələr onun hüzurunda mahnı oxuyurlar. O, bir dəstə oğru və azğın adamlarla gecələr əyləncə ilə məşğul olur. İndi biz sizi şahid tuturuq ki, biz onu xəlifəlik məqamından kənarlaşdırırıq." Hənzələnin oğlu dedi: "Mən elə bir şəxsin yanından qayıdıram ki, əgər heç kim də mənə kömək etməsə, mən özüm bu bir neçə oğlumu götürüb onunla

---

[1] Doğru rəhbər, səh.24.

[2] Hirrə - səthi vulkan daşları ilə örtülmüş yerə deyilir. Mədinə şəhərinin ətrafı belə xüsusiyyətə malik olduğuna və Şam qoşunu Mədinəyə bu yol ilə nüfuz etdiyinə görə bu döyüş "Hirrə" döyüşü adı ilə tanınmışdır.

[3] Tabein Peyğəmbəri görməyib, lakin Peyğəmbəri görən səhabələri görmüş şəxsə deyilir.

[4] Ənsabül-əşraf, c.4, səh.31.

vuruşmağa gedəcəyəm. O, mənə hədiyyə verib mənimlə hörmətlə rəftar etdi, ancaq mən onun hədiyyəsini yalnız ondan döyüşdə istifadə etmək üçün qəbul etdim."

Bu hadisədən sonra Mədinə camaatı Abdullah ibn Hənzələyə beyət edib Mədinə hakimini və eləcə də, bütün Bəni–Üməyyə tərəfdarlarını şəhərdən qovdular. Bu xəbər Yezidə çatan kimi o, Bəni–Üməyyə hökumətinin yaxınlarından biri olan Müslim ibn Üqbə adlı yaşlı bir kişini Mədinə qiyamını yatırtmaq üçün böyük bir ordu ilə Mədinəyə göndərərək ona dedi: "Onlara üç gün möhlət ver. Əgər təslim olmasalar, onlarla vuruş. Elə ki, qalib gəldin, üç gün müddətində onların nəyi varsa - mal-dövlət, heyvanat, silah, yemək-içmək - hamısını əsgərlərin ixtiyarına burax."

Şam ordusu Mədinəyə hücum etdi. İki tərəf arasında qanlı döyüş baş verdi. Nəhayət qiyamçılar məğlub oldular və qiyama başçılıq edənlər öldürüldülər. Müslim üç gün müddətində əhalinin kütləvi soyqırımı və şəhəri qarət etmək əmrini verdi. Şam ordusu bu üç gün müddətində elə cinayətlər törətdi ki, qələm onları yazmaqdan həya edir. Müslimi törətdiyi bu cinayətlərə görə Müsrif[1] adlandırdılar.

Qırğın və qarət başa çatdıqdan sonra Müslim camaatdan Yezidin qulu kimi beyət aldı.[2]

## Abdullah ibn Zübeyrin rolu

Abdullah ibn Zübeyr zahirən islahedici və mal-dövlət düşgünü idi. O, hicrətin altımışıncı ili İmam Hüseyn (əleyhissəlam) Məkkəyə gəlməzdən bir az qabaq Məkkəyə gəlib orada yaşamağa başlamışdı. Ancaq İmam Hüseyn (əleyhissəlam) Məkkədə olan müddətdə o, meydandan çıxmış və camaatın nəzərindən uzaqlaşmışdı. İmam Hüseyn (əleyhissəlam) şəhid olduqdan sonra meydan onun üçün boşaldı və Yezidə qarşı müxalifətçilik edib özünü xəlifə adlandırdı.

Abdullahın Əli əleyhissəlamın ailəsi ilə arası bir o qədər də, yaxşı deyildi. Onun Cəməl döyüşünü törətməkdə böyük rolu olmuşdur. O, Məkkədə olduğu müddətdə xütbələrin əvvəlində Peyğəmbərə salam göndərməyi qadağan etmişdi. Bunun səbəbini ondan soruşduqda, belə demişdi: "Peyğəmbərin bəzi pis qohumları var. Peyğəmbərin adı gələn kimi onlar başlarını yuxarı tuturlar (təkəbbür edirlər)."[3] Elə bu işlərinə görə də İmam Səccad (əleyhissəlam) onun fitnə-fəsadından nigarançılıq keçirirdi.[4] Bəzi tarixçilərin yazdığına görə Mədinə camaatının qiyamında Abdullah ibn Zübeyrin böyük rolu olmuşdur. O, İmam Hüseyn əleyhissəlamın şəhadətindən sonra iraqlıları danlayıb deyirdi ki, siz İmam əleyhissəlamı dəvət etdiniz, sonra isə ona kömək etmədiniz. Abdullah Yezidi də bərk pisləyir, onu şərabxor, itbaz, azğın adlandırır və camaatı onu xəlifəlikdən salmağa çağırırdı.[5] Tarixçilər həmçinin, qeyd edirlər ki, Mədinə hakimi və Bəni-Üməyyə tərəfdarlarının Mədinədən qovulması da, Abdullahın razılığı ilə olmuşdur.[6]

---

[1] İsrafkar, çox israf edən. Ənsabül-əşraf, səh.30-46.
[2] Əl-Kamilu fit-tarix, c.4, səh.102-103.
[3] Tarixi-Yə'qubi, c.3, səh.8.
[4] Kəşfül-qəmmə fi mə'rifətil-əimmə, c.2, səh.299.
[5] Kəşfül-qəmmə fi mə'rifətil-əimmə, c.2, səh.299.
[6] Mürucuz-zəhəb, səh.69.

## Nə üçün İmam Səccad (əleyhissəlam) Mədinə qiyamçıları ilə həmkarlıq etmədi?

İndi isə İmam Səccad əleyhissəlamın Mədinə qiyamçıları ilə həmkarlıq etməməsinin səbəblərini araşdıraq. İmam Səccad əleyhissəlamın qiyamçılarla həmkarlıq etməməsinin səbəblərini belə xülasə etmək olar:

Vəziyyəti araşdırmaqla və İmam Hüseyn əleyhissəlamın şəhadətindən sonra meydana gəlmiş dəhşətli represiyanı nəzərə almaqla İmam Səccad (əleyhissəlam) Mədinə qiyamının məğlubiyyətini təxmin etmişdi. İmam fikirləşirdi ki, əgər bu qiyama qoşulsa, nə təkcə qalib gəlməyəcək, hətta özü və dostları da, öldürüləcəklər. Axırda da heç bir nəticə olmadan şiənin qalan qüvvəsi də itib batacaq.

Abdullah ibn Zübeyrin keçmiş fəaliyyətlərini və eləcə də, onun qiyamçılar arasındakı nüfuzunu nəzərə almaqla başa düşmək olar ki, bu hərəkat əsl şiə hərəkatı ola bilməzdi. İmam Səccad (əleyhissəlam) istəmirdi ki, hakimiyyət arzusunda olan Abdullah ibn Zübeyr kimi bir şəxs onu qələbə üçün vasitə qərar versin.

Yuxarıda qeyd etdik ki, qiyamçılar Abdullah ibn Hənzələni özlərinə rəhbər təyin etdilər. Bu işdə onlar İmamın rəyini də, heç nəzərə almadılar. Düzdür, qiyamın başçıları yaxşı və pak adamlar idilər və onların Yezidin hakimiyyətinə qarşı çıxışları tamamilə düzgün idi, ancaq məlum olur ki, bu qiyam təmiz şiə hərəkatı olmamış və qələbə çaldığı təqdirdə şiələrin xeyrinə nəticələnəcəyi məlum deyildi. Sanki bu səbəbləri nəzərə alaraq İmam Səccad (əleyhissəlam) əvvəldən qiyamçılara qoşulmadı. Bu məsələ bir tərəfdən, digər tərəfdən də, Kərbəla hadisəsinin ümumi fikirlərdəki nəticəsinin Yezidə baha başa gəldiyi üçün o (Yezid), Müslim ibn Üqbəyə tapşırdı ki, İmam Səccad (əleyhissəlam) ilə heç bir işi olmasın.

## Pənah gətirmişlərin aman yeri

Bəni-Üməyyə və tərəfdarlarını Mədinədən qovarkən Mərvan İmam Səccad əleyhissəlamdan xahiş etdi ki, onun həyat yoldaşı və ailəsi İmamın evində qalsın. İmam Səccad (əleyhissəlam) öz mərhəməti ilə bu xahişi qəbul etdi. Buna görə də, Mədinənin üç gün qarət altında qaldığı müddətdə İmam Səccad əleyhissəlamın evi pənah gətirmişlər üçün yaxşı aman yeri olmuşdu. Dörd yüz qadın öz oğul-uşaqları ilə birlikdə İmamın evində qalmış, İmam Səccad (əleyhissəlam) da çaxnaşma qurtarana qədər onları evində saxlamışdır.

Müslim ibn Üqbə qarət başa çatdıqdan sonra İmam Səccad əleyhissəlamı yanına dəvət etdi. İmam Səccad (əleyhissəlam) onun yanına gəldikdə, Müslim onu öz yanında oturtmuş, onunla hörmətlə rəftar etmiş, sonra da evə qayıtmasına razılıq vermişdir.[1]

## İmam Səccad əleyhissəlamın dövrün zülm və fəsadlarına qarşı mübarizə üsulları

Bəli, İmam Səccad (əleyhissəlam) ikinci yolu seçməklə bir sıra təbliği, tərbiyəvi və irşadi fəaliyyətləri hökumətin heç xəbəri də olmadan həyata keçirməklə qeyri-

[1] Kəşfül-ğümməti fi mə’rifətil əimmə, səh.319.

müstəqil mübarizələrə başladı. Bu fəaliyyətlərin ən mühümlərini aşağıdakı bölmələrdə xülasə etmək olar:

## 1. Aşura xatirəsini əbədi saxlamaq

İmam Hüseyn əleyhissəlamın və onun sadiq dostlarının şəhadəti ümumi fikirlərdə Bəni-Üməyyəyə baha başa gəldiyindən və bu işin şəriliyini sual altına aldığından bu faciəni əbədi yaşatmaq üçün İmam Səccad (əleyhissəlam) öz mənfi mübarizəsini şəhidlərə ağlamaqla davam etdirirdi. Şübhə yoxdur ki, bu yandırıcı göz yaşlarının və ürəkyandıran ağlamaqların bir məhəbbət kökü vardır. Çünki Kərbəla faciəsinin müsibəti o qədər böyük və ürəkağrıdan idi ki, o faciəni öz gözləri ilə görən şəxslər nə qədər ki, sağ idilər, onu yaddan çıxarmazdılar. Ancaq şübhəsiz ki, İmam Səccad əleyhissəlamın bu hadisəyə münasibətinin bir siyasi təsir və nəticəsi var idi. Aşura hadisəsinin tez-tez təkrarlanması Əməvi hökumətinin zülmlərini yaddan çıxmağa qoymurdu. İmam Səccad (əleyhissəlam) su içmək istəyərkən gözü suya sataşdıqda, gözlərindən yaş süzülməyə başlayırdı. Bunun səbəbini soruşanda, buyurardı: "(Yezidin adamları) suyu vəhşi və yırtıcı heyvanlar üçün azad qoyub atamın üzünə bağladıqları (və onu susuz qoyduqları) bir halda, mən necə ağlamayım?" İmam Səccad (əleyhissəlam) buyurardı: "Fatimənin (əleyhassəlam) balalarının ölümü yadıma düşərkən qəhər məni boğur."

Bir gün İmam Səccad əleyhissəlamın xadimi deyir: "Sizin qəm-qüssəniz qurtarmaq bilmir?" İmam Səccad (əleyhissəlam) buyurdu: "Vay olsun sənə! On iki oğlundan biri itmiş Yəqub Peyğəmbər öz oğlunun ayrılığına o qədər ağladı ki, gözləri kor oldu, qəm-qüssənin çoxluğundan beli büküldü. Halbuki, oğlu sağ idi. (Onu tapacağından hələ tam ümidini kəsməmişdi.) Ancaq mən bədənləri bir-birinin yanında yerə düşmüş atamın, qardaşımın, əmimin və on yeddi nəfər qohum-əqrəbamın öldürülməsini öz gözlərimlə gördüm. Bu halda heç mənim qəm-qüssəm qurtararmı?"[1]

Misirin adlı-sanlı adamlarından biri olan Səhl ibn Şüeyb deyir: "Bir gün İmam Səccad əleyhissəlamın hüzuruna gedib dedim: "Kefiniz necədir?" Buyurdu: "Mən bilməzdim ki, Misirdən olan sizin kimi böyük bir şəxs mənim halımın necəliyini bilməsin? İndi ki bizim halımızı bilmirsən, sənin üçün izah edərəm. Bizim öz tayfamız arasında vəziyyətimiz Bəni-İsrailin oğullarını öldürüb qızlarını diri saxlayan fironların arasındakı vəziyyətə bənzəyir. Bu gün bizim vəziyyətimiz o qədər ağır və çıxılmazdır ki, camaat minbər başında oturub bizim əzizimizi söyərək düşmənlərimizlə dostluq edirlər."[2]

## 2. Ümmətə nəsihət

İmam Səccad (əleyhissəlam) diktatura mühitində yaşadığı üçün öz fikirlərini camaata açıq-aşkar deyə bilmirdi. Buna görə də, moizə yolundan istifadə edirdi. O Həzrət camaatı moizə yolu ilə düzgün İslami fikirlərlə tanış edir, zaman keçdikcə zalım hakimlərin təbliğləri nəticəsində unudulmuş, yaxud təhrif edilmiş İslami fikirləri əvvəlki və əsl halına qaytarır və camaatı bacardığı qədər İslam təlimləri ilə

---

[1] Biharül-ənvar, c.46, səh.108. Əl-bidayətu vən-nihayə, c.9, səh107.

[2] Ət-Təbəqatül-kübra, c.5, səh.220.

tanış edirdi. Bu moizələri araşdırdıqda görürük ki, İmam Səccad (əleyhissəlam) çox hikmətli yolla və zirəkcəsinə camaata moizə və nəsihət etməklə yanaşı, onlara demək istədiyi şeyi də çatdırırdı. Bu da o dövrdə əsl İslami fikirləri camaata çatdırmağın ən gözəl yolu idi. Çünki bu məsələlər siyasi nəticə daşımasına və hakimiyyət əleyhinə olduğuna baxmayaraq hakimiyyətin nəzərini qətiyyən özünə cəlb etmirdi. İmam eyni zamanda "İmamət" məsələsinin həqiqətini, yəni, İslam hökumətinin məsum İmam tərəfindən idarə edilməsini açıqlayır və camaatı o dövrün gündəlik məsələlərindən, münafiq, fasiq, zalım və kafirlərin zor gücünə hakimiyyət başına gəldiklərindən xəbərdar edirdi. Camaata başa salırdı ki, Əbdülməlik kimi adamın hakimiyyəti İslam istəyən hakimiyyət deyil. Bu mövzunun əhəmiyyəti onda idi ki, nə qədər ki, camaat bu məsələdən xəbərdar olmayıb zaman keçdikcə beyinlərində yaranmış kələkbazlıqlara inam və süstlük aradan getməyibsə, hazırkı vəziyyəti dəyişib əsl İslam istəyən hökuməti yaratmaq mümkün deyildi.

Qeyd etdiyimiz bu məsələlərə ən yaxşı şahid ola bilən İmam Səccad əleyhissəlamın çıxışlarından biri o Həzrətin Peyğəmbərin müqəddəs məzarı kənarında öz səhabələri üçün buyurduğu xütbədir. Tarixçilər yekdilliklə qeyd edirlər ki, İmam Səccad (əleyhissəlam) hər cümə günü bu xütbəni buyurarmış. İndi həmin xütbənin bəzi hissələrini oxucuların nəzərinə çatdırırıq:

"Camaat, təqvalı olun və bilin ki, Allahın hüzuruna qayıdacaqsınız. O gün (Qiyamət günü) hər kəs öz gördüyü əməllərin, istər yaxşı, istərsə də pis öz yanında hazır olduğunu görüb pis əməlləri ilə öz arasında uzaq məsafə olmasını arzulayacaq... Qəbirdə Nəkir və Münkirin ilk soruşacağı şey ibadət etdiyin Allah, sənin üçün göndərilmiş Peyğəmbər, itaət etdiyin din, qəbul etdiyin İmam olacaqdır."[1]

Bu xütbədə bir neçə şey diqqəti cəlb edir:

Bu xütbənin hər cümə günü təkrar olunması onun əhəmiyyətini və İmamın bu məsələyə münasibətini bildirir.

İmamın öz sözünə "camaat" ifadəsi ilə başlamasından məlum olur ki, bu xütbədə İmam Səccad (əleyhissəlam) təkcə şiələrə və xüsusi dostlarına deyil, bütün insanlara xitab edir.

İmam söhbəti əsnasında istər aşkara, istərsə də işarə ilə Quranın müxtəlif ayələrinə istinad və istidlal etmişdir. Bunun da səbəbi odur ki, burada İmamın tərəf müqabili ümumi camaat olmuş, ümumi camaatın hamısı da o Həzrətə İmam gözü ilə baxmamışdır. Buna görə də, İmam (əleyhissəlam) öz sözlərini sübuta yetirmək üçün Quran ayələrindən istifadə etmişdir. Ancaq İmamın tərəf müqabili təkcə şiələr olanda, o Həzrət öz sözlərini sübut etmək üçün Quran ayələrinə istinad etməyə ehtiyac duymurdu.[2]

[1] Tühəfül-üqul, səh.249.
[2] İmam Səccad əleyhissəlamın həyatı barədə araşdırma, səh.36-38.

## Tələbələr yetişdirmək

İmam Səccad əleyhissəlamın bəyanatlarından başqa bir nümunəsi, o Həzrətin ən yaxşı və ən yaxın dostlarından olan Əbu Həmzə Sumalinin rəvayət etdiyi moizədir. Bu moizə nisbətən genişdir. Onun mətnindən məlum olur ki, İmam (əleyhissəlam) onu şiələrin və xüsusi dostlarının yanında söyləmişdir. İmam moizdə buyurur: *"Allah biz və sizi zalımların hiyləsindən, paxılların zülmündən və yağıların zorakılığındın qorusun! Ey möminlər! Dünya dalınca olan, ürəklərini dünyaya bağlayan, dünyaya qəlbən bağlanan, onun dəyərsiz və gəlib-gedər nemətlərinə aldanan şeytanlar sizi aldatmasın... Canıma and olsun, keçmiş günlərdə bir sıra hadisələri arxada qoydunuz və fitnə-fəsaddan uzaq oldunuz. Daima azğın və bidətçilərdən uzaqlaşırdınız. İndi də, Allahdan kömək istəyin və Allaha, indiki hakimlərdən ləyaqətli olan Allah hüccətinə tərəf qayıdın.*

*...Allahın qanununu, Allah itaətlərini vacib edən şəxslərə (İmamlardan) itaət etməyi hər şeydən üstün tutun. Dünyaya aldanıb ona aşiq olan şeytanların itaətini heç vaxt Allah və İlahi hüccətlərin itaətindən üstün tutmayın... Günahkar və azğın adamlarla oturub-durmayın, zalımlarla həmkarlıq etməyin, fasiqlərlə əlaqədə olmayın və onların fitnə-fəsadından uzaq olun. Onlardan uzaqlaşın və bilin ki, Allah övliyaları ilə müxalifətçilik edən, Allahın dinindən başqa dinə itaət edən və İlahi hüccətlərə qarşı özbaşınalıq edən şəxs Cəhənnəmdə şölələnmiş alovla üzləşməli olacaq..."*[1]

## Ümmətin əxlaqının tənəzzülə uğraması

Əbdülməlik və oğlu Vəlidin hakimiyyəti dövründə camaatın əxlaqi səviyyəsinin tənəzzülə uğramasını və İslam təlim-tərbiyəsinin kölgədə qalmasını nəzərə aldıqda, İmam Səccad əleyhissəlamın bu nəsihət və moizələrinin əhəmiyyətini görərik.

Məlumdur ki, təxminən hicrətin otuzuncu ilindən (Osmanın hakimiyyət dövrünün ikinci yarısından) başlayaraq cəmiyyət arasında iqtisadi pozğunluq və əxlaq səviyyəsinin tənəzzülü genişlənməyə başlamış, dövlət xəzinəsindən çoxlu gəliri olan Qüreyş əyan-əşrafı dövrün hakimlərinin bəxşişlərindən istifadə edərək mal-dövlət yığmağa başlamışdılar. Beləliklə də, İslam cəmiyyətində rifahtələblik və sərvət yığımı adət oldu. Varlılar çoxlu mal-qara, arpa-buğda toplayıb, çoxlu qulam nökər və kənizlər, xüsusilə də, gözəlsəsli xanəndə və məclisi zinətləndirən kənizlər xalqın digər təbəqələri arasında da yayıldı. Bu əxlaqi tənəzzül Yezidin hakimiyyəti dövründə öz kuliminasiya nöqtəsinə çatdı. Belə ki, müqəddəs şəhərlər sayılan Məkkə və Mədinə də bu əxlaqi tənəzzüldən geri qalmadı. Məsudi yazır: "Yezidin pozğunçuluğu onun hakimlərinə və ətrafındakılara da keçdi. Onun dövründə Məkkə və Mədinədə oxuyub-çalmaq meydana çıxdı, kef məclisləri quruldu və camaat açıq-açığına şərab içməyə başladılar."[2] Bu vəziyyət Əbdülməlikin dövründə də davam etdi. Belə ki, Şövqi Dayf Məkkə və Mədinə şəhərlərində rifah və əyan-əşraflığın geniş yayılmasını qeyd etdikdən sonra əlavə edir: "Sanki Hicazın bu iki böyük şəhərini xanəndələr üçün

---

[1] Tühəfül-üqul, səh.252.

[2] Mürucuz-zəhəb, c.3, səh.67.

yaratmışlar. İş o yerə çatmışdı ki, nə təkcə adi və avam adamlar, hətta zahid və alimlər də xanəndələrin məclisinə tələsirdilər."[1]

Qazı Əbu Yusif Mədinənin bəzi əhalisinə deyirdi: "Ey Mədinə camaatı! Sizin işiniz bu cür xanəndəliklərlə çox təəccüblüdür. Çünki sizdən heç kim, istər hörmətlisi, istərsə də qeyri-hörmətlisi bundan çəkinmir."[2] Mədinə şəhərinin mühiti elə olmuşdu ki, nə alimlər musiqini qadağan edirdilər, nə də abidlər onun qarşısını alırdılar.[3]

Bir gün Dəhman adlı bir müğənni bir nəfər mədinəli ilə bir iraqlı arasında olan mübahisədə Mədinə qazısı Əbdüləziz Məxzuminin yanına gəlib mədinəlinin xeyrinə şahid durdu. Qazı onu adil şəxs kimi tanıyıb şahidliyini qəbul etdi. İraqlı şəxs qazıya dedi: "Bu ki Dəhmandır!" Əbdüləziz dedi: "Tanıyıram, tanımasaydım kim olduğunu soruşardım." İraqlı şəxs dedi: "O, xanəndədir, mahnı ilə məşğul olur və kənizlərə mahnı öyrədir!" Qazı dedi: "Allah məni və sizi bağışlasın, bizdən hansı birimiz mahnı əhli deyilik? Get kişinin haqqını ver."[4]

Mədinədə rəqs və mahnı məclisləri qadınlarla kişilər arasında heç bir pərdə olmadan qarışıq şəkildə qurulurdu.[5]

Təlhənin qızı Aişə kişili-arvadlı musiqi məclisləri təşkil edir və orada İzzətül-meyla adlı müğənni mahnı oxuyardı.[6]

İş o yerə çatmışdı ki, o dövrün ən tanınmış xanəndələrindən olan Cəmilə adlı bir qadın Məkkəyə səfər edərkən yol boyu onu qarşılamağa o qədər adam çıxmışdı ki, heç bir müfti, alim, hədisçi, təfsirçi, qazı və zahidi qarşılamağa o qədər adam çıxmazdı. Bu səfərin dastanını belə yazırlar: "Cəmilə həcc ziyarəti məqsədi ilə Məkkəyə hərəkət edərkən o dövrün tanınmış kişi xanəndələrindən Həyit, Tüvyes, Dəllal, Bərdulfuad, Nəvmətuz-zuha, Rəfnəd, Rəhmət, Hibətullah, Mubid, Malik, ibn Aişə, Nafi ibn Tunburə, Budeyhulməlih və Nafiul-xeyr (bəziləri onların sayını otuz nəfər qeyd etmişlər), xanəndə qadınlardan isə Fərihə, İzzətül-meyla, Həbbabə, Səllamə, Hulidə, Uqilə, Şummasiyə, Firə, Bülbülə, Ləzzətül-eyş, Suidə və Zərqa onu müşaiyət etmişlər. Cəmilənin karvanı Məkkəyə yaxınlaşdıqda, onları bir dəstə Məkkə əyan-əşrafı və başqa adamlar böyük sevinc içərisində qarşıladılar. Mədinəyə qayıtdıqda da, şəhər əhalisi tərəfindən qarşılandı. Bu vaxt elə hay-küy düşmüşdü ki, Mədinə camaatı qapılarının ağzında dayanıb bu hadisəyə tamaşa edirdi.[7]

Bu dastan o dövrün Mədinə əhalisi arasında əxlaq tənəzzülünün bir hissəsinin göstəricisidir. Bu səfər zamanı Cəmiləni müşayiət etmiş şəxslər öz dövrlərinin məşhur müğənnilərindən olub bütün aləmə səs salmışdılar. İndi təsəvvür etsək ki, onların hər birinin bir neçə şagirdi olmuş və eləcə də, bəzi xanəndə və rəqqasələrin Cəmiləni müşayiət etməyib şəhərdə qalma ehtimalını inkar etməsək, elə bir rəqəm alınacaq ki, ona inanmaq adama bir az çətin gəlir. Müsəlmanların qibləgahı və İslam

[1] Tarixül-ədəbil-ərəbi, c.2, səh.347.
[2] Əl-Əqdül-fərid, c.6, səh.11.
[3] Əl-Əğani, c.8, səh.225.
[4] Əl-Əğani, c.6, səh.21.
[5] İmam Səccad əleyhissəlamın həyatı, c.2, səh.410.
[6] İmam Səccad əleyhissəlamın həyatı, c.2, səh.411.
[7] Əl-Əğani, c.8, səh. 208-210.

hökumətinin təsisçisi olan şəhərdə vəziyyət belə olarsa, Dəməşq, Bəsrə və digər böyük şəhərlərin vəziyyətinin necə olduğunu təxmin etmək olar.[1]

## Əhkamı bəyan etməyin və əsl İslam mədəniyyətini yaymağın labüdlüyü

Bu acınacaqlı vəziyyətlə yanaşı camaatın İslam təlim-tərbiyəsindən xəbərsiz olduğunu və bidətlərin yayılmasını nəzərə aldıqda, faciənin böyüklüyü daha da aydın olur. Bu zaman yaxşı başa düşəcəyik ki, İmam Səccad (əleyhissəlam) cəmiyyətin bu dərdini başa düşmüş və onları nəsihət və moizə yolu ilə oyadırdı. İndi isə sizin diqqətinizi İslam təlim-tərbiyəsinin kənarda qalmasına və camaatın İslami vəzifələrdən xəbərsiz qalıb bidətlərlə ünsiyyətdə olmasına dair nümunələrə cəlb edirik:

Bəzi alimlərin dediyinə görə İmam Səccad əleyhissəlamın dövründə Bəni-Haşimdə elə şəxslər var idi ki, namaz qılmağın, həcc ziyarətinin əməllərini bilmirdilər. Ümumiyyətlə, şiələr dini əhkam sahəsində ancaq onun-bunun ağzından eşitdiklərini bilirdilər.[2]

İslamın əsası olan, hər müsəlmana gecə-gündüz qılınması beş dəfə vacib olan namaz kimi bir əməlin bu sahədə hamıdan çox bilməsi lazım olan Bəni-Haşim qəbiləsi bu vəziyyətdə idisə, indi gör başqa şəhər və məntəqələrin adi müsəlmanlarının dini agahlığı nə dərəcədə idi.

Tanınmış səhabələrdən olan Ənəs ibn Malik deyirdi: “Peyğəmbər zamanında icra olunan şeylərin heç birindən indi sorağ yoxdur.” Dedilər: “Bəs namaz nədir?” Dedi: “Bəs namazın başına gətirdiyiniz nə idi?”[3]

Hicrətin səksən yeddinci ilində Vəlid ibn Əbdülməlikin hakimiyyəti dövründə Mədinə hakimi Ömər ibn Əbdüləziz hacıların dəstə rəhbəri kimi həccə getdi, ancaq Qurban bayramının qaydasını düzgün yerinə yetirə bilmədi.[4]

Məhəmməd ibn Müslim ibn Şəhab Zühəri deyir: “Dəməşqdə Ənəs ibn Malikin yanına gedəndə gördük ki, tək oturub ağlayır. Ağlamasının səbəbini soruşduqda, dedi: “İslam qayda-qanunlarından öyrəndiklərimdən təkcə bu namaz qalıbdır, onu da zay ediblər.”

Ənəs ibn Malikin dövründən bir az sonra Həsən Bəsri deyirdi: “Əgər Peyğəmbər (səlləllahu əleyhi və alih) sizin aranıza qayıtsa, sizə öyrətdiyi şeylərin içindən qiblənizdən başqa heç bir şeyi tanımayacaq.”[5]

Ümmü Dərda deyir: Bir gün Əbu Dərda evə çox qəzəbli halda gəldi. Ondan soruşdum ki, niyə belə narahatsan? O dedi: Allaha and olsun, Məhəmmədin dinindən bu xalqın arasında namaz qılmaqdan başqa bir şey qalmayıbdır![6]

---

[1] İmam Səccad əleyhissəlamın həyatı.

[2] Dərasatun və bühusun fit-tarixi vəl-İslam, c.1, səh.56.

[3] Züha əl-İslam, c. 1, səh. 365. (Buxari və Tirmizidən nəql edərək)

[4] Tarixül-xüləfa, səh.224.

[5] Cameu bəyanil-elmi və fəzlihi (Qurtəbi), c. 2, səh. 200.

[6] Əl-e`tisam (İbrahim Şatibi), c. 1, səh. 26. O, buna oxşar əlavə nümunələr də gətirmişdir.

## 3. Dua qalibində maarifin bəyanı

İmam Səccad əleyhissəlamın təbliğ və mübarizə metodlarından biri də İslam maarifini dua şəklində bəyan etmək idi. Bildiyimiz kimi dua insanla Allah arasında çox mühüm və tərbiyəvi təsir bağışlayan bir vasitədir. Bu baxımdan duanın İslam nöqteyi-nəzərindən xüsusi yeri vardır. Peyğəmbər (səlləllahu əleyhi və alih) və məsum İmamlardan bizə yetişmiş duaları bir yerə yığsaq, böyük bir toplu (dua ensiklopediyası) əmələ gələr. Bu dualar böyük tərbiyə məktəbi olub insanın ruhi qidasında böyük rol oynayır.

## Səhifeyi-Səccadiyyə

İmam Səccad əleyhissəlamın dövrü dikdatura mühitinə təsadüf etdiyi üçün o Həzrət öz fikir və məqsədlərinin çoxunu dua və münacat şəklində camaata çatdırırdı. İmam Səccad əleyhissəlamın dualar toplusu Səhifeyi-Səccadiyyə adlanır. Bu kitab Quran və Nəhcül-bəlağədən sonra ən böyük və ən mühüm İlahi maarif xəzinəsi sayılır. Belə ki, hələ qədim dövrlərdən bizim görkəmli alimlərimiz ona "Uxtul-Quran"[1] (Quranın bacısı), "İncilu-Əhli-beyt" (Əhli-beytin İncili) və "Zəburi-Ali-Məhəmməd (s)" (Məhəmməd (s) ailəsinin Zəburu) ləqəblərini vermişlər.[2]

Səhifeyi-Səccadiyyə təkcə Allahın dərgahına dua etmək və hacət istəməkdən ibarət deyil. Bu kitab eyni zamanda islami elmlər və maarif dəryasıdır. Onun içində əqidəvi, mədəni, ictimai, siyasi və bir sıra təbiət və şəriət qayda-qanunları vardır ki, dua şəklində bəyan olunmuşdur. Hicri-qəməri tarixi ilə 1353-cü ildə (altımış yeddi il bundan qabaq) mərcəi-təqlid mərhum Ayətullah əl-üzma Mərəşi Nəcəfi "Səhifeyi-Səccadiyyə"nin bir nüsxəsini özünün müasiri olan, "Təntavi" təfsirinin müəllifi və İskəndəriyyə müftisinə hədiyyə göndərir. İskəndəriyyə müftisi bu qiymətli hədiyyəni aldıqdan sonra buna görə çoxlu təşəkkür etmiş və Ayətullah əl-üzma Mərəşi Nəcəfinin cavabında yazmışdı: "Bu bizim bədbəxtliyimizdəndir ki, bu vaxta qədər nübüvvət irsindən olan belə bir əbədi və qiymətli əsərdən xəbərsiz qalmışıq. Mən nə qədər ona baxıram, onu bəşər kəlamından üstün, Tanrı kəlamından isə aşağı görürəm."[3]

Səhifeyi-Səccadiyyənin misilsiz etibar və əhəmiyyətinə görə İslam tarixi boyu ona ərəb və fars dillərində çoxlu şərh yazılmışdır.

Mərhum Şeyx Ağabüzürg Tehrani çox qiymətli "Əz-Zəriətu ila təsanifiş-şiə" kitabında Səhifeyi-Səccadiyyəyə yazılmış əlli şərhin (tərcümələrdən başqa) adını çəkmişdir.[4] Bu şərhlərdən əlavə, keçmiş və müasir alimlərin bir dəstəsi bu kitabı dəfələrlə ayrı-ayrılıqda tərcümə etmiş və onların bir çoxu son illərdə nəşr edilmişdir.

Səhifeyi-Səccadiyyə əlli dörd duadan ibarətdir. Onların mündəricatı aşağıdakı şəkildədir:

**1.** Allaha sitayiş;

**2.** Məhəmməd (səlləllahu əleyhi və alih) və onun ailəsinə salam;

---

[1] Əz-Zəriətu ila təsanifiş-şiə, c.15,səh.18.

[2] Riyazus-salikin, səh.4-5.

[3] Səhifeyi-Səccadiyyənin tərcüməsi (Mütərcim: Seyyid Sədrəddin Sədr Bəlaği, Müqəddimə, səh.37)

[4] Əz-Zəriətu ila təsanifiş-şiə, c.13, səh.345-359.

**3.** Asimanı daşıyan mələklərə salam;
**4.** Peyğəmbərlərin ardıcılları üçün rəhmət istəmək;
**5.** İmam Səccad əleyhissəlamın özü və dostları üçün duası;
**6.** Səhər və axşam vaxtı dua;
**7.** O Həzrətin çətinliklər, mühüm hadisələr və qəm-qüssə vaxtında oxuduğu dua;
**8.** Pis və bəyənilməz işlərdə Allaha pənah aparmaq barədə dua;
**9.** Bağışlanmaq üçün dua;
**10.** Allah dərgahına pənah aparmaq üçün dua;
**11.** Aqibətin yaxşı nəticələnməsi üçün dua;
**12.** Günahlara etiraf və tövbə etmək üçün dua;
**13.** Hacətlərin istənilməsi üçün dua;
**14.** Zalımlardan şikayət, zülm olunan zaman, yaxud zalımlardan xoşuna gəlmədiyi iş gördüyü zaman oxuduğu dua;
**15.** Xəstəlik, çətinlik və kədər irəli çıxan zaman oxuduğu dua;
**16.** Günah və eyblərin bağışlanması üçün dua;
**17.** Şeytan şərrini dəf etmək və onun hiylə və düşmənçiliyindən Allaha pənah aparmaq üçün dua;
**18.** Xətər sovuşduqdan və hacətin tez qəbul olmasından sonra oxuduğu dua;
**19.** Quraqlıq vaxtı yağış yağması üçün oxunan dua;
**20.** Gözəl və bəyənilmiş əxlaq üçün oxunan dua
**21.** Qəm-qüssə vaxtı oxunan dua;
**22.** Çətinlik və müşkülat zamanı oxunan dua;
**23.** Sağlamlıq (təmizlik) istəmək və onun üçün şükr etmək barədə dua;
**24.** O Həzrətin ata-anası üçün duası;
**25.** Öz övladları barədə dua;
**26.** Qonşu və dostları barədə dua;
**27.** İslam ölkəsinin sərhədçiləri üçün dua;
**28.** Allaha pənah aparmaq barədə dua;
**29.** Ruzinin azaldığı zaman oxunan dua;
**30.** Borcun ödənilməsi üçün Allahdan kömək istəmək barədə dua;
**31.** Tövbə etmək və tövbə zikri barədə dua;
**32.** Gecə namazından sonra oxunan dua;
**33.** Xeyir istəmək barədə dua;
**34.** Çətinlik zamanı və günah rüsvayçılığına giriftar olmuş şəxsi görərkən oxunan dua;
**35.** Dünya əhlini görən zaman razılıq etmək üçün dua;
**36.** Göy gurultusu eşitdikdə, bulud və şimşək gördükdə oxunan dua;
**37.** Allahın nemətlərinin şükrünü yerinə yetirməyin mümkün olmadığını etiraf etmək barədə dua;
**38.** Bəndələrin hüquqlarını yerinə yetirərkən naqislik olunan zaman oxunan dua;
**39.** Əfv və rəhmət istəyərkən oxunan dua;
**40.** Kiminsə ölümündən xəbərdar olduqda, yaxud ölümü yad edərkən oxunan dua;
**41.** Günah qarşısına pərdə çəkilməsini istəmək üçün dua;
**42.** Quranı xətm edərkən oxunan dua;

**43.** Təzə çıxmış ayı gördükdə və ona baxarkən oxunan dua;
**44.** Ramazan ayının əvvəlinin duası;
**45.** Ramazan ayı ilə vidalaşarkən oxunan dua;
**46.** Fitr bayramı və cümə günləri oxunan dua;
**47.** Ərəfə günü oxunan dua;
**48.** Qurban bayramı və cümə günləri oxunan dua;
**49.** Düşmənlərin hiyləsini dəf etmək üçün oxunan dua;
**50.** Allahdan qorxmaq barədə oxunan dua;
**51.** Ağlamaq və sızıldamaq barədə oxunan dua;
**52.** Allahdan xahiş etməkdə israr barədə oxunan dua;
**53.** Allah qarşısında kiçiklik üçün oxunan dua;
**54.** Qəm-qüssənin çəkilməsi üçün oxunan dua.

## Səhifeyi-Səccadiyyənin siyasi cəhətləri

Qeyd etdik ki, Səhifeyi-Səccadiyyə təkcə dua, münacat və Allahdan hacət istəməkdən ibarət deyil. Eyni zamanda, onda siyasi, ictimai, mədəni və əqidəvi məsələlər də vardır. İmam Səccad (əleyhissəlam) öz duaları əsnasında dəfələrlə siyasi məsələlərə, xüsusilə də, İmamət və İslam cəmiyyətinin rəhbərliyi məsələsinə toxunmuşdur. İndi onlardan bəzi nümunələri sizin nəzərinizə çatdırırıq:

**1)** İmam Səccad (əleyhissəlam) (Məkarimül-əxlaq duasının) iyirminci duasında buyurur: *"İlahi, Məhəmməd (səlləllahu əleyhi və alih) və Ali-Məhəmmədə salam göndər, mənə mənə əl (qüvvə) ilə zülm edənə qarşı, mənimlə dil (sübut dili) ilə mübarizə aparana qarşı, mənimlə düşmənçilik və inadkarlıq edənə qarşı mənə qələbə ata et! Mənə qarşı hiylə işlədənə və fırıldaqçılıq edənə qarşı mənə tədbir, mənə təzyiq edənə qarşı mənə qüvvə, məndə səhv tutan və məni söyənlərə qarşı mənə təkzib qüdrəti və mənə düşmənlərin qorxu təhlükəsi qarşısında əmniyyət əta et..."*

İmam Səccad (əleyhissəlam) Əbdülməlikin Hişam ibn İsmayıl Məxzumi (Mədinənin hakimi) kimi nümayəndələrinin zülm, inad, bədgümanlıq, hədə-qorxu və təzyiqlərinə məruz qalmamışdımı? Buna əsasən, İmam Səccad əleyhissəlamın bu duası öz dövrünün hökumətinin zülmlərinə qarşı bir şikayət olmuş və bu baxımdan da siyasi xarakter daşımışdır.

**2)** İmam Səccad əleyhissəlamın Qurban bayramı günü və eləcə də, hər cümə günləri oxuduğu duada deyilir: *"...İlahi, bu məqam (Qurban bayramının, cümə gününün namazı və xütbələri, onun vəzifəsi olan bu hakimiyyət və ümmətin rəhbərlik məqamı) Sənin seçilmiş bəndələrinə və canişinlərinə məxsusdur. Bu rütbələr Sənin onları çox yüksək mərtəbədə qərar verdiyin əmin bəndələrinə məxsus olub, ancaq zalımlar (zalım Əməvi xəlifələri) onu güclə qəsb edib ona sahib çıxmışlar... İş o yerə çatıb ki, Sənin xəlifələrin (biz İmamlar) məğlub olmuşlar. Onlar Sənin əhkamının dəyişilməsini, Sənin kitabının əməl meydanından uzaq düşdüyünü, vacib əməllərin təhriflərə məruz qaldığını, Peyğəmbər sünnəsinin tərk olunduğunu öz gözləri ilə görürlər.*

*İlahi, Sənin seçilmiş bəndələrinin düşmənlərinə, əvvəldən axıra kimi, eləcə də onların ardıcılları və onların işlərinə razı olanlara lənət olsun, onları Öz rəhmətindən uzaqlaşdır..."*

Bu duada İmam Səccad (əleyhissəlam) Peyğəmbər ailəsinə məxsus olan İmamət məsələsindən və onun zalımlar tərəfindən qəsb edilməsindən açıq-aşkar söhbət etmiş, bununla da, Bəni-Üməyyə hökumətinin qeyri-şəri hökumət olduğunu bəyan etmişdir.

İmam Səccad (əleyhissəlam) Ərəfə gününün duasında buyurur: *"İlahi, camaata rəhbərlik etmək və Sənin əmrlərini yerinə yetirmək üçün seçdiyin, onları Sənin elm xəzinədarların və dininin gözətçiləri təyin etdiyin Peyğəmbər ailəsinin ən pak adamlarına salam göndər! Sən onları bəndələrə Öz hüccətin təyin edib onları Öz istəyinə əsasən bütün çirkinliklərdən təmiz etdin və onları Səninlə vasitə və Öz Cənnətinin yolu qərar verdin... İlahi, Sən hər bir vaxt Öz dinini bir İmam vasitəsi ilə qoruyub saxlamısan, O İmamı qeybi əlaqə vasitəsi ilə Özünlə əlaqədə saxladıqdan, onu Öz Rizayətinə vasitə qərar verdikdən, ona itaət etməyi vacib etdikdən, ona asi olmağı nəhy etdikdən, onun əmr və qadağalarına itaət etməyi əmr etdikdən, hamının ona itaət etməsini vacib bilib heç kəsi onun itaətindən çıxmamasını əmr etdikdən sonra onu bəndələrinə rəhbər və bayraqdar, dünyada hidayət məşəli qərar verdin..."*

İmam Səccad (əleyhissəlam) bu duada da, Peyğəmbər ailəsindən olan İlahi rəhbər və İmamların xüsusi mövqe və üstünlüklərindən söhbət etmişdir. Bu da şübhəsiz ki, dövrün hakimiyyətinin qeyri-şəri olduğunu bildirir.

## 4. Saray alimləri ilə mübarizə

İmamların həyatının ən maraqlı, ən əhəmiyyətli bölmələrindən biri onların öz dövrlərinin İslam cəmiyyəti arasındakı ləyaqətsiz, düşüncə və mədəniyyətdən uzaq olan başbilənlər, yəni, saray fəqihi, hədisçi, təfsirçi, qari və qazıları ilə mübarizələri olmuşdur. Bunlar camaatın fikir və düşüncələrini zalım hakimlərin xeyrinə cəlb edir, onları Bəni–Üməyyə və Bəni–Abbas xəlifələrinin cəmiyyətdə təyin etdikləri hakimiyyətə yönəldir, onları bu vəziyyətə tabe edərək zalım hakimlərin hakimiyyəti üçün fikri və zehni zəmin yaradırdılar. İmam Səccad əleyhissəlamın siyasi həyatındakı bu cür mübarizələrdən bir nümunəsi o Həzrətin saray hədisçisi olan Məhəmməd ibn Müslimi Zühri (58-124 h.q) ilə mübarizəsidir.

## Zühri kimdir?

Zühri o dövrün tabein (peyğəmbərin özünü yox, səhabələrini görmüş şəxs) fəqih və böyük hədisçilərindən biri idi. O, öz dövründə yaşamış sünni məzhəbinin "yeddi fəqih"[1] indən olub onların biliyini kamil əldə etmiş, on səhabəni görməyə müvəffəq olmuşdur. Belə ki, böyük şəxsiyyətlərin bir dəstəsi ondan hədis və fiqh (şəri məsələlər) rəvayət etmişlər.[2]

Zühri belə sabiqəsi nəticəsində öz dövrünün elmi və fiqhi məclislərində böyük şöhrət qazanmışdı. Belə ki, onu aşağıdakı ifadələrlə xatırladırdılar: Malik ibn Ənəs demişdir: "Mədinədə bir nəfərdən başqa hədisçi və fəqih görmədim. O da İbn Şəhab

[1] Məhəmməd ibn Sə`din qeydlərinə əsasən digər altı fəqih bunlardan ibarətdir: 1. Səid ibn Müsəyyib. 2. Süleyman ibn Yəsar. 3. Əkrəmə (ibn Abbasın azad etdiyi şəxs). 4. Əbu Bəkr ibn Əbdürrəhman. 5. Əta ibn Əli Ribah. 6. Ürvə ibn Zübeyr. "Təbəqatül-kübra", c. 2, s. 379-387.

[2] Səfinətül-bihar, c.1, səh.573.

Zührüdir."[1] Yaxud: "Məkhula dedilər ki, indiyədək gördüyün ən savadlı şəxs kimdir?" Dedi: "Zühri." Dedilər: "Ondan sonra?" Dedi: "Zühri." Yenə dedilər: Ondan sonra? Cavab verdi: "Zühri."[2] Bununla belə, Zühri İmam Səccad əleyhissəlamın elm, zöhd, təqva əzmətinin heyranı, o Həzrətin mənəvi məqamının vurğunu idi. Zühri deyirdi: "Qüreyşdə Əli ibn Hüseyn əleyhissəlamdan (İmam Səccaddan) təqvalı və üstün bir şəxs görmədim." Həmçinin, o deyirdi: "Haşimilər arasında gördüyüm ən bilikli şəxs Əli ibn Hüseyn əleyhissəlamdır (İmam Səccaddır.)[3] Zühri hər vaxt İmam Səccad əleyhissəlamdan söhbət etsəydi, ağlayardı və o Həzrəti Zeynül-abidin (abidlərin zinəti) adı ilə qələmə verirdi.[4] O, İmam Səccad əleyhissəlamın elmindən çoxlu istifadə etmiş, ondan çoxlu hədis nəql etmişdir.[5]

Zühri bir qədər Bəni-Üməyyə tərəfindən vilayətlərdən birində hakim olmuşdur. Bu dövrdə o, bir nəfəri cəzalandırmış, həmin şəxs bu cəza nəticəsində ölmüşdür. Zühri bu hadisədən bərk narahat olub ev-eşiyindən çıxıb səhraya üz tutmuş və demişdir: "Bundan sonra evin tavanı bir daha mənim başım üzərinə kölgə salmayacaq."

Bir gün İmam Səccad (əleyhissəlam) Zührini görüb buyurdu: "Sənin (Allah rəhmətindən) məyus olmağın bu günahından pisdir. Allahdan qorx və tövbə et! Ölən şəxsin qan bahasını onun varislərinə göndər, özün də ailənin yanına qayıt." Bütün bu elmi ilə yanaşı bu məsələdən xəbərdar olmayan Zühri bu göstərişə sevindi. O, sonralar deyirdi: "Əli ibn Hüseyn əleyhissəlama hamıdan çox mən borcluyam."[6]

## Zührinin İmam Səccad əleyhissəlamın hüzurunda şagirdliyi

Zührinin məzhəb və məqsədi bizim alimlər arasında çox qalmaqallıdır. Bəziləri onu şiə və İmam Səccad əleyhissəlamın dostlarından bilmiş və bunun üçün bəzi sübutları şahid gətirmişlər. Bəziləri isə, onu İmamət ailəsinin düşmənlərindən və Bəni-Üməyyənin tərəfdarlarından bilərək tənqid atəşinə tutmuşlar. "Rövzətül-Cənnət" kitabının müəllifi bu iki versiyanı bir yerə toplayıb belə bir qərara gəlmişdir ki, Zühri əvvəllər Bəni-Üməyyənin tərəfdarlarından olmuş, ancaq öz elm və agahlığı nəticəsində ömrünün sonlarında haqq yolu taparaq Bəni-Üməyyə ilə əlaqəsini kəsmiş və İmam Səccad əleyhissəlamın şagird və dostları sırasına qoşulmuşdur.[7] Lakin yuxarıdakı versiyanın əksinə olaraq bir çox tarixi sənəd və faktlar göstərir ki, Zühri əvvəllər Mədinədə olduğu gənclik dövründə İmam Səccad əleyhissəlamla əlaqədə olmuş və onun dərslərindən istifadə etmişdir. Ancaq sonralar Bəni-Üməyyənin sarayına cəlb edilərək onlara xidmət etmişdir. Əməvilərin bəzi vaxtlar ona tənə edərək "sənin Peyğəmbərin İmam Səccad (əleyhissəlam) nə edir?" deməsi bu dövrə aiddir.[8]

---

[1] Ət-Təbəqatül-kubra, c.2, səh.388.
[2] Əl-Bidayətu vən-nihayə.
[3] Mənaqibi-Ali-Əbu Talib, c.4, səh.159.
[4] Kəşfül-ğümmə, c.2, səh.288.
[5] Biharül-ənvar, c.46, səh.57; 64-65;73 və s. Ehticaci Təbərsi, c.2, səh.5.
[6] Mənaqibi-Ali-Əbu Talib, c.4, səh.59; Əl-Bidayətu vən-nihayə, c.9, səh.106.
[7] Rövzətül-Cənnət fi əhvalil üləmai vəs-sadat, c.7, səh.245.
[8] Mənaqibi-Ali-Əbu Talib, c.4,səh.159.

İndi qısaca olaraq Zührinin həyatını araşdırıb onun Bəni-Üməyyə ilə olan əlaqələri barədə sübutları oxucuların nəzərinə çatdırırıq.

## Zühri Bəni-Üməyyə sarayında

İbn Əbil Hədid Zührini Əli əleyhissəlamın müxaliflərindən biri hesab edərək yazır: “Bir gün İmam Səccad (əleyhissəlam) eşitdi ki, Zühri və Ürvə ibn Zübeyr Peyğəmbərin məscidində oturub Həzrət Əli (əleyhissəlam) haqqında nalayiq sözlər danışırlar. İmam Səccad (əleyhissəlam) məscidə gedib o iki nəfərin başı üstündə dayanıb onları möhkəmcə danladı.[1]

Zühri Əbdülməlik ibn Mərvanın hakimiyyəti dövründə Bəni-Üməyyə sarayının rifahından istifadə etmək üçün Dəməşqə getdi. Maddi üstünlüklər və zahiri məqamlara yiyələnmək üçün öz elmini vasitə qərar verib Əbdülməlikin fikrini özünə cəlb etdi. Əbdülməlik ona çox hörmət göstərib beytül-maldan onun üçün maaş təyin etdi və onun borclarını ödəyərək onun üçün bir qulluqçu ayırdı. Beləliklə, Zühri Əbdülməlikin yaxın adamları sırasına qoşuldu.[2] İbn Səd yazır: “Zührini Əbdülməlikin sarayına çəkən şəxs Əbdülməlikin kəbin-təlaq işləri üzrə xüsusi nümayəndəsi Qübeyzə ibn Züeyb olmuşdur.[3] Beləliklə də Zührinin Bəni-Üməyyənin çirkin sarayı ilə əlaqəsi başlandı. O, Əbdülməlikin sarayında rifahın şirin məzəsini dadıb saray həyatının ləzzətini gördü. Buna görə də, Əbdülməlikdən sonra da onun övladlarının – Vəlid, Süleyman, Yezid, Hişamın sarayında, eləcə də Ömər ibn Əbdüləzizin sarayında yer tutmuşdu. Yezid ibn Əbdülməlik Zührini qazı vəzifəsinə təyin etdi. Yeziddən sonra Hişam ibn Əbdülməlikin sarayında özünəməxsus mövqe tutmuş, hörmət qazanmışdı. Hişam onu öz uşaqlarının müəllimi təyin etmişdi. Zühri ömrünün sonunadək bu vəzifədə çalışmışdır.[4] Hişam onun səksən min dirhəm borcunu ödəmişdi.[5] İbn Səd yazır: “Zühri Rəsafədə Hişamın yanına getdi. Bundan qabaq isə iyirmi il müddətində onların (Bəni-Üməyyənin) yanında qalmışdı.”[6] Süfyan ibn Üyeynədən rəvayət olunur ki, hicrətin yüz iyirmi üçüncü ilində Zühri Hişamla (öz dövrünün xəlifəsi ilə) birgə Məkkəyə gəlib bir il orada qaldı.[7] Zühri sarayda rifah içərisində yaşamağa o qədər alışmışdı ki, ömrünün sonlarında ona dedilər: “Kaş ömrünün bu axır çağlarında Mədinədə olaydın, Peyğəmbər məscidində sütunların birinin kənarında oturub, biz də sənin dövrəndə yığışaydıq, sən də camaata dərs deyəydin.” O isə cavab verdi ki, əgər belə iş tutsam, dərim soyular. Bu iş mənim üçün məsləhət deyil. Bunun nəticəsi ancaq bu olar ki, mən dünyadan əl çəkib Axirətdən yapışam.[8]

---

[1] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid), c.4,səh.102.
[2] Əl-Bidayətu vən-nihayə, c.9, səh.346.
[3] Ət-Təbəqatül-kubra, c.7, səh.447.
[4] Əl-Bidayətu vən-nihayə, c.9,səh.341.
[5] Əl-Bidayətu vən-nihayə, c.9,səh.343.
[6] Ət-Təbəqatül-kubra, c.7,səh.474.
[7] Ət-Təbəqatül-kubra, c.5, səh.497.
[8] Əl-Bidayətu vən-nihayə, c.9,səh.348.

## Zalım xəlifələrin saray alimlərinə ehtiyacı

Zalım və qeyri-İslami hakimlərin İslam əqidəsində olan şəxslər üzərində öz hakimiyyətlərini möhkəmlətmək üçün camaatın fikrində öz gördükləri işlərə nisbət qəlbən şəri etiqad yaratmaqdan başqa çarələri yox idi. Çünki o dövrdə hələ İslamın ilkin çağlarından bir o qədər də vaxt ötməmiş və camaatın İslama olan əlaqəsi hələ öz möhkəmliyini qoruyub saxlayırdı. Əgər camaat xəlifələrə etdiyi beyətin düzgün olmadığını və xilafət kürsüsündə oturan xəlifələrin Peyğəmbər canişini olmalarına layiq olmadıqlarını bilsəydi, şübhəsiz ki, onlara boyun əyməzdi. Düzdür, bu həqiqəti bütün camaat barədə qəbul etməsək də, ancaq o dövrün İslam cəmiyyəti arasında çoxları xəlifələrin qeyri-İslami hakimiyyətini qəlb imanı üzündən qəbul etmişdilər. Yəni, belə fikirləşirdilər ki, bu hakimiyyət İslami hakimiyyətdir. Elə buna görə də, zalım hakimlər öz hökumətlərini şəri hökumət kimi qələmə vermək üçün hədisçi və din alimlərini öz saraylarına cəlb etməyə çalışırdılar. Bu yolla xəlifələr onları Peyğəmbərin, yaxud da o Həzrətin ən yaxın səhabələrinin dilindən (yalançı) hədis söyləməyə məcbur edir, bununla da, cəmiyyətdə onların hökumətinin şəri qələmə verilməsi üçün fikirlərdə münasib zəmin yaranırdı.[1] Buna əsaslanaraq deyə ilərik ki, Əməvi xəlifələrinin Zührini özlərinə tərəf cəlb etməkdən məqsədləri onun dini mövqeyindən istifadə etmək idi. Zühri də can-başla özünü onlara həsr etdi, onlar üçün kitab yazdı, hədislər söylədi. Bununla da, onların çirkin məqsədlərinə böyük kömək etdi. Müəmmər adlı bir şəxs deyir: “Biz elə bilirdik ki, Zühridən çox hədis söyləmişik. Vəlid ibn Əbdülməlik öldürüldükdən sonra gördük ki, dəftərlərlə yüklənmiş heyvanları onun xəzinəsindən çıxara-çıxara deyirlər: “Bu, Zührinin elmidir.”[2] Bu o deməkdir ki, Zühri Vəlidin göstərişi ilə o qədər kitab-dəftər və hədis yazıb doldurub ki, onları Vəlidin xəzinəsindən çıxararkən məcbur olub heyvanlara yükləyiblər. Zührinin özü deyir: “Əvvəllər mənim elmi kağız üzərinə yazmaqdan xoşum gəlmirdi. Axırda hakim və xəlifələr məni elmi yazmağa (onu kitab halına salmağa) məcbur etdilər. Sonra mən belə fikirləşdim ki, heç bir müsəlmanı bu işdən çəkindirmək olmaz. (Qoy elm və bilik həmişə yazılsın.)”[3] İbn Kəsir yazır: “Zührini (yalançı) hədis yazmağa məcbur edən şəxs Hişam ibn Əbdülməlik olmuşdur. Zühri kitab yazan gündən sonra camaat da hədisləri yazmağa başladı.”[4] Bir gün Hişam ibn Əbdülməlik Zühriyə dedi ki, onun uşaqlarına hədis öyrətsin. Bu zaman Zühri bir hədisyazan çağırtdırıb ona dörd yüz hədis dedi, o da yazdı.[3]

Ömər ibn Əbdüləziz bir bəyannamədə yazmışdı: “Hədis yazıb söyləməkdə Zühridən qafil olmayın. Çünki ötən sünnələri ondan yaxşı bilən bir şəxs qalmamışdır.”[5]

---

[1] İmam Səccad əleyhissəlamın həyatının araşdırılması, səh.56.

[2] Əl-Bidayətu vən-nihayə, c.9, səh.346; Ət-Təbəqatül-kubra, c.2, səh.388.

[3] Ət-Təbəqatül-kubra, c.2, səh.389.

[4] Əl-Bidayətu vən-nihayə, c.9, səh.341.

[3] Təhzibüt-təhzib, c.9, səh.449; Əlbidayətu vən-nihayə, c.9, səh.343.

[5] İbn Kəsir, Əlbidayətu vən-nihayə, c.9, səh.343.

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) vəfatından sonra hədis nəql etmək və yazmaq Ömər ibn Xəttabın xəlifəlik dövründə onun hökmü ilə qadağan edildi və 1-ci əsrin (hicri ili) axırına qədər davam etdi. Bu hökm Ömər ibn Əbdüləzizin əmri ilə ləğv olundu.

İndi gəlin görək Vəlid və Hişamın əmri ilə yazılıb doldurulmuş bu dəftərlərdəki hədislər necə hədislərdir? Şübhəsiz ki, bu dəftərlərdə bir dənə də olsun Vəlid və Hişam kimiləri məhkum (tənqid) edən hədis yoxdur. Əksinə, bu hədislər onların çirkin və qeyri-İslami əməllərinə bəraət qazandırır, bunun müqabilində isə onlarla siyasi səhnədə mübarizə aparan rəqiblərinin, yəni, Bəni-Haşimin parlaq mövqeyini zəiflədir.

Aşağıda qeyd olunan tarixi sənəddən çox gözəl mə`lum olur ki, Hişam ibn Əbdülməliki hədis və rəvayətlə bağlı hansı mövzular daha çox maraqlandırırmış. Hişam Ə`məşə[1] yazdığı məktubunda ona belə müraciət etmişdir: “Mənə Osmanın fəzilətli və Əlinin pis və nalayiq işlərindən yaz göndər.” Ə`məş məktubu alandan sonra onu kənarındakı qoyuna verdi və qoyun da onu çeynədi. Sonra üzünü qasidə tutub dedi: “Bu da sənin cavabın!” Qasid vahimə içində ətrafındakıların fikrini özünə cəlb edərək dedi: “Axı Hişam and içib ki, əgər əliboş qayıtsam məni öldürəcək!” Bundan sonra Ə`məş məktubu “Bismillahir-rəhmanir-rəhim”lə başlayaraq belə yazdı: “Əgər yer üzünün insanlarının bütün yaxşı əməlləri Osmanın olsa belə sənə bir xeyiri yetişməyəcək və əgər onların bütün pislikləri də Əlinin olsa sənə bir zərəri dəyməyəcək. Sən öz qeydinə qal, vəssalam!”[2]

## Zührinin saxta hədisləri

Zühri Bəni-Üməyyənin xeyrinə, onların küframiz siyasətlərinə bəhanə gətirmək üçün və eləcə də, Bəni-Haşim sülaləsinin ziddinə bir sıra hədislər düzəltmişdir. İndi həmin hədislərdən bir neçəsini nümunə olaraq sizin nəzərinizə çatdırırıq:

Zühri Peyğəmbərə (səlləllahu əleyhi və alih) nisbət verib deyir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: “Ancaq üç məscidə getmək üçün səfərə çıxmaq olar: Məscüdül-həram (Kəbə), mənim məscidim (Mədinə şəhərində) və Məscidül-əqsa (Beytül müqəddəs). Məscidül-əqsa (Beytül-müqəddəs) sizin üçün eynilə Məscidül-həram (Kəbə) hökmündədir.”[3] Bu hədisi sünni məzhəbinin üç böyük hədisçisi – Müslim, Əbu Davud və Nisai Əbu Hüreyrə vasitəsi ilə Peyğəmbərdən belə rəvayət edirlər: “Ancaq üç məscidə getmək üçün səfərə çıxmaq olar: Məscidül-həram, mənim məscidim və Məscidül-əqsa.”[4] Bu üç hədisçinin heç biri bu hədisdə “Məscidül-əqsa sizin üçün eynilə Məscidül-həram hökmündədir” ifadəsini qeyd etməmişlər.

Məlum olur ki, bu hədisə əlavəni Əbdülməlikin əmri ilə Zühri etmişdir. Bu hədis (Zührinin düzəltdiyi hədis) Abdullah ibn Zübeyrin Məkkədə, Əbdülməlikin isə

[1] Əbu Məhəmməd Süleyman ibn Mehran Əsədi Kufi (Ə`məş) İmam Sadiqin (ə) yaxın səhabələrindən olmuş və 148-ci ildə vəfat etmişdir. “Qamusür Rical”, c. 5, səh. 297; “Mö`cəmi Ricalil Hədis”, c. 9, səh. 294.

[2] Əbul Fəlah Əbdül Həyy ibn İmad Hənbəli, “Şüzuratuz Zəhəb”, c. 1, səh. 221; İbn Xəlkan, “Vəfəyatül Ə`yan və Ənbau Əbnaiz-zaman”ın təhqiq olunmuş çapı, c. 2. səh. 336. Kəmaləddin Dəmiri, “Həyatül Həyəvanil Kubra” c. 2, səh. 42.

[3] Tarixi-Yə’qubi, c.3, səh.8.

[4] Səhihi-Müslim, c.4, səh.126; Sünəni Əbu Davud (təshih və tə`liq forması), səh. 216; Sünəni Nisai (Siyutinin şərhi ilə), c. 2, səh. 37-38. Bu hədisi elə olduğu kimi Tirmizi də Əbu Səid Xidridən nəql etmişdir: “Camiüs səhih-sünəni Tirmizi”, c. 2, bab 243, hədis, 324 səh. 1048.

Şamda hakimiyyəti ələ aldıqları bir dövrdə düzəldilmişdir. Bu iki nəfər arasında siyasi və nizami çəkişmə gedirdi. Şam camaatı həcc ziyarətinə getmək istədikdə, bir neçə gün Məkkədə qalmalı olur, bu da Abdullah ibn Zübeyr üçün Əbdülməlikin əleyhinə təbliğat aparmağa çox yaxşı fürsət yaradırdı. Əbdülməlik Şam hacılarının bu təbliğatdan uzaq olmaları və öz hakimiyyətinin xilafət mərkəzində zəifləməməsi üçün həcc səfərinin qarşısını aldı. Camaat şikayət etdi ki, nəyə görə bizi vacib olan həcc səfərindən saxlayırsınız? Əbdülməlik dedi: "İbn Şəhab Zühri Peyğəmbərdən rəvayət edir ki, "ancaq üç məscidə getmək üçün səfərə çıxmaq olar: Məscüdül-həram (Kəbə), mənim məscidim və Məscidül-əqsa (Beytül-müqəddəs). Məscidül-əqsa sizin üçün eynilə Məscidül-həram hökmündədir və Peyğəmbərin merac gecəsi ayağını üzərinə qoyduğu daş da Kəbənin hökmündədir." Bu hadisədən sonra Əbdülməlikin əmri ilə həmin daşın üstündə bir günbəz ucaldıldı, oradan ipək pərdələr asıldı, oraya xadimlər təyin edildi. Beləliklə, camaat oranı təvaf etməyə başladı. Bu adət Bəni-Üməyyə sülaləsinin bütün hakimiyyəti dövründə davam etmişdir.[1]

Beləliklə də, məlum olur ki, Zührinin bu hədisin axırına özündən əlavə etməsindən məqsəd camaatı (Abdullah ibn Zübeyrin hakimiyyəti altında olan) Kəbə ziyarətindən yayındırıb onları Fələstinə (Beytül-müqəddəsə) tərəf getməyə cəlb etməkdir. Çünki Fələstin Şamın bir hissəsi olub Əbdülməlikin nəzarəti altında idi. Zühri də bu yolla Əbdülməlikin mövqeyinin möhkəmlənməsi üçün çalışırdı.

Zühri guya camaatın Mərvan ailəsinə olan nifrətini azaltmaq və İmam Səccad əleyhissəlamın İlahi mövqeyini onların qarşısında aşağı salmaq üçün o Həzrəti belə xatırlayırdı: "Əli ibn Hüseyn (əleyhissəlam) (İmam Səccad) öz ailəsinin ən mülayim adamı, Mərvan və Əbdülməlikə nisbət isə ən itaətkar və ən sevimli şəxsdir."[2] Halbuki, Mərvan ailəsinin Əli əleyhissəlamın ailəsi ilə olan düşmənçiliyi heç kəsə gizli deyil və Əli əleyhissəlamın ailəsinin də Mərvan ailəsinə olan nifrəti hamıya məlumdur. Buna görə də, heç kim İmam Səccad əleyhissəlamın Mərvan ailəsinin ən sevimli şəxs olması məsələsi bir yana, heç Mərvan ailəsinə itaət etməsi töhmətinə də inanmaz.

Zühri Aişənin dilindən rəvayət edərək deyir: "Bir gün Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanında idim. Bu zaman gördüm ki, Abbas ilə Əli gəlirlər. Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: "Aişə, bu iki nəfər mənim dinimdən kənara çıxaraq öləcəklər."[3]

Məlum məsələdir ki, bu hədis Həzrət Əli əleyhissəlamın əzəmətli və parlaq mövqeyini zəiflətmək və Mərvan ailəsini razı salmaq üçün qoşulmuşdur. Yoxsa bu hədisin doğruluğuna kim inanar? Maraqlı burasıdır ki, Zühri bu hədisi Ürvə ibn Zübeyrin vasitəsi ilə Aişədən rəvayət edir, hamı da Aişənin Həzrət Əli əleyhissəlama qarşı nə qədər kin-küdurət bəslədiyini yaxşı bilir. Ürvə ibn Zübeyr də, bildiyimiz kimi Peyğəmbər ailəsinin düşmənlərindən olmuşdur. İbn Əbil Hədid açıq-aşkar deyir ki,

[1] Tarixi-Yə'qubi, c.3, səh.8.
[2] Ət-Təbəqatul kubra, c.5, səh.215.
[3] Nəhcül-bəlağənin şərhi (İbn Əbil Hədid), c.4, səh.63.

Ürvə ibn Zübeyr də Müaviyənin Əbu Hüreyrə, Əmr ibn As və Müğeyrə ibn Şübə kimi Əli əleyhissəlamın əleyhinə hədis düzəldənlərindən olmuşdur.[1]

Zühri rəvayət edir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) bir gün gecə vaxtı Əli (əleyhissəlam) və xanım Zəhranın (səlamullahi əleyha) evinə gəlib buyurdu: "Namaz qılmırsınız?" Əli (əleyhissəlam) buyurdu: "Bizim ixtiyarımız Allahın əlindədir, əgər O, istəsə, bizi (bu işə) vadar edər." Peyğəmbər (səlləllahu əleyhi və alih) bu sözü eşitdikdə, daha heç bir söz deməyib geri döndü. Elə bu vaxt Həzrət Əli (əleyhissəlam) eşitdi ki, Peyğəmbər dizinə vuraraq bu ayəni oxuyur: ***"İnsan isə [bütün məxluqat içərisində] ən çox mübahisə edəndir. [Haqqa boyun əyməz, öyüd-nəsihət qəbul etməyib batilə uyar.]***[2] ***"*** Zühri belə əsassız bir hadisəni rəvayət etməklə Əli əleyhissəlamı Cəbriyyə (məcburiyyət) əqidəsinə inanan və mübahisə edən bir şəxs kimi qələmə verir. Bu hədisin yalan olması o qədər aşkardır ki, daha heç bir araşdırmaya ehtiyac yoxdur. Əcəba! Kəbədə doğulub namaz mehrabında şəhid olan şəxs namaz barədə Peyğəmbərlə mübahisə edərmi?

Zühri Həzrət Əli əleyhissəlamın dilindən belə bir hadisə nəql edir: "Mənim qoca bir dəvəm var idi. Peyğəmbər (səlləllahu əleyhi və alih) Bədr döyüşündə ələ keçmiş qənimətləri bölərkən onu mənə vermişdi. Peyğəmbərin qızı Fatimə (səlamullahi əleyha) ilə evlənmək istəyərkən Bəni-Qəynüqa tayfasından olan boyaqçı bir kişi ilə qərara gəldim ki, çölə gedib onun köməkliyi ilə izxir otu yığıb onu boyaqçılara sataraq toy məclisi üçün tədarük görüm. Bu məqsədlə dəvələrin yükünü, ip və kisə yığmağa hazırlaşdım. Dəvələri ənsardan (Peyğəmbərin Mədinədəki silahdaşlarından) birinin evinin kənarında yatızdırmışdım. Birdən gördüm ki, dəvələrin küyünləri kəsilmiş, bellərinin üstü parçalanmış və ciyərləri çıxarılmışdır. Bu hadisəni görüb bərk narahat oldum və dedim: "Bu işi kim görmüşdür?" Dedilər ki, bu iş Həmzə ibn Əbdülmüttəlibin işidir. O, bir dəstə ənsarla oturub şərab içir, xanəndə bir kəniz də onlar üçün mahnı oxuyur. Həmzə o məclisdən ayağa qalxıb qılıncını götürərək dəvələrin küyünlərini kəsdi, bellərinin üstünü parçalayıb ciyərlərini çıxartdı. Əli (əleyhissəlam) deyir: "Peyğəmbərin yanına getdim. Gördüm ki, Zeyd ibn Harisə də Peyğəmbərin (səlləllahu əleyhi və alih) hüzurundadır. Peyğəmbər (səlləllahu əleyhi və alih) mənim narahatçılığımı görüb buyurdu: "Nə olub?" Dedim: "Heç bu cür pis iş görməmişdim. Həmzə mənim dəvələrimin başına belə oyun açıb, indi də bir dəstə ilə bir evdə oturub şərab içir." Peyğəmbər (səlləllahu əleyhi və alih) paltarını dəyişib yola düşdü. Mən və Zeyd ibn Harisə də Peyğəmbərin (səlləllahu əleyhi və alih) ardınca getdik. Peyğəmbər (səlləllahu əleyhi və alih) Həmzə oturan evə girib onu danlamağa başladı. Gördüm ki, Həmzə məstdir və gözləri qızarmışdır. O, öz baxışı ilə Peyğəmbəri (səlləllahu əleyhi və alih) başdan-ayağadək süzüb dedi: "Məgər siz mənim atamın nökərləri deyilsiniz?" Peyğəmbər (səlləllahu əleyhi və alih) gördü ki, Həmzə məstdir, geri dönüb evdən çıxdı. Biz də onunla birgə eşiyə çıxdıq.[3]"

Zühri belə istehzalı bir hadisəni nəql etməklə Peyğəmbərin (səlləllahu əleyhi və alih) Ühüd döyüşündə qanlı cənazəsinə yetmiş dəfə meyit namazı qıldığı böyük və

---

[1] Nəhcül-bəlağənin şərhi, c.4, səh.63.
[2] "Kəhf" surəsi, ayə 54.
[3] Səhihi-Buxari, c.5, səh.83.

parlaq simalı Həmzə kimi bir şəxsiyyəti laqeyd, şərabxor, təcavüzkar, zalım bir şəxs kimi qələmə verir. Belə ki, onun bu işləri heç bir əxlaqi və dini ölçülərə uyğun gəlmir. Məlumdur ki, bu nalayiq və kişilikdən uzaq olan töhmətlər Zühri tərəfindən bu məqsədlə deyilmişdir ki, Həmzəni də belə çirkinliklərə qərq olmuş Bəni-Üməyyə nümayəndələri tək pozğun bir şəxs kimi qələmə verib bu yolla öz Əməvi ağalarına günahda şərik tapmış olsun.[1]

## İmam Səccad əleyhissəlamın Zühriyə kəskin məktubu[2]

Zührinin bu cür səriştəsiz sabiqəsini nəzərə alaraq İmam Səccad (əleyhissəlam) ona kəskin, eyni zamanda xeyirxah və nəsihətamiz bir məktub yazdı. İndi həmin məktubun tərcüməsini oxucuların nəzərinə çatdırırıq:

"Allah bizi və səni fitnələrdən, səni (Cəhənnəm) odundan qorusun! Sən elə vəziyyətə düşmüsən ki, kim sənin bu halını başa düşsə, sənə rəhmi gəlməyə haqqı var. Allahın müxtəlif nemətləri sənə ağırlıq etmişdir. Allah sənin bədənini sağlam, ömrünü uzun etmişdir. Sən Quran, fiqh, din əhkamından və Peyğəmbər sünnəsindən xəbərdar olduğun üçün daha Allahın hüccəti sənə tamamlanmışdır...

Allah-taala ***"Əgər [nemətlərimin müqabilində] şükr etsəniz, yəqin bilin ki, nemətlərimi sizə daha da artıracağam, ancaq naşükürlük etsəniz, bilin ki, Mənim əzabım çox şiddətlidir"***[3] buyurmaqla sənə verdiyi bu nemətlərin müqabilində şükr etməyi vacib bilmiş və bu yolla səni sınağa çəkmişdir. İndi bax gör, sabah Allahın hüzurunda dayanıb Allah səndən soruşanda ki, Onun nemətlərinin şükrünü necə yerinə yetirdin və Onun hüccətləri qarşısında öz vəzifələrinə necə əməl etdin, onda sənin vəziyyətin necə olacaq? Belə fikirləşmə ki, Allah sənin üzrünü qəbul edib günahından keçəcək. Əsla, Allah Öz kitabında ***"Onu [Quranı] camaata bəyan edin və onun heç bir şeyini gizlətməyin"***[4] buyurmaqla həqiqəti camaata demələri barədə (alimlərdən) söz (əhd-peyman) almışdır.

Bunu bil, gizlətdiyin ən kiçik və boynuna götürdüyün ən yüngül şey budur ki, zalımın vəhşət və qorxusunu rahatlığa çevirdin, ona yaxınlaşaraq hər dəvətini qəbul etməklə azğınlıq yolunu onun üçün hamar etdin. Günahların nəticəsində sabah xainlərlə bir yerdə olacağından, zalımlarla əlbir olduğun üçün ələ gətirdiyin şeylər üçün sorğu-sual olunacağından çox qorxuram.

Sənin haqqın olmayan şeyləri sənə verəndə aldın, elə bir şəxsin yanına getdin ki, heç kəsin haqqını qaytarmamışdır. O, səni özünə yaxınlaşdıranda, sən heç bir batili inkar etmədin və Allahla düşmən olan bir şəxsi özünə dost tutdun. O, səni dəvət edib özünə tərəf çəkəndə (hakimlər) səni dəyirman mehvərinə çevirərək öz zülm

---

[1] Bu hədisin saxta olduğunu bildirən nişanə və dəlilləri mülahizə etmək üçün "Əs-səhih min siyrətil-Nəbiyyil-Ə`zəm" kitabının c. 4, səh. 40-48-ə müraciət edin.

[2] Əbu Nəim İsfahaninin "Hilyətül Övliya" kitabının c. 3, səh. 246-da "müsnəd" formada nəql olunmuş eynilə buna oxşar hədisin Əbu Hazimə (Sələmə ibn Dinar) ünvanlandığı qeyd olunmuşdur. Mənə elə gəlir ki, bu şübhəni araşdırmaq lazımdır. Çünki "Əl fikrül İslami" jurnalının 27-ci sayının 179-cu səhifəsində bu məktuba istinad edilmişdir. Həmçinin müəllif "Hilyətül Övliya"nın c. 3, səh. 202-də İmam Səccadın (ə) Zührini qoca adlandırması ehtimalını qəbul etməmişdir.

[3] "İbrahim" surəsi, ayə 7.

[4] "Ali-İmran" surəsi, ayə 187.

dəyirmanını sənin ətrafında fırlatmadımı? Səni körpü qərar verib öz qanunsuz işlərinə tərəf bu körpünün üzərindən keçmədilərmi? Səni nərdivan qərar verməklə öz azğınlıq damlarına qalxmadılarmı? Sən camaatı azğınlığa dəvət edir, onların getdiyi yolu gedirsən. Onlar sənin vasitənlə alimlərdə (qəlblərində) şəkk-şübhə yaradıb cahillərin (nadanların) qəlblərini özlərinə cəlb etdilər. (Sən din pərdəsi altında onlara o qədər kömək etdin ki,) onların güclü vəzirləri və ən yaxın dostları belə sənin onları düzgün qələmə verdiyin qədər onlara xidmət göstərə bilməmiş, sənin qədər camaatın onlarla əlaqə yaratmasına səbəb ola bilməmişlər.

Sənə verdikləri (maaş, var-dövlət) səndən aldıqları (əməllərini düzgün qələmə vermək barədəki) şeyin müqabilində nə qədər dəyərsiz və ucuzdur! Sənin üçün (dünyada) abad etdikləri şey nə qədər azdır! Ancaq gör (sənin axirətini) nə qədər bərbad ediblər?!

Bax gör, nə iş görürsən, özündən muğayat ol, bunu bil ki, özündən başqa heç bir şəxs səndən muğayat olmayacaq. Öz nəfsinlə məsuliyyət daşıyan bir şəxs kimi hesab çək. Gör bu qoca vaxtında Öz nemətlərini sənin ixtiyarında qoyan Allahın şükrünü necə yerinə yetirmisən? Qorxuram ki, Allahın buyurduğu "onlardan sonra yerlərinə kitaba (Tövrata) sahib olan xələflər keçdilər. Onlar fani dünya malını alıb deyirdilər: ***"Biz [Allah tərəfindən] bağışlanacağıq!"***[1] ayəsi sənə də aid olsun.

Sən əbədi həyatda deyilsən, əksinə, köçməsini qabaqcadan elan etmiş bir həyatdasan. Məgər insan öz yaşıdlarından sonra bu dünyada nə qədər yaşayır? Xoş o şəxsin halına ki, dünyada (öz günahları üçün) qorxusu olsun və vay o şəxsin halına ki, özü ölür, ancaq günahları ondan sonra qalır.

Diqqətli və ayıq ol, bu yolla sənə təhlükə xətəri elan olundu. (Özünü islah etmək məqsədilə) addım at, (hələ ki) sənə möhlət verilib. Sənin tərəf müqabilin (qarşında duran) nadan deyil, sənin əməllərinin hesabını çəkən (Allah) heç vaxt (sənin bu tərəddüdlərindən) qafil olmaz. Səfərə hazırlaş, qabaqda səni uzaq bir səfər gözləyir. Qəlbin bərk xəstələnmişdir, günahlarına bir əlac et!

Elə bilmə ki, mən səni danlayıb tənə etmək istəyirəm, xeyr, istəyirəm Allah sənin keçmiş səhvlərini aradan qaldırsın, əlindən çıxmış dinini özünə qaytarsın. Burada Allahın buyurduğu ***"Sən [onlara Quranla] öyüd-nəsihət ver. Çünki, öyüd-nəsihət möminlərə fayda verir"***[2] ayəsi yadıma düşür.

Məgər öz yaşıdlarının ölüb getdiyini və indi tək qaldığını unutmusan? Gör, sənin düçar olduğun kimi onlar da düçar olmuşdularmı? Sənin bədbəxt olduğun kimi onlar da bədbəxt olmuşdularmı? Onların unutduqları yaxşı şeyləri sən xatırlayırsanmı? Onların bilmədiyi şeyi sən bilirsənmi? Xeyr, belə deyil, əldə etdiyin nüfuz nəticəsində avam camaatın yanında hörmət qazandın. Sənin bu vəziyyətin camaatı zəhmətə saldı. Çünki onlar sənin nəzərinə əsasən, rəftar edir, sənin əmrinə qulaq asır, halal saydığın şeyi halal, haram saydığını isə haram bilirlər. Düzdür, sənin (halal-haram məsələsində) heç bir səlahiyyətin yoxdur, ancaq onların marağını sənə cəlb edən şey onların səndə olan şeyə tamahları, alimlərinin əllərindən getmələri, nadanlığın sənə və onlara qalib gəlməsi, sənin və onların mal-dövlət fikrində olmanızdır.

---

[1] "Ə'raf" surəsi, ayə 169.

[2] "Zariyat" surəsi, ayə 56.

Bu qədər nadanlıq və təkəbbürə qərq olduğunu və camaatın fitnə-fəsad içində yaşadığını görmürsənmi? Onları bu müsibətə salan sənsən. Camaat sənin vəziyyət və mövqeyini görməklə öz qazandıqları nəticələri unudub sənin şöhrətinin vurğunu oldular. Onlar sənin elm rütbənə, ya da sənin şöhrət və məqamına nail olmağa can atırlar. Bu yolla da sənin hərəkətlərin nəticəsində dərinliyi bilinməyən (azğınlıq) dənizində boğulub cəhətləri məlum olmayan bir bəlaya düçar oldular. Allah bizim və sənin köməyinə çatsın, həqiqətən O, (ehtiyacı olanların) köməyinə çatandır.

Keçmiş saleh bəndələrə birləşmək üçün indi bütün bu şan-şöhrətdən əl çək. Elə saleh bəndələr ki, kəfənlərə bürünüb torpağın qucağında yatmışlar, qarınları kürəklərinə yapışıb, onlarla Allah arasında heç bir maneə yoxdur, dünya onları aldatmır, onlar dünya vurğunu olmurlar. Onlar (Allahın görüşünə) ürək bağladılar, sonra da öz məbuduna (məbudun vədəsinə) dəvət olundular. Çox çəkmədi ki, (öz ölülərinə) birləşdilər. Dünya səni bu qoca yaşında, bu elmi məqamınla, bu ölüm ayağında bu cür yoldan çıxarıb öz vurğunu edirsə, bəs onda azyaşlı, nadan və zəif ruhiyyəli gənclərdən nə gözləmək olar? Biz Allahın bəndələriyik və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq. Kimə pənah aparmalı, kimdən kömək istəməliyik? Öz müsibətimizdən və səndə müşahidə etdiklərimizdən Allaha şikayət edir, sənin vasitənlə başımıza gəlmiş bu müsibətdə Allah dərgahından əcr və savab gözləyirik.

Sənə uşaqlıqda və böyüklükdə ruzi vermiş Allahın şükrünü gör necə yerinə yetirdin? Dini sayəsində səni camaat arasında həyalı etmiş Allah qarşısında necə baş əyirsən? Səni camaat arasında bükdüyü İlahi libasın hörmətini necə saxlayırsan? Ona yaxın olub əmrlərinə tabe olmağı əmr etmiş Allaha yaxınlıq, ya uzaqlıq həddin nə qədərdir? Sənə nə olub ki, qəflət yuxusundan oyanmır, günahlarından tövbə etmirsən və "Allaha and olsun, indiyədək Allaha görə heç bir hərəkət etməmişəm ki, onda Allah dinini dirçəldib, ya bir batili aradan aparmış olam" deyirsən?! Səni din elmlərinin alimi etmiş Allahın nemətlərinin şükrü budur?

Qorxuram ki, Allahın buyurduğu ***"Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar da öz əməllərinin cəzasını alacaqlar"***[1] ayəsi sənə də aid olsun.

Allah sənə Quran (elmlərini) öyrətməklə elm və dini sənin yanında əmanət qoydu, sən isə ona xəyanət etdin. Allaha şükr edirəm ki, bizi sənin azğınlığından qorudu. Vəssalam."[2]

## Pak və təqvalı olmaq dərsi

Elə bilməyin ki, Əməvi xəlifələri Zühri kimilər üçün hazırladıqları planlardan İmam Səccad (əleyhissəlam) üçün hazırlamırdılar. Xeyr, onlar bu cür planlardan çox çəkirdilər, ancaq İmam Səccad (əleyhissəlam) onların bu kələklərinə uymur, hədələrindən qorxmayıb şirnikdirmələrinə aldanmayaraq onlara qarşı etinasızlıq edirdi. Nə vaxt o Həzrəti cəlb etmək fikrinə düşürdülərsə, İmam Səccad

---

[1] "Məryəm" surəsi, ayə 59.
[2] Tühəfül-üqul, səh.274-277.

(əleyhissəlam) onlara rədd cavabı verirdi. Aşağıdakı iki nümunə bu məsələyə doğru şahiddir:

Əbdülməlik öz xəlifəlik illərində bir dəfə həccə getmişdi. Həcc mərasimində o təvaf[1] edirdi. İmam Səccad (əleyhissəlam) da, onun qarşısında təvafa məşğul idi və Əbdülməlikə heç bir etina etmirdi. İmam Səccad əleyhissəlamı yaxından görməyən və onu tanımayan Əbdülməlik dedi: "Bu kimdir ki, bizdən qabaqda təvaf edir və bizə heç etina etmir?" Dedilər ki, o, Əli ibn Hüseyn əleyhissəlamdır (İmam Səccaddır). Əbdülməlik bir qırağda oturub dedi: "Onu mənim yanıma gətirin!" İmam Səccad (əleyhissəlam) onun yanına gələndə Əbdülməlik dedi: "Ey Əli ibn Hüseyn (əleyhissəlam)! Mən ki, sənin atanın qatili deyiləm, niyə mənim yanıma gəlmirsən?" İmam Səccad (əleyhissəlam) buyurdu: "Atamın qatili onun dünyasını puç etdi, atam isə onun axirətini bərbad etdi. İndi sən də əgər atamın qatili kimi olmaq istəyirsənsə, onda ol!" Əbdülməlik dedi: "Yox, məqsədim budur ki, bizim yanımıza gəlib dünyəvi imkanatdan bəhrələnəsən." Bu vaxt İmam Səccad (əleyhissəlam) yerə oturub paltarının ətəyini açaraq buyurdu: "İlahi, Öz övliyalarının qədir-qiymətini ona göstər." Birdən gördülər ki, o Həzrətin ətəyi gözləri qamaşdıran parlaq gövhərlə doldu. Sonra İmam Səccad (əleyhissəlam) buyurdu: "İlahi, bunları götür, bizim onlara ehtiyacımız yoxdur."[2]

Əbdülməlikə xəbər çatmışdı ki, Peyğəmbərin qılıncı Əli ibn Hüseyn əleyhissəlamdadır. (Bu da çox yaxşı şey idi. Çünki Peyğəmbərin yadigarı olduğuna görə fəxr olunası bir şey idi. Üstəlik bir növ hökumət simvolu hesab edilə bilərdi. Bundan da əlavə, o qılıncın İmam Səccad əleyhissəlamda olması Əbdülməliki narahat edirdi. Çünki İmam (əleyhissəlam) bununla camaatı öz ətrafına yığa bilərdi. Buna görə də, Əbdülməlik o Həzrətin yanına adam göndərib qılıncı ondan istədi. Hələ İmam Səccad əleyhissəlama bir məktub da yazıb bildirdi ki, əgər bir işi olsa, xəlifə onu yerinə yetirməyə hazırdır. İmam Səccad (əleyhissəlam) qasidə rədd cavabı verdi. Əbdülməlik təhdidamiz bir məktub yazıb bildirdi ki, əgər qılıncı verməsən, sənin beytül-maldan olan payını kəsəcəyəm. (O vaxt bütün camaat beytül-maldan pay aldığı kimi İmam Səccad (əleyhissəlam) da beytül-maldan pay alırdı.) İmam onun cavabında yazdı: Allah təqvalı bəndələri onların xoşuna gəlməyən şeylərdən qorumağı və gümanlarına belə gəlmədiyi yerdən onlara ruzi verəcəyini Öz öhdəsinə götürmüşdür. Allah Quranda buyurur ki, ***"Allah, həqiqətən heç bir xaini, nankoru sevməz."***[3]

## 5. Əhkam, əxlaqi və tərbiyəvi əsərlərin nəşri

İmam Səccad əleyhissəlamın öz dövrünün zülm və fəsadlarına qarşı mübarizə metodlarından biri də, İslam hökmlərinin nəşri, əxlaqi və tərbiyəvi məsələlərin bəyan olunması olmuşdur. İmam Səccad (əleyhissəlam) bu sahədə çox böyük addımlar atmışdır. Belə ki, İmam əleyhissəlamın bu xidmətləri alimləri heyran qoymuş və onlar bu işi alqışlamağa məcbur olmuşlar. Şiə məzhəbinin görkəmli alimi Şeyx Müfid

---

1 Kə'bə evinin ətrafına dövr vurmaq təvaf adlanır.

2 Əl-Xəraicu vəl-cəraih, səh.232.

3 "Həcc" surəsi, ayə 38. Ə'yanuş-şiə, c.1, səh.365.

bu barədə yazır: “Sünni məzhəbinin fəqihləri ondan (İmam Səccaddan) o qədər elm nəql olunmuş moizələr, dualar, Quran fəzilətləri, halal-haramlar qeyd etmişlər ki, bunların hamısı bütün alimlər arasında məşhurdur. Onları izah etmək istəsək, söhbət çox uzanar...”[1]

İmam Səccad əleyhissəlamdan yadigar qalmış əxlaqi-tərbiyəvi təlimlərdən bir nümunəsi “Risalətül-hüquq” adlı bir topludur. İmam burada insanın müxtəlif, istər Allah qarşısında, istərsə də özü və başqaları qarşısındakı vəzifələrini bəyan etmişdir. Əlliyə qədər olan bu vəzifə və hüquqları İmam (əleyhissəlam) əvvəl qısa şəkildə, sonra isə ətraflı izah etmişdir.

İmam Səccad əleyhissəlamın bəyan etdiyi vəzifələr, insanın boynunda olan haqların ardıcıllığı aşağıdakı şəkildədir:

**1)** Allahın haqqı; **2)** İnsanın nəfsinin haqqı; **3)** Dilin haqqı; **4)** Qulağın haqqı; **5)** Gözün haqqı; **6)** Əlin haqqı; **7)** Ayağın haqqı; 8) Qarının haqqı; **9)** Övrətin haqqı; **10)** Namazın haqqı; **11)** Həccin haqqı; **12)** Orucun haqqı; **13)** Sədəqənin haqqı; **14)** Qurbanlığın haqqı; **15)** Hökmdarın haqqı; **16)** Müəllimin haqqı; **17)** Qul sahibinin haqqı; **18)** Rəiyyətin haqqı; **19)** Şagirdlərin haqqı; **20)** Həyat yoldaşının haqqı; **21)** Qulun haqqı; **22)** Ananın haqqı; **23)** Atanın haqqı; **24)** Övladın haqqı; **25)** Qardaşın haqqı; **26)** Qulu azad edənin haqqı; **27)** Azad olmuş qulun haqqı; **28)** Yaxşı iş görənin haqqı; **29)**Azançının haqqı; **30)** Pişnamazın haqqı; **31)** Həmnişinin haqqı; **32)** Qonşunun haqqı; **33)** Dostun haqqı; **34)** Şərikin haqqı; **35)** Malın haqqı; **36)** Borc sahibinin haqqı; **37)** Həmsöhbətin haqqı; **38)** Düşmənin insana olan haqqı; **39)** İnsanın düşmənə olan haqqı; **40)** Müşavirə edənin haqqı; **41)** Müşavirəçinin haqqı; **42)** Nəsihət istəyənin haqqı; **43)** Nəsihət edənin haqqı; **44)** Böyüyün haqqı; **45)** Kiçiyin haqqı; **46)** Dilənçinin haqqı; **47)** Kömək istəyənin haqqı; **48)** İnsanı sevindirənin haqqı; **49)** İnsanı qəmləndirənin haqqı; **50)** Həmdinlilərin haqqı; **51)** Zimmilərin haqqı.

## 6. Kimsəsizlərə yardım

İmam Səccad əleyhissəlamın həyatının parlaq cəhətlərindən biri də, o Həzrətin o cür acınacaqlı və zülmlə dolu mühitdəki ictimai xidmətləridir. Bu xidmətlər, istər Hirrə faciəsi zamanı kimi Mədinənin böhranlı və qarmaqarışıq günlərində, istərsə də, kimsəsiz və miskinlərin nəvazişə ehtiyacı olub onlara tərəf lütf-mərhəmət əli uzaldılması intizarında olduqları sakitlik günlərdə, o Həzrətin ömrünün sonunadək davam etmişdir. İmam Səccad əleyhissəlamın bu cür seçilən xidmətlərindən nümunələri tarix bəyan edir:

İmam Səccad (əleyhissəlam) Mədinənin yüz kasıb ailəsini dolandırırdı.[2]

Mədinə əhalisinin bir dəstəsi güzəranlarını gecə vaxtı onlara gətirilən yeməklə keçirirdilər. Ancaq yemək gətirənin kim olduğunu bilmirdilər. İmam Səccad (əleyhissəlam) vəfat etdikdən sonra başa düşmüşdülər ki, gecə vaxtı onlar üçün yemək-içmək gətirən şəxs İmam Səccad (əleyhissəlam) olmuşdur.[3] O, gecələr

[1] Əl-İrşad, səh.260.
[2] Hilyətül-övliya, c.3, səh.136.
[3] Kəşfül-ğümmə, c.2, səh.289; Nurul-Əbsar, səh.140.

naməlum şəkildə çörək, yemək və s. şeyləri şəxsən öz çiyninə atır, kimsəsizlərin qapısına aparıb buyurardı: «Gizli verilən sədəqə Allahın qəzəb odunu söndürür.»[1]

Mədinə camaatı deyirdi: Əli ibn Hüseyn (əleyhissəlam) öləndən sonra biz gizli verilən sədəqəni əldən çıxartdıq.[2]

İmam Səccad (əleyhissəlam) şəxsən un və digər əRizaqla dolu olan kisələri o qədər çiyninə atıb kimsəsizlər üçün aparmışdı ki, onun çiyni əzilərək qabar bağlamışdı. O Həzrətin şəhadətindən sonra ona qüsl verərkən bu qabarlar orada olanların fikrini cəlb etmiş, onun səbəbini soruşduqda, "bu, yemək kisələrini çiyninə atıb kimsəsizlər üçün aparmağın nəticəsidir" cavabı eşitmişdilər.[3]

## 7. Tərbiyə ocağı

İslam dininin meydana çıxdığı bir vaxtda dünyanın hər tərəfində, hətta o dövrün əsas mədəniyyət mərkəzləri olmuş Yunanıstan və Romada da quldarlıq hökm sürürdü. Belə bir quruluşu bir dəfəyə aradan qaldırmaq mümkün olmadığı üçün İslam dini yavaş-yavaş onu aradan qaldırmağa zəminə yaratdı. Bir tərəfdən qul saxlamağı azaldaraq quldarlıq dairəsini məhdudlaşdırdı, digər tərəfdən də qul azad etməyi bir çox günahların kəffarəsi (cəzası) qərar verməklə, qulların azadlığı üçün şərait yaratdı. Üçüncü tərəfdən də, Peyğəmbər (səlləllahu əleyhi və alih) müsəlmanlara tövsiyə edirdi ki, qullarla (bir ailə üzvü kimi) insancasına rəftar etsinlər və onlara əmr etdi ki, qullara da öz yedikləri yeməkdən, öz geydikləri paltarlardan versinlər.

Bundan əlavə, Peyğəmbər (səlləllahu əleyhi və alih) qul azad etməyi o qədər dəyərli, qiymətli, savablı bir iş kimi qələmə verdi ki, rəvayətlərdə bir çox yaxşı əməllər savab və fəzilət çoxluğu baxımından qul azad etməyə bənzədilmiş, bu yolla müsəlmanlar bu işə (qul azad etməyə) cəlb olunmuşlar. Bunlar hamısı bir yerə toplanıb İslamın quldarlıq haqqında fikrini müəyyən edir.

İslamın və onun liderlərinin qul və quldarlığa nisbət incə və özünəməxsus rəftarını bu baxımdan təhlil etmək lazımdır. İmam Səccad əleyhissəlamın həyatında da qul azad etmək məsələsi gözə dəyir. Ancaq bu işin səviyyəsi o qədər genişdir ki, onu təkcə böyük hesablamalarla izah etmək olmaz və belə nəzərə çatır ki, İmam Səccad əleyhissəlamın bu işdə ali məqsədləri olmuşdur. Bu sahədə bir az diqqətli olsaq görərik ki, o Həzrətin bu işdə tərbiyəvi–insani məqsədi olmuşdur. Yəni, qulları alaraq onları bir müddət təlim-tərbiyə etdikdən sonra azad edirdi. Onlar da cəmiyyət arasında nümunə olaraq mədəni və tərbiyəvi fəaliyyət göstərir və azad olduqdan sonra da, İmam əleyhissəlamla əlaqələrini kəsmirdilər. Əli ibn Tavus ramazan ayının əməlləri əsnasında yazır: "Əli ibn Hüseyn (əleyhissəlam) (İmam Səccad) ramazan ayının son gecəsi iyirmi nəfər (ya bir az çox, ya bir az da az) qul azad edib buyurardı: «Allah-taala ramazan ayının hər gecəsi iftar zamanı olanda Cəhənnəm əhlindən yetmiş min nəfəri, ramazan ayının son gecəsi isə bu ayın bütün gecələrində azad etdiyi qədər qul azad edir. Mən istəyirəm Allah görsün ki, mən dünyada öz qullarımı azad etdim, bəlkə Qiyamət günü O da məni Cəhənnəm odundan azad etdi.» İmam

---

[1] Kəşfül-ğümmə, c.2, səh.289; Təzkirətul-Xəvas, səh.327.

[2] Hilyətül-övliya, c.3, səh.136.

[3] Hilyətül-övliya, c.2, səh.136.

Səccad (əleyhissəlam) heç bir xadimi bir ildən artıq saxlamazdı. İlin əvvəli, ya ortasında evə gətirdiyi xadimi Fitr (orucluq) bayramı gecəsi azad edər, sonrakı il onun yerinə bir başqasını gətirib onu da növbəti ramazan ayında azad edərdi. Bu iş o Həzrətin ömrünün axırınadək davam etmişdir.

İmam Səccad (əleyhissəlam) qaradərili qulları (onlara heç bir ehtiyacı olmadığı halda) alıb həcc mərasimində Ərəfata gətirir, sonra da Məşərə[1] tərəf gedirdi. Onları azad edərək üstəlik hədiyyələr də verirdi."[2] Yazıçılardan birinin dediyinə görə elə ki, qullar bu məsələdən xəbər tuturdular, əyan-əşrafın qulluqçuluğundan çıxıb gəlib İmam Səccad əleyhissəlama xidmət edirdilər. Zaman keçir, günlər ötür, İmam Səccad (əleyhissəlam) yenə də azad etməyə məşğul olurdu. O, hər il hər ay və hər gün müxtəlif hadisələr münasibəti ilə bu işi təkrar edirdi. İş o yerə çatmışdı ki, Mədinə şəhərində o Həzrətin azad etdiyi qul və kənizlərdən təşkil olunmuş bir dəstə əmələ gəlmişdi.[3]

Qeyd etdiyimiz kimi bunlardan belə nəticə çıxarmaq olar ki, İmam Səccad (əleyhissəlam) bu proqramla əslində bir tərbiyə ocağı yaratmışdır. Qulları alıb bir az onlara təlim-tərbiyə keçir, onları azad etdikdən sonra da hər biri tərbiyə olunmuş və başqalarına örnək ola bilən şəxsə çevrilir. Onlar azad olduqdan sonra İmam əleyhissəlamla mənəvi əlaqəni kəsmir, hərə öz növbəsində başqalarına təlim-tərbiyə keçirdi. İmam Səccad əleyhissəlamın o dövrün cəmiyyətini birbaşa təlim-tərbiyə etmək məhdudiyyətlərini nəzərə almaqla o Həzrətin bu təqdirəlayiq işini geniş şəkildə araşdırmaq lazımdır.

---

[1] Ərəfat və Məş'ər Məkkədə çöl adıdır.
[2] İqbalul-ə'mal, səh.261.
[3] İmam Səccad əleyhissəlamın həyatı, səh.55.

# V FƏSİL

# İMAM MƏHƏMMƏD BAQİR ƏLEYHİSSƏLAMIN HƏYATI

* **Böyük elmi inqilabın banisi**
* **İmam Baqir (əleyhissəlam) məktəbinin şagirdləri**
* **Elmləri kəşf edən, bilik qapılarını açan**
* **Xəlifələr tərəfindən hədis yazmağın qadağan olunma tarixçəsi**
* **Şiə-hədis toplamağın banisi**
* **İmam Baqir (əleyhissəlam) Şamda**

## İmam Baqir əleyhissəlamın həyatı barədə qısa məlumat

İmam Baqir (əleyhissəlam) hicrətin əlli yeddinci ilində Mədinə şəhərində dünyaya gəlmişdir.[1] Atası İmam Zeynül-abidin əleyhissəlamın vəfatı vaxtı Həzrətin otuz yeddi yaxud otuz səkkiz yaşı var idi. Adı Məhəmməd, künyəsi Əbu Cəfər, ləqəbləri Baqir, Baqirül-ülum olmuşdur. Anası İmam Həsən əleyhissəlamın qızı Ümmü Abdullah olmuşdur. Buna görə də, İmam Baqir (əleyhissəlam) həm ata, həm də ana tərəfdən Həzrət Əli (əleyhissəlam) və xanım Zəhranın (səlamullahi əleyha) nəslinə yetişən ilk şəxs olmuşdur. İmam Baqir (əleyhissəlam) hicrətin yüz on dördüncü ilində Mədinə şəhərində vəfat etmiş,[2] məşhur Bəqi qəbristanlığında atası və babasının qəbirləri kənarında dəfn olunmuşdur. O Həzrətin İmamət dövrü on doqquz ya da iyirmi il olmuşdur.

## İmam Baqir əleyhissəlamın müasiri olmuş xəlifələr

Aşağıda adları çəkilmiş xəlifələr İmam Baqir əleyhissəlamın İmaməti dövründə onun müasiri olmuşlar:

Vəlid ibn Əbdülməlik (86-96 h.q);

Süleyman ibn Əbdülməlik (96-99 h.q);

Ömər ibn Əbdüləziz (99-101 h.q);

Yezid ibn Əbdülməlik (101-105 h.q);

Hişam ibn Əbdülməlik (105-125 h.q);

Bu xəlifələrin hamısı Ömər ibn Əbdüləziz istisna olmaqla (o, nisbətən ədalətli və Peyğəmbər ailəsinə mehriban idi) zalım olmuş, zülm və haqsızlıqda heç də ata-babalarından geri qalmamış, xüsusən də, İmam Baqir əleyhissəlama çox zülm etmişlər.

## Elmi inqilabın banisi

İmam Məhəmməd Baqir (əleyhissəlam) öz İmaməti dövründə münasib olmayan bir vəziyyətdə İlahi maarifi nəşr edib onu meydana çıxarmağa başladı. O Həzrət elmi çətinlikləri həll etməklə sonradan oğlu İmam Cəfər Sadiq əleyhissəlamın İmaməti dövründə təsis edilən böyük İslam məktəbinin yaranmasına şərait yaradan elmi inqilabı həyata keçirtdi. İmam Baqir (əleyhissəlam) elm, zöhd (təqva), fəzilət və əzəmətdə bütün Bəni–Haşim böyüklərini üstələmiş, onun böyük elmi və əxlaqi məqamı dostun da, düşmənin də tərifinə çevrilmişdi. O Həzrətdən İslami hökmlər, təfsir, İslam tarixi və başqa elmlər sahəsində o qədər hədis və rəvayətlər yadigar qalmışdır ki, o vaxtadək İmam Həsən (əleyhissəlam), İmam Hüseyn əleyhissəlamın övladlarının heç birindən o qədər rəvayət yetişməmişdir.[3] O dövrün böyük elmi şəxsiyyətləri və eləcə də Peyğəmbər səhabələrindən sağ qalanlar o Həzrətdən istifadə edirdilər. Cabir ibn Yezid Cüfi, Kisan Sicistani,[4] həmçinin, İbn Mübarək, Zühri, Uzai,

[1] "Üsuli-kafi", c. 1, səh. 469; "İrşad", Şeyx Müfid, səh. 262; "E`lamül Vəra", Təbərsi, səh. 264.

[2] Həmin mənbələr.

[3] Əl-İrşad, səh.261.

[4] Bu iki nəfər Peyğəmbər (səlləllahu əleyhi və alih) şəxsən görməmiş, lakin Peyğəmbər (səlləllahu əleyhi və alih) səhabələrini görmüşdülər. Yə'ni tabeinlərdən idilər.

Əbu Hənifə, Malik, Şafei, Ziyad ibn Münzirnəhdi kimi fəqihlər o Həzrətin elmi əsərlərindən bəhrələnmiş, onun buyurduqlarını gah bilavasitə, gah da bir neçə vasitə ilə rəvayət edərlərmiş.

Sünni məzhəbinin ən mötəbər müəlliflərindən hesab edilən Təbəri, Bəlazəri, Səlami, Xətib Bağdadi, Əbu Nəim İsfahani, eləcə də, ən mötəbər qaynaqlarından olan Müvəttəi-Malik, Sünəni-Əbu Davud, Müsnədi-Əbu Hənifə, Müsnədi-Mərvəzi, Təfsiri-Nəqqaş, Təfsiri-Zəməxşəri (Əl-Kəşşaf) və onlarla bu kimi kitablar İmam Baqir əleyhissəlamın mənalı sözləri ilə doludur və onların hər yerində "Məhəmməd ibn Əli (İmam Baqir (əleyhissəlam)) buyurmuşdur" yaxud "Məhəmməd Baqir (əleyhissəlam) buyurmuşdur" ifadəsi gözə dəyir.[1]

Şiə kitabları da, müxtəlif sahələrdə İmam Baqir əleyhissəlamın rəvayət və hədisləri ilə doludur. Bu kitablarla azca tanışlığı olan şəxs bu həqiqəti təsdiq edər.

## İmam Baqir (əleyhissəlam) alimlər baxımından

İmam Baqir əleyhissəlamın elm sədası İslam məmləkətinin hər yerinə elə yayılmışdı ki, o Həzrət "Baqirül-ülum" (elm qapılarını açan, elmi müşkülatı həll edən) ləqəbi almışdı.

İbn Həcər Heytəmi yazır: "Məhəmməd Baqir (əleyhissəlam) maarifin gizli dəfinələrini taparaq o qədər elmləri aşkar etmiş, həmçinin, əhkam və hikmətlərin həqiqətlərini, elmin incəliklərini bəyan etmişdi ki, bu məsələ bəsirət sahibi olmayan, ya da pis düşüncəli insanlardan başqa heç kimə gizli qalmamışdır. Elə buna görə də, onu elmləri yarıb özündə cəmləşdirən, elm bayrağını ucaldan adlandırmışlar."[2]

İmam Baqir əleyhissəlamın dövründə yaşamış görkəmli alim və böyük şəxsiyyət Abdullah ibn Əta deyir: "Mən İslam alimlərini heç bir məclisdə Məhəmməd ibn Əli əleyhissəlamın məclisindəki qədər elmi cəhətdən kiçik və aşağı səviyyədə görmədim. Elm və şəriət hökmlərində bütün aləmdə tanınan Həkəm ibn Üteybəni Məhəmməd Baqir əleyhissəlamın hüzurunda yüksəkrütbəli müəllim qarşısında diz çöküb əyləşən, onun şəxsiyyət və sözlərinə heyran qalan bir uşaq (şagird) kimi gördüm."[3]

İmam Baqir (əleyhissəlam) öz sözlərində adətən Quran ayələrinə istinad edərək Allah kəlamından şahid gətirir və buyururdu: "Dediyim hər hansı məsələni məndən soruşsanız ki, bu, Quranın harasındadır, mən o məsələyə aid olan ayəni sizə göstərərəm."[4]

## İmam Baqir (əleyhissəlam) məktəbinin şagirdləri

İmam Baqir (əleyhissəlam) fiqh, hədis, təfsir və sair İslami elmlər sahəsində seçilmiş şagirdlər yetirmişdir. Onların hər biri böyük elmi şəxsiyyət hesab olunurdu. Məhəmməd ibn Müslim, Zürarə ibn Əyün, Əbu Bəsir, Büreyd ibn Müaviyə Əcli, Cabir ibn Yezid, Həmran ibn Əyun, Hişam ibn Salim kimi dahi şəxsiyyətlər İmam Baqir əleyhissəlamın yetirmələri olmuşlar. İmam Sadiq (əleyhissəlam) buyurardı:

---

[1] Mənaqibi Ali-Əbu Talib, c.4, səh.195.
[2] Əs-Səvaiqül-mühriqə, səh.201.
[3] Təzkirətül-xəvas, səh.337; Əl-Bidayətu vən-nihayə, c.9, səh.311.
[4] Ehticac, səh.176.

*“Bizim məktəbi və atamın hədislərini dörd nəfər dirçəltdi. O dörd nəfər Zürarə, Əbu Bəsir, Məhəmməd ibn Müslim və Büreyd ibn Müaviyə Əcli olmuşdur. Əgər bunlar olmasaydı, bir nəfər din təlimatı və Peyğəmbər məktəbindən istifadə edə bilməzdi. Bu neçə nəfər dinin gözətçiləri olmuşdur. Onlar dövrümüzdə yaşayan şiələrimiz arasında bizim məktəblə tanış olan ilk şəxslər olmuş, Qiyamətdə də hamıdan qabaq bizə qovuşanlar məhz onlar olacaqlar.”*[1]

İmam Baqir əleyhissəlamın şagirdləri öz dövrlərinin fəqih və hədisçilərinin başbilənləri olmuş, elmi mübarizə meydanında qeyri–şiə fəqih və qazılarından üstün idilər.

## Elmləri fəth edən, bilik qapılarını açan

İmam Baqir əleyhissəlamın parlaq elmi əsərləri və İslam cəmiyyətinə təhvil verdiyi dəyərli şagirdləri İslam Peyğəmbərinin uzaqgörənliyini çin çıxartdı. Peyğəmbərin (səlləllahu əleyhi və alih) uzaqgörənliyini ehtiva edən bu hədisin ravisi (rəvayətçisi) İslamın ilkin çağlarının görkəmli şəxsiyyətlərindən biri olan Cabir ibn Abdullah Ənsaridir. İslam Peyğəmbərinin dostlarından olan və o Həzrətin ailəsinə xüsusi əlaqə ilə yanaşan Cabir deyir: “Bir gün Peyğəmbər (səlləllahu əleyhi və alih) mənə buyurdu: *“Məndən sonra mənim nəslimdən olan elə bir şəxsi görəcəksən ki, onun adı mənim adıma, özü də mənə oxşayacaq. O, elm qapılarını camaatın üzünə açacaq.”* İslam Peyğəmbəri bunu deyəndə hələ İmam Baqir (əleyhissəlam) dünyaya gəlməmişdi. Bu hadisədən neçə illər ötdü. Dördüncü İmamın dövrü yetişdi. Bir gün Cabir Mədinənin küçələrinin birindən keçəndə, gözü Həzrət Baqir əleyhissəlama sataşdı. Gördü ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) buyurduğu bütün nişanələr onda var. Soruşdu: “Adın nədir?” Həzrət Baqir (əleyhissəlam) buyurdu: “Adım Məhəmməd ibn Əli ibn Hüseyndir.” Cabir onun alnından öpüb buyurdu: “Cəddin Peyğəmbər (səlləllahu əleyhi və alih) mənim vasitəmlə sənə salam göndərdi.” Cabir o gündən etibarən İslam Peyğəmbərinin hörmətini qorumaq və İmam Baqir əleyhissəlamın əzəmətini göstərmək məqsədilə gündə iki dəfə o Həzrətin görüşünə gedərdi. Cabir Peyğəmbər məscidində camaatın arasında oturub (İmam Baqir əleyhissəlamın işlərinə irad tutan bəzi şəxslərin cavabında) Peyğəmbərin (səlləllahu əleyhi və alih) uzaqgörənliyini rəvayət edirdi.[2]

## Bir incəlik

Burada qeyd etməliyik ki, Cabirin İmam Baqir (əleyhissəlam) ilə görüşü və Peyğəmbərin (səlləllahu əleyhi və alih) salamını İmama çatdırması Ricali-Kəşşi, Kəşfül-gümmə, Əmaliyi-Səduq, Əmaliyi-Şeyx Tusi, İxtisasi-Müfid və bu kimi kitablarda müxtəlif rəvayətlər və bir-birinə oxşar məzmunlarla qeyd olunmuşdur. Bu rəvayətlər iki cəhətdən bir-birinə zidd nəzərə yetişir:

**1)** Bu rəvayətlərin bir qisminin mənasından belə başa düşülür ki, Cabir İmam Baqir əleyhissəlamı Mədinə küçələrinin birində görmüş, ikinci qismi rəvayətlərin mənasından belə başa düşülür ki, Cabir İmam Baqir əleyhissəlamı İmam Zeynül-

---

[1] İxtiyari-mə’rifətir-rical, səh.136-137.

[2] Biharül-ənvar, c.46, səh.226.

abidin əleyhissəlamın (yəni atasının) evində görmüş, üçüncü qisim rəvayətlərdən isə belə başa düşülür ki, İmam Baqir (əleyhissəlam) özü Cabirin yanına getmiş, Cabir də onu orada tanımışdır.

**2)** Bu rəvayətlərin bəzisində deyilir ki, Cabir həmin vaxt kor olmuş, bəzilərində isə deyilir ki, Cabir diqqətlə İmam Baqir əleyhissəlamı nəzərdən keçirtdi. Təbii ki, bu məsələ Cabirin kor olması ilə heç də uyğun gəlmir.

Birinci ziddiyyətin cavabında deməliyik ki, bir az diqqət etsək, bu rəvayətlər arasında heç bir ziddiyyət olmadığını görərik. Çünki bəzi faktlar göstərir ki, Cabirin Peyğəmbər ailəsi ilə xüsusi əlaqə və məhəbbəti olduğundan Peyğəmbərin (səlləllahu əleyhi və alih) uzaqgörənlik və İmam Baqir (əleyhissəlam) üçün göndərdiyi salamı dəfələrlə təkrar edir, bu yolla da İmam Baqir əleyhissəlamın məqamının və əzəmətinin yaxşı aydın olmasını istəyirdi. Belə olduqda bu məsələnin bir neçə dəfə müxtəlif yerlərdə təkrar olunmasının nə eybi var?

İkinci ziddiyyətin cavabı isə budur ki, Cabirin İmam Baqir əleyhissəlamı görüb onu diqqətlə nəzərdən keçirməsindən söhbət edən rəvayətlər ola bilsin onun kor olmazdan qabaqkı vaxtına aiddir. Belə ki, Şeyx Müfid İmam Baqir əleyhissəlamdan rəvayət edir: Cabir ibn Abdullah Ənsarinin yanına gedib ona salam verdim. Salamımın cavabını alıb soruşdu: "Kimsən?" Bu hadisə onun gözləri tutulandan sonra olmuşdur.[1] Bu rəvayətə bənzər digər birisini də Səbt ibn əl-Cuzi nəql etmişdir.[2]

## İctimai-siyasi durum

Qeyd etdik ki, İmam Baqir (əleyhissəlam) beş Əməvi xəlifəsinin müasiri olmuşdur. İndi isə İmam Baqir əleyhissəlamın hansı ictimai-siyasi şəraitdə yaşadığını bilmək üçün o Həzrətin müasiri olmuş xəlifələrin idarə sistemindəki xüsusiyyətlərini izah edirik.

## Vəlid ibn Əbdülməlik

Vəlid ibn Əbdülməlik İmam Baqir əleyhissəlamın müasiri olmuş ilk xəlifədir. Onun xüsusiyyətləri barədə İmam Səccad əleyhissəlamın həyatı bölməsində şərh verdiyimiz üçün burada təkcə bunu əlavə edib deyirik: Vəlidin hakimiyyət dövrü müsəlmanların kafirlərlə mübarizədə zəfər və qələbə dövrü olmuşdur. Onun hakimiyyəti dövründə xilafət ərazisi həm Şərqə, həm də Qərbə doğru genişləndi. Vəlid öz hakimiyyəti zamanı ölkədə hökm sürən asayiş nəticəsində özündən qabaqkı xəlifələrin dövründə ələ gəlmiş qələbələri davam etdirə bildi. Buna görə də, onun hakimiyyət dairəsi Şərq və Qərb istiqamətlərində genişlənərək Hindistanın bir hissəsi, həmçinin, Kabul, Kaşğar, Tus və bir çox digər böyük ərazilər geniş İslam ölkəsinə birləşdirildi. Onun zəfərləri İspaniyaya qədər gedib çatmış, İspan imperiyasının qoşunları Musa ibn Nüseyrin başçılığı altında idarə olunan İslam ordusu ilə mübarizədə məğlub olmuş və bu ölkə müsəlmanların əlinə keçmişdi.[3]

---

[1] Əl-İrşad, səh.262.

[2] Təzkirətül-xəvass, səh.337.

[3] İspaniya, yaxud müsəlmanların Avropada hakimiyyəti, səh. 17-18.

## Süleyman ibn Əbdülməlik

Süleyman ibn Əbdülməlikin hakimiyyət dövrü çox qısa olmuşdur. O, üç ildən çox hakimiyyətdə qalmamışdır.[1] Süleyman hakimiyyətə gəldiyi ilk çağlarda özünü bir az mülayim aparmış, İraq həbsxanalarının qapılarını açdıraraq Həccac ibn Yusif tərəfindən həbsə alınmış minlərlə günahsız məhbusu azad etmiş, Yusif ibn Həccacın maliyyə işlərinə təyin etdiyi şəxsləri işdən uzaqlaşdırıb onun zalımcasına qurulmuş bir çox proqramlarını ləğv etmişdi.

## İntiqam alovu

Süleyman ibn Əbdülməlikin İraqın günahsız məhbuslarını azad etməsi ötəri bir şey idi. O, sonradan özünün bu metodunu dəyişərək şəxsi hesablar və hissiyyatların təsiri nəticəsində zülm və cinayətə əl atdı. Qəbilə təəssübkeşliyi məqsədilə Müzəri qəbiləsindən olanları təzyiqlərə məruz qoyub onların rəqibləri olan Qəhtani qəbiləsini (Yəmən qəbilələrini) müdafiə edirdi.[2] O, həmçinin, tanınmış şəxsiyyətləri və ordu başçılarından bəzilərini öldürərək İspaniya zəfərinin iki cəsur qəhrəmanları Musa ibn Nüseyr və Tariq ibn Ziyada soyuq yanaşıb onları işdən qovdu.[3]

“İslamın siyasi tarixi” kitabının müəllifi yazır: “Süleyman ibn Əbdülməlik öz valiləri barədə xüsusi ölçülər götürürdü. Bəzilərinə məhəbbətlə yanaşır, bəzilərini isə aradan qaldırmaq üçün plan çəkirdi. Hindistan əmiri Məhəmməd ibn Qasim, Mavəraun-nəhrin əmiri Qüteybə ibn Müslim və İspaniya əmiri Musa ibn Nüseyr Süleymanın düşmənçilik etdiyi şəxslərdən olmuşlar.”[4] Bu düşmənçiliklərin hamısı şəxsi və qəbilə məqsədləri nəticəsində əmələ gəlmişdi. Təəssüflər olsun ki, burada bu barədə çox söhbət etmək mümkün deyil.

## Hökumət sarayının özbaşınalığı və fəsad işləri

Süleman ibn Əbdülməlik çox acgöz, qarınqulu, kefcil və gözəllikpərəst bir adam olmuşdur. O, bir neçə adi adamın yediyi qədər yemək yeyərdi. Onun üçün açılmış süfrələr həmişə təmtəraqlı olardı. O, ləl-cəvahiratla bəzədilmiş, qıraqları zərli saplarla toxunulmuş qiymətli paltarlar geyər və bu işdə o qədər ifrata yol verərdi ki, hətta onun aşbazxana işçilərinin onun yanına adi paltarda gedib-gəlməsinə icazə verməzdi. Onlar məcbur idilər ki, onun yanına gedəndə rəngli və üzərində ipək saplarla işlənilmiş paltarlar geysinlər. Hökumət sarayındakı bu gözəllikpərəstlik yavaş-yavaş digər şəhərlərə də gəlib çıxdı, Yəmən, Kufə və İskəndəriyyə şəhərlərində də camaat bu cür paltarlar geyməyə öyrəşdi.[5]

---

[1] Əl-Kamilu fit-tarix, c.5, səh.11 və 37.
[2] Tarixi-sədril-İslam vəd-dövlətül-Əməviyyə, səh.197.
[3] Müxtəsəri-tarixil-ərəb, səh.125.
[4] İslamın siyasi tarixi (Doktor İbrahim Həsən), c.1, səh.401.
[5] Mürucuz-zəhəb, c.3, səh.175.

## Ömər ibn Əbdüləziz

(Süleymanın atası) Əbdülməlik ibn Mərvanın Süleymandan sonra onun vəliəhdinin Yezid ibn Əbdülməlik olması barədə vəsiyyət etməsinə baxmayaraq, Süleyman xəstələnib ölümünün çatmasını bildikdə, bir sıra səbəblər üzündən Ömər ibn Əbdüləzizi öz vəliəhdi təyin etdi. Süleymanın ölümündən sonra məsciddə Ömər ibn Əbdüləzizin xəlifə seçildiyi elan olunduqda, camaat bunu çox təntənə ilə qarşılayıb ona beyət etdi.[1] Ömər ibn Əbdüləziz camaatın narahatçılığını, Bəni-Üməyyənin hakimiyyətinə qarşı olan kin-küdurətini görüb öz işinə başlayan kimi kimsəsizlərə kömək etmək qərarına gəldi və mərkəzin əyalətlərdəki nümayəndələrinə belə bir məktub yazdı:

"Camaat zülm, haqsızlıq və çətinliklərə məruz qalmışdır. Allahın dini onların arasında əksinə icra olunmuşdur. Keçmiş zalım hakim və valilər icra etdikləri qanun və bidətlərlə haqqı, xeyir işləri və mülayim rəftarı çox az icra etmiş, camaatı boğaza yığmışlar. İndi ötənləri aradan qaldırmaq lazımdır və bu cür işlər bir daha təkrar olunmamalıdır. Bundan sonra kim həcc ziyarətinə getmək istəsə, gərək onun pulunu tez beytül-maldan ödəyəsiniz. Sizin mənimlə məsləhətləşmədən bir nəfəri cəzalandırmağa, kiminsə əlini kəsməyə, yaxud kimisə edam etməyə ixtiyarınız yoxdur."[2]

## Özbaşınalıq, fəsad və ayrıseçkiliyə qarşı mübarizə

Ömər ibn Əbdüləziz bundan əlavə, öz hökumətini təşkil etdikdən sonra hökumətin hesabında olan at və digər minik vasitələrini müzaidə yolu ilə satışa qoyub onların pulunu beytül-malın hesabına köçürtdü və öz arvadı - Əbdülməlikin qızı Fatiməyə əmr etdi ki, atası və qardaşının beytül-maldan ona bağışladığı qiymətli hədiyyələri və zinət əşyalarını beytül-mala qaytarsın. Əks təqdirdə isə onun evindən getməlidir. Fatimə ərinin əmrinə tabe olub beytül-maldan olan qiymətli hədiyyələr və zinət əşyalarını geri qaytardı.[3]

Ömər ibn Əbdüləziz nə təkcə öz arvadını ədalət qayda-qanunları ilə tanış etdi, hətta Süleyman ibn Əbdülməlikin bütün əmlakını satıb onun iyirmi dörd min dinar məbləğinə qədər pulunu beytül-malın hesabına qaytardı.[4]

İctimai islahat və özbaşınalığa qarşı mübarizəni öz evindən və xəlifənin ətrafına toplaşmış adamlardan başlayan Ömər ibn Əbdüləziz mübarizə dairəsini genişləndirib Bəni-Üməyyə nümayəndələrini və əmisi oğlanlarını hesab ayağına çəkərək onlara əmr etdi ki, ələ keçirdikləri ümumi malları beytül-mala qaytarsınlar. O, tam qətiyyətlə Bəni-Üməyyə nümayəndələrinin camaatdan güclə aldıqları bütün mal-dövləti onlardan geri alıb əsl sahiblərinə qaytardı və Bəni-Üməyyənin əlini mümkün qədər camaatın yaxasından çəkdi.[5] Bu məsələ Bəni-Üməyyə nümayəndələrinə çox pis təsir etdi və onlar Ömər ibn Əbdüləzizə qarşı mübarizəyə başladılar. Bu məqsədlə Ömər

---

[1] Mürucuz-zəhəb, c.3, səh.183.
[2] Tarixi-Yə'qubi, c.3, səh.50.
[3] Tarixül-xüləfa, səh.232.
[4] Əl-İmamətu vəs-siyasət, c.2, səh.116.
[5] Tarixül-xüləfa, səh.232.

ibn Əbdüləzizin qohumlarından bir neçəsi onunla görüşüb dedilər: "Qorxmursan ki, qəbilən yığışıb sənə qarşı qiyam qaldırar?" Ömər dedi: "Mən Qiyamət hesabından başqa heç bir şeydən qorxmuram. (Məni qiyamla qorxudursunuz?)"[1]

## Əli əleyhissəlamı söymək qadağandır!

Qeyd etdiyimiz kimi Ömər ibn Əbdüləziz digər Əməvi xəlifələri ilə müqayisədə nisbətən ədalətli şəxs olmuşdur. Onun hakimiyyətinin Peyğəmbərin (səlləllahu əleyhi və alih) məsum canişinləri tərəfindən rəsmən tanınmadığı üçün onun da zalımlar cərgəsinə daxil olmasına baxmayaraq, o, özündən qabaqkı xəlifələrin zülmlərinə qarşı çıxaraq hakimiyyətini xalqa xidmət etməyə həsr etdi. Bu xidmətlər arasında onun İslama, bəlkə də bəşəriyyət aləminə göstərdiyi, həyat və hakimiyyət dövrünün xüsusi parlaq xidməti Əmirəl-möminin Həzrət Əli əleyhissəlamı söymək adətini aradan götürərək qadağan etməsidir. O, bu işi ilə altımış doqquz illik rişə atmış çirkin bir bidəti aradan götürməklə, şiə aləminə, bəlkə də, bütün bəşəriyyət aləminə xidmət etmiş oldu. Bu bidət Müaviyənin qoyduğu çirkin miras idi. Həzrət Əli əleyhissəlamın şəhadətindən sonra (hicrətin qırxıncı ili) bütün mövqeyi ələ keçirən Müaviyə qərara gəldi ki, əks təbliğat və müxalif şüarlar vasitəsilə Əli əleyhissəlamı İslam aləminin "ən nankor" adamı kimi tanıtdırsın. O, bu məqsədini həyata keçirmək üçün bir tərəfdən Əli əleyhissəlamın dost və şiələrini təzyiqlərə məruz qoymaqla qılınc gücü ilə Əli əleyhissəlamın fəzilətlərinin söylənilməsinin qarşısını alaraq bir hədis, hekayə və şer belə, o Həzrətin mədhi barədə deyilməsinə icazə vermir, digər tərəfdən də, o Həzrətin parlaq simasını əksinə göstərmək üçün Əməvi hökumətinin hədisçi və yaltaqlarını Əli əleyhissəlamın əleyhinə hədis quraşdırmağa məcbur edirdi. Bu yolla saysız hədislər söylənilib camaatın arasında yayıldı. Müaviyə bununla da, kifayətlənməyib əmr etdi ki, bütün xilafət ərazisində cümə günləri minbərə çıxıb xütbə oxuyarkən Əli əleyhissəlamı söymək də xütbəyə əlavə edilsin. Bu çirkin bidət icra olunaraq adət halını aldı. Ümumi fikirlərdə öz təsirini qoyaraq rişə atmış bir iş halına çevrildi. Belə ki, uşaqlar Əli əleyhissəlama qarşı kin-küdurətlə böyüdülər, böyüklər isə Əli əleyhissəlama qarşı zidd fikirlərlə dünyadan getdilər.

Müaviyədən sonra digər Əməvi xəlifələri də bu adəti davam etdirmiş və bu iş Ömər ibn Əbdüləzizin hakimiyyətə yetişdiyi – təxminən hicrətin birinci yüzilliyinədək icra olunurdu.[1]

## Bir müəllimin təsir şüası

Burada belə bir sual irəli çıxır ki, Ömər ibn Əbdüləzizin bu işdən (Həzrət Əli əleyhissəlamı söyməyi qadağan etməkdən) məqsədi nə olmuş və nəyə görə Əməvi xəlifələri arasında məhz o bu işə əl atmışdır?

Sualın cavabı budur ki, Ömər ibn Əbdüləzizin uşaqlıq illərində zahirən iki kiçik hadisə onun ümumi fikirlərini təsir altına almış və fikir yolunu dəyişmişdir. Onun hakimiyyət dövründəki bu böyük iş əslində oradan nəşələnmişdir.

---

[1] Əl-Əxbarut-təval, səh.331.

[1] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil Hədid) c.3,səh.57.

Birinci hadisə Ömər ibn Əbdüləzizin Übeydullah adlı Allahı tanıyan, agah və imanlı bir kişinin yanında dərs öyrəndiyi vaxt baş vermişdir. Bir gün Ömər Bəni-Üməyyədən olan öz tay-tuşları ilə birlikdə oynayırdı. Uşaqlar oynaya-oynaya öz adət-ənənələrinə sadiq qalıb kiçik bir bəhanə taparaq Əli əleyhissəlamı lənətləyirdilər. Ömər də onlara qoşulub Həzrət Əli əleyhissəlamı söyürdü. Elə bu vaxt onun müəllimi uşaqların yanından keçərkən onun da digər uşaqlar kimi Əli əleyhissəlamı söydüyünü eşitdi. Ağıllı müəllim heç bir söz deməyib məscidə getdi. Dərs vaxtı çatanda, Ömər də məscidə getdi. Müəllim onu görcək namaz qılmağa başladı. Ömər bir qədər oturub gözlədi ki, müəllim namazı qurtarsın. Ancaq müəllim namazı həmişəkindən bir az çox uzatdı. Azyaşlı şagird başa düşdü ki, müəllim ondan inciyib və namaz bir bəhanədir. Müəllim namazı qurtardıqdan sonra qəzəb dolu baxışla ona baxıb dedi: “Haradan bilirsən ki, Allah Bədr döyüşündə və Hüdeybiyyə sülhündə iştirak edənlərdən razı qaldıqdan sonra onlara qəzəb etmiş və onlar lənətə layiq olmuşlar?”

Ömər: “Bu barədə mən bir şey eşitməmişəm.”

— “Bəs nəyə görə Əli əleyhissəlamı lənətləyirsən?”

— Tutduğum işdən üzr istəyir, Allah dərgahına tövbə edib söz verirəm ki, bir də belə iş görməyəcəyəm.

Müəllimin məntiqli və təsirli sözləri öz işini görərək Ömər ibn Əbdüləzizə çox böyük təsir bağışladı. Ömər o gündən etibarən söz verdi ki, bir daha Əli (əleyhissəlam) üçün nalayiq sözlər deməyəcək. Ancaq o, küçə və bazarda, uşaqlarla oynayanda, eşidirdi ki, camaat çəkinmədən Əli əleyhissəlamı lənətləyir.

İkinci hadisə Ömərі öz sözünün üstündə durmağa daha da vadar etdi.

## Böyük bir etiraf

İkinci hadisə belə olmuşdur:

Ömərin atası Əbdüləziz Şam hökuməti tərəfindən Mədinə şəhərinin valisi seçilmişdi. O, cümə günləri həmişə olduğu kimi cümə namazının xütbəsində Əli əleyhissəlamı lənətləyir və xütbəni o Həzrəti lənətləməklə qurtarırdı. Bir gün oğlu Ömər ona dedi: “Ata, sən xütbə oxuyarkən hansı məsələyə başlayırsansa, onun barəsində ətraflı söhbət edir, öz fəsahət və bəlağətinlə həmin məsələnin öhdəsindən gəlirsən, ancaq elə ki, növbə Əli əleyhissəlamı lənətləməyə yetişir, dilin bir az dolaşır. Bunun səbəbi nədir?” Atası dedi: “Oğlum, sən bu işə fikir vermisən?”

Ömər: “Bəli, ata.”

Atası: “Oğlum, bizim ətrafımıza yığışıb minbərimizin kənarında oturan bu camaat mənim Əli əleyhissəlamın fəzilətləri barədə bildiyimi bilsələr, bizim ətrafımızdan dağılıb Əli əleyhissəlamın övladlarının ardınca gedəcəklər.”

Müəlliminin sözləri hələ də qulağında səslənən Ömər elə ki, bu etirafı öz atasından eşitdi, başdan-ayağa dəyişib özünə söz verdi ki, əgər bir gün hakimiyyətə gələrsə, bu bidəti aradan götürəcək. Buna görə də, hicrətin doxsan doqquzuncu ilində hakimiyyətə gəlcək öz keçmiş arzusunu həyata keçirtdi və bir bəyannamə dərc etdirərək əmr verdi ki, bundan sonra minbərlərdə Əli əleyhissəlamı lənətləməyin əvəzinə ***“Həqiqətən, Allah [Quranda insanlara] ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara [haqqını] verməyi [kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl***

***tutmağı] buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər. [Allah] sizə, bəlkə, düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir.”***[1] ayəsi oxunulsun! Bu iş camaat tərəfindən xoş ruhiyyə ilə qarşılandı və şairlər bu işi mədh etdilər.[2]

## Fədəyin xanım Zəhranın (səlamullahi əleyha) övladlarına qaytarılması

Peyğəmbər ailəsindən zülmün götürülməsi məqsədilə Ömər ibn Əbdüləzizin gördüyü böyük və əsaslı tədbirlərdən biri də, Fədəyin Peyğəmbər qızı xanım Zəhranın (səlamullahi əleyha) övladlarına qaytarması olmuşdur. Fədəyin İslam tarixində çox acı və uzun bir macərası vardır. Bu kitabda ondan bəhs etməyə imkan olmadığından qısaca olaraq onun tarixi faktlarını qeyd edirik. Peyğəmbər (səlləllahu əleyhi və alih) Fədəyi öz sağlığında qızı xanım Zəhraya (səlamullahi əleyha) bağışlamış, Peyğəmbər (səlləllahu əleyhi və alih) vəfat etdikdən sonra isə Əbu Bəkr onu güclə xanım Zəhradan (səlamullahi əleyha) alıb beytül-malın torpaqları sırasına qatmışdır. O vaxtdan sonra xəlifələr bu bağı bir-birinə ötürmüş və nəhayət, Müaviyə öz hakimiyyəti dövründə onu Mərvana, Mərvan da öz oğlu Əbdüləzizə bağışlamışdır. Əbdüləziz öldükdən sonra Fədək Ömər ibn Əbdüləzizə çatır. Ömər ibn Əbdüləziz onu xanım Zəhranın (səlamullahi əleyha) övladlarına qaytarıb deyir: “Fədək onlarındır və Bəni-Üməyyənin onda heç bir haqqı yoxdur. Ancaq təəssüflər olsun ki, Ömər öldükdən sonra Yezid ibn Əbdülməlik hakimiyyətə gəlib Fədəyi xanım Zəhranın (səlamullahi əleyha) övladlarından alıb Bəni-Üməyyə nümayəndələrinin tiyulu (mülkü) qərar verir.[3]

Şeyx Səduq “Əl-Xisal” kitabında nəql edir ki, Ömər ibn Əbdüləziz Mədinəyə səfəri zamanı İmam Baqir əleyhissəlamla görüşüb Fədəyi o Həzrətə qaytardı.[4]

İmam Baqir (əleyhissəlam) sanki Ömər ibn Əbdüləzizin Peyğəmbər ailəsindən bəzi zülmləri götürməsini nəzərə alıb buyurmuşdur: “Ömər ibn Əbdüləziz Bəni-Üməyyənin ən nəcib adamıdır.”[5]

Ömər ibn Əbdüləziz iki il hakimiyyətdə olmuş və deyilənə görə Bəni-Üməyyə nümayəndələri onu zəhərləyərək öldürmüşlər.[6]

## Hədis yazmağın qadağan edilməsi

Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra İslam cəmiyyətində ortaya çıxmış azğınlıqların ardınca çox təəssüfləndirici başqa bir hadisə meydana gəlmiş, onun acınacaqlı və ziyanverici nəticələri uzun müddət İslam aləminə zərbə vurmuşdur. O hadisə hədis söyləmək, yazmaq və toplamağın qadağan edilməsi olmuşdur.

---

[1] “Nəhl” surəsi, ayə 90.
[2] Əl-Kamilu fit-tarix, c.5, səh.42.
[3] Tarixi-Yə’qubi, c.3, səh.50.
[4] Əl-Xisal, 3-cü bölmə.
[5] Tarixül-xüləfa, səh.230.
[6] Əqdül-fərid, c.4, səh.432.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) hədis və buyurduqlarının Qurandan sonra ikinci yerdə durduğuna, asimani kitabdan (Qurandan) sonra İslam mədəniyyətinin ən böyük mənbəyi sayılmasına və ümumiyyətlə, bu iki şeyin (Quranla hədisin) bir-birindən ayrılmasının qeyri-mümkün olmasına baxmayaraq, birinci və ikinci xəlifə hədis yazıb toplamağın əleyhinə çıxıb puç və əsassız bəhanələrlə, həqiqətdə isə siyasi məqsədlərlə müsəlmanlara hədis yazıb söyləməyi qadağan etdilər. Əbu Bəkr dedi: "Allah Peyğəmbərindən heç bir şey söyləməyin! Əgər sizlərdən bir nəfər bir məsələ barədə sual etsə, ona deyin ki, Allahın kitabı (Quran) bizim və sizin aranızdadır, onun halalını halal, haramını haram sayın."[1] İkinci xəlifə Peyğəmbərin (səlləllahu əleyhi və alih) hədislərinin yazılmasına qadağa qoymaq məqsədilə İslam dövlətinin bütün ərazilərinə bir bəyannamə nəşr etdirərək yazdı: "Kim Peyğəmbərdən (səlləllahu əleyhi və alih) bir hədis belə yazıbsa, onu məhv etsin."[2] Ömər təkcə bu bəyannamə ilə kifayətlənməyib Peyğəmbərin (səlləllahu əleyhi və alih) bütün səhabələrinə və həmçinin, bütün hədis əzbər bilənlərə ciddi xəbərdarlıq etdi ki, hədis söyləmək və yazmaqdan çəkinsinlər. Peyğəmbərin (səlləllahu əleyhi və alih) tanınmış səhabələrindən olan Qərzə ibn Kəb deyir: "Ömər bizi İraqa göndərərkən özü də bizimlə bir az yol gəlib dedi: "Bilirsiniz sizi nəyə görə yola salıram?" Dedik ki, yəqin Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələri olduğumuz üçün xəlifə bu əziyyətə qatlaşır. Dedi: "Sizin hörmətinizdən əlavə, ona görə sizi şəxsən yola salıram ki, sizə bir məsələni tövsiyə edəm və sizinlə piyada gəlib sizi ötürməyim xatirinə onu yerinə yetirəsiniz." Sonra əlavə edib dedi: "Siz elə bir yerə gedirsiniz ki, oranın əhalisi öz məscid və məclislərini Quran zümzüməsi ilə doldurmuşlar. Mənim sizə tövsiyəm budur ki, onlarla işiniz olmasın və camaatın başını hədislə qatıb onları Qurandan ayırmayın! Camaat üçün Quranı ona hədis qatmadan oxuyun, Peyğəmbərdən (səlləllahu əleyhi və alih) çox az hədis söyləyin. Biz də bu işdə sizinlə həmkarlıq edəcəyik."

Qərzə göndərildiyi yerə çatanda ona dedilər ki, bizim üçün hədis söylə. O isə cavab verdi ki, xəlifə hədis söyləməyi bizə qadağan etmişdir.[3]

Ömər öz xəlifəlik dövründə belə qərara gəldi ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) hədislərini yazsın. Sonra cəmiyyət arasında bu məsələnin (hədis yazmağın) azad olmasını göstərmək məqsədilə bu söhbəti camaat arasına çıxartdı. O, bir ay fikirləşdikdən sonra həll yolu tapıb camaata dedi: "Keçmiş ümmətləri yadıma saldım, onlar bəzi kitabları yazıb toplayaraq onlara çox diqqət etdiklərinə görə öz asimani kitablarından uzaq düşdülər. Buna görə də, mən Allah kitabını (Quranı) heç bir şeylə qarışdırmaram."[4]

Xəlifə təkcə bu işin qarşısını almaq üçün fərman verməklə kifayətlənmir, eyni zamanda hədis söyləyən şəxsi möhkəmcə cəzalandırırdı. Belə ki, bir gün o üçü də İslamın ilkin çağlarının böyük şəxsiyyətlərindən olan ibn Məsud, Əbu Dərda və

[1] Təzkirətül-huffaz, c.1, səh.3.
[2] Əzvaun ələs-sünnətil-Mühəmmədiyyə, səh.43.
[3] Təzkirətül-huffaz, c.1, səh.7.
[4] Əzvaun ələs-sünnətil-Mühəmmədiyyə, səh.43.

Əbuzərə demişdir: "Nədir, Peyğəmbərdən söylədiyiniz bu hədislər?" Sonra onları tutub həbs etmiş və o üç nəfər Ömər ölənə qədər həbsdə qalmışdı.[1]

Bu cür cəzalandırmalar üzündən digər müsəlmanlar da hədis yazıb söyləməyə cürət etmədilər.

## Siyasi məqsəd

Əldə olan faktlar sübut edir ki, bu bəyannaməni nəşr etdirmək siyasi məqsəd daşımışdır. O da bundan ibarət idi ki, bunun simasında o günlər Həzrət Əli əleyhissəlama nəsib olmuş böyük bir üstünlük aradan aparılsın. Çünki Həzrət Əli (əleyhissəlam) Peyğəmbərin sağlığında bəzi kitablar yazaraq orada Peyğəmbərin hədislərini və o Həzrətdən müxtəlif sahələr üzrə eşitdiyi həqiqətləri qeyd etmişdi.

## Əvəzi çıxılmaz bir ziyan

Bu məhdudiyyətlər bais oldu ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) şərəfli hədisləri hədis əzbərləmiş adamların sinələrində qalsın. Beləliklə də, müsəlmanlar bu böyük İslami mədəniyyət mənbəyindən uzun müddət məhrum oldular. İş o yerə çatmışdı ki, Şəbi deyirdi: "Bir il Ömərin oğlu ilə bir yerdə oldum, ondan nümunə üçün də olsa, bir Peyğəmbər hədisi eşitmədim."[2]

Saib ibn Yezid deyir: "Mədinədən Məkkəyədək Səd ibn Maliklə yol yoldaşı oldum, o, səfər boyunca Peyğəmbərdən (səlləllahu əleyhi və alih) bir dənə də olsun, hədis söyləmədi."[3] Deməsək də, məlumdur ki, bu qadağa nəticəsində İslama dəyən zərbə aradan qaldırıla bilməz. Çünki Peyğəmbər hədislərinin yazılması yüz ilə yaxın müddətə kimi tərk olunmuş, o mənalı sözlər müsəlmanlar arasında müzakirə olunmamışdır. Bunların hamısından pisi isə bəzi yalançı şəxslərin bu fürsətdən istifadə edib öz dövrlərinin xəlifələrinin xeyrinə yalançı hədislər qoşmaları olmuşdur. Çünki hədisin sənədi təkcə əzbərləmək və adamlardan eşitməyə inhisarlaşırsa, təbii ki, hər bir insan hər cür iddia edə bilər. (Öz iddiasını hədis şəklində söyləyə bilər.) Ona görə ki, nə bir kitab var idi, nə bir dəftər, nə də bir hesabat. Məlumdur ki, belə bir şəraitdə də onlarla Əbu Hüreyrələr[4] meydana gəlib qeyri-şəri məqsədlər üçün özlərini doğru hədisçi kimi qələmə verəcəklər. Bu vəziyyət hicrətin birinci yüzilliyinə kimi, yəni Ömər ibn Əbdüləzizin hakimiyyəti (99-101 h.q) dövrünədək davam etmişdir. Ömər ibn Əbdüləziz təqdirəlayiq bir addım ataraq bu acınacaqlı bidəti aradan götürməklə camaatı hədis söyləmək, yazmaq və toplamağa şövqləndirdi. O, alim və hədisçiləri bu işə cəlb etmək məqsədilə bir bəyannamə dərc etdirdi. Bəyannamədə deyilirdi: "Peyğəmbərin (səlləllahu əleyhi və alih) hədislərini toplayaraq onları yazın. Çünki mən qorxuram alim və hədisçilərin dünyadan getməsi ilə o Həzrətin elm çırağı sönə."[5] Buxarinin dediyinə görə, Ömər ibn Əbdüləziz yuxarıda qeyd etdiyimiz məzmunda digər bir bəyannamə də Mədinədəki

[1] Əl-Müstədrəku ələs-səhihəyn, c.1, səh.110.
[2] Sünəni-ibn Macə, c.1, səh.11.
[3] Sünəni-ibn Macə, c.1, səh.12.
[4] Əbu Hüreyrə yalançı hədis söyləmək üzrə məşhur olmuş bir şəxsdir.
[5] Əs-Sünnətu qəblət-tədvin, səh.309.

nümayəndəsi Əbu Bəkr ibn Həzəmə yazdı.[1] Ancaq bu hələ işin əvvəli idi və bir əsr geri qalmağın əvəzini çıxmaq, Peyğəmbər hədislərini dirçəltmək, yaddaşlarda qalıb böyük, ya kiçik təhriflərlə qarışan hədisləri yazmaq üçün çox vaxt lazım idi. Ömər ibn Əbdüləzizin hakimiyyəti uzun sürmədiyindən bu iş çox da sürətlə irəliləmədi. Çünki ondan sonra Yezid ibn Əbdülməlik və Hişam ibn Əbdülməlik ardıcıl olaraq hakimiyyətə gəlmiş və onların hökumətində olmayan təkcə şey İslam və müsəlmanların qayğısına qalmaq idi.

Bəziləri yazırlar: Ömər ibn Əbdüləzizin əmri ilə hədisləri toplayan ilk şəxs Məhəmməd ibn Müslim ibn Şəhab Zühri (Zührinin nəvəsi) olmuşdur.[2] Nəzərə almaq lazımdır ki, düzdür, Ömər ibn Əbdüləzizin dövründən etibarən hədis söyləyib yazmaq azad buraxılmışdı, ancaq bir tərəfdən hədis yazılmasının qadağan olduğu dövrdə qoşulmuş yalançı hədislər, (doğru) hədis topluları sırasına qoşulmuş, digər tərəfdən də, rəsmi hədisçilər (dövlət hədisçiləri) və hakimiyyət tərəfdarları Əhli-beytin və onun şiələrinin xeyrinə nəticələnən hədisləri deməkdən boyun qaçırıb onları gizli saxlayırdılar.

## Əsassız bəhanələr

Burada belə bir sual irəli çıxır ki, hədis yazıb söyləməyin qadağan edilməsinin səbəbi nə olmuş və ikinci xəlifə hansı əsasa görə belə bir bəyannamə nəşr etdirmişdir? Halbuki, hamıya məlumdur ki, hədislər (Peyğəmbər hədisləri) Quran ayələri kimi hüccət (sənəd) olub ona əməl etmək bütün müsəlmanların borcudur. Quran Peyğəmbərin (səlləllahu əleyhi və alih) buyurduğu bütün məsələlər (istər Allahın buyurduğu olan Quran ayələri, istərsə də o Həzrətin sözlərindən ibarət olan, lakin məfhumu vəhy aləminə aid olan buyurduğu hədislər olsun) barədə buyurur: ***“O, [Məhəmməd Peyğəmbər] kefi istəyəni danışmır. Bu, ancaq [Allah dərgahından] nazil olan bir vəhydir.”***[3] Bundan da əlavə, Allah-taala Peyğəmbərin (səlləllahu əleyhi və alih) buyruq və əmrlərini müsəlmanlara açıq-aşkar hüccət edərək buyurmuşdur: ***“Peyğəmbər sizə nə verirsə və nə əmr edirsə, onu götürün və ona itaət edin, nəyi qadağan edirsə, ondan əl çəkin.”***[4]

Abdullah ibn Əmr Peyğəmbərdən (səlləllahu əleyhi və alih) rəvayət edir ki, o Həzrət öz dodaqlarına işarə edərək buyurur: *“Ey Əmrin oğlu! And olsun canım əlində olan Allaha, bu iki (dodağın) arasından haqdan başqa bir şey (söz) çıxmaz, nə deyirəm, yaz.”*[5]

Abdullah ibn Əmr deyir ki, Peyğəmbərdən (s) soruşdum: “Ey Allahın Rəsulu, hər nə sizdən eşitsəm yazımmı? Həzrət (s) buyurdu: Bəli. Dedim: İstər xoşhal, istər qəzəbli halda olsan da? Buyurdu: Bəli. Mən hər iki halda da haqdan başqa bir şey demirəm.”[6]

---

[1] Səhihi-Buxari, c.2, səh.6.
[2] Elmül-hədis və dirayətül-hədis, səh.30.
[3] “Nəcm” surəsi, ayə 3-4.
[4] “Həşr” surəsi, ayə 7.
[5] Əl-Mustədrəku ələs-səhiheyn, c.1, səh.104.
[6] “Tədribür-ravi”, Siyuti, c. 2, səh. 62.

Peyğəmbər hədislərinin bu qədər əhəmiyyət kəsb etdiyi, mühüm və arxayın yollarla camaatın İslam həqiqəti ilə əlaqəsi sayıldığı bir halda, ikinci xəlifənin Peyğəmbər hədislərinin yazılmasının qadağan edilməsi məqsədilə "Kim Peyğəmbərdən (səlləllahu əleyhi və alih) bir dənə də olsun hədis yazıbsa, onu məhv etsin" məzmunlu bəyannamə nəşr etdirib bütün İslami məntəqələrə göndərməsi düzgündürmü? Bu bəyannamə elm öyrənməyin daima tərəfdarı olan İslam ruhiyyəsi ilə uyğun gəlirmi?

Bu sualın cavabında hökumət tərəfdarları əl-ayağa düşərək xəlifənin bu fərmanına özlərindən bir hikmət qoşmuş və iddia etmişlər ki, Əbu-Bəkr demişdir: "Peyğəmbər hədislərinin söylənilməsinin qarşısını almaqdan məqsəd budur ki, hədislər Quran ayələri ilə qarışmasın."[1] Bu bəhanə o qədər əsassızdır ki, heç ona cavab verməyə dəyməz. Çünki Peyğəmbər vəfat edən zaman artıq Quranın bütün surə və ayələri yazılmış, vəhy yazanlar və Quran əzbərləyənlər öz möhkəm yaddaşları ilə onu əzbərləmiş, Quran ayələri elə müəyyən edilmişdi ki, bir nəfər ondan nə bir hərf azalda bilər, nə də bir hərf ona əlavə edə bilərdi. Belə olduğu halda, hədis yazmaq Qurana bir xələl yetirərdimi? Bundan da əlavə, Quran fəsahət-bəlağət, cazibədarlıq, cümlələrin (ayələrin) bir-birinə bağlanması cəhətindən o qədər yüksək səviyyədədir ki, heç bir söz və ya yazı ona çata bilməz. Hər hansı bir söz fəsahət və bəlağət cəhətdən nə qədər yüksək səviyyədə olursa olsun, yenə də Quran ayələrilə qarışdırıla bilməz. Əmirəl-möminin Həzrət Əli əleyhissəlamın Nəhcül-bəlağədəki və eləcə də, Peyğəmbərin öz xütbələri fəsahət və bəlağətin kulminasiya nöqtəsindədir, ancaq bununla belə, heç vaxt Quranla qarışdırıla bilməz. Həzrət Əli əleyhissəlamın öz xütbələri əsnasında qeyd etdiyi ayələr o Həzrətin sözlərinin içində mirvari kimi parlayır və ərəb dili ilə tanış olan şəxs ilk baxışdan bu iki söz (Allahın sözü ilə, Əli əleyhissəlamın sözü) arasında fərq qoyur.

## Peyğəmbər (səlləllahu əleyhi və alih) hədis yazmağı qadağan etmişdimi?

Çox təəssüfləndirici haldır ki, bəzi hədisçilər hədis yazmağın qadağan edilməsini Peyğəmbərə (səlləllahu əleyhi və alih) nisbət verərək demişlər: Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: "Mənim dediklərimin arasından Qurandan başqa heç nə yazmayın, kim də Qurandan başqa bir şey yazıbsa, onu məhv etsin."[2]

Bəzi faktlar bu məsələnin düzgün olmadığını sübut edir. Çünki əvvəla Peyğəmbər məktəbinin seçilmiş şagirdi Həzrət Əli (əleyhissəlam) o Həzrətdən çoxlu sayda hədislər yazmış, onun əlyazmaları bir-bir İmamlara yetişmişdir. Əgər Peyğəmbər (səlləllahu əleyhi və alih) hədis yazmağı qadağan etsəydi, Əli (əleyhissəlam) əsla onun əmrinə qarşı çıxıb belə iş görməzdi. İkincisi də, müxtəlif məsələlər – əhkam, vacib-haram, mürafiə və siyasi məsələlər barədə Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz dövründə bir çox yazılar yazılmış, hədisçi və tarix yazanlar da onların mətnini düzgün və qəti sənədlərlə qələmə almışlar. Bu yazıların (məktubların) çox hissəsi əsl İslama dəvət barədə yazılmış, əksəri isə İslami hökmlər - hədlər,

---

[1] Əzvaun ələs-sünnətil-Mühəmmədiyyə, səh.43.

[2] Müsnədi-Əhməd ibn Hənbəl, c.3, səh.12.

mübahisələr, əhkam və vacibi məsələlər barədə qələmə alınmışdır. Buna əsasən, necə inana bilərik ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) bir tərəfdən Qurandan başqa şeylərin yazılmasını qadağan edir, digər tərəfdən isə hal-hazırda iki yüz on altısı bütün xırdalıqlarına qədər bizim əlimizdə olan üç yüzə yaxın məktub (yazılı) gözü qarşısında yazılır, ancaq Peyğəmbər (səlləlahu əleyhi və alih) onu qadağan etmir?

## Şiə - hədis toplamağın banisi

Sevindirici haldır ki, şiələr elə Peyğəmbərin (səlləllahu əleyhi və alih) sağlığından bu sahədə çoxlu səylər etmiş, Əli əleyhissəlamın yolunu davam etdirərək hədis yazıb söyləməkdə qabaqcıl olmuş, hədis sahəsində qiymətli və dəyərli əsərlər yazıb qoymuşlar. Əli (əleyhissəlam) Peyğəmbər (səlləllahu əleyhi və alih) hədislərini toplayan ilk şəxs olmuşdur. Peyğəmbər (səlləlahu əleyhi və alih) hədis buyurur, Əli (əleyhissəlam) da onları yazaraq kamil bir kitab halına salırdı. Bu kitab bir-bir İmamlara yetişərək İmam Baqir əleyhissəlamın əlinə çatdı. Bir gün Həkəm ibn Üteybə həmin kitabı İmam Baqir əleyhissəlamın yanında gördü. O, İmam Baqir (əleyhissəlam) ilə bir məsələ barədə mübahisə etmişdi. İmam Baqir (əleyhissəlam) o kitabdan həmin məsələyə aid olan hədisi tapıb ona göstərərək buyurdu: "Bu Əli əleyhissəlamın xətti, Peyğəmbərin (səlləlahu əleyhi və alih) buyurduğudur."[1]

Süyuti Həzrət Əli (əleyhissəlam) və oğlu İmam Həsən əleyhissəlamı hədis yazılmasının tərəfdarlarından hesab edir.[2] Əgər sünni məzhəbi hədis yazılmasının qadağan olması bidətinin nəticəsində yüz il, ya bir az da çox İslami hədisləri yazmayıblarsa, sevindirici haldır ki, şiələr bu sahədə qabaqcıl olmuşlar. Çünki elə Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz dövründə Əli əleyhissəlamdan başqa o Həzrətin dostlarından və Əli əleyhissəlamın tərəfdarlarından biri olan Əbu Rafi "Əs-Sünənü vəl-əhkamu vəl-qəzaya" adlı bir kitab yazmış, İslamın müxtəlif sahələrinə – namaz, oruc, zəkat, həcc və mürafiəyə aid əhkam və şəri məsələləri qeyd etmişdir. Əgər biz bu kitabı səhabələr tərəfindən yazılmış ilk hədis kitabı kimi qəbul etsək, onda onu eyni zamanda bu sahədə olan ilk fiqh kitabı kimi də qəbul edə bilərik.[3]

Əbu Rafi` bu kitabı o vaxt yazmışdır ki, Peyğəmbərdən (s) hədis nəql edib-yazmaq xilafət tərəfindən böyük cinayət sayılırdı. Amma şiələr isə qorxu və təhlükələrə əhəmiyyət verməyib Əhli-beyti (ə) örnək tutaraq hədislərin qeydi və toplanmasını davam etdirirdilər.

Əbu Rafidən sonra şiə yazıçıları elə hədis yazmağın qadağan olduğu ilk çağlarda da, hədis yazmağa başladılar və bu yolla öz rəhbərlərinin sözlərini təhriflərdən qorudular. Bu iş Həzrət Əli əleyhissəlamın dövründən İmam Baqir əleyhissəlamın dövrünədək davam etmiş, İmam Baqir əleyhissəlamın dövründə Ömər ibn Əbdüləziz tərəfindən hədislərin yazılması barədə bəyannamə nəşr edilən ərəfədə İmam Baqir əleyhissəlamın qabaqcıl şagirdləri minlərlə hədis əzbər bilirdilər. Məhəmməd ibn Müslim şiə məzhəbinin böyük şəxsiyyətlərindən, yüksək dərəcəli və fəzilətli hədisçilərdən, İmam Baqir əleyhissəlamın fiqh və hədis sahəsində ən qabaqcıl

---

[1] Ricali-Kəşşi, səh.288.
[2] Tədribür-ravi fi-şərhi-təqribin-nəvav, c.2, səh.61.
[3] Bühusun fil-miləli vən-nihəl, c.1, səh.58-73.

şagirdlərindən biri olmuşdur. O, Kufə şəhərində anadan olmuş, dörd il Mədinədə qaldığı müddətdə daima İmam Baqir əleyhissəlamla, ondan sonra da, İmam Sadiq əleyhissəlamla daima əlaqə saxlamış və bu iki böyük İmamın hüzurundan istifadə etmişdi. O deyir: "İstədiyim məsələni İmam Baqir əleyhissəlamdan soruşub cavab alırdım. Belə ki, otuz min hədis İmam Baqir əleyhissəlamdan, on altı min hədis isə İmam Sadiq əleyhissəlamdan hədis öyrəndim."[1]

Məhəmməd ibn Müslim "Ərbəəmiətu məsələtin" (Dörd yüz məsələ) adlı bir kitab yazmışdı. Bu kitabdakı məsələlər onun İmam Baqir (əleyhissəlam) və İmam Sadiq əleyhissəlamdan eşitdiyi məsələlərin cavabları idi.[2]

İmam Baqir əleyhissəlamın məktəbinin yetişdirmələrindən biri də Cabir ibn Yezid Cufidir. O da Kufə şəhərində anadan olmuş, İmam Baqir əleyhissəlamın elmindən faydalanmaq məqsədilə Mədinəyə köçmüşdür. İmam Baqir əleyhissəlamın gözəl məktəbindən istifadə etməsi sayəsində böyük elmi rütbələrə yüksəlmişdir. Cabir İmam Baqir əleyhissəlamın coşub-daşan elm və bilik bulağından istifadə edərək çoxlu sayda kitab və əsərlər yazıb qoymuşdur ki, bu da şiələrin hədis və maarifi yazmağa olan diqqətinə daha bir sübutdur. Cabirin yazdığı kitablar aşağıdakılardır:

**1.** Təfsir kitabı;
**2.** Nadir məsələlər kitabı;
**3.** Fəzilətlər kitabı;
**4.** Cəməl (döyüşü) kitabı;
**5.** Siffeyn (döyüşü) kitabı;
**6.** Nəhrəvan (döyüşü) kitabı;
**7.** Əmirəl-möminin Həzrət Əli əleyhissəlamın məqtəl kitabı;
**8.** İmam Hüseyn əleyhissəlamın məqtəl kitabı.[3]

## Yezid ibn Əbdülməlik

Ömər ibn Əbdüləzizin ölümündən sonra Yezid ibn Əbdülməlik hakimiyyətə gəlir. O, çox əyyaş, kefcil, laqeyd bir adam olub əxlaqi və dini qayda-qanunlara əsla riayət etmirdi. Buna görə də, onun hakimiyyət dövrü Bəni-Üməyyənin hakimiyyətdə olduğu ən pis və azğınlıq dövrü hesab olunur. Onun hakimiyyəti dövründə İslam tarixində heç bir fəth, zəfər və parlaq bir hadisə baş verməmişdir.

Yezid ibn Əbdülməlik Ömər ibn Əbdüləzizin hakimiyyəti dövründə vəliəhd olduğundan əsl simasını dəyişib adi şəkil almış və bu yolla camaatın fikrini özünə cəlb etmişdi. Bu baxımdan da, onun hakimiyyətinin ilkin çağları, xüsusilə də, onun keçmiş xəlifənin yolunu davam etdirəcəyi vədəsini verdikdən sonra camaat onu razılıqla qarşılamışdır. Bu vədə (keçmiş xəlifənin yolunun davam etdiriləcəyi vədəsi) Ömər ibn Əbdüləzizin dövründə (az da olsa) haqq-ədalət ləzzətini dadanlar üçün bir ümid müjdəsi idi. Ancaq çox çəkmədi ki, bu intizar ümidsizliyə çevrildi. Çünki onun hakimiyyətə gəldiyi bir neçə gündən sonra proqram dəyişdi və bütün vədələr boşa çıxdı.

---

[1] Əl-İxtisas, səh.201.
[2] Müəllifüş-şiə fi sədril islam, səh.64.
[3] Müəllifüş-şiə fi sədril-İslam, səh.36.

## Yalan şəhadət

Yezid ibn Əbdülməlik öz qanunsuz əməllərinin üstünü örtmək və gördüyü günahlardan özünə bəraət qazandırmaq üçün planlı şəkildə qırx nəfər adlı-sanlı qoca kişiləri məcbur etdi ki, onun günahsız olması barədə şəhadət versinlər. Onlar da şəhadət verdilər ki, xəlifələr üçün heç bir hesab-kitab və cəza yoxdur.[1] Onların şəhadəti elə də kiçik iş olmayıb Bəni–Üməyyənin öz hökumətini möhkəmlətməsi üçün aldadıcı siyasətin bir hissəsi hesab edilirdi. Çünki Bəni-Üməyyə sülaləsi öz siyasi məqsədinə nail olmaq üçün Mürciə[2] dəstəsi kimi ideoloji bir təriqət yaratmış, həmin təriqətin ideoloji fəaliyyəti Bəni-Üməyyənin din pərdəsi altında hökumət dayaqlarının möhkəmlənməsi üçün bir vasitə olmuşdur. Bəni-Üməyyə hakimiyyətinə qulluq edən bu cür təriqətlər bir sıra təfsir və dini bəhanələrlə Əməvi xəlifələrinin qeyri-İslami işlərinə pərdə çəkirdilər. İbn Qüteybə Dinəvəri yazır: "Yezid ibn Əbdülməlik əvvəllər aldadıcı əxlaqına görə Qüreyş qəbiləsinin məhəbbətini qazanmışdı. Əgər hakimiyyətə gəldikdən sonra Ömər ibn Əbdüləzizin yolunu davam etdirsəydi, camaat ondan şikayətlənməzdi. Ancaq o, hamının gözlədiyinin əksinə olaraq hakimiyyətə gəldikdən sonra iş metodunu tamamilə dəyişib eynilə qardaşı Vəlidin getdiyi yolla getməyə başladı. Onun bu rəftarı müsəlmanların qəzəbi ilə üzləşməli oldu. Belə ki, camaat onu hakimiyyətdən salmaq qərarına gəldi. Yezid camaatın hüquq və tələblərinə o qədər etinasızlıqla yanaşırdı ki, hətta Qüreyş və Bəni-Üməyyədən də bir dəstə adam onun hakimiyyətinin əleyhinə çıxdı. Yezid ibn Əbdülməlik camaatın etirazlarına qulaq asıb öz hakimiyyət metodunu dəyişmək əvəzinə təzyiq və çətinliklərini daha da artırdı. O, Qüreyş və Bəni-Üməyyə tayfalarının bir neçə böyük şəxsiyyətini ictimaiyyətdə nizam-intizamı pozmaq və qiyam qaldırmaqda ittiham edib əmisi Məhəmməd ibn Mərvana əmr verdi ki, onları tutub həbs etsin. Tutulanlar iki ilə yaxın həbsdə qaldıqdan sonra Məhəmməd onları zəhərləyərək hamısını qətlə yetirdi. Yezid bundan əlavə, Qüreyşin digər otuz nəfər adlı-sanlı adamlarını tutub onları külli miqdarda cərimə edərək bütün mal-dövlətlərini müsadirə edib iflasa uğratdı. Belə ki, onlar Şam və sair yerlərin ətrafına çəkilib kasıbçılıq içərisində yaşamağa başladılar. Yezid bununla da, kifayətlənməyib onlarla əlaqə saxlamış bütün adamları qiyam və hökumətlə müxalifətdə töhmətləndirib dara çəkdirdi."[3]

## Çalıb-oxumaq və qumar

Bəni-Üməyyə sülaləsinin əvvəlki xəlifələri öz boş vaxtlarını qədim ərəb qəhrəmanlarının döyüş və qəhrəmanlıq epopeyalarına dair şairlərin qəsidələrinə qulaq asmaqla keçirirdilərsə, sonrakı xəlifələrin dövründə çalıb-oxumaq qəsidə və şerlərin yerini tutdu, xilafət sarayının gecə məclislərində şairlərin qəhrəmanlıq şerləri və döyüş dastanları əvəzinə çalıb-oxumaq adət oldu.

[1] Tarixül-xüləfa, səh.246.
[2] Mürciə bir məzhəb adıdır. Bu məzhəbin əqidəsinə görə qeyri-İslami işlər və günahlar imanla zidd deyil.
[3] Əl-İmamətu vəs-siyasət, c.2, səh.125.

## Hişam ibn Əbdülməlik

Hişam çox paxıl, qəzəbli, cəsur, zalım, rəhmsiz və natiq bir şəxs idi.[1] O, mal-dövlət yığmağa, abadlıq işləri görməyə çalışırdı. Hakimiyyəti dövründə bəzi iş yerləri təsis etdirdi və əl sənayesi daha da rövnəqləndi. Ancaq rəhmsiz və zalım olduğundan onun dövründə camaatın vəziyyəti çox ağırlaşdı, insani hisslər demək olar ki, aradan getdi, xeyirxahlıq işləri yoxa çıxdı, daha heç kəsin heç kəsə ürəyi yanmadı.[2]

## Azğın ünsürlərin nüfuzu

Görkəmli alim və tarixçi Seyyid Əmir Əli İslam cəmiyyətinin o dövrdəki siyasi-ictimai vəziyyətini çox gözəl şəkildə bəyan etmiş, Hişamın əxlaq və rəftarını geniş şəkildə şərh etmişdir:

“İkinci Yezidin ölümü ilə hakimiyyət onun qardaşı Hişama çatdı. O, hakimiyyətini yalnız daxildəki çəkişmələri və xarici döyüş alovlarını söndürdükdən sonra möhkəmlətdi. Çünki o dövrdə Şimal istiqamətindən türkmən tayfaları və Xəzər xaqanlığı mərkəzi hökumətə hücumlar edirdilər, Şərqdə isə Abbasi sülaləsinin rəhbərləri Əməvi sülaləsini hakimiyyətdən salmaq üçün gizlicə öz işlərini görürdülər. Ölkə daxilində də, çox şücaətli və döyüşkən olan xaricilər (xəvaric) çaxnaşma yaratmışdılar. Bu çəkişmələrdə ərəblərin ən gözəl igidləri ya daxildə gedən vuruşmalarda öldürüldülər, ya da xilafət sarayının bədməramlı siyasətinin qurbanı olurdular. Çünki keçmiş xəlifənin öz vəzir və ətrafındakı işçilərinə olan kor-korana arxayınçılığı nəticəsində hakimiyyət özünüsevər və ləyaqətsiz adamların əlinə keçmişdi. Onlar da öz növbələrində bacarıqsız olduqlarından və hakimiyyəti pis idarə etdiklərindən, camaatda hökumətə qarşı nifrət hissi oyatmışdılar. Düzdür, öz ağır və çətin vəzifələrinə layiqincəsinə əməl edən azsaylı adamlar da qalmışdılar. Ancaq camaat arasında dinə qarşı rəğbət azalmış, saray adamları və onlara bağlı olanlar arasında isə demək olar ki, itib batmışdı. Axı onlar öz maddi mənfəətlərini təmin etməkdən başqa bir məqsəd güdmürdülər.

O çətin dövrdə İslam cəmiyyəti hakimiyyət gəmisini batmaqdan xilas edə biləcək qüvvətli bir şəxsə ehtiyac duyurdu. Buna görə də, Hişamın bir sıra xüsusiyyət və üstünlüklərə ehtiyacı var idi ki, onun nəticəsində İslam cəmiyyətini hər tərəfdən əhatə etmiş çətinlikləri aradan qaldıra bilsin. Hişamın ötən xəlifədən (Yezid ibn Əbdülməlikdən) bacarıqlı olmasında şübhə yoxdur. Çünki Hişamın dövründə xilafət sarayı çirkin ünsürlərdən təmizlənmiş, vüqar və mətanət laqeydsizliyi əvəz etmiş və cəmiyyət millətə xələl gətirən tüfeyli adamlardan təmizlənmişdi. Ancaq Hişamın yaratdığı həddən artıq çətinliklər camaatı boğaza yığmış, onun qənaəti get-gedə xəsisliyə çevrilmiş, bəzi çatışmayan əxlaqi və insani cəhətləri vəziyyəti daha da pisləşdirmişdi. O dardüşüncəli, özbaşına, çox şəkk edən və nankor adam idi. Buna görə də, heç kimə etimad etmir, onun əleyhinə qurulmuş planları boşa çıxartmaq üçün hiyləgər əməliyyatlar və casusluqlardan istifadə edirdi. Hər şeyə tez inandığından, kiçik bir bədgümanlıq nəticəsində ölkənin seçilən şəxsiyyətlərini aradan götürürdü.

[1] Tarixi-Yə’qubi, c.3, səh.70.

[2] Mürucuz-zəhəb, c.3, səh.205.

Onun ifrat dərəcəsində olan bu nankorluğu şəhərin vali, hakim və başçılarının tez-tez çıxarıb dəyişdirməsi, çox acı nəticələrə səbəb oldu.”[1]

## İmam Baqir (əleyhissəlam) Şamda

İmam Baqir əleyhissəlamın şərəfli həyatının mühüm hadisələrindən biri də, o Həzrətin Şama səfəridir.

İmam Baqir əleyhissəlamın müasiri olmuş Hişam ibn Əbdülməlik İmam Baqir əleyhissəlamın camaat arasındakı məhəbbət və nüfuzundan daima qorxmuş, o Həzrətin ardıcıllarının (şiələrinin) onu “İmam” kimi tanımasını bildiyi üçün həmişə onun mənəvi nüfuzunun və eləcə də, şiələrinin artmasının qarşısını almağa çalışmışdır.

İmam Baqir (əleyhissəlam) bir dəfə öz əziz oğlu Cəfər ibn Məhəmməd (əleyhissəlam) (İmam Sadiq (əleyhissəlam)) ilə həcc ziyarətinə getdiyi il Hişam da həcc ziyarətinə gəlmişdi. Həcc mövsümü zamanı İmam Sadiq (əleyhissəlam) bir dəstə müsəlman arasında Əhli-beytin (əleyhimussəlam) fəzilət və İmaməti barədə söhbət etmiş, bu söhbət dövlət məmurları tərəfindən dərhal Hişama çatdırılmışdı. İmam Baqir əleyhissəlamı öz hökuməti üçün daima təhlükəli hesab edən Hişam bu söhbətdən bərk qəzəbləndi, ancaq (bəlkə də, məsləhət belə olmuşdur) həcc mövsümü zamanı ona və həmçinin, oğlu İmam Sadiq əleyhissəlama heç bir zərər yetirmədi. Lakin paytaxta (Dəməşqə) qayıtdıqdan dərhal sonra Mədinənin valisinə əmr etdi ki, İmam Baqir (əleyhissəlam) və oğlu İmam Sadiq əleyhissəlamı Şama (Dəməşqə) göndərsin.

İmam Baqir (əleyhissəlam) məcbur olub əziz oğlu İmam Sadiq əleyhissəlamla birgə Şama getdi. Hişam öz əzəmətini göstərmək və eləcə də, öz xəyalına əsasən, İmam Baqir əleyhissəlamın məqamını azaltmaq üçün üç gün o Həzrətə görüş icazəsi vermədi. Bəlkə də, bu üç gün ərzində o, İmam əleyhissəlamla necə üz-üzə gəlmək və o Həzrətin məqamını camaat arasında necə gözdən salmaq haqda tədbir tökürdü.

## Ox atma yarışı

Əgər Hişamın hökumət sarayı elm mərkəzi olsaydı, bəlkə də, o, seçilmiş alimləri yığıb elmi müzakirələr təşkil edərdi. Ancaq Əməvi xəlifələrinin, o cümlədən də, Hişamın sarayı bu cür alimlərdən məhrum olduğundan, şair, dastan söyləyən və məddahların alimlərin yerini tutduğundan Hişam belə bir məclis təşkil etmək qərarına gəlmədi. O, çox yaxşı bilirdi ki, əgər elmi müzakirə yolu ilə İmam Baqir əleyhissəlamla mübarizə etsə, onun sarayındakılardan heç kəs İmamın öhdəsindən gələ bilməyəcək. Buna görə də, belə qərara gəldi ki, (öz fikrində qələbə qazanacağını yəqin edib) başqa bir yolla mübarizə etsin.

Bəli, təəccüblü də olsa, Hişam ox atma yarışı təşkil edib İmam Baqir əleyhissəlamı da ora dəvət etmək qərarına gəldi. O bu yolla İmam əleyhissəlamı məğlub edib camaatın gözündə kiçiltmək istəyirdi. Bu məqsədlə İmam Baqir (əleyhissəlam) hökumət sarayına daxil olmazdan qabaq Hişam sarayın bir neçə işçisinə əmr etdi ki, nişangah qoyub ox atmaqla məşğul olsunlar. İmam Baqir (əleyhissəlam) məclisə

[1] Seyyid Əmir Əli, səh.129.

daxil olub bir qədər əyləşdi. Birdən Hişam üzünü İmam əleyhissəlama tutub dedi: "Ox atma yarışında iştirak etmək istəyirsinizmi?" İmam Baqir (əleyhissəlam) buyurdu: "Mən artıq qocalmışam, ox atmaq vaxtım ötüb keçib, məni üzürlü sayın." Yaxşı fürsət tapıb İmam Baqir əleyhissəlamı məğlubiyyətin iki addımlığında durduğunu güman edən Hişam israr edib ona and verdi. Eyni zamanda Bəni-Üməyyə böyüklərindən birinə işarə etdi ki, öz ox-kamanını İmam Baqir əleyhissəlama versin. İmam əlini uzadıb kamanı tutdu, bir ox qoyub yayı dartdı. Ox düz nişangahın ortasına sancıldı. Sonra ikinci oxu qoyub atdı, ox birinci oxun ortasına batıb onu sındıraraq hədəfə sancıldı. Üçüncü ox da ikinci oxu sındırıb nişangaha sancıldı. Beləliklə, doqquz ox atdı və oxların hər biri özündən qabaqkı oxu sındırıb düz nişangahın ortasına sancıldı. Bu heyranedici hadisə hamını mat-məəttəl qoyub hamını o Həzrəti alqışlamağa məcbur etdi. Gümanı yanlış çıxan və planı puç olan Hişam bərk narahat olub özündən ixtiyarsız olaraq dedi: "Afərin sənə, ey Cəfərin atası! Sən ərəb və əcəmin (qeyri-ərəbin) ox atanlarının ən üstünüsən. Bəs deyirdin qocalmışam?" Bu vaxt Hişam başını aşağı salıb bir qədər fikrə getdi. Sonra İmam Baqir (əleyhissəlam) və oğlu İmam Sadiq əleyhissəlamı öz yanında xüsusi yerdə otuzdurub onlarla çox hörmətlə davrandı. Daha sonra üzünü İmam əleyhissəlama tutub soruşdu: "Qüreyş sənin sayəndə bütün ərəb və əcəmə ağalıq etməyə layiqdir. Belə ox atmağı kim sənə öyrətmiş və bunu nə vaxta öyrənmisən?" İmam Baqir (əleyhissəlam) buyurdu: "Özün bilirsən ki, Mədinə camaatı bu işə adət edib, mən də cavanlıqda bir müddət bu işlə məşğul olmuş, sonra isə tərk etmişəm. Bu gün sən israr etdiyin üçün qəbul etdim." Hişam dedi: "Cəfər (İmam Sadiq (əleyhissəlam)) də ox atmaqda sənin kimi məharətlidir?" İmam Baqir (əleyhissəlam) buyurdu: ***"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi [Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i.a] tamamladım"***[1] ayəsində buyurulmuş kamil din və tamamlanmış nemət bizik. Biz Peyğəmbər ailəsi (İmamət və rəhbərliyi) bir-birimizdən irs aparırıq və əsla yer üzü bu cür bir şəxsiyyətdən (İlahi hüccətdən) boş olmaz."[2]

## Məsihi yepiskopu ilə münazirə

Hişamın sarayının İmam Baqir əleyhissəlamın elmi əzəmətini nümayiş etdirmək üçün münasib yer olmadığına baxmayaraq, xoşbəxtlikdən o Həzrət üçün Şam şəhərini tərk etməzdən qabaq camaatın fikrini oyadıb öz elmi məqamını onlara göstərmək üçün çox yaxşı bir fürsət düşdü. İmam Baqir (əleyhissəlam) bu fürsətdən istifadə edib Şam əhalisinin fikrini tamamilə dəyişdi. Hadisə belə baş vermişdi: Hişamın İmam Baqir əleyhissəlama qarşı hörmətsizlik etməyə əlində bir bəhanəsi yox idi. Çarəsiz qalıb o Həzrətin Mədinəyə qayıtmasına razılıq verdi. Elə ki İmam Baqir (əleyhissəlam) öz əziz oğlu ilə saraydan çıxdı, sarayla üzbəüz olan meydanın axırında yerə oturmuş böyük bir insan dəstəsi gördü. İmam onların nə üçün yığıldığını soruşduqda, ona dedilər ki, bunlar xristian keşiş və rahibləridir. Öz adət-ənənələrinə uyğun olaraq ildə bir dəfə keçirilən böyük elmi məclislərinin başlanmasını, elmi

[1] "Maidə" surəsi, ayə 3.
[2] Dəlailül-imamət, səh.105.

çətinliklərini həll etmək məqsədilə böyük yepiskopun gəlməsini gözləyirlər. İmam Baqir (əleyhissəlam) naməlum şəxs şəklində camaatın arasına girib orada iştirak etdi. Bu xəbər dərhal Hişama çatdırıldı. Hişam bir neçə nəfər təyin edib onlara tapşırdı ki, gedib yaxından o məclisdə iştirak etsinlər. Çox çəkmədi ki, həddən artıq qocalıb əldən düşmüş yepiskop gəlib çox hörmət və ədəblə məclisin yuxarı başında oturdu. Sonra camaatı nəzərdən keçirdi. İmam Baqir əleyhissəlamın siması onu özünə cəlb etdiyi üçün üzünü İmam əleyhissəlama tutub soruşdu: “Biz xristianlardansan, yoxsa müsəlmanlardansan?”

İmam Baqir (əleyhissəlam): “Müsəlmanlardanam.”

— Onların alimlərindənsən, yoxsa nadanlarından?

— Nadanlardan deyiləm.

— Əvvəl mən sual edim, yoxsa sən soruşursan?

— İstəyirsinizsə, siz soruşun.

— Hansı əsasa görə siz müsəlmanlar iddia edirsiniz ki, Cənnət əhli yeyib-içəcək, ancaq onlardan ifrazat xaric olmayacaq? Bu məsələyə dair bu dünyada aşkar bir nümunə varmı?

— Bəli, bu məsələnin aşkar nümunəsi ana bətnində olan uşaqdır. O, anasının qarnında qidalanır, ancaq ondan ifrazat xaric olmur.

— Təəccüblüdür! Bəs siz dediniz ki, alimlərdən deyilsiniz?

— Mən belə demədim, mən dedim ki, nadanlardan deyiləm.

— Başqa bir sualım var.

— Buyurun!

— Hansı əsasa görə deyirsiniz ki, Cənnət meyvələri azalmır və nə qədər istifadə etsən, yenə də olduğu kimi qalıb əskilmir? Dünyada olan şeylərdən buna dair bir nümunə qeyd edə bilərsinizmi?

— Bəli, onun bu dünyada aşkar nümunəsi alovdur. Siz bir məş`əlin alovundan bir neçə məş`əl yandırsanız da, birinci məş`əlin alovu yenə də olduğu kimi qalacaq və ondan əsla əskilməyəcək.

Yepiskopun fikrinə gələn hər nə çətin sual var idisə, hamısını soruşdu və hamısı haqqında qaneedici cavab eşitdi. Özünü aciz görüb bərk hirsləndi və dedi: “Camaat, dini məlumatı məndən çox olan bir adamı bura gətirmisiniz ki, məni rüsvay edəsiniz? Müsəlmanlar bilsinlər ki, onların rəhbərləri bizdən üstün və biliklidirlər. And olsun Allaha, daha sizinlə söhbət etməyəcəyəm. Əgər gələn ilədək sağ qalsam, məni daha öz aranızda görməyəcəksiniz.” Bunu deyib yerindən qalxaraq kənara çıxdı.

## Nalayiq bir töhmət

Bu hadisə qısa bir zamanda bütün Dəməşqə yayıldı, Şam ərazisində şadlıq, sevinc dalğası yarandı. Hişam İmam Baqir əleyhissəlamın xristianlarla elmi mübarizədə qalib gəlməsindən sevinmək əvəzinə o Həzrətin mənəvi nüfuzundan daha çox qorxuya düşdü. O Həzrətlə zahirdə dostluq edib ona hədiyyə çatdıraraq xəbər göndərdi ki, elə həmin gün Dəməşqdən çıxsın. Eyni zamanda o Həzrətin ona elmi mübarizədə qalib gəlməsindən hirslənib çalışırdı ki, ona xristian olmaq töhmətini atmaqla onun elmi və ictimai nüfuzunu aşağı salsın. Buna görə də, son dərəcə

hörmətsizliklə özünün bəzi valilərinə (o cümlədən Mədinə şəhərinin valisinə) yazdı: "Əbu Turabın oğlu Məhəmməd ibn Əli (əleyhissəlam) (İmam Baqir) öz oğlu ilə birlikdə mənim yanıma gəlmişdi. Onları Mədinəyə qaytararkən keşişlərin yanına gedib xristianlığı qəbul edərək məsihilərə qoşuldular. Onların mənə olan qohumluqlarına görə bu günahlarından keçdim. Elə ki onlar sizin şəhərə çatdılar, camaata bildir ki, mən onlara nifrət edirəm." Ancaq Hişamın puça çevrilmiş səyləri həqiqəti örtmək üçün bir nəticə vermədi. Əvvəllər Hişamın təbliğatına uymuş yuxarıda adını qeyd etdiyimiz şəhərin (Mədinənin) əhalisi İmam Baqir əleyhissəlamdan İmamət sahəsində gördüyü nişanələr nəticəsində o Həzrətin həqiqi və əsl məqamından xəbərdar oldu. Beləliklə, məcburiyyət və hədə-qorxu nəticəsində başlanmış səfər axırda səmərəli və parlaq səfərlərdən birinə çevrildi.[1]

## İmam Baqir (ə) və sıradan çıxmaqda olan dini mədəniyyətin təhlili

İmam Baqirin (ə) bütün həyatı əməvi sülaləsinin hökmranlıq dövrlərinə təsadüf etdiyindən onların siyasi hoqqa və şeytani kələkbazlıqlarından tamamilə agah idi. İmam (ə) yaxşı bilirdi ki, onların din və İslama heç bir e`tiqadı yoxdur və yalnız öz məqsədlərinə nail olmaq üçün din arxasında pərdələnirlər. Dinin rəhbərliyini üzərinə götürənlərin əksəriyyəti yaramaz, nadan adamlar idi ki, özlərini dinin nümayəndəsi kimi qələmə verirdilər. Həzrət bu məsələ ilə əlaqədar əməvilərə mənsub tanınmış Sə`dül Xeyirə (Sə`d ibn Əbdülməlik əməvi. Deyilənlərə görə guya İmamla rabitəsi yaxşı imiş) yazdığı geniş məktubunda din və İslamın mə`ruz qaldığı indiki vəziyyəti keçmiş ümmətlərlə müqayisəli şəkildə irəli çəkərək buyurur: "Allah-taala hər ümmətin başı üzərindən o vaxt öz asimani kitabının sayəsini çəkdi ki, onların özləri həmin kitaba arxa çevirdilər, düşmənlərini o vaxt onların üzərinə qaldırdı ki, özləri onlara tabe oldular. Belə ki, öz müqəddəs kitablarının zahiri kəlamını qorudular, onun qanun və hüdudlarını təhrif etdilər. Onlar İlahi hökmləri rəvayət edir, lakin onlara riayət etmirdilər. Aldanmış nadanlar isə dini ehkamların deyilməsini alqışlasalar da, həyatda onlara riayət olunmamasından təəssüflənirdilər...

Agah ol ki, o vaxt Allahın müqəddəs kitablarının əsil həqiqətlərini gizlədib onun ehkamlarını təhrif edən rahib, keşiş və onların bənzərləri bizim ümmətimizdə də peyda olublar. Belələrini yaxşı tanı ki, onlar Allahın kitabının kəlamını qoruyur, qayda-qanunlarını isə təhrif edirlər."[2]

Bəni Üməyyə sülaləsinin son dövrlərini yaşamış İmam Sadiq (ə) da sonralar bu məsələyə qayıdaraq deyirdi: "Onlar xalqın üzünə din və imanın tə`limini açıq qoydular, tağut və şirkin mahiyyətini onlardan gizlətdilər..."

## İmam Baqir əleyhissəlamın münazirələri

İmam Baqir əleyhissəlamın İmaməti dövründə Mötəzilə, Xəvaric və Mürciə kimi siyasi və məzhəbi qurumlar, fəaliyyət göstərirdilər. İmam Baqir (əleyhissəlam) bu firqə və qurumların batil əqidələri qarşısında yenilməz bir sədd olaraq onların başçıları ilə apardığı münazirələrdə onların əqidə və ideologiyasını "söküb-dağıdır",

[1] Dəlailül-imamət, səh.105-107.
[2] "Üsuli-kafi", c. 2, səh. 615; "Rövzətül kafi", səh. 53-55.

əqidələrinin batil olduğunu aşkar dəlillərlə sübut edirdi. İndi, nümunə üçün o Həzrətin Xəvaric firqəsinin başçılarından olan Nafis ibn Əzrəqlə söhbətini oxucuların nəzərinə çatdırırıq.

Bir gün Nafis İmam Baqir əleyhissəlamın hüzuruna gəlib halal-haram barədə bir neçə məsələ soruşdu. İmam (əleyhissəlam) onun suallarına cavab verib söhbəti əsnasında buyurdu: “Bu xaricilərə (dindən çıxmışlara) de ki, nə üçün Əmirəl-mömininindən ayrılmağı halal bildiniz? Halbuki, o vaxtadək onunla birlikdə vuruşur, ona itaət etmək yolunda canınızı qurban verirdiniz və ona kömək etməyi Allaha yaxınlaşmaq üçün bir vasitə bilirdiniz.” İmam (əleyhissəlam) əlavə edib buyurdu: “Onlar deyəcəklər ki, o, Allahın dinində münsif təyin etdi. Onlara de ki, Allah Öz Peyğəmbərinin şəriətində iki yerdə iki nəfəri mühakiməçi təyin etmişdir. Biri ərlə-arvad arasında olan ixtilaf zamanıdır ki, buyurur: ***“[Ey möminlər!] Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif [vasitəçi] təyin edib [onların yanına] göndərin. Əgər onlar [bu iki vasitəçi ər-arvadı] barışdırmaq istəsə, Allah da onların köməyi olar. Həqiqətən, Allah [hər şeyi] biləndir, [hər şeydən] xəbərdardır.”***[1]

İkincisi isə Səd ibn Məazın münsif (vasitəçi) olmasıdır. Peyğəmbər (səlləllahu əleyhi və alih) onu özü ilə (müsəlmanlarla) Bəni-Qüreyzə tayfası arasında münsif təyin etdi, o da Allahın hökmü əsasında hökm verdi.” İmam Baqir (əleyhissəlam) daha sonra əlavə edib buyurdu: “Bilmirsiniz ki, Həzrət Əli (əleyhissəlam) münsiflər seçilməsini bu şərtlə qəbul etdi ki, onlar Quran hökmünə əsasən hökm verib Quran hökmlərindən kənara çıxmasınlar? Üstəlik Əli (əleyhissəlam) şərt kəsdi ki, əgər münsiflər Quran hökmünün əksinə hökm versələr, bu hökm qəbul olunmayacaq. Camaat Əli əleyhissəlama deyəndə ki, seçdiyin münsif sənin əleyhinə hökm verib, buyurur: “Mən onu yox, Allahın kitabını (Quranı) münsif seçmişdim. Necə olur ki, xaricilər (dindən çıxmışlar) Quranın münsifliyini və Quranın əksinə verilən hökmün qəbul olunmadığını azğınlıq sayırlar, ancaq öz bidət və böhtanlarını azğınlıq hesab etmirlər?” Nafis ibn Əzrəq bu sözləri eşitcək dedi: “And olsun Allaha ki, bu sözləri nə eşitmişdim, nə də fikrimə gəlmişdi, haqq elə budur. İnşaallah.”[2]

---

[1] “Nisa” surəsi, ayə 35.

[2] Ehticac, c.2,səh.176.

# VI FƏSİL

# İMAM CƏFƏR SADİQ ƏLEYHİSSƏLAMIN HƏYATI

*** İmam Sadiq əleyhissəlamın elmi səviyyəsi**
*** Siyasi, ictimai və mədəni vəziyyət**
*** Böyük Cəfəri məktəbi**
*** İmam Sadiq (əleyhissəlam) məktəbinin şagirdlərindən bir nümunə**
*** Nə üçün İmam Sadiq (əleyhissəlam) Abbasilər qiyamının başçılarının təklifini qəbul etmədi?**
*** Zeyd ibn Əli əleyhissəlamın qiyamı**

## İmam Sadiq əleyhissəlamın həyatı barədə qısa məlumat

Altıncı İmamın adı Cəfər, künyəsi Əbu-Abdullah, ləqəbi Sadiq, atası İmam Baqir (əleyhissəlam), anası isə Ümmü-Fərvə olmuşdur.

İmam Sadiq (əleyhissəlam) hicrətin səksən üçüncü ilində rəbiül-əvvəl ayının on yeddisi Mədinə şəhərində dünyaya gəlmiş, hicrətin yüz qırx səkkizinci ili altmış beş yaşında vəfat etmişdir. Müqəddəs məzarı Bəqi qəbiristanlığında atasının məzarı kənarındadır.

## İmam Sadiq əleyhissəlamın müasiri olmuş xəlifələr

İmam Sadiq (əleyhissəlam) hicrətin yüz on dördüncü ilində İmamətə yetişmişdir. O Həzrətin İmamət dövrü hicrətin yüz otuz ikinci ilində başa çatmış və bu dövr Əməvilər hakimiyyətinin sonları və Abbasilər sülaləsinin əvvəllərinə təsadüf edir.

İmam Sadiq (əleyhissəlam) adları aşağıda çəkilən Əməvi xəlifələrini müasiri olmuşdur:

Hişam ibn Əbdülməlik (105-125 h.q);

Vəlid ibn Yezid ibn Əbdülməlik (125-126 h.q);

Yezid ibn Vəlid ibn Əbdülməlik (126 h.q);

İbrahim ibn Vəlid ibn Əbdülməlik (hicrətin yüz iyirmi altıncı ilinin cəmi yetmiş gününü);

Mərvan ibn Məhəmməd (Mərvani Himar) (126-132 h.q);

Abbasi xəlifələrindən isə aşağıdakıların müasiri olmuşdur:

Abdullah ibn Məhəmməd (Səffah) (132-137 h.q);

Əbu-Cəfər (Mənsur Dəvaniqi) (137-158 h.q);

## İmam Sadiq əleyhissəlamın elmi səviyyəsi

İmam Sadiq əleyhissəlamın elmi əzəmət və yüksəkliyinə aid çoxlu sübutlar vardır. Bu məsələ həm şiə, həm də sünni alimlərinin qəbul etdiyi bir mövzudur. Böyük alim və fəqihlər onun elm mərtəbəsinin yüksəkliyi qarşısında diz çökür, onun elm sahəsində üstün olduğunu tərifləyirlər.

Hənəfi firqəsinin məşhur banisi Əbu-Hənifə deyirdi: “Mən Cəfər ibn Məhəmməd əleyhissəlamdan (İmam Sadiqdən) savadlı şəxs görməmişəm.”[1] O həmçinin, deyirdi: “Mənsur (Dəvaniqi) Cəfər ibn Məhəmməd əleyhissəlamı hüzuruna çağıran zaman məni çağırıb dedi: “Camaat Cəfər ibn Məhəmmədin vurğunu olmuşdur, onu məhkum etmək üçün bir sıra çətin məsələləri nəzərində tut.” Mən qırx dənə çətin məsələ hazırladım. Bir gün Mənsur Hiyrədə olarkən məni çağırtdırdı. Məclisə girərkən gördüm ki, Cəfər ibn Məhəmməd (əleyhissəlam) (İmam Sadiq) onun sağında oturub. Ona baxdıqda heybəti məni elə bürüdü ki, heç Mənsuru görəndə elə olmurdum. Salam verib Mənsurun işarəsindən sonra oturdum. Mənsur üzünü ona (İmam Sadiq əleyhissəlama) tutub dedi: “Bu, Əbu-Hənifədir.” O cavab verdi ki, tanıyıram. Sonra Mənsur üzünü mənə tutub dedi: “Ey Əbu-Hənifə! Öz məsələlərini Əbu-Abdullah

[1] Təzkirətül-hüffaz, c.1, səh.166.

(İmam Sadiq (əleyhissəlam)) ilə müzakirəyə qoy.” Mən də məsələləri deməyə başladım. Hər hansı məsələni soruşurdumsa, dərhal cavab verirdi ki, sizin bu məsələ barədə əqidəniz filan, Mədinə əhalisinin əqidəsi filan, bizim əqidəmiz də filandır. Bəzi məsələlərdə bizimlə həmfikir olur, bəzilərində Mədinə əhalisi ilə, bəzilərində isə fikri tamam başqa olurdu. Bu minvalla düz qırx məsələ soruşdum ki, hamısına cavab verdi.” Əbu-Hənifə bura yetişəndə İmam Sadiq əleyhissəlama işarə edərək dedi: “O, insanların ən alimi, onların fiqhi məsələlərə aid olan ixtilaflarını bilən ən agah adamdır.”[1]

Maliki məzhəbinin banisi Malik deyirdi: “Bir müddət Cəfər ibn Məhəmməd əleyhissəlamın yanına gedib-gəlirdim. Onu daima bu üç halda gördüm: ya namaz qılırdı, ya oruc tuturdu, ya da Quran oxuyurdu. Onu dəstəmazsız hədis danışan görmədim.[2] Elm, ibadət və təqvada Cəfər ibn Məhəmməd əleyhissəlamdan üstün bir şəxsi nə bir göz görmüş, nə bir qulaq eşitmiş, nə də heç kimin fikrinə belə gəlməmişdir.”[3]

Şeyx Müfid yazır: “O Həzrətdən o qədər elm söylənilib ki, artıq bütün müsəlmanların yanında məşhur olmuş, onun səs-sədası hər tərəfə yayılmış, onun nəslindən olanların heç birindən onun söylədiyi qədər elm söylənilməmişdir.”[4]

İbn Həcər Heytəmi yazır: “O Həzrətdən o qədər elm söylənilmişdir ki, artıq bütün müsəlmanların yanında məşhur olmuş, onun səs-sədası hər tərəfə yayılmış və fiqh və hədis aləminin böyük rəhbərlərindən olan Yəhya ibn Səid, İbn Cərih, Malik, Süfyan Suri, Süfyan ibn Üyeynə, Əbu-Hənifə, Şübə və Əyyub Sicistani kimi şəxslər ondan hədis söyləmişlər.[5]

Onuncu əsrin görkəmli alimlərindən olan Əbu Bəhr Cahiz deyir: “Cəfər ibn Məhəmməd (əleyhissəlam) elə bir şəxsdir ki, onun elmi bütün dünyanı əhatə etmiş, deyilənlərə görə Əbu-Hənifə və eləcə də, Süfyan Suri onun şagirdlərindən olmuşdur. Bu iki nəfərin onun şagirdi olması onun elmi yüksəkliyini sübut etmək üçün kifayət edər.”[6]

Seyyid Əmir Əli Bəni Üməyyənin hakimiyyəti dövründə mövcud olmuş məzhəbi firqələr və fəlsəfi məktəblərə işarə edərək yazır: “Dini rəy və fitvalar yalnız Əhli-beyt adamlarının yanında özünə fəlsəfi baxım almışdı. O dövrdə elmin yayılması, bəhs və təhqiqat ruhiyyəsi yaratmış və bütün ictimai yerlərdə fəlsəfi söhbətlər əsas yer tutmuşdu. Böyük fəxrlə qeyd etməliyik ki, bu ideoloji hərəkata Mədinədə çiçəklənmiş elm ocağı rəhbərlik edirdi. Bu elm ocağını Əli ibn Əbutalib əleyhissəlamın Sadiq ləqəbli nəvəsi təsis etmişdi. O, fəal təhqiqatçı, böyük mütəfəkkir və dövrün elmlərinə yaxşı bələd olan bir şəxs idi. O, İslamda əsl fəlsəfə üsullu məktəb təsis edən ilk şəxsiyyət olmuşdur. Onun elmi məclislərində sonralardan fiqhi məzhəb baniləri olmuş adamlardan əlavə, uzaq yerdən gəlmiş filosof və fəlsəfə elminin tələbələri də,

---

[1] Biharül-ənvar, c.47, səh.217.
[2] Təhzibüt-təhzib, c.1, səh.88.
[3] Əl-İmamüs-Sadiq vəl məzahibül-ərbəəh, c.1, səh.53.
[4] Əl-İrşad, səh.270.
[5] Əs-Səvaiqül-mühriqə, səh.201.
[6] Əl-İmamüs-Sadiq vəl-məzahibül-ərbəə, c.1, səh.55.

onun dərslərində iştirak edirdilər. Bəsrə fəlsəfə məktəbinin banisi Həsən Bəsri və Mötəzilə məzhəbinin banisi Vasil ibn Əta da, o Həzrətin şagirdlərindən olmuş, onun elm mənbəyindən bəhrələnmişlər.»[1]

Məşhur tarixçi ibn Xəllikan yazır: "O, on iki İmamlı şiələrin İmamlarından biri, Peyğəmbər ailəsinin böyük şəxsiyyətlərindən biri olmuşdur. Düzgünlüyünə və doğru danışdığına görə onu Sadiq adlandırmışlar. Onun fəzilət və kəraməti o həddədir ki, daha bunu şərh etməyə ehtiyac yoxdur. Əbu-Musa Cabir ibn Həyyan Tərtusi onun şagirdi olmuşdur. Cabir İmam Sadiq əleyhissəlamın təlimlərini ehtiva etmiş və beş yüz risalədən ibarət olan min vərəq həcmində bir kitab yazmışdır.[2]

## İmam Sadiq əleyhissəlamın dövründəki siyasi, ictimai və mədəni vəziyyət

İmamlar arasında İmam Sadiq əleyhissəlamın dövrü özünəməxsus yer tutmuş və o dövrdəki siyasi-mədəni vəziyyət heç hansı bir İmamın dövründə olmamışdır. Çünki həmin dövr Bəni-Üməyyə hakimiyyətinin zəiflədiyi, Bəni-Abbasın qüdrətinin isə artdığı bir dövr olmuşdur. Bu iki dəstə bu müddətdə bir-biri ilə mübarizədə olmuşdur. Hişam ibn Əbdülməlikin dövründən etibarən Abbasilərin siyasi təbliğatı başlamış, hicrətin yüz iyirmi doqquzuncu ilində bu təbliğat artıq silahlı və nizamlı mübarizəyə çevrilmiş, nəhayət yüz otuz ikinci ildə Abbasilərin qələbəsi ilə nəticələnmişdir. Bu dövrdə Bəni-Üməyyə siyasi çətinliklər içərisində olduğundan daha İmam Sadiq (əleyhissəlam) və şiələrə (İmam Səccad əleyhissəlamın dövründə olduğu kimi) təzyiq göstərməyə fürsət tapmırdı. Abbasilər də hakimiyyətə gəlməzdən qabaq Peyğəmbər ailəsinin tərəfdarı və onların intiqamını almaq şüarı altında hərəkət etdikləri üçün onlar tərəfdən bir çətinlik törənmirdi. Bu cəhətdən də, bu dövr İmam Sadiq əleyhissəlamın və şiələrin nisbi rahatlıq və azadlıq dövrü, onların elmi-mədəni fəaliyyətləri üçün çox yaxşı fürsət hesab olunurdu.

## Xüsusi mədəni şərait

Fikir və mədəniyyət cəhətdən də, İmam Sadiq əleyhissəlamın dövrü mədəniyyət və fikir yüksəlişi dövrü olmuşdur. O dövrdə İslam cəmiyyəti içərisində misli görünməmiş dərəcədə elmə həvəs yaranmış və müxtəlif elmlər, istər Quran qiraəti, təfsir, hədis, fiqh və əqaid kimi İslami elmlər, istərsə də tibb, fəlsəfə, astronomiya, riyaziyyat və bu kimi digər dünyəvi elmlər meydana gəlmişdi. Belə ki, azca düşüncə tərzi olan hər bir şəxs elm bazarına müraciət edirdi. Deməli, İmamın cavab verməsinin labüd olduğu bir elm teşnəliyi yaranmışdı.

Bu elmi yüksəlişə səbəb olan amilləri aşağıdakı şəkildə xülasə etmək olar:

**1.** İslamda fikir və əqidə azadlığı; Düzdür, bu fikir azadlığında Abbasilərin də rolu olmuşdur, ancaq bu azadlığın bünövrəsi İslam təlimlərində idi. Yəni, əgər Abbasilər bunun qarşısını almaq istəsəydilər, yenə bacarmazdılar.

**2.** O dövrün mühiti tamamilə bir İslami mühit olmuş və camaat məzhəbi fikirlərin təsir dairəsində olmuşdur. İslam Peyğəmbərinin, eləcə də, Quranın elm öyrənmək,

---

[1] Müxtəsəri-tarixil ərəb, səh.193.

[2] Vəfəyatül-ə'yan, c.1, səh.327.

elm barədə düşünmək haqqındakı alqışları bu elmi yüksəlişin meydana gəlməsində əsas amillərdən biri olmuşdur.

**3.** İslamı yenicə qəbul etmiş qəbilələrin əksəriyyəti elm və fikir sabiqəsinə malik olan qəbilələr olmuşlar. Hətta bəzi vaxtlar bu qəbilələr İran, Misir və Suriya qəbilələri kimi o dövr mədəniyyətinin mərkəzinin əhalisindən hesab olunurdular. Onlar İslam təlimatına dərindən yiyələnmək üçün təhqiq, tədqiqat və nəzər mübadiləsi ilə məşğul olurdular.

**4.** Dini güzəşt, yaxud qeyri-müsəlmanlarla, xüsusən də, kitab əhli ilə dinc-yanaşı qonşuluq. Müsəlmanlar kitab əhli ilə yola gedir və bunu heç də öz dini qayda-qanunlarına zidd bilmirdilər. O dövrdə kitab əhli əsasən, alim və savadlı adamlar olmuşlar. Müsəlmanlar onlarla elmi əlaqələr yaradır, bu isə təbii ki, bəhs, təhqiqat və elmi münazirələrə gətirib çıxarırdı.[1]

## Məzhəb və firqələrin bir-biri ilə rəftarı

İmam Sadiq əleyhissəlamın dövrü, həm düşüncə və fikirlərin bir-biri ilə mübadilə olunması, həm də məzhəb və firqələrin meydana gəldiyi bir dövr olmuşdur. Müsəlmanların kitab əhlinin, eləcə də yunan alimlərinin əqidə və nəzərləri ilə üzləşməsi nəticəsində müxtəlif növ çətinliklər irəli çıxmışdı. O dövrdə Mötəzilə, Cəbriyyə, Mürciə, Qulat,[2] Zənadiqə,[3] Müşəbbihə, Mütəsəvvifə, Mücəssəmə, Tənasüxiyyə və bu kimi məzhəblər yaranmış və bunların hər biri öz əqidələrini yaymağa çalışmışlar. Bundan da əlavə, İslami elmlərin hər birində o elmin alimləri arasında fikir müxtəlifliyi yaranırdı. Məsələn, Quran qiraəti, təfsir, hədis, fiqh və əqaid elmlərində qızğın mübahisələr yaranır, hərə bir cür hökm verərək müxtəlif nəzəriyyəni himayə edirdi.

## Böyük Cəfəri məktəbi

İmam Sadiq (əleyhissəlam) yaranmış əlverişli siyasi vəziyyəti və cəmiyyətin böyük ehtiyacını, həmçinin, ictimai şəraitin hazır olduğunu nəzərə alıb atası İmam Baqir əleyhissəlamın elmi və mədəni inqilabının yolunu davam etdirərək böyük elm ocağı, böyük məktəb təsis etdi. O dövrün dini və dəqiq elmləri sahəsində sayı dörd minə yaxın qeyd edilmiş Hişam ibn Həkəm, Məhəmməd ibn Müslim, Əban ibn Təğlib, Hişam ibn Salim, Mömin Taq, Müfəzzəl ibn Ömər, Cabir ibn Həyyan və s. kimi seçilmiş böyük şagirdlər yetişdirdi.[4] Bu şagirdlərin hər biri öz növbəsində böyük elmi şəxsiyyət və parlaq simalardan olub böyük xidmətlər göstərmişdir. Onlardan bəziləri böyük elmi əsərlər yazmış, çoxlu şagirdlər yetişdirmişlər. Misal üçün qeyd edə bilərik ki, Hişam ibn Həkəm otuz bir cild,[5] Cabir ibn Həyyan isə müxtəlif elmlər sahəsində, istər dəqiq elmlər, istər təbiət elmləri, istərsə də o dövrdə geniş yayılmış kimya sahəsində iki yüz cilddən artıq[6] kitab yazmış, məhz buna görə

---

[1] Mə'sum İmamların həyatına bir baxış, səh.142-160.
[2] Əl-İmamüs-Sadiq vəl-məzahibül-ərbəə.
[3] Zənadiqə firqəsi Allahı və bütün dinləri inkar edən bir məzhəb olmuşdur.
[4] Əl-İrşad, səh.271.
[5] Elamül-Vəra, səh.284.
[6] Əl-fihrist, səh.512-517.

də, “kimyanın atası” ləqəbini almışdır. Cabirin kitabları orta əsrlər dövründə Avropanın müxtəlif dillərinə tərcümə edilmişdir. Yazıçılar onun xatirəsini böyük əzəmətlə yad edirlər.

## “Tövhidi Müfəzzəl” risaləsi

Qeyd etdik ki, İmam Sadiq (əleyhissəlam) təbii elmlər sahəsində bir sıra elmi bəhslər aparmış, bu günkü alimləri heyrətə gətirən üstüörtülü sirləri açmışdır. Bu məsələnin ən aşkar nümunəsi (Cabiri yetişdirməsindən əlavə) Tövhidi Müfəzzəldir. İmam Sadiq (əleyhissəlam) onu dörd gün ərzində imla etmiş, Müfəzzəl ibn Ömər Kufi də onu qələmə alaraq nəticədə “Tövhidi Müfəzzəl” adlı kitabı meydana gəlmişdir. Müfəzzəl özü bu kitabın müqəddiməsində deyir: “Bir gün axşamçağı Peyğəmbərin məscidində oturub o Həzrətin əzəməti və Allahın ona əta etdiyi şərəf, fəzilət və s. barədə fikirləşirdim. Bu vaxt Zənadiqə firqəsindən olan ibn Əbül-Əvca məscidə daxil olub bir yerdə oturdu. Mən onun söhbətini eşidirdim. Dostlarından biri də gəlib onun yanında oturduqdan sonra bu iki nəfər İslam Peyğəmbəri barədə nə isə danışmağa başladılar. İbn Əbül-Əvca dedi: “Ağlım adında heyran qalmış, işlərində çaş-baş qalmış Məhəmmədin (səlləllahu əleyhi və alih) adından əl çək, onun gətirdikləri barədə söhbət et.” Sonra onlar Allah-taala barədə söhbət etməyə başladılar. Söhbətlərinin nəticəsi belə oldu ki, bu dünyanın heç yaradanı yoxdur, hər şey öz-özünə təbiətdə yaranmışdır. Bu həmişə belə olub və belə də olacaq.”

Müfəzzəl sonra əlavə edib deyir: Bu axmaq və əsassız sözləri Allah rəhmətindən uzaq düşmüş bu şəxsdən eşitdikdə hirsimdən dayana bilməyib dedim: “Ey Allahın düşməni! Kafir olmusan? Səni ən gözəl surətdə yaratmış, müxtəlif hallardan çıxarıb nəhayət bu həddə yetirən Allahı inkar edirsən? Əgər özünə nəzər salıb bir az fikirləşsən, Allahın nişanələrini elə öz vücudunda müşahidə edərsən. Görərsən ki, Onun elm və hikmət nişanələri sənin öz vücudunda cəmlənmişdir.”

İbn Əbül-Əvca dedi: “Ay kişi, əgər sən mütəkəllimlərdənsənsə (əqaid elmindən xəbərdar olub bəhs və münazirədə mahirsənsə), səninlə onların dilində danışım, əgər bizi məğlub etsən, sənə tabe olacağıq. Yox, əgər onlardan deyilsənsə, səninlə söhbət etməyin faydası yoxdur. Əgər Cəfər ibn Məhəmməd Sadiq əleyhissəlamın dostlarındansansa, heç onun özü bizimlə bu cür söhbət etmir. O, bizim bu sözlərimizi səndən də çox eşidib, ancaq bizi acılamayıb və bizimlə söhbətdə ədəb-ərkanı qoruyub saxlayıb. O, səbirli, təmkinli və ağıllı adamdır, heç vaxt qəzəb onu üstələyə bilmir. Bizim sözlərimizi dinləyir, ürəyimizdə nə varsa deyirik, elə bilirik ki, ona qalib gəlmişik, o isə çox az söhbətlə hüccəti bizə tamamlayır. Belə ki, daha ona cavab verə bilmirik. Əgər sən də onun tərəfdarlarındansansa, onda ona layiq şəkildə bizimlə söhbət et.”

Mən qəmli halda məsciddən çıxdım. İslam və müsəlmanların bu cür kafirlərə və onların Allahı inkar etmələri barədəki şəkk-şübhələrinə mübtəla olması barədə fikirləşirdim. Ağam İmam Sadiq əleyhissəlamın hüzuruna gəldim. İmam məni qəmgin və fikirli görüb soruşdu: “Sənə nə olub?” Mən o kafirlərin sözlərini İmam əleyhissəlama dedim. İmam (əleyhissəlam) buyurdu: “Sənin üçün Allahın, dünyanın – heyvanların, yırtıcıların, həşəratların, quşların, ümumiyyətlə, hər hansı bir canlının,

istər insan olsun, istər heyvan, istərsə də bitki - meyvəli ağaclar, meyvəsiz ağaclar, yeyilməli bitkilər, yeyilməyən bitkilərin - yaradılmasında olan hikmətini açıqlayacağam. Qoy ibrət götürənlər ondan ibrət götürsün və möminlər onunla öz mərifətlərini artırsın, kafir və inadkarlar isə ona heyran qalsınlar. Sabah səhər bizə gəl...”

Bu söhbətdən sonra Müfəzzəl dörd gün ardıcıl olaraq İmam Sadiq əleyhissəlamın hüzuruna getdi. İmam Sadiq (əleyhissəlam) insanın yaranışı, yaranışın əvvəli, zahiri və batini qüvvələr, insanın fitri sifətləri, insanın bədən üzvləri, müxtəlif növ heyvanların yaranışı və eləcə də, yer-göyün yaranması, bəla və təbii fəlakətlərin fəlsəfəsi və bir çox başqa məsələlər barədə söhbət etdi və Müfəzzəl də onları qeydə aldı.[1]

## İmam Sadiq (əleyhissəlam) məktəbinin genişliyi

İmam Sadiq (əleyhissəlam) o dövrün bütün ideoloji və əqidəvi qurumları ilə üzləşmiş, İslam və şiəçiliyin mövqeyini onlar üçün aşkar edərək İslam dünya görüşünün onlardan üstün olduğunu sübuta yetirmişdir.

İmam Sadiq əleyhissəlamın əzəmətli elmindən təkcə şiələr deyil, eləcə də sünni məzhəbinin nümayəndələri də faydalanırdılar. Sünni məzhəbinin tanınmış rəhbərləri bilavasitə, ya da hər hansı bir vasitə ilə o Həzrətin şagirdləri olmuşlar. Bu rəhbərlərin önündə Əbu Hənifə durur. O, iki il İmam Sadiq əleyhissəlamın şagirdi olmuşdur. Əbu Hənifə bu iki ili öz elminin bünövrəsi kimi qeyd edərək deyir: “Əgər o iki il olmasaydı, Noman (Əbu Hənifə) həlak olardı.”[2]

İmam Sadiq əleyhissəlamın şagirdləri Kufə, Bəsrə, Vasit, Hicaz və digər müxtəlif şəhərlərdən, həmçinin, Bəni–Əsəd, Məxariq, Teyy, Süleym, Qətəfan, Əzd, Xüzaə, Xəsəm, Bəni-Zəbbə, Qüreyş, xüsusilə də, Bəni-Haris ibn Əbdülmüttəlib və Bəni-Həsən qəbilələrindən olmuşlar.[3]

İmam Sadiq (əleyhissəlam) məktəbinin genişliyi haqqında bu yetər ki, İmam Riza əleyhissəlamın şagirdlərindən olan (və neçə il İmam Sadiq əleyhissəlamdan sonra yaşayan), böyük hədisçilərdən biri olmuş Həsən ibn Əli ibn Ziyad Vəşşa deyir: “Kufə məscidində hamısı Cəfər ibn Məhəmməd əleyhissəlamdan hədis söyləyən doqquz yüz hədis müəllimi gördüm.”[4]

İbn Həcər Əsqəlaninin dediyinə görə Şübə, Süfyani Suri, Süfyan ibn Üyeynə, Malik, İbn Cərih, Əbu Hənifə, Musa ibn Əbu Hənifə, Vəhib ibn Xalid, Qəttan, Əbu Asim və bu kimi bir çox digər fəqih və hədisçilər İmam Sadiq əleyhissəlamdan hədis söyləmişlər.[5] Şafei yazır: “Onun (İmam Sadiq əleyhissəlamın) tövhid və digər sahələrdə qiymətli kəlamları var. Onun şagirdi olmuş Cabir ibn Həyyan beş yüz risalədən ibarət olan min vərəqli bir kitab yazmışdır.”[6]

---

[1] Tövhidi–Müfəzzəl, səh.7-11.
[2] Əl-İmamüs-Sadiq vəl-məzahibül-ərbəə, c.1, səh.70.
[3] Əl-imamüs-Sadiq vəl-məzahibül ərbəə, c.1, səh.38.
[4] Ricalü-Kəşşi, səh.39-40.
[5] Təhzibüt-təhzib, c.1, səh.88.
[6] Mir’atül-cinan, c.2, səh.304.

İmam Sadiq (əleyhissəlam) öz şagirdlərinin hər birini onun istedadına uyğun olan sahədə yetişdirir, nəticədə şagirdlərinin hər biri hədis, təfsir, əqaid və bu kimi elmlərin biri və ya ikisində mütəxəssisə çevrilirdi. Bəzi vaxtlar İmam Sadiq (əleyhissəlam) onunla elmi bəhs və münazirə etmək istəyən şəxslərə bildirirdi ki, onun həmin sahədə mütəxəssis olmuş tələbəsi ilə bəhs etsin. Hişam ibn Salim deyir: "Bir gün İmam Sadiq əleyhissəlamın bir neçə dostu ilə birlikdə o Həzrətin yanında oturmuşduq. Bu vaxt Şam şəhərindən olan bir kişi icazə istəyib məclisə daxil oldu. İmam ona əyləşmək üçün yer göstərdi. Sonra ondan soruşdu: "Nə istəyirsən?" Şam şəhərindən olan kişi dedi: "Eşitmişəm ki, siz camaatın bütün suallarına cavab verib çətinliklərini həll edirsiniz, mən də gəlmişəm sizinlə elmi bəhs edəm." İmam Sadiq (əleyhissəlam) buyurdu: "Hansı mövzuda bəhs etmək istəyirsən?" Şam şəhərindən olan kişi dedi: "Quranın qiraəti barədə." İmam Sadiq (əleyhissəlam) üzünü Həmrana tutub buyurdu: "Həmran, bu kişinin cavabı sənin öhdənədir." Şamdan olan kişi dedi: "Mən Həmranla yox, məhz Sizinlə bəhs etmək istəyirəm." İmam Sadiq (əleyhissəlam) buyurdu: "Əgər Həmranı məğlub etsən, elə bil ki, məni məğlub etmisən." Şam şəhərindən olan kişi çarəsiz qalıb Həmranla bəhsə başladı. Nə dedisə, Həmrandan qəti və qaneedici cavab eşitdi. Belə ki, nəhayət yorulduğu üçün bəhsi davat etdirməkdən əl çəkdi.

İmam Sadiq (əleyhissəlam) buyurdu: "Həmranın səviyyəsi necədir?"

Şamlı kişi: "Doğrusu, Həmran çox mahirdir, nə soruşdumsa, layiqincə cavab verdi. İndi istəyirəm sizinlə lüğət və ərəb ədəbiyyatı barədə bəhs edəm."

İmam Sadiq (əleyhissəlam) üzünü Əban ibn Təğlibə tutub buyurdu: "Onunla bəhs et!"

Əban ibn Təğlib onun bütün suallarına cavab verib onu susdurdu.

Şam şəhərindən olan kişi dedi: "İstəyirəm fiqh (şəriət elmi) sahəsində sizinlə bəhs edəm."

İmam Sadiq (əleyhissəlam) Zürarəyə buyurdu: "Onunla bəhs et!"

Zürarə onunla bəhs edib qısa bir zamanda onu məğlub etdi.

Şamdan olan kişi dedi: "İstəyirəm əqaid barəsində sizinlə bəhs edəm."

İmam Sadiq (əleyhissəlam) Mömin ibn Tağa buyurdu ki, onunla bəhs etsin. Çox çəkmədi ki, Mömin ibn Taq da onu məğlub etdi.

Daha sonra Şam şəhərindən olan kişi insanın xeyir və ya şər işi tərk edə bilməsi, yaxud bilməməsi, tövhid və İmamət barədə bəhs etmək istədikdə İmam Sadiq (əleyhissəlam) ardıcıl olaraq Həmzeyi-Təyyar, Hişam ibn Salim və Hişam ibn Həkəmə buyurdu ki, onunla bəhs etsinlər. Bu üç nəfərin üçü də Şam şəhərindən olan kişini qəti və əsaslı sübutlarla məğlub etdilər.

Bu həyəcanlı hadisəni müşahidə etməklə sevincdən İmam Sadiq əleyhissəlamın dodaqlarına şirin bir təbəssüm qonmuşdu.[1]

## İmam Sadiq əleyhissəlamın münazirələri

Bundan öncə qeyd etdik ki, İmam Sadiq əleyhissəlamın yaşadığı dövr fikir və düşüncə mübarizəsi, müxtəlif məzhəb və firqələrin meydana gəldiyi dövr olmuşdur.

[1] İxtiyari-mə'rifətir-rical, səh.275-278.

İslam maarif və mədəniyyətinin yunan alim və filosofların fikir və rəyləri ilə mübarizəsi nəticəsində bir sıra şübhələr meydana çıxmışdı. Buna görə də, İmam Sadiq (əleyhissəlam) İslam və şiə əsaslarını tanıtdırmaq məqsədi ilə bu məzhəblərin başçı və tərəfdarları ilə çoxsaylı və həyəcanlı münazirələr edirdi. Bu münazirələrlə o, bu məzhəblərin əqidəsinin puç, İslam əqidəsinin isə üstün olduğunu kəskin və məntiqli sübutlarla isbat edirdi.

İmam Sadiq əleyhissəlamın müxtəlif münazirələri arasından nümunə üçün o Həzrətin Hənəfi məzhəbinin banisi Əbu Hənifə ilə münazirəsini hörmətli oxucuların nəzərinə çatdırırıq.

Bir gün Əbu Hənifə İmam Sadiq (əleyhissəlam) ilə görüşmək məqsədilə onun evinə gəlib görüş üçün icazə istədi. İmam Sadiq (əleyhissəlam) icazə vermədi.

Əbu Hənifə deyir: Bir qədər qapının ağzında gözlədim. Bu vaxt bir neçə kufəli şəxs gəlib İmam əleyhissəlamla görüşmək üçün icazə istədi. İmam onlara icazə verdi. Mən də onlarla birlikdə içəri girdim. Onun hüzuruna yetişdikdə dedim: "Yaxşı olar ki, siz Kufəyə bir nümayəndə göndərib oranın əhalisini Peyğəmbərin səhabələrinə nalayiq sözlər deməkdən çəkindirəsiniz. Orada on min nəfərdən çox adam Peyğəmbərin dostları üçün nalayiq sözlər deyir." İmam Sadiq (əleyhissəlam) buyurdu: "Camaat mən deyəni qəbul etmir."

Əbu Hənifə: "Siz Allah Peyğəmbərinin nəvəsi olduğunuz bir halda, necə ola bilər camaat sizin sözünüzü qəbul etməsin?!"

İmam Sadiq (əleyhissəlam): "Mənim sözümə qulaq asmayanlardan biri də, elə sən özünsən. Məgər mənim icazəm olmadan evə daxil olmamısan, mənim icazəm olmadan oturmamısan və mən icazə verməmiş sözə başlamamısan?"

Sonra əlavə edib buyurdu: "Eşitdiyimə görə sən müqayisə əsasında hökm verirsən!"

— Bəli!

— Vay olsun sənə! Müqayisə əsasında hökm verən ilk şəxs (məxluq) Şeytan olmuşdur. Allah ona "Adəmə səcdə et" - deyə buyurduqda o cavab verdi ki: "Mən səcdə etmirəm, çünki mən ondan daha yaxşıyam. Sən məni oddan, onu isə palçıqdan yaratdın."

(Sonra İmam Sadiq (əleyhissəlam) şəriətdə müqayisənin batil olduğunu isbat etmək üçün bununla zidd olan bir neçə şəriət hökmü qeyd edərək buyurdu:)

— Səncə bir nəfəri nahaqdan öldürməyin günahı ağırdır, yoxsa zinanın?

— Bir nəfəri nahaqdan öldürməyin.

— (Əgər müqayisə olunan hökmə əməl etmək olarsa) bəs nə üçün qətl hadisəsini isbat etmək üçün iki, zinanı isbat etmək üçün isə dörd şahid lazımdır? İslamın bu qanunu müqayisə ilə uyğun gəlirmi?

— Xeyr!

— Sidik daha çox murdardır, yoxsa məni?

— Sidik.

— Bəs nəyə görə birincidə (sidikdə) Allah-taala insanlara dəstəmaz almağı, ikincidə (mənidə) isə qüsl almağı əmr edir? Bu hökm müqayisə ilə uyğundur?

— Xeyr!

— Namaz daha çox əhəmiyyətlidir, yoxsa oruc?

— Namaz.

— Bəs nəyə görə heyz (aybaşı) halı görmüş qadına namazın qəzası vacib deyil, ancaq orucun qəzası vacibdir? Bu hökm müqayisə ilə uyğun gəlir?

— Xeyr!

— Qadın daha çox zəifdir, yoxsa kişi?

— Qadın.

— Bəs nə üçün kişinin irs payı qadının irs payının iki bərabəri qədərdir? (Əgər qadın zəifdirsə, onda qoy o daha çox irs aparsın.) Bu hökm müqayisə ilə uyğun gəlirmi?

— Xeyr!

— Nə üçün on dirhəm oğurlamış şəxs barədə Allah onun əlinin kəsilməsini, ancaq bir nəfər digər birisinin əlini kəsərsə, beş yüz dirhəm diyə verməsini əmr etmişdir? Bu hökm müqayisə ilə uyğun gəlirmi?

— Xeyr!

— Eşitmişəm ki, sən ***"Sonra da həmin gün [Qiyamət günü] [Allahın dünyada sizə əta etdiyi] nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız"***[1] ayəsini belə təfsir edirsən: "Allah insanları yay fəslində yedikləri dadlı yeməklər və içdikləri sərin sular barədə sorğu-suala çəkəcək."

— Düzdür, mən bu ayəni bu cür təfsir etmişəm.

— Əgər bir nəfər səni evinə qonaq aparıb qarşına dadlı yemək və sərin su qoysa, sonra bu işinə görə sənə minnət qoyarsa, bu adam barəsində necə fikirləşərsən?

— Deyərəm ki, xəsis adamdır.

— Allah xəsisdirmi? (Yəni, bizə bəxş etdiyi yeməklər barədə bizi sorğu-suala çəkər?)

Əbu Hənifə: ***"Bəs, Quranın "insanlar onlar barədə sorğu-sual olunacaqlar"*** dediyi nemətlərdən məqsəd nədir?"

İmam Sadiq (əleyhissəlam): "Ondan məqsəd biz Əhli-beyt əleyhissəlamın dostluğudur."[2]

## Əhkamın şiəliyə xas olan şəkildə bəyan olunması

İmam Sadiq (əleyhissəlam) vasitəsilə böyük elm və fiqh ocağının təsis edilməsi mövzusunda o Həzrətin həyatını araşdıranların əksəriyyəti üçün məlum olmayan cəhət bu işin siyasi və əks mövqe daşımasıdır. Bu hərəkətin siyasi cəhətlərinin aşkar olunması üçün ilk növbədə aşağıdakı məsələyə diqqət yetirməliyik.

İslamda xilafət sistemi digər ölkələrin hakimiyyət sistemi ilə ona görə fərqlənir ki, bu, təkcə siyasi təşkilat yox, eyni zamanda siyasi-məzhəbi bir təşkilatdır. İslami rəhbərə xəlifə adının ünvanlanması onu göstərir ki, o, siyasi rəhbərdən əlavə ilk növbədə Peyğəmbər canişinidir, Peyğəmbər isə din gətirmiş və əxlaq öyrədən bir şəxs olmuşdur. Deməli, İslamda xəlifə olmaq bu deməkdir ki, o, siyasi aləmdə vəzifə daşıması ilə yanaşı camaatın dini məzhəbi işlərini də öhdəsinə götürmüşdür. Tam qəbul edilmiş bu məsələ ona gətirib çıxartdı ki, ilk İslami xəlifələrdən sonra

[1] "Təkasur" surəsi, ayə 8.

[2] Biharül-ənvar, c.10, səh.22.

hakimiyyətə gələn dini məlumatı az olan, bəzən də dini məlumatı sıfır səviyyəsində olan xəlifələr bu qərara gəldilər ki, bu çatışmazlığı onlara tabe olan din alimlərinin köməyi ilə aradan qaldırsınlar və yaltaq hədisçi, təfsirçi və fəqihləri öz saraylarına cəlb etməklə hakimiyyət sistemini yenə də din və siyasət əsasında qursunlar. Bu cür şəxsləri saraya cəlb etməkdə xəlifələr üçün başqa bir məqsəd də ondan ibarət idi ki, onlar zalım və ədalətsiz xəlifələrin istəyinə əsasən, şəriət hökmələrini günün məsləhəti bəhanəsi ilə asanlıqla dəyişib, xəlifələrin tamahı əsasında (avam camaat üçün fərq qoyulması məlum olmayan) hökmləri istənilən şəkildə ələ gətirsinlər.

Ötən əsrlərin yazıçı və tarixçiləri insanı dəhşətə gətirən bir sıra qondarma olan yalan hədis və şəxsi fikir əsasında verilmiş təfsir nümunələrini qeyd etmişlər ki, onlarda siyasi qüvvələrin təsiri açıq-aşkar hiss edilir. Eynilə bu iş Quranın təfsiri barədə də icra olunurdu. Quranın, təfsirçinin öz şəxsi fikrinə əsasən təfsir olunması, Allahın hökmünü camaatın gözündə dəyişib onu öz istədiyi kimi (təbii ki, təfsirçinin istədiyi xəlifənin istəyi ilə uyğun gəlirdi) qələmə verə bilməsi bu cür işlərdən biri idi. Bu səbəbə görə, elə İslamın lap ilkin çağlarından fiqh (şəriət elmi), hədis və təfsir iki hissəyə bölünür. Birinci dəstə qəsbkar hökumət orqanlarına tabe olan dəstə olmuş və əksər hallarda həqiqəti hökumətin məsləhətinə qurban verərək dünya malına çatmaq üçün Allahın hökmünü təhrif etmişdir. İkinci dəstə isə doğru və düzgün İlahi hökmlərə heç bir məsləhəti üstün tutmayan əsl İslami dəstə olmuşdur. Təbii ki, onlar hər an hakimiyyət və onun yaltaq fəqihləri ilə baş-başa gəlmiş və bu səbəbdən də çox vaxtlar qeyri-rəsmi şəkildə fəaliyyətdə olmuşlar.

## İmam Sadiq (əleyhissəlam) məktəbinin hökumətə qarşı olan etirazının məfhumu

Yuxarıda qeyd etdiklərimizi nəzərə alsaq, asanlıqla başa düşərik ki, Cəfəri fiqhi İmam Sadiq əleyhissəlamın dövründəki rəsmi fəqihlərə qarşı təkcə sadə bir dini ixtilaf olmamış, eyni zamanda hökumətə qarşı iki məzmunu da özündə ehtiva etmişdir. Onların birincisi və eləcə də, ən əsası hökumət orqanlarının lazımi dini məlumatlardan xəbərsiz olmasını və camaatı ideoloji cəhətdən idarə edə bilmədiklərini isbat etmək olmuşdur. Yəni, həqiqətdə onların xilafət kürsüsündə oturmağa layiq olmadıqları sübut olunurdu. İkincisi isə hökumətə bağlı olan fəqihlərin fiqhi məsələləri bəyan etmək və onların, hakim dairələrin istəklərini nəzərə alaraq qeyri-İslami məsləhətləri əsasında qurduqları şəriətdə dinin təhrif olunmasını sübuta yetirmək idi. İmam Sadiq (əleyhissəlam) elm ocağını genişləndirib fiqh, İslam maarifi, Quran təfsirini hökumətə bağlı olan alimlərin dediyindən fərqli bəyan etməsi əməli olaraq hökumətə qarşı atılmış bir addım idi. O Həzrət hamısı bir növ hökumətin əsas hissəsi sayılan rəsmi fiqh və məzhəbi təşkilatların səhvlərini üzə çıxarıb hökumət orqanının şəriətdən kənar olduğunu isbat edirdi.

İmam Sadiq əleyhissəlamın səhabələrinə buyurduğu təlim və müzakirələrində xəlifələrin dini elmlərdən xəbərsiz olduqları məsələsi, İslam nöqteyi-nəzərindən onların xəlifəliyə səlahiyyətləri olmadığı açıq-aşkar müşahidə olunur. Yəni, İmam Sadiq (əleyhissəlam) öz fiqh və Quran dərslərinin ehtiva etdiyi hökumətlə qarşıdurma məsələsini səhabələri arasında açıq-aşkar müzakirəyə qoyurdu. İmam Sadiq

əleyhissəlamdan olan hədisdə oxuyuruq: *"Biz o kəslərik ki, Allah-taala bizə itaət etməyi camaata vacib buyurmuşdur. Halbuki, camaat elə bir şəxsə itaət edir ki, sabah onun cahilliyi ucbatından Allah dərgahında üzürlü sayılmayacaqlar[1]."* Bu o deməkdir ki, camaat rəhbər və xəlifələrinin cahilliyi nəticəsində səhvə düçar olub Allah yolundan başqa yola getdiklərinə görə üzürlü sayılıb deyə bilməzlər ki, biz öz seçimimizə görə səhv etməmişik. Bizi bu yola sürükləyən bizim cahil rəhbərlərimiz olmuşdur. Bu üzr əsla qəbul olunmayacaq, çünki, bu cür rəhbərlərdən itaət etməyin özü səhv bir iş olub sonrakı səhvlərə bəhanə ola bilməz.[2]

## İmam Sadiq (əleyhissəlam) məktəbinin şagirdlərindən bir nümunə

Qeyd etdik ki, İmam Sadiq əleyhissəlamın məktəbində yetişmiş tələbələrin sayı dörd minə çatırdı. Burada onların bir neçəsi barədə məlumat vermək yaxşı olardı, ancaq qısa olsun deyə təkcə onlardan biri haqqında məlumat verəcəyik. O da Hişam ibn Həkəmdir.

## Hişam ibn Həkəmin elmi əzəməti

Hişam görkəmli alim, böyük əqaidçi, şirin və gözəl nitq sahibi və elmi mübahisədə çox mahir bir şəxsiyyət idi. O, İmam Sadiq (əleyhissəlam) və İmam Kazim əleyhissəlamın məktəbinin ən görkəmli şagirdlərindən biri hesab olunurdu.

Hişam ibn Həkəm şiələrin hər tərəfdən müxtəlif məzhəblər və siyasi qüdrətlərin təzyiqlərinə məruz qaldığı bir dövrdə şiə dünyasına çox böyük xidmətlər göstərmiş, xüsusən şiə məzhəbinin əsas əqidə dayaqlarından biri olan İmamət mövzusunu layiqincə müdafiə etmiş, onun cəmiyyəti islah edə biləcək mənasını gözəl şəkildə bəyan etmişdir. Düzdür, Hişamın əqidə dayaqları və elmi şəxsiyyəti İmam Sadiq əleyhissəlamın məktəbində möhkəmlənmiş və bu məktəbdə onun İslami və fikri təkamülü öz inkişafını davam etdirmişdir. Ancaq hicrətin yüz qırx səkkizinci ilindən sonra, yəni, İmam Sadiq (əleyhissəlam) şəhid olduqdan sonra Hişamın böyük şəxsiyyətliyi İmam Kazım əleyhissəlamın tövsiyələri ilə təkamülə çatmış və bu sahədə son həddə qədər irəliləmişdir.

## Hişam həqiqət axtarışında

Hişamın həyat tarixinə nəzər yetirdikdə, məlum olur ki, o, elm və həqiqət vurğunu olmuş, bu məqsədinə çatmaq və elm mənbəyindən sirab olmaq üçün əvvəl öz dövrünün elmlərini öyrənmiş, sonra isə elmini təkmilləşdirmək üçün yunan filosoflarının kitablarını oxuyub fəlsəfəni çox yaxşı mənimsəmişdi. Hətta o, axırda Aristotelin fəlsəfəsinin inkarına dair bir kitab yazmışdı. Daha sonra öz elmi-fikri təkamülünün tələbinə əsasən, müxtəlif məktəblərdə olmuş, ancaq heç hansı bir məktəbin fəlsəfəsi onu qane etməmişdi. Onun elm teşnəliyini yalnız İslamın möhkəm, məntiqəuyğun və aşkar təlimatı söndürə bilmişdir. Buna görə də, müxtəlif məktəblərlə tanış olduqdan sonra onlardan uzaqlaşmış və əmisi vasitəsilə İmam Sadiq

[1] "Üsuli Kafi", c. 1, səh. 186.
[2] Doğru rəhbər, səh.87-91.

əleyhissəlamla tanış olmuşdur. Həmin tarixdən etibarən onun həyat tərzi İslamla olan dərin tanışlığı və şiə məntiqini qəbul etməsi sayəsində tamamilə dəyişilmişdir.

Bəziləri demişlər: “Hişam ibn Həkəm əvvəllər bir müddət (Zənadiqə məzhəbindən olub tam materializm əqidəsində olan) Əbu Şakir Disaninin şagirdi olmuş, sonra isə cəbriyyə məzhəbinə keçərək bu əqidəyə mənsub Cəhm ibn Səfanın tərəfdarlarından biri olmuşdur.”

Bu fikirdə olan şəxslər bu məsələni Hişamın zəif cəhətlərindən sayıb onu əqidə pozğunluğu ilə ittiham etmişlər. Halbuki, əvvəla o, nəinki Əbu Şakir Disaninin şagirdi olmamışdır, hələ onunla bir sıra elmi mübahisələr aparıb, onun İslam dininə gəlməsinə səbəb olmuşdur.[1] Üstəlik təsəvvür etsək ki, bu fərziyyə düzgündür və Hişam yuxarıda qeyd etdiyimiz məzhəblərin əqidələri ilə maraqlanıb, bu o demək deyildir ki, o, həmin məzhəblərin əqidəsini qəbul etmişdir. Onların əqidəsi ilə maraqlanmaq sadəcə olaraq onunla bəhs və elmi müzakirə etmək üçün olmuşdur. İkincisi də, bu dəyişikliklər onun əqli və fikri təkamülünün seyr etmək funksiyasını daşımış, həqiqət axtarışında olub haqqı son dərəcə agahlıq nəticəsində tapmaq istəyən şəxs üçün heç də zəif cəhət hesab olunmur. Əksinə, bu, onun əqidə və fikri təkamülünün son həddi kimi başa düşülməli və buna əsasən, hökm yürüdülməlidir.[2] Bunu da bilirik ki, Hişam ömrünün sonunadək İslamın və şiə məzhəbinin əsaslarının təbliği sahəsində çalışmış, həyat tarixində parlaq səhifələr qoyub getmişdir.

## Fikirlərin mübarizə dövrü

Öncə qeyd etdiyimiz kimi hicrətin ikinci əsri elm, araşdırma, fikir mübarizəsi və İslam cəmiyyəti arasında müxtəlif növ məzhəb və firqələrin əmələ gəlməsi dövrü olmuşdur. İslam dininin elə ilk gündən elmin inkişafı yolunda atılmış bir addım olmasına baxmayaraq, hicrətin ikinci əsrində bir tərəfdən müsəlman alimlərinin yunan və biganə fəlsəfələrdən xəbərdar olmaları, digər tərəfdən də İslam cəmiyyəti arasında müxtəlif növ məzhəblərin əmələ gəlməsi nəticəsində elmi və məzhəbi söz-söhbətlər, müxtəlif sahələrdə aparılan elmi mübahisələr kulminasiya nöqtəsinə çatır və bu sahədə hər biri özünə görə böyük bir şəxsiyyət sayılan alimlər ortaya çıxır. Həmçinin, o dövrə qədər aparılan elmi müzakirələr sabit və tənzimlənmiş şəkildə olmadığından elmi bəhs və müzakirəyə çox ehtiyac duyulurdu.[3] Bu səbəblərə görə müxtəlif firqələr arasında gedən elmi çəkişmələr xüsusi əhəmiyyət kəsb etmiş və müxtəlif yerlərdə diqqəti cəlb edən çoxsaylı dəyərli elmi müzakirələr aparılırdı. Həmin müzakirələrin çoxu indi də qaynaqlarda qorunub saxlanır.

Bu amillərin məcmusu müsəlmanlar arasında məsələlərin təhlilinin anlaşılmasına, elmin inkişafına gətirib çıxarmışdı. Belə ki, bu mövzu barədə İslam tarixinin qaynaqlarında xüsusi yer ayrılmışdır. Belə bir mühitdə böyüyüb boya-başa çatan Hişam ibn Həkəm yüksək istedad, böyük həvəsə malik olduğundan qısa bir vaxtda

[1] Qamusür-rical, c.9, səh.351.
[2] Tənqihül-məqal, c.3, səh.301.
[3] Zühəl İslam, c.2, səh.54.

alimlər arasında özünə yer tapdı və öz əsrinin məşhur alim və ziyalılarından biri oldu.[1]

## İlk tanışlıq

Hişam öz elmi axtarışlarında hələ ki, axtardığını tapmamışdı. Müxtəlif məzhəblərlə tanış olmasına, öz dövrünün ən məşhur elmi və məzhəbi şəxsiyyətləri ilə bəhslər etməsinə baxmayaraq, hələ öz istədiyinə nail ola bilməmişdi. Hişamın üzləşmədiyi təkcə bir nəfər qalmışdı. O da şiələrin altıncı İmamı Həzrət Cəfər ibn Məhəmməd (əleyhissəlam) idi.

Hişam tamamilə düzgün fikirləşmişdi. İmam Sadiq (əleyhissəlam) ilə görüş onun üzünə yeni bir pəncərə açacaqdı. Buna görə də, o, şiələrdən və İmam Sadiq əleyhissəlamın tərəfdarlarından olan əmisindən onu İmam Sadiq əleyhissəlamla görüşdürməsini xahiş etdi.

Hişamın İmam Sadiq (əleyhissəlam) ilə ilk və onun elmi həyat yolunu tamamilə dəyişən görüşü çox şirin və maraqlı olmuşdur.

Hişamın Ömər ibn Yezid adlı əmisi deyir: "Cəbriyyə məzhəbinə xidmət edən qardaşoğlum Hişam, məzhəbi məsələlərdə elmi mübahisələr etmək üçün onu İmam Sadiq əleyhissəlamla görüşdürməyimi xahiş etdi. Mən ona cavab verdim ki, İmam Sadiq əleyhissəlamdan icazə almamış belə bir iş görə bilmərəm. Sonra İmamın hüzuruna gedib Hişamın onunla görüşməsi üçün ondan icazə aldım. Qırağa çıxıb bir neçə addım atdıqdan sonra qardaşoğlumun cəsarət və qorxmazlığını xatırladıb yenidən İmam əleyhissəlamın hüzuruna qayıtdım. Qardaşoğlumun cəsarət və qorxmaz olduğunu ona bildirdim. İmam Sadiq (əleyhissəlam) mənə buyurdu: "Mənim üçün narahatsan?" Tutduğum işdən utanıb səhvimi başa düşdüm. Sonra qardaşım oğlunu İmam əleyhissəlamın hüzuruna gətirdim. İçəri keçib oturduqdan sonra İmam (əleyhissəlam) ona bir sual verdi, o, cavab verə bilməyib bir qədər möhlət istədi, İmam (əleyhissəlam) da ona möhlət verdi. Hişam bir neçə gün həmin məsələnin cavabını tapmaq üçün o qapını, bu qapını döyürdü. Axırda da bir cavab tapa bilmədi. Nəhayət, çarəsiz qalıb yenidən İmam əleyhissəlamın hüzuruna getdi, İmam Sadiq (əleyhissəlam) da məsələnin cavabını onun üçün açıqladı.

İkinci görüşdə İmam Sadiq (əleyhissəlam) cəbriyyə məzhəbinin əsaslarını kökündən sarsıdan bir məsələni ortaya atdı. Hişam bu sualın da cavabında aciz qalıb heyrət və narahatçılıq içərisində məclisi tərk etdi. O, bir qədər heyrət içərisində gün keçirtdi. Axırda yenə məndən xahiş etdi ki, onu İmam əleyhissəlamla görüşdürüm. Mən yenə İmam əleyhissəlamdan onun görüşməsi üçün icazə istədim. İmam (əleyhissəlam) buyurdu: "Sabah Hiyrənin[2] filan yerində məni gözləsin." İmam əleyhissəlamın xəbərini Hişama çatdırdım. O, vaxt çatmazdan qabaq qərar qoyulmuş yerə getdi..."

Ömər ibn Yezid əlavə edib deyir: "Sonradan Hişamdan soruşdum ki, o görüşünüz necə oldu? Dedi: "Mən vaxtından tez qərar qoyulmuş yerə getdim. Bir də gördüm ki, İmam Sadiq (əleyhissəlam) bir qatıra minmiş halda təşrif gətirir. Mənə yaxınlaşdı,

---

[1] İmamət aləminin müdafiəçisi, səh.14.

[2] Hiyrə şəhər adıdır.

üzünə baxanda onun əzəməti məni elə cəzb etdi ki, hər şeyi unudub bir söz də olsun belə deyə bilmədim. O, bir qədər mənim sual verib söhbət edəcəyimi gözlədi. Onun vüqarla dolu olan intizarı mənim heyrətimi daha da artırdı. Vəziyyəti belə görən İmam (əleyhissəlam) məni tək qoyub Hiyrənin küçələrindən birinə tərəf üz tutub getdi."[1]

Bu macərada bir neçə maraqlı məsələ var:

**1.** Hişam fövqəladə bir elmi mübahisə qüvvəsinə malikdir. Belə ki, macəranı danışan (yəni Hişamın əmisi) ondan qorxu hiss edərək onun bu sahədə olan bacarıq və hünərini cəsarət və qorxusuzluq adlandırır. O, hətta (İmam Sadiq əleyhissəlamın böyük İmamət məqamından xəbərsiz olub) onun İmam əleyhissəlamla üzləşəcəyindən nigarançılıq hissi keçirərək bu məsələni İmam əleyhissəlama bildirir.

**2.** Hişamın elm və biliyə həddən artıq çox əlaqəsi var və o, elm teşnəsidir. Belə ki, bu yolda yorğunluq bilmədən ələ düşən fürsətdən istifadə edir və İmam əleyhissəlamın suallarına cavab tapmadıqda yenidən İmam əleyhissəlamla görüşmək istəyir. O, sonuncu görüşdə qərar qoyulmuş yerə İmam əleyhissəlamdan qabaq gəlir. Bunların hamısı onun elmə olan əlaqəsini göstərir.

**3.** Diqqəti cəlb edən üçüncü məsələ İmam Sadiq əleyhissəlamın şəxsiyyətinin əzəmətidir. Belə ki, Hişam onun qarşısında özünü itirərək bütün bildiklərini unudur və gözlərindən oxunan hörmətlə dolu baxışları ilə özünün o Həzrətin qarşısında kiçikliyinə etiraf edir.

Bəli, o mənəvi görüş öz işini görərək Hişamın həyat tərzini büsbütün dəyişdi. O gündən etibarən Hişam İmam Sadiq əleyhissəlamın məktəbinə qoşularaq keçmiş fikirlərini başından çıxartdı və bu məktəbdə elə parladı ki, İmam əleyhissəlamın digər dostlarını da ötüb keçdi.

## Hişamın əsərləri

Hişam İmam Sadiq əleyhissəlamın məktəbindən öyrəndiyi çoxlu elmlər sayəsində qısa bir zamanda yüksək elmi mərhələləri arxada qoyub şiə məzhəbinin əsaslarının təbliği və məzhəbin müdafiəsində əlindən gələni etdi. O, bu sahədə çoxlu elmi əsərlər yazıb özündən yadigar qoydu. Hişamın təxminən otuza qədər olan əsər və kitablarının adını nəzərdən keçirsək, onun elmi əzəmət və gördüyü işlərin nə qədər böyük olduğunu görərik. İndi onun müxtəlif sahələrdə yazdığı əsər və kitabların adını oxucuların nəzərinə çatdırırıq:

**1.** İmamət;
**2.** Əşyanın yaranmasının sübutları;
**3.** Zənadiqə firqəsinə cavab;
**4.** Sənəviyyə[2] firqəsinə cavab;
**5.** Tövhid;
**6.** Hişami–Cəvaliqiyə cavab;
**7.** Təbiətçilər firqəsinə cavab;
**8.** Qoca və cavan;

---

[1] İxtiyaru mə'rifətir-rical, səh.256.
[2] Sənəviyyə ikiallahlılıq deməkdir.

**9.** Tövhiddə tədbir;[1]
**10.** Mizan;
**11.** Meydan;
**12.** Üstün şəxsin İmam olması əqidəsində olan şəxslərə cavab;
**13.** Camaatın İmamət məsələsində mübahisəsi;
**14.** Vəsiyyət, vəsiyyəti inkar edənlərə cavab;
**15.** Məcburiyyət və qəzavü-qədər;
**16.** İki münsif;
**17.** Mötəzilə məzhəbinin Təlhə və Zübeyr barədə olan əqidələrinə cavab;
**18.** Qəzavü-qədər;
**19.** Gəlmələr;
**20.** Mərifət (tanıma);
**21.** Qüdrət (imkan);
**22.** Səkkiz qapı;
**23.** Şeytani–Tariqə cavab;
**24.** Qapını açmaq necə xəbər ola bilər?
**25.** Tövhiddə Aristotelə cavab;
**26.** Mötəzilə məzhəbinin əqidələrinə cavab;
**27.** İmamət barədə məclislər;[2]
**28.** Haram edilməyin səbəbləri;
**29.** Vacibi hökmlər (İrs bölməsi).[3]

## İmam Sadiq əleyhissəlamın siyasi fəaliyyəti

Burada bunu qeyd etmək lazımdır ki, hamının təsəvvürünün əksinə olaraq İmam Sadiq əleyhissəlamın hərəkatı təkcə elm sahəsində (baxmayaraq ki, bu sahə çox geniş olmuşdur) olmamışdır. Eyni zamanda, o Həzrət siyasi fəaliyyət də göstərmişdir. Ancaq İmam əleyhissəlamın hərəkatının bu hissəsi bir çox yazıçı və təhqiqatçılar üçün naməlum qalmışdır. İndi isə "İmam Sadiq (əleyhissəlam) o dövrün vəziyyət və şəraitini nəzərə alıb əsla siyasət işinə qarışmamış və heç bir siyasi fəaliyyət göstərmədən xəlifələrin siyasətləri ilə hərəkət etmişdir" deyənlərin bu fikrinin əsassız və səhv olduğunu başa düşmək üçün İmam Sadiq əleyhissəlamın bəzi siyasi fəaliyyətlərini oxucuların nəzərinə çatdırırıq.

## İmaməti təbliğ etmək məqsədi ilə nümayəndələrin göndərilməsi

İmam Sadiq (əleyhissəlam) İmamət məsələsinin əsl həqiqətini təbliğ etmək məqsədi ilə müxtəlif yerlərə nümayəndələr göndərirdi. O cümlədən, Kufə şəhərindən olan bir nəfər İmam Sadiq (əleyhissəlam) tərəfindən Xorasan vilayətinə gəlib oranın əhalisini o Həzrətə tabe olmağa dəvət etdi. Bəziləri onun dəvətini qəbul edib İmam əleyhissəlamın itaəti altına keçdi, lakin bəziləri onun dediklərini qəbul etməyib itaətdən boyun qaçırtdı, həmçinin, bəziləri də ehtiyat edib heç bir tərəfi seçmədilər.

---
[1] Bu kitabı Hişamın şagirdlərindən biri olmuş Əli ibn Mənsur onun elmi bəhslərindən istifadə edib yazmışdır.
[2] Əl-fihrist, səh.355.
[3] Fihristi-müsənnifiş-şiə, səh.304.

Sonra hər dəstədən bir nəfər nümayəndə seçilib İmam Sadiq əleyhissəlamla görüşə getdi. Səfər zamanı üçüncü dəstənin nümayəndəsi öz səfər yoldaşlarından birinin kənizi ilə bəyənilməz bir iş gördü. (Bu işdən heç kimin xəbəri olmadı.) Elə ki, onlar İmam Sadiq əleyhissəlamın hüzuruna gəldilər, həmin şəxs sözə başlayıb dedi: “Kufə şəhərindən bir nəfər gəlib bizi sizə itaət etməyə dəvət etdi. Bir dəstə onun dediklərini qəbul etdi, başqa bir dəstə isə qəbul etmədi, bir dəstə də ehtiyat edib heç bir tərəfi seçmədi.” İmam Sadiq (əleyhissəlam) buyurdu: “Sən hansı dəstədənsən?” O cavab verdi ki, mən ehtiyat edənlərdənəm. İmam Sadiq (əleyhissəlam) buyurdu: “Sən ki, ehtiyat edirsən, bəs, onda nəyə görə filan gecə ehtiyat etməyib elə xəyanətkar iş gördün?”[1]

Gördüyümüz kimi qeyd olunan bu hadisədə İmam Sadiq əleyhissəlamın nümayəndəsi kufəli, onun nümayəndəliyə getdiyi yer isə Xorasan vilayəti olmuş, halbuki, İmam Sadiq əleyhissəlamın özü Mədinədə yaşamışdır. Bu, İmam Sadiq əleyhissəlamın siyasi fəaliyyət dairəsinin genişliyini göstərir.

## Əməvilər sülaləsinin süquta uğramasının səbəbləri

Əməvilər sülaləsi İmam Sadiq əleyhissəlamın dövründə süquta uğradığı üçün indi də, onların süquta uğrama səbəblərini qısaca olaraq oxucuların nəzərinə çatdırırıq.

Əməvi xəlifələri hakimiyyətdə olarkən bir sıra bidət və mövhumatlar yaratmış, bunlar da, üst-üstə yığılıb camaatın qəzəbinə səbəb olmuşdur. Bütün bunlar axırda müsəlmanların qiyamı və Bəni-Üməyyənin süqutu ilə nəticələndi. Camaatın qəzəbinə səbəb olmuş amilləri aşağıdakı şəkildə xülasə etmək olar:

**1.** İslam hökuməti Müaviyənin dövründən etibarən zülm əsasında qurulmuş irsi və fərdi bir hökumətə çevrildi.

**2.** Ümumi işlər üçün işlənilməli olan və mücahidlərə çatmalı olan döyüş qənimətləri hökumətin ixtiyarına keçdi və hökumət də onları şəxsi rifah istiqamətində sərf etməyə başladı.

**3.** Təqib, həbs olunma, işkəncə, qətl və bəzən də kütləvi soyqırım adi hala çevrilmişdi.

**4.** Əməvi sülaləsi hakimiyyət başına gəlməmişdən qabaq şiə fiqhinin bir o qədər də nəzəri cəlb etməməsinə və bütün İslam hökmlərini bilən şiə İmamlarının fiqhi alimlər kimi tanınmamasına baxmayaraq, rəsmi fiqhi qayda-qanunlara zahirdə də olsa, riayət olunurdu. Məsələn, bir mövzu haqqında hökm vermək istərkən, əvvəl Qurana, sonra isə Peyğəmbər sünnəsinə müraciət edilirdi. Əgər həmin mövzuya aid bir ayə tapılmasaydı, Peyğəmbər (səlləllahu əleyhi və alih) səhabələrinə üz tutub soruşurdular ki, bu hökm barədə Peyğəmbərdən (səlləllahu əleyhi və alih) bir hədis eşitmisiniz, ya yox? Bu qədər araşdırmadan sonra əgər bir nəticəyə gələ bilmirdilərsə, onda fiqh sahəsində mütəxəssis olan şəxslərin araşdırmaları nəticəsində hökmü təyin edirdilər. Ancaq bu şərtlə ki, verilmiş hökm Quran və Peyğəmbər sünnəsinin əksinə olmasın. Ancaq Əməvilər sülaləsi hakimiyyətə gəldikdən sonra hər hansı bir verilən hökmün Quran və Peyğəmbər sünnəsi ilə zidd olduğu təqdirdə, buna qarşı heç bir reaksiya vermir və bunun qarşısını almırdılar. Belə ki, Müaviyə Peyğəmbərin (səlləllahu əleyhi

[1] Biharül-ənvar, c.47, səh.72.

və alih) buyurduğunun əksinə olaraq Ziyadı qeyri-şəri yolla Əbu Süfyanın oğlu və özünə qardaş qərar verdi.

**5.** Bildiyimiz kimi İslam şəriətində dini hökmlərdən kənar iş görmüş şəxslər üçün "hədlər və diyələr" adlanan bir sıra hökmlər təyin olunmuşdur. Günahkar şəxs həmin hökmlərə əsasən, cəzalandırılmalıdır. Ancaq Əməvi sülaləsi hakimiyyətdə olduğu müddətdə bu hədlərin heç biri günahla uyğunlaşdırılmırdı. Günahkarın cəzası hakimdən asılı idi, bəzi vaxtlar hakim günahkarı əfv edir, bəzi vaxtlar günahsız bir şəxsi edam etdirir, bəzi vaxtlar isə günahkar üçün həddindən çox cəza təyin edirdi.

**6.** Böyük fəqihlərin İslami elm ocaqlarında yetişmələrinə baxmayaraq ümumiyyətlə, heç kəs onların dediklərinə diqqət yetirmirdi. Əgər bir fəqihin verdiyi şəri hökm hakimin zərərinə olurdusa, həmin fəqihə qarşı mütləq təzyiqlər olurdu. Beləliklə də, İslam şəriətinin iki mühüm əsaslarından olan əmr be-məruf və nəhy əz-münkər icra olunmur və xəlifə və ya onun işçilərindən birini pis işlərdən çəkindirməyə kimsənin cürəti çatmırdı.

**7.** İslam müqəddəsatları hörmətsizliyə məruz qaldı və müsəlmanlar üçün müqəddəs hesab olan şeylər təhqir olundu. Belə ki, Məscidül-həram və Kəbə evi viran edildi və Peyğəmbərin (səlləllahu əleyhi və alih) məzar, minbər və məscidinə hörmətsizlik edildi, habelə, Mədinə camaatı üç gün kütləvi qırğına məruz qaldı.

**8.** İslam tarixi ərzində ilk dəfə olaraq Peyğəmbər ailəsi kütləvi şəkildə öldürüldü və onun qız-gəlinləri əsir götürülərək şəhərbəşəhər gəzdirildi.

**9.** Cahiliyyət dövrünün əlamətlərindən olan və Peyğəmbərin dövründə pislənilən mədhiyyə və öyünmə şerləri yenidən adət oldu. Əməvilər sülaləsi dövrünün şairləri xəlifə və ya hakimləri onlarda olmayan sifətlərlə tərifləməyə və onlarda olan mənfi sifətləri isə ört-basdır etməyə başladılar.

**10.** Bir sıra dünyatələb və dini satmış alimlər iş başına gələrək xəlifələrin razılığı bahasına özlərinə Allah qəzəbini qazandılar. Onlar öz şəxsi fikirlərinə əsasən, Quran ayələri və Peyğəmbər hədislərini təfsir edir, xəlifələrin gördüyü işlərə, dediyi sözlərə həqiqət libası geyindirirdilər.

**11.** Rifah içərisində yaşama, yeyinti məhsulları, pal-paltar, ev-eşik, ev avadanlıqları günbəgün artır, hökumət işləri üçün saraylar, hətta ovlaqlar da artmağa başlayırdı.

**12.** Şərabxorluq, arvadbazlıq, xoşavazlı kənizlər almaq adət halına çevrilmişdi. İş o yerə çatmışdı ki, Əməvi xəlifələrinin bəzilərinin gündəlik söz-söhbəti ancaq qadın, yemək və şərab barəsində olurdu.[1]

**13.** İslam nizam-intizamının ən mühüm əsaslarından biri olan irqi bərabərçilik aradan gedərək öz yerini ərəblərin xeyrinə, digər millətlərin isə zərərinə nəticələnən kobud irqi ayrıseçkiliyə verdi. Halbuki, Quran və Peyğəmbər sünnəsi hər hansı bir ayrıseçkiliyi ləğv etmiş və hörmətli və üstün olmağın ölçüsünü ancaq təqvalı olmaqda qərar vermişdir. Əməvilər isə ərəb millətini ən üstün millət hesab edərək deyirdilər ki, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) ərəb millətindən olduğu üçün ərəblər sair millətlərdən üstündür. Ərəblərin öz içərisində isə Qüreyş qəbiləsi digər qəbilələrdən üstündür. Bu siyasətə əsasən, ərəblər bütün işlərdə əcəm (qeyri-ərəb) millətlərindən

---

[1] Əməvi sülaləsinin sonunadək İslamın təhlili tarixi, səh.204.

üstün tutulurdu. Bəni-Üməyyənin təmtəraq əsasında qurulmuş hökumət sistemi mövliyanı (müsəlman olmuş qeyri-ərəb millətləri) qocalıb əldən düşmüş insanlar kimi satın alır, onları bütün ictimai hüquqlardan məhrum edirdilər. Təbii ki, belə olan halda da, təhqir, hörmətsizlik daima mövliyanın üstündən əskilmirdi. Mövliyalar hər hansı bir abırlı iş və peşədən məhrum idilər. Onların silah düzəltməyə, ata minməyə, ərəblərdən, hətta adı heç bir yerdə çəkilməyən bədəvi ərəblərdən qız almağa ixtiyarları yox idi. Əgər bunu gizli şəkildə etsəydilər, onda qadını kişisindən təlaq aldırıb ayrılmağa məcbur edər, kişini isə şallaqlayıb həbs edərdilər. Hökm vermək, mühakimə yürütmək və rəhbərlik etmək kimi işlər hər bir sahədə ərəblərə məxsus idi və qeyri-ərəbin bu işləri görməyə səlahiyyəti yox idi. Ümumiyyətlə, Əməvi ərəbləri belə fikirləşirdilər ki, onlar ağa olmaq, hökm vermək üçün yaradılmışlar və iş-güc, zəhmət hamısı mövliyaya məxsusdur. Onların mövliyaya qarşı bu cür hərəkəti Abbasilərin Bəni-Üməyyəni süquta uğratmasında böyük rolu olmuş əsas amillərdən biridir. Əməvilərə qarşı qiyamın gedişatında Abbasilər Bəni-Üməyyəni pis tanıtdırmaq və camaatı qiyama qaldırmaq üçün bu amillərdən istifadə edirdilər. Ancaq bu amillərin arasından iki amilin təsiri daha çox idi. Onlardan biri mövliyanın təhqir olunması, digəri isə Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin məzlumiyyəti olmuşdur. Abbasilər bu iki amildən lazımi qədər istifadə etdilər. Bu amillər Abbasiləri hərəkətə gətirən və onları öz məqsədlərinə nail olmaqda irəli aparan iki əsas amil hesab olunur.

## Abbasilərin qiyamı İslami mahiyyət daşıyırdımı?!

İmam Sadiq əleyhissəlamın həyatında diqqəti cəlb edən məsələlərdən biri də, o Həzrətin Abbasilər qiyamının başçılarının ona beyət etmək təklifini qəbul etməməsidir. Əgər bu məsələyə ötəri və səthi baxsaq, ola bilər belə fikirləşək ki, bu qiyamda məzhəbi fikirlərin daha çox təsiri olmuşdur. Çünki qiyamçıların bütün şüarları İslami şüarlar və bayraqları üzərinə yazılmış sözlərin hamısı Quran ayələri idi. Onlar özlərini elə qələmə verirdilər ki, guya Əhli-beytin (əleyhimussəlam) xeyrinə iş görür və məqsədləri Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin Bəni–Üməyyə və Bəni–Mərvan tərəfindən axıdılmış nahaq qanının intiqamını almaqdır. Onlar öz qiyamını Əhli-beyt (əleyhimussəlam) ilə əlaqələndirmək istəyirdilər. Düzdür, əvvəl camaatı ona tərəf dəvət etdikləri xəlifənin adını bildirməsələr də, ancaq şüarları belə idi ki, “Biz Məhəmməd (səlləllahu əleyhi və alih) ailəsindən seçilmiş bir şəxsə beyət etmək üçün qiyam etmişik.”[1]

Deyirlər ki, Əbu Müslimin ərəblər arasında da (o özü qeyri-ərəb olmuşdur) çoxlu dost-tanışı, silahdaşı var idi. Onlar Əbu Müslimə beyət edərkən and içib deyirdilər ki, Quran və Peyğəmbər (səlləllahu əleyhi və alih) sünnəsinə əməl etməkdə, Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsindən seçilmiş və hələ ki, naməlum qalan bir şəxsə itaət etməkdə möhkəm olacaq və öz başçılarına itaət etməkdə hiyləyə yol verməyib onların əmrlərini heç bir söz-söhbətsiz icra edəcəklər. Hətta and içərkən bunu da söyləyirdilər ki, düşmənə qalib gəldikləri təqdirdə, onları ancaq İslam və öz başçılarının qayda-qanunları əsasında həlak edəcəklər.

[1] Doktor Şövqi Zeyf, “Tarixül Ədəbil Ərəbi” (2), səh. 176-203

Qiyamçıların tanınması üçün olan əlamət onların qara paltar geyməl əri və qara bayraq götürmələri idi. Peyğəmbərin (səlləllahu əleyhi və alih) bayrağı qara olduğu və onların da məqsədləri Peyğəmbərin (səlləllahu əleyhi və alih) dininə qayıtmaq olduğu üçün, ya da məqsədləri Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin intiqamını alıb onlara əzadar olduqlarına görə öz bayraqları üçün qara rəngi seçmişdilər. Bəlkə də, məqsədləri bu olmuşdur ki, özlərini kütləvi qırğınla nəticələnəcək döyüş barədə deyilmiş uzaqgörənliyin aşkar nümunəsini qələmə versinlər. Bu fikrə görə Xorasan tərəfdən qara rəngli bayraqların qalxması zalımlar dövlətinin süqutu və haqq olan dövlətin yaranması nişanəsidir.[1]

Bir sözlə, bunun zahirindən belə başa düşülür ki, Abbasilər qiyamı İslam ehtivalı, əzəmətli bir qiyam olmuşdur.

## Qiyam başçılarının İmam Sadiq əleyhissəlama yazdığı məktublar

Əbu Müslim, İbrahimin ölümündən sonra İmam Sadiq əleyhissəlama belə bir məktub yazdı: "Mən camaatı Əhli-beytlə dostluğa dəvət edirəm, əgər razısınızsa, xəlifə olmağa sizdən yaxşı bir adam yoxdur." İmam Sadiq (əleyhissəlam) onun cavabında yazdı: "Nə sən bizim dostlarımızdansan, nə də zəmanə bizim zəmanəmizdir."[2]

Fəzli Katib yazır: "Bir gün İmam Sadiq əleyhissəlamın yanında olarkən Əbu Müslimdən bir məktub gəldi. İmam Sadiq (əleyhissəlam) qasidə buyurdu: "Sənin gətirdiyin məktubun cavabı yoxdur, çıx get!"[3]

Həmçinin, sonralar "vəziri-Ali-Məhəmməd (səlləllahu əleyhi və alih)" ləqəbi almış Əbu Sələmeyi Xəllal, İbrahimin ölümündən sonra vəziyyətin onun xeyrinə olmadığını görüb bu qərara gəldi ki, onlardan (Abbasilərdən) ayrılıb Əli əleyhissəlamın övladlarına qoşulsun. Bu məqsədlə Ələvilərin (Əli əleyhissəlamın nəslinin) üç böyük nümayəndələri olan Cəfər ibn Məhəmməd Əs-Sadiq (əleyhissəlam), Abdullah ibn Həsən ibn Əli ibn Əbu Talib və Ömər Əl-Əşrəf ibn Zeynül-abidinə məktub yazıb onu dostlarından birinə verərək dedi ki, əvvəl Cəfər ibn Məhəmməd Əs-Sadiq əleyhissəlamın yanına get, əgər o qəbul etsə, digər iki məktubu aradan apar, yox əgər o qəbul etməsə, Abdullahın yanına get, əgər o da qəbul etməsə, Ömərin yanına get! Əbu-Sələmeyi Xəllalın qasidi əvvəl İmam Sadiq əleyhissəlamın yanına gəlib məktubu ona verdi. İmam Sadiq (əleyhissəlam) buyurdu: "Başqasının tərəfdarı olan Əbu Sələmə ilə mənim nə işim var?" Qasid dedi: "Məktubu oxuyun!" İmam Sadiq (əleyhissəlam) öz qulluqçusuna dedi ki, çırağı onun yanına gətirsin. Sonra məktubu oda atıb yandırdı. Qasid soruşdu: "Ona cavab yazmırsan?" İmam Sadiq (əleyhissəlam) buyurdu: "Bu gördüyün elə onun cavabı idi."

Əbu Sələmənin qasidi İmam əleyhissəlamın yanından çıxıb Abdullahın yanına gedərək məktubu ona verdi. Abdullah məktubu oxucaq onu öpüb dərhal ata minərək İmam Sadiq əleyhissəlamın yanına gəlib dedi: "İndicə bizim Xorasandakı şiələrimizdən birinin gətirdiyi bu məktub Əbu Sələmə tərəfindən yazılıb. O məni

[1] Biharül-ənvar, c.52, səh.217-229.
[2] Əl-Miləlu vən-nihəl, c.1, səh.154.
[3] Ər-Rəvzətu minəl-kafi, səh.214.

xilafət başına keçməyə dəvət edir.” İmam Sadiq (əleyhissəlam) Abdullaha buyurdu: “Xorasan camaatı nə vaxtdan sənin şiələrin olmuşdur? Əbu Müslimi onların yanına sən göndərmisən? Bir halda ki, nə sən onları tanıyırsan, nə də onlar səni, bəs, onda necə sənin şiələrindirlər?” Abdullah dedi: “Deməli, sənin sözündən belə çıxır ki, sənin bu barədə başqa fikrin var?” İmam Sadiq (əleyhissəlam) buyurdu: “Allah Özü bilir ki, mən hər bir müsəlman barədə yaxşı fikirləşməyi özümə vacib bilirəm, necə ola bilər ki, indi onu sənə rəva bilməyim? Abdullah, bu puç arzuları ağlından çıxart, bunu bil ki, hakimiyyət Bəni-Abbasın (Abbasilərin) olacaqdır. Bu məktubdan mənim üçün də gəlmişdir.”

Abdullah narahat halda İmam Sadiq əleyhissəlamı tərk edib geriyə döndü.

Ömər ibn Zeynül-abidin də Əbu Sələmənin məktubuna mənfi cavab verdi. Onun məktubunu qəbul etməyib dedi: “Mən heç məktubu yazanı tanımıram ki, ona cavab da yazım.”[1]

Elə ki qələbə bayraqları dalğalanmağa başlayıb zəfər əlamətləri müşahidə olundu Əbu-Sələmə yenidən İmam Sadiq əleyhissəlama məktubla bildirdi: “Bizim ixtiyarımızda yetmiş min döyüşçü var, indi öz mövqeyini müəyyən et!” İmam Sadiq (əleyhissəlam) yenə də əvvəlki cavabını verdi.[2]

Əbu Bəkr Həzrəmi nəql edir ki, bir gün Əban ibn Təğliblə birlikdə İmam Sadiq əleyhissəlamın yanına getmişdik. O vaxt artıq Xorasanda qara bayraqlar (Abbasilərin bayraqları) dalğalanırdı. İmam Sadiq əleyhissəlama dedik: “Vəziyyətin gedişatı barədə nə fikirləşirsiniz?” O buyurdu: “Öz evinizdə oturun, elə ki gördünüz biz kiminsə başına toplaşmışıq, silah götürüb bizə tərəf gəlin.”[3]

İmam Sadiq (əleyhissəlam) başqa bir söhbətində öz səhabələrinə buyurmuşdur: “Danışığınıza fikir verin və evinizdən eşiyə çıxmayın, çünki sizə məxsus olan şey (əsl İslam hökuməti) bu tezliklə sizə nəsib olmayacaq...”[4]

## Nə üçün İmam Sadiq (ə) Abbasilərin başçılarının təklifini rədd etdi?

Deyilənlərə diqqət yetirərkən ilk baxışda İmam Sadiq əleyhissəlamın Əbu Müslim və Əbu Sələmənin təklifləri qarşısındakı mövqeyi bir az anlaşılmazlıq yaradır. Ancaq bu məsələyə bir az diqqətlə yanaşdıqda, İmam əleyhissəlamın belə bir mövqedə durmasının səbəbi çox aydın şəkildə məlum olur. İmam Sadiq (əleyhissəlam) çox yaxşı bilirdi ki, qiyam başçılarının hakimiyyətə gəlməkdən başqa bir fikri yoxdur. Əhli-beytin tərəfdarlığı şüarını irəli sürmələri isə müxtəlif kütlələri özlərinə tərəf cəlb etməkdən ötrüdür.

Tarixi rəvayətlər sübut edir ki, Xorasan qoşunu Kufəyə gəldikdən sonra Əbu Sələmeyi Xəllal siyasi işləri öz əlinə alıb ətrafındakı siyasi və nizami təşkilatları genişləndirməyə başladı. O istəyirdi ki, Əli əleyhissəlamın nəslindən bir nəfər xəlifə

---

[1] Mürucuz-zəhəb, c.3, səh.253-254.
[2] Biharül-ənvar, c.47, səh.133.
[3] Biharül-ənvar, c.52, səh.139.
[4] Biharül-ənvar, c.52, səh.139.

seçilməklə dövlətin əsas qüdrətini özü ələ alıb son qərarı özü çıxartsın, xəlifənin ancaq adı olub zahirdə görünsün.[1]

İmam Sadiq (əleyhissəlam) bilirdi ki, Əbu Müslim və Əbu-Sələmə Əhli-beytdən olan tanınmış bir nəfər rəhbər təyin etməklə öz məqsədlərinə çatmaq fikrindədirlər. İmam (əleyhissəlam) bilirdi ki, onlar onu İmam kimi tanımır. Əgər onu İmam kimi tanısaydılar, onda eyniməzmunlu məktubu Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsindən olan üç nəfərə niyə yazırdılar?

İmam Sadiq (əleyhissəlam) son dərəcə qətiyyətlə bilirdi ki, qiyamın əsas təşkilatçıları Abbasilərdir, onların da hakimiyyətə gəlməkdən başqa bir məqsədləri yoxdur. Əbu Müslim və Əbu Sələmə kimilər isə yalnız bir vasitədirlər. İmam Sadiq (əleyhissəlam) bilirdi ki, Abbasilər daha onlara lazım olmayan və yaxud da, onlara mane olan şəxsləri tezliklə aradan götürəcəklər. Elə belə də oldu. Əbu Müslim, Əbu Sələmə, Süleyman ibn Kəsir və tezliklə başqaları aradan götürüldülər. İmam (əleyhissəlam) qətiyyətlə bilirdi ki, Əbu Müslim və Əbu Sələmə kimilər aldadılmışlardır və onlar heç də İslam və Əhli-beyt yolunda deyillər. Buna görə də, onlarla həmkarlıq etməyə və onların gördüyü işlərə şəri bəraət verməyə razı olmurdu. Çünki qiyam başçıları onun məktəbinin şagirdləri deyildilər. Onlar intiqam, hakimiyyətə gəlmək və eləcə də pis işlər uğrunda çox ifrata varmış və elə işlər görmüşdülər ki, özünü müsəlman bilən şəxs onların gördüyü bu işləri əsla təsdiqləyə bilməzdi.

## İbrahimin Əbu Müslimə söylədiyi dəhşətli vəsiyyətlər

Tarixə nəzər saldıqda Abbasilər qiyamının əvvəllərində İbrahimin Əbu Müslim Xorasaniyə yazdığı vəsiyyətin mətninə rast gəlirik.

Əmiri-Ali-Məhəmməd[2] (səlləllahu əleyhi və alih) ləqəbi almış tanınmış qəhrəman Əbu Müslim Xorasani Məkkəyə səfəri zamanı İbrahimlə görüşdü. İbrahim öz vəsiyyətlərini ona deyib sonralar Abbasilərin simvolu olmuş qara bir bayrağı da ona verərək onu Xorasanda qiyam qaldırmaq üçün göndərdi. Bu vəsiyyət İbrahim, Əbu Müslim və sair qiyam başçılarının əsl simasını açıb söylədiyi üçün onu olduğu kimi burada qeyd edirik.

İbrahim bu fərmanın (vəsiyyətin) əvvəlində Əbu Müslimi - bu təcrübəsiz cavanı daha çox aldatmaq üçün deyir: “Sən bizim ailəmizdən olan bir şəxssən. Sənə nə deyirəmsə, ona əməl et... (Bizə qarşı vəfalı olmaqda) kimdən şübhələnsən, onu qətlə yetir, əgər bacarsan, Xorasanda bir nəfər də olsun belə ərəb qoyma (Xorasanda olan bütün ərəbləri öldür.) Hətta beş qarış boyunda bir uşaqdan da şübhələnsən, öldür.”[3]

Beləliklə, İbrahim öz vəsiyyətində Əbu-Müslimə açıq-aşkar qətl fərmanı verir.

Muqrizi deyir: “Əgər İbrahim Əbu-Müslimi qeyri-müsəlman bir vilayətin əhalisini İslama dəvət etmək üçün göndərsəydi, bu cür bir hökm verməsi əsla caiz olmazdı.

---

[1] Təbiətüd-də’vətil-Əbbasiyyə, səh.226.

[2] İbn Əsir, “Əl-kamil fit-tarix” c. 5, səh. 436; İbn Kəsir, “Əl-bidayə vən-nihayə”, 2-ci çapı, c. 10, səh. 54.

[3] Əl-Kamilu fit-tarix, c.5, səh.348; Əl-İbər (farsca tərcümə), c.2, səh.167; Ən-nizahu vət-təğasümu fima bəynə Bəni Üməyyə və Bəni Haşim, səh. 66; Əl-bidayə vən-nihayə, c. 10, səh. 28

Halbuki, o, Əbu-Müslimi müsəlman vilayətinə göndərib ona belə bir qırğın əmri verdi."[1]

## Əbu Müslimin cinayətləri

Çox təəssüflə qeyd etməliyik ki, Əbu Müslim verilmiş bu əmrə son dərəcə xırdalıqlara qədər əməl edib onu həyata keçirtdi. Hətta iş o yerə çatdı ki, o, Yafeinin dediyinə görə öz dövrünün Həccacına çevrilib Abbasilərin hakimiyyətinin möhkəmlənməsi uğrunda saysız-hesabsız adamlar qırdı.[2]

Tarixçilər yazırlar: "Əbu Müslimin öz hakimiyyəti dövründə öldürdüyü adamların sayı altı yüz min nəfər olmuşdur."[3]

Əbu-Müslim özü bu cinayətlərinə etiraf edirdi. O, Mənsur tərəfindən hədələnərkən ona bir məktub yazıb bildirdi: "Qardaşın (Səffah) mənə əmr verdi ki, qılınc çəkib şübhələndiyim şəxsi həbs edim, kiçik bir ittiham vasitəsilə qətlə yetirim, heç bir bəhanəni qəbul etməyim. Mən də onun əmrinə itaət edib Allahın hörmət olunmasını vacib buyurduğu bir çox şeylərin hörmətini pozdum, Allahın hörmətinin saxlanılmasını vacib buyurduğu bir çox qanlar axıtdım, hakimiyyəti onların əlindən alıb başqasına verdim..."[4]

Mənsur da onun dediklərini təsdiqlədi. O, Əbu Müslimi edam etməzdən qabaq onun törətdikləri cinayətləri sayarkən qeyd etdi ki, nə üçün altı yüz min nəfəri əzab-əziyyətlə qətlə yetirdin? Əbu-Müslim bu dəhşətli faciəni inkar etmədən cavab verdi ki, bunların hamısını sizin hakimiyyətinizin möhkəmlənməsi üçün yerinə yetirmişəm.[5]

Başqa bir yerdə Əbu Müslim döyüşənlərdən başqa öldürdüyü şəxslərin sayını yüz min nəfər qeyd edir.[6]

Əbu Müslim öz keçmiş dostlarına belə rəhm etmirdi. Belə ki, "Vəziri-Ali-Məhəmməd[7] (səlləllahu əleyhi və alih)" ləqəbi ilə tanınmış, öz dostu və həmkarı, Abbasilərin qalib gəlməsində böyük rolu olmuş, ümumiyyətlə, qiyamın əsas iqtisadi dayağı olmuş Əbu Sələmeyi-Xəllalı öldürdü.[8]

Buna əsasən, əgər tarix səhifələrində Əbu Müslim həccə gedərkən bədəvi ərəblərin onun yolundan qaçıb uzaqlaşdığını oxuyuruqsa, heç də təəccüblənməməliyik. Çünki onlar Əbu Müslimin qəddarlığı barədə çox eşitmişdilər.[9]

---

[1] Ən-nizau vət-təxasümu fima bəynə Bəni Uməyyə və Bəni Haşim, səh.67.
[2] Mir'atül-cinan, c.1, səh.285.
[3] Əl-Bidayətu vən-nihayə, c.10, səh.72; Əl-Kamilu fit-tarix, c.5, səh.276.
[4] Əl-İmamus-Sadiq vəl-məzahibül ərbəə, c.2, səh.533.
[5] Təbiətu-də'vətil-Əbbasiyyə, səh.245.
[6] Tarixi-Yə'qubi, c.3, səh.105.
[7] Əl-kamilu fit-tarix, c. 5, səh. 436; Əl-bidayə vən-nəhayə, c. 10, səh. 54.
[8] Vəfəyatül-ə'yan, c.2, səh.196.
[9] Vəfəyatül-ə'yan, c.3, səh.148.

## Seçim və proqramlaşdırma

İmam Sadiq əleyhissəlamın Abbasilər qiyamının başçılarının təklifini qəbul etməməsi barədə dediklərimizi qısa şəkildə belə demək olar ki, təklif edənlər həqiqi və əsl bir qiyam üçün lazım olan səlahiyyətə malik olmamışlar. Onlar əsas qüvvələr deyildi ki, onların vasitəsi ilə əsl İslami bir hərəkata başçılıq etmək mümkün olsun. Əgər İmam Sadiq əleyhissəlamın ixtiyarında kifayət qədər əsas qüvvə olsaydı, şübhəsiz ki, İmam qiyamın başçılığını öz öhdəsinə götürərdi. Başqa sözlə desək, millətin fikri və əməli vəziyyətindən, eləcə də siyasi-ictimai durumundan xəbərdar olan İmam Sadiq (əleyhissəlam) siyasi mübarizə aparmaq üçün əlində olan imkan və qüdrəti silahlı qiyam edib əsl İslam hökuməti yaratmaq üçün qələbə qazanmağa kafi bilmir və imkanatın məhdud olduğunu yaxşı bilirdi. Çünki əsl İslam hökuməti qurmaq üçün təkcə nizami qüvvə hazırlamaq kifayət etmir, əksinə, ondan qabaq İmamın məsum, iman və mərifət sahibi olduğuna sidq ürəkdən inanan, onun böyük fikirlərini başa düşən, hakimiyyət sahəsində onun qurduğu sistemi müdafiə edib millət üçün ələ gəlmiş nəticələri qoruya bilən əqidəvi bir ordu qurmaq lazım idi.

İmam Sadiq əleyhissəlamın səhabələrindən biri ilə etdiyi söhbət də yuxarıda deyilənləri təsdiq edir. Südeyr Seyrofi deyir ki, İmam Sadiq əleyhissəlamın yanına gedib dedim: “Nə üçün (sakit) oturmusunuz?” İmam Sadiq (əleyhissəlam) buyurdu: “Südeyr, məgər nə hadisə baş vermişdir?”

Dedim: “Dost, şiə və tərəfdarlarının çoxluğu barədə deyirəm.”

— Səncə onlar neçə nəfər olar?

— Yüz min nəfər.

— Yüz min nəfər?

— Bəli, bəlkə də iki yüz min.

— İki yüz min?

— Bəli, bəlkə də dünyanın yarısı.”

Bu söhbətdən sonra İmam Sadiq (əleyhissəlam) Südeyrlə birlikdə Yənbə adlı bir yerə gələrək orada bir sürü keçi balası görüb buyurdu: “Südeyr, əgər bizim dost və tərəfdarlarımızın sayı bu keçi balaları qədər olsaydı, biz sakit oturmazdıq.”[1]

Bu hədisdən belə nəticəyə gəlirik ki, İmam Sadiq əleyhissəlamın fikri qətiyyən belə olmuşdur ki, təkcə hakimiyyətə gəlmək kifayət etmir, nə qədər ki, hökumət camaatın müxtəlif kütlələri tərəfindən himayə olunmur, köhnə rejimi aradan götürüb yeni - əsl İslami rejimi qurmaq qeyri-mümkündür. Xalq kütlələri elə olmalıdırlar ki, hökumətin məqsəd və fikirlərini başa düşməli, hökumətin fikri ilə həmfikir olmalı, onun irəliləməsi sahəsində addım atmalı, camaat üçün hökumətin tutduğu mövqeləri açıqlamalı və çətinliklərlə üzləşdikdə, dözümlü olub səbr etməlidirlər. İmam Sadiq əleyhissəlamın söhbətindən belə başa düşürük ki, əgər o Həzrətin ixtiyarında düşmənə silahlı mübarizə yolu ilə qalib gəldikdən sonra İslami məqsədlərini həyata keçirə biləcək dost və tərəfdarları olsaydı, yəqin ki, silahlı mübarizəyə başlayardı. Ancaq zamanın şərait və vəziyyəti İmam əleyhissəlama bu fürsəti vermirdi. Çünki bu iş elə bir iş idi ki, əgər yüz faiz məğlub da olmasaydı, yenə onun nəticəsi zəmanət

[1] Əl-Usulu min əl-kafi, c.2, səh.242.

olunmamışdı. Başqa sözlə desək, mövcud olan belə şəraitlə hərəkat məğlubiyyətə uğramasaydı da, onun qələbə ilə nəticələnəcəyi də qəti deyildi.[1]

## İmam Sadiq (əleyhissəlam) Abbasilərlə üz-üzə

Yuxarıda qeyd etdiyimiz kimi Bəni-Abbas Bəni-Üməyyə ilə mübarizənin əvvəllərində (Bəni-Haşimi) Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsini himayə etmək, haqq-ədalət qurmaq şüarlarını verirdilər. Həqiqətən də, bir tərəfdən Əməvilərin hakimiyyəti dövründə Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin məzlumluğu müsəlmanların ürəklərini yaraladığından, digər tərəfdən də, onlar İslam hakimiyyəti adı altında heç bir zülm etməyi əsirgəmədiyindən, Bəni-Abbas camaatın Bəni-Üməyyəyə qarşı olan ciddi narazılığından istifadə edib Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsini himayə etmək şüarı adı altında işin əvvəlində xalqın etimadını özlərinə cəlb edə bildilər. Ancaq onların Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinə qarşı zülmün, haqsızlığın aradan qaldırılması və haqq-ədalətin öz yerini tutacağı barədəki vədləri həyata keçmədi heç, üstəlik çox çəkmədi ki, Bəni-Üməyyənin qeyri-İslami işləri bu dəfə bir az da, artıqlaması ilə icra olunmağa başladı. İş o yerə çatdı ki, camaat yenidən Bəni-Üməyyə hakimiyyətinin qayıtmasını arzuladı. Necə ki, Əbu Əta Sindi adlı bir şairin bu həqiqətlə bağlı söylədiyi şe`rindəki misralar diqqəti özünə cəlb edir:

*Kaş bir daha Bəni-Üməyyənin zülm və azğınlığı geri dönəydi,*
*Abbaislərin haqq-ədaləti isə cəhənnəmə gedəydi!*[2]

Səffahın hakimiyyət dövrü qısa və ilk Abbasi xəlifəsinin hakimiyyət dövrü olduğundan, o vaxt hələ Bəni-Abbas hakimiyyətinin dayaqları çox da möhkəmlənmədiyi üçün onun dövründə camaata bir o qədər də zülm olunmurdu. Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsi də çox təzyiqlərə məruz qalmırdı. Ancaq Mənsur Dəvaniqinin hakimiyyətə gəlişi ilə zülm artdı. Mənsur nisbətən uzun müddət, yəni təxminən iyirmi bir il İmam Sadiq əleyhissəlamın müasiri olduğu üçün onun bu müddətdə göstərdiyi təzyiqlər və törətdiyi cinayətlər barədə bir az açıqlamalar veririk.

## İqtisadi təzyiq siyasəti

(İkinci Abbasi xəlifəsi) Əbu Cəfər Mənsur Dəvaniqi çox zalım, qəddar, daşürəkli bir şəxs olmuşdur. O, İslam cəmiyyətini bədbəxtliyə sürükləmiş, camaatı boğaza yığmış və kiçik bir müxalifətə belə, qılıncla cavab verirdi. Mənsur zalım olmasından əlavə, həm də həddən artıq tamahkar,[3] paxıl, dardüşüncəli bir şəxs olmuş və Abbasi xəlifələri arasında paxıllıq və tamahkarlıq üzrə ad çıxarmışdı. Tarixi qaynaqlarda onun həddən artıq paxıllıq və tamahkarlığı barədə çoxlu dastanlar qeyd olunmuşdur. Ancaq onun cəmiyyətdə yaratdığı maliyyə çətinliklərini və insanı əldən salan iqtisadi təzyiqlərini təkcə onun paxıl və tamahkar olması ilə əlaqələndirmək olmaz. Çünki o, öz hakimiyyəti dövründə cəmiyyətin iqtisadi vəziyyətini iflic halına salaraq camaatı həyat səhnəsində məhv etdi. O, təkcə müsəlmanların ümumi malını hökumət

---

[1] İmamların həyatının təhlili, səh.183-185.
[2] Doktor Şövqi Zeyf, "Tarixül Ədəbil Ərəbi" (2), səh. 340.
[3] Qaynaqlarda onu "pul atası" adlandırmışlar.

xəzinəsində yığıb toplamaqla onu abadlıq işləri və camaatın rifahı sahəsində xərcləməmiş, üstəlik camaatın əlində olanı da, güclə onlardan alıb heç kimdə az da olsa, belə pul qoymamışdı. Bəzi tarixçilərin dediyinə görə Mənsurun bu yolla topladığı mal-dövlətin dəyəri səkkiz yüz milyon dirhəmə çatırdı.[1]

Bəli, bütün ölkədə icra edilən bu ətraflı proqram elə bir proqram deyildi ki, onu təkcə Mənsurun son dərəcə paxıllıq və tamahkarlığı ilə əlaqələndirmək mümkün olsun. Əldə olan sübutlar göstərir ki, cəmiyyətdə iqtisadi və maliyyə çətinlikləri yaratmaq qabaqcadan hazırlanmış və Mənsurun xüsusi məqsədləri əsasında qurulmuş bir siyasət olmuşdur. Mənsurun bu çirkin siyasətdən məqsədi bu olmuşdur ki, qoy camaat həmişə ac, ehtiyac içərisində olub daima ona göz diksin və belə olduğu bir halda da, ancaq qarınlarını doyurmaq fikrində olub daha böyük ictimai hadisələrlə məşğul olmağa macal tapmasın. Mənsur bir gün öz dost-tanışının bir qisminin yanında camaatı ac saxlamaqda olan məqsədini uca səslə belə bəyan etdi: “Bədəvi ərəblər öz misallarında yaxşı demişlər ki, itini həmişə ac saxla, qoy çörək tapmaq üçün daima sənin ardınca düşsün.” Bu zaman Mənsurun bu təhqiramiz ifadəsindən bərk narahat olmuş bir şəxs dedi: “Qorxuram ki, başqa bir şəxs həmin itə bir parça çörək versin, it də çörəkdən ötəri onun ardınca düşüb səndən əl çəksin.”[2]

Mənsur öz hakimiyyəti dövründə təkcə özünün bu çirkin aclıq siyasəti ilə kifayətlənmir, üstəlik bu siyasəti oğlu Mehdiyə də tövsiyə edirdi. O, oğlu Mehdiyə etdiyi vəsiyyətlərin birində deyir: “Mən camaatı müxtəlif yollarla özümə tabe etmişəm. İndi camaat üç qisimdir: Bir dəstəsi ac-yalavacdır və həmişə ehtiyac əllərini sənə tərəf uzadacaq. Bir dəstəsi qaçaq düşüb həmişə öz canlarını qorumaq hayındadır. Üçüncü dəstə isə həbsdədir və öz azadlıqlarını yalnız sənin əfv və mərhəmətində arzulayır. Elə ki hakimiyyətə gəldin, camaat üçün rifah və asayiş meydanını çox açıq qoyma.”[3]

Bu həqiqətlər göstərir ki, bu proqram Mənsurun hakimiyyətinin möhkəmlənməsi məqsədilə icra olunurmuş. Məqsəd isə dövlət mülkiyyətində olan mal-dövlətdən qənaətlə istifadə etmək deyil, mübariz qüvvələri zəiflədib aradan götürməklə camaatın müxalifət sədalarını yatırmaq olmuşdur.

## Qırğın, qantökmə siyasəti

Mənsurun antiislam siyasəti təkcə cəmiyyəti aclıqda saxlamaq, onların hüquqlarını kəsməklə kifayətlənmir, iqtisadi və maliyyə çətinliklərindən əlavə cəmiyyətdə dəhşətli bir qorxu da hökm sürürdü. Onun iş başına təyin etdiyi hakimlər çoxsaylı işkəncə və qətllər həyata keçirir, hər gün neçə nəfər bu vəhşiliyin qurbanı olurdu. Bir gün Mənsurun əmisi ona dedi: “Sən camaatın üstünə elə qəzəb və nifrətlə hücum çəkmisən ki, sanki sənin qulağına heç rəhm sözü dəyməyib.” Mənsur onun cavabında deyir: “Hələ Bəni-Mərvanın sümükləri çürüməyib, Əbu Talib nəslinin qılıncı qınına girməyib. Biz indi dünənəcən bizə adi gözlə, bu gün isə xəlifə gözü ilə baxan bir

[1] Tarixi-Yə’qubi, c.3, səh.125.
[2] Həyatül-İmam Musa ibn Cə’fər, c.1, səh.369.
[3] Tarixi-Yə’qubi, c.3, səh.133.

camaatın arasındayıq. Buna görə də, bizim heybətimiz ancaq rəhmin və əfvin unudulması və zülmün həyata keçməsi ilə yadlarda qalacaq.”[1]

Düzdür, bu siyasət bütün xilafət ərazisində hökm sürürdü, lakin Mədinə şəhəri daha çox təzyiqə məruz qalırdı. Çünki Mədinə əhalisi elə ilk günlərdən İslam qayda-qanunları ilə yaxından tanış olduğu üçün Mənsurun hökuməti kimi hər hansı bir azğın hökumətin tabeçiliyinə keçmək istəmir, hər hansı bir hökmü İslam hökmü adı ilə qəbul etmirdi. Bundan da əlavə, Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra Mədinə şəhəri əsasən, İslamın böyük rəhbərlərinin moizə iqamətgahı olmuş, digər tərəfdən də, hər biri öz dövrünün İslamını qoruyub saxlamaq və camaata rəhbərlik etmək vəzifəsini daşıyan İmamlar səkkizinci İmama qədər bu şəhərdə olmuş, onların burada olması daima Mədinə müsəlmanlarının İslami hərəkəta başlamalarına səbəb olmuşdur.

Mənsurun hakimiyyəti dövründə İmam Sadiq (əleyhissəlam), o şəhid olduqdan sonra da onun əziz oğlu İmam Kazim (əleyhissəlam) İslami mübarizələr rəhbəri kimi, Mədinə şəhəri isə zalım xəlifələrin özbaşınalıqlarına qarşı aparılan əsl İslami hərəkat mərkəzi hesab olunurdu.

## Mədinə iqtisadi blokadada

(İmam Həsən əleyhissəlamın nəvəsi) “Nəfsi Zəkiyyə”[2] adı ilə məşhur olmuş Məhəmməd ibn Abdullah ibn Həsənin qiyamından sonra İmam Sadiq əleyhissəlamın həyatının sonlarında Mənsur Mədinə şəhərində baş vermiş qiyamı yatırtmaq üçün Riyah ibn Osman adlı çox zalım, qaniçən və rəhmsiz bir şəxsi Mədinəyə vali təyin etdi. Riyah Mədinəyə gəldikdən sonra camaatı bir yerə toplayıb xütbə oxuyaraq xütbənin əsnasında dedi: “Ey Mədinə camaatı! Mən əfi oğlu əfiyəm. Mən sizin şəhərinizi xarabaya çevirən, kişilərinizi qıran Müslim ibn Üqbənin qardaşı oğluyam. And olsun Allaha, əgər təslim olmasanız, sizin şəhərinizi alt-üst edəcəyəm. Belə ki, daha onda həyatdan əsər-əlamət qalmayacaq.”

Bu zaman müsəlmanlardan bir dəstəsi yerlərindən qalxaraq etiraz edib dedilər: “Öz adını İslam tarixinə qara sabiqə ilə yazdırmış və atası günah işlətdiyinə görə iki dəfə cəzalandırılmış sənin kimi bir şəxs belə bir iş görə bilməz. Biz sənə bu cür iş görməyə icazə vermərik.” Riyah Mənsura xəbər göndərdi ki, xalq etiraz edib xəlifənin əmrinə tabe olmur. Mənsur onun vasitəsilə Mədinə əhalisinə təhdidamiz bir məktub yazıb bildirdi ki, əgər öz müxalifətçiliklərini davam etdirsələr, ticarət yollarını həm sudan, həm qurudan onların üzünə bağlamaqla onları iqtisadi blokadaya alacaq və nizami qoşun göndərib onların həyatına son qoyacaqdır. Riyah camaatı məscidə yığıb minbərə qalxaraq xəlifənin məktubunu oxumağa başladı. Heç məktub oxuyub qurtarmamışdı ki, hər tərəfdən camaatın etiraz fəryadı ucaldı və camaatın qəzəbi cuşa gəldi. Camaat onu elə minbərin üstündəcə daşa basdı. O isə canını qurtarmaq üçün bir təhər aradan çıxıb gizləndi...[3]

---

[1] Əl-İmamus-Sadiq vəl-məzahibül ərbəə, c.1-2, səh.480.

[2] Bu fəsilin sonunda Nəfsi Zəkiyyənin qiyamına ayrıca toxunacayıq.

[3] Tarixi-Yə’qubi, c.3, səh.144-115.

Mənsur bu hadisədən sonra öz hədələmələrini həyata keçirib ticarət üçün olan gediş-gəliş yolunu bağlayaraq Mədinəni iqtisadi blokadaya aldı. Bu blokada onun oğlu Mehdi Abbasinin hakimiyyəti dövrünədək davam etdi.[1]

## İmam Sadiq (əleyhissəlam) və Mənsur

Əbu Cəfər Mənsur Dəvaniqi İmam Sadiq əleyhissəlamın siyasi fəaliyyətindən çox narahat idi. İmam əleyhissəlamın xalq kütləlləri tərəfindən sevilməsi və elmi əzəməti Mənsurun bu nigarançılığını daha da artırırdı. Buna görə də, o, bir bəhanə düşcək tez İmam Sadiq əleyhissəlamı İraqa[2] çağırtdırır və onu qətlə yetirmək üçün bir plan çəkirdi. Ancaq hər dəfə bir vasitə ilə təhlükə İmam əleyhissəlamın müqəddəs vücudundan sovuşurdu.[3]

Mənsur Mədinə şiələrini bərk nəzarət altına almışdı. Onun Mədinədə bir sıra casusları var idi ki, onlar İmam Sadiq əleyhissəlamın dostları ilə əlaqə saxlayan şəxslərin boynunu vururdular.[4]

İmam Sadiq (əleyhissəlam) öz dostlarını (şiələrini) xilafət mərkəzi ilə həmkarlıq etməkdən çəkindirirdi. Bir gün İmam əleyhissəlamın dostlarından biri soruşur: "Bizlərdən bəzilərimiz elə vaxt olur ki, dolanışığı çətinləşir və onlara bunlar (Bəni-Abbas) üçün ev tikib, quyu qazıb pul almaq təklifi olunur. Sizin fikrinizcə bu iş necədir?" İmam Sadiq (əleyhissəlam) buyurur: "Mən heç razı deyiləm ki, onlar üçün bir düyün belə düyünləyim, yaxud bir tuluğun ağzını belə bağlayım. Baxmayaraq ki, bu işin müqabilində mənə çoxlu pul verəcəklər. Çünki zalımlara kömək edən şəxsləri Qiyamət günü oddan olan pərdə ilə hasarlanmış bir yerə yığacaqlar və bu zaman Allah onların barəsində hökm verəcək."[5]

İmam Sadiq (əleyhissəlam) şiələri mübahisəli məsələləri həll etmək üçün bəni-Abbas xəlifələrinin təyin etdiyi qazıların yanına getməyə qoymayaraq həmin qazılar tərəfindən verilmiş hökmə əməl etməyi vacib bilmirdi. İmam (əleyhissəlam) həmçinin, fəqih və hədisçilərə xəbərdarlıq edirdi ki, hökumətə tabe olmasınlar. İmam (əleyhissəlam) onlara buyururdu ki, fəqihlər Peyğəmbərin (səlləllahu əleyhi və alih) canişinləridirlər. Əgər görsəniz ki, onlar xəlifələrə tərəf üz tutublar (zalımlarla həmkar və əlbir olublar) onlara qarşı pis fikirdə olun, onlara inanmayın.[6]

Bir gün Mənsur Dəvaniqi İmam Sadiq əleyhissəlama məktub yazır ki, nə üçün başqaları kimi sən də bizim yanımıza gəlmirsən? İmam Sadiq (əleyhissəlam) onun cavabında yazır: "Bizim (dünyəvi cəhətdən) elə bir şeyimiz yoxdur ki, ona görə sənə ümid bəsləyək. Sənin nə elə bir nemətin vardır ki, ondan ötrü gəlib səni təbrik edək, nə də özünü müsibət və bəla içərisində görmürsən ki, gəlib ondan ötrü sənə başsağlığı verək. Daha sənin yanına nəyə gəlim?" Mənsur bu dəfə yazdı: "Gəl bizə nəsihət ver."

[1] Əl-Kamilu fit-tarix, c.5, səh.551.
[2] Abbasilərin xilafət mərkəzi İraqın Bağdad şəhəri olmuşdur.
[3] Biharül-ənvar, c.47, səh.162; 212.
[4] İxtiyaru mə'rifətir-rical, səh.282.
[5] Vəsailuş-şiə, c.12, səh.129.
[6] Biharül ənvar, c.47, səh.184.

İmam (əleyhissəlam) cavabında yazdı: "Əgər bir nəfər dünya əhli olsa, sənə nəsihət etməz, Axirət əhli də olsa, sənin yanına gəlməz."[1]

## Qondarma müftilər

Bəni-Üməyyə xəlifələri çalışırdılar ki, müxtəlif yollarla camaatı məsum İmamların məktəbindən uzaqlaşdırıb onlarla İmamlar arasında ayrılıq salsınlar. Bu məqsədlə onlar camaatı hökumətdən asılı olan, ya da heç olmasa, hökumətə zərəri olmayan qazılara müraciət etməyə məcbur edirdilər.

Abbasi xəlifələrinin işin əvvəlində öz məqsədlərinə nail olmaları üçün Bəni-Haşimə tərəfdar olmağı özlərinə şüar etməsinə baxmayaraq, hakimiyyət başına gəldikdən sonra onlar da Bəni-Üməyyə xəlifələrinin gördükləri işləri görməyə başladılar.

Abbasi xəlifələri də Bəni-Üməyyə xəlifələri kimi mənəvi cazibə və ruhlandırıcı məktəbləri camaatı özünə vurğun etmiş İmamları öz hökumətləri üçün böyük təhlükə hesab edirdilər. Buna görə də, çalışırdılar ki, İmamları daima künc-bucaqda saxlasınlar. Bu məsələ İmam Sadiq əleyhissəlamın dövründə daha çox nəzərə çarpırdı. O Həzrətin dövründə xəlifələr açıq-aşkar çalışırdılar ki, bir müddət İmam Sadiq əleyhissəlamın şagirdi olmuş şəxsləri onun məktəbinin müqabilində fətva kürsüsünə otuzdurub onu camaat üçün qazı, müfti təyin etsinlər. Belə ki, (bir vaxtlar İmam Sadiq əleyhissəlamın şagirdləri olmuş) İbn Əbu Zi`b və Malik ibn Ənəsi bu kürsüdə otuzdurdular.

Mənsur Dəvaniqi bu məqsədlə Malik ibn Ənəsə həddən artıq çox hörmət edir və onu rəsmi müfti və qazı kimi tanıtdırırdı. Bəni-Abbas xəlifələrinin carçısı Mədinə şəhərində gəzib elan edirdi ki, Malik ibn Ənəs və İbn Əbu Zibdən[2] başqa İslami hökmlər barədə fətva verməyə heç kəsin haqqı yoxdur.[3]

## Məcburi yazılmış kitab

Mənsur Dəvaniqi Malikə əmr edir ki, bir hədis kitabı yazıb hədisçilərin ixtiyarında qoysun. Malik bu işdən boyun qaçırır, lakin Mənsur israr edirdi. Bir gün Mənsur ona deyir: "Bu kitabı yazmalısan, çünki indi səndən bilikli adam yoxdur." Malik Mənsurun israr və təkidi nəticəsində "Müvəttə" adlı bir kitab yazır.[4] Bu hadisədən sonra o dövrün hakim qüvvələri camaatı İmam Sadiq əleyhissəlamın məktəbindən uzaqlaşdırmaq üçün bütün qüvvəsi ilə Malikin səs-sorağını, verdiyi fətvaları yayıb təbliğ etməyə başlayırlar. Mənsur Malikə deyir: "*Əgər sağ qalsam, sənin fətvalarını Quran ayələri kimi yazıb bütün şəhərlərə göndərərək camaatı ona əməl etməyə məcbur edəcəyəm.*"[5]

---

[1] Biharül ənvar, c.47, səh.184.

[2] Əbul Haris Məhəmməd ibn Əbdürrəhman ibn Əbu Zi`bin tərcümeyi-halı ilə tanış olmaq üçün "Vəfəyatül-ə`yan"ın təhqiq edilmiş çapının c. 4, səh. 36-ya; Əl-məarif, səh. 485-ə müraciət edin.

[3] Vəfəyatül-ə'yan, c.4, səh.135.

[4] Həyatül-İmam Musa ibn Cə'fər, c.1, səh.91.

[5] Təzkirətül-hüffaz, c.1, səh.212.

Əlbəttə, bu müftilər də öz dövrlərinin müqabilində istər-istəməz onların mənafeyini qoruyurdular. Əgər xəlifə bilsəydi ki, ona tabe olan müftilər onun mənafeyinə zidd olan bir iş görüb, yaxud öz aləmlərində onun mənafeyi ilə ziddirlər, onları möhkəmcə cəzalandırardı. Belə ki, Malik ibn Ənəs, Mənsurun nəzərində o qədər böyük olmasına baxmayaraq, Mənsurun sözünü onun əmisi oğlunun yanında danışdığına görə onun əmri ilə yetmiş zərbə şallaq vurulması əmrinə məhkum olunmuşdu. Bu, Malikin xəlifənin fikrinə və meylinə zidd fətva verməsinə görə olmuşdu.[1]

## Zeyd ibn Əli ibn Hüseyn əleyhissəlamın qiyamı

Zeyd[2] ibn Əli (əleyhissəlam) İmam Baqir əleyhissəlamın qardaşı, Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin ən fəzilətli və yüksəkrütbəli şəxsiyyətlərindən biri, alim, zahid, təqvalı və şücaətli bir şəxs olmuş,[3] Bəni-Üməyyənin hakimiyyəti dövründə yaşamışdır.

Zeyd Əməvi xəlifələrinin özbaşınalıq, zülm və haqsızlıqlarını görüb həddən artıq narahat olur, belə fikirləşirdi ki, silahlı mübarizə yolu ilə onların hakimiyyətini devirmək lazımdır.

## Zeydin Dəməşqə çağırılması

Zeydin qiyam fikrində olmasından xəbərdar olan Hişam ibn Əbdülməlik bu fikirdə idi ki, onu bir yolla aradan götürüb özünü onun təhlükəsindən qorusun. Hişam bu çirkin məqsədinə çatmaq üçün xəyanətkar bir plan hazırladı. Bu planın ardınca Zeydi Dəməşqə çağırtdırdı. Zeyd Dəməşqə gəlib Hişamla söhbət etmək üçün hökumət binasına getdikdə, Hişam əvvəlcə ona qarşı soyuq münasibət göstərdi və öz fikrinə görə onun mövqeyini camaatın nəzərində aşağı salmaq üçün oturmağa ona yer göstərməyib dedi: Yusif ibn Əmr Səqəfi (İraq valisi) mənə xəbər verib ki, Xalid ibn Vəlid[4] sənə altı yüz min dirhəm pul verib, indi sən həmin pulları geri qaytarmalısan.

— Xalid mənə heç bir şey verməyib.

— Elə isə onda İraqa - Yusif ibn Əmr Səqəfinin yanına getməli və o səni Xalidlə üzləşdirməlidir.

— Məni Səqif qəbiləsindən olan alçaq bir şəxsin yanına göndərmə ki, mənə hörmətsizlik etsin.

— Başqa çarə yoxdur, gərək gedəsən.

Hişam sonra əlavə edib deyir: Eşitmişəm ki, özünü xilafət məqamına layiq bilib xilafət kürsüsünə gəlmək fikrindəsən. Halbuki, sən bir kəniz oğlusan və kənizdən olan xilafət başında otura bilməz.

---

[1] Vəfəyatül-ə’yan, c.4, səh.137.

[2] Zeyd İmam Səccad əleyhissəlamın oğlu, imam Hüseyn əleyhissəlamın nəvəsi olmuşdur.

[3] Əl-Fəxri, səh.132.

[4] Xalid ibn Əbdullah, Yusif ibn Əmr Səqəfidən qabaq İraq valisi olmuş, camaatın narazılığı səbəbindən Hişam onu işindən azad edərək həbs etmişdir. Ona vurulmuş ən əsas töhmət bu olmuşdur ki, guya o, Bəni-Haşimə tərəf meyl göstərir. Buna görə də, Zeydə atılmış böhtan bundan ibarət olur ki, guya Xalid beytül-maldan külli miqdarda pul götürüb ona vermişdir.

Zeyd deyir: Elə bilirsən ki, anamın bu mövqeyi (kəniz olması) mənim ləyaqətimi alçaldır? Məgər İshaq əleyhissəlamın azad qadından, İsmayıl əleyhissəlamın isə kənizdən olduğunu unutmusanmı? Buna baxmayaraq Allah-taala sonrakı Peyğəmbərləri Həzrət İsmayıl əleyhissəlamın nəslindən seçdi. İslam Peyğəmbəri Həzrət Məhəmməd (səlləllahu əleyhi və alih) də onun nəslindəndir."

Daha sonra Zeyd Hişama nəsihət verib onu təqvalı olmağa çağırdı.

Hişam dedi: Sənin kimi bir şəxs məni təqvalı olmağa dəvət edir?

Zeyd: Bəli, əmr be-məruf və nəhy əz-münkər İslamın iki əsas hökmləridir və onu yerinə yetirmək hamının borcudur. Məqam və rütbəsinin aşağı olmasına görə kimsə bunları yerinə yetirməkdən boyun qaçıra bilməz, eləcə də, heç kəsin məqam və rütbəsinin yuxarı olmasına görə onları qəbul etməkdən boyun qaçırmasına haqqı yoxdur.

## Məcburi səfər

Hişam sərt söhbətindən sonra Zeydi İraqa göndərib Yusif ibn Əmrə bir məktub yazaraq bildirdi ki, Zeyd sənin yanına gəldikdə onu Xalidlə üzləşdir və ona Kufədə qalmağa bir saat da olsa, belə icazə vermə. Çünki o şirindil, xoşbəyan və natiq adamdır, əgər orada qalarsa, Kufə camaatı tez bir zamanda onun tərəfinə keçər.

Zeyd Kufəyə (İraqa) gircək Yusifin yanına gedib dedi: Nə üçün məni bura gətizdirmisən?

Yusif: Xalidin dediyinə görə o, sənə altı yüz min dirhəm pul vermişdir.

— Xalidi çağırtdır, əgər bir sözü varsa, qoy üzümə desin.

Yusif əmr etdi ki, Xalidi zindandan gətirsinlər. Xalidi əl-ayağı ağır zəncirlərlə bağlanmış halda gətirdilər. Bu zaman Yusif üzünü ona tutub dedi: Bu Zeyd ibn Əlidir. İndi onda nəyin varsa de!

Xalid dedi: Allaha and olsun ki, onda mənim heç bir şeyim yoxdur, sizin onu bura gətirməkdən məqsədiniz yalnız ona əzab-əziyyət verməkdir.

Bu dəfə Yusif üzünü Zeydə tutb dedi: Əmirəl-möminin Hişam mənə əmr verib ki, elə bu gün səni Kufədən çıxarım.

Zeyd: Üç gün mənə möhlət ver, qoy bir az dincəlim, sonra Kufədən çıxaram.

Yusif: Mümkün deyil, elə bu gün çıxmalısan.

— Onda icazə ver təkcə bu gün qalım.

— Heç bir saat da mümkün deyil.[1]

Bu hadisənin ardınca Zeyd Yusifin göndərdiyi bir neçə məmurla birgə Kufədən çıxıb Mədinəyə tərəf hərəkət etdi. Kufədən bir az aralanan kimi məmurlar Zeydi tək qoyub geri döndülər...

## Kufədə

Zeydin Kufəyə gəlişi böyük səs-küy salmış, onun Hişamla söhbəti hər yerə yayılmışdı. Vəziyyətin gedişatını yaxından izləyən Kufə camaatı Zeydin Mədinəyə göndərilməsini eşitcək tez özlərini ona çatdırıb onu himayə edəcəklərini bildirərək

[1] Tarixi-Yə'qubi, c.3, səh.67-68.

dedilər: “Kufədə qal və camaatdan beyət al! Arxayın ol ki, yüz min nəfər sənə beyət edib sənin ordunda vuruşmağa hazır olacaq. Bəni-Üməyyənin isə Kufədə çox az tərəfdarı var, onlar da ilk hücumda qırılıb qurtaracaqlar.”

Kufə camaatının Həzrət Əli (əleyhissəlam), İmam Həsən (əleyhissəlam) və eləcə də, İmam Hüseyn əleyhissəlamın dövründəki vəfasızlıqlarını yaddan çıxarmamış Zeyd bir o qədər də onların vədələrinə arxayın olmadı, ancaq kufəlilərin həddən artıq təkidləri nəticəsində Mədinəyə getmək fikrindən daşınıb Kufəyə qayıtdı. Camaat dəstə-dəstə gəlib ona beyət etdi. İş o yerə çatdı ki, təkcə Kufədən iyirmi beş min nəfər döyüşə hazır oldu.

## Böyük vuruşma

Yusif ibn Əmr Səqəfi Əməvilərə zidd olan qoşun dəstələrinin Zeydin ətrafına toplaşmasını ardıcıl olaraq Hişama xəbər verirdi. Bu işdən qorxuya düşən Hişam Yusifə əmr edir ki, tez Zeydin topladığı orduya hücum edib qiyam alovunu söndürsün.

Hər iki tərəfin qoşunları səfərbər oldu və çox çətin bir döyüş baş verdi. Zeyd son dərəcə şücaətlə vuruşur və ordusunu dözümlü olmağa çağırırdı. Döyüş axşamadək davam etdi. Birdən düşmən tərəfindən atılmış bir ox Zeydin alnına batır. Daha döyüşməyə taqəti qalmayan Zeyd bir tərəfdən bəzi dostlarının döyüşdə öldürülməsinə, digər tərəfdən də ordusunun bir hissəsinin pərakəndə olmasına görə məcbur qalıb geri çəkilmək əmri verdi.

## Zeydin şəhid olması

Oxu Zeydin alnından çıxartmaq üçün axşam bir həkim gətirdilər. Ancaq ox çox dərinliyə işlədiyindən onu asanlıqla çıxartmaq mümkün olmadı. Nəhayət, həkim oxu Zeydin alnından çıxartdı, ancaq oxun yarası ciddi olduğundan Zeyd şəhid oldu.[1]

Zeydin dostları uzun sürən məsləhətdən sonra belə qərara gəldilər ki, Hişamın adamları Zeydin cənazəsini tapa bilməsin deyə, onu dəfn etsinlər. Bu məqsədlə onlar əvvəlcə suyun axarını yenə əvvəlki vəziyyətinə qaytardılar. Təəssüflər olsun ki, məsələ heç də onlar istəyən kimi olmadı. Hişamın məmurlarından biri Zeydin dəfn mərasimində iştirak edərək bütün məsələni açıb Yusifə deyir. Yusifin göstərişi ilə Zeydin cənazəsini çıxarıb başını bədənindən ayırdılar və bədənini Kufənin girəcəyində dara çəkdilər. Onun başsız bədəni dörd ilə qədər darda qaldı. Sonra isə bədənini dardan endirib od vurub yandırdılar və külünü sovurdular.

## İmam Sadiq (ə) və qiyamlar

O dövrün tarixini araşdıranda belə bir sual qarşıya çıxır ki, ümumiyyətlə İmam Sadiqin (ə) o vaxt şiələr tərəfindən baş verən qiyamlara qarşı münasibəti necə idi? Görəsən onları müsbətmi qarşılayırdı? Əgər razı deyildisə, səbəbi nə idi?

Ümumiyyətlə hər bir inqilabda, əsasən iki özəl hədəf güdülür: Birinci, nifrət qazanılmış mövcud hakimiyyəti yıxmaq. İkinci isə, yerində nəzərdə tutulan yeni, ideal hökumətin təməlini qoymaq.

[1] Hicri qəməri tarixi ilə 121-ci il səfər ayında (Məqatilut-Talibin, səh. 139).

Sualımızın cavabına gəldikdə isə əməvilər sülaləsinin son dövrlərindən tutmuş ta abbasilərin də dövranını nəzərdə tutmaqla belə qənaətə gəlirik ki, bu qiyamların əksəriyyəti mövcud hakimiyyətin əlindən cana doymuş xalqın kəskin e`tirazlarının alovlanmasının təzahürüdür. Hər zaman zülm həddini aşdıqda qiyamlar da ardınca şö`lələnirmiş. Zalım əməvi və abbasi sülalələrindən təngə gəlmiş məzlum xalq ədalət bayrağını qaldıracaq qəhrəmanın ardınca idilər ki, hər vaxt belə bir hadisə üz versəydi, dərhal ona qoşulurdular (adətən də belələrini seyyidlər və şiələrin böyük şəxsiyyətləri təşkil edirdi).

Bu qiyamlar öz gücünü demək olar şiə məktəbinin ideologiyasından, onun radikal, cəsarətli və son dərəcə din-imanında qətiyyətli adamlarından alsa da, əməvi və ya abbasilərin hakimiyyətinin devrilməsindən sonra yeni, ideal bir hökumətin qurulmasına o qədər də zəmanət verilmirdi. Bunun səbəbini aşağıda verilən amillərdə araşdırmalıyıq:

1. Mə`lum olduğu kimi bu qiyamların rəhbərləri elə də düzgün, kamil bir proqram irəli sürmürdülər və onların rəftar və ideyalarında çoxlu çatışmamazlıqlar müşahidə olunurdu.

2. İnqilabçı qüvvələr, adətən həm say həm də hərbi hazırlıq baxımından elə bir səviyyədə deyildilər ki, qələbəyə ümid gözü ilə baxa bilinsin.

3. Bu qüvvələrin arasında müxtəlif fikir və əqidəli qruplar iştirak edirdilər ki, bütünlüklə sağlam, dindar və e`tibarlı adamların hökumət başına gəlməsinə tam ümid yox idi.

Buna ən gözəl nümunə zülmkar abbasi sülaləsinin hakimiyyətə gəlməsini göstərə bilərik. Elə bu kitabda müşahidə etdiyiniz kimi Əhli-beytin (ə) mübariz tərəfdarlarının sayəsində cinayətkar əməvilər devrildikdən sonra dövləti ələ keçirən abbasilər sonralar zülmkarlıqda əməvilərin üzünü ağartdılar! Əgər imamlarımızın (ə) da bu qiyamlara müsbət münasibətini müşahidə etmiriksə, elə bu səbəblərə görədir və onlar o zamankı vəziyyəti çox gözəl analiz edirdilər. Şiənin böyük mütəfəkkirlərindən olan Məhəmməd Mehdi Şəmsəddin bu barədə belə yazır: “Risalətin davamçıları olan mə`sum imamlar çox yaxşı bilirdilər ki, bu qiyamlarda rəhbərliyə arxa olan qüvvələr sağlam inqilab ruhundan uzaqdır və onlarda sarsılmaz mübarizlik hissi yoxdur ki, inqilabı geniş miqyasda son qələbəyə kimi davam etdirə bilsinlər. Beləliklə, belə qüvvələrə arxalanan hər bir hərəkat məğlubiyyətə məhkumdur və onun ağır zərbəsinin təkcə özlərinə yox, bütün İslam ümmətinə dəyəcəyini təsəvvür etmək çox da çətin deyildi. Həmçinin, imamlarımız bilirdilər ki, qələbənin səmərəsindən faydalananlar da əksəriyyət təşkil edən qeyri-şiə və qeyri-sağlam qüvvələr olacaqdır. Elə buna görə də onlara qoşulmur və onlarla qarşı-qarşıya da durmurdular.”[1]

Yuxarıda qeyd olunanlar müxtəsər surətdə imamlarımızın şiələrin mübariz şəxsiyyətlərinin qaldırdıqları qiyamlara qarşı ümumi münasibətini açıqlayırdı. Amma Zeydin qiyamı haqda isə nisbətən geniş təhlilimiz olacaqdır.

[1] Ənsarül Hüseyn, səh. 210.

## Zeydin qiyamında İmam Sadiq əleyhissəlamın razılığı olmuşdurmu?

Zeyd barədə, eləcə də, onun İmamət iddiasında olub-olmaması və İmam Baqir (əleyhissəlam) və İmam Sadiq əleyhissəlamın imamətini qəbul edib-etməməsi barədə məsum İmamlardan bir-birinə zidd olan müxtəlif rəvayətlər nəql edilmişdir. Bu rəvayətlərin bir qismində Zeyd tənqid olunaraq mənfi tip, digər bir qismində isə müsbət tip kimi göstərilmişdir.

Bizim hədis və rical[1] elmi sahəsindəki alim və təhqiqatçılarımız istər keçmişdəkilər, istərsə də müasirlər, Zeydi tənqid edib onu mənfi tip surətində göstərən hədisləri qəbul etməmiş və onlara arxalanmamışlar. Misal üçün qeyd etmək olar ki, mərhum ayətullah əl-uzma Xoyi Zeydin tənqidi barədə olan rəvayətləri araşdırıb onları qəbul olunmaz hesab etdikdən sonra bu rəvayətləri sənəd nöqteyi-nəzərindən zəif və etibarsız bilib yazır: "...Dediklərimizdən belə nəticəyə gəlirik ki, Zeyd böyük və təqdirəlayiq bir şəxsiyyət olmuş və onun əqidə pozğunluğu, yaxud tənqidi barədə əlimizdə heç bir qəti sübut yoxdur."[2]

Mərhum Əllamə Məclisi də Zeyd barədə olan rəvayətləri qeyd etdikdən sonra yazır: "Zeyd barədə rəvayətlər müxtəlifdir. Lakin onun tərifi və haqdan kənar iddialar etməməsi barədəki rəvayətlər üstünlük təşkil edir. Şiə alimlərinin əksəriyyəti onun məqamının uca olması haqda nəzər vermişlər. Buna görə də, yaxşı olar ki, onun barəsində xoş təəssüratda olub onu tənqid etməkdən çəkinək."[3]

Zeydin qiyamına gəlincə isə bir çox fakt və sübutlar göstərir ki, o, İmam Sadiq əleyhissəlamın razılığı ilə qiyam etmişdir. Bu faktlardan biri də, İmam Riza əleyhissəlamın Məmunun sualına verdiyi cavabıdır. İmam Riza (əleyhissəlam) Məmunun cavabında buyurur: "Atam Musa ibn Cəfər atası Cəfər ibn Məhəmməddən eşitmişdir ki, o (İmam Sadiq (əleyhissəlam)) buyurub: "...Zeyd qiyam etmək üçün mənimlə məsləhətləşdi. Mən ona dedim ki, əmi can, əgər Kufənin girəcəyindən asılacaq şəxs olmaq istəyirsənsə, sənin yolun elə budur." Zeyd İmam Sadiq əleyhissəlamın hüzurundan getdikdən sonra o Həzrət buyurdu: "Vay o şəxsin halına ki, onun dəvət sədasını eşidə, lakin ona cavab verməyə!"[4]

Bu rəvayət açıq-aşkar sübut edir ki, Zeydin qiyamı İmam Sadiq əleyhissəlamın razılığı ilə olmuşdur. Sadəcə olaraq ola bilərdi ki, İmam Sadiq əleyhissəlamın Zeydin qiyamına baş qoşub ona razılıq verməsi düşmənin sorağına çata, digər tərəfdən də Zeydin qiyamı ehtiyat və hesab-kitab üzündən olsun deyə, nə İmam Sadiq (əleyhissəlam) nə Zeydin özü nə də İmamın səhabələri bu işdən kimsənin xəbər tutmasını istəmirdilər.

İmam Sadiq (əleyhissəlam) Zeydin ordusunda vuruşaraq Əməvi qoşunlarından altı nəfəri öldürmüş bir şəxsə buyurur: "Allah məni bu qanlara şərik etsin. And olsun

---

[1] Rical elmi hədisçilərdən bəhs edən elmdir.
[2] Mö'cəmu-ricalil-hədis, c.7. səh.345-356.
[3] Biharül-ənvar, c.36, səh.305.
[4] Üyuni-əxbarir-Riza, c.1, səh.225.

Allaha ki, əmim Zeyd eynilə Həzrət Əli (əleyhissəlam) və onun səhabələrinin yolu ilə hərəkət etmişdir.”[1]

Zeyd İmam Sadiq əleyhissəlamı imam kimi tanıyan şəxslərdən olmuşdur. Onun özü də demişdir ki, Cəfər (İmam Sadiq (əleyhissəlam)) halal və haram məsələsində bizim İmamımızdır.[2]

Zeyd həmçinin deyirdi: “Hər bir vaxt biz Əhli-beytdən bir nəfər Allahın hüccəti olmalıdır. Bizim dövrümüzün hüccəti də qardaşım oğlu Cəfər ibn Məhəmməd əleyhissəlamdır. Ona itaət edən şəxs əsla yolunu azmaz, onunla müxalifətçilik edən şəxs isə əsla düz yola yönəlməz.”[3]

İmam Sadiq (əleyhissəlam) buyurardı: “Allah əmim Zeydə rəhmət eləsin! Əgər qalib gəlsəydi, mütləq (verdiyi vədə) əməl edərdi. Əmim Zeyd camaatı Ali-Məhəmməddən (səlləllahu əleyhi və alih) (Peyğəmbər ailəsindən) olan seçilmiş bir şəxsə itaət etməyə dəvət edirdi. O şəxs də mənəm.”[4]

Başqa bir rəvayətdə İmam Sadiq (əleyhissəlam) Zeyd barədə buyurur: “Allah ona rəhmət eləsin, mömin, arif, bilikli və düzdanışan adam idi. Qalib gələrdisə, verdiyi vədə əməl edər, hakimiyyəti ələ alsaydı, onu kimə verəcəyini yaxşı bilirdi.”[5]

Zeyd və dostlarının şəhadət xəbəri Mədinə şəhərinə çox acınacaqlı təsir bağışladı. Bu hadisədən hamıdan çox İmam Sadiq (əleyhissəlam) kədərləndi. Bu hadisə İmam Sadiq əleyhissəlama o qədər təsir etmişdi ki, Kufə və Zeydin adı çəkiləndə ixtiyarsız olaraq o Həzrətin gözlərindən yaş axmağa başlayır, şəhid olmuş əmisi və onun dostları barədə təəssüflə dolu olan ürəkağrıdıcı sözlər deməklə onun şəhadətini dərin hörmətlə yad edirdi.

İmam Sadiq əleyhissəlamın Həmzə ibn Həmran adlı bir dostu deyir: “Bir gün İmam Sadiq əleyhissəlamın yanına getdikdə, o Həzrət məndən soruşdu: “Həmzə, haradan gəlirsən?” Dedim ki, Kufədən gəlirəm. İmam Sadiq (əleyhissəlam) Kufənin adını eşitcək bərk ağlamaq tutdu, belə ki, mübarək sifəti göz yaşlarından islandı. Bu vəziyyəti belə görüb təəccüblə soruşdum: “Ey Peyğəmbərin övladı! Sizin bu cür ağlamağınıza səbəb nə oldu?”

İmam Sadiq (əleyhissəlam) qəmli və gözləri yaşla dolmuş halda buyurdu: “Əmim Zeyd və başına gətirilənlər yadıma düşdü, ona görə də ağladım.” Bir daha soruşdum: “Onun haqqında məgər sizin yadınıza nə düşdü?”

İmam Sadiq (əleyhissəlam) buyurdu: “Onun şəhadəti yadıma düşdü.”

Sonra Həzrət (ə) Zeydin qiyam və şəhadətini Həmzəyə olduğu kimi başa saldı.[6]

---

[1] Qamusür-rical, c.4, səh.570.
[2] İxtiyari-mə’rifətir-rical, səh.361.
[3] Əl-Əmali (Şeyx Səduq), səh.325.
[4] Qamusur-rical, c.4, səh.566.
[5] İxtiyari-mə’rifətir-rical, səh.285.
[6] Əl-Əmali (Şeyx Səduq), səh.236.

## 1. Məhəmməd “NəfsİZəkərİyyə”[1] nİn İnqİlabı

İmam Sadiqin (ə) ömrünün son dövrlərinə təsadüf edən çox mühüm hadisələrdən biri də Abbasilərin ikinci xəlifəsi Mənsur Dəvaniqinin əleyhinə qaldırılmış Məhəmməd Nəfsi Zəkiyənin qiyamıdır. Şiələrin rəhbər və imamı kimi Həzrətin bu hadisəyə münasibəti olduqca əhəmiyyətli idi.

Məhəmməd özü ata tərəfdən İmam Həsənin dördüncü nəslindən olub ana tərəfdən isə İmam Hüseynə (ə) gedib yetişirdi. Bu insan çox alicənab, pərhizkar və pak təbiətinə, ələlxüsus yüksək daxili-mə`nəvi keyfiyyətlərinə görə “Nəfsi Zəkiyyə” (mə`nən saf, təbiətcə pak) ləqəbilə tanınmışdır.[2] O, Bəni Haşimin ən görkəmli və fəzilət sahiblərindən olub dindarlıqda, elm və siyasətdə, alicənablıq, bəxşiş və şücaətdə parlaq bir şəxs idi.[3]

Pak və ülvi nübuvvət xanədanına mənsub, eləcə də risalət məktəbinin yetirməsi olan Məhəmməd müqəddəs İslam adı altında müsəlmanların müqəddəratına hakim kəsilmiş tağut rejimini qəbul edə bilməzdi. Elə buna görə də Əməvilər sülaləsinin son dövrlərindən başlayaraq onu devirmək üçün mübarizəyə qalxmış və bu məqsəd uğrunda ona qoşulmuş bir çox tərəfdar və cəsur adamlarla əhd-peyman bağlamışdı.

Yeri gəlmişkən onunla o zaman bey`ət edənlərdən biri də Əbu Cə`fər Mənsur Dəvaniqi olmuş[4] və sonra qeyd edəcəyimiz kimi xilafətə gədikdən sonra Məhəmmədin qətlinə də o fərman vermişdi. Əlbəttə, onun bu hərəkata qoşulması və bey`əti bir sıra məqsədlərə görə olmuşdur. Çünki elm, dərrakə və siyasətdə ad qazanmış Məhəmməd kimi nüfuzlu bir şəxsin kənarında Mənsur və onun kimiləri kölgədə görünürdü.

## Qiyamın başlanğıcı

Əməvilərin süqutundan sonra iqtidarı ələ keçirmiş Əbul Abbas Səffahın xilafətini rəsmi olaraq tanımayan Məhəmməd və qardaşı İbrahim məcbur olub bir güşədə gizləndilər. Məhəmməd, onun xilafəti qəsb etdiyini bildirərək bu mənsəbə özünün layiq olduğunu söyləyirdi. Deyirdi ki, o vaxt bey`ət və əhd-peymana əsasən indi Əbul Abbas və qardaşı Mənsur ona tabe olmalıdırlar, əksinə yox. Onların bu müxalifəti Əbul Abbası bərk təşvişə salmışdı və hətta onların yerini öyrənmək üçün atası ilə də sorğu-sual aparmışdı. Onu lap çox qorxudan məsələlərdən biri də Məhəmmədin böyük şəxsiyyətlərdən birinin qiyama də`vəti məktubunun onun əlinə düşməsi idi.[5]

Beləliklə bu mübariz iki qardaş gizli surətdə hökumətin əleyhinə qiyama hazırlaşaraq öz ətrafına inqilabçı adamları toplamağa başladılar.[6] Hicrətin 136-cı ilində (Əbul Abbasın xilafətinin sonlarında) Mədinəyə gəlmiş vəliəhd Mənsurun

---

[1] Məhəmməd ibn Abdullah ibn Həsən ibn Həsən (ə) ibn Əli (ə) ibn Əbu-Talib.
[2] Mürucuz-zəhəb, c. 2, səh. 294; Əl-əxbarüt-tival, səh. 385.
[3] Əl-fəxri, 185.
[4] Məqatilut-talibin, səh. 173-197.
[5] Məqatilut-talibin, səh. 118-120, 158.
[6] Tarixül-üməm vəl-muluk, c. 9, səh. 180.

görüşündə çoxları, o cümlədən Bəni Haşim də iştirak etsə də, bu iki qardaş görüşdən imtina etdilər.[1]

Mənsur xilafətə gəldikdən sonra onların axtarışı üçün ciddi tədbirlərə əl atdı. Onların yerini tapmaq üçün, demək olar bütün şiələr sorğu-suala çəkilirdi.[2] Bütün bunların bir nətəcəsi olmadıqda çoxlu casusları küllü miqdarda pul və miniklə tə`min etməklə bu işə cəlb etdi.[3] 138-ci ildə Fəzl ibn Salehi həcc mərasiminin əmiri tə`yin edib ona ciddi tapşırdı ki, Məhəmməd və İbrahimi harada mümkün oldu ələ keçirib ona təhvil versin.

Fəzl Mədinəyə daxil olduqdan sonra bütün camaat və eləcə Həsəni seyidləri onun görüşünə gəlmişdilər. Fəzl, Məhəmməd və İbrahimin onun hüzuruna gəlmədiyini görüb atası Abdullahdan onların harda olduğunu soruşduqda ona bəhanə gətirərək demişdi ki, istirahət üçün ova çıxıblar.[4]

Zaman ötdükcə qarşıya başqa mühüm məsələlər və hadisələr çıxırdı ki, Mənsur da çarəsiz qalıb bütün gücünü onların həllinə sərf edirdi. Nisbətən yaddan çıxmış Məhəmməd isə ələ düşən fürsəti qətimət bilib öz ideyalarını yaymağa və ətrafına adam toplamaq üçün müxtəlif məntəqələrə nümayəndələr göndərməyə başladı.[5] Hadisələri ardıcıl yoluna qoyan Mənsur yenidən ehtimal verilən bu hərəkatın qabağını almaq üçün bütün qüvvələri Hicazın başdan-başa nəzarətdə saxlamasına yönəltdi. Çünki bu müddət ərzində Hicazda Məhəmmədin hərəkatının yayılmasına dair yeni-yeni xəbərlər ona gəlib çatırdı.[6]

## Artıq təzyiqlər

240-cı ildə həcc mövsümünü bəhanə edən Mənsur, Məhəmmədin işinə birdəfəlik son qoymaq üçün yolunu Mədinədən saldı. O, bu səfərilə, demək olar bu hərəkatın mərkəzi olan Mədinəni, o cümlədən bu oyanışları iflic etmək istəyirdi. Mədinəyə daxil olduqdan sonra şiələrin tanınmış şəxsiyyətləri ilə bir sıra görüşlər keçirdi, onlara ən`am və hədiyyələr təqdim etdi. Bə`zilərinə pul təklif etməklə tamahlandırmaq, digərlərinə isə hədə-qorxu gəlməklə Məhəmmədin yerini öyrənməyə cəhd göstərdi. O cümlədən Məhəmmədin də atasını çağırtdırıb oğullarının yerini deməyə vadar etsə də, atasının onlardan xəbərsiz olduğunu eşitdi. Onların arasında gedən danışıq sərtləşdiyi vaxt atası dedi: "Əgər Məhəmməd ayağımın altında belə gizlənmiş olsa ayağımı qaldırmaram ki, onu görmək sənə nəsib olsun!" Bu sözlərdən bərk qəzəblənən Mənsur onu və ailəsindən neçə üzvünü zindana saldırdı və Abdullah üç il zindanda qaldı.[7]

---

[1] Əl-kamilu fit-tarix, c. 5, səh. 513.

[2] Tarixül-üməm vəl-muluk, c. 9, səh. 181.

[3] Tarixül-üməm vəl-muluk, c. 9, səh. 181.

[4] Tarixül-üməm vəl-muluk, c. 9, səh. 181.

[5] Əl-kamilu fit-tarix, c. 5, səh. 517-522.

[6] Cihaduş-şiə, Doktor Səmirə Muxtarül-leysi, səh. 115.

[7] Tarixül-üməm vəl-muluk, c. 9, səh. 183-184; Tarixi Yaqubi, c. 3, səh. 109-110; Əl-fəxri, səh. 165; Məqatilut-talibin, səh. 146.

## Silahlı qiyam və onun sonu

Mənsurun bu hərəkatı yatırmaq üçün bütün cəhdləri, demək olar nəticəsiz qaldı. Məhəmməd özü Mədinənin ətrafında gizlənsə də onun tərəfdarlarının sayı günbəgün artır, artıq şəhər inqilabın mərkəzinə çevrilirdi.

Nəhayət, bu hərəkatı inqilaba sövq edən neçə illik mübarizədən sonra 145-ci ilin rəcəb ayında Mədinəyə daxil olub kütləvi bey`ət topladıqdan sonra şəhərin idarəsini öz ixtiyarına aldı. Halbuki son qələbə üçün lazımı tədarük görülməmiş və onun müxtəlif məntəqələrə yolladığı nümayəndələr də işi tam başa çatdıra bilməmişdilər. Bu minvalla şəhər zindanının qapılarını sındırıb məhbusları azad etməklə silahlı qiyamın ilkin təməlini qoydular.

Mənsur xəbərdar olan kimi cəld qardaşı İsanın başçılığı ilə Mədinəyə qoşun göndərdi. Çox qızğın və qanlı döyüşdən, həmçinin qiyamçıların sarsılmaz fədakarlıq və rəşadətindən sonra Mədinə şəhəri süqut etdi və qiyam yatızdırıldı. Bu döyüşdə çoxları qırıldı, o cümlədən Məhəmməd və yaxın silahdaşları qətlə yetirildi.[1] Bu məğlubiyyətdən sonra elə həmin il qardaşı İbrahim Bəsrədə qiyam etdi. Bu qiyamda da İbrahim məğlub olaraq öldürüldü.[2] Tarixdə çox mühüm olan Məhəmmədin inqilabının siyasi, ictimai, hərbi və təchizati kimi müxtəlif məxlubolma səbəbləri olmuşdur ki, burada təfsilatı ilə açıqlamağa imkan yoxdur.[3]

## İmam Sadiqin (ə) Məhəmməd "Nəfsi Zəkiyyə"nin inqilabına münasibəti

Ötən bəhslərdə dediyimiz kimi bu qiyamların müasiri olmuş İmamlarımızın yekdil münasibəti təxminən Məhəmmədin inqilabına da aiddir. Çünki bu qiyamın özü də digər silsilə qiyamların motivində qərar tuturdu və təbii olaraq İmam Sadiqin (ə) mövqeyi digər imamlardan fərqlənə bilməzdi. Burada mə`lum olduğu kimi Həzrət onun hərəkatı ilə razılaşmamışdır. Çünki Məhəmməd "Nəfsi Zəkiyyə" məhdəviyyət ideyasını qaldıraraq hərəkatını ona əsaslandırırdı. Onun tərəfdarları, eləcə də atası bu əqidə və ideyanı geniş surətdə təbliğ və tərvic edərək o günün ictimai kütləsi arasında təsəvvür olunmayan bir inam yaratmışdılar.[4] Bu elə bir məsələ deyildi ki, İmam Sadiq (ə) onun kənarından asanlıqla sovuşsun.

Bu hərəkatın başlanğıcı əməvilərin hökmranlığının son dövrlərinə təsadüf edir. Ələvilər (Əhli-beyt (ə) tərəfdarları) və Abbasilərdən təşkil olunmuş bir yığıncaqda Məhəmməd Nəfsi Zəkiyyə inqilabın rəhbəri tə`yin olunur və orada iştirak edənlərin haması onunla bey`ət edirlər. Bu yığıncaqda Abdullah Məhz, iki oğlu Məhəmməd Nəfsi Zəkiyyə və İbrahim, əbu Cə`fər Mənsur, Saleh ibn Əli, Məhəmməd ibn Əbdül

---

[1] Məqatilut-talibin, səh. 184-185; Tarixi Yaqubi, c. 3, səh. 145; Mürucuz-zəhəb, c. 3, səh 294.

[2] Məqatilut-talibin, səh. 210.

[3] Məqatilut-talibin, səh. 210-dan sonrakı hadisələr; Cihadüş-şiə, səh. 166.

[4] Məqatilut-talibin, səh. 140-142, 157-158, 160-165; Əl-fəxri, səh. 165-166. Hətta Mənsur Dəvaniqinin özü məhdəviyyət ideyasından olduqca nüfuz qazanan Məhəmməd Nəfsi Zəkiyyəni nüfuzdan salmaq üçün öz oğlunun adını Məhəmməd qoyaraq onu Məhdi ləqəbləndirməklə iddia elədi ki, zühur edəcək Məhdi onun oğludur (Məqatilut-talibin, səh. 162). Beləcə fürsəti qənimət bilən abbasilərdən biri Peyğəmbər (s)-in adından saxta bir hədis düzəldib dedi: Peyğəmbər buyurub ki, Məhdi əmim Abbasın nəslindəndir (Tarixül-xüləfa, Siyuti, səh. 272).

Birr (Osmanın üçüncü nəslindən) kimi şəxslər var idi. "Əbva"da təşkil olunmuş bu yığıncağa həsəni seyidlərinin ağsaqqalı və o dövrün tanınmış şəxslərindən Nəfsi Zəkiyyənin atası Abdullah tərəfindən İmam Sadiq (ə) da çağırılmışdı.

Həzrətin gəlişindən sonra Məhəmməd yığıncağın təşkil olunma səbəbi və onun hədəfini açıqladı. İmam Sadiq (ə) buyurdu: "Bu fikirdən daşının, qiyamın vaxtı hələ yetişməyib." Sonra üzünü atası Abdullaha tutub dedi: "Elə güman edirsən ki, oğlun Məhdidir? Mən deyirəm ki, yanılırsan və bu zaman onun qiyamının vaxtı deyildir. Amma əgər alovlanıb Allaha xatir, əmr be mə`ruf və nəhy əz münkər etmək üçün onu qiyam və inqilaba qaldırırsansa, Allaha and olsun, ağsaqqal və ağamız olduğun halda səni tək qoymarıq və oğlun ilə də bey`ət edərik." Abdullah isə Həzrətin sözlərindən narahat olub onu paxıllıq üzündən söylədiyini güman etdi.[1]

Həqiqətdə isə İmam Sadiq (ə) imamət məqamından çıxış edərək çox gözəl bilirdi ki, Məhəmməd qələbə çala bilməyəcək və elə həmin yığıncağın sonunda atası Abdullaha buyurdu: "Oğlun xilafətə çatmayacaq və bunu da bil ki, "sarı qəbalı"dan (Mənsur Dəvaniqiyə işarə edərək) başqa da heç kimə nəsib olmayacaq."[2] Əbulfərəc İsfahani yazır ki, Abdullah imamın sözündən sonra əlini Əbul Abbasın çiyninə vurub dedi: "Bu, qardaşları və onların övladları xilafətə çatacaqlar, siz yox!" İmam isə əlini Abdullahın çiyninə vurub dedi: "Hökumət nə sənə nə də oğullarına nəsib olmayacaq. Bunlardır ki, xilafətə çatacaqlar və oğulların da qətlə yetiriləcəkdir."[3]

Deməliyik ki, elə İmam Sadiqin (ə) bu sözü deməyindən çox da keçməmiş Həzrətin əvvəlcədən olacaq hadisənin nəticəsinin ifşa etməsi xəbəri Mədinədə dolaşırdı. Bununla maraqlananlar Həzrətin hüzuruna gəlib bu xəbəri onun özündən eşitmək istəyirdilər. Elə öz bacısı qızı Ümmül Həsən ondan belə bir xəbərin söylədiyini soruşduqda Həzrət demişdi: "Məhəmməd "rum evi"nin[4] kənarında öldürüləcək, qardaşı İbrahim isə İraqda elə bir halda qətlə yetiriləcəkdir ki, mindiyi atın ayaqları suyun içində olacaqdır."[5]

İmam Sadiq (ə) yuxarıda qeyd olunan səbəblərə görə Məhəmmədin hərəkatını qəbul etməsə də, lakin onun əleyhinə də heç bir ciddi e`tiraz münasibəti bildirmədi. Hətta Əbulfərəc İsfahaninin yazdığına görə oğulları Musa və Abdullahı Məhəmmədin köməyinə göndərdi[6] və onlar bu hərəkatda Məhəmmədin kənarında idilər.[7] Hələ qiyamın məğlubiyyətindən sonra Məhəmmədin yaxın silahdaşlarından olan Hüseyn ibn Zeydə (şəhid) pənah verərək amanda saxladı.[8] Mə`lumdur ki, bu iki mühüm addım xəlifə Mənsuru narahat etməyə bilməzdi.

Burada diqqəti cəlb edən məsələlərdən biri də odur ki, İmamın bu hərəkata qoşulmaması heç də onun abbasilərlə razılaşmağından irəli gəlmirdi. Mövcud hakimiyyət də Həzrətin nəzərində qanunsuz və dindən uzaq sayılırdı. Hətta Mənsur Həzrəti dəfələrlə paytaxta öz sarayına çağırtdırıb onu müxtəlif əzab-əziyyətə

---

[1] Məqatilut-talibin, səh. 140-141.
[2] Əl-fəxri, səh.165.
[3] Məqatilut-talibin, səh. 141-142, 172.
[4] Mədinədə məhəllə adı.
[5] Məqatilut-talibin, səh. 168.
[6] Məqatilut-talibin, səh. 170.
[7] Məqatilut-talibin, səh. 186.
[8] Məqatilut-talibin, səh. 257.

salmaqdan əlavə qətlə yetirmək fikrinə də düşmüşdü. Lakin Allahın lütfü ilə hər dəfə o, bu sui-qəsdlərdən salamat qurtarmışdı.[1] Elə Məhəmmədin hərəkata başladığı zamandan İmam (ə) Mənsur tərəfindən bir sıra çətinliklər və zərbələr görmüşdü. Burada bir neçə nümunəni qeyd edirik:

Bu hərəkatın gün-gündən gücləndiyi vaxt bir dəfə Mənsur özü onu yatırmaq qəsdi ilə Mədinəyə doğru hərəkət etdi. Özünü şəhərin yaxınlığınadək yetirib "Rəbəzə"də düşərgə saldı.[2] Orada qaldığı müddət ərzində İmam Sadiq (ə)-ı hüzuruna çağırtdırıb Həzrətlə olduqca kobud rəftar edərək onu çox pis təhqir etmişdi.[3] Yaxud hicrətin 145-ci ili Məhəmmədin ilk dəfə qiyama başladığı gecə Mədinənin hakimi Bəni Haşimin böyük şəxsiyyətlərilə bərabər İmamı da həbs etdirmişdi.[4] İmam Sadiq (ə) özü bu haqda deyir: "Məhəmmədin məğlubiyyətindən sonra məni Mənsurun hüzuruna apardılar. O, məni çox kobud ifadələrlə təhqir edərək qarşıladı. Ardınca dedi: Adını Nəfsi Zəkiyyə qoyduğunuz Məhəmməd ibn Abdullahın başına gələnlərdən xəbərim var. İndi intizarındayam ki, sizdən biri başını qaldıran zaman böyük və kiçiyinizə rəhm etməyim.[5]

Məhəmmədin üzərinə göndərilmiş qoşunun sərkərdəsi İsa döyüşdən sonra mənim "eyn Əbu Ziyad" adlı torpaq sahəmi müsadirə etdi. Mənsurun hüzurunda ikən ona dedim ki, mənim torpaq sahəmi özümə qaytar, çünki gəlirim oradan tə`min olunur. Mənə dedi: Hələ danışmağa üzün də var? Mən istəyirəm sənin canını alım!"[6]

Mənsur hətta bunlarla da kifayətlənməyib bir dəfə Mədinədə Həzrətin evini belə yandırtdırmışdı. Allahın lütfü ilə od-aluvun içindən özünü salamat qurtaran İmam Sadiq (ə) o vaxt demişdi: "Mən İbrahim Xəlilullahın övladıyam!"[7]

---

[1] Biharul-ənvar, c. 47, səh. 162, 212.
[2] Əl-kamilu fit-tarix, c. 5, səh. 524.
[3] Məqatilut-talibin, səh. 170; Biharul-ənvar, c. 47, səh. 192.
[4] Əl-kamilu fit-tarix, c. 5, səh. 530.
[5] Biharul-ənvar, c. 47, səh. 206; Nurul-əbsar, səh. 147.
[6] Məqatilut-talibin, səh. 184.
[7] Üsuli-kafi, c. 1, səh. 473.

# VII FƏSİL

# İMAM MUSEYİ-KAZİM ƏLEYHİSSƏLAMIN HƏYATI

***  Cəfəri məktəbinin gözətçisi**
***  İmam Kazim əleyhissəlamın dövründə xilafətin gördüyü çirkin işlər**
***  Qanlı "Fəxx" faciəsi**
***  "Qəlb"lərə hakim olmaq**
***  Harun – neçə üzlü insan**
***  İslam dövləti təşkil etmək arzusunda**

## İmam Kazim əleyhissəlamın həyatı barədə qısa məlumat

O Həzrətin adı Musa, ləqəbi Kazim, anası Həmidə adlı çox fəzilətli bir qadın, atası isə altıncı İmam Həzrət Sadiq (əleyhissəlam) olmuşdur. İmam Kazim (əleyhissəlam) hicrətin yüz iyirmi səkkizinci ilində (Mədinənin yaxın kəndlərindən biri olan) Əbva adlı bir yerd dünyaya gəlmiş, hicrətin yüz səksən üçüncü (başqa bir versiyaya görə isə yüz səksən altıncı) ilində şəhid olmuşdur.

## İmam Kazim əleyhissəlamın müasiri olmuş xəlifələr

Hicrətin yüz qırx səkkizinci ilində İmam Sadiq (əleyhissəlam) şəhid olduqdan sonra İmam Kazim əleyhissəlamın İmamlıq dövrü başlamışdır. O Həzrət İmam olduğu bu otuz beş (ya da otuz səkkiz) il ərzində aşağıda adları çəkilmiş xəlifələr onun müasiri olmuşdur:

Mənsur Dəvaniqi (137-158 h.q);

Məhəmməd – Məhdi adı ilə tanınmış (158-169);

Musa – Hadi adı ilə tanınmış (169-170);

Harun Ər-Rəşid (170-193).

İmam Sadiq (əleyhissəlam) şəhid olan zaman Mənsur Dəvaniqi öz hakimiyyətinin kulminasiya mərhələsini yaşayırdı. Mənsur elə bir şəxsiyyət idi ki, öz hakimiyyət dayaqlarını möhkəmləndirməkdən ötrü saysız-hesabsız insanları qətlə yetirirdi. O, bu işdə təkcə şiələri deyil, eləcə də, onunla müxalif olan sünni məzhəbinin fəqih və digər böyük şəxsiyyətlərinə ağır əzablar verirdi. Belə ki, Əbu Hənifəni (Abdullahın oğlu və İraqda Abbasilər qiyamının müxaliflərinin başçısı olan) İbrahimi himayə edərək onun (Mənsurun) əleyhinə fətva verdiyinə görə şallaq vurduraraq həbs etdirmişdi.[1]

İmam Kazim (əleyhissəlam) atasının vəfatından sonra iyirmi yaşında İslam hökumətinin (bütün xilafət ərazisinin) xəlifəsi sayılan belə bir zalım hakimlə üzləşmişdi. Mənsur (Mədinə hakimi olan) Məhəmməd ibn Süleymandan İmam Sadiq əleyhissəlamın şəhadət xəbərini eşitdikdən sonra ona bir məktub yazıb bildirdi ki, əgər Cəfər ibn Məhəmməd (İmam Sadiq (əleyhissəlam)) öz yerinə bir nəfər canişin təyib edibsə, onu çağırtdır və boynunu vur! Çox çəkmədi ki, Mədinə hakimi Bağdada (Mənsura) aşağıdakı məzmunda bir məktub yazdı: “Cəfər ibn Məhəmməd rəsmi şəkildə yazmış vəsiyyətnaməsində beş nəfəri öz canişini təyin etmişdir. O beş nəfər bunlardır:

Dövrün xəlifəsi – Mənsur Dəvaniqi;

(Mədinə hakimi və məktubu yazanın özü) Məhəmməd ibn Süleyman;

Abdullah ibn Cəfər ibn Məhəmməd (İmam Kazim əleyhissəlamın böyük qardaşı);

Musa ibn Cəfər (İmam Kazim (əleyhissəlam));

Həmidə (İmam Sadiq əleyhissəlamın həyat yoldaşı);”

Mədinə hakimi bunları yazdıqdan sonra qeyd etmişdi ki, bunlardan hansını çağırıb boynunu vurdurum?

Vəziyyətin belə alınacağını gümanına belə gətirməyən Mənsur həddən artıq bərk qəzəblənib qışqırır ki, bunları öldürmək olmaz![1]

---

[1] Tarixül-xüləfa, səh.259.

[1] Üsuli-kafi, c. 1, səh. 310-311; Biharül-ənvar, c. 47, səh. 3; E`lamül-vəra, səh. 299.

İmam Sadiq əleyhissəlamın bu vəsiyyətnaməsi tamamilə siyasi bir hərəkət idi. Çünki İmam Sadiq (əleyhissəlam) özündən sonrakı İmamı və öz canişinini qabaqcadan şiələrə tanıtdırmış,[1] lakin Mənsurun bu cür təhlükəli planlarından xəbərdar olduğu üçün yeddinci İmamın canını qorumaq məqsədilə vəsiyyətini bu şəkildə yazmışdı.

## Cəfəri məktəbinin hamisi

O dövrün vəziyyətinə nəzər saldıqda məlum olur ki, Mənsur hökumətinin əvvəlcədən üzərində nəzarəti olan hər hansı bir qəti iş və proqramı həyata keçirmək məsləhət olmamışdır. Buna görə də, İmam Kazim (əleyhissəlam) atasının tutduğu elmi yolu davam etdirərək böyük elm ocağı (lakin İmam Sadiq əleyhissəlamın təşkil etdiyi elm ocağından kiçik) yaradıb tanınmış elmli və fəzilətli şəxsiyyətləri yetişdirməyə başlayır.

Seyyid ibn Tavus yazır: "İmam Kazim əleyhissəlamın xüsusi dostlarından böyük bir qismi və həmçinin, Bəni-Haşim qəbiləsinin böyük şəxsiyyətləri o Həzrətin ətrafına yığışaraq onun dürəfşan kəlamlarını, suallara verdiyi cavabları və irəli çıxan məsələlər haqqında verdiyi hökmləri qeyd edirdilər."[2]

Seyyid Əmir Əli yazır: "Hicrətin yüz qırx səkkizinci ilində İmam Sadiq (əleyhissəlam) Mədinə şəhərində vəfat etdi. Ancaq xoşbəxtlikdən onun təşkil etdiyi elm ocağı bağlanmadı, əksinə o Həzrətin canişini – oğlu İmam Kazim əleyhissəlamın rəhbərliyi sahəsində bu elm ağacı öz parlaqlığını daha da qorudu.[3] "

Musa ibn Cəfər (İmam Kazim (əleyhissəlam)) öz dövrünün bütün alimlərini heyrətə gətirməklə yanaşı, həm də əxlaqi dəyərlər və ali insani sifətlər baxımından da ad çıxarmışdı. Belə ki, o Həzrətin iftixar dolu həyatı ilə tanışlığı olan alimlərin hamısı onun əxlaqı qarşısında baş əyirlər.

Sünni məzhəbinin görkəmli hədisçisi və alimi ibn Həcər Heytəmi yazır: "Museyi-Kazim (əleyhissəlam) atasının elm və biliyini irs aparmış, atasının fəzilət və kamalına malik olmuşdur. O, (cahil və nadan insanlarla) fövqəladə güzəşt və səbrlə davrandığına görə Kazim[4] ləqəbini almış, onun dövründə heç kim İlahi maarif və bilik baxımından ona çatmamışdır.[5]"

[1] İrşad, səh. 304-306; Biharül-ənvar, c. 47, səh. 253. c. 48, səh. 16-17.
[2] Əl-ənvarül-bəhiyyə, səh.170.
[3] Müxtəsəri-tarixil-ərəb, səh.209.
[4] Kazim ərəb dilində "qəzəbini boğan" deməkdir.
[5] Əs-səvaiqül-mühriqə, səh.203.

# İmam Kazim əleyhissəlamın dövründə xilafətin gördüyü çirkin işlər

## 1. Məhdi Abbasi

Çirkin nəticələri İslam məmləkətinin hər yerinə ziyan vurmuş Mənsurun xəlifəlik dövrü, onun ölümü ilə başa çatır və camaat iyirmi iki il əzab-əziyyətə qatlaşdıqdan sonra rahat nəfəs almağa başlayır.

Mənsur öldükdən sonra onun Məhdi adı ilə tanınmış oğlu Məhəmməd hakimiyyət başına gəlir. Məhdi ilk xəlifəlik çağlarında camaatın gur alqışları ilə üzləşdi. Çünki o, hakmiyyətə gəldiyi ilk vaxtda "Yaşıl bağ"da camaat qarşısında ümumi əfv etmə (amnistiya) qərarı çıxarıb bütün siyasi məhbusları (istər Bəni-Haşimdən olsun, istərsə də qeyri Bəni-Haşimdən) azad edərək camaatın əzab-əziyyətinə və qırğınına son qoydu. Həmçinin, atası Mənsurun camaatdan müsadirə etdiyi daşınan və daşınmaz əmlakı öz sahiblərinə qaytardı və beytül-maldan olan gəlirin əksəriyyətini camaat arasında bölüşdürdü.[1]

Görkəmli tarixçi Məsudinin yazdığına əsasən, Mənsurun camaatdan zorla topladığı əmlakın dəyəri altı yüz milyon dirhəm və on dörd milyon dinar idi. Bu məbləğ Mənsurun xəlifə olduğu müddətdə yığdığı torpaq vergisi və kəndlilərdən aldığı vergidən əlavə idi. Yığılan bu əmlak Mənsurun əmrinə əsasən, "məzlumların beytül-malı" adı ilə xüsusi yerdə saxlanıldığından və hər əmlakın üstündə onun sahibinin adı yazıldığından Məhdi onların hamısını ayırıb öz sahiblərinə, ya da onların varislərinə qaytardı.[2]

Məhdinin belə bir addım atmasından məqsəd bəlkə də, bu olmuşdur ki, hakimiyyət başına gələrkən Ələvilərin (Əli əleyhissəlamın nəslindən olanların) təcavüzkar hakimlərə qarşı etdikləri etirazların qarşısını alıb nisbi sakitlik yaratsın. Bir sözlə, bu azadlıq, əmniyyət və iqtisadi rifah cəmiyyətdəki müxtəlif dəstələrin razılığına səbəb olaraq ictimai və iqtisadi həyatda yeni bir mərhələ açır. Təbii ki, əgər bu iş beləcə davam etsəydi, bir çox parlaq nəticələr verərdi, ancaq təəssüflər olsun ki, çox çəkmədi ki, proqram dəyişdi və yeni xəlifə özünün həqiqi simasını göstərdi. Beləliklə də, ötən xəlifələrin İslama zidd olan hərəkətləri yenidən icra olunmağa başladı.

## Fəsad və əyyaşlıq mərkəzi

Məhdi xəlifə olduğu ilk vaxtlarda daşürəkli və düşüncəsiz Mənsurun saraya cəlb etdiyi, sarayda əsasən, eyş-işrət işlərinə baxan pozğun ünsürlərin saraya girməsinə yol vermir və eyş-işrətə yaxın düşmürdü. Ancaq bir il keçdikdən sonra tutduğu mövqeyi dəyişib eyş-işrət məclisləri təşkil edərək pozğun ünsürlərə xüsusi qayğı göstərməyə başlayır. Xeyirxah, ağıllı və xoş niyyətli olan adamlar Məhdiyə bu işin pis və acınacaqlı sonuclarla nəticələnəcəyini desələr də, bu, onda heç bir təsir bağışlamır. Məhdi onların cavabında deyir: "İnsanın o vaxtı xoşdur ki, kef-damağla keçsin, nədim adamlarsız həyat mənə şirin gəlmir."[3] O, bu işə o qədər ifratla yanaşırdı ki,

---

[1] Tarixi-Yə'qubi, c.3, səh.132.
[2] Müxtəsərü-tarixil-ərəb, səh.213.
[3] Tarixül xüləfa, səh.277.

hətta öz ağıllı və fəzilətli vəziri Yəqub ibn Davudun nəsihətlərinə belə qulaq asmırdı. Dövlət işlərində Yəqubun sözlərindən bir addım da kənara çıxmayıb onun dediklərini yüz faiz dəqiqliklə yerinə yetirən Məhdi eyş-işrətdən söz düşdükdə, Yəqubun məntiqi və qərəzsiz deyilən sözlərinə qulaq asmırdı.

Xilafət sarayının və eləcə də, xəlifənin pozğunçuluq, eyş-işrətlə gün keçirməsindən ciddi narahat olan Yəqub Məhdinin ətrafındakılarının İslam hökuməti sarayında və xəlifənin hüzurunda kef məclisləri təşkil etmələrini müşahidə etdikdə deyirdi: "Bu işlərdən ötrü məni vəzir təyin edib buraya qoymusan? Gündə beş dəfə cami məscidində (mərkəz məscidində) camaat namazı qıldıqdan sonra şərab süfrəsinin başında oturmağın düzgündürmü?" Müsəlmanların beytül-malı hesabına kef məclisləri keçirməyə adət etmiş pozğun, nədim adamlar Yəqubun bu sözlərinə istehza edib Məhdini badə qaldırmağa cəlb edərək bəzi vaxtlar şerlə deyirdilər ki, Yəqubun sözlərini qulaq ardına vur və gözəl şərabla kefini kökəlt.[1]

Məhdinin belə mövqe tutması İslam cəmiyyətində pozğunluq və əxlaqsızlığın artmasına səbəb olur, Bəşşar kimi şairlərin kef haqqında dedikləri ədəb pərdəsini qırmış şer və qəzəlləri ağızdan-ağıza gəzir və iffət, paklıq xırmanına od vurub yandırırdı. Bunun nəticəsində də hər tərəfdən qeyrətli insanların etiraz sədaları ucalmağa başlayırdı.[2]

Başı öz kefinə qarışan xəlifə camaatın vəziyyətindən tamam xəbərsiz oldu. Bunun nəticəsində də, fəsad, rüşvətxorluq baş alıb getdi, vergi müffəttişləri camaatı həddən artıq sıxışdırmağa başladılar. Xəlifənin özü də, camaatı sıxışdırmağa başlayaraq ilk dəfə olaraq Bağdad bazarlarına vergi qoyur.[3] Əkinçilərin vəziyyəti olduqca ağırlaşır və çətinlik hamını hiddətə gətirir.[4]

## Həzrət Əli əleyhissəlamın nəslindən olanlara qarşı həddən artıq təzyiqlər

Məhdinin rəftarı atası Mənsurdan müxtəlif cəhətlərə görə fərqlənirdi. Ancaq onların hər ikisinin müştərək bir cəhəti var idi ki, o da hər ikisinin Ələvilərə (Əli əleyhissəlamın nəslindən olanlara) qarşı həddən artıq təzyiq göstərməsi idi. Məhdi də Mənsur kimi Bəni-Haşimə qarşı olunan təzyiqlərdə əlindən gələni əsirgəmir, hətta bəzi vaxtlar onları Mənsurdan da çox təzyiqlərə məruz qoyurdu. Əli əleyhissəlamın övladlarını hər an öz hökuməti üçün təhlükə hesab edən Məhdi onların başçılığı ilə olan hər hansı bir etirazın qarşısını almağa çılışırdı. O, şiəçiliyə yönəlmə və Ələvi rəhbərləri ilə həmkarlıq etməyə qarşı ciddi mübarizə aparırdı. Tarixçilər yazırlar: "Qasim ibn Məcaşi Təmimi ölərkən bir vəsiyyətnamə yazıb xəlifəyə izmalatdırmaq üçün Məhdinin yanına göndərir. Məhdi vəsiyyətnaməni oxumağa başlayır. Elə ki Qasimin Allahın təkliyinə və İslam Peyğəmbərinin Peyğəmbərliyinə etirafından sonra Əli əleyhissəlamı İmam və Peyğəmbərin (səlləllahu əleyhi və alih) canişini kimi tanıması cümləsinə çatır, vəsiyyətnaməni yerə tullayıb onu axıra qədər oxumur.[5]

---

[1] Əl-Kamilu fit-tarix, c.6, səh.73.
[2] Həyatül-imam Musa ibn Cə'fər (əleyhissəlam), c.1, səh.436.
[3] Tarixi-Yə'qubi, c.3, səh.137.
[4] Həyatül-imam Musa ibn Cə'fər (əleyhissəlam) c.1, səh.442.
[5] Əl-Kamilu fit-tarix, c.6, səh.84.

## Quranda şərabın haram edilməsi

Məhdinin şiəçiliyə qarşı güclü mübarizəsinə dair başqa bir nümunə, onun Mədinədə İmam Kazim (əleyhissəlam) ilə söhbətidir. Məhdi xəlifə olduğu illərin birində Mədinə şəhərinə gəlib Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrini ziyarət etdikdən sonra İmam Kazim əleyhissəlamla görüşüb öz fikrində o Həzrətin elmini yoxlamaq məqsədilə, Quranda şərabın haram edilməsi məsələsini ortaya atıb soruşdu: "Şərab Quranda haram edilibmi?" Daha sonra əlavə edib dedi: "Camaatın əksəriyyəti şərabın Quranda qadağan olunmasını bilir, ancaq bu qadağanın mənasının haram olduğunu bilmir."

İmam Kazim (əleyhissəlam) buyurdu: "Bəli, şərabın haram olması Quranda açıq-aşkar buyurulmuşdur."

— Quranın harasında?

— Allahın (Peyğəmbərə xitab edərək) buyurduğu ***"De ki: Rəbbim yalnız aşkar və gizli alçaq işləri [zina etmək, lüt gəzmək və s.], hər cür günahı, haqsız zülmü... haram buyurmuşdur."***[1] ayəsində.

İmam Kazim (əleyhissəlam) bu ayədə digər haram buyurulmuş şeylər barədə danışdıqdan sonra buyurdu: "Allahın bu ayədə haram buyurduğu "hər cür günah" ifadəsindən məqsədi şərabdır. Çünki Allah Özü başqa bir ayədə buyurur: ***[Ya Məhəmməd!] Səndən içki və qumar haqqında sual edənlərə söylə: "Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət (dünya mənfəəti) vardır. Lakin günahları mənfəətindən daha böyükdür."***[2] "Əraf" surəsində açıq-aşkar haram buyurulmuş "hər cür günah" ifadəsi "Bəqərə" surəsində şərab və qumara aid edilmişdir. Buna əsaslanıb deyirik ki, şərab Quranda açıq-aşkar haram buyurulmuş və qadağan olunmuşdur." Məhdi, İmam Kazim əleyhissəlamın bu istinad və sübutuna heyran qalıb ixtiyarsız olaraq (orada olan) Əli ibn Yəqtinə dedi: "And olsun Allaha ki, bu, Haşimi fətvasıdır." (Yəni bu, Bəni-Haşim tayfasından olan şəxsin fətvasıdır, bu cür fətvanı yalnız Bəni-Haşimdən olanlar verə bilərlər.[3]) Əli ibn Yəqtin də, öz növbəsində dedi: "Sizə - Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinə belə elm vermiş Allaha şükr olsun!"

Məhdi, Əli ibn Yəqtinin bu cavabından narahat olub öz qəzəbini güclə boğduğu bir halda dedi: "Ey rafizi, düz deyirsən![4] "

## 2. Hadi Abbasi

Hicrətin yüz altımış doqquzuncu ili İslam tarixi üçün böhranlı, qaranlıq, qeyri-sabit və qəmli bir il olmuşdur. Çünki həmin il Məhdi Abbasinin ölümündən sonra onun kefcil, xam və məğrur oğlu Hadi Abbasi hakimiyyətə gəlir. Onun hakimiyyət dövrü İslam cəmiyyəti üçün baha başa gələn acı hadisələr dövrü olmuşdur.

---

[1] "Ə'raf" surəsi, ayə 33.

[2] "Bəqərə" surəsi, ayə 219.

[3] Ola bilsin Məhdinin bu cür deməkdən məqsədi bu olub ki, Bəni–Haşimlə Bəni–Abbas arasındakı qohumluq nəticəsində imam Kazim əleyhissəlamın bu elmi onun üçün də fəxrdir.

[4] Əl-Furu'u min əl-kafi, c.6, səh.406. Sünnilər şiələri rafizi adlandırdığı üçün Məhdi də Əli ibn Yəqtinə belə deyir.

Hadinin atasının yerinə keçməsi heç də təzə məsələ deyildi. Çünki hələ uzun müddət ondan əvvəl İslam hökuməti zalım xəlifələr tərəfindən irsi rejimi (mütləq monarxiya) şəklinə düşərək Əməvi və Abbasi xəlifələri arasında fırlanmış, camaatın acı və məcburi sükutunu ardınca daşıyan hakimiyyətin bu yolla dəyişilməsi adi bir hala çevrilmişdi. Təkcə təzə olan bir məsələ müsəlmanların taleyinin Hadi kimi xam, səlahiyyətsiz və kefli bir gənc adama tapşırılması idi. O, hakimiyyət başına gələrkən hələ iyirmi beş yaşı tamam olmamış,[1] çox məsuliyyətli xəlifəlik və İslam məmləkətinin idarəçilik məqamını ələ keçirməyə qətiyyən səlahiyyəti yox idi. O, şərabxor, dardüşüncəli, laqeyd bir gənc olduğuna görə hakimiyyətə gəldikdən sonra da, qabaqkı işlərini tərk etmədi. O, hətta xəlifəliyin zahiri qayda-qanunlarına da əməl etmirdi.[2] Üstəlik daşürəkli, tərbiyəsiz, əzazil və nadürüst adam idi.[3]

Hadi Abbasilər sarayının pozğun mühitində tərbiyə almış və belə bir özünüsevər, zalım və mənəm-mənəm deyən rejimin "südünü əmmiş"di. Belə tərbiyə nəticəsində əgər xəlifəlik məqamı ona çatmasaydı, o da fikri-zikri ancaq kef ardınca olan, mənəm-mənəm deyən, lakin kütbeyin gənclərin sırasında olardı.

## Eyş-işrət məclisləri

Hadi atasının hakimiyyəti dövründə qardaşı Harunla birgə bəzi xanəndələri müsəlmanların beytül-malı hesabına təşkil etdiyi eyş-işrət məclislərinə çağırtdıraraq şərab içmək və kef çəkib əylənməklə məşğul olurdular. O, bu işdə o qədər ifrata varmışdı ki, bəzi vaxtlar atası Məhdi buna dözə bilməyib Hadinin xoşladığı xanəndələri danlayırdı.[4] Hətta bir dəfə o dövrün məşhur xanəndəsi İbrahim Museli Hadinin məclisində iştirak etməkdən çəkindirmiş, Hadi israr etdikdə, İbrahimi tutub həbs etdirmişdi.[5] Atasının hakimiyyəti dövründə bəzi vaxtlar pis hərəkətlərinə görə atasının müxalifətçiliyi ilə üzləşən Hadi hakimiyyətə gəldikdən sonra açıq-aşkar əyyaşlıq edir və müsəlmanların ümumi beytül-malını gecələr eyş-işrət məclislərinə sərf etməyə başlayır. Tarixçilərin dediyinə görə, Hadi, İbrahim Muselini saraya dəvət edərək saatlarla onun mahnılarına qulaq asardı. Hadi, İbrahimi çox istədiyindən ona həddən artıq pul, mal-dövlət vermişdi. Hətta bir dəfə İbrahim xəlifədən yüz əlli min dinar pul almışdı. İbrahimin oğlu deyirdi: "Əgər Hadi bundan çox yaşasaydı, biz evimizin divarlarını da qızıl-gümüşdən düzəltdirərdik."[6] Bir gün İbrahim Museli Hadi üçün bir neçə mahnı oxuyub onu bərk həyəcanlandırdı. Hadi onu alqışlayıb mahnını bir neçə dəfə təkrar etməsini istədi. Məclis qurtardıqdan sonra Hadi xidmətçilərdən birinə dedi ki, İbrahimi beytül-malın xəzinəsinə aparsın, o, (müsəlmanların ümumi malından) nə qədər istəsə, götürsün, əgər bütün beytül-malı götürmək istəsə də, onu azad buraxsın.

[1] Mürucuz-zəhəb, c.3, səh.324.
[2] Yenə orada, səh.325.
[3] Tarixül-xüləfa, səh.279.
[4] Əl-Kamilu fit-tarix, c.6, səh.102.
[5] Əl-Əğani, c.5, səh.160.
[6] Əl-Əğani, c.5. səh.163.

İbrahim deyir ki, mən beytül-malın xəzinəsinə girib yalnız əlli min dinar pul götürdüm.[1]

Hadinin bu cür hərəkətlərindən məlum idi ki, o, ağır məsuliyyəti olan İslam cəmiyyətini idarə etməyin öhdəsindən gəlməyəcək. Məhz buna görə də, onun hakimiyyəti dövründə əvvəl-əvvəl bir az sakit olan və bütün vilayətləri mərkəzi hökumətə tabe olan İslam məmləkəti, Hadinin alçaq və şəriətdən kənar hərəkətləri nəticəsində əxlaqsızlıq və pozğunluqlara məruz qaldığı üçün nəhayət, hər tərəfdən ümumi etiraz sədaları ucalmağa başlayır. Düzdür, bu etirazlara bir çox amillər səbəb olmuşdu, lakin camaatın etirazına səbəb olan ən əsas amil Hadinin Bəni-Haşim və Əli əleyhissəlamın övladlarına qarşı ciddi təzyiqi idi. O, elə hakimiyyətə gəldiyi ilk çağlardan Bəni-Haşimdən olanları ciddi təzyiqlərə məruz qoyub atası Məhdinin dövründən onlar üçün beytül-maldan ayrılmış hüququ kəsdi. Həmçinin, onları təqib edərək onlarda bərk qorxu yaratmış və əmr vermişdi ki, onları harada tutsalar, Bağdada göndərsinlər.[2]

## Qanlı Fəxx faciəsi

Bu təzyiqlər Bəni-Haşimin cəsur və igid kişilərini qəzəbləndirib onları zalım Abbasi hökumətinin aramsız və sərt yürüşlərinə qarşı müqavimət göstərmək məcburiyyətində qoyur. Bu özbaşnalığa cavab olaraq yavaş-yavaş Abbasi hökumətinə qarşı İmam Həsən əleyhissəlamın nəvələrindən olan Fəxx sahibi[3] (Fəxx şəhidi) Hüseynin rəhbərliyi altında qiyam şöləsi alovlanmağa başlayır. Bu qiyam hələ başlamamış və yalnız həcc mövsümü vaxtı onun başlanması üçün münasib idi. Ancaq Mədinə şəhərinin valisinin ağır təzyiqləri bu qiyamın daha tez başlamasına səbəb oldu. Peyğəmbər (səlləllahu əleyhi və alih) sülaləsinin müxaliflərindən olan Mədinə valisi xilafət mərkəzinə olan sədaqətini və öz vəzifəsini layiqincə yerinə yetirdiyini sübut etmək üçün hər gün Bəni-Haşimin adlı-sanlı şəxsiyyətlərini bir bəhanə ilə incidirdi. O cümlədən, o, bu şəxsiyyətlərdən hər gün şəhərin hökumət binasına gəlib özlərini təqdim etmələrini tələb edir, bununla kifayətlənməyib onlardan birini digərinin gəlməsinə zamin edir və biri oraya gəlmədikdə, onun yerinə zamin durmuş şəxsi incidirdi.[4] Bir gün Mədinə valisi Fəxx şəhidi Hüseyn və Yəhya ibn Abdullahı Bəni-Haşim böyüklərindən birinin hökumət binasına gəlmədiyi üçün tutub əziyyət verərək girov götürür. Onun bu hərəkəti barıt anbarına vurulmuş od kimi alovlanıb Haşimilərin qəzəblənməsinə, bunun nəticəsində də, onların qiyamının vaxtından tez başlayıb Mədinədə döyüş yaratmasına səbəb oldu.

## Fəxx şəhidi kimdir?

Qeyd etdiyimiz kimi bu hərəkata “Fəxx şəhidi” adı ilə tanınmış Hüseyn ibn Əli – İmam Həsən əleyhissəlamın nəvəsi başçılıq edirdi. O, Bəni-Haşim tayfasının

---

[1] Əl-Əğani, c.5.

[2] Tarixi-Yə’qubi, c.3, səh.142.

[3] Hüseyn İmam Həsən əleyhissəlamın nəvələrindən olub Məkkədən altı mil aralıda yerləşən Fəxx məntəqəsində Abbasi xəlifəsinin qoşunu ilə mübarizədə öldürüldüyü üçün Fəxx şəhidi, yaxud Fəxx sahibi ləqəbi ilə məşhur olmuşdur.

[4] Tarixül-üməmi vəl-mülük, c.10, səH.25.

seçilmiş, fəzilətli, cəsur və hörmətli kişilərdən biri olub təqvalı, səxavətli və yüksəkməqamlı bir şəxs idi. Hüseyn ibn Əli yüksək insani sifətlər baxımından tanınmış və seçilmiş simalardan biri hesab olunurdu. O, öz yüksək insani sifətləri sayəsində "zövci-saleh" ləqəbi ilə tanınmış pak, təqvalı və fəzilətli ata-anadan dünyaya gəlmiş, fəzilət, təqva və hünər ailəsində tərbiyə almışdır. Onun atası, dayısı, babası, anasının əmisi və digər yaxın qohumları Mənsur Dəvaniqinin əmri ilə şəhadətə yetirilmiş, İslam düşmənləri ilə mübarizədə neçə-neçə oğlunu qurban vermiş bu böyük ailə əbədi və dərin qəm dəryasına qərq olmuşdu.[1] Belə bir ailənin tərbiyəsini görmüş Hüseyn (Fəxx şəhidi) Mənsurun cəlladları tərəfindən qətlə yetirilmiş atasının və digər qohumlarının ölümünü heç vaxt unutmur, onların şəhadət xatirəsi onun Abbasilərə qarşı ziddiyyətlə dolu olan böyük və qorxmaz ruhunu bərk narahat edirdi. Ancaq vəziyyət və şəraiti münasib olmadığından, o, zillətli sükuta məcbur idi.

Hadi Abbasinin, xüsusən də, Mədinə hakiminin özbaşınalıqları ürəyi dağlanmış Hüseynin səbr kasasını doldurmuş, onu Hadinin hökumətinə qarşı qiyam etmək astanasına gətirib çıxarmışdı.

## Hərəkatın məğlubiyyəti

Hüseyn qiyam edən kimi Bəni-Haşim tayfasının və həmçinin, Mədinə camaatının böyük əksəriyyəti ona beyət edib Hadinin qüvvələrinə qarşı mübarizə etməyə başladı. Hadinin Mədinədəki qoşununu geri oturtduqdan sonra bir neçə gün fasilə verib yeni qüvvələr topladı. O, müsəlmanların həcc mövsümündə Məkkəyə yığışmasından istifadə edib bu şəhəri hərəkatın mərkəzi qərar verərək mübarizəni daha da genişləndirmək məqsədilə Məkkəyə tərəf hərəkət etdi. Mədinədəki döyüşün və Hüseynin ordusunun Məkkəyə tərəf hərəkət etməsini Hadiyə çatdırdıqda, o, onlara qarşı vuruşmaq üçün bir ordu göndərdi. Fəxx adlı yerdə iki ordu bir-biri ilə üzləşdi və qızğın döyüş baş verdi. Döyüş zamanı Hüseyn və Bəni-Haşim tayfasının adlı-sanlı şəxslərindən bir neçəsi şəhid oldu. Hüseynin ordusunun bir hissəsi dağıldı və bir hissəsi də, əsir düşərək Bağdada gətirilib qətlə yetirildi.

Onları öldürməklə kifayətlənməyən cəlladlar cənazələri basdırmayıb başları bədənlərdən ayıraraq Hadinin hüzuruna göndərdilər. Bəzi tarixçilərin dediyinə görə edam olunanların sayı yüz nəfərdən artıq idi.[2]

Fəxx şəhidinin məğlub edilməsi çox acı və kədərli bir facİə idi. Bu faciə bütün şiələrin, xüsusən də, Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin qəlbini bərk yaraladı və yaddaşlarda bir daha Kərbəla faciəsini xatırlatdı.

Bu faciə o qədər ürəkağrıdıcı və fəlakətli idi ki, İmam Cavad (əleyhissəlam) (İmam Məhəmməd Təqi (əleyhissəlam)) bu hadisədən neçə il keçdikdən sonra buyurmuşdur: *"Kərbəla faciəsindən sonra bizim üçün heç bir faciə Fəxx faciəsi kimi dəhşətli olmamışdır."*[3]

---

[1] Məqatilüt-talibin, səh.285.
[2] Əl-Kamilu fit-tarix. c.6, səh.93.
[3] Biharül-ənvar, c.48, səh.165.

## Yeddinci İmam və Fəxx şəhidi

Bu faciə heç də İmam Kazim əleyhissəlamla əlaqəsiz olmamışdır. Çünki İmam Kazim (əleyhissəlam) bu mübarizənin yaranmasından təşəkkül tapana qədər nə təkcə ondan xəbərsiz olmamış, hətta Fəxx şəhidi Hüseynlə sıx əlaqədə olmuşdur. İmam Kazim əleyhissəlamın qiyamın məğlub ediləcəyini qabaqcadan bilməsinə baxmayaraq, o, Hüseynin öz məqsədi uğrunda möhkəm durduğunu gördükdə ona buyurur: *"Baxmayaraq ki sən şəhid olacaqsan, ancaq cihad və mübarizədə yenə möhkəm ol! Bunlar (xəlifə və onun ordusu) çox pis adamlardır. Zahirdə özlərini imanlı göstərir, həqiqətdə isə heç bir əqidə və imanları yoxdur. Bu yolda mən sənin əcr və savabını Allah-taaladan istəyirəm."*[1]

Digər tərəfdən də, Hadi Abbasi, İmam Kazim əleyhissəlamın Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin ən böyük şəxsiyyəti olmasına və Bəni-Haşimin digər şəxsiyyətlərinin onun məsləhətlərindən ilham aldığını bildiyi üçün Fəxx faciəsindən sonra bərk əsəbləşdi. Ona görə ki, onun fikrincə pərdə arxasında olsa da, bəzi cəhətlərdən bu əməliyyata İmam Kazim (əleyhissəlam) başçılıq etmişdir. Buna görə də, o, Həzrəti ölümlə hədələyib dedi: "And olsun Allaha, Hüseyn (Fəxx şəhidi) Musa ibn Cəfər əleyhissəlamdan göstəriş alaraq mənə qarşı mübarizəyə qalxıb ona itaət etmişdir. Çünki bu tayfanın (Bəni-Haşimin) başçı və İmamı məhz Musa ibn Cəfər əleyhissəlamdır. Əgər mən onu sağ qoysam, Allah məni öldürsün!"[2]

Bu təhdidlərə İmam Kazim (əleyhissəlam) soyuqqanlı yanaşsa da, Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsi, şiələr və o Həzrətin tərəfdarları çox qorxuya düşdülər. Ancaq Hadi öz çirkin məqsədini həyata keçirməmiş ömrü sona yetdi və onun ölüm xəbəri Mədinədə sevinc və fərəh ruhiyyəsi yaratdı.

## 3. Harun ər-Rəşid

Əsrlərlə İslam adı altında müsəlmanlara hakim kəsilmiş Əməvi və Abbasi xəlifələri öz hakimiyyət dayaqlarını möhkəmlətmək və camaat arasında nüfuzlarını artırmaq üçün qəlblərə mənəvi nüfuz tapıb camaatın yanında etimadlarını doğrultmaq fikrində idilər ki, bəlkə bu yolla müsəlmanlar onların hakimiyyətini sidq ürəkdən qəbul edib onlara itaət etməyi özlərinə şəri bir vəzifə bilsinlər. Əqidə, zor gücü ilə yaradılası, yaxud da aradan aparılası bir şey olmadığından, onlar mənəvi nüfuz tapmaq üçün aldadıcı yollardan istifadə etmək məcburiyyətində qalmışdılar. Bu sahədə zahiri nöqteyi-nəzərdən Abbasilərin bəxtləri gətirmiş və əllərində bir bəhanələri var idi ki, bu da onları Əməvilərdən tamamilə fərqləndirirdi. O da onların İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) ilə olan qohumluq əlaqələri idi. İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) əmisinin (Abbas ibn Əbdülmüttəlibin) nəslindən olan Bəni-Abbas sülaləsi Peyğəmbərlə (səlləllahu əleyhi və alih) olan qohumluqlarından təbliğ cəhətində istifadə edib özlərini xəlifəlik məqamının varisi hesab edirdilər. Buna baxmayaraq, onların bu qədər apardığı təbliğat şiə məzhəbinin pak İmamları qarşısında çox təsirsiz idi. Çünki əvvəla, xəlifəlik məsələsində varis olmaq məsələsi nəzərə alınmır və ən əsas şey rəhbər və xəlifənin öz səlahiyyəti,

---

[1] Biharül-ənvar, c.48. səh.169.

[2] Biharül-ənvar, c.48. səh.151.

paklığı və əzəmətidir. İkincisi, lap xəlifəlik mövzusunda varis olmaq nəzərə alınsa da, yenə Əli əleyhissəlamın övladları hamıdan üstündürlər. Çünki onlar Peyğəmbərə (səlləllahu əleyhi və alih) daha yaxın olublar. Həm şəxsi ləyaqətləri olan, həm də Peyğəmbərə (səlləllahu əleyhi və alih) daha yaxın olan şiənin məsum İmamları həmişə camaatın nəzərində olmuş, camaat daima onlara hörmət etmişdir. Əməvi və Abbasi xəlifələrinin mənəvi nüfuz tapmaları üçün apardıqları səylərə baxmayaraq, tarix göstərmişdir ki, ümumi məhəbbətin ölçüsü həmişə İmamların tərəfində olmuşdur.

## Qəlblərə hakim olmaq

Bu məsələ Abbasi xəlifələri arasında hamıdan çox Harun ər-Rəşidin dövründə özünü göstərmişdir. Hökumət dairəsinin bu qədər genişliyi və həmçinin, imkanlarının çox olmasına baxmayaraq, qəlblərin hələ də, İmam Museyi-Kazim əleyhissəlamla olmasını bilən Harun bu məsələdən çox narahat olur və o Həzrətin mənəvi nüfuzunun azalması üçün gizli hiylələrini işə salırdı. "Camaat öz xüms-zəkatını gizli şəkildə Musa ibn Cəfər əleyhissəlama verir və bu hərəkət ilə həqiqətdə onun xəlifə olduğunu rəsmiyyətlə tanımış, Abbasi hökumətini isə qeyri-qanuni hökumət bilir" - xəbərinin hər gün Haruna çatdırılması onun üçün dözülməz idi. Elə buna görə də, Harun bir dəfə İmam Kazim əleyhissəlamı Kəbənin kənarında gördükdə, ona deyir: "Camaatın gizlicə beyət edib rəhbər bildikləri şəxs sənsən?" İmam Kazim (əleyhissəlam) buyurdu: "Mən camaatın qəlb və ruhuna hakiməm, sən isə onların quru bədənlərinə hakimsən."[1]

## Peyğəmbər övladı kimdir?

Yuxarıda qeyd etdik ki, Harun Peyğəmbərlə (səlləllahu əleyhi və alih) olan qohumluq əlaqəsinə açıq-aşkar arxalanıb yeri gəldikcə ondan istifadə edirdi. O, bir gün Mədinə şəhərinə gəlib Peyğəmbər (səlləllahu əleyhi və alih) məzarının ziyarətinə gedir. Orada Qüreyş və digər qəbilələrdən çoxlu sayda adam toplaşmışdı. Harun Peyğəmbərin (səlləllahu əleyhi və alih) hərəminə çatdıqda, üzünü o Həzrətin müqəddəs məzarına tutub dedi: "Salam olsun sənə, ey Allahın Peyğəmbəri! Salam olsun sənə, ey əmi oğlu!" O, camaatın arasında Peyğəmbərlə (səlləllahu əleyhi və alih) əmioğlu olduğunu camaata eşitdirib bilərəkdən bununla fəxr edir və istəyirdi ki, qoy camaat xəlifənin Peyğəmbərlə (səlləllahu əleyhi və alih) əmioğlu olduğunu bilsin. Bu zaman camaatın arasında olan İmam Kazim (əleyhissəlam) Harunun bu fikrini başa düşüb Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinə yaxınlaşaraq uca səslə buyurur: *"Salam olsun sənə, ey Allahın Peyğəmbəri! Salam olsun sənə, ey ata!"* Harun bu sözdən bərk qəzəbləndi. Belə ki, rəngi dəyişib ixtiyarsız olaraq dedi: "Doğrudan da bu bir şərəfdir."[2]

O, təkcə Peyğəmbərlə (səlləllahu əleyhi və alih) olan qohumluq əlaqəsini camaata çatdırmaqla kifayətlənmir, üstəlik İmamların Peyğəmbər (səlləllahu əleyhi və alih) övladı olmalarını da, bir vasitə ilə inkar etmək istəyirdi. O, bir gün İmam Kazim əleyhissəlama dedi: "Siz Əlinin övladları olduğunuz bir halda, nəyə görə Peyğəmbər

---

[1] Əs-Səvaiqül-mühriqə, səh.204.
[2] Əl-İrşad, səh.298.

(səlləllahu əleyhi və alih) övladı olduğunuzu iddia edirsiniz? Çünki hər bir şəxs ana babasına deyil, ata babasına nisbət verilir." İmam Kazim (əleyhissəlam) onun cavabında aşağıdakı ayəni qiraət etdi: ***"Biz İshaqı və Yəqubu ona əta etdik. Onların hər birini hidayətə [peyğəmbərliyə] çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri [yaxşılıq edənləri] belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da [hidayətə çatdırdıq]. Onların hamısı əməlisalehlərdən idi."***[1] İmam Kazim (əleyhissəlam) sonra əlavə edib buyurdu: "Bu ayədə İsa (əleyhissəlam) keçmiş böyük peyğəmbərlərin övladlarından hesab olunub, halbuki, onun atası olmamış və yalnız anası Məryəmin vasitəsilə peyğəmbərlərə qohumluq əlaqəsi çatır. Deməli, bu ayəyə əsasən, qız tərəfdən olan uşaqlar da övlad sayılır. Biz də anamız Fatimə vasitəsilə Peyğəmbərin (səlləllahu əleyhi və alih) övladları hesab olunuruq."[2]

Harunun belə məntiqi bir sübutun qarşısında sükut etməkdən başqa çarəsi qalmadı.

İmam Kazim əleyhissəlamın Harunla buna bənzər başqa bir ətraflı mübahisəsində Harun o Həzrətə deyir ki, nəyə görə sizi Əli əleyhissəlamın övladları yox, Peyğəmbərin (səlləllahu əleyhi və alih) övladları adlandırırlar? İmam Kazim (əleyhissəlam) onun cavabında buyurur: "Əgər Peyğəmbər (səlləllahu əleyhi və alih) dirilib sənin qızınla evlənmək istəsə, qızını ona verərsənmi?" Harun dedi: "Nə təkcə qızımı verərəm, hələ üstəlik bu qohumluğu bütün ərəb və qeyri-ərəb arasında özümə böyük bir fəxr bilərəm."

İmam Kazim (əleyhissəlam): "Ancaq bu məsələ mənə aid edilə bilməz. Nə Peyğəmbər mənim qızımı istəməz, nə də mən qızımı ona vermərəm."

Harun: "Nəyə görə?"

İmam Kazim (əleyhissəlam): "Çünki mən özüm onun nəslindənəm və bu evlənmə haramdır. Ancaq sən onun nəslindən deyilsən."

Harun: "Afərin, tamamilə doğrudur!"[3]

## Bu saray kimindir?

Bir gün İmam Kazim (əleyhissəlam) Harunun Bağdaddakı böyük və təm-təraqlı saraylarından birinə daxil olur. Öz qüdrət və hökumətinə uymuş Harun sarayını göstərərək təkəbbürlə soruşdu: "Bu saray kimindir?" Harunun bu cür deməkdən məqsədi qüdrət və imkanatını İmama göstərmək idi. İmam Kazim (əleyhissəlam) Harunun bər-bəzəkli sarayına heç bir əhəmiyyət vermədən son dərəcə cəsarətlə buyurdu: "Bu ev fasiqlərin evidir. Hansı ki, Allah-taala onların haqqında buyurur: ***"Yer üzündə haqsız yerə [layiq olmadıqları halda] təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam [mane olacağam]. Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır."***[4]

---

[1] "Ən'am" surəsi, ayə 84-85.
[2] Nurul-əbsar, səh.149.
[3] Biharül-ənvar, c.48. səh.127.
[4] "Ə'raf" surəsi, ayə 146.

Harun bu cavabdan bərk narahat olub öz qəzəbini güclə boğub qızarmış halda soruşdu: “Onda bu ev kimindir?” İmam Kazim (əleyhissəlam) buyurdu: “(Əgər həqiqəti bilmək istəyirsənsə) bu ev bizim şiələrimizindir, ancaq başqaları zorla onu qəsb edib sahibi olmuşlar.”

Harun: “Əgər bu ev şiələrindirsə, bəs, onda nə üçün evin (əsl) sahibi onu tələb etmir?”

İmam Kazim (əleyhissəlam):“ Bu ev əsl sahibindən abadlıq dövründə alınmışdır, indi onun sahibi nə vaxt onu abad etmək iqtidarında olsa, onu yenidən geri alacaq.”[1]

## Harun – neçəüzlü insan

Hər bir insanın əxlaqi dəyərlər və düşüncə tərzi cəhətindən özünəməxsus mövqeyi vardır. Onun əxlaqi xüsusiyyətlər və rəftarı özünəməxsus siması kimi müəyyən bir şəxsin rəftarından xəbər verir. Ancaq bir sıra insanlar vardır ki, tərbiyə çatışmazlığı və ya başqa səbəblər üzündən ruhi ziddiyyətə malik olub öz şəxsiyyət və təfəkküründə bəzi uyuğunsuzluqlar yaradır. Bu cür şəxslər şəxsiyyət baxımından heç də təkşəxsiyyətli adamlar deyillər, əksinə, onlar iki şəxsiyyətli, ikiüzlü və hətta bir neçə şəxsiyyətli, bir neçə üzlü adamlardır. Elə buna görə də, bəzi hallarda onlar insanı təəccübləndirən ziddiyyətli hərəkətlər edirlər. Belə bir ziddiyyəti ilk baxışdan qəbul etmək bir az çətindir, ancaq bəşərin xüsusiyyətlərinə nəzər saldıqda, məlum olur ki, nəinki bu iş mümkündür, hətta bir çoxları bu cür xüsusiyyətlərə malikdirlər. Müasir dövrümüzdə psixoloqların kitablarında oxuyuruq: “...İnsan çox asanlıqla yalançı, qeyri-sabit və odlu həvəslərinin hissiyatının qurbanı ola bilər. Yəni, çox mehriban olduğu halda məhəbbətsiz, düzgün və sadiq olduğu halda yalançı, riyakar olmadığı bir halda riyakar olub özünü belə, aldada bilər. Bunlar bir-birinə zidd olan elə xüsusiyyətlərdir ki, nə təkcə bunların hamısı insanda ola bilər, hətta bunlar insan ruhunun “agah” və “xəbərsiz” hisslərinin xüsusiyyətlərindəndir.”[2]

Bu cür şəxslər yalançı və bir-birinə zidd olan xüsusiyyətlərə malik olduqlarından rəftarları bir-birilə ziddir; eyş-işrət pərəstişkarı olduqları halda, bir də görürsən ki, zahid və sufilik həyatı sürməyə başlayır, təfəkkürünün yarısı din təlim-tərbiyəsi altında olduğu bir halda, təfəkkürün digər bir hissəsi maddi və ləzzət aləmində cövlan vurur. Məscidə yolları düşdükdə abidlər sırasında durur, şərab məclisinə gəldikdə isə boğazlarını yaşlayırlar. Bir tərəfdə zülm və haqsızlığın həddini aşır, başqa bir tərəfdə isə rəhmlə dolu göz yaşı axıdırlar.

Tarixdə bu cür neçəüzlü (simasız) insanlardan nümunə çoxdur. Onlardan biri də Harun ər-Rəşiddir.

Sarayda doğulub boya-başa çatan Harun uşaqlıq çağlarından eyş-işrət, keflə ünsiyyətdə olmuş, təbii ki, bunun da nəticəsində onda eyş-işrətə meyli daha çox olmuşdur. Digər tərəfdən də, İslam ölkəsinin mühiti və eləcə də, onun tutduğu mövqeyi onun müsəlman olub İslam qayda-qanunlarına əməl etməsini tələb edirdi. Buna görə də, onun həyatı yaxşılıq və pisliklə, gözəllik və çirkinliklə qarışıq bir məcmuə təşkil edirdi. Onun bir sıra təəccüblü, bir-birinə zidd olan və çox az

[1] Biharül-ənvar, c.48, səh.138.
[2] Simaların digər tərəfi, səh.31.

adamlarda tapılan xüsusiyyətləri var idi. Zülm və ədalət, mərhəmət və qəddarlıq, iman və küfr, barışma və əzazillik kimi sifətlər onda üzvi surətdə birləşmişdilər. O, bir tərəfdən zülmdən heç bir qorxusu olmadan istifadə edərək pak və günahsız insanları, xüsusilə, İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) cəsur övladlarının qanını axıdır, digər tərəfdən isə alimlərin nəsihətlərini dinlədikdə Qiyamətin fikrinə düşərək möhkəmcə ağlayırdı. O, həm namaz qılır, həm də şərab içərək eyş-işrətlə məşğul olurdu. Alimlərin nəsihətlərini dinlədikdə hamıdan abid və zahid kimi nəzərə çarpırdı. Xilafət kürsüsünə oturub ölkənin idarəsi ilə məşğul olduqda isə Neron və Çingizdən heç də geri qalmırdı. Tarixçilər yazırlar: "Bir gün Harun öz dövrünün təqvalı və pak şəxslərindən olan Füzeyl ibn Əyazın görüşünə gedir. Füzeyl öz ağır sözləri ilə onu çirkin işlərinə görə danlayıb zalımların intizarında olan Allah əzabı ilə qorxutdu. Harun bu nəsihətləri dinlədikdə, o qədər ağladı ki, huşunu itirdi. Özünə gəldikdən sonra yenidən Füzeylə dedi ki, ona nəsihət versin. Füzeyl neçə dəfə nəsihətlərini tərkrarlayır, hər dəfə də Harun huşunu itirirdi. Sonra Harun bu işinə görə Füzeylə min dinar verib dedi ki, lazım olan yerlərə xərcləsin. Harun bu hərəkəti ilə öz ikiüzlülüyünü açıq-aşkar nümayiş etdirirdi. Çünki onun fikrincə Allahın qorxusundan ağlayaraq bihuş olduqdan sonra yenə istədiyin işi çəkinmədən görə bilərsən.

Harunun iki min azyaşlı kənizi var idi ki, bunların da üç yüzü yalnız çalıb-oxumaq, rəqs etməyə məxsus idilər.[1] Rəvayət edirlər ki, bir dəfə o, əyləncə məclisinə gəldikdə əmr edir ki, məclisdəkilərin başına üç milyon dirhəm pul səpsinlər. Başqa bir əyləncə məclisinə gəldikdə özü ilə oraya gətirdiyi xanəndəni Misirə hakim təyin edir.[2]

Harun bir dəfə bir kənizi yüz min dinara, başqa bir kənizi otuz altı min dinara almış, lakin ikincini yalnız bir gecə saxladıqdan sonra sarayda olanlardan birinə bağışlamışdı. Onun o kənizi həmin şəxsə nə üçün bağışladığını isə Allah bilir.[3] Şübhəsiz ki, Harun boş yerə xərclədiyi bu pulların hamısını müsəlmanların beytül-malından götürürdü. Çünki onun babası Mənsurun hakimiyyətə gələrkən necə deyərlər heç bir qəpiyi belə olmamışdır. Deməli, boş yerə xərclənən bu pulların hamısı məzlum insanların, ac kəndlilərin əllərinin qabarının və alınlarının tərinin nəticəsi idi.[4] Ancaq Harunun ümumi beytül-mala qarşı etdiyi bu qədər xəyanətlərə baxmayaraq o, yalandan göz yaşı tökür, özünü pak insanlar kimi təqvalı göstərirdi.

## Harunun həqiqi siması

Müasir Misir yazıçısı Əhməd Əmin Harunun (və onun dövründə yaşamış camaatın) eşy-işrətə baş qoşmasını iki səbəblə (biri onun dövründə ümumi rifahın genişlənməsi, digəri isə onun dediyinə görə əvvəlcədən eyş-işrətə meylli olmuş iranlıların Harunun sarayında nüfuz tapması ilə) əlaqələndirdikdən sonra yazır: "Üçüncü səbəb Harunun öz tərbiyəsi ilə əlaqədardır. Mənim fikrimcə o, sərthissiyyatlı bir cavan olmuş, lakin yüz faiz öz hissiyyat və istəklərinə uymamışdır. Eyni zamanda o, möhkəmiradəli bir şəxs idi. O, fitrət və tərbiyə baxımından nizami

[1] İslam mədəniyyətinin tarixi (Corci Zeydan), c.5, səh.162.
[2] İslam mədəniyyətinin tarixi (Corci Zeydan), c.5, səh.173.
[3] İslam mədəniyyətinin tarixi (Corci Zeydan), c.5, səh.163.
[4] İslamda vaizlərin rolu, səh.39.

bir ruhiyyəyə malik olan bir şəxs olmuş, dəfələrlə Şərq və Qərb tərəfə ordu çəkmişdi. Ancaq onun sərtxasiyyətli, möhkəmiradəli, coşub-daşan cavanlıq fikirləri onu müxtəlif simalara salmışdı. Moizə eşidərkən həddən artıq təsirlənir, ucadan ağlamağa başlayır, musiqi eşitdikdə isə elə hala düşürdü ki, heç bir şeyi tanımır və ona məhəl qoymurdu. Onun təşkil etdiyi əyləncə məclisində İbrahim Museli oxuyur, Bərsəvma saz çalıb Zəlzəl dəf vurarkən Harun elə coşurdu ki, son dərəcə cəsarətlə deyirdi: "Ey Adəm! Əgər bu gün sənin balalarından kimlərin mənim məclisimdə iştirak etdiyini görsəydin, çox sevinərdin."[1]

Yavaş-yavaş dini hissiyyat Harunda inkişaf edir, ancaq bunun müqabilində kef-damağ, əyləncələri də artmağa başlayır. Bunun nəticəsində də, o, həm namaz qılır, həm də musiqiyə qulaq asaraq əylənirdi. Onun sərt hissiyyatı müxtəlif cəhətlərə yönəlir, yönəldiyi sahədə də ifrat dərəcəsinə çatırdı. Bərməki sülaləsi onun razılığını cəlb etdiyi zaman onlardan razı qalır, onlara fövqəladə mehribançılıq göstərir və onları ən yaxın adamları sırasına daxil edirdi. Ancaq elə ki onun qəzəbinə düçar olurdular və həsəd aparanlar onun hissiyyatını Bərməki nəslinin əleyhinə təhrik edirdilər, onları məhv edib aradan götürür.

Harun İbrahim Muselinin səsindən (musiqisindən) çox ləzzət aldığı üçün onu alim və qazılar kimi sarayın yaxın adamlarının yerində qərar verir, ancaq bir dəfə də olsun, özünə sual vermirdi ki, müsəlmanların beytül-malını hansı əsasla bu cür şəxslərin cibinə tökür?

Əl-Əğani kitabının müəllifi bu barədə gözəl bir cümlə işlətmiş, həmin cümlədə Harunun qeyri-adi və bir-birinə zidd olan xüsusiyyətlərini çox gözəl şəkildə bəyan etmişdir. Müəllif yazır: "Harun moizə dinlədikdə hamıdan çox ağlayır, qəzəbləndikdə isə ən zalım şəxsə çevrilirdi." Buna görə də, onun dindar bir şəxs olub çoxlu namaz qılmasına, qəzəbləndikdə isə heç bir əsası olmadan günahsız insanların qanını axıtmasına, sonrası gün isə kef məclisinə gedərək özündən getməsinə heç də təəccüblənməməliyik. Bunlar hamısı asanlıqla bir adamda tapılası sifətlərdir.[2]

Dediklərimizdən Harunun əsl və həqiqi siması məlum olur. Ancaq təəssüflər olsun ki, bəzi tarixçilər Harunun rəftar, hərəkət və ruhiyyəsini, idarəçilik sistemini qeyd edərkən həqiqəti gizlədir, bilər-bilməz həqiqətin yalnız yarısını açıqlayır, yarısını isə olduğu haldan başqa cür qələmə verirlər. Halbuki, təhqiqi və bitərəf araşdırma zamanı şəxsin bütün xüsusiyyətləri olduğu kimi qələmə alınmalıdır.

## Harunun hiylələri və onun özünü dindar kimi göstərməsi

Bir neçə səhifə bundan qabaq qeyd etdik ki, Əməvi və Abbasi xəlifələri İslam hökumətini öz yolundan çıxarmaqda və Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsi ilə mübarizədə bir-biri ilə həmfikir olsalar da, onları bir-birindən fərqləndirən bir cəhət də var idi. O da bundan ibarət idi ki, Əməvi xəlifələri (Müaviyə və digər bir-iki xəlifə istisna olmaqla) dini alimlərlə bir o qədər də, əlaqə saxlamır, onların işinə qarışmırdılar. Onlar ancaq ölkədaxili qiyamları yatırtmaq, xarici qələbələr əldə etmək, ölkənin maliyyə işlərini tənzimləmək və bu kimi siyasi işlərə nəzarət edir, İslam

[1] Əhməd Əmin bu hissəni Əl-Əğani kitabından (c.5. səh.241) sitat gətirmişdir.
[2] Zühəl-İslam, c.1, səh.112-113.

alimlərini (adətən) başlı-başına buraxırdılar. Buna görə də, onların hökumətinin dini cəhəti olmamışdır. Ancaq elə ki Əməvi sülaləsi öz yerini Abbasi sülaləsi ilə əvəz etdi, məsələ tamamilə dəyişdi. Hökumət özünə dini cəhət kəsb edir, məzhəbi amillərdən hökumətin xeyrinə istifadə etmək siyasəti və özünü dindar kimi göstərmək, dini alimlərlə əlaqə saxlamaq xüsusən, ilkin Abbasi xəlifələrinin dövründə adət halına çevrilir. Bunun səbəbi o idi ki, Abbasi xəlifələri siyasi rəhbər olmaqla yanaşı camaatın hörmətini qazanmaq üçün həm də özlərini din adamı kimi tanıtdırmaq istəyirdilər.[1] Abbasi xəlifələrinin özlərini dindar kimi göstərib camaatın gözündə dini nüfuz tapmaq məqsədlərinə dair bir çox nümunələr vardır ki, bunlar da onların bu sahədə göstərdikləri səylərin göstəricisidir. Corci Zeydan yazır: “Abbasi xəlifələri, Misrin Fatimi xəlifələri, İspaniyanın Əməvi xəlifələri dini cəhəti saxladıqlarına görə bir çox çətinlikləri həll edə bilmişlər. Məhz bu səbəbə görə Osmanlı imperiyası kimi qeyri-ərəb hökumətlər şəri cəhət daşıdıqları üçün digər hökumətlərdən çox yaşamışlar...”

Bunlar avam camaatın qəlbində yer tapmaqdan ötrü həmişə öz məqamlarını yüksəldərək özlərini Allahın ən yaxın bəndələri, hakimiyyətlərini də Allah tərəfindən seçilmiş hökumət kimi qələmə verirdilər. Corci Zeydan xəlifələrin avam camaat arasındakı yalan təbliğatının nüfuzunu və camaatın bu təbliğata olan inam səviyyəsini qeyd etdikdən sonra əlavə edib yazır: “...İş o yerə çatmışdı ki, camaat deyirdi: Abbasilərin hakimiyyəti İsa Peyğəmbər göydən enənə qədər davam edəcək. Abbasi hökuməti süqut edərsə, günəş batar, yağış yağmaz, bitkilər quruyar. (Corci Zeydanın bu cümlədə işlətdiyi camaat sözündən məqsədi sünnilərdir. Çünki şiələrin əqidəsinə görə həm ilk üç xəlifə, həm Əməvilər, həm də Abbasilər xəlifəlik məqamını qəsb etmiş və buna görə də şiələr onları qəbul etmirlər. (Corci Zeydanın “İslam mədəniyyətinin tarixi” əsərinin mütərcimi Əli Cəvahirkəlamdan.))

Abbasi xəlifələri də bu nankorluğu özlərinə bəyənmişdilər. Hətta böyükdüşüncəli və hakimiyyəti dövründə İslam mədəniyyəti inkişaf etmiş Harunun da bu cür yaltaqlıqlardan xoşu gəlirdi... Əgər İslamın ucalıb inkişaf etdiyi bir dövrdə xəlifə yaltaqlığı bu qədər sevirsə, şübhəsiz ki, fəsad və pozğunluq dövründə mövhumat və xurafat həqiqətin yerini alacaq, yaltaqlar səhnəyə çıxdıqda xəlifə və hakimlər boş sözü əməldən çox sevəcəklər. Məhz bu səbəbə görədir ki, yaltaqlar, öz şəxsiyyətlərini satanlar Abbasi xəlifəsi Mütəvəkkili “Allahın kölgəsi” adlandıraraq deyirdilər: “Bu rəhmət kölgəsi camaatı istidən qorumaq üçün asimanda sərilmiş bir kölgədir.” Digər bir yaltaq şair İbn Hani Fatimi xəlifəsi Əl-Muizzi aşağıdakı şəkildə tərifləyir: “Qəzavü-qədərin təyin etdiyi deyil, sənin istədiyin həyata keçir. Elə isə əmr ver və rəhbərlik et! Sən həqiqətən yeganə yenilməzsən![2] (İstər Allahın əmri olsun, istərsə də xəlifənin.)”

Abbasi xəlifələri arasında Harun qədər bu məsələyə diqqət yetirən və bu cür yaltaqlıqlardan istifadə edən olmamışdır. O çalışırdı ki, bütün hərəkət və işlərinə dini ad versin. Harun bütün cinayət və əyyaşlıqlarının üstünü din adı ilə örtür, hərəni bir bəhanə ilə şəriət çərçivəsinə daxil edirdi. Deyirlər ki, Harun xəlifə olduğu müddətdə

---

[1] Zühəl-İslam, c.2, səh.162-163.
[2] İslam mədəniyyətinin tarixi, c.4. səh.242.

bir dəfə Məkkəyə gedir. Həcc mərasimi zamanı öz xüsusi məsihi həkimi Cəbrail ibn Bəxtişu üçün həddən artıq çox dua edir. Bəni-Haşimdən olanlar bundan çox narahat olurlar. Harun onların "bu şəxs müsəlman deyil, zimmidir, onun üçün dua etmək düzgün deyil" iradlarına belə cavab verdi: "Düzdür, ancaq mənim sağlamlığım onun əlində, müsəlmanların da məsləhəti mənim sağlamlığımdadır. Deməli, müsəlmanların xeyir və məsləhəti onun ömrünün uzun olmasındadır, elə isə onun üçün dua etməyin eybi yoxdur."[1] Harunun bu məntiqi qeyri-adi bir məntiq idi. Onun məntiqinə əsasən, İslam cəmiyyətinin bütün məsləhətləri onda cəmlənmiş və hər şey onun canının qurbanı olmalı idi. Çünki onun gətirdiyi sübuta əsasən, o, təkcə xəlifə deyil, eyni zamanda cəmiyyətdə onun olması vacibi bir məsələ idi. Ola bilsin belə təsəvvür oluna ki, Harun kimi bir şəxsin bütün hərəkət və işlərini düzgünlüyə çıxarmaq din məntiqi ilə çətin bir işdir. Ancaq o, öz dövrünün alçaq və dünyapərəst qazı və fəqihlərini satın almaqla öz işlərinə bəhanə gətirmək üçün meydanı tamamilə açıq qoymuşdu.

## Hökm çıxaran şura

Harunun hiylələrindən və özünü dindar kimi göstərməsinə aid açıq-aşkar nümunələrdən biri Yəhya ibn Abdullahın şəhadət məsələsidir. Yəhya ibn Abdullah İmam Həsən əleyhissəlamın nəvəsi, Bəni-Haşim tayfasının sayılıb-seçilən şəxslərindən və İmam Sadiq əleyhissəlamın səhabələri içində çox diqqət yetirdiyi şəxslərdən biri olmuşdur.[2] Fəxx şəhidi Hüseyn, Abbasi hökumətinə qarşı qiyam qaldırdığı zaman Yəhya onun ordusunda olmuş və ordunun əsas sərkərdələrindən biri sayılmışdır. Hüseyn şəhid olub ordusu məğlubiyyətə uğradıqdan sonra o, bir dəstə ilə birlikdə Deyləm şəhərinə gedərək orada fəaliyyət göstərmişdir. Oranın əhalisi onun ətrafına yığışaraq gözə çarpan miqdarda bir ordu yaranmışdı.

Harun Fəzl ibn Yəhya Bərməkini bir ordu ilə Deyləmə göndərir. O, Deyləmə çatdıqdan sonra Harunun göstərişinə əsasən, Yəhya ilə məktublaşıb ona şirin vədlər verərək ona amanda olmaq təklifi verir. Harun və Fəzlin hiylələri nəticəsində öz ordusunun pərakəndə olduğunu görən Yəhya amanda qalmaq təklifini qəbul etmək məcburiyyətində qalır. Harun bir neçə adlı-sanlı şəxsləri şahid tutub öz dəstxətti ilə ona bir amannamə yazdıqdan sonra Yəhya Bağdada gəlir. Harun əvvəl onunla mehribancasına rəftar edib onun ixtiyarında çoxlu mal-dövlət qoyur. Ancaq gizlicə onun ölüm planını hazırlayıb onu bu işdə müttəhəm edir ki, gizlicə camaatı öz başına toplayıb xəlifənin əleyhinə qiyam qaldırmaq fikrindəsən. Lakin Harun ona daşdankeçən bir amannamə göndərdiyi üçün onu öldürmək bir o qədər də asan deyildi. Buna görə də, bu qərara gəlir ki, amannaməni qüvvədən salmaq üçün fəqihlərdən (müctehidlərdən) öz məqsədini həyata keçirməyə şəri icazə alsın. Bu məqsədlə amannamənin düzgün olub-olmaması barədə nəzər söyləsinlər deyə, Məhəmməd ibn Həsən Şeybani, Həsən ibn Ziyad Lulum və Əbülbüxtəridən ibarət qazı və fəqihlər şurası təşkil verilməsini əmr etdi.[3] Şura hazır olduqda hamıdan qabaq

---

[1] İslamda vaizlərin rolu, səh.55.
[2] Məqatilüt-talibin, səh.308.
[3] Mizanül-e'tidal fi nəqdir-rical, c.3, səh.278.

nisbətən azad alim olan və özünü müəllimi Əbu Yusif kimi Haruna satmış olmayan[1] Məhəmməd ibn Həsən Şeybani amannaməni oxuyub dedi: "Amannamə tamamilə düzgün və səlahiyyətlidir, onu heç cür pozmaq olmaz."[2] Əbülbüxtəri amannaməni alıb ona göz gəzdirərək dedi: "Bu amannamə batil və səlahiyyətsizdir. Yəhya xəlifənin əleyhinə qiyam qaldıraraq bir dəstə insanın qanını axıtmışdır, onu öldürün, günahı mənim boynuma." Harun bu fətvadan son dərəcə sevinib dedi: "Əgər amannamə batil və səlahiyyətsizdirsə, onda özün onu cır tulla." Əbülbüxtəri amannaməyə tüpürüb onu cırdı. Harun bir milyon altı yüz min dirhəm ona ənam verib özünü də qazı vəzifəsinə təyin etdi.[3] Məhəmməd ibn Həsəni isə belə bir fətva (amannamənin səlahiyyətli olmadığını söyləməsinə görə) verdiyinə görə neçə il fətva verməkdən məhrum etdi.[4] Axırda bu şuranın rəyinə əsasən, Yəhyanı qətlə yetirdi.[5]

## Məsləhətə görə verilmiş fətva

Qeyd etdik ki, öz şəxsiyyətini satmış qazılardan biri də qazı Əbu Yusif idi. Harun onu baş qazı vəzifəsinə təyin etmişdi. O, hər bir vaxt Haruna lazım olurdusa, öz istinad və qəribə yozma qüvvəsi ilə Harunun qeyri-şəri işlərinin üstünü örtərək, bəzi bəhanələrlə onları dini ölçülərlə uyğunlaşdırırdı. İndi nümunə üçün aşağıdakı iki məsələyə nəzər salaq.

**1.** Harun xəlifə olduğu ilk vaxtlarda atasının (Məhdinin) kənizlərindən birinə vurulur. Harun öz eşqini açıb ona elan etdikdə kəniz deyir: "Bu fikri başından at, çünki atan mənimlə bir yastığa baş qoymuşdur (və mən sənin atanın arvadı sayılıram.)" Harun ona bərk vurulduğundan ondan əl çəkə bilmirdi. Əbu Yusifi çağırtdırıb məsələni ona danışaraq ondan bir çıxış yolu istədi. Əbu Yusif soyuqqanlılıqla dedi: "Bir kənizin etdiyi hər hansı bir iddia məgər qəbul olunmalıdır? Ona qulaq asma, çünki o, düzdanışan kəniz deyil."[6] (Halbuki, İslam qayda-qanunlarına əsasən, bu cür yerdə qadının öz etirafı əsas götürülərək qəbul olunur.)

## Vicdanı aldatmaq

**2.** Bir gün Harun xüsusi aşpazına əmr edir ki, onun üçün cavan bir dəvənin ətindən yemək hazırlasın. Yemək yeyilib qurtardıqdan sonra Cəfər Bərməki dedi: "Xəlifənin bu yeməyinin hər bir tikəsi dörd yüz min dirhəmə başa gəlib." Harun bu məsələdən təəccübləndikdə Bərməki başa salır ki, bir müddət bundan qabaq xəlifə belə bir yeməyin hazırlanmasını istəmiş, lakin həmin vaxt bu yemək hazırlanmamışdır. O gündən bəri hər gün xəlifənin aşpazxanası üçün cavan bir dəvə kəsilir. Onların hamısının bir yerdə qiyməti dörd yüz min dirhəmə gəlib çatır."

Müsəlmanların beytül-malını saysız-hesabsız əyyaşlıq və kef məclislərinə sərf edən, zəhmətkeş və məzlum müsəlmanların malını israf etmək, ora-bura

---

[1] Zühəl-İslam, c.2, səh.203.

[2] Yenə orada, səh.204.

[3] Həyatül-imam Musa ibn Cə'fər, c.2, səh.100. Bu haqda "Əl-bəramikə fi xilalil-xilafə" kitabına müraciə edin.

[4] Zühəl-İslam, c.1, səh.204.

[5] Həyatül-imam Musa ibn Cə'fər, c.2, səh.100.

[6] Tarixül-xüləfa, səh.291.

xərcləməkdən çəkinməyən Harun bu dəfə vicdanlı, ürəyiyanan bir şəxsə çevrilir. O, bu sözü eşitdikdə narahat olub əmr verir ki, bu işin əvəzini çıxmaq üçün neçə milyon dirhəmi kasıblar arasında sədəqə adı ilə paylasınlar. Əlbəttə, bu pullar heç də onun şəxsi vəsaitindən deyil, müsəlmanların ümumi beytül-malından olub hamı arasında ədalətlə bölüşdürülməli idi. Özü də sədəqə, xəlifənin bəxşişi və bu kimi şeylər onun bölüşdürülməsi üçün əsas ola bilməzdi.

Nə isə, bu xəbər Əbu Yusifin qulağına çatır. Onun sarayında olmasının fəlsəfəsi özünü belə yerdə büruzə verən Əbu Yusif xəlifənin bu işinə bəhanə gətirmək üçün gözəl bir plan hazırlayıb bu məqsədlə xəlifənin yanına gələrək narahatlığının səbəbini soruşur. Harun onu məsələdən xəbərdar edir. Əbu Yusif üzünü Cəfər Bərməkiyə tutub soruşur: "Kəsilən bu dəvələrin əti xarab olurdu, yoxsa camaat onu istifadə edirdi?" (Sanki Əbu Yusifin fikrini duymuş) Cəfər cavab verdi ki, camaat onu istifadə edirdi. Əbu Yusif sevinərək qışqırdı: "Xəlifə, muştuluq, böyük savab əldə etmisən. Çünki bu müddət ərzində kəsilmiş bütün ətləri müsəlmanlar istifadə etmiş və Allah-taala bu cür böyük bir sədəqəni yerinə yetirməyə xəlifə üçün şərait yaratmışdır."[1] Beləliklə, xəlifə üçün kəsilən dəvələrin əti xarab olmamış və Bağdad itlərinin qabağına atılmayaraq bir neçə ac adama verilirsə, bu, Əbu Yusifin məntiqində sədəqə hesab olunur, Harunun gördüyü işlər də israf, müsəlmanların malını boş yerə xərcləmək və beytül-malı ona-buna verib dağıtmaq deyil, sədəqə və yaxşı iş kimi qələmə verilirdi.

Qeyd etdiyimiz bu həqiqətləri nəzərə aldıqda İmam Museyi-Kazim əleyhissəlamın işinin nə qədər ağır olduğunu asanlıqla anlaya bilərik. Çünki o Həzrət əsl simasını riyakarlıq, zahirpərəstlik və hiylələr arasında gizlədərək özünü ədalətli və mömin xəlifə adlandıran Harun kimi hiyləgər bir xəlifə ilə üz-üzə idi. İmam Kazim (əleyhissəlam) Harunun hiylə, riyakarlıq və zahirpərəstlik pərdələrini yırtıb onun əsl simasını camaata göstərmək üçün fasiləsiz və ardıcıl təbliğ etmək məcburiyyətində idi. Əgər İmam Kazim əleyhissəlamın seçilmiş şəxsiyyəti və inkaredilməz əzəməti olmasaydı, doğrudan da, belə mübarizədən qalib kimi çıxmaq şübhəli olardı.

## Əli ibn Yəqtin – İmam Kazim əleyhissəlamın Harunun sarayındakı elçisi

Əli ibn Yəqtin İmam Kazim əleyhissəlamın seçilmiş və qabaqcıl şagirdlərindən biri olmuşdur. O, pak və adlı-sanlı bir şəxs olmuş, İmam Kazim əleyhissəlamın yanında özünəməxsus mövqe tutmuşdu. Şiə aləmində onun misilsiz hörməti vardı.[1]

Əli ibn Yəqtin hicrətin yüz iyirmi dördüncü ilində Əməvi sülaləsinin hakimiyyətinin son çağlarında Kufə şəhərində dünyaya gəlmişdir. Atası Yəqtin Abbasilər sülaləsinin əsas tərəfdarlarından biri olmuşdur. Elə buna görə də, öz dövrünün xəlifəsi olmuş (Əməvi xəlifəsi) Mərvani Himar onu tutmaq istəmiş, o isə hökumətdən qaçaq düşmüşdür. Onun həyat yoldaşı ərinin qaçaq düşdüyü bu müddətdə (haqqında danışdığımız) Əli və Übeyd adlı iki oğlunu da götürüb Mədinə şəhərinə köçür. Əməvilər süquta uğrayıb Abbasilər hakimiyyətə gəldikdən sonra

---

[1] Əl-Bidayətu vən-nihayə, c.10, səh.216.

[1] Əl-Fihrist, səh.234.

Yəqtin Kufəyə gələrək Əbülabbas Səffaha qoşulmuşdur. Həmçinin, onun həyat yoldaşı da uşaqları ilə birlikdə Kufəyə qayıtmışdır.[1]

Bəli, Əli ibn Yəqtin Kufədə böyüyüb boya-başa çatmış və İmam Kazim əleyhissəlamın şagirdləri sırasına qoşulmuşdur.

## Əli ibn Yəqtinin elmi məqamı

Rical elminin alimləri və tarixçilərin dediyinə görə Əli ibn Yəqtin İmam Kazim əleyhissəlamın qabaqcıl və seçilmiş şagirdlərindən olmuş, o Həzrətin hüzurundan bəhrələnərək ondan çoxlu sayda hədislər söyləmişdir. İmam Sadiq əleyhissəlamdan isə yalnız bir hədis rəvayət etmişdir.[2]

Əli ibn Yəqtin həm ictima arasında sayılıb-seçilən və hörmətə sahib olan bir şəxs idi, həm də öz dövrünün alimləri sırasında adı çəkilirdi. O, aşağıdakı kitabları qələmə almışdır:

**1.** "İmam Sadiq əleyhissəlamın gələcək fitnə-fəsad barədə soruşulmuş sullara cavabı" ("Ma suilə ənhus-Sadiqu min əl-məlahim");

**2.** "(Allaha) şəkk edən şəxsin İmam Sadiq əleyhissəlamın hüzurunda mübahisəsi" ("Münazirətüş-şakki bihəzrətih");

**3.** "İmam Kazim əleyhissəlamdan öyrəndiklərim."[3]

Əli ibn Yəqtin tutduğu ictimai və siyasi mövqeyi hesabına şiə məzhəbi üçün misilsiz xidmətlər mənşəyi olmuş və şiələr üçün ümid yeri hesab olunurdu.

## Əli ibn Yəqtinin vəzir olması şiələr üçün arxa və dayaq olmuşdur

Mənsur və Harunun hakimiyyəti dövründə Bəni-Haşim nümayəndələrinin ardıcıl silahlı etirazları məğlubiyyətlə nəticələnir. Hərəkat başçılarının şəhid olaraq dəstələrinin məğlubiyyətə uğramaları bir daha sübut etdi ki, belə bir şəraitdə hər hansı bir silahlı mübarizə məğlubiyyətə məhkumdur. Buna görə də, mübarizəni başqa yolla davam etdirmək lazımdır. Bu baxımdan İmam Kazim (əleyhissəlam) silahlı mübarizədən göz yummuş və ancaq tələbə yetişdirilməsi, fikirlərin oyadılması, çirkin Abbasi hökumətinin əsl həqiqətini tanıtdırmaq və mümkün qədər ictimaiyyətin müxtəlif sahələrində şiəlik ideyalarını genişləndirmək barədə düşünürdü. Elə buna görə də, o cür zalım hökumətlə həmkarlıq etməyin ümumi şəkildə haram olmasına baxmayaraq, İmam Kazim (əleyhissəlam) istisna hallarda bəzi pak və layiqli şəxslərin hökumətdə mühüm vəzifə tutmasına razılıq verirdi. Çünki bu iş bir tərəfdən şiələrin hakimiyyətdə yer tutmalarına, digər tərəfdən də camaatın, xüsusən də, şiələrin himayə altına keçməsinə səbəb olurdu. Əli ibn Yəqtinin də hökumətdə mühüm bir vəzifə tutması bu kimi işlərdən biri idi. Abbasilər sülaləsinin tam tərəfdarı olan və İmamət məsələsinə heç bir etiqadı olmayan atasından fərqli olaraq, Əli ibn Yəqtin ayıq və mətin şiələrdən idi və əqidəsi əsl şiə əqidəsi idi.[4] Belə ki, intizar, yəni, hazırda olan zalım hökumətin qeyri-qanuni olduğunu hesab etməklə haqq-ədalət əsasında

---

[1] Əl-Fihrist, səh.234.

[2] Fihristi-əsmai-müsənnifiş-şiə, səh.195.

[3] Əl-Fihrist, səh.234.

[4] Qamusur-rical, c.7, səh.90.

qurulacaq hökumətin gəlişinə ümid bəsləmək onun əqidəsinin əsasını təşkil edirdi. Bu həqiqət onun bir dəfə atası ilə etdiyi söhbətdən də başa düşülür. Bir dəfə Yəqtin oğluna deyir: "Necə olur ki, sizin rəhbərlərinizin bizim (Bəni-Abbasın) barəmizdə dedikləri düz çıxır, ancaq sizin özünüz barədə dedikləri (sizə vəd olunmuş hökumətin qalib gələcəyi) düz çıxmır?" Əli cavab verir: "Sizin və bizim barədə deyilənlərin ikisi də eyni yerdən (eyni şəxs tərəfindən) deyilib. Sadəcə olaraq sizin hakimiyyətiniz bərqərar olub və buna görə də, sizin barədə deyilən şübhəsiz olaraq həyata keçmişdir. Özünüz də gördünüz ki, deyilənlər tamamilə düz çıxdı. Ancaq bizə vəd olunmuş hökumətin vaxtı çatmadığından, biz hələ də onun ümidi ilə yaşayırıq. Əgər bizim rəhbərlərimiz "Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin hakimiyyətə gəlişi (məsələn) iki yüz-üç yüz ildən sonra olacaq" desəydilər, ola bilərdi ki, (vaxtın uzun olduğundan) ürəklər sıxılıb camaatın həmin hökumətə olan inamı azalardı. Lakin (camaat öz ümidini itirməsin deyə) İmamlar (həmin hökumətin nə vaxt bərpa olunacağını müəyyən etməyərək) buyurmuşlar ki, tezliklə onun vaxtı çatacaq. Beləliklə də, İmamın (on ikinci İmamın) zühurunun yaxın bir vaxtda olacağını vurğulamışlar."

Əli ibn Yəqtinin bu cür sabiqəsini nəzərə almaqla, onun Harunun sarayında vəzifə tutmasının nə dərəcədə əhəmiyyətli olması asanlıqla başa düşülür.

## İmam Kazim əleyhissəlamın şərti razılığı

Əli ibn Yəqtin İmam Kazim əleyhissəlamın razılığı ilə Harunun sarayında vəzir olmasını qəbul etdi.[1] O, sonradan neçə dəfə işindən istefa vermək istəmiş, lakin İmam Kazim (əleyhissəlam) onu bu fikrindən daşındırmışdır.[2]

İmam Kazim əleyhissəlamın Əli ibn Yəqtini öz vəzifəsində saxlamaqdan məqsədi şiələrin can, mal və hüquqlarının qorunması və onların gizli təşkilatına kömək etmək idi. İmam Kazim (əleyhissəlam) ona buyurur: "Əgər istəyirsənsə, sənin barəndə üç şeyə zamin olum, onda sən də bir şeyə zamin ol." Əli ibn Yəqtin soruşur: "O üç şey hansılardır?" İmam Kazim (əleyhissəlam) buyurur: *"Sənin üçün zamin olduğum üç şey bunlardır:*

**1.** *Əsla sən qılınc və düşmənin əli ilə öldürülməyəcəksən.*

**2.** *Sənin heç vaxt maddi imkana ehtiyacın olmayacaq.*

**3.** *Sən heç vaxt tutulmayacaqsan.*

*Ancaq sənin zamin olacağın şey isə budur ki, bizim şiələrdən birinin işi düşüb nə vaxt biri sənə müraciət edərsə, söz ver ki, onun işini düzəldəcək və ona hörmət edəcəksən."*

Əli ibn Yəqtin İmam əleyhissəlamın şərtini qəbul etdi, İmam da bu üç şey barədə onun üçün zamin oldu.[3] İmam Kazim (əleyhissəlam) öz söhbəti əsnasında buyurdu: *"Sənin bu məqamın (şiə) qardaşlarının fəxridir. Ümid edirik ki, Allah sənin vasitənlə məğlubiyyətlərin əvəzini çıxıb müxaliflərin fitnə alovunu söndürsün."*

---

[1] İxtiyari-mə'rifətir-rical, səh.433.
[2] Biharül-ənvar, c.48, səh.158.
[3] Biharül-ənvar, c.48, səh.136.

Bəli, Əli ibn Yəqtin öz əhdinə sadiq qaldı, vəzifədə olduğu bütün müddət ərzində şiələr üçün mötəbər bir istehkam hesab edilmiş və o cür çətin şəraitdə şiələrin azadlığı və canlarının qorunması üçün lazım olan şəraiti təmin etməkdə böyük rol oynamışdır.

## Təhlükəli və gizli bir tapşırıq

Əli ibn Yəqtin gizli şəkildə öz malının xümsünü İmam Kazim əleyhissəlamın hüzuruna göndərir, bəzi vaxtlar isə şərait ağır və çətin olduqda, o Həzrət üçün maddi imkanat yaradırdı. Onun dostlarından ikisi deyir ki, bir gün Əli ibn Yəqtin bizi çağırıb bizə bir qədər pul və bir neçə məktub verərək dedi: "İki ədəd minik vasitəsi alıb gizli yolla gedərək bunları İmam Kazim əleyhissəlama çatdırın. Sizin bu işinizdən heç kimin xəbəri olmasın." Həmin iki nəfər deyir: "Kufəyə gəlib iki minik vasitəsi aldıq. Yol üçün tədarük gördükdən sonra gizli yolla hərəkət etdik. "Bətnür-rəhmə" adlı yerdə heyvanlardan düşüb qabaqlarına ot qoyduq, özümüz də nahar etmək üçün oturduq. Bu vaxt yanında da, bir yoldaşı olan bir atlı gəldi. Yaxınlaşdıqda gördük ki, İmam Kazim əleyhissəlamdır. Qalxıb ona salam verdikdən sonra pulu və məktubları təhvil verdik. O Həzrət də bir neçə məktub çıxarıb bizə verərək buyurudu: "Bunlar sizin məktubların cavabıdır." Biz ona dedik ki, azuqəmiz qurtarıb, əgər icazə versəniz, Mədinəyə gedib həm Peyğəmbəri (səlləllahu əleyhi və alih) (qəbrini) ziyarət edər, həm də yol üçün azuqə tədarük görərdik. O, bizə buyurdu: "Qalan azuqənizi mənə göstərin." Azuqəmizi (olan-qalanını) çıxarıb ona göstərdik. O tərəf-bu tərəfinə əl gəzdirib buyurdu: "Bu, sizi Kufəyə qədər görər." O, bizim Mədinəyə getməyimizi məsləhət bilməyib buyurdu: "Siz (həqiqətdə elə bil ki,) Peyğəmbəri (səlləllahu əleyhi və alih) gördünüz, indi isə Allahın pənahı altında geri qayıdın."[1]

## Şiələrin iqtisadi vəziyyətinin dirçəlməsi

Şübhəsiz ki, müştərək bir məqsəd daşıyan hər hansı bir cəmiyyətin öz işlərini irəli aparmaq üçün öz qüvvələrini səfərbər etməkdə maddi imkanata ehtiyacı var. Maddi imkanat olmadıqda, həmin cəmiyyətin bütün işləri və fəaliyyəti dayanmalı olur. Bir qayda olaraq şiələrin də öz müqəddəs məqsədlərini həyata keçirmək üçün bir sıra maddi imkanata ehtiyacları var idi. Müxtəlif vaxtlarda xüsusilə, onların mübariz qüvvələri daima iqtisadi çətinlik içərisində olmuş, dövrün hökuməti onların qüvvələrini zəiflətmək üçün müxtəlif vasitələrlə onları iqtisadi çətinliklərə məruz qoymuşdular. Bu barədə siyasi məqsəd daşıyan və məqsədi də Əmirəl-möminin Həzrət Əli əleyhissəlamın və Bəni-Haşimin iqtisadi vəziyyətini zəiflətmək olan Fədəyin Həzrət Zəhradan (səlamullahi əleyha) alınmasından başqa, İslam tarixində bir çox başqa nümunələr də vardır. Onlardan biri də, Müaviyənin şiələrə, xüsusilə də, Bəni-Haşimə qarşı yürütdüyü siyasətdir. Müaviyənin İmam Hüseyn əleyhissəlamdan öz vəliəhdi Yezid üçün beyət almaq istərkən işlətdiyi taktikalardan biri - Mədinəyə səfəri zamanı Bəni-Haşim qəbiləsindən olanlara beytül-maldan heç bir ödənc verməməsi olmuşdur. Bu işdə məqsədi də, o olmuşdur ki, bəlkə bu yolla o Həzrəti çətinliyə salıb beyət etməyə məcbur etsin.[2]

---

[1] İxtiyari-mə'rifətir-rical, səh.436-437.
[2] Əl-Kamilu fit-tarix, c.3, səh.551.

Başqa bir nümunə Əbu Cəfər Mənsurun camaatı iqtisadi çətinlikdə saxlaması idi. Mənsur aclıq və iqtisadi blokada siyasətini yürütmüş və məqsədi bu olmuşdur ki, qoy camaat həmişə ac olub ona tabe olsun və ancaq öz qarınlarını doyuzdurmaq fikrində olub digər böyük ictimai məsələlər barədə düşünməyə macalları olmasın. O, bir dəfə sarayın yaxın adamlarının hüzurunda camaatı ac saxlamaqdan güddüyü məqsədi kobud bir ifadə ilə açıqlayaraq demişdir: "Bədəvi ərəblər öz məsəllərində yaxşı demişlər ki, öz itini həmişə ac saxla ki, qoy çörək ardınca sənin arxanca düşsün." Bu iqtisadi çətinlik daha çox şiələr səmtinə yönəldilmişdi. Çünki onlar xəlifələrə qarşı mübarizədə camaata rəhbərlik etmişlər. Harun da xəlifə olduğu müddət ərzində bu planı həyata keçirməkdə ləngimirdi. Çünki o, müsəlmanların beytül-malını ələ keçirib onu öz eyş-işrəti, kefi yolunda xərcləməklə şiələri öz qanuni hüquqlarından məhrum etmiş və beləliklə də, onların qüvvələrini zəiflətmişdir.

Müxaliflərinin şiələrin əleyhinə mübarizə aparmalarına baxmayaraq, Harun ər-Rəşidin hüzurunda öz etimadını doğruldaraq, böyük İslam məmləkətində vəzir vəzifəsinə təyin olunmuş İmam Kazim əleyhissəlamın vəfalı və səmimi dostu Əli ibn Yəqtin bu məsələni çox yaxşı başa düşərək əlində olan imkandan istifadə etməklə şiələrə kömək və onları himayə etmək sahəsində əlindən gələni əsirgəmirdi. Xüsusən, şiələrin iqtisadi vəziyyətinin dirçəlməsində və öz malının xümsünü (onun malının xümsü nəzərə çarpacaq miqdarda olur, bəzi vaxtlar hətta yüz min dinardan üç yüz min dinara qədər çatırdı)[1] İmam Kazim əleyhissəlama göndərməkdə çox səy edirdi. Bu da məlumdur ki, xüms həqiqətdə İslam hökumətinin büdcəsini təmin edən əsas amildir.

Əli ibn Yəqtinin oğlu deyir: "İmam Kazim əleyhissəlama nə lazım olurdusa, yaxud hər hansı bir çətin işi irəli çıxırdısa, atama məktub yazırdı ki, "mənim üçün filan şeyi al, yaxud mənim üçün filan işi həll et. Özü də bu işi Hişam ibn Həkəmin əli ilə düzəlt." Hişamın əli ilə düzəldilməsi lazım olan işlər yalnız mühüm və əsas işlər olurdu."[2]

İmam Kazim (əleyhissəlam) İraqa səfər edərkən Əli ibn Yəqtin öz vəziyyətindən o Həzrətə şikayət edib dedi: "Mənim vəziyyətimi görürsən? (Görürsən necə bir sarayda və hansı camaatla işləyirəm?)" İmam Kazim (əleyhissəlam) buyurdu: "Allah zalımlar arasında öz sevimli bəndələrindən qərar verərək onların vasitəsilə yaxşı bəndələrini himayə edir. Sən də həmin sevimli bəndələrdən birisən."[3]

Bir dəfə Əli ibn Yəqtin Bəni-Abbas xəlifələri ilə işləyib-işləməməsi barədə İmam Kazim əleyhissəlamla məsləhətləşdikdə, o Həzrət buyurmuşdur: "Əgər bu işi görməyə məcbursansa, onda şiələrin malından muğayat ol." Əli ibn Yəqtin İmam əleyhissəlamın sözü ilə razılaşdı. O, Həzrətin bu sözünə əsaslanaraq şiələrdən dövlət vergilərini alır, lakin gizlicə yenidən onların özlərinə qaytarırdı.[4] Səbəbi də bu idi ki, Harunun hökuməti elə bir hökumət deyildi ki, onun qayda-qanunlarına əməl etmək müsəlmanlara vacib olsun. Allah tərəfindən təyin olunmuş əsl rəhbər və hakim İmam

[1] İxtiyari-mə'rifətir-rical, səh.434.
[2] Yenə orada, səh.269.
[3] Yenə orada, səh.433.
[4] Biharül-ənvar, c.48. səh.158.

Kazim (əleyhissəlam) idi, Əli ibn Yəqtin də onun əmrilə şiələrin malını özlərinə qaytarırdı.

## Həcc naibləri

Tarixdə Əli ibn Yəqtin üçün fəxr sayıla bilən məsələlərdən biri də budur ki, o, hər il neçə nəfəri öz tərəfindən vəkil edib həcc ziyarətinə göndərirdi. O, bu iş üçün onların hər birinə on min dirhəmdən iyirmi min dirhəmə qədər pul verirdi.[1] Onun vəkil tutduğu həcc naiblərinin sayı hər il yüz əlli, bəzi vaxtlar isə iki yüz əlli və hətta üç yüz nəfərə çatırdı.[2]

Əli ibn Yəqtinin bu işi İslam dinində həcc ziyarətinin özünəməxsus fəzilət və əhəmiyyət kəsb etməsi və şübhəsiz, onun son dərəcə iman və təqva sahibi olması ilə əlaqədardır. Lakin bu naiblərin nəzərə çarpacaq dərəcədəki sayını və eləcə də, Əli ibn Yəqtinin onlara külli miqdarda naiblik haqqı verməsini nəzər aldıqda məsələ bir az da geniş təhlil olunur. Əgər onun ildə həcc ziyarəti üçün tutduğu vəkillərin sayını orta hesabla məsələn, iki yüz nəfər, onlara verdiyi pulun miqdarını isə orta hesabla məsələn, on min dirhəm götürsək, ümumilikdə (cəmisi) ildə iki milyon dirhəm pul alınır. Digər tərəfdən də, ildə ödənilən bu məbləğ təbii ki, Əli ibn Yəqtinin illik gəlirindən, zəkat, xüms və digər müstəhəb sədəqə və hədiyyələri çıxdıqdan sonra yerdə qalan məbləğin bir qismini təşkil edirmiş. Bu təxmini hesabla bu qədər məbləği (həcc naiblərinin haqqını) ödəmək üçün gör Əli ibn Yəqtinin (illik) gəliri nə qədər olmalıdır?

Şiə alimlərindən ilk dəfə olaraq deyəsən, mərhum Şeyx Bəhayi bu məsələyə diqqət yetirmişdir. O, bu məsələnin incəliyini bu cür izah edir: “Güman edirəm ki, İmam Kazim (əleyhissəlam) Əli ibn Yəqtinə müsəlmanların beytül-malından istifadə etməyə icazə vermiş, o da öz növbəsində bu puldan şiələrə həcc ziyarəti üçün naiblik haqqı verərək müxaliflər üçün etiraz yeri qoymurdu.[3] Deməli, həcc ziyarətinə naib göndərmək əslində qabaqcadan hazırlanmış bir iş olmuş və Əli ibn Yəqtin bu işi ilə şiələrin iqtisadi vəziyyətini dirçəldirmiş.”

Həcc naibləri arasında İmam Kazim əleyhissəlamın dostlarından və yerli hökumətin müxaliflərindən olan Əbdürrəhman ibn Həccac və Abdullah ibn Yəhya Kahili kimi şiələrin böyük, adlı-sanlı şəxslərinin olması bu məsələni bir daha təsdiq edir.[4]

Əli ibn Yəqtinin bu hərəkətində nəzərə çarpan digər bir məsələ də, onun şiələri, xüsusən də, onların tanınmış şəxslərini həcc mərasiminə göndərməsidir. Bu yolla o, şiənin əsl həqiqətini tanıtmağa və onların digər məzhəblərlə münazirə edərək şiə mədəniyyətini nümayiş etdirməsi üçün şərait yaradırdı.

[1] İxtiyari-mə’rifətir-rical, səh.434.
[2] İxtiyari-mə’rifətir-rical, səh.434, 437.
[3] Tənqihül-məqal, c.2, səh.317.
[4] İxtiyari-mə’rifətir-rical, səh.435.

## Bu paltarı saxla!

Əli ibn Yəqtin göstərdiyi bu xidmətləri nəticəsində həmişə İmam Kazim əleyhissəlamın razılığını cəlb etmiş, onun əsirgənilməz himayəsində olmuş və o Həzrətin tədbiri sayəsində dəfələrlə qəti təhlükədən nicat tapmışdır. Həmin təhlükələrdən biri belə olmuşdur:

Bir dəfə Harun ər-Rəşid hədiyyə olaraq Əli ibn Yəqtinə bir neçə paltar (xələt) bağışlamışdı. Paltarların arasında xəlifələrə məxsus olan qara rəngli, zərlə bəzədilmş xəzdərili bir paltar da var idi. Əli ibn Yəqtin həmin bahalı paltar da daxil olmaqla onların çoxunu İmam Kazim əleyhissəlama bağışlayır, üstəlik həmişəki kimi malının xümsünü çıxıb o Həzrət üçün göndərir. İmam Kazim (əleyhissəlam) həmin bahalı paltardan başqa bütün pulları və paltarları qəbul edir. Əli ibn Yəqtinə də bir məktub yazıb bildirir ki, bu paltarı özündə saxla və heç kəsə vermə, çünki bir vaxt sənin üçün irəli çıxacaq hadisədə o sənə lazım olacaq. Əli ibn Yəqtin İmam Kazim əleyhissəlamın həmin paltarı nə üçün geri qaytardığını başa düşə bilmir, lakin onu (İmamın buyurduğu kimi) qoruyub saxlayır. Necə olursa, bir gün o, öz xadimlərindən birini işini layiqincə yerinə yetirmədiyi üçün işdən çıxarır. Əli ibn Yəqtinin İmam Kazim əleyhissəlamla əlaqə saxladığını, onun o Həzrət üçün pul və sair hədiyyələr göndərməsindən xəbərdar olan bu xadim Harunun yanına gedərək Əli ibn Yəqtindən şikayətlənib deyir: "O, (Əli ibn Yəqtin) Musa ibn Cəfəri (İmam Kazim (əleyhissəlam)) İmam kimi tanıyır və hər il öz malının xümsünü ona göndərir." Sonra da paltarların hədiyyə göndərilməsini sübut gətirib dedi: "Xəlifənin filan tarixdə ona bağışladığı xüsusi paltarı da, Musa ibn Cəfər əleyhissəlama bağışlayıb." Harun bu xəbəri eşitdikdə, bərk qəzəblənib dedi: "Gərək bu məsələni araşdıram. Əgər dediklərin doğru olarsa, onun qanını tökəcəyəm." Sonra Əli ibn Yəqtini çağırtdırıb həmin paltar barədə soruşdu. Əli ibn Yəqtin dedi: "Onu bir boğçaya qoyub indiyə qədər saxlamışam." Harun dedi: "Onu dərhal bura gətir!" Əli ibn Yəqtin xadimlərdən birini tez evə göndərib deyir: "Bizə get, gözətçidən filan otağın açarını alıb həmin otağı aç, sonra da orada olan filan sandığı aç və onun içindəki boğçanı üstündə olan möhürlə birlikdə bura gətir." Çox çəkmir ki, xadim həmin paltarı üstündəki möhürlə birlikdə gətirib Harunun qarşısına qoyur. Harun əmr edir ki, möhürü açsınlar. Boğça açıldıqda, Harun görür ki, öz verdiyi paltar qatlanmış halda saxlanılmışdır. Harunun qəzəbi soyuduqdan sonra Əli ibn Yəqtinə deyir: "Bundan sonra səndən şikayət edən heç bir şəxsin sözünə inanmayacağam." Sonra əmr verir ki, Əliyə dəyərli və qiymətli hədiyyə verib şikayətçini möhkəmcə tənbeh etsinlər.[1]

## İslam dövləti təşkil etmək arzusunda

Harun bilirdi ki, İmam Kazim (əleyhissəlam) və onun şiələri onu xilafət kürsüsünü qəsb etmiş və müsəlmanların müqəddəratını zor gücü ilə ələ keçirmiş bir şəxs kimi tanıyırlar. Əgər onlar Haruna qarşı mübarizə etmək şəraiti əldə etsələr, bir an da oslun belə, onu hakimiyyətdən salmaqda yubanmazlar. İmam Kazim əleyhissəlamla Harun ər-Rəşid arasında getmiş və aşağıda qeyd etdiyimiz söhbət o Həzrətin İslam hökuməti

[1] Əl-İrşad, səh.293.

təşkil vermək sahəsində olan ali məqsədlərindən, həm də Harunun çirkin məqsədlərindən xəbər verir:

"Bir gün Harun (bəlkə də, İmam Kazim əleyhissəlamın arzu və məqsədlərindən xəbər tutmaq məqsədilə) Fədəyi o Həzrətə qaytarmaq istədiyini bildirir. İmam Kazim (əleyhissəlam) buyurur: "Bir şərtlə Fədəyi qəbul edərəm ki, onun bütün ərazisini (bütün sərhədləri ilə birlikdə) geri qaytarasan." Harun soruşdu: "Onun (əhatə etdiyi) sahə və sərhədləri nə qədərdir?" İmam Kazim (əleyhissəlam) buyurdu: "Əgər onun əhatə etdiyi sahə və sərhədlərini desəm, əsla onu qaytarmazsan." Harun təkid edib and içdi ki, mütləq onu qaytaracaq. İmam Kazim (əleyhissəlam) Fədəyin əhatə etdiyi sahə və sərhədlərini bu cür təyin etdi: "Onun sahəsi Ədəndən tutmuş Səmərqəndə qədər, digər tərəfdən də, Afrikadan tutmuş Ərməniyyə və Xəzər dənizinə kimi uzanır." Bu sahələrin bir-bir adını eşitdikcə rəng verib rəng alan və həddən artıq qəzəblənən Harun bu dörd cəhəti eşidəndə, özünü saxlaya bilməyib qəzəblə dedi: "Belə olan halda bizə bir şey qalmır ki!" İmam Kazim (əleyhissəlam) buyurdu: "Bilirdim ki, qəbul etməyəcəksən və elə buna görə də, demək istəmirdim."[1] İmam Kazim (əleyhissəlam) bu cavabı ilə Haruna bildirmək istəyirdi ki, Fədək İslam dövlətinin bütün sahəsini əhatə edən simvolik bir ifadədir. Səqifə əhli (Əbu Bəkr, Ömər və s.) Fədəyi Peyğəmbər (səlləllahu əleyhi və alih) qızının və kürəkəninin əlindən almaqla həqiqətdə hakimiyyəti Əhli-beytdən (əleyhimussəlam) aldılar. İndi əgər bizim haqqımızı qaytarmalı olsan, onda bütün xilafət ərazisini bizim ixtiyarımıza verməlisən.

Bu söhbət İmam Kazim əleyhissəlamın ali məqsədlərindən xəbər verir.

## Beytül-malın toplanması

Zahiri hakimiyyət və qüdrət Harunun əlində olsa da, o, yalnız camaatın "cisminə", "quru bədəni"nə hakimlik edirdi. Qəlblərdə isə heç bir yeri yox idi. Qəlblərə hakim durmaq ancaq İmam Kazim əleyhissəlama məxsus idi. O Həzrətin ümumi fikirlərdəki məhəbbəti sayəsində mübariz və açıqfikirli müsəlmanlar öz malının xümsünü, eləcə də, beytül-mala mənsub olan digər vergiləri o Həzrətin hüzuruna göndərirdilər. Harun bundan heç də xəbərsiz deyildi. Çünki o, öz casusları vasitəsilə geniş İslam dövlətinin o tərəf-bu tərəfindən müsəlmanların İslam vergilərinin İmam Kazim əleyhissəlama göndərməsi xəbərini əldə edirdi. Casuslar deyirdilər ki, göndərilən bu vergilər o qədər olurdu ki, İmam Kazim (əleyhissəlam) bunları toplamaq üçün beytül-mal sandıqı hazırlamışdı.[2]

[1] Təzkirətul huffaz, səh.350.

[2] Biharül ənvar, c.48, səh.232.

# VIII FƏSİL

# İMAM RİZA ƏLEYHİSSƏLAMIN HƏYATI

***  İmam Riza (əleyhissəlam) Harunun dövründə**
***  Əmin və Məmun – təfavütlər, təzadlar**
***  Nə üçün Məmun hakimiyyəti İmam Riza əleyhissəlama vermək istəyirdi?**
***  İmam Riza əleyhissəlamın Məmunun hiylələri qarşısında tutduğu mənfi mövqelər**
***  Biganə ideyalara qarşı İmam Riza əleyhissəlamın planı**
*** İmam Riza əleyhissəlamın digər din və təriqət nümayəndələri ilə münazirələri**

## İmam Riza əleyhissəlamın həyatı barədə qısa məlumat

İmam Əli ibn Musa hicrətin yüz qırx səkkizinci ili zilqədə ayının on birində anadan olmuşdur.[1] Atası imam Kazim (ə), anası isə Tuktəm adlı fəzilətli bir qadın olmuş, İmam Riza (əleyhissəlam) anadan olduqdan sonra İmam Kazim (əleyhissəlam) o xanıma Tahirə adı vermişdir.[2] İmam Əli ibn Musa əleyhissəlamın künyəsi Əbülhəsən, ləqəbi Riza olmuşdur. İmam Riza (əleyhissəlam) atası İmam Kazim (əleyhissəlam) (hicrətin yüz səksən üçüncü ilində) Bağdad zindanında şəhid olduqdan sonra otuz beş yaşında İmamətə çatmışdır.

## İmam Riza əleyhissəlamın müasiri olmuş xəlifələr

İmam Riza (əleyhissəlam) İmam olduğu iyirmi ilin onunu Harun Ər-Rəşidlə, beş ilini Məhəmməd Əminlə, son beş ilini isə Abdullah Əl-Məmunla həmzaman olmuşdur.

İmam Riza (əleyhissəlam) Məmunun hakimiyyətə gəlişinə qədər öz doğma vətəni müqəddəs Mədinə şəhərində yaşayırdı. Məmun hakimiyyətə gəldikdən sonra o Həzrəti Xorasana çağırtdırır. Nəhayət, o Həzrət hicrətin iki yüz üçüncü ilinin səfər ayında (əlli beş yaşında olarkən) şəhadətə qovuşur və elə Xorasanda da (Məşhəd şəhərində) dəfn olunur.[3]

## İmam Riza (əleyhissəlam) Harunun dövründə

Hicrətin yüz səksən üçüncü ili İmam Kazim (əleyhissəlam) Harunun əmri ilə Bağdad zindanında zəhərlənib şəhid olduqdan sonra İmam Riza (əleyhissəlam) İmam olduğu müddətin on ilini Harunla bir dövrdə yaşamışdır. Bu müddət Harunun özbaşınalıq, azğınlıq mühiti olması ilə yanaşı, həm də İmam Riza əleyhissəlamın nisbətən azad yaşadığı və elmi-mədəni fəaliyyəti dövrü hesab olunur. Çünki Harun bu müddət ərzində o Həzrətə toxunmamış və İmam Riza (əleyhissəlam) açıq şəkildə fəaliyyət aparmışdır. Buna görə də, o Həzrətin yetirdiyi şagirdlər, İslami elmlər ocağında təlim etdiyi Quran həqiqətləri və İslam maarifi də, məhz bu dövrə təsadüf edir. Harunun təzyiqləri azaldaraq İmam Riza əleyhissəlamı nisbətən azad buraxmasının səbəbi bəlkə də, onun İmam Kazim əleyhissəlamın qətlindən yaranan nigarançılığıdır. Harun bu böyük cinayətin üstünü örtməyə çalışsa da, məsələnin üstü açılır və camaatda ona qarşı böyük nifrət hissi oyanır. Buna görə də, Harun bir təhər özünə bəraət qazandırmaq istəyirdi. Onun, İmam Kazim əleyhissəlamın pak cənazəsini zalımların əlindən alıb böyük hörmətlə dəfn edən əmisi Süleyman ibn Əbu Cəfərə yazdığı “Allah Sindi ibn Şahikə lənət eləsin, o, bu işi mənim icazəm olmadan görmüşdür”[4] məzmunlu məktubu da, bu məsələni bir daha sübut edir. Bu məsələni təsdiq edən başqa bir fakt da, Harunla Yəhya ibn Xalid Bərməkinin İmam Kazim (əleyhissəlam) barədəki söhbətidir. (Hələ əvvəllərdən İmam Kazim əleyhissəlamdan Haruna şikayət etmiş) Yəhya Haruna dedi: “Musa ibn Cəfərdən (İmam Kazim

[1] E’lamül-vəra bi-e’lamil huda, səh.313.
[2] E’lamül-vəra bi-e’lamil huda, səh.313.
[3] Əl-üsulu min əl-kafi, c.1, səh.304.
[4] Biharül-ənvar, c.48, səh.227.

əleyhissəlamdan) sonra onun oğlu yerinə keçərək İmamət iddiası edir. (Demək istəyirdi ki, yaxşı olar indidən xəlifənin məmurları onu nəzarət altına alsınlar).” (Hələ İmam Kazim əleyhissəlamın şəhadətini unutmayan və hələ də, onun aqibətindən nigarançılıq çəkən) Harun dedi: “Atasının başına gətirdiyimiz bəs deyil? İstəyirsən ki, bir dəfəlik qılınc götürüb bütün Ələviləri (Əlinin nəslindən olanları) qırım?[1] ” Harunun qəzəbi sarayda olanları sakitləşdirib icazə vermədi ki, bir də kimsə İmam Riza əleyhissəlamın ardınca pis-pis sözlər danışsın.

İmam Riza (əleyhissəlam) Harunun xəlifə olduğu müddətdə yaranmış bu fürsətdən istifadə edib öz İmamətini aşkar edir və bu barədə ata-babalarından fərqli olaraq heç də, təqiyyə etmirdi. Hətta o Həzrətin bəzi dostları onu bu işindən çəkindirir, İmam (əleyhissəlam) isə onları arxayın edib buyururdu ki, Harundan ona heç bir xətər toxunmayacaq.

Səfvan ibn Yəhya deyir: “İmam Kazim (əleyhissəlam) vəfat etdikdən sonra İmam Riza (əleyhissəlam) İmamət məqamını aşkar etdikdə, o Həzrətə deyildi: “Siz çox məsuliyyətli bir işi aşkar edirsiniz, biz bu (zalımı (Harunu)) sizin üçün çox təhlükəli sanırıq.” İmam Riza (əleyhissəlam) buyurdu: “O, nə qədər çalışsa da, mənə bir şey edə bilməyəcək.”[2] Həmçinin, Məhəmməd ibn Sənan rəvayət edib deyir ki, Harun xəlifə olduğu vaxt İmam Riza əleyhissəlama dedim: “Harunun qılıncından hələ də qan damcıladığı halda, siz İmamət məqamınızı aşkar edərək atanızın yerinə keçmisiniz.” İmam Riza (əleyhissəlam) buyurdu: “Peyğəmbərin (səlləllahu əleyhi və alih) sözü mənə qüvvət verərək məni cürətləndirir. O Həzrət buyurmuşdur: “Əgər Əbu Cəhl mənim başımdan bir tük əskik edərsə, onda mən heç Peyğəmbər (səlləllahu əleyhi və alih) deyiləm.” Mən də sizə deyirəm ki, əgər Harun mənim başımdan bir tük əskik edərsə, onda mən də, heç İmam deyiləm.”[3]

## Əmin və Məmun – təfavütlər, təzadlar

Harun özü hakimiyyətdə olarkən (anası Zübeydə olan) Məhəmməd Əmini öz vəliəhdi seçib camaatdan onun üçün beyət alır və (anası iranlı qızı olan) Abdullah Əl-Məmunu isə özünün ikinci vəliəhdi təyin edir. Hicrətin yüz doxsan üçüncü ilində Haruna xəbər verirlər ki, Xorasan əyalətinin şəhərlərində camaat qiyam etmiş, ordu başçıları nə qədər çalışsalar da, qiyamı yatıra bilməmişlər. Harun öz vəzir-vəkili, müşavirləri ilə məsləhətləşdikdən sonra bu qərara gəlir ki, özü şəxsən qiyam qaldırılmış məntəqəyə gedib xilafət ordusunu qiyamı yatırtmaq üçün xorasanlıların canına salsın. Bu məqsədlə oğlu Əmini Bağdadda öz yerində saxlayıb Xorasana vali təyin etdiyi oğlu Məmunu isə özü ilə qiyam məntəqəsinə aparır.

Harun qiyamı yatırda bilir və necə deyərlər səs-küyün qarşısını alır. Ancaq o, bir daha xilafətin mərkəzi olan Bağdada qayıda bilmir. Hicrətin yüz doxsan üçüncü ili cəmadil-uxra (cəmadis-saniyə) ayının üçündə (Məşhəd şəhərinin yaxınlığındakı) Tus şəhərində vəfat edir və iki qardaşı rəqabət səhnəsində yalqız buraxır.[4]

---

[1] Uyuni-əxbarir-Riza, c.2, səh.226.
[2] Əxbari-uyunir-Riza, c.1, səh.226.
[3] Biharül-ənvar, c.49, səh.155.
[4] İmam Riza əleyhissəlamın həyatı, səh.58-59.

## Xəlifə Əminin məğlub olması

Harun Tus şəhərində vəfat etdikdən dərhal sonra camaat onun Bağdadda qalmış oğlu Əminə beyət edir. Onun xəlifə olmasından cəmi on səkkiz gün keçməmiş, qardaşı Məmunu vəliəhdlikdən çıxarıb öz oğlu Musanı vəliəhd seçmək fikrinə düşür. O, bu barədə öz vəzirləri ilə məsləhətləşsə də, Məmunun vəliəhdlikdən çıxarılmasını təkid edən Əli ibn İsa Mahandan başqa heç kəs bu fikirlə razılaşmır. Əmin isə axırda qardaşının vəliəhdlikdən çıxarılması barədə qərar verir. Məmun da öz növbəsində qardaşının bu hərəkətinə cavab olaraq onu xəlifəlik məqamından kənarlaşdırır. Aparılan bir sıra nizami mübarizələrdən sonra nəhayət hicrətin yüz doxsan səkkizinci ilində Əmin öldürülür.[1] Beləliklə, ölkənin bütün işləri Məmunun ixtiyarına keçir.

## İmam Riza əleyhissəlamın xəlifə Əminin dövründəki nisbi azadlığı

Xəlifə Əminin hakimiyyəti və Harunun ölümündən Məmunun hakimiyyətə gəldiyi dövrə qədər İmam Riza (əleyhissəlam) ilə dövlət məmurları arasında heç bir toqquşma tarixdə gözə dəymir. Məlum məsələdir ki, Bəni-Abbas xəlifələri daxili ixtilaflara, Əminlə Məmun arasındakı münaqişələrə, Məmunun vəliəhdlikdən çıxarılıb Əminin oğlu Musanın vəliəhd seçilməsi kimi çəkişmələrə məruz qaldıqları kiçik bir müddətdə İmam Riza (əleyhissəlam) və ümumiyyətlə, Əli əleyhissəlamın nəslindən olanlara əziyyət etməyə heç vaxt tapa bilməmişdilər. Biz bu illəri (193-198 h.q) İmam Riza əleyhissəlamın nisbi azadlıq və o Həzrətin mədəniyyət təbliğləri aparması üçün yaxşı fürsət tapdığı bir dövr hesab edə bilərik.[2]

## Məmun kimdir?

Məmunun anası Məracil adlı xorasanlı bir kəniz olmuş, oğlunun anadan olmasından bir neçə gün sonra vəfat etmiş, beləliklə də, Məmun anasız və yetim bir uşaq kimi saxlanılmışdır. Tarixçilər yazırlar ki, Məmunun anası Harunun aşbazxanasında olan kənizlərin ən eybəcəri və ən çirkini olmuşdur. Bu məsələnin özü onun necə hamilə olmaq dastanını sübut edir.[3]

Məmun hicrətin yüz yetmişinci ilində – atası Harunun xəlifəlik məqamına çatdığı gün anadan olmuş, hicrətin iki yüz on səkkizinci ilində vəfat etmişdir. Atası Məmunu tərbiyələndirmək üçün onu Cəfər ibn Yəhya Bərməkiyə tapşırır. Ona Zür-riyasəteyn ləqəbi ilə məşhur olub sonralar Məmunun öz vəziri olmuş Fəzl ibn Səhl adlı bir şəxs tərbiyə verir. Məmun ordunun ali baş kamandanlığına isə Tahir ibn Hüseyn Zül-yəmineyni təyin etmişdi.

---

[1] Əl-Kamilu fit-tarix, c.6, səh.287.

[2] İmam Riza əleyhissəlamın həyatı, mühəqqiq Seyyid Əli, səh.60.

[3] Onun necə hamilə olmasını bu cür qeyd edirlər: Harun arvadı Zübeydə ilə şahmat oynayarkən ona uduzur. Zibeydə Haruna deyir ki, uduzduğuna görə mütləq, aşbazxanasının ən eybəcər, ən çirkin kənizi ilə yaxınlıq etməlidir. Bu şərtə razı olmayan Harun Zübeydəni razı salmaq üçün bütün Misir və İraq gəlirini ona verəcəyini bildirir. Ancaq Zübeydə bununla razılaşmır. Harun Ər-Rəşid məcbur olub aşbazxananın ən eybəcər, ən çirkin kənizi olan Məracillə yaxınlıq edir. Bu yaxınlığın nəticəsində Mə’mun dünyaya gəlir (Həyatül-həyəvan).

## Məmunun xüsusiyyətləri

Məmunun həyatı başdan-ayağa fəaliyyətlə dolu olmuş və o, hər hansı bir rifah, asayiş və əyləncədən uzaq olmuşdur. Onun həyatı Zübeydənin qucağında böyümüş qardaşı Əminin həyatının tam əksinə idi. Zübeydəni tanıyan hər hansı bir şəxs Əminin həyat tərzinin nə dərəcədə əyləncə və keflə keçdiyini asanlıqla anlaya bilər. Məmun heç də qardaşı kimi özünü bir o qədər də əsil-nəcabətli bilmirdi. Nə təkcə öz gələcəyinə arxayın deyildi, üstəlik çox yaxşı başa düşürdü ki, Abbasilər onun hakimiyyətinə tabe olmayacaqlar. Buna görə də, özünü ona arxalana biləcək bir dayaqsız bilir, məhz bu səbəbdən qollarını çırmalayıb gələcək işlər barədə planlar çəkməyə başlayır. Məmun tutduğu mövqeyini anladıqdan sonra, həmçinin, qardaşı Əminin bəzi cəhətlərdə ondan üstün, özünün isə həmin cəhətlərdən məhrum olduğunu başa düşdükdən sonra gələcək planlarını təyin edə bildi. Əminin buraxdığı səhvlər eyni zamanda onun üçün ibrət dərsi oldu. Məsələn, Fəzl başı əyləncəyə qarışmış Əminin səhvlərini görüb Məmuna deyirdi ki, sən özünü təqvalı, dindar, və əxlaqlı göstər. Məmun da Fəzl dediyi kimi edərək Əminin ciddi yanaşmadığı işlərə çox ciddiyyətlə yanaşırdı. Ümumiyyətlə, Məmun müxtəlif elm sahələrində şöhrətlənmiş və öz tay-tuşlarından, hətta bütün Abbasi nümayəndələrindən üstün idi. Bəziləri deyirdilər ki, Abbasilər arasında Məmundan biliklisi yoxdur. İbn Nədim onun haqqında yazmışdır: "Məmun bütün xəlifələrlə müqayisədə fiqh və əqaid elmlərində alim idi." Həmçinin, Həzrət Əli əleyhissəlamdan rəvayət olunmuşdur ki, bir gün o Həzrət Bəni-Abbas sülaləsi haqqında danışarkən buyurmuşdur: "Onların yeddincisi (Məmun) hamısından bilikli olacaqdır." Süyuti, İbn Təğri Bərdi və İbn Şakir Kətibi Məmunu bu cür təriflәmişlər: "Məmun uzaqgörənlik, iradə, səbr, bilik, zirəklik, heybət, şücaət, şərafət və səxavət baxımından Bəni-Abbasın ən yaxşı şəxsi olmuşdur. Düzdür, o, bu xüsusiyyətlərin hamısını Quranı məxluq bilməsi ilə ləkələmişdi." Məmunun atası da, onun qardaşı Əmindən üstün olduğunu vurğulayıb demişdi: "...Belə qərara gəlmişəm ki, vəliəhdlik məsələsində dəyişiklik edib onu elə bir şəxsə tapşırım ki, əxlaqını daha çox bəyənir, rəftarını xoşlayır, siyasətinə arxayın, zəiflik və süstlük baxımından ondan arxayınam. Bu da Abdullah Əl-Məmundan başqa bir şəxs deyildir. Ancaq Bəni-Abbas öz nəfslərinin tələbinə əsasən, Məhəmmədi (Əl-Əmini) istəyir. Çünki o özü də nəfsani istəklərinin ardınca olub əli israf cəhətdən açıqdır və onun qərar çıxarmasında qadın və kənizlərin də rolu var. Abdullahın (Əl-Məmunun) isə gözəl metodu, özünəməxsus rəyi vardır və bu cür böyük bir vəzifəni mənimsəməyə etibarlı şəxsdir..."[1]

## İmam Riza (əleyhissəlam) Məmunun dövründə

Məmunun hakimiyyətə gəlişi ilə İmam Riza əleyhissəlamın həyatında yeni bir səhifə açılır. Bu elə bir səhifə idi ki, başdan-ayağa İmam Riza əleyhissəlamın qəmli-qüssəli illəri ilə dolu idi.

Xəlifəlik məqamını qəsb edənlərin (istər Bəni-Üməyyədən olsun, istərsə də Bəni-Abbasdan) ən çox qorxduqları şəxslər Əli əleyhissəlamın övladları olmuşdur. Çünki,

[1] İmam Riza əleyhissəlamın siyasi həyatı, səh.97-100.

camaat (hamısı da olmasa, böyük bir qismi) xəlifə olmağı onların haqqı bilir və üstəlik onları hər cür fəzilət sahibi bilirdi. Elə buna görə də, Əli (əleyhissəlam) övladları daima işkəncələrə məruz qalaraq xəlifələr tərəfindən əziyyət çəkir, axırda da onların əli ilə şəhid olurdular.

Məmun isə şiəliyə rəğbət bəsləyir və ətrafındakıların da əksəriyyəti Həzrət Əli əleyhissəlamın övladlarına qarşı mehriban olub onlara xüsusi hörmət bəsləyən iranlılardan ibarət idi. Bu səbəbdən Məmun öz ata-babası Harun və Mənsur kimi İmamı həbs edib ona əziyyət verə bilmirdi. Buna görə də, Məmun yeni bir metod fikirləşir. Düzdür, bu metod heç də sabiqəsiz olmamış və keçmiş xəlifələrin dövründə icra olunmuşdu, ancaq necə olsa da, kənardan bir az yaxşı nəzərə çarpırdı. Ondan sonrakı xəlifələr də, məhz bu metoddan istifadə etməyə başalayırlar. Məmun bu qərara gəlir ki, İmam Riza əleyhissəlamı öz iqamətgahı yerləşən Mərv şəhərinə gətirib, o Həzrətlə mehribancasına rəftar etsin və onun elmi-ictimai mövqeyindən istifadə etməklə yanaşı bütün işlərini nəzarət altına alsın.

## Məmunun İmam Riza əleyhissəlamı Xorasana dəvət etməsi

Məmun əvvəlcə İmam Riza əleyhissəlamı, Əli əleyhissəlamın nəslinin adlı-sanlı şəxsləri ilə birlikdə xilafət mərkəzinə hörmətlə dəvət etdi.[1]

İmam Riza (əleyhissəlam) Məmunun dəvətini qəbul etmədi. Lakin Məmun çox təkid etdikdən və İmam Riza (əleyhissəlam) ilə onun arasında çoxlu məktublaşmalar olduqdan sonra nəhayət, o Həzrət Əli əleyhissəlamın nəslindən olan bir dəstə adlı-sanlı şəxslərlə birlikdə Mərv istiqamətində hərəkət etdi.[2]

Məmun İmam Riza əleyhissəlamın karvanını gətirmək vəzifəsinə təyin olunmuş Cüludiyə, digər bir rəvayətə görə isə Rəca ibn Əbu-Zəhhana tapşırmışdı ki, karvandakılara, xüsusən də, İmam Riza əleyhissəlama lazımi hörməti etsin. Ancaq İmam Riza (əleyhissəlam) camaatı xəbərdar etsin deyə, qəsdən bu səfərdən narazı qaldığını bildirirdi. O Həzrət Mədinədən çıxmağa hazırlaşanda, qohum-əqrəbasını yığıb onlardan onun halına ağlamasını istəyərkən buyurmuşdur: “Mən bir daha öz ailəmə tərəf qayıtmayacağam.”[3] Sonra Peyğəmbərlə (səlləllahu əleyhi və alih) vidalaşmaq məqsədilə o Həzrətin məscidinə daxil oldu. İmam neçə dəfə vidalaşsa da, yenə Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinə tərəf qayıdıb uca səslə ağladı. Müxəvvil Sistani yazır: “Bu zaman o Həzrətin yanına gəlib salam verərək səfərinin uğurlu olmasını dilədim. O buyurdu: *“Mənə yaxşı-yaxşı bax, cəddim (Peyğəmbərin) yanından uzaqlaşıb qürbətdə öləcək və Harunun yanında dəfn olunacağam.”*[4]

İmam Riza əleyhissəlamın karvanının Mədinədən Mərvə gəldiyi yol (Məmunun göstərişinə əsasən) Bəsrə, Əhvaz və Fars[5] şəhərlərindən keçirdi. Ola bilər, Məmun ona görə bu yolu seçmişdi ki, karvan şiələrin mərkəzi olan Cəbəl (İranın dağlıq

[1] İmam Riza əleyhissəlamın həyatı, səh.72.
[2] Kəşfül-gümmə, c.3, səh.65; Əl-İrşad, səh.309.
[3] Biharül-ənvar, c.49, səh.117.
[4] Biharül-ənvar, c.49, səh.117.
[5] Üyuni əxbarir-Riza, c. 2, səh. 194; Biharül-ənvar, c. 49, səh. 91-92.

hissəsindən Həmədan və Qəzvinə qədərki ərazisi), Kufə, Kirmanşah və Qum şəhərindən keçməsin.[1]

## İmam Rizaya (ə) xilafətin təklifi

İmam Riza əleyhissəlamın hərəkət etdiyi karvan şəvval ayında Mərv şəhərinə çatır. Şəhərdən neçə fərsəx[2] kənarda Məmun, Fəzl ibn Səhl və Bəni-Abbasdan olan digər nümayəndələr İmam əleyhissəlamın pişavazına çıxaraq böyük ehtiramla karvanı şəhərə daxil edirlər. Məmunun əmrinə əsasən, rifah və asayiş üçün lazım olan hər cür şərait İmam əleyhissəlamın ixtiyarına qoyulur. Yol yorğunluğunun çıxması məqsədilə bir neçə gün davam edən istirahətdən sonra İmam Riza (əleyhissəlam) ilə Məmun arasında müzakirələr başlayır və Məmun hakimiyyəti qəbul etməyi İmam Riza əleyhissəlama təklif edir. İmam Riza (əleyhissəlam) bu təklifdən ciddi şəkildə imtina edir. Fəzl ibn Səhl heyrətlə deyir: "Xəlifəlik məqamını o günkü kimi heç vaxt dəyərsiz və ləyaqətsiz görmədim. Məmun hakimiyyəti Əli ibn Musa ər-Riza əleyhissəlama təklif edir, o isə hakimiyyəti qəbul etmirdi."[3] İmam Riza əleyhissəlamın imtina edəcəyini bəlkə də, qabaqcadan təxmin etmiş Məmun dedi: "İndi ki belədir, onda vəliəhdliyi qəbul et!" İmam Riza (əleyhissəlam) buyurdu: "Məni bunda da üzürlü hesab et." Məmun bu dəfə İmam əleyhissəlamı üzürlü hesab etməyib hirsli halda bu cümləni dedi: "Ömər ibn Xəttab vəfat edərkən altı nəfərdən ibarət şura təyin etdi. Şuranın üzvlərindən biri də, Əmirəl-möminin Əli (əleyhissəlam) idi. Ömər həm də vəsiyyət etmişdi ki, kim müxalifətçilik edərsə, boynu vurulsun... İndi sən də mənim təklifimi qəbul etməlisən! Çünki mən bundan başqa çarə görmürəm."[4] Məmun əslində bu sözlərlə İmam əleyhissəlamı hədələyirdi. Sonra daha açıq şəkildə İmam əleyhissəlamı təhdid edib dedi: "Sən həmişə mənim fikrimin əksinə hərəkət edir və özünü mənim qüdrətimdən amanda görürsən. And olsun Allaha ki, əgər vəliəhdlikdən imtina etsən, səni güclə onu qəbul etməyə məcbur edəcəyəm. Əgər onda da qəbul etməsən, səni öldürəcəyəm."[5] İmam Riza (əleyhissəlam) məcbur olub Məmunun təklifini qəbul edərək buyurur: *"Mən vəliəhdliyi bu şərtlə qəbul edərəm ki, ölkə işlərində bir dənə də olsun, hökm verməyim və hakimiyyət orqanlarında da hakim təyin edib çıxartmaq, hökm və fətva vermək kimi işlərə qarışmayım."*

## Həyata keçirilməyən vəliəhdlik məqamı

Mərv şəhərinin əhalisi hicrətin iki yüz birinci ilinin ramazan ayının orucunu tutmağa hazırlaşdığı ərəfədə, İmam Riza əleyhissəlamın vəliəhd seçilməsi xəbəri yayılmağa başlayır. Əhali bu xəbəri heyrət dolu sevinclə qarşılayır. Ramazan ayının yeddisi həftənin birinci günü Məmun öz dəstxətti ilə vəliəhd təyin edilməsi məsələsini yazır və onun arxasında da, İmam Riza (əleyhissəlam) başdan-başa işarə və eyham ilə dolu olan bir müqəddimə qeyd etdikdən sonra vəliəhd seçilməsinə

---

[1] İmam Riza əleyhissəlamın siyasəti həyatı, səh.70-74.
[2] Bir fərsəx 6 kilometrə bərabərdir.
[3] Kəşfül-ğümmə, c.3, səh.66.
[4] Əl-İrşad səh.310.
[5] İləlüş-şəraye. c.1. səh.226.

razılıq verməsi barədə öz imzasını çəkir. İmam onu da qeyd edir ki, bu iş heç vaxt baş tutmayacaq (həyata keçməyəcək). Sonra də həmin sənədlə əlaqədar Yəhya ibn Əksəm, Abdullah ibn Tahir və Fəzl ibn Səhl kimi ölkə və ordu başçıları da, bu məsələdə şahid duraraq onu təsdiqlədilər.[1] Ramazan ayının onuncu günü cümə axşamı təntənəli şəkildə təşkil olunmuş məclisdə camaat İmam Riza əleyhissəlama beyət etdi. Beləliklə, o Həzrət xəlifənin vəliəhdlik kürsüsünə əyləşdi. Xəlifənin əmrilə İmam əleyhissəlama tərəf beyət əli uzadan ilk şəxs Məmunun öz oğlu Abbas olmuş, onun ardınca isə baş vəzir Fəzl ibn Səhl, saray müftisi Yəhya ibn Əksəm, ordu başçısı Abdullah ibn Tahir, daha sonra isə hamılıqla məclisdə iştirak edən bütün Bəni-Abbas əyan-əşrafı o Həzrətə beyət etmişdilər.[2]

İmam Riza əleyhissəlamın vəliəhd seçilməsi təbii ki, o Həzrətin dostları üçün baş ucalığı idi. Lakin İmam Riza əleyhissəlamın özü bu hadisədən çox narahat və qəmgin idi. O Həzrət bir kişinin həddən artıq çox sevindiyini gördükdə, onu öz yanına çağırıb buyurdu: *“Bu işə bel bağlayıb sevinmə, çünki baş tutmayacaq!”*[3]

## Məmunun, xilafəti imam Rizaya (ə) təklifində qəsdi

Məmunun dövründəki siyasi vəziyyət və şəraiti nəzərdən keçirdikdə, məlum olur ki, o, bir sıra siyasi çətinliklərlə üzləşməli olmuş və bu çıxılmaz vəziyyətlərdən üzüağ çıxmaq üçün çarə axtarırmış. Nəhayət, Məmun bu vəziyyətdən çıxmaq üçün bir neçə cəhətli bir siyasət irəli sürür ki, bu da məhz İmam Riza əleyhissəlamı vəliəhd seçməkdən ibarət olmuşdur. İndi Məmunun üzləşdiyi siyasi çətinlikləri oxucuların nəzərinə çatdırırıq.

## 1. Abbasilərin Məmundan narazılığı

Tarixçilərin hamısının bir nəfər kimi Məmunun ümumiyyətlə, Əmindən qat-qat üstün və xəlifəliyə daha layiq olmasını qeyd etmələrinə baxmayaraq, Bəni-Abbas nümayəndələri onunla müxalif idilər. Qeyd etdiyimiz kimi Harunun özü də bu iki qardaş arasındakı açıq-aşkar təfavütə diqqət yetirmiş və Abbasilərin Məmunla müxalifətçilik edəcəyindən gileylənirdi. Ola bilsin Abbasilərin Məmundan narazı olmalarının səbəbi bu olub ki, Məmunun qardaşı Əmin əsl Abbasi nümayəndəsi idi. Çünki atası Harun, anası da Zübeydə olmuşdur. Zübeydə özü də bir Haşimi olmaqla bərabər, həm də Mənsur Dəvaniqinin nəvəsi, eyni zamanda Abbasilərin ən şərəfli qadını olmuşdur. Əmin Harun ər-Rəşidin süd qardaşı və sarayının ən nüfuzlu şəxsiyyəti sayılan Fəzl ibn Yəhya Bərməkinin qucağında böyümüş, Fəzl ibn Rəbi isə onun qəyyumu olmuşdur. Onun babası xəlifə Osmanın azad etdiyi qul olmuş və buna görə də, Fəzlin Abbasilərə olan məhəbbətində kimsə şəkk etmirdi. Məmun isə əvvəla, Cəfər ibn Yəhya Bərməkinin qucağında böyümüş, Cəfərin isə nüfuzu qardaşı Fəzldən qat-qat aşağı olmuşdur. İkincisi də, onun qəyyumu olan şəxs heç də Abbasilərin ürəyincə deyildi. Çünki Abbasilər onu Ələvilərə meyilli olmaqda müttəhəm edirdilər. Üstəlik Məmunun qəyyumu ilə Əminin qəyyumu Fəzl ibn Rəbi arasında son dərəcə

[1] Kəşfül-qümmə. c.3. səh.123-128.
[2] İmam Riza əleyhissəlamın həyatı, səh.82-87.
[3] Kəşfül-ğümmə, c.3, səh.67.

kin-küdurət hakim idi. O, sonradan Məmunun baş vəzir vəzifəsinə təyin etdiyi iranlı Fəzl ibn Səhl olmuşdur. Abbasilər iranlılardan qorxur və onların əlindən artıq boğaza yığılmışdılar. Buna görə də, tez saraydakı bütün iranlıları (farsları) türk və başqa millətlərlə əvəz etdilər.

## 2. Əminin daha üstün mövqeyi

Əminin hakimiyyətini möhkəmlətmək üçün fəaliyyət göstərən, etibar edə biləcək çoxsaylı dost və dayaqları var idi. Bunlar onun dayıları, Fəzl ibn Yəhya Bərməki, bərməkilərin əksəriyyəti, anası Zübeydə və həm də ərəblərdən ibarət idilər. Bunlar, Harun ər-Rəşidi öz təsiri altına alaraq ölkənin siyasi idarəçiliyində mühüm rol oynayan nüfuzlu şəxslər olduğu üçün artıq təbii məsələdir ki, Harun onların qarşısında aciz qalıb nəticədə onların göstərişinə uyğun olaraq vəliəhdlik məqamına kiçik oğlu Əmini seçməli, böyük oğlu Məmunu isə Əmindən sonrakı vəliəhd təyin etməli idi. Əminin birinci vəliəhd olmasında bəlkə də, (dayısı) İsa ibn Cəfərin yüksək mövqedə durması və eləcə də, Bəni-Abbasın nəsil təəssübkeşliyi əsas rol oynamışdır. Əlbəttə, bu məsələdə əsas rol oynayanlardan biri də Zübeydə olmuşdur ki, o da öz növbəsində məsələni oğlu Əminin xeyrinə başa çatdırmışdı. Bundan əlavə, ərəblər arasındakı nəsil təəssübkeşliyi də çox güman ki, Harunun Əmini Məmundan üstün tutmasında öz işini görmüşdü. Tarixçilərdən bəziləri bu məsələyə aşağıdakı ifadə ilə toxunmuşlar: “Hicrətin yüz yetmiş altıncı ilində Harun ər-Rəşid Məmunun, qardaşı Əmindən sonra vəliəhd olacağı haqda qərar çıxarır. Məmun yaş cəhətdən bir ay qardaşı Əmindən böyük idi. Ancaq Əmin, Cəfər qızı Zübeydədən, o (yəni, Zübeydə) isə Haşimi qadınlarından olmuşdur. Məmun isə Məracil adlı bir kənizdən olmuş, onun özü isə Məmunu doğduqdan bir neçə gün sonra vəfat etmişdi.

## MƏMUNUN ARXALANDIĞI NƏ İDİ?

Məmunun atasının onu ikinci vəliəhd təyin etməsinə baxmayaraq bu, heç də Məmunu gələcəkdə hakimiyyətə çatmağa arxayın etmirdi. Çünki o, nə vaxtsa qardaşı və digər Abbasi əyan-əşrafının vədlərinə əməl etməyəcəklərindən qorxur və onların vədlərinə sadiq qalacaqlarına arxayın deyildi. Belə olduğu halda, Məmun öz mövqeyinin təhlükə qarşısında durduğunu görəndə başqalarına arxalana bilərdimi? Məmun hakimiyyətə necə çata bilər və hakimiyyətə çatdıqdan sonra onu necə qoruyub saxlaya bilər? Bunlar Məmunun daima fikrində dolandırdığı suallar idi. O, son dərəcə diqqət, zirəklik və düşüncə ilə bu suallara cavab tapmalı, sonra isə həmin cavablara uyğun olaraq öz hərəkətini başlamalı idi.

İndi isə Məmunun müxtəlif dəstələr arasından hansına arxalana bilib intizarında olduğu (həm öz əleyhinə, həm də hökumətinə qarşı), təhlükələr zamanı əlbir ola biləcəyi dəstəni müəyyənləşdirmək üçün bu dəstələrin Məmuna olan münasibətini araşdırırıq.

## 1. Ələvilərin Məmuna olan münasibəti

Məlum məsələdir ki, Ələvilər nə təkcə Məmunun, eləcə də, heç bir Abbasi xəlifəsinin hakimiyyətini qəbul etmirdilər. Çünki onların öz arasında hakimiyyətə

gəlməyə daha layiqli olan şəxslər var idi. Bundan da əlavə, Məmunun mənsub olduğu sülalələyə (Bəni-Abbasa) Əli əleyhissəlamın övladları daha çox nifrət bəsləyirdilər. Çünki onlar Ələvilərə Bəni-Üməyyənin etdiyi zülmdən də çox əzab-əziyyət etmişdilər.

Bəni-Abbasın Ələvilərin qanını necə axıtdığını, onların əmlakını necə qəsb etdiyini, yurd-yuvalarından necə didərgin saldığını, bir sözlə, daima onları müxtəlif növ əzab-əziyyətlərə məruz qoyduğunu çox yaxşı bilirik. Məmun üçün isə bu çirkin ləkə kifayət idi ki, o, nübüvvət ağacının bütün qol-budaqlarını qırıb bir neçə İmamın kökünü kəsmiş Harunun oğludur.

## 2. Ərəblərin Məmuna və yaratdığı sistemə münasibəti

Ərəblər də Məmunun hakimiyyətinə boyun əymirdilər. Bu da onunla əlaqədar idi ki, öncə qeyd etdiyimiz kimi onun anası, tərbiyəçisi və qəyyumunun hamısı qeyri-ərəb olmuşdur. Ərəblər isə əsassız təəssübkeşlikləri nəticəsində digər millətləri (Quran və Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurduğunun əksinə olaraq) öz nökərləri bilir, təbii ki, Məmunun bu cür olması da, ərəblərin bu təəssübkeşliyinə uyğun gəlmirdi. Xüsusən də, iranlılar gözəl istedadları nəticəsində elmi və siyasi məqamları ələ keçirərək meydanı məğrur ərəblərə çox dar etmişdilər. Belə olduğu halda isə məlumdur ki, ərəblər iranlılara və eləcə də, onlarla əlaqə saxlayan hər hansı bir şəxsə düşmən kəsiləcəklər. Buna görə də, ərəblər Məmuna qarşı nifrət bəsləyirdilər.

## 3. Əmini öldürmək və arzuların boşa çıxması

Əmini öldürmək zahirdə Məmun üçün nizami bir qələbə sayılsa da, bu ölüm onun plan və məqsədinin əleyhinə yönəlmiş mənfi reaksiyalardan kənar olmamışdır. Məmunun özünü xatircəm etmək üçün istifadə etdiyi metodlar xüsusilə, bu reaksiyalara məruz qaldı. O Əmini öldürmək əmrini Tahirə tapşırır, Əminin kəsilmiş başını onun hüzuruna gətirən şəxsə isə (şükr səcdəsi yerinə yetirdikdən sonra) bir milyon dirhəm pul bağışlayır. Sonra da əmr verir ki, qardaşının kəsilmiş başını bir çubuğa keçirib sarayın qarşısından assınlar, qoy məvacibini almağa gələn hər bir şəxs əvvəl onun başına lənət göndərib sonra pulunu alsın. Məmun bunlarla da, kifayətlənməyib əmr edir ki, Əminin kəsilmiş başını Xorasanda gəzdirsinlər. Sonra onu İbrahim ibn Mehdinin yanına göndərərək onu danlayır ki, nəyə görə Əmin üçün əzadarlıq edirsən?

Bu hadisələrdən sonra Abbasilərdən, ərəblərdən və hətta digər camaatdan nə gözləmək olardı? Onların Məmuna münasibəti necə ola bilərdi? Ən azı bunu deyə bilərik ki, Məmun qardaşını öldürüb bu cür nifrətli hərəkətlər etməklə öz şöhrətini ləkələyir, camaatın etimadından uzaqlaşaraq onların (istər ərəb, istərsə də qeyri-ərəb) nifrətini qazanırdı.

## Çıxılmaz bir vəziyyət

Deyilənlərdən əlavə Məmunu hakimiyyətə gətirib çıxaran xorasanlılar da indi ondan üz döndərmiş, bu isə onun üçün böyük bir təhlükə yaratmışdı. Vəziyyətin belə olduğunu görən Ələvilər Məmunla qardaşı arasında gedən mübarizəni fürsət bilib öz fəaliyyətlərini daha da genişləndirməyə, sıralarının sayını artırmağa başlayırlar. İndi Ələvilərin aşağıda qeyd etdiyimiz müxtəlif yerlərdə qaldırdığı qiyamları nəzərə almaqla Məmunun düşdüyü çıxılmaz mövqeyi təsəvvür edə bilərsiniz.

## Ələvilərin qiyamları

Bir vaxtlar Məmunun tərəfdarları sırasında olmuş Əbus-Səraya Kufədə qiyam qaldırır. Onun ordusu qarşılaşdığı hər hansı bir ordunu məğlub edir və hər hansı şəhərə çatırdısa, oranı ələ keçirirdi. Deyilənə görə, Əbus-Sərayanın qiyam qaldırdığı gündən edam olunduğu günə qədərki on ay müddətində xəlifənin iki yüz min əsgəri öldürülmüşdür.

Osmanın tərəfdarlarının mərkəzi olan Bəsrə şəhərində də, Ələvilər himayə olunur, nəticədə Zeydün-nar qiyam qaldırır.

Məkkə və Hicaz ətrafında Dibac ləqəbi ilə məşhur olub Əmirəl-möminin adlandırılan Məhəmməd ibn Cəfər qiyam qaldırır.

Yəməndə İbrahim ibn Musa ibn Cəfər xəlifəyə qarşı qiyam qaldırır.

Mədinədə Məhəmməd ibn Süleyman ibn Davud ibn Həsən qiyam qaldırır.

Əhalisinin əksəriyyəti əsasən Osmanın tərəfdarları olan Vasitdə Cəfər ibn Zeyd ibn Əli və Hüseyn ibn İbrahim ibn Həsən ibn Əli qiyam qaldırırlar. Mədinədə də, Məhəmməd ibn İsmail ibn Məhəmməd qiyam edir.

Bir sözlə, elə bir yer qalmamışdı ki, orada Ələvilərdən biri ya öz istəyi ilə, ya da camaatın tələbi əsasında Abbasilərə qarşı qiyam qaldırmasın. İş o yerə çatmışdı ki, Bəni-Üməyyə və Bəni-Mərvan tərəfdarları kimi tanınmış Beynün-nəhreyn və Şam əhalisi də, Əbus-Sərayanın həmkar və silahdaşı olan Məhəmməd ibn Məhəmməd Ələvinin tabeçiliyinə keçərək Əbus-Sərayaya məktub yazıb bildirir ki, sənin əmrini almaq üçün qasidinin yolunu gözləyirik.[1]

## Çoxcəhətli çıxış yolu

Məmun başa düşmüşdü ki, bu çətinliklərdən çıxmaq üçün aşağıdakı tədbirləri həyata keçirməlidir:

**1)** Ələvilərin qaldırdığı qiyamları yatırtmaq;

**2)** Abbasilər hökumətini şəri hökumət kimi tanımaları barədə Ələvilərdən etiraf almaq;

**3)** Ələvilərin camaat arasındakı hörmətini aradan aparmaq;

**4)** Ərəblərin xəlifəyə etimadını doğrultmaq;

**5)** Öz hökumətinin Xorasan əhalisi və eləcə də, bütün iranlılar tərəfindən qanuni hökumət kimi qəbul olunması;

**6)** Abbasiləri və onların tərəfdarlarını razı salmaq;

**7)** Camaatın Məmuna olan etimadını gücləndirmək;

[1] İmam Riza əleyhissəlamın siyasi həyatı, səh.97-123.

Çünki Məmun qardaşını öldürməsi nəticəsində camaatın özünə olan etimadını azaltmışdı.

**8)** Ən əsası isə onu çox hörmətli bir şəxs tərəfindən gözləyən təhlükədən uzaq olmaq.

Bəli, Məmun İmam Riza əleyhissəlamdan həddən artıq qorxu hissi keçirir və özünü o Həzrətin təhlükəsindən amanda saxlamaq istəyirdi.

Beləliklə də, İmam Riza əleyhissəlamı vəliəhd seçib onu hakimiyyətdə şərik etməklə bütün bu məqsədlər təmin olunurdu. Çünki (Ələvilərin başında duran) İmam Riza əleyhissəlamı hakimiyyətə şərik qoşmaqla bütün Ələvilər silahlarını yerə qoyacaq, şüarlarına son qoyaraq qaldırdıqları qiyamlar nəticəsində camaat arasında qazandıqları hörməti itirməli olacaqdılar. Digər tərəfdən də, Məmun Əhli-beyt (əleyhimussəlam) tərəfdarı olan xorasanlıların yanında hörmət qazanacaq və qardaşını öldürməsini belə əlaqələndirəcək ki, guya hakimiyyəti onun əsl sahibinə (yəni, İmam Riza əleyhissəlama) qaytarmaq üçün qardaşını öldürmüşdür. Bunların hamısından əsası isə bu idi ki, İmam Riza əleyhissəlamı Mərv şəhərinə gətizdirib onun işlərini nəzarət altına almaqla onun təhlükəsindən amanda qalmaq təmin olunurdu. Qalırdı təkcə ərəblərlə Abbasilər ki, onlara da Mə`mun iranlılar və Ələvilərin köməyi ilə müqavimət göstərə bilərdi.

## Şübhələr və cavablar

Əldə olan fakt və sübutlar Məmunun İmam Riza əleyhissəlamın vəliəhd seçilməsi məsələsinə olan sədaqətini şübhə altına salır. Əgər Məmun doğrudan da, İmam Riza əleyhissəlamı vəliəhd seçirdisə bəs onda:

**1)** Nə üçün Məmun İmam Riza (əleyhissəlam) Mədinədə olarkən bu işi həyata keçirmir və onu məmurlar vasitəsilə Mərvə gətizdirir? Halbuki, o, Mərvdə ola-ola İmam əleyhissəlamın adından xütbə oxuyub, özü o Həzrətin nümayəndəsi kimi İranı idarə edə bilər və İmam (əleyhissəlam) da özü nübüvvət mərkəzində qala-qala Peyğəmbərin (səlləllahu əleyhi və alih) xəlifəlik məqamına nail olardı.

**2)** Nəyə görə İmam əleyhissəlamı Qum yolu ilə deyil, məhz çətin, isti və yorucu olan Bəsrə, Əhvaz və Fars şəhərlərindən, böyük Lut səhrasından Xorasan və Mərvə gələn yolla gətirilməsini əmr edir?[1] Halbuki, Kufə və Qumda İmam Riza (əleyhissəlam) daha yaxşı qarşılanar və Məmunun zahiri məqsədi üçün daha geniş zəmin yaranardı.

**3)** Nəyə görə İmam əleyhissəlama xəlifəlik təklifini etdiyi ilk müzakirələrdə İmam Riza əleyhissəlamdan sonra İmam Məhəmməd Təqi əleyhissəlamı yox, məhz özünü vəliəhd təyin edir? Heç olmasa bu məsələni (İmam Riza əleyhissəlamdan sonra vəliəhd təyin edilməsi məsələsini) İmam Riza əleyhissəlamın ixtiyarına buraxaydı.

**4)** İmam əleyhissəlamın vəliəhd olması (özü də bu şərtlə ki, o Həzrətin hökumət işlərinə heç bir qarışacağı olmayacaq) İslam ümmətini həqiqətə nə qədər yaxınlaşdıra bilərdi? Bunu da nəzərə almaq lazımdır ki, İmam (əleyhissəlam) Məmundan təxminən iyirmi yaş böyük olmuş və təbii ki, adi hesablamalara əsasən, o Həzrət

---

[1] Üyuni əxbarir-Riza, c. 2, səh, 194.

Məmundan tez vəfat edəcək, nəticədə isə hakimiyyət heç vaxt Ələvilərə çatmayacaqdı.

**5)** Əgər Məmun sidq ürəkdən hərəkət edirdisə, bəs onda nəyə görə İmam (əleyhissəlam) vəliəhdliyi qəbul etmək istəmədikdə, onu təhdid edərək güclə vəliəhdliyi qəbul etdirir?

**6)** Nəyə görə İmam Riza (əleyhissəlam) (hər hansı səbəb üzündən) şəhid olduqda, Məmun eynilə İmam Riza əleyhissəlama qarşı göstərdiyi münasibəti İmam Cavad əleyhissəlama da göstərdiyi halda, onu vəliəhd təyin etmir?

**7)** Nə üçün Məmun böyük Fitr namazında İmam Riza əleyhissəlamı yoldan qaytarıb camaatın axınının o Həzrətə qoşulmasının qarşısını alır?

**8)** Nə üçün Məmun özü Mərvdən Bağdada gedərkən İmam Riza əleyhissəlamı Mərvdə saxlamayıb özü ilə aparır? Əgər o Həzrət həqiqətən də, vəliəhddirsə, Mərvdə qalıb ölkənin bu hissəsini idarə etməyinin nə eybi var idi?

Bunlar bir sıra suallardır ki, ilk baxışda ola bilər sadə görünsün, ancaq bir az diqqət yetirdikdə, məlum olur ki, Məmun bu işdə heç də sidq ürəkdən addım atmayıb, əksinə, onu bu addımı atmağa məcbur edən başqa səbəblər olmuşdur.[1]

## İmam Riza əleyhissəlamın vəliəhdliyi qəbul etməsinin səbəbləri

İmam Riza (əleyhissəlam) o vaxt vəliəhdliyi qəbul etdi ki, gördü əgər vəliəhdliyi qəbul etməsə, nə təkcə öz canı, həm də bütün Ələvilərin və dostlarının canı təhlükə altına düşəcək. İmam Riza (əleyhissəlam) həm öz canını, həm də şiə dostlarının canını təhlükədən qorumalı idi. Çünki İslam ümməti onların vücuduna və məsləhətlərinə böyük ehtiyac duyurdu. Onlar camaatın çətinlik və şübhələrlə qarşılaşdığı zaman, yol göstərən, rəhbər və başçı olmaq üçün mütləq sağ qalmalı idilər.

Bəli, camaatın İmam əleyhissəlama, onun yetirmələrinə böyük ehtiyacı var idi. Çünki o dövrdə biganə əqidə və mədəniyyətlər hər tərəfə yayılaraq fəlsəfi bəhslər və Allahı tanımanın əsaslarına dair şübhələr adı altında hamını küfrə tərəf sürükləyirdi. Buna görə də, İmam (əleyhissəlam) mütləq sağ qalıb ümməti küfr girdabından çıxartmaqla camaata nicat vermək vəzifəsini yerinə yetirməli idi. Tarixdə görürük ki, İmam Riza (əleyhissəlam) (vəliəhd olduqdan sonra ömrünün qısa olmasına baxmayaraq) əməli şəkildə bu vəzifəni layiqincəsinə yerinə yetirmişdir. Əgər İmam Riza (əleyhissəlam) vəliəhdliyi birdəfəlik və qəti şəkildə qəbul etməyib həm özünü, həm də dostlarını təhlükəyə salsaydı, bu fədakarlığını İmam Hüseyn əleyhissəlamın həyat bəxş edən şəhadəti kimi ümmətin müşkülünü həll edəcəyi, məlum deyildi. Bundan da əlavə, vəliəhdlik məqamına nail olmaq Abbasilər tərəfindən bir razılıq kimi hesab olunub Ələvilərin də, hökumətdə şərik olmasını sübut edirdi.

İmam Riza əleyhissəlamın vəliəhdliyi qəbul etməsinin səbəblərindən biri də bu idi ki, qoy camaat Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinin də siyasi səhnədə hazır olduğunu görüb heç də onların səhnədən kənarda olduqlarını zənn etməsin və belə fikirləşməsinlər ki, onlar ancaq elm adamları olub əməldə millətin işinə heç bir qarışacaqları yoxdur. Bəlkə İmam Riza əleyhissəlamın İbn Ərəfənin sualına verdiyi

[1] İmam Riza əleyhissəlamın həyatı, səh.138-141.

cavabdan məqsədi də, elə bu olmuşdur. O, İmam Riza əleyhissəlamdan soruşmuşdu ki, ey Peyğəmbər (səlləllahu əleyhi və alih) övladı, hansı səbəbə görə vəliəhdliyi qəbul etdin? İmam onun cavabında buyurur ki, babam Əli əleyhissəlamı şuraya daxil olmağa məcbur etmiş səbəbə görə vəliəhdliyi qəbul etdim.[1]

Bunların hamısından əsası isə odur ki, İmam Riza (əleyhissəlam) vəliəhd olduğu müddət ərzində Məmunun əsl simasını camaata tanıtdıraraq onun gördüyü işlərindəki məqsədini ifşa etməklə camaatın fikrindəki bütün şəkk-şübhələri aradan qaldırırdı.

## İmam Riza (əleyhissəlam) həqiqətən də, vəliəhd olmaq istəyirdimi?

Dediklərimiz heç vaxt vəliəhdliyi qəbul etmək məsələsində İmam əleyhissəlamın batini istəyinə sübut ola bilməz. Əksinə, sonrakı hadisələr sübut etdiyi kimi İmam bilirdi ki, heç vaxt Məmun və ətrafındakıların hiylələrindən uzaq olmayıb məqamdan da əlavə, canı onların təhlükəsindən salamat qalmayacaq. İmam (əleyhissəlam) çox yaxşı bilirdi ki, Məmun nəyin bahasına olursa-olsun, onu aradan götürmək (istər cismi, istərsə də mənəvi cəhətdən) istəyir. Lap fərz edək ki, Məmunun heç bir pis fikri olmamışdır, ancaq dediyimiz kimi İmam əleyhissəlamın yaşını nəzərə aldıqda, o Həzrətin Məmunun ölümündən sonra sağ qalacağına ümid yox idi. Deməli, bunların heç biri İmam əleyhissəlamın vəliəhdliyi qəbul etməsinə kifayət etmir. Bunları nəzərə almadıqda və fərz etdikdə ki, İmam əleyhissəlamın Məmundan sonra sağ qalmaq ümidi də olub, ancaq onun hakimiyyəti ilə razılaşmayan nüfuzlu şəxslərlə mütləq üzləşməli olacaqdı. Həmçinin, hökuməti idarəetmə tərzində Allahın qayda-qanunlarını icra etməsi eynilə cəddi Peyğəmbər (səlləllahu əleyhi və alih) və Əli əleyhissəlamın hökumət idarəetmə tərzi kimi olan İmam Riza (əleyhissəlam) Abbasilərin, onların dostlarının və dünya əhlinin narazılığı ilə üzləşəcəkdi.

## Yalnız mənfi mövqe tutmaq düzgün idi

Bütün dediklərimizi nəzərə aldıqda məlum olur ki, İmam Riza əleyhissəlamın bu cür təhlükəli yolla hökumətə gəlməyi qəbul etməyəcəyi təbii idi. Çünki hakimiyyətə gəldiyi təqdirdə nə təkcə öz məqsədlərinə nail olmayacaq, hətta Ələvilərin, eləcə də, onların dostlarının arzu və istəkləri ilə birlikdə məhv olacağına zəmin də yaradacaqdı. Deməli, bu işə müsbət cavab vermək məntiqsiz bir hərəkət olardı.

## İmam Riza əleyhissəlamın Məmunun hiylələri qarşısındakı mənfi mövqeyi

İmam Riza əleyhissəlamın özünün vəliəhdliyi qəbul etməkdə heç bir ixtiyarı olmadığından və bu məqamı öz müqəddəs məqsədlərinə çatmaq üçün vasitə qərar verə bilməyəcəyindən, digər tərəfdən də, o Həzrətin sakit otura bilməyib hökumət işçiləri ilə ayaqlaşa bilməyəcəyindən elə bir iş görməliydi ki, Məmunun hiylələrini dəf edib irəli gedə bilsin.[2] İmam Riza (əleyhissəlam) Məmunun bu hiylələrinə qarşı

[1] Biharül-ənvar, c.49, səh.140; Mənaqibi-Ali-Əbutalib, c.4, səh.364.
[2] İmam Riza əleyhissəlamın siyasi həyatı, səh.162-165.

müxtəlif mövqelər tutur ki, Məmun onları fikrinə belə gətirməmişdi. İndi isə İmam əleyhissəlamın tutduğu bu mövqeləri araşdıraq.

## Birinci mövqe

İmam Riza (əleyhissəlam) Mədinədə olduğu müddətdə Məmunun təklifini qəbul etmir və o qədər inadkarlıq edir ki, Məmunun ondan əl çəkməməsini camaata çatdırır. Hətta bəzi tarixçilər qeyd etmişlər ki, o Həzrətin Mədinədən Mərvə gəlməsi ixtiyari yox, məcburi şəkildə olmuşdur. Belə bir inadkar mövqe seçməkdən məqsəd bu olmuşdur ki, qoy camaat bilsin ki, İmam (əleyhissəlam) Məmunun hiylələrinə aldanmaz və onun hiylə və kələklərini çox yaxşı başa düşür. Bu yolla İmam Riza (əleyhissəlam) camaatda o hadisəyə qarşı şübhə yarada bilir.

## İkinci mövqe

Məmunun İmam Riza əleyhissəlamdan ailəsini də özü ilə gətirməsini istəməsinə baxmayaraq, o Həzrət ailəsindən heç kimi, hətta oğlu İmam Cavad əleyhissəlamı da özü ilə aparmır. Halbuki, bu səfər qısa səfər deyildi. Əksinə, uzun və məsuliyyətli bir səfər olub Məmunun dediyinə görə guya o Həzrət İslam ümmətinin rəhbərliyini öz öhdəsinə götürməli idi.

## Üçüncü mövqe

İmam Riza əleyhissəlamın karvanı Nişabur şəhərində dayanarkən o Həzrət on minlərlə, bəlkə də, yüz minlərlə adamın hüzurunda öz məhbub simasını büruzə verərək aşağıdakı hədisi buyurmuşdur: “Allah-taala buyurmuşdur ki, “La ilahə illəllah” cümləsi mənim istehkamımdır,[1] kim mənim istehkamıma daxil olarsa, mənim əzabımdan amanda qalar.” Həmin gün iyirmi min nəfər bu hədisi İmam əleyhissəlamdan eşitcək yazmışdır. Maraqlı burasıdır ki, İmam (əleyhissəlam) o gün o cür şəraitdə heç də dinin fəri məsəllərindən və camaatın həyatından söhbət etməmiş, oruc, namaz və bu kimi şeylərdən danışmağı lazım bilməmiş, camaatı dünyada təqvalı olmağa və bu kimi işlərə dəvət etməmiş və siyasi bir səfər məqsədilə Mərvə getməsinə baxmayaraq, heç də siyasi və ya öz şəxsi məsələləri barədə söhbət etməmişdir. Bunların hamısının əvəzinə isə camaatın əsl həqiqi rəhbəri olduğu üçün onların diqqətini həyatlarında hər bir an, həm indi, həm də gələcəkdə lazım olan bir məsələyə yönəldir. Bəli, ancaq “tövhid” məsələsini ortaya atır. Çünki tövhid hər hansı bir fəzilətli həyatın əsasıdır ki, millətlər onun vasitəsilə hər cür bədbəxtçilikdən, əzab-əziyyətdən azad ola bilərlər. Əgər insan öz həyatı boyu tövhiddən uzaq düşərsə, deməli, bütün olan-qalanını itirmişdir! Yeri gəlmişkən deyək ki, o Həzrət buyurduğu kəlamla bildirmək istəyirdi ki, o dövrün qollu-budaqlı İslam cəmiyyəti tövhidin həqiqətindən, onun əsl mənasından uzaqdır.

---

[1] Möhkəm qalamdır.

## İmamət məsələsi ilə tövhidin əlaqəsi

İmam Riza (əleyhissəlam) tövhid hədisini buyurduqdan sonra yoluna davam edir. Lakin onu istəyən minlərlə şəxsin gözü hələ də, onun ardınca idi. Camaat öz fikrində, yaxud da tövhid hədisi barədə düşünərkən, birdən İmam əleyhissəlamın dəvəsi dayanır və o Həzrət başını kəcavədən çıxararaq tarixin yaddaşına daha bir əbədi cümlə yazır. O Həzrət uca səslə buyurur: *"Tövhid kəlməsinin (La ilahə illəllahın) şərtləri də var ki, o şərtlərdən biri də mənəm."* Bu cümlə ilə İmam (əleyhissəlam) daha bir əsas məsələni ortaya atır. Bu məsələ tövhid ağacının əsas budaqlarından biri olan "İmamət" məsələsidir.

Bəli, əgər millət fəzilətli həyat sürmək fikrindədirsə, onlar üçün ədalətli və hikmətli bir rəhbər məsələsini həll etmədən hər hansı bir işə nail olmaq qeyri-mümkündür. Əgər camaat İmamətə tərəf üz tutmasa, dünya yalnız Allaha məxsus olan qanunvericilik haqqını öz haqqı hesab edən zalım və ədalətsiz hakimlərin mübarizə meydanına çevriləcək, onlar da, öz növbələrində Allahın hökmündən kənar hökm verməklə camaatı bədbəxtlik və azğınçılığa tərəf sürükləyəcəklər. Tövhidlə İmamət məsələsinin əlaqəsini olduğu kimi başa düşsək, onda biləcəyik ki, İmam Riza əleyhissəlamın *"Tövhid kəlməsinin şərtlərindən biri də mənəm"* buyurduğu ifadə heç də, o Həzrətin şəxsi mənafeyi ilə əlaqədar olmayıb, əksinə, İmam (əleyhissəlam) bu ifadə ilə əsaslı və ümumi bir mövzuya toxunmaq istəmişdir. Buna görə də, o Həzrət qeyd olunmuş hədisi buyurmazdan qabaq onun sənədini də qeyd edərək bizlərə başa salmışdır ki, bu hədis ata-babaları tərəfindən deyilib Peyğəmbərə (səlləllahu əleyhi və alih) qədər gedib çıxan Allah kəlamıdır. İmamlar arasında bu cür hədis söyləməyin sabiqəsi həddən artıq azdır. Bu cür hədislər burada olduğu kimi çox nadir hallarda söylənilir. Burada da, İmam Riza (əleyhissəlam) ümmətin rəhbərlik məsələsini Allah və uca bir məqamla əlaqələndirmək və eləcə də, məsum İmamət tarixçəsinin şəcərənaməsini camaata çatdırmaq istədiyi üçün bü cür hədisdən istifadə etmişdir. İmam Riza (əleyhissəlam) bu həqiqəti camaata anlatmaq üçün Nişabur şəhərində ələ düşmüş fürsətdən lazımınca istifadə edib Allahın əmrinə əsasən, özünü Allahın tövhid qalasının gözətçisi elan edir. Buna əsasən, o Həzrət camaatı bu cür xəbərdar etməsi vasitəsilə Məmunun ən əsas məqsədini puça çevirir. Çünki Məmun o Həzrəti Mərvə gətizdirməklə özünün və bütün Bəni-Abbasın hakimiyyətinin şəri və İslami bir hakimiyyət olduğunu qələmə vermək istəyirdi.

## Dördüncü mövqe

İmam Riza əleyhissəlamın Mərv şəhərinə gəlməsindən bir neçə ay keçsə də, o Həzrət Məmuna qarşı mənfi mövqedə durmasına davam edirdi. Məmun öz hiylələri ilə o Həzrətin canının qəsdinə durmayana qədər İmam Riza (əleyhissəlam) nə xəlifəliyi, nə də vəliəhdliyi qəbul etmirdi. İmam Riza (əleyhissəlam) belə bir mövqe seçməklə elə zəmin yaratdı ki, Məmunu həqiqətlə üz-üzə saxladı. İmam (əleyhissəlam) ona buyurdu: *"İstəyirəm elə bir iş görəm ki, camaat deməsin Əli ibn Musa (İmam Riza (əleyhissəlam)) dünyaya bel bağlayıb, əksinə, bu, dünyadır ki, onun ardınca sürünür."* O Həzrət bu ifadə ilə Məmunun hiyləsinin heç də müvəffəqiyyətlə başa çatmamasını və gələcəkdə də, bu cür hiylələrdən əl çəkməsini ona anlatdı.

Bunun nəticəsində də, Məmunu öz arxayınlığında və görmək istədiyi hər hansı bir işdə tərəddüdə salır. Üstəlik hələ camaatda da Məmuna və hərəkətlərinə qarşı şübhə yaradır.

## Beşinci mövqe

İmam Riza (əleyhissəlam) bununla da, kifayətlənməyib ələ düşmüş hər bir fürsətdə Məmunun onu güclə və ölümə təhdid etməklə vəliəhd təyin etməsini camaata bildirir. Bundan əlavə, bəzi vaxtlar camaata onu da çatdırırdı ki, Məmun tezliklə hiyləyə əl atıb öz əhdini pozacaq. O Həzrət açıqcasına buyururdu ki, onun qatili, ona zəhər verən məhz Məmun olacaq. Hətta bunu Məmunun öz yanında da buyurmuşdu.

İmam Riza (əleyhissəlam) təkcə dildə deyil, həm də öz hərəkəti ilə vəliəhd olduğu bütün müddət ərzində bu işə razı olmadığını və güclə bu məqama seçilməsindən xəbər verirdi. Məlum məsələdir ki, bunların hamısı Məmunun o Həzrətin vəliəhd seçilməsindən intizarda olduğu işlərin əksinə nəticə verəcəkdi.

## Altıncı mövqe

İmam Riza (əleyhissəlam) əlinə düşən kiçik fürsətdən belə istifadə edib camaata bildirirdi ki, Məmun onu vəliəhd təyin etməklə elə də böyük bir iş görməyib, sadəcə olaraq vaxtı ilə o Həzrətin əlindən qəsb edilib alınmış haqqı onun özünə qaytarması sahəsində bir addım atmışdır. Deməli, o Həzrət camaata daima Məmunun hakimiyyətinin qeyri-şəri olduğunu çatdırırdı.

## Yeddinci mövqe

İmam Riza (əleyhissəlam) vəliəhdliyi qəbul etmək üçün Məmunun qarşısına aşağıdakı şərtləri qoyur: O, nə bir nəfəri bir vəzifəyə qoyur, nə birini vəzifəsindən kənarlaşdırır, nə yeni bir qanun çıxarır, nə də mövcud qanunlardan birini ləğv edirdi. O Həzrət sadəcə olaraq kənardan dövlətin bir müşaviri kimi işlərə qarışacaqdı.

Məmun bütün bu şərtləri qəbul edir. Deməli, gördüyünüz kimi İmam Riza (əleyhissəlam) Məmunun bəzi fikir və məqsədlərinin üstündən qırmızı xətt çəkir. Çünki İmam əleyhissəlamın belə bir mövqedə durması aşağıdakı məsələlərə qəti sübutdur:

**1)** Məmunun hökumət sisteminin şəri və qanuni olmasına etiraf etməmək;

**2)** Mövcud hökumət əsl bir hökumət kimi İmam əleyhissəlamın məqsədini əsla təmin etmirdi;

**3)** Məmun fikrindəki planların əksinə olaraq, bu şərtləri qəbul etdikdən sonra daha İmam əleyhissəlamın adından istifadə edib istədiyi işləri görə bilməzdi;

**4)** İmam (əleyhissəlam) hakim qüvvələrin fikrini icra etməyə heç vaxt razı ola bilməzdi.[1]

[1] İmam Riza əleyhissəlamın siyasi həyatı, səh.168-183.

## Abbasilər dövründə İslam cəmiyyətinin xüsusi mədəni şəraiti

İslamın Peyğəmbər (səlləllahu əleyhi və alih) dövründə Hicazdan kənara çıxa bilməməsinə baxmayaraq, bünövrəsi möhkəm olduğundan, o Həzrətin vəfatından sonra sürətlə yayılmağa başlayır. Belə ki, qısa bir müddət ərzində o dövrün bütün mədəni ölkələrini Hicazın şimal, şərq, qərb və cənubunda olan Roma, İran, Misir, Yəmən və Aşur mədəniyyəti kimi digər beş böyük mədəniyyəti öz nüfuzu altına alaraq onların mövhumat, fəsad və azğınlıqlarını kənara atıb müsbət və faydalı nümunələrini İslam mədəniyyəti altına alaraq onları İlahi rəngə salıb daha da inkişaf etdirirdi. İslamın elmsevər təbiəti səbəb olur ki, dünyanın müxtəlif ölkələrinin əqidəvi-siyasi məsələlərinin inkişafı sayəsində həmin elmlər İslam cəmiyyətinə yol taparaq Yunanıstan, Misir, Hindistan, İran və Roma alimlərinin elmi kitabları Quran dili olan ərəb dilinə tərcümə olunurdu.

Öz elmlərini Qurandan mənimsəmiş İslam alimləri digər alimlərin kitablarını oxuyub onlara bəzi iradlar tutmaqla bir sıra ixtiralar əlavə edərək köhnəlmiş mədəniyyətə yeni – İslami rəng gətirirdilər. Başqa alimlərin yazdığı əsərlərin tərcüməsinə Əməvilərin hakimiyyəti dövründən (əlbəttə, Əməvilər özləri İslam və elmə qarşı biganə idilər) başlanılmış, Abbasilərin, xüsusən də, Harun və Məmunun hakimiyyətləri dövründə kulminasiya nöqtəsinə çatmışdır. (Bu hadisə İslam dövlətinin ən geniş əraziyə qədər irəlilədiyi bir dövrə təsadüf edir.) Əlbəttə, bu elmi inkişafın bünövrəsini heç də Əməvilər, yaxud Abbsilər qoymamış, sadəcə olaraq İslam təlimlərinin elm sahəsindəki təbliğinin bilavasitə nəticəsi və elm üçün heç bir həddi-hüdud təyin etməməsi olmuşdur. İslamın "Elm Çində belə olsa, onun ardınca gedin!", "Elmi nəyin bahasına olursa-olsun, hətta ürəyinizin qanı bahasına da olsa, öyrənin!" kimi təlimləri müsəlmanları elm ardınca getməyə vadar edirdi. Tarixdə qeyd edilmişdir ki, bir gün Məmun görkəmli yunan filosofu Aristoteli yuxuda görüb ondan bəzi məsələlər barədə soruşur. Yuxudan ayıldıqdan sonra onun kitablarını tərcümə etmək fikrinə düşür. Roma imperatoruna bir məktub yazaraq bu imperiya ərazisindəki qədim elmləri ehtiva edən kitablar məcmuəsini onun üçün göndərməsini istəyir. Roma imperatoru çox götür-qoy etdikdən sonra bu təklifi qəbul edir. Məmun bu mühüm vəzifəni yerinə yetirməyi Həccac ibn Mətər ibn Bətriq və (Bağdadın möhtəşəm kitabxanası) "Beytül-hikmət"in rəisi Səlmaya tapşırır. Onlar Roma imperiyasına gedib orada bəyəndikləri kitabları Məmunun hüzuruna göndərir və Məmun da onları tərcümə etdirməyə başlayır.[1]

Məlum məsələdir ki, Məmun kimi köhnə siyasətbazların yuxusu adi yuxu olmayıb adətən siyasi mövqe kəsb edir. Onlar yuxularında elə şeylər görürlər ki, yuxuda gördükləri onların hökumət dayaqlarını möhkəmlədir. Ümumiyyətlə, Məmunun bu hərəkəti siyasi təhlil baxımından aşağıdakı ehtimalları doğurur:

**1)** Məmun özünü elm, bilik tərəfdarı olan bir müsəlman kimi qələmə vermək üçün hansısa üstünlük qazansın deyə, bu hərəkətə əl atır.

**2)** Məmun istəyirdi ki, bu işlə ictimai problemlər və siyasi vəziyyət qarşısında bir növ məşğuliyyət yaratsın.

---

[1] Əl-Fihrist, səh.353.

**3)** Onun bu işdən məqsədi İslam cəmiyyətinin ziyalılarını özünə tərəf cəlb etmək, bunun da nəticəsi olaraq hakimiyyət dayaqlarını möhkəmlətmək idi.

**4)** O, bu hərəkəti ilə elm meydanında ad çıxarmış Əhli-beyt məktəbi qarşısında bir məktəb açaraq birincinin tərəfdarlarını azaltmaq və o məktəbin nüfuzunu aşağı salmaq istəyirdi.

**5)** O, bu hərəkəti ilə bildirmək istəyirdi ki, Abbasilərin xilafəti İran, Roma və Misir kimi imperiyalara da hakim olmağa layiqdir.

Bu beş ehtimalın biri heç də digərini inkar etmir və ola bilsin ki, bunların hamısı Məmunun fikrində olmuşdur. Bu ehtimalların hansı doğru olursa-olsun, bir məsələdə şəkk yoxdur ki, Məmun yunan alimlərinin kitablarını tərcümə etdirmək üçün çox çalışmış, bu yolda həddən artıq pul xərcləmişdir. Hətta deyirlər ki, bəzi vaxtlar bir kitab üçün həmin kitabın ağırlığı qədər qızıl verərmiş. Kitabların tərcüməsinə o qədər diqqət yetirərmiş ki, onun adına tərcümə olunmuş kitabın üstünə bir əlamət qoyub camaatı həmin kitabı oxumağa, o elmi öyrənməyə həvəsləndirərdi. Hikmət sahibləri ilə oturub-durduğundan razı qalırdı.[1] Beləliklə, başqa xalqların meydana çıxardığı elmlər də, İslami elmlərlə yanaşı günün əsas tələblərindən birinə çevrilir. Bu sahədə həddən artıq diqqətli olan ölkə əyan-əşrafı da Məmunun yolunu davam etdirir, elm, fəlsəfə və məntiq əhlinə ehtiramla yanaşırdılar. Bunun nəticəsi olaraq İraq, Şam və İrandan Bağdada çoxlu sayda tərcüməçilər axışır. Görkəmli məsihi tarixçisi Corci Zeydan bu barədə yazır: “Harun ər-Rəşidin (hakimiyyət illəri 170-193 h.q) hakimiyyətə gəldiyi dövrdə artıq camaatın fikir səviyyəsi Hindistan, İran, Suriya alim və filosoflarının Bağdada get-gəl etməsi nəticəsində inkişaf etmiş, qədim alimlərin elm və kitablarına maraq artmışdı. Ərəb dilini öyrənib müsəlmanlarla əlaqədə olan qeyri-müsəlman alimlər müsəlmanları bu elmləri öyrənməyə həvəsləndirirdilər. Müsəlmanlar isə yenə də əvvəldə olduğu kimi biganə elmlər sahəsində təbabətdən başqasına yaxın düşməkdən çəkinirdilər. Çünki onlar elə başa düşürdülər ki, təbabətdən başqa digər biganə (əlbəttə biganə demək mümkünsə) elmlər İslama ziddir. Buna baxmayaraq, filosofların xəlifələrin yanına çox get-gəl etmələri nəticəsində və onların əksəriyyətinin məntiq və fəlsəfəni xoşladıqlarına görə istər-istəməz xəlifələr də, məntiqi və fəlsəfi məsələləri dinləməyə maraq göstərirdilər. Yavaş-yavaş xəlifələrlə ünsiyyət yaranır. İş o yerə çatır ki, xəlifələr hər hansı bir ölkə və ya şəhəri fəth etdikdə daha (əvvəl olduğu kimi) oradakı kitabları od vurub yandırmır, əksinə kitabların Bağdada gətirilib ərəb dilinə tərcümə edilməsini əmr edirdilər. Necə ki, Harun ər-Rəşid Roma imperiyasının Ankara, Ənvəriyyə və digər şəhərlərini tutduqda oradan çoxlu sayda kitab ələ keçirərək onları Bağdada gətizdirmiş və öz şəxsi həkimi olan Yuhənna ibn Masviyəyə onları ərəb dilinə tərcümə etməyi əmr etmişdir. Lakin bu kitablar yunan təbabətinə aid olduğundan onlarda fəlsəfəyə aid bir şey yox idi. Harunun hakimiyyəti dövründə ilk dəfə olaraq “Uqlidis” kitabı Həccac ibn Mətərin vasitəsilə ərəb dilinə tərcümə olunaraq “Haruniyyə”, ikinci dəfə isə Məmunun hakimiyyəti dövründə yenə də ərəb dilinə tərcümə olunaraq “Məmuniyyə” adlandırılmışdır. Harunun hakimiyyəti dövründə

---

[1] İslam mədəniyyətinin tarixi (Corci Zeydan), c.3, səh.216.

Yəhya ibn Xalid Bərməki “Micəsti” kitabını ərəb dilinə tərcümə etmiş, bəziləri isə onun tərcüməsinə təfsirlər yazmışlar.

Həmin təfsirçilərin yazdığı təfsirlər yaxşı olmadığı üçün Harun o kitabın tərcüməsini yenidən təfsir etməyi Əbu Həssan və Beytül-hikmət kitabxanasının rəisi Səlmaya tapşırır. Onlar da öz növbələrində bu kitabı çox diqqətlə təfsir etmişlər.

## Məmun, fəlsəfə və məntiq

Fəlsəfəyə dair kitablar məhz Məmunun hakimiyyəti dövründə tərcümə edilir. Bunun da səbəbi Məmunun özünün fəlsəfəyə olan əlaqəsi olmuşdur. İslamın lap ilkin çağlarından müsəlmanlar öz rəy və fikirlərini bildirməkdə azad olmuşlar. Onlardan hər hansı birisi siyasi və bu kimi işlərdə öz fikrini bildirmək istədikdə, çəkinmədən fikrini xəlifəyə açıqlamış və xəlifənin məqamı onu öz fikrini bildirməkdən çəkindirməmişdir. Bu dəstə dini sahədə də, fikir azadlığına malik olmuşdur. Kim bir ayə və ya hədisin mənasını öz bildiyi kimi anlayıb onun başqalarının fikri ilə uyğun gəlmədiyini görürdüsə, çəkinmədən öz fikrini bildirir və başqaları ilə (müxaliflərlə) mübahisə etməyə başlayırdı. Müxtəlif firqə və məzhəblərin yaranmasına səbəb də, məhz bu fikir və əqidə azadlığı olmuşdur. Belə ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) bütün səhabələri vəfat etdikdən sonra, yəni, demək olar ki, hicrətin ikinci əsrinin əvvəllərindən başlayaraq İslam aləmində müxtəlif firqə və məzhəblər yaranmağa başlayır. Bu firqələrdən biri də mötəzilə firqəsi olmuşdur. Mötəzilə firqəsi özünə çoxlu tərəfdar toplayan, əsası dinlə ağlın sintezindən ibarət olan bir firqə olmuşdur. Əgər bu məzhəbin əqidə və fikirlərini diqqətlə mütaliə etsək, görərik ki, onun bəzi fikirləri bu günkü zamandakı bir sıra ən yeni tənqidi-məzhəbi fikirlərlə uyğun gəlir.

## Məmun və mötəziləçilik

Mötəzilə məzhəbi hicrətin birinci əsrinin sonlarında yaranmışdır. Bu məzhəbin əsasını ədalət hökmləri və məntiq təşkil etdiyi üçün qısa bir zamanda özünə çoxlu tərəfdar toplaya bilir. Fiqh sahəsində isə Mənsur Abbasi (Dəvaniqi) qiyas (müqayisə) tərəfdarları ilə həmfikir olduğundan Əbu Hənifəni irəli çəkərək onun fikri ilə hərəkət edir. Mənsurun bu fikri (bu hərəkəti) özündən sonra da, bütün Abbasi xəlifələri arasında davam edir. Mötəzilə məzhəbinin bu fikirlə (qiyasla hərəkət etmək fikri ilə) çox yaxından bağlılığı vardı. Çünki Mötəzilə məzhəbinə mənsub olan şəxslər öz əqidələrini əqli dəlillərlə sübut etmək istədikləri üçün kimin məntiq və Aristotelin fikirlərindən xəbərdar olduğunu görürdülərsə, onun ardınca gedib öz əqidələrini təsdiqləmək və müxaliflərə qarşı (elmi) mübarizə aparmaq üçün ondan kömək diləyirdilər. Abbasi xəlifəsi Məhdinin hakimiyyəti dövründə Zənadiqə məzhəbinin tərəfdarları artdığından bu fikir (yəni hər şeydə məntiqə əsasalanmaq, mötəzilə məzhəbi) daha geniş yayılır.

Bərməkilər tayfası da, hər bir işi qiyas əsasında götürdükləri və elmə də çox maraq göstərdikləri üçün Məmundan qabaq elmi kitabları tərcümə etməyə başlayır. Bu tayfadan olanlar öz evlərində elmi müzakirələr təşkil edirdilər. Deyəsən Harun onların bu işindən narazı idi və ona görə də, onlar bu işi çox da üzə vurmurdular. Məmun hakimiyyətə gəlcək (198-218 h.q) vəziyyət tamamilə dəyişir. Çünki Məmun özü düşüncəli, istedadlı və qiyasa çox meylli bir şəxs idi. Ondan qabaq tərcümə

olunmuş bir çox qədim kitabları oxuyub tədqiq etmiş, nəticədə qiyasa marağı daha da artmış, axırda da, mötəzilə məzhəbinə üz tutaraq bu məzhəbin başçılarını (Əbul Həzil Həllaf, İbrahim ibn Səyyar və başqalarını) özünə tərəf çəkib əqaid elminin alimləri ilə elmi məclislər təşkil edirdi. O, axıra qədər bu məzhəbdə qalmış və onun davamçılarını himayə etmişdir. Məmunun bu himayəsi nəticəsində mötəzilə məzhəbinin o vaxta qədər (sünni alimlərindən çəkinib) deyə bilmədikləri sözlərə, o cümlədən Quranın məxluq olması artıq açıq-aşkar camaatın arasında yayılmağa başlayır. Məmun heç hakimiyyətə gəlməzdən qabaq da, bu məsələyə (Quranın məxluq olması iddiasına) inanmış, buna görə də, müsəlmanlar onun xəlifə olub bu fikri yaymasından qorxurdular. İş o yerə çatmışdı ki, Füzeyl ibn Əyaz aşkar şəkildə deyirdi: "Mən Məmunun şərrindən uzaq olmaq üçün Haruna Allahdan uzun ömür istəyirəm." Nəhayət, Məmun xəlifə olur və özünün mötəzilə məzhəbində olduğunu da aşkar edir. Sünni alimləri bunu görcək səs-küy salır, camaatın böyük əksəriyyəti də, mötəzilə məzhəbinin əksinə olduğu üçün onların bu ziddiyyəti Məmunu bir az çıxılmaz vəziyyətə salır. Öz məzhəbindən dönə bilməyən Məmun elmi müzakirə yolunu seçib hər iki tərəfin (mötəzilə və müxalif tərəflərin) iddialarını əql və məntiqlə müqayisə etmək üçün elmi məclislər təşkil edir, məntiqi bəhslərin tədqiq edilməsi üçün qısa bir zamanda yunanların məntiq və fəlsəfə kitablarının ərəb dilinə tərcümə edilməsini əmr edir. Məmun özü də bu kitabları oxuyur və bu yolla mötəzilə məzhəbinə olan əqidəsi daha da möhkəmlənirdi. Ancaq Məmunun bu səyləri camaatın fikrini mötəzilə məzhəbinə cəlb etməkdə bir o qədər də, təsir bağışlamır. Məmun bunu başa düşüb səylərinin bir fayda verməyəcəyindən ümidini kəsdikdə, təhdidə əl ataraq hakimiyyətinin son çağlarında mötəzilə məzhəbinin müxaliflərinə qarşı ciddi mübarizə aparır. Bir dəfə Bağdaddan kənarda olduğu zaman Bağdad valisi İshaq ibn İbrahimə əmr verir ki, bütün qazı və elm adamlarını yığıb imtahana çəksin. Quranın məxluq olmasını qəbul edənləri burax, bu fikrə qarşı mənfi mövqedə duranlara isə bu fikir təlim edilsin.

Dediklərimizdən belə nəzərə çarpır ki, Məmun məlumatının çoxluğu, əqidə azadlığı və qiyas əsasında hərəkət etməsi nəticəsində yunan elmlərinin ərəb dilinə tərcümə edilməsindən çəkinmir, mötəzilə məzhəbini təsdiq etməsi sahəsində ilk atdığı addım məntiq və fəlsəfə kitablarını tərcümə etdirməsi olur. Sonra Aristotelin bütün əsərlərinin (istər fəlsəfə sahəsində, istərsə də başqa sahələrdə) tərcüməsilə məşğul olur. Beləliklə, hicrətin üçüncü əsrinin əvvəllərində açıq şəkildə bu kitabların tərcüməsinə başlanılır. Mötəzilə məzhəbi su görmüş susuz şəxs kimi Aristotelin fəlsəfi əsərlərini görüb onları diqqətlə mütaliə etməyə başlayır və nəticədə müxaliflərinə qarşı mübarizə etmək üçün onu əlində möhkəm bir əsas kimi tutur.[1]

## Xarici elmi kitabların tərcüməsi

Doktor İbrahim Həsən bu barədə belə yazır: "Əməvilərin hakimiyyəti dövründə xarici kitabların tərcüməsi ilə heç kim məşğul olmurdu. Xalid ibn Yezid ibn Müaviyə tibb və kimya kitablarını ərəb dilinə tərcümə etmiş ilk şəxs olmuşdur. O, Misirdə yaşayan yunanları çağırıb onlardan kimyanın praktikasına aid olan kitabların bir

[1] İslam mədəniyyətinin tarixi (Corci Zeydan), c.3, səh.212-215.

çoxunu ərəb dilinə tərcümə etmələrini istəyir. O, kimya vasitəsilə süni qızıl əldə etmək istəyirdi. Əbdülməlik Mərvanın hakimiyyəti dövründə isə dövlət idarələrində o vaxta qədər hakim olmuş fars və yunan dilləri ərəb dili ilə əvəz olunur, həmçinin, Misir və yunan dilində olan Misir divanı (şer və nəsr toplusu) ərəb dilinə çevrilir (tərcümə olunur).

Abbasilər sülaləsi hakimiyyətə gəldikdən sonra bu sülalə farsmeylli olduğundan xilafətin paytaxtında farslarla ərəblər bir-birilə qaynayıb-qatışır, xəlifələr yunan və İran elmlərini öyrənməyə rəğbət göstərirlər. Mənsur xarici kitabların tərcümə edilməsini əmr edir. Hüneyn ibn İshaq Sokrat və Calinusun kitablarından bəzilərini onun üçün ərəb dilinə tərcümə edir. İbn Müqəffə isə “Kəlilə və Dimnə”ni və “İqlidis” kitabını ərəb dilinə tərcümə edir. Bir çox alimlər kitabların fars dilinə tərcümə edilməsində də şöhrət qazanırlar. O cümlədən, Xandan Nobəxtiyan, Həsən ibn Səhl, (Məmunun vəziri) Əhməd ibn Yəhya Bəlazəri (“Fütuhul-buldan” əsərinin müəllifi) və Əmr ibn Fərxan da bu işdə ad çıxarırlar.

Harunun hakimiyyəti dövründə tərcümə işi başqa cür icra olunur. Roma imperiyasının bir sıra böyük şəhərlərindən onun əlinə bəzi kitablar düşür, o da əmr verir ki, yunanların kitablarından ələ düşənlərin hamısı tərcümə edilsin. Bərməkililərin tərcüməçiləri alqışlayıb onlara qiymətli hədiyyələr verməsi də, tərcümə işini bir qədər irəli aparır. Hətta Məmunun özü də tərcümə edirdi. O, əsasən yunan və İran kitablarının tərcüməsi ilə məşğul olur, fəlsəfə, həndəsə, musiqi və tibbə aid olan nadir kitabları gətirmək üçün bir neçə nəfəri Konstantinopola (indiki İstanbula) göndərir. İbn Nədim deyir: “Roma imperatoru ilə Məmun arasında məktublaşmalar olur, Məmun ondan istəyir ki, o, öz imperiyasında olan qədim elmlərə dair kitablardan xilafət ərazisinə göndərsin. İmperator əvvəl imtina etsə də, sonradan bu işlə razılaşır. Məmun Həccac ibn Mətər, İbn Bətriq və “Darul-hikmət” kitabxanasının rəisi Səlmadan ibarət nümayəndə heyətini bu kitablardan seçib bəyəndiklərini gətirmək üçün Roma imperiyasına göndərir. Onlar Konstantinopola gedib bəyəndikləri kitabları yığıb gətirirlər. Məmun onların ərəb dilinə tərcümə edilməsini əmr edir. Onlar da Məmunun əmrini yerinə yetirirlər. Qəsta ibn Luka yunan, Suriya və Mesopotamiya dillərindən edilən tərcümələrə, Yəhya ibn Harun isə fars dilindən olunan tərcümələrə nəzarət edirdi. Tərcüməçilərin alqış və həvəsləndirilməsi, camaatın xəlifələrə tərəf cəlb olunması və bunun da nəticəsində bir çox kitabların ərəb dilinə tərcümə edilməsi Məmuna xas olan bir iş deyildi. Kitabların çoxu varlı şəxslərin kömək və səyi nəticəsində ərəb dilinə tərcümə olunurdu. O cümlədən münəccim (astronom) Şakirin oğulları olan Məhəmməd, Əhməd və Həsən riyaziyyat kitablarını əldə etmək üçün külli miqdarda pul xərcləmiş, həndəsə, nücum (astronomiya) və musiqi sahəsində qiymətli əsərlər yazmışlar. Onlar da Hüneyn ibn İshaqı nadir kitabları əldə etmək üçün Roma imperiyasının ərazisinə göndərirlər.

Məmunun hakimiyyəti dövründə böyük riyaziyyatçılar meydana gəlir. Bunlardan biri də, Məhəmməd ibn Musa Xarəzmi idi. O, cəbr elmi haqqında ardıcıl mütaliələr edib bu elmi hesab elmindən ayırmış ilk şəxs olmuşdur. Tərcümənin gedişatında bu məsələ təbii idi ki, müsəlmanların bir çoxu tərcümələr haqqında təhqiqat aparıb onlara haşiyələr vurur (əlavələr edir), səhvləri düzəldirdilər. Burada Yəqub ibn İshaq Kendinin adını qeyd etməliyik. O, tibb, fəlsəfə, hesab, məntiq, həndəsə və

astronomiya elmlərində çox mahir bir şəxs olub öz əsərlərində Aristotelin yolu ilə gedirdi. Yəqub ibn İshaq fəlsəfəyə dair xarici kitabların bir çoxunu tərcümə edib onlarda olan çətin məsələlərin həllini izah edirdi. Ondan başqa bu sahədə daha üç nəfər də şöhrət qazanmışdılar. Onlar Hüneyn ibn İshaq, Sabit ibn Qürrə Hərani və Əmr ibn Fərxan Təbəri olmuşlar.

Abbasilər yunan və fars elmlərindən fəlsəfə, tibb, astronomiya, riyaziyyat, musiqi, məntiq, coğrafiya və bir sıra başqa qayda-qanunların hamısını tərcümə edirlər. İbn Nədim deyir: "Münəccim Şakirin övladları hər ay tərcüməçilərə, o cümlədən Hüneyn ibn İshaq, ibn Həsən və Sabit ibn Qürrəyə beş yüz dinara yaxın maaş verirdilər."

Əməvilərin hakimiyyətdə olduqları müddətdə kitabxananın heç bir əhəmiyyəti yox idi. Abbasilərin dövründə isə tərcümə işinin inkişaf etməsi və kağız istehsalının artması nəticəsində kağız satan şəxslər meydana çıxır. Onlar kitablar yazdırıb onun alqı-satqısı ilə məşğul olur, alim və yazıçıların bir yerə toplaşması üçün xüsusi yerlər düzəldirdilər. Bunun ardınca dini və elmi kitabların saxlanıldığı böyük kitabxanalar tikilirdi. Sonralar bu kitabxanalar İslam dünyasının ən böyük mədəni-maarif mərkəzlərinə çevrilir.

Çox güman ki, Harunun təsis etdirdiyi, ondan sonra isə Məmunun onu genişləndirib oraya çoxlu kitablar verdiyi "Darul-hikmət" kitabxanası Abbasilər dövrünün ən böyük kitabxanası olmuş və Bağdad, monqolların işğalına məruz qalana qədər öz əhəmiyyətini qoruyub saxlamışdır. Bu kitabxanada geniş yayılmış bütün elmlərə aid kitablar olmuş, mütaliə məqsədilə oraya gedən alimlərin hər biri öz dövrünün nüfuzlu elmi şəxsiyyətlərindən olub İslam mədəniyyətini və eləcə də, qədim mədəniyyəti xalq arasında yayan şəxslər olmuşlar.

Elmi yaymaq təkcə xəlifələrə məxsus deyildi. Ölkənin vəzir və digər ali rütbəli şəxsləri də, xəlifənin yolunu gedib elmin yayılmasında böyük işlər görürdülər. Məsudi yazır: "Yəhya ibn Xalid Bərməki bəhs və müzakirəyə çox meyl göstərir, İslam və sair dinlərin ilahiyyatçılarının bir yerə toplaşdığı məclislər təşkil edirdi."[1]

## İmam Riza əleyhissəlamın yad fikirlər qarşısında tutduğu mövqe

Bu qədər elmi fəaliyyətin aparılmasına baxmayaraq, tərcüməçilər arasında digər dinlərə qulluq edən inadkar şəxslərin olması nigarançılıq doğururdu. Müsəlman tərcüməçilərlə yanaşı zərdüştlilər, sabiilər, nəsturilər, romalılar və hind brəhmənləri də yunan, fars, Suriya, hind, latın və başqa dillərdən ərəb dilinə tərcümə işi ilə məşğul olurdular. Təbii ki, onların hamısı öz işlərində təmiz niyyətlə hərəkət etmirdi. Bir dəstəsi çalışırdı ki, əlinə düşmüş bu fürsətdən istifadə edib xarici elmlərin İslam mühitinə gəlməsi ilə öz çirkin əqidəsini yaysın. Məhz buna görə də, zahirdə elmi nəzərə çarpan bu kitabların əsnasında mövhumat, qeyri-İslami həqiqətlər İslam aləminə yol taparaq bir sıra gənclərin və təlim-tərbiyəsi zəif olmuş şəxslərin zehninə nüfuz edirdi. Məlum məsələdir ki, o vaxt Abbasilərin sarayında təqva və imana malik olan, ürəyiyanan elmi bir heyət olmamış və təbii ki, xaricilərin elmi əsərləri də, diqqətlə araşdırılmamış, əsl İslami dünya baxışı ilə tutuşdurulmamış, səhv məsələlər çıxarılaraq ancaq düzgün və həqiqətə uyğun olanı İslam cəmiyyətinin ixtiyarına

[1] İslamın siyasi tarixi, c.2, səh.296-299.

verilməmişdi. Əsas məsələ budur ki, bu xüsusi fikir və mədəni şərait İmam Riza əleyhissəlamın üzərinə ağır bir vəzifə salırdı. O dövrdə yaşayıb təhlükəli vəziyyətdən çox yaxşı xəbərdar olan İmam Riza (əleyhissəlam) himmətini toplayıb geniş bir ideoloji inqilab yaradaraq bu təhlükəli və çirkin fikirlər qarşısında İslam cəmiyyətinin əsl və həqiqi əqidəsini qoruyub saxlayır, öz hikmətli rəhbərliyi nəticəsində batmaqda olan əsl İslam gəmisini fikir və əqidə bataqlığından çıxarırdı.

Harun və Məmunun hakimiyyəti dövründə xilafət ərazisinin son həddədək genişləndiyini nəzərə alsaq, bu məsələnin nə qədər əhəmiyyətli olduğunu bir o qədər yaxşı anlaya bilərik. Bir sıra görkəmli tarixçilər qeyd etmişlər ki, dünyada heç vaxt o böyüklükdə vahid dövlət olmamışdır. (Təkcə Makedoniyalı İskəndərin dövlətini onunla müqayisə edə bilirdilər). O dövrdə aşağıda adları çəkilmiş ölkələrin hamısı xilafətin daxilində olmuşdur: İran, Əfqanıstan, Sind, Türküstan, Qafqaz, Türkiyə, İraq, Suriya, Fələstin, Ərəbistan, Sudan, Əlcəzair, Tunis, Mərakeş və İspaniya. Beləliklə, Abbasilərin (xüsusən də, Harun və Məmunun) hakimiyyəti dövründə xilafətin ərazisi İspaniyanı çıxmaq şərtilə bütün Avropa qitəsinin ərazisi qədər, bəlkə ondan da, çox olmuşdur.[1]

Təbii məsələdir ki, bu ölkələrin ilkin mədəniyyətləri İslamın mərkəzinə nüfuz edib müsəlmanların əsl İslam fikirləri ilə qarışıb onlarda çaşqınlıq yaradacaqdı. Hansı ki, o mədəniyyətlərdə haqq batildən, doğru yalandan və yaxşı pisdən fərqlənmirdi.

## Məmunun elmi müzakirələr təşkil etməkdən əsl məqsədi

Məmun vəliəhdlik məqamını İmam Riza əleyhissəlama güclə qəbul etdirdikdən sonra Xorasanda geniş miqyaslı elmi müzakirələr məclisi təşkil etməyə başlayaraq dövrün böyük alimlərini, istər müsəlman olsun, istərsə də qeyri-müsəlman, həmin məclislərə dəvət edirdi. Bu işdən məqsəd zahiri baxımdan İmam Riza əleyhissəlamın müxtəlif elm sahələrində məharətinin nümayiş etdirilməsi haqda heç kəsin şübhəsi yoxdur. Ancaq bu zahiri cəhətin görünməyən tərəfində hansı məqsədlərin gizləndiyi haqda təhqiqçilər müxtəlif versiyalar irəli sürmüşlər:

**1.** Bu məsələyə mənfi nəzərlə baxanlar (əlbəttə onların bu məsələyə pis münasibət bəsləməyə haqları vardır. Çünki zalımların siyasi hərəkətlərinin təhlilində məsələyə pis münasibət bəsləmək əsas yer tutur.) deyirlər: “Məmunun bu işdən yeganə məqsədi bu olmuşdur ki, İmam Riza əleyhissəlamın məqamını camaatın, xüsusən də, Əhli-beyt (əleyhimussəlam) tərəfdarı olan iranlıların gözündə aşağı salsın. Çünki o elə bilirdi ki, İmam Riza (əleyhissəlam) təkcə Quran və hədisin sadə məsələlərini bilir və digər elmlərdən xəbərsizdir. Bu fikri söyləyənlər öz iddialarını sübut etmək üçün İslami rəvayətlərdə gəlmiş Məmunun öz sözünə istinad edirlər. İmam Riza əleyhissəlamın yaxın dostlarından olan Nofəli rəvayət edərək deyir: “Əqaid elminin məşhur alimlərindən olan Süleyman Mərvəzi Xorasanda olarkən Məmunun yanına gəlir. Məmun ona çox hörmətlə yanaşıb hədiyyələr verir. Sonra isə ona deyir: “Əmim oğlu Əli ibn Musa (İmam Riza (əleyhissəlam)) Hicazdan mənim yanıma gəlmişdir. O, əqaid elmini və bu elmin alimlərini çox sevir. Əcər istəyirsənsə, Tərviyə günü (zil-hiccə ayının səkkizinci günü) (ola bilsin bu günü alimlərin çoxunun yığılmasına görə

[1] İslam və ərəb mədəniyyətinin tarixi, səh.211.

təyin ediblərmiş) gəl, onunla bəhs et!" Öz elmi ilə təkəbbür edib biliyinə arxalanan Süleyman dedi: "Ey Əmirəl-möminin! Mən sənin məclisində, özü də Bəni-Haşim nümayəndələrinin hüzurunda onun kimi bir şəxsə sual verim? Qorxuram ki, cavab tapa bilməyə, bunun nəticəsində də, elmi məqamı aşağı enə. Mən onun kimilərlə çox danışa bilmərəm." Məmun dedi: "Mənim də məqsədim elə budur ki, sən onu çıxılmaz vəziyyətə salasan. Mən bilirəm ki, sən elm və bəhsdə mahirsən." Süleyman dedi: "İndi ki, belədir, eybi yoxdur. Sən bir məclis təşkil et, həm məni, həm də onu həmin məclisə dəvət et. Belə olduqda mənim heç bir qorxum olmaz.[1] " (Bu məclis təyin olunmuş gündə təşkil olunur və İmam Riza (əleyhissəlam) həmin məclisdə Süleymanı yaman çıxılmaz vəziyyətə salıb bütün cavab yollarını onun üzünə bağlayaraq onun zəif və bacarıqsız olduğunu sübut edir.)

Bu məsələyə daha bir sübut İmam Riza əleyhissəlamın özündən rəvayət olunan hədisdir. Məmun elmi müzakirə məclisləri təşkil edib şəxsən özü Əhli-beyt (əleyhimussəlam) düşmənləri ilə bəhs edərək Əli əleyhissəlamın İmam və bütün səhabələrdən üstün olduğunu isbat etməklə özünü İmam Riza əleyhissəlama yaxınlaşdırmaq istəyirdi. İmam Riza (əleyhissəlam) isə etibar etdiyi yaxın dostlarına buyurur: *"Onun (Məmunun) sözlərinə aldanmayın. And olsun Allaha ki, mənim qatilim məhz o olacaqdır. Lakin nə etməli? Həyatımı axıra qədər yaşamaqdan ötrü səbr etməkdən başqa çarəm yoxdur."*[2]

Bir tərəfdən baxanda Məmunun Həzrət Əli (əleyhissəlam) və onun məktəbini son dərəcə müdafiə etməyə haqqı var idi. Çünki bir tərəfdən Abbasilərin ilk şüarı "Ali-Məhəmməd razılığı naminə" olmuş və məhz bu şüarın sayəsində onlar hakimiyyətə gələ bilmiş, digər tərəfdən də, onun ordusunun əsas hissəsini Əhli-beyt (əleyhimussəlam) aşiqi olan iranlılar təşkil edirdi. Məmunun isə onları özündən qaçırmamaq üçün bundan başqa yolu yox idi.

Bir sözlə, İmam Riza əleyhissəlamın bir az bundan qabaq qeyd etdiyimiz hədisdəki ifadəsindən başa düşürük ki, Məmunun elmi müzakirələr təşkil etməkdə məqsədi heç də İmam əleyhissəlamın xeyrinə və sədaqətlə olmamışdır. İmam Riza əleyhissəlamın xadimi Əbus-silət bu barədə deyir: "İmam Riza (əleyhissəlam) öz mənəvi dəyər və xüsusiyyətləri sayəsində camaat arasında günü-gündən nüfuz qazandığına görə Məmun belə qərara gəlir ki, xilafət ərazisinin bütün yerlərindən əqaid elminin alimlərini çağırtdırıb o Həzrətlə bəhsə vadar etsin və onlar da İmam əleyhissəlamı öz sualları qarşısında aciz qoyub onun elmi məqamını aşağı salsınlar. Nəticədə, camaat da, onun zəif olduğunu bilsin. Ancaq İmam Riza (əleyhissəlam) yəhudi, məsihi, zərdüşti, brəhmən, sabii və Allahı inkar edən düşmənlərini bəhsdə məhkum edərək onları aciz qoyur..."[3]

Maraqlı burasıdır ki, Məmunun daima bu cür məclislər təşkil olunan sarayında İmam Riza əleyhissəlamın şəhadətindən sonra bir daha bu cür elmi məclis təşkil olunmur.

---

[1] Uyuni-əxbarir-Riza, c.1, səh.179.
[2] Uyuni-əxbarir-Riza, c.2, səh.185.
[3] Uyuni-əxbarir-Riza, c.2, səh.239.

Məmunun məqsədindən xəbərdar olan İmam Riza (əleyhissəlam) özü buyurardı: "Mən Tövrat əhli ilə öz Tövratının, İncil əhli ilə öz İncilinin, Zəbur əhli ilə öz Zəburunun, ulduza pərəstiş edənlərlə özlərinin İbrani dilində, zərdüştilərlə özlərinin fars dilində, romalılarla öz dillərində, bəhs və müzakirə əhli ilə də öz dillərində bəhs edib özümün haqq olduğumu onlara sübut etdikdən sonra Məmun öz səhvini başa düşüb yəqin ki, peşiman olacaq..."[1]

Beləliklə, Məmunun bu hərəkətinə pis gözlə baxanlar bu barədə tamamilə haqlıdırlar.

**2.** Əgər birinci ehtimalı kənara qoysaq, diqqəti cəlb edən digər bir məsələ budur ki, Məmun İmam Riza əleyhissəlamın yüksək məqamını təkcə elm sahəsinə aid etməklə onu siyasi məsələlərdən yavaş-yavaş uzaqlaşdırmaq istəyirdi. O, İmam Riza əleyhissəlamı bir elm adamı kimi göstərməklə, onun İslam ümməti üçün yalnız elmi dayağ olub daha siyasətə qarışmadığını bildirmək, beləliklə də, dinin siyasətdən ayrı olduğu şüarını həyata keçirmək istəyirdi.

**3.** Diqqəti cəlb edən başqa bir ehtimal budur ki, hiyləgər və köhnə siyasətçilər daima çalışırlar ki, müxtəlif sahələr üzrə camaatın başını bir şeyə qatıb onları cəmiyyətin əsas problemlərindən və öz hökumətinin zəif cəhətlərindən xəbərsiz qoysunlar. O istəyirdi ki, İmam Riza əleyhissəlamın öz dövrünün alimləri ilə müzakirələri məclislərdə dildən-dilə gəzsin və Əhli-beyt (əleyhimussəlam) tərəfdarlarının hamısı o Həzrətin məharətindən danışıb onun qələbələrindən söhbət etsinlər. Məmun isə bu tərəfdə öz siyasi işlərini rahat xəyalla yerinə yetirib hökumətinin zəif cəhətlərinin üstünü örtsün.

**4.** Diqqəti cəlb edən dördüncü ehtimal da budur ki, Məmun özü heç də fəzilətsiz bir şəxs olmamış, həmişə İslam cəmiyyəti arasında alim bir xəlifə kimi tanınmaq istəmişdir. O, elm və biliyə olan əlaqəsini Xorasan kimi bir yerdə, xüsusən də, o dövrün İslam mühitində hamıya bəlli etməyə, bunu öz hökuməti üçün bir üstünlük hesab etməyə və bu yolla bəzilərini özünə tərəf cəlb etməyə çalışırdı. Bu elmi müzakirə məclislərinin siyasi xarakter daşımasını və siyasi məsələlərin də bir səbəblə inhisarlanmamasını qəti şəkildə nəzərə alsaq, deyə bilərik ki, bu dörd ehtimalın dördü də, Məmunun əsas məqsədi olmuşdur. Bir sözlə, Məmun bu məqsədləri əsasında elmi müzakirə məclisləri təşkil edir, lakin bir azdan qeyd edəcəyimiz kimi o, bu elmi müzakirələrdən nakam və məğlub olmuş halda kənara çıxaraq nə təkcə öz məqsədinə çatmır, əksinə, istədiyinin əksinə nail olurdu. İndi bu müqəddimələri nəzərə alaraq həmin elmi bəhs və müzakirələrin bir qisminə diqqət yetirək. Düzdür, son dərəcə təəssüflə qeyd etməliyik ki, bəzi hallar olmuşdur ki, İmam Riza əleyhissəlamın bəzi bəhs və müzakirələrinin xırdalıqları tarix səhifələrinə yazılmamış, yazılmışsa da, çox qısa şəkildə yazılmışdır. Kaş indi həmin xırdalıqların hamısı bizim ixtiyarımızda olaydı, biz də o Həzrətin buyurduqlarını dərindən anlayıb elm çeşməsinin zülalından içib sirab olaydıq. (Bu cür səhlənkarlıqlar hədis rəvayətçiləri və tarixçilər arasında az deyil və bu gün bunların yalnız təəssüfü bizlər üçün qalmışdır.) Lakin xoşbəxtlikdən bu müzakirələrin bir qismi çox geniş şəkildə qeyd edilmiş və elə bunlar da düşmənin qarşısına çıxmağa kifayət etmişdir.

---

[1] Biharül-ənvar, c.49, səh.175.

## İmam Riza əleyhissəlamın sair din və məktəblərin nümayəndələri ilə müzakirələri

İmam Riza əleyhissəlamın elmi müzakirələri həddən artıq çoxdur, lakin onların yeddisi daha çox əhəmiyyət kəsb edir. İndi həmin yeddi müzakirənin mündəricatını oxucuların nəzərinə çatdırırıq. Bu müzakirələri mərhum Şeyx Səduq "Uyuni-əxbarir-Riza" kitabında qeyd etmiş, mərhum Əllamə Məclisi də "Biharül-ənvar" kitabının qırx doqquzuncu cildində mərhum Şeyx Səduqun kitabından rəvayət etmişdir. "Müsnədi-İmamir-Riza" kitabının ikinci cildində də, həmin müzakirələr qeyd olunmuşdur. Bu müzakirələr aşağıdakılardır:

**1.** Məsihi katolikosu ilə müzakirə;

**2.** Rəsül-calutla müzakirə;[1]

**3.** Hürbüzi-əkbərlə müzakirə;[2]

**4.** İmrani-sabii ilə müzakirə.[3]

Bu dörd müzakirə bir məclisdə, Məmunun və bir sıra Xorasan alim və seçilmiş şəxslərinin iştirkı ilə olmuşdur.

**5.** Süleyman Mərvəzi ilə müzakirə. Bu müzakirə xüsusi şəkildə, Məmun və ətrafındakıların iştirakı ilə olmuşdur. (Süleyman kəlam, əqaid elmində məşhur olmuşdur).

**6.** Əli ibn Məhəmməd ibn Cəhimlə müzakirə;[4]

**7.** Bəsrə şəhərinin müxtəlif məzhəb başçıları ilə müzakirə.

Bu müzakirələrin hər biri dərin ehtivalı mənaya malik olub üstündən təxminən min iki yüz il keçməsinə baxmayaraq, indi də bir çox müşkülatı həll edərək bir çox məsələləri izah edib açıqlayır. Bu münazirələr hal-hazırda da, həm ehtiva baxımından, həm də qarşılıqlı bəhs fənni, ona qoşulmaq, ondan çıxmaq baxımından çox faydalıdır. İndi isə nümunə olaraq Məmunun böyük məclislərindən birində təşkil edilmiş məsihi katolikosu ilə müzakirəni oxucuların nəzərinə çatdırırıq.

## Məmunun səyi

"Uyuni-əxbarir-Riza" kitabında bu barədə belə yazılmışdır: "İmam Riza (əleyhissəlam) Məmunun yanına (Mərv şəhərinə) gəldikdə Məmun xüsusi vəziri Fəzl ibn Səhlə əmr edir ki, o Həzrətlə elmi bəhs və müzakirə etmək üçün böyük məsihi katolikosu, yəhudilərin böyük alimi Rəsül-calut, sabiilərin başçıları, zərdüştilərin böyük alimi Hürbüzi-əkbər və böyük məsihi alimi romalı Nəstos kimi digər din nümayəndələrini və eləcə də, əqaid elminin bütün alimlərini saraya çağırsın. Fəzl ibn Səhl Məmunun göstərişini yerinə yetirir. Onlar gəlib toplaşdıqda Fəzl Məmunun yanına gəlib deyir ki, onların hamısı gəlmişdir. Məmun deyir: "Onları çağır, gəlsinlər." Onlar gəldikdən sonra Məmun hamısına xoş gəldin dedikdən sonra bildirdi: "Mən sizi xeyir bir iş üçün bura dəvət etmişəm. İstəyirəm ki, Mədinə əhli olan və yenicə bura gəlmiş əmioğlumla münazirə edəsiniz. Sabah hamınız bir nəfər

---

[1] Rə'sül-calut müəyyən bir şəxsin adı deyil, yəhudilərin böyük alimlərinə verilmiş addır.

[2] Hürbüzi əkbər zərdüştilərin böyük alimlərinin ləqəbi olmuşdur.

[3] Sabiilər özlərini Yəhya peyğəbmərin davamçıları bilirlər.

[4] O, nasibi olub Əhli-beytin (əleyhimussəlam) düşmənlərindən idi.

kimi mənim yanıma gəlin.” Hamısı bir ağızdan dedi: “Gözümüz üstə, itaət edirik. Sabah tezdən hamımız sənin yanına gələcəyik.” Həsən ibn Səhl Nofəli deyir: “Biz İmam Riza əleyhissəlamla oturub söhbət edirdik. Birdən o Həzrətin xadimi Yasir içəri daxil olub dedi: “Məmun sizə salam çatdırıb dedi ki, qardaşın sənə fəda olsun, bütün din və məzhəblərdən nümayəndələr, əqaid elminin alimləri yığışıb münazirəyə gəlmişlər. Əgər razısansa, zəhməti qəbul edib sabah bizim yanımıza gəl və onların sözlərini dinlə, əgər razı deyilsənsə, mən israr etmirəm. İstəyirsən biz sizin hüzurunuza gələk, bu bizim üçün çox asandır.” İmam Riza (əleyhissəlam) kiçik, lakin mənalı bir cümlə ilə buyurur: “Mənim salamımı ona çatdırıb de ki, nə istədiyini bilirəm, Allah qoysa, səhər tezdən sizin hüzurunuza gələcəyəm.”[1] İmam Riza əleyhissəlamın dostlarından olan Nofəli deyir: “İmamın xadimi Yasir getcək o Həzrət mənə baxıb buyurdu: “Sən İraq əhlisən, iraqlılar diqqətli və huşlu olurlar, bu barədə nə fikirləşirsən? Məmunun nə planı var ki, kafirləri və müxtəlif məzhəblərin alimlərini bir yerə toplayıb?” Mən dedim: “Yəqin sizi imtahana çəkib elmi səviyyənizin nə dərəcədə olduğunu bilmək istəyir. Ancaq tutduğu iş çox əsassızdır. And olsun Allaha ki, o, həddən artıq pis bir işdən yapışmışdır.” İmam (əleyhissəlam) buyurdu: “O, nə plan çəkib!” (Hələ İmam Riza əleyhissəlamın elmi məqamının böyük bir mərtəbədə olduğunu anlamayan və Məmunun bu hərəkətindən vəhşətə düşən) Nofəli deyir: “Əqaid elminin alimləri bidətçi və İslam alimlərinin düşmənləridirlər. Əsl alim həqiqəti danmaz, bunlar isə həqiqəti də danıb inkar edirlər. Allahın birliyinə dair sübut gətirdikdə deyirlər ki, biz bu sübutu qəbul etmirik. Deyəndə ki, Məhəmməd (səlləllahu əleyhi və alih) Allahın Peyğəmbəridir, deyirlər ki, sübut et! Bir sözlə, (onlar təhlükəli adamlardır...) adamı çaşqınlığa salır və o qədər şübhəli sübutlar gətirirlər ki, axır adam məcbur olub öz dediyindən əl çəkir. Qurbanın olum, bunlardan özünü gözlə.” İmam Riza (əleyhissəlam) təbəssüm edərək buyurur: “Nofəli, qorxursan ki, birdən mənim sübutlarımı inkar edib məni çıxılmaz vəziyyətə salalar?” (Öz dediyindən peşiman olan) Nofəli dedi: “Yox, Allaha and olsun ki, mən heç vaxt sənin üçün qorxmamışam. Ümid edirəm ki, Allah səni onların hamısına qalib edəcək.” İmam Riza (əleyhissəlam) buyurdu: “Nofəli, Məmunun öz işindən nə vaxt peşman olacağını bilmək istəyirsən?” Nofəli “Bəli” deyə cavab verir. İmam Riza (əleyhissəlam) buyurur: “Məmun mənim Tövrat əhli üçün Tövratdan, İncil əhli üçün İncildən, Zəbur əhli üçün Zəburdan, sabiilər üçün İbrani dilində, zərdüştilər üçün fars dilində, Roma imperiyasından gələnlər üçün öz dillərində və müxtəlif məzhəblərin nümayəndələri üçün də öz dillərində sübut gətirdikdən sonra bu işindən peşiman olacaq. Bəli, hər dəstənin gətirdiyi sübutu ayrı-ayrılıqda batil (inkar) etdikdən sonra, mənim dediklərimi qəbul etdikdə Məmun əyləşdiyi xəlifəlik kürsüsünə layiq olmadığını anlayacaq. Onda artıq Məmun peşiman olacaq. Əzəmətli Allahın köməyindən başqa heç bir qüvvə yoxdur.” Nofəli deyir: “Səhər olcaq Fəzl ibn Səhl İmam Riza əleyhissəlamın hüzuruna gəlib dedi ki, əmin oğlu (Məmun) səni gözləyir, camaat hamısı oradadır, bu barədə fikrin nədir? İmam Riza (əleyhissəlam) buyurdu: “Sən məndən qabaq get, mən də Allah qoysa gələcəyəm.” Sonra durub dəstəmaz aldı,

[1] Uyuni-əxbarir-Riza, c.1, səh.155.

səviq[1] şərbəti içib bizə də verdi. Biz də ondan içdik. Sonra da birlikdə yola düşdük. Nəhayət, Məmunun sarayına gəlib çatdıq. Məclis tanınmış və görkəmli şəxslərlə dolu idi. Məhəmməd ibn Cəfər (İmam Sadiq əleyhissəlamın oğlu və İmam Riza (əleyhissəlamın əmisi) də Bəni-Haşimdən olan bir dəstə camaat və bəzi ordu başçıları ilə birlikdə orada əyləşmişdi. İmam Riza (əleyhissəlam) içəriyə daxil olanda Məmun ayağa qalxır. Onun ardınca Məhəmməd ibn Cəfər və bütün Bəni-Haşimdən olanlar da ayağa qalxdılar. O Həzrət Məmunla bir yerdə oturdu, ancaq qalanlar Məmun oturmaq icazəsi verənə qədər ayaq üstə qaldılar. Məmun bir qədər o Həzrətlə şirin-şirin söhbət etdikdən sonra üzünü məsihi katolikosuna tutub deyir: "Ey katolikos! Bu, mənim əmim oğlu Əli ibn Musadır (İmam Riza əleyhissəlamdır). O, bizim Peyğəmbərimizin qızı Fatimə (səlamullahi əleyha) və Əli ibn Əbutalib əleyhissəlamın övladlarındandır. Mən çox istəyirəm ki, onunla bir bəhs edəsən. Bəhsdə ədaləti də unutmayasan." Katolikos deyir: "Ey Əmirəl-möminin! Mən onunla necə bəhs edim? (Axı biz müştərək bir fikrə gəlməmişik.) O, elə bir kitabdan sübut gətirəcək ki, mən onu qəbul etmirəm və elə bir peyğəmbəri qəbul edir ki, mən ona iman gətirməmişəm."

## Katolikosla bəhs

Bu vaxt İmam Riza (əleyhissəlam) sözə başlayıb buyurur: "Ey məsihi! Əgər sizin öz İncilinizdən sübut gətirsəm, qəbul edərsənmi?" Katolikos deyir: "İncilin buyurduğunu inkar edə bilərəmmi? Bəli, hətta mənim zərərimə də nəticələnsə, qəbul edəcəyəm." İmam Riza (əleyhissəlam) buyurur: "Elə isə nə istəyirsənsə, soruş, cavabını verim."

Katolikos: "İsa (əleyhissəlam) və onun kitabı barədə nə deyirsən? Bu iki şeydən hansınısa inkar edirsən?"

İmam Riza (əleyhissəlam): "Mən İsa əleyhissəlamın Peyğəmbər olmasına, onun kitabına (İncilə), ümmətinə müjdə verdiyi və həvarilərin etiraf etdiyi bütün şeylərə inanır və onları qəbul edirəm. Lakin Məhəmməd (səlləllahu əleyhi və alih) Peyğəmbərin peyğəmbərliyinə inanmayan, onun kitabı olan Quranı qəbul etməyən, onun haqqında ümmətinə müjdə verməyən İsanı qəbul etmirəm..."

Katolikos: "Qəzavət zamanı (məhkəmə zamanı) iki ədalətli şahiddən istifadə etmirsinizmi?"

İmam Riza (əleyhissəlam): "Edirik."

Katolikos: "Elə isə onda öz məzhəbinizdən olmayan və şəhadətləri məsihilər tərəfindən qəbul edilən iki nəfəri Məhəmmədin (səlləllahu əleyhi və alih) Peyğəmbər olmasına şahid gətir. Eyni zamanda biz də öz məzhəbimizdən olmayan iki nəfəri şahid gətirək."

İmam Riza (əleyhissəlam): "Sən tamamilə ədalətə riayət etdin. Ədalətli və İsa ibn Məryəm əleyhissəlamın nəzdində hörmətli sayılan bir şəxsi qəbul edirsənmi?"

Katolikos: "Bu ədalətli şəxs kimdir belə, adını de görək."

İmam Riza (əleyhissəlam): "Yuhənna Deyləmi barədə nə deyirsən?"

Katolikos: "Bəh-bəh! O, Həzrət Məsihin yanında ən sevimli şəxs olmuşdur."

---

[1] Səviq şərbəti xüsusi şərbət olub undan hazırlanırmış.

İmam Riza (əleyhissəlam): "Səni and verirəm, de görüm İncil Yuhənnanın "İsa (əleyhissəlam) mənə ərəb olan Məhəmmədin (səlləllahu əleyhi və alih) dini haqqında xəbər verib özündən sonra belə bir peyğəmbərin gəlişi ilə müjdə verdi. Mən də öz növbəmdə onu həvarilərə müjdə verdim, onlar da ona iman gətirdilər" cümləsini bəyan edibmi?"

Katolikos: "Bəli! Yuhənna Həzrət Məhəmməd (səlləllahu əleyhi və alih) haqqında belə bir rəvayət söyləyib və İsa əleyhissəlamdan sonra bir nəfərin Peyğəmbər olacağı, onun Əhli-beyti və canişini haqqında müjdə verib, ancaq bunun nə vaxt olacağını deməmiş və onların adını çəkib bizlərə tanıtdırmamışdır."

İmam Riza (əleyhissəlam): "Əgər İncili oxuya bilən, orada Məhəmməd (səlləllahu əleyhi və alih), onun Əhli-beyti və ümməti barədə olan ayələri qiraət edən bir şəxsi gətirsək, ona inanarsınız?"

Katolikos: "Əlbəttə!"

İmam Riza (əleyhissəlam) Roma imperiyasından olan Nəstasa buyurur: "İncilin üçüncü sifrini (hissəsini) əzbərdən bilirsənmi?" Nəstas "Bəli, bilirəm" –deyə cavab verir. Sonra İmam (əleyhissəlam) üzünü yəhudilərin ən böyük alimi Rəsül-caluta tutub soruşur: "Sən də İncil oxuyursan?" Rəsül-calut cavab verir ki, bəli, oxuyuram. İmam Riza (əleyhissəlam) buyurur: "İncilin üçüncü sifrini aç bax, əgər orada Məhəmməd (səlləllahu əleyhi və alih) və onun Əhli-beyti barədə bir şey yazılıbsa, onda mənim lehimə şəhadət ver, yox əgər yazılmayıbsa, onda şəhadət vermə." Sonra o Həzrət İncilin üçüncü sifrini oxumağa başlayır. Məhəmmədin (səlləllahu əleyhi və alih) adına çatdıqda dayanaraq üzünü katolikosa tutub buyurur: "Ey məsihi! Səni and verirəm Həzrət Məsih (əleyhissəlam) və anası Məryəmə (səlamullahi əleyha), de görüm mənim İncildən xəbərdar olduğumu qəbul edirsənmi?" Katolikos "Bəli" –deyə cavab verir. İmam Riza (əleyhissəlam) Həzrət Məhəmməd (səlləllahu əleyhi və alih), onun Əhli-beyt və ümmətinin adını onun üçün qiraət etdikdən sonra buyurur: "Ey məsihi! Nə deyirsən? Bu İsa ibn Məryəmin sözü deyilmi? Əgər təkzib etsən, İncilin bu barədə dediklərini, həmçinin, Musa (əleyhissəlam) və İsa əleyhissəlamın hər ikisini danıb kafir olarsan."

Katolikos: "İncildə mənim üçün məlum olan şeylərin heç birini inkar etmir, hamısını qəbul edirəm."

İmam Riza (əleyhissəlam) (üzünü məclisdəkilərə tutub buyurdu): "Hamınız şahidsiniz ki, o, dediklərimə etiraf etdi." Sonra əlavə edib buyurdu: "Nə sualın var, soruş."

Katolikos: "Mənə İsa əleyhissəlamın həvarilərindən danış. De görüm onlar neçə nəfər olmuşlar? Eləcə də, məsihi alimlərinin sayını mənim üçün bəyan et."

İmam Riza (əleyhissəlam): "Agah olan şəxs barəsində sual etdin. Həvarilər on iki nəfər olmuş, onların ən fəzilətli və biliklisi Luka olmuşdur. O ki qaldı məsihi alimlərinin sayına, onlar üç nəfər olmuşlar. Biri Bax vilayətindəki böyük Yuhənna, ikincisi Qirqisa vilayətindəki Yuhənna, üçüncüsü isə Hicazdakı Yuhənna. Peyğəmbərin (səlləllahu əleyhi və alih) (Həzrət Məhəmmədin (səlləllahu əleyhi və alih)), Əhli-beytinin və ümmətinin adını da sonuncu bilmiş, İsanın ümmətinə və Bəni-İsrailə də Həzrət Məhəmmədin (səlləllahu əleyhi və alih) gəlişini məhz o başarət

vermişdir.” İmam əlavə edib buyurdu: “Ey məsihi! And olsun Allaha, biz o İsaya inanırıq ki, o, Məhəmmədə (səlləllahu əleyhi və alih) iman gətirmişdi. Sizin peyğəmbəriniz İsa əleyhissəlama olan təkcə iradımız budur ki, o, az oruc tutur və az namaz qılırdı.”

Katolikos təəccüblə dedi: “Allaha and olsun ki, bütün bildiklərini puç, işinin bünövrəsini zəiflətdin. Mən səni müsəlmanların ən bilikli şəxsi hesab edirdim!”

İmam Riza (əleyhissəlam): “Məgər nə olub?”

Katolikos: “Deyirsən ki, İsa (əleyhissəlam) az oruc tutub az namaz qılırdı, halbuki, o Həzrət bir gününü belə oruc tutmadan keçirməmiş, gecəni bir dəfə də olsun belə (tam şəkildə) yatmamış, bütün günlərini oruc tutub gecələrini ibadətlə keçirmişdir.”

İmam Riza (əleyhissəlam): “İsa (əleyhissəlam) kimin üçün oruc tutub namaz qılırdı?” Katolikos bir cavab verə bilməyib sükut edir. (Çünki İsa əleyhissəlamın bəndə olmasını bildirsəydi, bu fikir onun (Həzrət İsanın) Allah olması iddiası ilə uyuğun gəlməzdi.)

İmam Riza (əleyhissəlam): “Sənə başqa bir sualım var.”

Katolikos təvazökarlıqla dedi: “Əgər bilsəm, cavab verərəm.”

İmam Riza (əleyhissəlam): “Sən İsa əleyhissəlamın ölüləri Allahın izni ilə diriltməsini inkar edirsənmi?”

Katolikos çıxılmaz vəziyyətə düşərək çarəsi kəsilib deyir: “Bəli, inkar edirəm. Çünki ölüləri dirildən, anadangəlmə kora, alaca xəstəliyinə tutulmuşa şəfa verən şəxs Allah olub bu məqama layiqdir.”

İmam Riza (əleyhissəlam): “Həzrət əl-Yəsə də bu işləri görürdü. O, suyun üzərində yol gedir, ölüləri dirildir, kor və alaca xəstəliyinə tutulmuşlara şəfa verirdi. Ancaq onun ümməti heç də onu Allah bilib ona ibadət etmədi. Hizqil Peyğəmbər də, İsa (əleyhissəlam) kimi ölüləri dirildirdi.” Sonra o Həzrət üzünü yəhudilərin alimi Rəsül-caluta tutub buyurdu: “Büxtün-nəsr Beytül-müqəddəslə mübarizə apararkən Bəni-İsrail əsirlərini Babilə gətirdikdən sonra Allah-taalanın Hizqil peyğəmbəri onların ölülərini diriltmək üçün oraya göndərməsini Tövratda oxumusanmı? Bunu haqqı dananlardan başqa kimsə inkar edə bilməz.” Rəsül-calut “Biz də bunu eşitmişik və bilirik” –deyə cavab verdi. İmam Riza (əleyhissəlam) “Doğru deyirsən” deyib əlavə etdi: “Ey yəhudi! Götür Tövratın bu sifrinə bax.” O Həzrətin özü isə Tövratdan bir neçə ayə oxumağa başladı. Yəhudi İmam əleyhissəlamın bu hərəkətindən mat-məəttəl quruyub qalmışdı. Sonra İmam Riza (əleyhissəlam) üzünü məsihiyə tutub İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) bəzi ölülərin o Həzrətin əmri ilə dirilməsi, bəzi çarəsiz xəstələrin o Həzrətin vasitəsilə şəfa tapmasına aid olan möcüzələrindən bir neçəsini sayaraq buyurdu: “Bununla belə, biz heç vaxt Həzrət Məhəmmədi (səlləllahu əleyhi və alih) Allah bilməmişik. Əgər siz bu kimi möcüzələrə görə İsa əleyhissəlamı Allah bilirsinizsə, onda gərək Əl-Yəsə və Hizqil peyğəmbəri də öz məbudunuz hesab edəsiniz. Çünki onlar da, (İsa Peyğəmbər kimi) ölüləri dirildirdi. Həmçinin, İbrahim Peyğəmbər də bir neçə quşun başını kəsib onları ətrafdakı dağların başına qoyur, sonra onları özünə tərəf çağırdıqda, hamısı dirilib ona tərəf uçmağa başlayır. Eləcə də, Musa Peyğəmbər onunla Tur dağına getmiş və ildırım çaxması nəticəsində ölmüş yetmiş nəfəri diriltmişdi. Sən bunları inkar edə

bilməzsən. Çünki Tövrat, İncil, Zəbur və Quran bunlar haqqında söhbət açmışdır. Onda adları çəkilən bu şəxslərin hamısını öz Allahımız bilməliyik!”

Cavab verməyə söz tapmayan məsihi katolikosu təslim olub deyir: “Həqiqət sən deyəndir və Allahdan başqa heç bir tanrı yoxdur!”

Sonra İmam Riza (əleyhissəlam) məsihi və yəhudi alimlərindən Əşiya Peyğəmbərin kitabı haqqında sual etdi. Məsihi alim cavab verdi ki, mən onun haqqında yaxşı bilirəm. İmam Riza (əleyhissəlam) buyurdu: “Əşiya peyğəmbərin “Mən ulağa minmiş və əyninə nurdan paltar geymiş bir nəfəri (Həzrət Məsih əleyhissəlama işarədir), dəvəyə minmiş və nuru ay işığı kimi olan başqa bir nəfəri (Həzrət Məhəmmədə (səlləllahu əleyhi və alih) işarədir) gördüm” – deyə buyurduğu cümləni xatırlayırsanmı?” Onlar “Bəli, Əşiya (əleyhissəlam) belə bir cümlə buyurmuşdur” –deyə cavab verdilər. İmam Riza (əleyhissəlam) əlavə edib buyurdu: “Ey məsihi! İncildə İsa əleyhissəlamın “Mən sizin və öz Tanrımın hüzuruna gedirəm, Barqlita (yaxud Farqlita) gəlib mənim haqqımda doğru şəhadət verəcək (necə ki, mən onun barəsində doğru şəhadət vermişəm) və hər şeyi sizin üçün açıqlayacaq[1] deyə buyurduğunu qəbul edirsənmi?” Katolikos “İncildən dediklərinin hamısını qəbul edirik” – deyə cavab verir. Sonra İmam Riza (əleyhissəlam) İncil barədə, ilk əsl İncilin itib batması və sonradan Mark, Luka, Yuhənna və Mattanın tərəfindən dörd İncil yazılması (bu İncillər hal-hazırda mövcud olub məsihilərin müqəddəs kitabları hesab olunur) barədə söhbət edib katolikosun sözlərində bəzi ziddiyyətlərin olduğuna işarə etdi. Katolikos tamamilə özünü itirmiş və heç bir çıxış yolu qalmamışdı. Buna görə də, İmam Riza (əleyhissəlam) bir daha ona “Nə sualın var, soruş!” deyə buyurduqda, o, daha heç bir sual verməyib dedi: “Qoy indi başqası sual versin. And olsun Allaha ki, müsəlmanlar arasında sənin kimi bir şəxsin olmasına heç inanmazdım!”

---

[1] Barqlit, yaxud Farqlit Həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) İncildəki adı olmuş, Həzrət İsa (əleyhissəlam) onun gəlməsi barədə ümmətinə müjdə vermişdir. Bu barədə Yuhənnanın İncilinin on dörd, on beş və on altıncı fəsillərində mə’lumat verilmişdir.

# IX FƏSİL

## İMAM MƏHƏMMƏD TƏQİ ƏLEYHİSSƏLAMIN HƏYATI

***  Xeyir-bərəkətli bir təvəllüd**
***  Azyaşlı İmam**
***  Baş qazı məəttəl qalır**
***  Hədis düzəldənlər rüsvay olurlar**
***  Vəkillik əlaqə vasitəsi kimi**
***  İmam Məhəmməd Təqi əleyhissəlamın elmi məktəbi**

## İmam Məhəmməd Təqi əleyhissəlamın həyatı barədə qısa məlumat

Doqquzuncu İmamın adı Məhəmməd, künyəsi Əbu Cəfər, ləqəbi Təqi və Cavad olmuş, hicrətin yüz doxsan beşinci ilində Mədinə şəhərində anadan olmuşdur.[1] Peyğəmbərin həyat yoldaşı olmuş Mariya Qibtiyyənin nəslindən hesab olunan[2] Səbikə xanım əxlaqi dəyərlər baxımından yüksək mərtəbədə durur və öz dövrünün qadınlarının ən üstünü hesab olunurdu.[3] Belə ki, İmam Riza (əleyhissəlam) o xanımı pak, nəcabətli və fəzilətli bir qadın kimi yad edirdi.[4]

İmam Cavad əleyhissəlamın atası vəfat edərkən təxminən səkkiz yaşı olmuş, iyirmi beş yaşında olarkən şəhadətə yetişmiş[5] və Bağdadın Qüreyş qəbristanlığında babası İmam Kazim əleyhissəlamın məzarının yanında dəfn olunmuşdur.

## İmam Cavad əleyhissəlamın müasiri olmuş xəlifələr

İmam Məhəmməd Təqi (ə) (İmam Cavad) imamət dövrü iki Abbasi xəlifəsi Məmun (193-218 h.q) və Mötəsimin (218-227 h.q) zamanına təsadüf edir. Adı çəkilən xəlifələrin hər ikisi o Həzrəti məcburi şəkildə Mədinədən Bağdada gətizdirmiş və Məmunun İmam Riza (əleyhissəlam) barədə icra etdiyi siyasəti davam etdirərək onu paytaxtda saxlamaqla nəzarət altına almışlar.

## Xeyir-bərəkətli bir təvəllüd

İmam Riza əleyhissəlamın ailəsində və eləcə də, şiələr arasında İmam Cavad (əleyhissəlam) xeyir-bərəkətli bir uşaq kimi adlandırılmışdır. Bu barədə Əbu Yəhya Sənani deyir: “Bir gün İmam Riza əleyhissəlamın yanında idim. Bu vaxt o Həzrətin azyaşlı uşağı Cavad (əleyhissəlam) bizim yanımıza gəldi. İmam Riza (əleyhissəlam) buyurdu ki, şiələrimiz üçün ondan xeyir-bərəkətli bir uşaq dünyaya gəlməmişdir.”[6]

Deyilənlərə görə İmam Riza (əleyhissəlam) müxtəlif münasibətlərdə, yeri gəldikcə öz əziz oğlunu bu cür yad edirdi. Belə ki, bu məsələ artıq şiələrin hamısına bəlli idi. İbn Əsbat və Əbbad ibn İsmayıl adlı iki şiənin dediyinə görə bir dəfə onlar İmam Riza əleyhissəlamın hüzurunda olarkən Həzrət Cavad əleyhissəlamı onların yanına gətirirlər. Onlar İmam Riza əleyhissəlamdan soruşurlar ki, bu, həmin dediyiniz xeyir-bərəkətli uşaqdır? İmam Riza (əleyhissəlam) onların cavabında buyurur: “Bəli, bu, İslamda ondan xeyir-bərəkətlisi doğulmayan həmin uşaqdır.”[7]

Əbu Yəhya Sənani deyir: “Məkkədə olarkən İmam Riza əleyhissəlamın hüzuruna getdim. Gördüm ki, o Həzrət banan soyub oğlu Cavad əleyhissəlama verir. O Həzrətə dedim: “Bu, həmin xeyir-bərəkətli uşaqdır?” O Həzrət cavab verdi ki, bəli, bu, həmin uşaqdır ki, İslamda onun kimisi və şiələrimiz üçün ondan xeyirlisi doğulmamışdır.”[8]

---

[1] Üsuli-kafi, c.1, səh.492.
[2] Üsuli-kafi, c.1, səh.315, 492.
[3] İsbatül-vəsiyyət, səh.209.
[4] Biharül-ənvar, c.50, səh.15.
[5] Üsuli-kafi, c.1, səh.492.
[6] Əl-İrşad, səh. 319.
[7] Biharül-ənvar, c.50, səh.20.
[8] Fürui-kafi, c.6, səh.361.

İlk baxışda bu hədisdən belə başa düşülə bilər ki, İmam Cavad (əleyhissəlam) şiələr üçün bütün İmamlardan daha xeyirlidir. Xeyr, bu belə deyildir. Çünki əldə olan sübutlar göstərir ki, bu hədisdən məqsəd İmam Cavad əleyhissəlamın doğularkən şiələrə xüsusi xeyir-bərəkət ərməğan etməsidir. Belə ki, İmam Riza əleyhissəlamın dövrü xüsusi bir mərhələ olmuş və o Həzrət özündən sonrakı İmamı təyin etməkdə keçmiş İmamların heç birinin üzləşmədiyi bir sıra çətinliklərlə üzləşmişdir. Çünki bir tərəfdən İmam Kazim əleyhissəlamın şəhadətindən sonra Vaqifilər adlanan bir dəstə şiə, maddi məqsədə görə İmam Riza əleyhissəlamın İmamətini qəbul etməmiş, digər tərəfdən də, o Həzrətin (İmam Riza əleyhissəlamın) təxminən qırx yeddi yaşına qədər uşağı olmaması Peyğəmbərdən (səlləllahu əleyhi və alih) olan hədisdə şiə İmamlarının sayının on iki nəfər olub onların doqquzunun İmam Hüseyn əleyhissəlamın nəslindən olacağı fikrinə əsasən, həm o Həzrətin öz İmamətini, həm də İmamətin davam edəcəyini sual altına alırdı. Vaqifilər də, məhz bu məsələni bəhanə gətirib İmam Riza əleyhissəlamın İmamətini qəbul etməkdən imtina edirdilər. Hüseyn ibn Qiyama Vasitinin bu barədə İmam Riza əleyhissəlama etdiyi etiraz və o Həzrətin ona verdiyi cavab bu məsələyə tam bir sübutdur. Vaqifilərin başçılarından olan Hüseyn ibn Qiyamə[1] İmam Riza əleyhissəlamı sonsuz qələmə verib ona yazdığı məktubda deyir: "Sənin uşağın olmadığı bir halda necə İmam ola bilərsən?" İmam Riza (əleyhissəlam) onun cavabında yazır: "Sən haradan bilirsən ki, mənim uşağım olmayacaq? And olsun Allaha, bir neçə gün keçməz Allah mənə haqqı batildən ayıran bir övlad verər."[2] Hüseyn ibn Qiyamənin (və eləcə də digər vaqifilərin) bu təbliğ metodu təkcə bununla kifayətlənmir və bu məsələyə müxtəlif münasibətlərdə dəfələrlə işarə edilirdi. İmam Riza (əleyhissəlam) da öz növbəsində onların bu sözlərini, bu "sübutlarını" cavabsız qoymurdu.[3] Nəhayət, İmam Cavad əleyhissəlamın doğulması bu ixtilafa son qoyur. Beləliklə də, İmam Riza (əleyhissəlam) və şiələrin bu sahədəki mövqeyi möhkəmlənir, nəticədə şiəliyin etibarı artır.[4]

Vaqifilər və İmamət nəslinin düşmənlərinin bu barədə olan vəsvəsələri o dərəcəyə yetişmişdi ki, hətta İmam Cavad əleyhissəlamın anadan olması ilə vaqifilərin bəhanəsinin kəsilməsinə baxmayaraq, İmam Riza əleyhissəlamın bəzi qohumları (həsəd, paxıllıq və düşmənçilikləri nəticəsində) Həzrət Cavad əleyhissəlamın o Həzrətin oğlu olmamasını iddia etdilər. Onlar insanlığa yaraşmayan və İslamdan uzaq olan bu töhmətlərində öz gizli fikirlərini üzə çıxarmaq üçün ata ilə oğul arasında sifət rənginin oxşarlığının olmamasından başqa heç bir bəhanə tapmadılar. İmam Cavad əleyhissəlamın rənginin qarabuğdayı olmasını bəhanə gətirib dedilər: "Bizim aramızda rəngi qarabuğdayı olan bir İmam olmamışdır!" İmam Riza (əleyhissəlam) onların cavabında buyurur: "O, mənim oğlumdur." Onlar dedilər: "Peyğəmbər (səlləllahu əleyhi və alih) fizionomika (insanın əhvalını üzünün ifadəsi və bədənin hərəkətləri ilə təyin etmə üsulu) ilə mühakimə edərdi. Bizimlə sənin aranda da (bu uşağın səndən olub-olmaması barədə) fizionomiklər hökm verməlidirlər." İmam Riza

---

[1] Əl-İrşad, səh.318.
[2] Üsuli-kafi, c.1, səh.320.
[3] Kəşfül-ğümmə, c.3, səh.316.
[4] Əl-İmamül-Cavad minəl-məhdi iləl-ləhd, səh.337.

(əleyhissəlam) (məcbur olub) buyurdu: “Siz onların (fizionomiklərin) ardınca adam göndərin, ancaq onlara nə üçün dəvət etdiyinizi deməyin. Mənə qalsa, bu işə əsla əl atmaram.” Bir gün qərar qoyulduğu kimi İmam Riza əleyhissəlamın əmi, qardaş və bacıları bir bağda oturur, o Həzrət özü isə geniş və yun paltar geyərək başına papaq qoymuş və bağı belləməklə məşğul idi. Sanki o Həzrət bağban olub oradakılara heç bir qarışacağı yox idi. Bu vaxt İmam Cavad əleyhissəlamı gətirib fizionomiklərdən oturanların arasından onun atasını təyin etmələrini istəyirlər. Fizionomiklərin hamısı bir nəfər kimi dedi ki, onun atası burada yoxdur, ancaq bu oturan onun atasının əmisi, bu, öz əmisi, bu da bibisidir. Əgər atası da buradadırsa, onda mütləq (İmam Riza əleyhissəlama işarə edərək) çiynində bel tutub bağın ortasında dayanan o kişi olmalıdır. Çünki onların ikisinin də, baldırı eyni cürdür. Bu vaxt İmam Riza (əleyhissəlam) gəlib onların yanında oturur. Fizionomiklərin hamısı deyirlər ki, onun atası bu kişidir. Bunun ardınca İmam Riza əleyhissəlamın əmisi Əli ibn Cəfər yerindən qalxıb İmam Cavad əleyhissəlamın dodaqlarından öpərək dedi: “Şəhadət verirəm ki, sən Allah dərgahında mənim İmamımsan.”[1]

Beləliklə, İmamətlə düşmən olanların Allah nurunu söndürmək üçün qurduqları planlar bir daha boşa çıxır və Allah-taala yenidən onları rüsvay edir.

## Azyaşlı İmam

İmam Cavad (əleyhissəlam) uşaq yaşlarında İmamət məqamına yetişmiş ilk İmam olduğundan, o Həzrətin həyatını mütaliə edərkən irəli çıxan ilk sual bu olur ki, kiçik bir uşaq müsəlmanların rəhbərlik və İmamət məsuliyyətini necə öz öhdəsinə götürə bilər? İnsan bu yaşda olarkən Peyğəmbərin (səlləllahu əleyhi və alih) canişini olması kamalına çata bilərmi? Keçmiş ümmətlərdə də, belə bir hadisə olubmu?

Bu sallara cavab vermək üçün nəzərə almaq lazımdır ki, düzdür, insanın əqli və cismi cəhətdən ömrünün özünəməxsus çiçəklənmə dövrü vardır və insan həmin vaxta yetişdikdə, əql və cismi ən kamil həddə çatır. Ancaq nə eybi var ki, hikmət və yenilməz qüdrət sahibi olan Allah bəzi məsləhətlərə görə bu prosesi bir sıra xüsusi bəndələri üçün qısa bir vaxt ərzində gətirib çatdırsın? Bəşəriyyət tarixində lap qədim dövrlərdən bu cür ümumi qaydadan istisna olan şəxslər olmuş və Allah-taalanın xüsusi lütf və mərhəməti sayəsində kiçik yaşlarındaykən İmamət və xalqa rəhbər olmaq məqamına yetişmişlər. Bu məsələni daha yaxşı izah etmək üçün gəlin bu istisnalardan bir neçəsini nəzərdən keçirək.

Qurani-Kərim Həzrət Yəhya əleyhissəlamın peyğəmbərliyi və onun uşaq yaşlarından Peyğəmbər seçilməsi barədə buyurur: ***“Biz uşaq ikən ona hikmət [Allah kəlamının incəliklərini anlamaq, peyğəmbərlik] verdik.”***[2]

Bəzi təfsirçilər qeyd etdiyimiz ayədə “hikmət” sözünü istedad və bilik mənasına, bəziləri isə onu peyğəmbərlik mənasına təfsir etmişlər. İkinci versiyanı “Üsuli-kafi” kitabında olan hədislər də təsdiq edir. O hədislərdən biri də, İmam Baqir əleyhissəlamın qeyd etdiyimiz ayədəki “hikmət” sözünü Həzrət Yəhya əleyhissəlamın uşaq ikən peyğəbmər seçilməsinə aid edərək bu cür buyurmasıdır: “Həzrət Zəkəriyya

---

[1] Üsuli-kafi, c.1, səh.322.
[2] “Məryəm” surəsi, ayə12.

əleyhissəlamın vəfatından sonra oğlu Yəhya (əleyhissəlam) onun kitab və hikmətini ondan irs aparır. Bu isə məhz Allah-taalanın Quranda ***"Ey Yəhya! Kitabdan bərk yapış! [Tövratı möhkəm tutub onun hökmlərinə ciddi əməl et!] Biz uşaq ikən ona hikmət [Allah kəlamının incəliklərini anlamaq, peyğəmbərlik] verdik"*** - deyərək buyurmasıdır."[1]

Uşağın dil açıb danışması üçün bilirik ki, təxminən on iki ay (bir il) vaxt keçməlidir. Ancaq bunu da bilirik ki, Həzrət İsa (əleyhissəlam) dünyaya gəldiyi ilk günlərdə, hələ beşikdə olarkən danışmış və (Allahın qüdrəti nəticəsində evlənmədən hamilə olub doğmuş və buna görə də, ciddi töhmətlərə məruz qalmış) anasını müdafiə edərək inadkarların dedi-qodusunu məntiqlə aradan aparmışdır. Halbuki, bu cür danışmaq, özü də belə bir məfhuma malik söz demək yalnız böyüklərin əlindən gələ bilər. Qurani-Kərim İsa əleyhissəlamın sözlərini bu cür açıqlamışdır: ***"[Allahdan bir möcüzə olaraq körpə [İsa (əleyhissəlam)] dilə gəlib] dedi: "Mən, həqiqətən, Allahın quluyam [bəndəsiyəm]. O, mənə kitab [İncil] verdi, özümü də Peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək [həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən] etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. O, həmçinin məni anama qarşı olduqca itaətkar və nəvazişkar etdi, [heç kəsə qarşı] zülmkar, asi [dikbaş] eləmədi."[2]***

Qeyd olunanlardan belə nəticəyə gəlirik ki, İmamlardan qabaq da, digər mömin insanlar bu İlahi nemətdən bəhrələnmiş və bu, təkcə İmamlara xas bir şey olmamışdır.

## Bu barədə İmamların buyuruqları

İmamların həyatını mütaliə etdikdə məlum olur ki, bu məsələ İmamların, xüsusən, İmam Cavad əleyhissəlamın öz dövründə də, daima müzakirə mərkəzinə çevrilmiş, onlar da eynilə bu sübutla irad tutanlara cavab vermişlər. İndi nümunə üçün oxucuların diqqətini bu barədə olan üç rəvayətə cəlb edirik:

1. İmam Riza (əleyhissəlam) və İmam Cavad əleyhissəlamın səhabələrindən olmuş Əli ibn Əsbat deyir: "Bir gün İmam Cavad əleyhissəlamın hüzuruna getdim. Görüş zamanı o Həzrətin üzünə diqqətlə baxaraq sifətini yadımda saxlamaq istəyirdim ki, Misirə getdikdən sonra onun tərəfdarlarına simasını təsvir edim. Elə bu vaxt İmam Cavad (əleyhissəlam) mənimlə üz-üzə əyləşib buyurdu: *"Ey Əli ibn Əsbat! Allah-taalanın imamət məsələsində gördüyü iş eynilə peyğəmbərlik məsələsində gördüyü iş kimidir. Allah-taala Həzrət Yusif (əleyhissəlam) barədə buyurur ki,* ***Yusif [gəncliyinin] ən yetkin dövrünə çatdıqda, ona hikmət [peyğəmbərlik] və elm verdik,[3]*** *Həzrət Yəhya (əleyhissəlam) barədə buyurur ki,* ***Biz uşaq ikən ona hikmət [Allah kəlamının incəliklərini anlamaq, peyğəmbərlik] verdik.[4]***
2. ***"[5]***

---

[1] Üsuli-kafi, c.1, səh.382.
[2] "Məryəm" surəsi, ayə 30-32.
[3] "Yusif" surəsi, ayə 22.
[4] "Məryəm" surəsi, ayə 12.
[5] "Miratül Üqul", Məclisi, c. 4, səh. 250.

İmam Riza əleyhissəlamın səhabələrindən biri deyir: “Bir dəfə Xorasanda İmam Riza əleyhissəlamın hüzurunda idik. Orada olanlardan biri İmam əleyhissəlama dedi ki, ey mənim ağam, (Allah eləməsin) birdən sizin başınıza bir iş gəlsə, biz sizdən sonra kimə müraciət edək? O Həzrət buyurdu: “Oğlum Cavada.” Bunu deyəndə həmin şəxs İmam Cavad əleyhissəlamın yaşının az olduğunu bildirdi. İmam Riza (əleyhissəlam) buyurdu: “Allah-taala Həzrət İsa əleyhissəlamı Cavaddan da kiçik yaşlarında Peyğəmbər və yeni şəriət sahibi qərar vermişdi.”[1]

İmam Riza (əleyhissəlam) Müəmmər ibn Xəllad adlı səhabəsinə buyurur: “Mən Cavadı öz yerimdə əyləşdirib onu öz canişinim təyin etmişəm. Biz elə bir nəsildənik ki, kiçiklərimiz hər şeyi böyüklərimizdən irs aparır.”[2]

## Əqidə çaşqınlığı

Kiçik yaşında ikən İmamət məqamına nail olmağın mümkünlüyü haqqında kifayət qədər danışılsa da, İmam Cavad əleyhissəlamın yaşının az olması məsələsinin söz-söhbəti səngimək bilmirdi. Bu söz-söhbətdə nə təkcə bir çox adi şiələrin, eləcə də, bəzi şiə alimlərinin payı var idi. Buna görə də, İmam Riza əleyhissəlamın şəhadətindən sonra İmamətin İmam Cavad əleyhissəlamın öhdəsinə düşdüyü bir dövrdə şiələr (xüsusilə, adi şiələr) çox təhlükəli, o vaxta qədər misli görünməmiş bir əqidə çaşqınlığı ilə üzləşir və İmam Cavad əleyhissəlamın yaşının az olması böyük bir müşkülə çevrilmişdi. Hicri tarixi ilə dördüncü əsr alimi ibn Rüstəm Təbəri yazır: “O, (İmam Cavad (əleyhissəlam)) altı yaş bir neçə aylıq olarkən, Məmun onun atasını şəhid edir və nəticədə şiələr çaş-baş qaldığı üçün camaat arasında fikir müxtəlifliyi yaranmağa başlayır.”[3] Bu məsələni həll etmək məqsədilə şiələr yığıncaqlar təşkil edib İmam Cavad (əleyhissəlam) ilə görüşlər keçirərək o Həzrətin İmamət üçün lazım olan elmə malik olub-olmaması baxımından arxayın olmaq üçün ona suallar verir və o Həzrətdən qəti və qaneedici cavablar aldıqda arxayınlaşırdılar. Tarixçilər bu barədə yazırlar: “Hicrətin iki yüz ikinci ili İmam Riza (əleyhissəlam) vəfat edərkən, İmam Cavad əleyhissəlamın təxminən yeddi yaşı var idi. Buna görə də, Bağdad və digər şəhərlərdə camaat arasında müxtəlif fikirlər yaranmağa başlayır. Rəyyan ibn Silət, Səfvan ibn Yəhya, Məhəmməd ibn Həkim, Əbdürrəhman ibn Həccac və Yunis ibn Əbdürrəhman bəzi şiə başçıları ilə birlikdə Bağdadın “Zəlzəl gölməçəsi” adlı məhəlləsində Əbdürrəhman ibn Həccacın evində toplaşaraq İmam Riza əleyhissəlama əzadarlıq etdilər. Yunis məclisdəkilərə dedi: “Əzadarlıq etməyimiz yetər, gəlin, görək indi İmamət kimin öhdəsinə düşür? Bu uşaq (İmam Cavad (əleyhissəlam)) böyüyənə qədər qarşımıza çıxan məsələlərdə kimə müraciət edək?” Bu vaxt Rəyyan ibn Silət ayağa qalxıb onun boğazından tutaraq möhkəm sıxır və onun baş-gözünə vuraraq qəzəblə deyir: “Sən bizim yanımızda özünü imanlı göstərir, həqiqətdə isə kafir olduğunu gizlədirsən? Əgər onun (İmam Cavad əleyhissəlamın) İmaməti Allah tərəfindəndirsə, onda, bir günlük uşaq olsa belə, yüz yaşlı kişi sayılar, yox, əgər İmaməti Allah tərəfindən deyilsə, yüz yaşlı olsa da, adi adam kimi hesab olunar. Bu

[1] Üsuli-kafi, c.1, səh.322, 384.
[2] Əl-İrşad, səh.318.
[3] Dəlailül-imamət, səh.204.

haqda yaxşı fikirləşin!" Rəyyan ibn Silətin çıxışından sonra məclisdəkilər Yunisi möhkəmcə danladılar."

O vaxt qarşıdan həcc mövsümü gəlirdi. Bağdad fəqih və alimlərindən səksən nəfəri həcc ziyarətinə çıxıb İmam Cavad (əleyhissəlam) ilə görüşmək məqsədilə Mədinə şəhərinə yola düşürlər. Mədinəyə çatdıqda, İmam Sadiq əleyhissəlamın evinə gedirlər. Bu vaxt İmam Cavad əleyhissəlamın əmisi Abdullah ibn Musa içəri girib yuxarı başda oturur. Bir nəfər ayağa qalxıb deyir: "Bu, Peyğəmbər (səlləllahu əleyhi və alih) övladıdır, kimin sualı varsa, soruşsun." Bir neçə nəfər ona suallar verir, o isə onlara düzgün cavab verə bilmədiyi üçün şiələr narahat olur və fəqihlər nigaran halda ayağa qalxaraq deyirlər: "Əgər Əbu Cəfər bizim suallarımıza düzgün cavab verə bilsəydi, Abdullah ibn Musa bura gəlib bizə səhv cavablar verməzdi." Bu vaxt məclisin yuxarı başındakı qapı açılır və Müvəffəq adlı bir xadim içəri girib deyir: "Əbu Cəfər (İmam Cavad (əleyhissəlam)) gəlir." Hamı ayağa qalxıb onu qarşılayaraq salam verirlər. İmam daxil olub əyləşdi. Camaat hamısı sakit oturmuşdu. Sonra isə bir-bir hərə öz sualını o Həzrətə verir. İmam Cavad (əleyhissəlam) onlara qəti və qaneedici cavablar verdikdə, onlar sevinib o Həzrətə dua edərək dedilər: "Sizin əminiz Abdullah bizə filan-filan cavabları verdi." İmam Cavad (əleyhissəlam) (üzünü əmisinə tutub) buyurdu: "Əmi, sabah Allahın hüzurunda dayanıb O, sənə "Ümmətin arasında səndən savadlısı ola-ola, nə üçün bilmədiyin şeylər haqqında camaata hökm verirdin?" – deyə buyurduqda, nə cavab verəcəksən?"[1]

Həmin il bu dəstənin arasında olmuş İshaq ibn İsmayıl deyir: "Mən də o Həzrətdən sual soruşmaq üçün on məsələ hazırlamışdım. Həmin vaxt həyat yoldaşım hamilə idi. Öz-özlüyümdə dedim: Əgər suallarıma cavab verə bilsə, onda, ondan xahiş edərəm ki, Allah-taaladan həyat yoldaşımın bətnindəki uşağın oğlan olmasını istəsin. Camaat öz suallarını verib qurtardıqdan sonra mən də suallarımı demək üçün ayağa qalxdım. O Həzrət məni görcək buyurdu: "İshaq, onun adını Əhməd qoyarsan!" Bu hadisədən sonra həyat yoldaşım bir oğlan uşağı doğdu. Mən də onun adını Əhməd qoydum."[1]

Beləliklə, İmam Cavad (əleyhissəlam) ilə olmuş bu cür görüş, bəhs və müzakirələr şiələrə o Həzrətin İmam olduğuna dair arxayınlıq gətirərək onların fikrindəki şəkk-şübhələri aradan qaldırır.

## İmam Cavad əleyhissəlamın elmi müzakirələri

Qeyd etdiyimiz kimi İmam Cavad (əleyhissəlam) uşaq ikən İmamət məqamına yetişmiş ilk İmam olduğundan, o Həzrət bir sıra elmi müzakirələr təşkil etmiş və bəzi vaxtlar da həmin müzakirələr çox təntənəli şəkildə keçirilmişdir. Bu müzakirələrin təşkil edilməsinin əsas səbəbi o idi ki, bir tərəfdən o Həzrətin yaşının az olmasına görə onun İmam olması bir çox şiələr üçün hələ tam sübuta yetməmiş (baxmayaraq ki, şiələrin əsas alim və başbilənlərinin şiə əqidələrinə dair bu barədə heç bir şəkk-şübhəsi olmamışdır), buna görə də, arxayınlıq əldə etmək məqsədilə o Həzrətə çoxlu sayda suallar verirdilər. Digər tərəfdən də, İmam Cavad əleyhissəlamın yaşadığı dövr Mötəzilə məzhəbinin qol-budaq atıb genişlənərək nüfuz tapdığı bir dövr olmuş, yerli

[1] Biharül-ənvar, c.50, səh.98-100.
[1] İmam Cavad (əleyhissəlam), səh.27-29.

hökumət də, onları himayə edir və bu məzhəbin əqidələrini möhkəmlətmək, digər məzhəbləri isə nüfuzdan salmaq üçün əlində olan bütün maddi və mənəvi imkanlardan istifadə edirdi. Mötəzilə məzhəbinin əqidələri bəşərin naqis və səhv edən ağlına arxalanır. Mötəzilə məzhəbində olanlar dini hökmləri ilk növbədə öz ağılları ilə ölçərək ağılları qəbul edənə əməl edir və ağıllarının qəbul etmədiklərini isə inkar edirdilər. Bir uşağın kiçik yaşlarından ümmətə rəhbər və İmam seçilməsi onların ağlına sığmadığı üçün öz fikirlərində İmam Cavad əleyhissəlamı elmi mübarizə meydanında məğlub edəcəklərini düşünüb, o Həzrətə çətin və dolaşıq suallar verirdilər. Ancaq bu müzakirələrin hər birində İmam Cavad (əleyhissəlam) (İmamət elmi sayəsində) öz qəti və aydın cavabları ilə özünün İmam olması məsələsi üzərindən bütün şəkk-şübhəni qaldıraraq İmam olduğunu və ümumiyyətlə, İmamət məsələsini isbat edirdi. Buna görə də, daha İmam Hadi əleyhissəlamın İmaməti dövründə (o Həzrət də kiçik yaşlarında ikən İmamət məqamına yetişmişdi) bu məsələ heç bir müşkül doğurmurdu. Çünki artıq hamıya məlum olmuşdu ki, yaşın az olması Allah tərəfindən verilmiş bu məqama heç bir təsir göstərə bilməz.

## Yəhya İbn Əksəmlə[1] elmi mübahisə

Məmun Tus şəhərindən Bağdada köçdükdən sonra İmam Cavad əleyhissəlama bir məktub yazıb onu Bağdada dəvət edir. Bu dəvət də, İmam Riza əleyhissəlamın Tus (Mərv) şəhərinə dəvət olunması kimi zahirdə könüllü, həqiqətdə isə məcburi bir səfər olmuşdur. İmam Cavad (əleyhissəlam) Məmunun dəvətini qəbul edib Bağdada gedir. Bir neçə gündən sonra Məmun onu öz sarayına dəvət edərək ona qızı Ümmul-Fəzllə evlənmək təklifini edir. İmam Cavad (əleyhissəlam) Məmunun bu təklifi qarşısında sükut edir. Məmun da sükutu razılıq əlaməti sayıb tədarük fikrinə düşür. O, təntənəli şəkildə bir məclis qurmaq istəyirdi. Lakin bu xəbərin Bəni-Abbas arasında yayılması böyük narazılığa səbəb olur. Bəni-Abbas sülaləsinin nümayəndələri bir yerə toplaşaraq Məmuna öz etirazlarını bildirib dedilər: "Bu nə işdir görürsən? Əli ibn Musa ər-Rizanın vəfat etdiyi və hakimiyyətin Bəni-Abbasın əlində olduğu bir halda hakimiyyəti yenə də, Əlinin övladlarına vermək istəyirsən? Biz bu işə yol verə bilmərik. Aramızda olan neçə illik düşmənçiliyi unutmusan?" Məmun soruşur: "Bəs sizin fikriniz nədir?" Onlar dedilər: "O, uşaqdır və hələ elm və bilikdən xəbəri yoxdur." Məmun dedi: "Siz bu ailəni yaxşı tanımırsınız, onların kiçiyi də, böyüyü də tükənməz elm sahibidir. Əgər mən deyənə razı deyilsinizsə, onda onu yoxlayın. Qəbul etdiyiniz bir alimi gətirib onunla bəhs etdirin, onda mənim dediklərimə inanarsınız."

Abbasilər alimlərin arasında (öz elmi ilə aləmə səs salmış) Yəhya ibn Əksəmi seçirlər. Məmun İmam Cavad əleyhissəlamın elm və bilik səviyyəsini yoxlamaq üçün bir məclis təşkil edir. Həmin məclisdə Yəhya ibn Əksəm üzünü Məmuna tutub deyir: "İcazə verirsən, bu gəncə bir sual verim?" Məmun deyir: "Onun özündən icazə al!" Yəhya İmam əleyhissəlamdan icazə istədikdə, o Həzrət buyurur ki, nə istəyirsən, soruş!" Yəhya deyir: "Həcc mövsümü zamanı ehram bağlayıb heyvan ovlamış şəxsin hökmü necədir?" İmam Cavad (əleyhissəlam) buyurur: "Həmin şəxs o heyvanı

[1] Mə'munun dövründə adlı-sanlı alim olmuşdur.

hərəmdən kənarda ovlamışdır, yoxsa hərəm daxilində? Ehram bağlamış şəxs ehram haqqında heyvan ovlanmasının haram olduğunu bilib, yoxsa yox? Heyvanı bilərəkdən ovlamışdır, yoxsa bilmədən? Heyvanı ovlayan şəxsin özü azad insan olub, yoxsa qul? Uşaq olmuşdur, yoxsa böyük? Birinci dəfədir bü cür iş görür, yoxsa bir neçə dəfə (bundan qabaq da) belə iş görüb? Ovladığı heyvan quşlar cinsinə aiddir, yoxsa quş deyil? Böyük heyvan olub, yoxsa kiçik? Gördüyü bu işdən peşman olub, yoxsa yox? Heyvanı gecə ovlayıb, yoxsa gündüz? Bağladığı ehram ümrə həccinin olub, yoxsa təməttö[1] həccinin?”

Bu məsələ barədə İmam Cavad əleyhissəlamın müxtəlif hallar qeyd etməsinə heyran qalmış Yəhya ibn Əksəmin üzündə zəiflik hiss olunur və dili topuq vurmağa başlayır. Belə ki, bütün məclisdəkilər onun İmam Cavad əleyhissəlamın qarşısında aciz olduğunu açıq-aşkar hiss edirlər. Bu vaxt Məmun deyir: “Şükr olsun Allaha ki, mənim fikirləşdiyim düz çıxdı.” Sonra isə üzünü öz qohum-əqrəbasına tutub deyir: “Qəbul etmədiyiniz həqiqəti indi anladınızmı?”[2]

## Ehram bağlamış şəxsin heyvan ovlamasının müxtəlif hallarının hökmü

Məclisdə gedən müzakirədən sonra camaat çıxıb gedir və təkcə xəlifənin yaxın qohum-əqrəbası qalır. Məmun İmam Cavad əleyhissəlama üzünü tutub deyir: “Başına dönüm, yaxşı olar ki, ehram bağlamış şəxsin heyvan ovlaması üçün qeyd etdiyiniz müxtəlif halların hökmlərini bəyan edəsiniz, biz də öyrənək.” İmam Cavad (əleyhissəlam) buyurdu: “Bəli, əgər ehram bağlamış şəxs hərəmdən kənarda heyvan ovlayarsa və ovladığı heyvan böyük quşlardan olarsa, bir qoyun kəffarə verməlidir, yox, əgər hərəmin daxilində ovlamışdırsa, kəffarəsi iki bərabərdir. Əgər hərəmdən kənarda quşun balasını öldürmüşdürsə, süddən təzəcə ayrılmış bir quzu kəffarə verməlidir, əgər həmin quş balasını hərəmin daxilində öldürmüşsə, onda həm süddən təzəcə ayrılmış bir quzu, həm də həmin heyvanın pulunu kəffarə verməlidir. Əgər ovladığı çöl heyvanlarındandırsa, bunun müxtəlif halları ola bilər. Vəhşi ulağı öldürmüşdürsə, bir inək, dəvəquşu öldürmüşsə, bir dəvə, ceyran öldürmüşsə, bir qoyun kəffarə verməlidir. Ancaq bu şərtlə ki, bunları hərəmdən kənarda öldürmüş olsun. Əgər bunları hərəm daxilində öldürərsə, onda qeyd etdiklərimizin iki bərabərini kəffarə verməlidir. Ehram bağlamış şəxs elə bir iş görə ki, qurbanlıq (bu qurbanlıq kəffarə ünvanındadır) ona vacib ola, əgər bu vaxt o, təməttö həccindədirsə, qurbanı Minada kəsməlidir, yox əgər ümrə həccindədirsə, onda qurbanı Məkkənin özündə kəsməlidir. Ehram halında heyvan ovlamağın haram olmasını bilənlə bilməyənin heç bir fərqi yoxdur, ancaq bilərəkdən öldürmüşsə, (kəffarədən əlavə) günah da etmişdir, bilmədən öldürmüşsə, heç bir günahı yoxdur (və sadəcə olaraq yalnız kəffarə verməlidir). Ehram halında heyvan ovlamış (öldürmüş) şəxs azaddırsa, kəffarəsi öz boynuna, quldursa, kəffarəsi sahibinin boynundadır. Ehram halında heyvan öldürmüş şəxs uşaqdırsa, ona heç bir kəffarə düşmür, əgər böyükdürsə,

[1] Ümrə və təməttö həccin növləridir.
[2] Biharül-ənvar, c.50, səh.75-76.

kəffarəsini verməlidir. Gördüyü bu işdən peşiman olan şəxsə (bu işinə görə) Axirət əzabı yoxdur, ancaq işindən peşiman olmayan şəxsə isə bu işinə görə Axirət əzabı var.”[1]

## Baş qazı heyran qalır

(İmam Cavad əleyhissəlamın bu sözündən sonra) Məmun deyir: “Afərin, ey Cavad! Allah sənə xeyir versin! İndi yaxşı olar ki, Yəhya ibn Əksəm sənə sual verdiyi kimi sən də ona bir sual verəsən.” İmam Cavad (əleyhissəlam) Yəhyaya buyurur: “Soruşum?” Yəhya deyir: “Başına dönüm, ixtiyar sahibi sizsiniz, əgər bilsəm, cavabını verərəm, bilməsəm də sizdən öyrənərəm.” İmam Cavad (əleyhissəlam) buyurur: “Mənə de görüm, necə olur ki, bir kişi sübh tezdən bir qadına baxır və bu baxmağı haram olur, ancaq elə ki, günəş çıxır həmin qadın o kişiyə halal olur. Günorta olduqda yenə qadın kişiyə haram olur, günortadan keçcək yenə halal olur. Günəş batdıqda qadın kişiyə haram olur, amma axşam olduqda isə yenə halal olur. Gecə yarısı olcaq qadın kişiyə haram olur, dan yeri sökülləndə, yenə qadın halal olur? Bu hansı qadındır və nəyə görə kişiyə halal və haram olur?” Yəhya ibn Əksəm deyir: “Allaha and olsun ki, mən bu sualın cavabını bilmirəm. Əgər məsləhət bilirsinizsə, onun cavabından bizi xəbərdar edin.” İmam Cavad (əleyhissəlam) buyurdu: “Bu qadın bir kişinin kənizi olub, sübh tezdən bir yad kişi ona baxır və bu baxışı haram olur, elə ki, günəş çıxır həmin kişi kənizi sahibindən alır, beləliklə də, kəniz ona halal olur. Günorta olduqda kənizi azad edir, o da artıq, kişiyə haram olur. Günortadan keçdikdə onunla evlənir və qadın halal olur. Günəş batarkən öz qadını ilə zihar (qanuni nikahlarını özlərinə haram) edir, buna görə də, qadın ona haram olur, axşam vaxtı isə ziharın kəffarəsini verərək qadını yenidən özünə halal edir. Gecə yarısı olcaq ona təlaq verir (onu boşayır) və qadın ona haram olur, dan yeri söküldükdə isə təlaqını geri götürür və beləliklə də, qadın ona halal olur.”[2]

## İmam Cavad əleyhissəlamın tükənməz elmindən nümunələr

## 1. İmam Cavad əleyhissəlamın fətva verməsi və saray fəqihlərinin rüsvay olması

İmam Cavad (əleyhissəlam) qeyd etdiyimiz iki elmi mübahisədən əlavə, bəzi vaxtlar öz İmamət elmi sayəsində müxtəlif yollarla saray alim və fəqihlərinin savadsızlığını və özünün onlardan üstün olduğunu sübut edərək İmamətə əqidə bəsləmək fikrini camaatın fikrində canlandırırdı. Bu baxımdan o Həzrətin, bir oğrunun barmaqlarının haradan kəsilməsi barədə verdiyi fətvanı nümunə göstərmək lazımdır. Hadisə bu cür baş verir. Bağdad şəhərinin qazısı İbn Əbu Duadla dostluq etmiş Zurqan[3] deyir: “Bir gün İbn Əbu Duad xəlifə Mötəsimin məclisindən çox

[1] Biharül-ənvar, c.50, səh.77.
[2] Biharül-ənvar, c.50, səh.78.
[3] Onun ləqəbi Əbu Cə’fər olmuş və hədis söyləyən idi.

narahat halda geri dönür. Narahatçılığının səbəbini soruşduqda, deyir: Bu gün Allahdan istədim ki, kaş iyirmi il bundan qabaq öləydim. Dedim: Nəyə görə?

— Xəlifə Mötəsimin məclisində İmam Cavad (əleyhissəlam) tərəfindən başıma gələn hadisəyə görə.

— Məgər nə baş vermişdir?

— Bir nəfər gəlib oğurluq etməsi barədə etiraf edərək xəlifədən ona İlahi hədd icra etməklə günahını yumaq istədi. Xəlifə bütün fəqihləri və İmam Cavad əleyhissəlamı da çağırtdıraraq bizdən soruşdu: "Oğrunun əli haradan kəsilməlidir?"

Mən dedim ki, biləkdən kəsilməlidir. Xəlifə dedi: "Hansı əsasa görə deyirsən?" Mən dedim: "Çünki təyəmmüm barədə olan ayədə ***"ondan [torpaqdan] üzünüz və əllərinizə sürtün"***[1] deyildikdə, ***"əlləriniz"*** sözündən "biləklərə qədər" mənası başa düşülür." Bu barədə bəziləri mənimlə həmfikir olub mən deyəni dedilər, bəziləri isə mən deyənlə razılaşmayıb bildirdilər ki, oğrunun əli dirsəkdən kəsilməlidir. Xəlifə onlardan bunu hansı əsasa görə demələrini soruşduqda, cavab verdilər ki, dəstamaza aid olan ayədə ***"üzünüzü və əllərinizi dirsəklərinizə qədər yuyun"***[2] deyildikdə, ***"əlləriniz"*** sözündən məqsəd "dirsəyə qədər" mənasıdır. Sonra xəlifə Mötəsim üzünü İmam Cavad əleyhissəlama tutub dedi: "Bu barədə sənin fikrin nədir?" O dedi: "Bunlar fətva verdilər, məni üzürlü say." Mötəsim israr edib onun da öz fikrini bildirməsi üçün ona and verir. Məhəmməd ibn Əli (İmam Cavad (əleyhissəlam) ) dedi: "İndi ki, and verirsən, onda öz fikrimi deyərəm. Bunlar hamısı səhv deyirlər. Çünki oğrunun yalnız barmaqları kəsilməlidir." Mötəsim dedi: "Hansı əsasa görə?" O cavab verdi: "Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur ki, səcdə bədənin yeddi üzvü vasitəsi ilə yerinə yetirilir: alın, əllərin iki ovucu, iki dizlər, ayaqların iki baş barmaqları. Buna əsasən, oğrunun əli bilək, yaxud dirsəkdən kəsilərsə, onda namazın səcdəsini yerinə yetirmək üçün onun əli qalmır. Həmçinin, Allah-taala buyurmuşdur: ***"Şübhəsiz ki, bütün səcdəgahlar [səcdə üçün lazım olan yeddi bədən üzvü] Allaha məxsusdur. Heç kəsi Allaha şərik qoşmayın."***[3] Elə isə Allaha məxsus olan şeyi kəsmək olmaz." Mötəsim onun cavabını bəyənib oğrunun barmaqlarını kəsdirir. (Biz məclisdəkilərin hüzurunda rüsvay olduq.) Mən elə oradaca (son dərəcə narahatçılıq və rüsvayçılıq nəticəsində) Allahdan özümə ölüm arzuladım."[4]

## 2. Hədis uyduranlar rüsvay olurlar

Nəql olunur ki, Məmun öz qızını İmam Cavad əleyhissəlama verdikdən sonra özünün, İmam Cavad əleyhissəlamın, Yəhya ibn Əksəmin və bir çoxlarının iştirakı ilə bir məclis təşkil edir. Həmin məclisdə Yəhya, İmam Cavad əleyhissəlama deyir: "Belə nəql edirlər ki, Cəbrail (əleyhissəlam) Peyğəmbərin (səlləllahu əleyhi və alih)

---

[1] "Maidə" surəsi, ayə 6.

[2] "Maidə" surəsi, ayə 6.

[3] "Əl-Cinn" surəsi, ayə 18; Məcməül-bəyan, c.10, səh.440.

[4] Doqquzuncu İmam Həzrət Cavad (əleyhissəlam), səh.26-29; Məcməül-bəyan, c. 10, səh. 372; Təfsiri-Əyyaşi (təshih və tə`liq), c. 1, səh. 320; Əl-bürhan fi təfsiril-Qur`an, c. 1, səh. 471; Vəsailüş-şiə, c. 18, səh. 490 (oğurluq babları, 4). Şəriət baxımından əlin kəsilmə həddinin tə`yini ilə bağlı sünnü və şiə alimlərinin nəzər və fətvalarını bilmək üçün "Əs-səhih min siyrətin-Nəbiyyil-ə`zəm" kitabının c. 4, səh. 103-ə müraciət edin.

hüzuruna gəlib deyir: “Ey Məhəmməd! Allah sənə salam göndərərək buyurur ki, Mən Əbu Bəkrdən razıyam, ondan soruş, gör o da məndən razıdır? Bu hədis barədə sizin fikriniz nədir?[1] ” İmam Cavad (əleyhissəlam) onun cavabında Peyğəmbərin (səlləllahu əleyhi və alih) bu hədisini buyurur: “Mənim adımdan yalan danışanlar çoxalmış və məndən sonra daha da çoxalacaqlar. Kim mənim adımdan yalan danışırsa, yeri Cəhənnəmdə olacaqdır. Sizin üçün mənim dilimdən bir hədis söylənildikdə, onu Allahın kitabı (Quran) və sünnəmlə tutuşdurun, (bu vaxt) Quran və sünnəmə müvafiq olanı qəbul edin, (ancaq) Quran və sünnəmə müvafiq olmayanı isə qəbul etməyin.” Sonra İmam Cavad (əleyhissəlam) əlavə edib buyurur: “(Əbu Bəkr) barədə söylədiyin bu rəvayət Allahın kitabı (Quran) ilə uyğun gəlmir. Çünki Allah buyurmuşdur ki, ***“And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq.”***[2] Məgər Əbu Bəkrin Allahdan razı qalıb-qalmaması Allahın Özünə məlum deyildi ki, onu Peyğəmbərdən (səlləllahu əleyhi və alih) soruşurdu? Bu, əqli nöqteyi-nəzərdən qeyri-mümkündür!” Yəhya deyir: “Rəvayət edilmişdir ki, Əbu Bəkrlə Ömərin yerdə olmaları Cəbrail (əleyhissəlam) ilə Mikailin asimanda olması kimidir.” İmam Cavad (əleyhissəlam) buyurur: “Bu hədis də, həqiqətlə uyğun gəlmir. Çünki Cəbrail (əleyhissəlam) və Mikail (əleyhissəlam) Allah dərgahında ən üstün mələklər olub əsla günah etməz və bir an da olsa belə, Allahın itaət çərçivəsindən kənara çıxmazlar. Əbu Bəkrlə Ömər isə vaxtilə müşrik olmuş, İslam dini meydana çıxdıqdan sonra müsəlman olmalarına baxmayaraq, ömürlərinin çoxunu müşriklik və bütpərəstliklə keçirmişlər. Deməli, Allahın Əbu Bəkrlə Öməri Cəbrail ilə Mikailə bənzətməsi qeyri-mümkündür!” Yəhya dedi: “Həmçinin, rəvayət edilmişdir ki, Əbu-Bəkrlə Ömər Cənnət qocalarının ağalarıdır. Bu hədis barədə nə deyirsən?” İmam Cavad (əleyhissəlam) buyurdu: “Bu hədisin də doğru olması qeyri-mümkündür! Çünki Cənnət əhlinin hamısı cavan olacaq və onların arasında bir dənə də, qoca olmayacaq. Bu hədisi Bəni-Üməyyə Peyğəmbərin (səlləllahu əleyhi və alih) *“Həsənlə Hüseyn (əleyhimassəlam) Cənnət gənclərinin ağalarıdır”* hədisinin qarşısına çıxarmaq üçün uydurmuşlar.” Yəhya dedi: “Rəvayət edilmişdir ki, Ömər ibn Xəttab Cənnət əhlinin çırağıdır.” İmam Cavad (əleyhissəlam) buyurdu: “Bu da mümkün olan şey deyil! Çünki Allahın yaxın mələkləri, Həzrət Adəm (əleyhissəlam), Həzrət Məhəmməd (səlləllahu əleyhi və alih) və bütün peyğəmbərləri Cənnətdə olacaqlar. Necə ola bilər ki, mələklər, peyğəmbərlər qala-qala Cənnət Ömərin nuru ilə işıqlansın?” Yəhya dedi: “Rəvayətdir ki, Ömər nə deyirsə, mələyin dilindən deyir.” İmam Cavad (əleyhissəlam) buyurdu: “Mən Ömərin fəzilətini inkar etmirəm, lakin Əbu Bəkrin Ömərdən daha fəzilətli olmasına baxmayaraq, o, minbərdə olarkən deyirdi ki, mənim, məni düz yoldan çıxaran bir şeytanım var. Düz yoldan çıxdığımı gördükdə, məni düz yola tərəf cəlb edin.” Yəhya dedi: “Rəvayət edilmişdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurub: Əgər mən Peyğəmbər seçilməzdimsə, onda mütləq Ömər Peyğəmbər

---

[1] Əllamə Əmini “Əl-Qədir” kitabının 5-ci cildinin 321-ci səhifəsində yazır: Bu hədis yalan və saxtadır. Onu Məhəmməd ibn Babşaz özündən uydurmuşdur.

[2] “Qaf” surəsi, ayə 16.

seçiləcəkdi.”[1] İmam Cavad (əleyhissəlam) buyurdu: “Daha doğrusunu Quran buyurur. Allah Quranda buyurur ki, ***“[Ya Rəsulum!] Xatırla ki, Biz bir zaman peyğəmbərlərdən əhd almışdıq: Səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da...”***[2] Bu ayədən açıq-aşkar başa düşülür ki, Allah peyğəmbərlərdən əhd almışdır. Belə olduğu halda, necə ola bilər ki, Allah Öz əhdinə vəfa etməsin (əhdini dəyişdirsin)? Peyğəmbərlərin heç biri bir göz qırpımı qədər də Allaha şərik qoşmadıqları halda, necə ola bilər ki, Allah ömrünün çoxunu bütpərəstliklə keçirmiş bir şəxsi Peyğəmbər seçsin? Bundan da əlavə, Peyğəmbərin (səlləllahu əleyhi və alih) özü buyurmuşdur ki, Adəm (əleyhissəlam) hələ yaranmamışdan qabaq mən Peyğəmbər idim.” Yəhya dedi: “Rəvayət edilmişdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: Vəhy məndən kəsildikdə mən belə güman etdim ki, vəhy (Ömərin atası) Xəttabın ailəsinə nazil olur. Yəni nübüvvət (peyğəmbərlik) məndən onlara keçmişdir.” İmam Cavad (əleyhissəlam) buyurdu: “Bu da qeyri-mümkündür! Ona görə ki, Peyğəmbərin öz peyğəmbərliyində şəkk etməsi mümkün olası iş deyildi. Çünki Allah buyurmuşdur: ***“Allah mələklərdən də Peyğəmbər seçər, insanlardan da...”***[3] (Deməli, Allahın Öz seçimi ilə artıq Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz peyğəmbərliyində şəkk etməsinə heç bir lüzum qalmır). Yəhya dedi: “Rəvayət edilmişdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurub: “Əgər (yer üzünə) bəla gəlsəydi, Ömərdən başqa heç kəs canını qurtara bilməzdi.” İmam Cavad (əleyhissəlam) buyurdu: “Bu da qeyri-mümkündür! Çünki Allah-taala Peyğəmbərə (səlləllahu əleyhi və alih) buyurmuşdur ki, ***sən onların arasında ola-ola Allah [sənə hörmət əlaməti olaraq] onlara əzab verən deyildir. [Tövbə edib] bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz.***[4] Deməli, nə qədər ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) camaatın arasındadır və nə qədər ki, müsəlmanlar Allahdan bağışlanmalarını diləyirlərsə, Allah onlara əzab verməz.”[5]

## Alimlərin nəzərində İmam Cavad əleyhissəlamın şəxsiyyəti

İmam Cavad əleyhissəlamın söhbətləri, elmi mübahisələri, böyük elmi və fiqhi müşkülatları həll etməsi İslam alimlərini, istər şiə olsun, istərsə də sünni, heyran qoymuş, onlar İmam əleyhissəlamın şəxsiyyətinin bu cür əzəməti qarşısında öz təəccüblərini gizlədə bilməmiş və onların hər biri o Həzrəti bir vasitə ilə tərifləmişdir. Nümunə üçün Səbt ibn Əl-Cuzinin dediyini qeyd etmək olar: “O, elm, təqva, zahidlik və səxavətdə atasının tutduğu yolu gedirdi.”[6]

İbn Həcər Heytəmi yazır: “O, yaşının az olmasına baxmayaraq, elm, bilik və helm baxımından bütün alimlərdən üstün olduğu üçün Məmun öz qızını ona ərə vermək istəyirdi.”[7]

---

[1] Əllamə Əmini bu hədisin yalan olmasını “Əl-Qədir”də qeyd etmişdir. c.5, səh.319.
[2] “Əhzab” surəsi, ayə 7.
[3] “Həcc” surəsi, ayə 75.
[4] “Ənfal” surəsi, ayə 33.
[5] Ehticac, c.2, səh.247–248; Biharül-ənvar, c.50, səh.80.
[6] Təzkirətül-xəvass, səh.359.
[7] Əs-səvaiqül-mühriqə, səh.205.

Şəbəlnəci deyir: "Məmun daima onun vurğunu olmuşdur. Çünki yaşının az olmasına baxmayaraq, öz fəzilət, elm və ağıl-kamalı ilə əzəmətini sübuta yetirmişdi."[1]

Şiə məzhəbinin böyük ustadı Şeyx Müfid və həmçinin, Fəttah Nişaburi İmam Cavad əleyhissəlamı bu cür yad etmişlər: "Məmun onun vurğunu olmuşdu. Çünki o görürdü ki, o Həzrət yaşının azlığına baxmayaraq elm, hikmət, ədəb və əqli kamillik baxımından elə yüksək mərtəbəyə yetişmişdir ki, o dövrün böyük elmi şəxsiyyətlərinin heç biri o mərtəbəyə yetişməmişdi."[2]

Əli əleyhissəlamın ailəsinin düşmənlərindən olan mötəzilə Cahiz Osmani İmam Cavad əleyhissəlamı camaatın sevimli şəxsləri olan on nəfərin sırasına daxil edərək onların barəsində demişdir: "Onlar alim, zahid, ibadətlə məşğul olan, şücaətli, səxavətli və pak insanlar olmuşlar. Onlardan bəziləri xəlifə, bəziləri də xəlifəliyə namizəd olmuşlar. Bu on nəfər biri digərinin oğlu olmuşdur. Onlar aşağıdakılardır: Həsən ibn Əli (İmam Həsən Əsgəri (əleyhissəlam)), Əli ibn Məhəmməd (İmam Əliyyən Nəqi (əleyhissəlam)), Məhəmməd ibn Əli (İmam Cavad (əleyhissəlam)), Əli ibn Musa (İmam Riza (əleyhissəlam)), Musa ibn Cəfər (İmam Kazim (əleyhissəlam)), Cəfər ibn Məhəmməd (İmam Sadiq (əleyhissəlam)), Məhəmməd ibn Əli (İmam Baqir (əleyhissəlam)), Əli ibn Hüseyn (İmam Səccad (əleyhissəlam)), Hüseyn ibn Əli (İmam Hüseyn (əleyhissəlam)) və Əli ibn Əbutalib (Həzrət Əli (əleyhissəlam)). Ərəb və əcəm (qeyri-ərəb) nəsillərinin heç biri bu cür şərafətə malik olmamışdır."[3]

## Hiylə əsasında qurulmuş nikah

İmam Riza əleyhissəlamın həyatından bəhs edərkən qeyd etdik ki, Məmun bir sıra siyasi çətinliklərlə üzləşdiyindən Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsi ilə aranı düzəltmək qərarına gəlir. Elə buna görə də, İmam Riza əleyhissəlama güclə vəliəhdliyi qəbul etdirməklə öz çoxcəhətli siyasətini həyata keçirmək istəyirdi. Digər tərəfdən isə Abbasilər Məmunun bu hərəkətindən, hakimiyyəti Abbasilərdən alıb Ələvilərə verəcəyi ehtimalından çox narahat olduqlarından, ona qarşı çıxmağa başlayırlar. Ancaq İmam Riza (əleyhissəlam) Məmun tərəfindən zəhərlənərək şəhid olduqdan sonra onlar sakitləşib razı olaraq Məmuna üz tuturlar. Məmun İmam Riza əleyhissəlama zəhəri çox gizli şəkildə vermiş və çalışırdı ki, camaat onun bu cinayətindən xəbər tutmasın. O, öz cinayətinin üstünü örtmək məqsədilə əzadarlıq edib özünü narahat qələmə verirdi. Ancaq bu qədər səylərə baxmayaraq, nəhayət bütün Ələvilərə məlum olur ki, İmam əleyhissəlamın qatili məhz Məmunun özüdür. Onlar bu hadisədən çox narahat olaraq qəzəblənirlər. Hakimiyyətini bir daha təhlükə qarşısında görən Məmun bu dəfə yeni bir hiyləyə əl atır. İmam Cavad əleyhissəlamla dostluq əlaqəsi bərpa etmiş Məmun qərara gəlir ki, öz qızını o Həzrətə ərə verməklə İmam Riza əleyhissəlama zorla qəbul edilmiş vəliəhdlikdən istifadə etdiyi kimi İmam Cavad əleyhissəlamla olan bu qohumluqdan da istifadə etsin. Bu məqsədlə o, hicrətin iki yüz dördüncü ili, yəni, İmam Riza əleyhissəlamın şəhadətindən düz bir il sonra

---

[1] Nurul-əbsar, səh.161.
[2] Əl-İrşad, səh.319.
[3] İmam Cavad əleyhissəlamın siyasi həyatına bir baxış, səh.106.

İmam Cavad əleyhissəlamı Mədinədən Bağdada gətizdirir. İmam Cavadla Yəhya ibn Əksəm arasındakı elmi mübahisə məclisində (əlbəttə, bu məclis o Həzrətin Bağdada gəlməsindən bir neçə il sonra olmuşdur) öz qızı Ümmul-Fəzli o Həzrətə nişanlayır. Qeyd edirlər ki, bu hadisə İraqın Təkrit şəhərində 215-ci hicri ilində baş vermişdir.[1]

## Məmunun məqsədi

Məmunun israrı nəticəsində həyata keçmiş bu nikah tamamilə siyasi məqsəd daşıyırdı. Bir az diqqət etsək, Məmunun bu nikahdan aşağıdakı məqsədləri güdməsini çox aydın şəkildə başa düşərik:

**1.** Öz qızını İmamın evinə göndərməklə o Həzrətin bütün işlərindən xəbərdar olmaq istəyirdi. (Məmunun qızı üzərinə düşən "xəbərçilik" vəzifəsini layiqincəsinə yerinə yetirirdi. Tarix də buna şahiddir.)

**2.** Bu nikah Məmunun xam fikrincə, guya İmam Cavad əleyhissəlamı onun eyş-işrət mərkəzinə çevrilmiş sarayı ilə əlaqədə saxlayaraq, o Həzrəti eyş-işrətə, kef-əyləncəyə cəlb edəcək, beləliklə, İmam Cavad əleyhissəlamın müqəddəsliyi aradan gedər və Məmun də, o Həzrətin ismət və İmamət məqamını camaatın gözündə aşağı salaraq onu xar edər.

**3.** Bu nikahla Məmun Ələvilərin onun əleyhinə qaldırdıqları qiyamların qarşısını alar və onlarda özünə qarşı məhəbbət yaradar.[2]

**4.** Məmunun dördüncü məqsədi avam camaatı aldatmaq idi. Bəzi vaxtlar onun özü deyirdi: "Mən qızımı ona görə (İmam) Cavad əleyhissəlama ərə verdim ki, qoy qızımın ondan uşağı olsun və mən Peyğəmbərlə (səlləllahu əleyhi və alih) Əli əleyhissəlamın nəslindən olan bir uşağın babası olum. Ancaq xoşbəxtlikdən Məmunun bu hiyləsi baş tutmur. Çünki onun qızının heç vaxt uşağı olmur.[3] İmam Cavad əleyhissəlamın isə bütün uşaqları başqa arvaddan olmuşdur.

Bunlar Məmunun bu nikahdan güddüyü məqsədlər olmuşdur. İndi gəlin görək, nəyə görə İmam Cavad (əleyhissəlam) bu nikaha razılıq verir?

İmam Cavad (əleyhissəlam) heç bir şəkk-şübhə olmadan Məmunun bu kimi işlərdən güddüyü əsl məqsədindən xəbərdar olduğu halda, digər tərəfdən də, o Həzrət, əziz atası İmam Riza əleyhissəlamı şəhid etməklə böyük cinayət törətmiş şəxsin məhz Məmun olduğunu bildiyi halda, belə başa düşürük ki, o Həzrət bu nikaha Məmunun təzyiqləri nəticəsində razılıq vermişdir. Çünki bu nikah İmam Cavad əleyhissəlamın məsləhəti ilə deyil, yalnız Məmunun məsləhəti ilə həyata keçirilmişdir. Belə də düşünmək olar ki, İmamın sarayla əlaqədə olmasında məqsədi, o Həzrətin Mötəsim tərəfindən qətlə yetirilməsinə mane olmaq və İmam əleyhissəlamın dostlarının və eləcə də, şiə başçılarının aradan götürülməsinin qarşısını almaq olmuşdur. Bu da eynilə Əli ibn Yəqtinin şiələrin mənafeyini qorumaq məqsədilə Harun ər-Rəşidin vəzirliyini qəbul edərək saraya yol tapmasına bənzəyir. İmam Cavad əleyhissəlamın dostlarından olan Hüseyn Məkkari deyir: "Bir gün Bağdadda İmam Cavad əleyhissəlamın hüzuruna gedib güzəranı ilə tanış oldum. Fikirləşdim ki, artıq İmam (əleyhissəlam) rifahlı həyata nail olduğu üçün daha o Həzrət doğma vətəni Mədinəyə

---

[1] "Bağdad", Əbülfəzl Əhməd ibn Əbu Tahir Katib, səh. 142-143.

[2] Doqquzuncu İmam Həzrət Cavad (əleyhissəlam), səh.38.

[3] Tarixi-Yə'qubi, c.3, səh.189.

qayıtmaz. O Həzrət bir anlığa başını aşağı saldı. Başını qaldırdıqdan sonra rəngi qəm-qüssədən saralmış halda mənə buyurdu: "Hüseyn, Peyğəmbər (səlləllahu əleyhi və alih) şəhərində (Mədinədə) bir parça quru çörəklə duz yemək mənim üçün burada gördüyündən daha yaxşıdır."[1]

Buna görə də, İmam Cavad (əleyhissəlam) Bağdadda qalmayıb həyat yoldaşı Ümmul-Fəzllə birlikdə Mədinəyə qayıdır və hicrətin iki yüz iyirminci ilinə qədər orada yaşamışdır.

## Vəkillik əlaqə vasitəsi kimi

İmam Cavad (əleyhissəlam) imkanlarının məhdud olmasına baxmayaraq, vəkil və nümayəndələr təyin etməklə şiələrlə əlaqəsini qoruyub saxlayırdı. O Həzrət bütün xilafət ərazisinə nümayəndə göndərir və onların fəaliyyəti nəticəsində də şiə qüvvələrinin zəiflədilməsinin qarşısı alınırdı. İmam əleyhissəlamın nümayəndələri bir çox şəhərlərdə, o cümlədən, Əhvaz, Həmədan, Sistan, Bost,[2] Rey, Bəsrə, Vasit, Bağdad və əzəldən şiələrin mərkəzi olmuş Kufə və Qum şəhərlərində fəaliyyət göstərirdilər. İmam Cavad (əleyhissəlam) şiələrə hökumət sarayına yol tapıb mühüm vəzifələr tutmasına icazə vermişdi. Buna görə də, Məhəmməd ibn İsmayıl ibn Bəzi və Əhməd ibn Həmzeyi-Qummi böyük vəzifələrdə işləmiş, Nuh ibn Dərrac isə bir müddət Bağdadın, sonra da Kufənin qazısı olmuşdur. Həmçinin, Hüseyn ibn Abdullah Nişaburi Bost və Sistan şəhərlərinin, Həmək ibn Ülya Əsədi isə Bəhreynin hakimi olmuşdur. Axırda adı çəkilən hər iki nəfər İmam Cavad əleyhissəlama xüms ödəyirdi ki, bu da onların o Həzrətə olan gizli bağlılıqlarından xəbər verir.[3]

İmam Cavad əleyhissəlamın yaşının az olmasından danışarkən qeyd etmişdik ki, Əli ibn Əsbat o Həzrətlə görüşü zamanı İmamın simasını yaxşı yadda saxlayıb Misirə qayıtdıqdan sonra onu şiələr üçün təsəvvür etsin deyə, diqqətlə ona baxırdı. Bundan belə başa düşülür ki, o Həzrətin Misirdə də, şiə və tərəfdarları olmuşdur. Deyilənlərə görə o vaxt Misirdə şiələrin geniş təşəkkül tapması Məhəmməd ibn Məhəmməd ibn Əşəs, Əhməd ibn Səhl, Hüseyn ibn Əli Misri və İsmayıl ibn Musa əl-Kazim kimi Kufə hədisçilərinin Misirə köçərək orada fəaliyyət göstərmələri nəticəsində olmuşdur.[4] Mərhum Kuleyni qeyd edir ki, İmam Cavad (əleyhissəlam) Bost və Sistan şəhərlərinin şiələrindən birinin xahişinə əsasən, bu şəhərlərin valisinə məktub yazıb ona tapşırır ki, maliyyə vergilərini almaqda onun üçün çətinlik yaratmasın. İmam Cavad əleyhissəlamın dostlarından olan həmin şəhər valisi İmam əleyhissəlamın bu sifarişindən sonra daha o şəxsdən xərac vergisinin borcunu almır, üstəlik vali olduğu müddət ərzində onu xərac vergisindən azad edərək onun üçün beytül-maldan maaş təyin edir.[5]

---

[1] Əl-Xəracu vəl-cəraih, c.1, səh.344.
[2] Bost Sistan vilayətinin şəhərlərindən biri olmuşdur.
[3] On ikinci imamın qeybə çəkilməsinin siyasi tarixi, səh.79.
[4] Yenə orada, səh.78.
[5] Fürui-kafi, c.5, səh.111.

## İmam Cavad əleyhissəlamın elmi məktəbi

Bildiyimiz kimi İmamların həyatındakı ən əsas cəhətlərdən biri onların mədəni-maarif sahəsinə diqqət etmələri olmuşdur. İmamların hər biri öz dövründə mədəniyyət sahəsində fəaliyyət göstərmiş və şagirdlər yetişdirərək onlar vasitəsilə öz elmlərini cəmiyyət arasında yaymışlar. Ancaq onların (İmamların) dövründə siyasi-ictimai şərait heç də yeknəsəq olmamışdır. Məsələn, İmam Baqir (əleyhissəlam) və İmam Sadiq əleyhissəlamın dövründə şərait çox yaxşı olmuş, buna görə də, İmam Sadiq əleyhissəlamın şagirdlərinin sayı dörd minə çatmışdı. İmam Cavad əleyhissəlamdan başlayaraq İmam Həsən Əsgəri əleyhissəlamın dövrünə qədər isə siyasi təzyiqlər və onların fəaliyyətinin hökumət tərəfindən nəzarət altına alınmasına görə bu İmamların fəaliyyəti çox məhdud olmuş, buna görə də, onların şagirdlərinin sayı İmam Sadiq əleyhissəlamın şagirdlərinin sayı ilə müqayisədə həddən artıq az olmuşdur. Deməli, "İmam Cavad əleyhissəlamın yüz on nəfərə yaxın şagirdi olmuş[1] və o Həzrətdən cəmi iki yüz əlli hədis rəvayət edilmişdir" deyildikdə heç də təəccüblənməməliyik. Çünki o Həzrət bir tərəfdən ciddi nəzarət altında olmuş, digər tərəfdən də, tez bir vaxtda şəhid olmuş və bütün tarixçilərin dediyinə görə cəmi iyirmi beş il ömür sürmüşdür. Eyni zamanda nəzərə almaq lazımdır ki, İmam Cavad əleyhissəlamın bu azsaylı şagirdlərinin arasında Əli ibn Məhziyar, Əhməd ibn Məhəmməd ibn Əbu Nəsr Bəzənti, Zəkəriyya ibn Adəm, Məhəmməd ibn İsmayıl ibn Bəzi, Hüseyn ibn Sənd Əhvazi, Əhməd ibn Məhəmməd ibn Xalid Bərqi kimi elm və fiqh sahəsində sayılıb-seçilən, özünəməxsus mövqeyi olan şəxslər də olmuşdur. Bunlardan bəziləri çoxlu əsərlər də yazmışlar. Başqa bir məsələ isə budur ki, İmam Cavad əleyhissəlamdan hədis söyləyən şəxslər təkcə şiələr olmamış, eləcə də sünni məzhəbinin alim və hədisçiləri də bir sıra İslami maarif və həqiqətləri o Həzrətdən rəvayət etmişlər. Misal üçün qeyd etmək olar ki, Xətib Bağdadi o Həzrətdən çoxlu hədis rəvayət etmişdir.[2] Həmçinin, Hafiz Əbdüləziz ibn Əxzər Cənabəzi "Məalimül-itrətit-tahir"[3] adlı kitabında, eləcə də, Əbu Bəkr Əhməd ibn Sabit, Əbu İshaq Sələbi və Məhəmməd ibn Mindət ibn Mehrbaz kimi müəlliflər öz tarix və təfsir kitablarında İmam Cavad əleyhissəlamdan çoxlu hədislər rəvayət etmişlər.[4]

## İmam Cavad əleyhissəlamın şəhadəti

Hicrətin iki yüz on səkkizinci ilində Məmun vəfat edir. Ondan sonra qardaşı Mötəsim xəlifə olur. O, İmam Cavad əleyhissəlamı öz nəzarəti altında saxlamaq məqsədi ilə hicrətin iki yüz iyirminci ilində o Həzrəti Mədinədən Bağdada gətizdirir. İmam (əleyhissəlam) Bağdada gəldikdən sonra Mötəsimin, oğrunun əlinin haradan kəsilməsi barədə təşkil etdiyi məclisdə iştirak etmişdi. Həmin məclisdə Bağdad qazısı (İbn Əbu Duad) və başqaları (səhv fətva verdiklərinə görə) rüsvay olmuş, bundan bir neçə gün sonra İbn Əbu Duad həsəd və paxıllığı nəticəsində xəlifənin hüzuruna gəlib demişdir: "Mən xeyirxahlıq məqsədi ilə sənə xəbərdarlıq edirəm ki, bir neçə gün

---

[1] Rical (Şeyx Tusi), səh.397-409.
[2] Tarixi-Bağdad, c.3, səh.54-55.
[3] Ə'yanuş-şiə, c.2, səh.35.
[4] İbn Şəhraşub, c.4, səh.384.

bundan qabaq baş vermiş hadisə sənin hökumətinin xeyrinə deyil. Çünki sən bütün hökumət alimləri və yüksək rütbəli nümayəndələrin hüzurunda (İmam) Cavad əleyhissəlamın verdiyi fətvanı başqalarının fətvasından üstün tutdun. Halbuki, müsəlmanların yarısı onu əsl xəlifə, səni isə onun haqqını qəsb etmiş bilirlər. Bu xəbər bütün camaat arasında yayılaraq onun haqq olduğuna qəti bir sübut olmuşdur.”

Qəlbində İmam Cavad əleyhissəlama qarşı düşmənçilik kin-küdurəti bəsləyən Mötəsim onun sözlərindən bərk narahat olaraq İmam əleyhissəlamı öldürmək fikrinə düşdü. Nəhayət, o, öz çirkin məqsədini həyata keçirib İmam Cavad əleyhissəlamı vəzirlərindən birinin katibi vasitəsilə zəhərləyib şəhid edir.[1] İmam Cavad (əleyhissəlam) şəhid olarkən mübarək ömründən cəmi iyirmi beş il və bir neçə ay keçmişdi.[2]

---

[1] Təfsiri-Əyyaşi, c.1, səh.320.
[2] Əl-İrşad, səh.326.

# X FƏSİL

## İMAM ƏLİYYƏN-NƏQİ ƏLEYHİSSƏLAMIN HƏYATI

***  Gizli fəaliyyətlər**
***  Vəkillik əlaqə vasitəsi kimi**
***  Şərab məclisi bir-birinə dəyir**
***  Xəlifə Mütəvəkkilin cinayətləri**
***  İmam Hadi (əleyhissəlam) (Əliyyən-Nəqi (əleyhissəlam) ) və müxtəlif əqidə məktəbləri**
***  İmam Hadi (əleyhissəlam) məktəbinin şagirdləri**

## İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatı barədə qısa məlumat

Şiələrin onuncu İmamı - İmam Əliyyən-Nəqi (əleyhissəlam) hicrətin iki yüz on ikinci ili zil-hiccə ayının on beşində Mədinə yaxınlığındakı Sərya adlı bir yerdə anadan olmuşdur. Atası İmam Cavad (əleyhissəlam), anası isə hörmətli Səmanə xanım olmuşdur. O, elə əvvəldən fəzilətli və təqvalı bir kəniz idi.[1] Onuncu İmamın ən məşhur ləqəbləri Nəqi və Hadi olmuşdur. O Həzrətə "üçüncü Əbülhəsən" deyirlər.[2]

İmam Hadi (əleyhissəlam) hicrətin iki yüz iyirminci ilində əziz atasının şəhadətindən sonra səkkiz yaşında ikən İmamət məqamına yetişmişdir. O Həzrətin İmamət müddəti otuz iki il, ümumi ömrü isə qırx bir il və bir neçə ay olmuş, hicrətin iki yüz əlli dördüncü ilində isə Samirra şəhərində şəhadətə qovuşmuş və öz evində də torpağa tapşırılmışdır.[1]

## İmam Əliyyən-Nəqi əleyhissəlamın müasiri olmuş xəlifələr

İmam Əliyyən-Nəqi (əleyhissəlam) İmam olduğu müddət ərzində aşağıda adları çəkilmiş Abbasi xəlifələrinin müasiri olmuşdur:

Məmunun qardaşı Mötəsim (217–227 h.q);
Mötəsimin oğlu Vasiq (227–232 h.q);
Vasiqin qardaşı Mütəvəkkil (232–248 h.q);
Mütəvəkkilin oğlu Müntəsir (altı ay);
Müntəsirin əmisi oğlu Müstəin (248–252 h.q);
Mütəvəkkilin digər oğlu Mötəzz (252–255 h.q).

İmam Əliyyən-Nəqi (əleyhissəlam) adı sonuncu çəkilmiş xəlifənin (Mötəzzin) hakimiyyəti dövründə zəhərlənərək şəhid olmuş və evindəcə dəfn olunmuşdur.

## İmam Əliyyən-Nəqi əleyhissəlamın dövründə siyasi-ictimai vəziyyət

Abbasilər hakimiyyətinin bu mərhələsi onu digər mərhələlərdən ayıran bir sıra xüsusiyyətlərə malik olmuşdur. İndi həmin xüsusiyyətlərdən bir neçəsini oxucuların nəzərinə çatdırırıq:

**1. Xilafətin əzəmət və heybətinin itməsi;** İstər Əməvilərin hakimiyyəti dövründə, istərsə də Abbasilər dövründə xilafətin özünəməxsus əzəməti olmuşdur. Ancaq İmam Əliyyən-Nəqi əleyhissəlamın dövründə xilafətdə türklərin və qulların nüfuz tapmasının nəticəsi olaraq xilafət öz əzəmətini itirmiş, bu ünsürlər onu istədikləri kimi idarə edirdilər. Xəlifə yalnız simvolik bir məna daşıyırdı. Ancaq buna baxmayaraq, nə vaxt müxaliflər tərəfindən bir təhlükə hiss edilirdisə, xəlifə və bütün ətrafındakılar onu dəf etmək üçün ümumi bir razılığa gəlirdilər.

**2. Saraydakıların əyləncə ilə gün keçirmələri;** Abbasi xəlifələri hakimiyyətdə yaranmış boşluqdan istifadə edib kef, əyləncə, eyş-işrətlə məşğul olaraq gecə məclisləri təşkil edirdilər. Hökumət başdan-başa fəsadla dolmuşdu. Tarix onların bu əyləncələrinin hamısını qələmə almışdır.

---

[1] E'lamül-vəra, səh.355.
[2] E'lamül-vəra, səh.355.
[1] Həmin mənbə.

**3. Zülm, haqsızlıq və özbaşnalığın yayılması;** Zülm və haqsızlığın yayılması, həmçinin, beytül-malı qarət edib əyləncə və əyyaşlığa sərf etmək camaatı cana yığmışdı.

**4. Ələvi qiyamlarının artması.** Abbasi xəlifələri hakimiyyətlərinin bu mərhələsində çalışırdılar ki, cəmiyyət arasında Ələvilərə qarşı nifrət yaratmaqla onları tar-mar etsinlər. Ələvilərin hər hansı bir qiyamının kiçik fəaliyyəti müşahidə edilən kimi dərhal amansızcasına onun qarşısını almağa cəhd göstərilirdi. Bunun də səbəbi o idi ki, hökumət cəmiyyətdə yaratdığı qorxuya baxmayaraq, özünü qeyri-sabit, qeyri-qanuni bilib bu kimi qiyamlardan çox qorxurdu. Ələvilərin bu müddət ərzindəki fəaliyyəti belə olmuşdur ki, onlar kiminsə adını çəkmədən camaatı Məhəmmədin (səlləllahu əleyhi və alih) nəslindən seçilmiş bir nəfərin ətrafında toplaşmağa dəvət edirdilər. Çünki qiyam başçıları görürdülər ki, hərbi düşərgə sayılan Samirra şəhərində məsum İmamlar təqib olunur, belə olduğu halda, onlar müəyyən bir şəxsi (yəni hər hansı bir məsum İmamı) rəhbər təyin etməklə onun həyatını təhlükə ilə üzləşdirər və hətta ölümünə səbəb ola bilərdilər. Bu qiyamlar cəmiyyətdə yaranmış zorakılıq və özbaşınalıqların nəticəsi olub birbaşa onlarla əlaqədar olmuşdur. Məsələn, digər Abbasi xəlifələri ilə müqayisədə Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsinə nisbətən əlaqəsi olan və hakimiyyəti dövründə şiələr üçün heç bir təhlükə doğurmayan xəlifə Müntəsirin dövründə bir dənə də olsun belə, qiyam baş verməmişdir. Tarixçilər təkcə 219-270 hicri qəməri illəri arasında baş verən on səkkiz qiyamı qeyd etmişlər. Bu qiyamların əksəriyyəti məğlubiyyətlə nəticələnmiş və Abbasi hökuməti tərəfindən yatırılmışdır.

## Qiyamların məğlubiyyətə uğramasının səbəbləri

"İmam Sadiqin (ə) həyatı" fəslinin son bəhslərində Zeyd və Məhəmməd "Nəfsi Zəkiyyə"nin qiyamlarının məğlubiyyətinin səbəblərini qeyd etdiyimiz kimi, bu qiyamların məğlubiyyətə uğramasının səbəbini də bir tərəfdən qiyam başçılarının, digər tərəfdən isə tərəfdarlarının zəif olması ilə əlaqələndirmək lazımdır. Qiyam başçılarının hazırladıqları proqramlar kamil olmadığı üçün işlərində çatışmazlıqlar olur və ən əsası isə onların qiyamı tam şəkildə İslami bir qiyam olmurdu. Buna görə də, qiyamlar çox vaxt məsum İmamların etirazı ilə üzləşməli olurdu. Düzdür, bu qiyam tərəfdarları arasında pakməramlı və əsl şiələr də var idi ki, onlar İslamın ali məqsədləri uğrunda ölümə getməyə belə, hazır idilər. Ancaq bu cür insanların sayı çox az idi və mübarizə aparanlar əsasən, müəyyən bir İslami məqsədi olmayan şəxslər idilər. Onlar məruz qaldıqları zülm və haqsızlıqlar nəticəsində narahat olub mövqelərini dəyişmək fikrinə düşür, lakin məğlubiyyət zamanı, yaxud ölüm təhlükəsində olduqlarını hiss etdikdə, öz rəhbərlərini tənha qoyub ondan uzaqlaşırdılar. Bir daha xatırladırıq ki, əgər bu qiyamların əksəriyyəti məsum İmamların etirazı ilə üzləşirdisə, onun səbəbi, ya bu qiyamların əsl İslami qiyam olmaması, qiyamçıların, yaxud qiyam başçılarının bəzi qeyri-İslami hərəkətləri olmuş, ya da onların fəaliyyətinin məğlub olacağını qabaqcadan görmək olmuşdur. Buna görə də, əgər İmam onların qiyamına razılıq versəydi, qiyamın məğlub olacağı

təqdirdə şiə və İmamət məsələsinin əsası, həmçinin, şiə məzhəbinin əsas qüvvələri təhlükə qarşısında olardı.

## İmam Əliyyən-Nəqi əleyhissəlamın gizli fəaliyyətləri

İmam Əliyyən-Nəqi əleyhissəlamın İmaməti dövründəki Abbasi xəlifələri arasında hamıdan çox Mütəvəkkil o Həzrətlə həmzaman olmuşdur. Buna görə də, onun İmam Əliyyən-Nəqi əleyhissəlamın müqabilindəki mövqeyini araşdırmaq daha məqsədəuyğun olar.

Mütəvəkkil Bəni-Haşimə qarşı çox kobud və düşməncəsinə rəftar edirdi. O, Bəni-Haşimə qarşı daima bədgüman olmuş və onları həmişə müttəhəm etmişdir. Onun vəziri Übeydullah ibn Yəhya ibn Xaqan da, həmişə onun yanında Bəni-Haşimə qarşı töhmətlər qoşaraq onu bu tayfaya qarşı pis rəftar etməyə vadar edirdi. Mütəvəkkil Ələvilərə qarşı zülm və insafsızlıqda sanki bütün Abbasi xəlifələrini ötüb keçmişdi.[1] Mütəvəkkilin Əli (əleyhissəlam) və onun övladlarına qarşı misli görünməmiş bir düşmənçiliyi var idi. Əgər bir nəfərin Əli əleyhissəlama rəğbət bəslədiyindən xəbər tutsaydı, bütün mal-dövlətini müsadirə edib özünü də öldürəcəkdi.[1] Elə buna görə də, İmam Əliyyən-Nəqi (əleyhissəlam) Mütəvəkkilin hakimiyyəti dövründə öz fəaliyyətini gizli şəkildə aparır, şiələrlə münasibətdə son dərəcə ehtiyatla hərəkət edirdi. Bunu tarixçilərin aşağıda qeyd etdikləri hadisə də bir daha təsdiq edir.

Məhəmməd ibn Şərəf deyir: “Mədinədə İmam Əliyyən-Nəqi (əleyhissəlam) ilə birlikdə yol gedirdim. İmam buyurdu: “Sən Şərəfin oğlusan?” Dedim: ki, bəli. İstədim o Həzrətdən bir sual soruşam. İmam məni qabaqlayıb buyurdu: “Biz indi camaatın çox get-gəl etdiyi küçədəyik, bura sual yeri deyil.”[2]

Bu hədisdən hakim qüvvələrin cəmiyyəti nə qədər çətinlikdə saxlaması və eləcə də, İmam Əliyyən-Nəqi əleyhissəlamın məcburi şəkildə gizli fəaliyyətini açıq-aşkar bəyan etməsi başa düşülür. İmam Əliyyən-Nəqi (əleyhissəlam) uzaq şəhər və kəndlərdə yaşayan şiələrlə də eynilə bu cür hərəkət edirdi. Onların göndərdiyi şəri vergiləri, hədiyyə və nəzirləri gizlincə qəbul edirdi. Tarix kitablarında qeyd olunmuş bu cür hadisələrdən birinə nəzər salaq:

Məhəmməd ibn Davud Qummi və Məhəmməd Təlhi deyir: “Qum və onun yaxınlıqlarından yığılmış xüms, hədiyyə və nəzirləri İmam Əliyyən-Nəqi əleyhissəlamın hüzuruna aparırdıq. Yolda o Həzrətin köndərdiyi qasid yetişib bizə xəbər verdi ki, geri qayıdaq. O bildirdi ki, indi bunları İmam əleyhissəlama təqdim etmək üçün münasib vaxt deyil. Biz geri qayıdıb bütün yükümüzü də özümüzdə saxladıq. Bir müddət keçdikdən sonra o Həzrətin əmrilə ona çatdırmaq istədiyimiz şeyləri onun öz göndərdiyi dəvələrə yükləyib sarbansız hüzuruna göndərdik. Bundan bir qədər keçdikdən sonra o Həzrətin hüzuruna getdikdə, bizə buyurdu: “Göndərdiklərinizə baxa bilərsiniz.” Biz onlara baxdıqda gördük ki, göndərdiyimiz şeylər olduğu kimi qalıb.”[3] Düzdür, bu hadisənin İmam Əliyyən-Nəqi əleyhissəlamın

---

[1] Məqatilüt-talibin, səh.395.
[1] Əl-Kamilu fit-tarix, c.7, səh.55.
[2] Biharül-ənvar, c.50, səh.176.
[3] Biharül-ənvar, c.50, səh.185.

Mədinədə, yoxsa Samirrada olduğu müddətdə baş verməsi məlum olmasa da (Samirrada hökumətin nəzarəti daha çox olmuşdur), ancaq bu, şiələrin İmama gizli və dövlət məmurlarından xəbərsiz əlaqələrindən bir nümunədir.

Həmçinin, İmam Cavad (ə) Samirra şəhərinə aparıldıqdan sonra hökumətin ciddi nəzarəti altında olmasına baxmayaraq bir dəfə Qumdan göndərilən beytül-malı gecə vaxtı təhvil aldı. Qabaqcadan duyuq düşmüş casusların bu xəbəri xəlifəyə çatdırılması, beləliklə xəlifənin əmri ilə malı müsadirə etmək üçün tapşırıq almış Fəth ibn Xaqanın və digər mə`murların cəhdləri heç bir nəticə vermədi.[1]

## Vəkillik əlaqə vasitəsi kimi

Şiə İmamlarının Abbasi xəlifələri dövründə üzləşdiyi böhranlı vəziyyət onları şiələrlə əlaqə saxlamaq üçün başqa bir vasitə axtarmağa məcbur etdi. Bu da İmamların şiələrlə əlaqə vasitəsi təşkil edib müxtəlif şəhər və kəndlərdə vəkillər və nümayəndələr təyin etməsindən ibarət olmuşdur. Bu hərəkətdən əsas məqsəd vəkillər vasitəsilə müxtəlif yerlərdən xüms, zəkat, nəzir, hədiyyə və bu kimi şeylərin yığılaraq İmama çatdırılması, həmçinin, şiələrin fiqhi və əqidəvi suallarına İmam tərəfindən cavab verilməsi və vəkillərin bu çətinlikləri siyasi nöqteyi-nəzərdən hazırkı vəziyyətlə uyuğunlaşdırması olmuşdur. İmamların fəaliyyətində bu hərəkətin böyük rolu olmuşdur. Samirra şəhərində ciddi nəzarət altına alınmış İmam Əliyyən-Nəqi (əleyhissəlam) atası İmam Cavad əleyhissəlamın icra etdiyi vəkil və nümayəndə təyinetmə işini davam etdirərək müxtəlif şəhər və kəndlərə vəkil və nümayəndələr təyin edirdi. Doğru yola yönəlmiş bu vəkillər yuxarıda qeyd olunmuş məqsədləri tam şəkildə təyin edirdilər.

İmam Əliyyən-Nəqi (əleyhissəlam) ilə şiələr arasında bilavasitə əlaqənin olmaması vəkillərin məzhəbi və siyasi rolunu gücləndirdi, belə ki, onların, işləri səliqə-səhmana salmaqda məssuliyyətləri daha da artdı. Vəkillər get-gedə şiələrin işini idarə etməkdə dəyərli təcrübələr əldə edirdilər. Bir çox tarixi faktlar göstərir ki, vəkillər müxtəlif məntəqələrə əsasən, şiələri aşağıdakı dörd qrupa bölmüşdülər:

Bağdad, Mədain və Kufə (İraq) məntəqəsi;

Bəsrə və Əhvaz məntəqəsi;

Qum və Həmədan məntəqəsi;

Hicaz, Yəmən və Misir məntəqəsi.

Bu məntəqələrin hər biri üçün xüsusi vəkil təyin edilir, onlar da özlərinə yerli əhalidən işçilər seçirdilər. Bu nümayəndəliyin fəaliyyətini İmam Əliyyən-Nəqi əleyhissəlamın nümayəndələrə verdiyi göstərişlərdə müşahidə etmək olar. Rəvayət olunmuşdur ki, İmam Əliyyən-Nəqi (əleyhissəlam) hicrətin iki yüz otuz ikinci ilində öz məntəqə (Bağdad) vəkili Əli ibn Bilala yazmışdır: *"...Mən Əbu Əli ibn Raşidi Əli ibn Hüseyn ibn Əbdürrəbbihin yerinə*[2] *vəkil təyin edirəm. Bu məsuliyyəti ona görə onun öhdəsinə qoyuram ki, o, bu iş üçün lazımi səlahiyyətə kifayət qədər malikdir. Belə ki, bu işdə heç kəs ondan üstün ola bilməz. Bilirəm ki, o məntəqənin böyüyü*

[1] Əmali, Şeyx Tusi, səh. 276.

[2] Əli İbn Hüseyn İbn Əbdürrəbbih hicrətin 229-cu ilinə qədər İmamın Məkkədəki vəkili olmuş, vəfat etdikdən sonra İmam, Əbu Əlini onun yerinə vəkil tə'yin etmişdir (İxtiyari-mə'rifətir-rical, səh.510.).

*sənsən, buna görə də, səni bu işdən xəbərdar etmək istədim. Eyni zamanda sən də ona tabe olmalı və toplanmış şəri vergiləri ona göndərməlisən. Bütün şiələri bu işdən xəbərdar et və o, öz vəzifəsini layiqincə yerinə yetirsin deyə, onları da ona tabe olmağa və ona kömək etməyə dəvət et..."*[1]

Həmçinin, İmam Əliyyən-Nəqi (əleyhissəlam) öz vəkillərindən biri olan Əyyub ibn Nuha yazmışdı: *"Ey Əyyub ibn Nuh! Mənim göstərişim sənə çatdıqdan dərhal sonra Əbu Əli ilə müxalifətçilikdən əl çək. Hər ikiniz öz məntəqənizdə öhdənizə düşən vəzifəni yerinə yetirməlisiniz. Belə olduğu halda, öz vəzifənizi mənimlə məsləhətləşmədən də yerinə yetirə bilərsiniz. Ey Əyyub, mənim göstərişimə əsasən, bundan sonra Bağdad və Mədain camaatından heç bir şeyi (şəri vergini) qəbul etmə və onlardan heç birinə mənimlə görüşməyə icazə vermə! Əgər sənin öz məsuliyyət çərçivəndən kənar olan bir şəxs sənə şəri vergi versə, ona de ki, aparıb öz məntəqə vəkilinə versin.*

*Ey Əbu Əli! Sənə də göstəriş verirəm ki, eynilə Əyyuba verdiyim göstərişi yerinə yetirəsən."*[2]

İmam Əliyyən-Nəqi (əleyhissəlam) Əbu Əli ibn Raşidin vasitəsilə Bağdad, Mədain və Kufədəki şiələrinə də bir məktub göndərir. Məktubda deyilir: *"...Mən Əbu Əli ibn Raşidi Hüseyn ibn Əbdürrəbbih və digər keçmiş vəkillərimin yerinə vəkil təyin edirəm. O, mənim yanımda artıq Hüseyn ibn Əbdürrəbbih vəzifəsini daşıyır. Şəri vergilərin toplanması baxımından digər vəkillərin də ixtiyarını ona verərək, bu işə layiq olduğuna görə onu sizin işlərinizi idarə etmək üçün təyin edirəm. Siz şəri vergilərinizi ona verin. Öz əlaqənizi əsla onunla pozmayın və ona qarşı çıxmaq fikrini başınızdan çıxarın. Allaha itaət etməyə, əmlakınızı təmizləməyə tələsin, bir-birinizin qanını tökməyin, xeyir işlərdə, təqvada bir-birinizə əl tutun. Allah rəhmətinə nail olmaq istəyirsinizsə, təqvalı olun! Hamılıqla Allahın ipindən (dinindən) yapışın və müsəlman halında ölün. Ondan (Əbu Əlidən) itaət etmək mənə itaət etmək, onun sözündən çıxmaq mənim sözümdən çıxmaq deməkdir. İşinizi elə bu cür davam etdirin, Allah da sizə xeyir verər və Öz mərhəməti sayəsində vəziyyətinizi yaxşılaşdırar. O, (Allah) həddən artıq səxavətli, bəndələrinə münasibətdə isə həddən artıq mehribandır. Biz və siz Onun himayəsi altındayıq. Bu məktubu öz xəttimlə yazıram. Sonsuz şükr və həmd təkcə Allaha məxsusdur."*[3]

Bağdad ətrafındakı Hamiya kəndinin sakini Əli ibn Cəfər də İmam Əliyyən-Nəqi əleyhissəlamın vəkillərindən biri idi. Onun fəaliyyəti barədə Mütəvəkkilə xəbər çatmış, Mütəvəkkil onu tutaraq həbs etmişdi. Uzun müddət həbsdə qaldıqdan sonra azad olmuş, sonra da İmam Əliyyən-Nəqi əleyhissəlamın sifarişi ilə Məkkəyə gedib orada yaşamağa başlamışdır.[4]

İmam Əliyyən-Nəqi əleyhissəlamın nümayəndələri arasında İbrahim ibn Məhəmməd Həmədaninin də adını qeyd etmək lazımdır. İmamın ona yazdığı məktubda deyilir: *"Göndərdiyin şəri vergilər gəlib çatdı. Allah səndən qəbul etsin,*

---

[1] İxtiyari-mə'rifətir-rical, səh.513.
[2] İxtiyari-mə'rifətir-rical, səh.514.
[3] İxtiyari-mə'rifətir-rical, səh.513–514.
[4] İxtiyari-mə'rifətir-rical, səh.607.

*şiələrimizdən də razı qalsın və onları dünya və Axirətdə bizimlə bir yerdə qərar versin...”*

Bu məktubdan açıq-aşkar məlum olur ki, İmam, İbrahimi nümayəndə təyin etmiş və (ola bilsin ki, öz vəzifəsindən əlavə) şiələrdən toplanmış şəri vergiləri də, o Həzrətə çatdırırmış. İmam Əliyyən-Nəqi (əleyhissəlam) onun bu fəaliyyətini təqdirəlayiq bilib mövqeyini möhkəmlətmək üçün ona yazır: *“Nəzr ibn Məhəmməd Həmədaniyə[1] bir məktub yazıb tapşırdım ki, həm sənə etiraz etməsin, həm də sənə qarşı çıxmasın. Sənin mənim yanımda olan mövqeyini ona bildirdim. Əyyub ibn Nuh Fərraca da eynilə bu tapşırığı tapşırdım.[2] Həmçinin, Həmədandakı şiələrimizə məktub yazıb onlara tapşırdım ki, sənə itaət etsinlər. Həm də onlara bildirdim ki, mənim o məntəqədə səndən başqa nümayəndəm yoxdur.”[3]*

Bir sözlə, nümayəndələrin apardığı fəaliyyət, xüsusən də, Mütəvəkkilin hakimiyyəti dövründəki fəaliyyətləri göz qabağındadır. Mütəvəkkil Əlavilərlə düşmənçiliyi olan şəxsləri özünə tərəf cəlb edərək onları, Əlavilərin gizli şəkildə apardığı fəaliyyətini dayandırmağa sövq edirdi. O, şiələri tutub həbs etmək məqsədilə bir sıra nizami hərəkətə əl atır və özü də bu hərəkətini çox ciddiyyətlə həyata keçirirdi. Onun bu hərəkəti İmamın Bağdad, Mədain və Kufədəki bəzi vəkillərinin ölümünə, bəzilərinin isə həbs edilməsinə gətirib çıxarır.[4] Mütəvəkkilin bu hərəkəti vəkillik əlaqəsinə ciddi sarsıntılar varid etsə də, İmam Əliyyən-Nəqi (əleyhissəlam) öz gözəl təcrübələri nəticəsində bu əlaqəni daima fəal saxlayırdı.

## İmam Əliyyən-Nəqi əleyhissəlamın Mədinədən Samirraya gəlməsi

Mütəvəkkil İmam Əliyyən-Nəqi əleyhissəlamı öz nəzarəti altına almaq üçün ata-babalarının yolunu davam etdirir, nəyin bahasına olursa olsun, fikrini o Həzrət barədə rahat etmək istəyirdi. Bundan qabaq Məmunun İmam əleyhissəlamın fəaliyyətini nəzarət altına almaqda işlətdiyi metodu müşahidə etdik. Onun İmam Cavad (əleyhissəlam) ilə qohumluq əlaqəsi yaratmasına baxmayaraq, o hətta Həzrətin evinin daxilində belə, onu nəzarət altında saxlaya bilmir. İmam Cavad (əleyhissəlam) şəhid olduqdan və İmam Əliyyən-Nəqi (əleyhissəlam) İmamət məqamına yetişdikdən sonra da bu planı həyata keçirməyin nə qədər lazım olduğunu həmin dövrün xəlifəsi çox yaxşı başa düşürdü. Çünki İmam Mədinədə qalıb xəlifənin nəzarətindən uzaq olsaydı, onda bu zalım hökumət üçün çox ciddi təhlükə yarada bilərdi. Buna görə də, xəlifə (Mütəvəkkil) bu təhlükə ehtimalının qarşısını almaq məqsədilə öz palnını həyata keçirməli idi. Belə ki, Mədinə hakiminin xəlifəyə verdiyi məlumat onu həddən artıq nigaran edir və nəticədə Mütəvəkkil o Həzrəti Mədinədən Samirayya gətizdirir.

Mədinə hakimi Abdullah ibn Məhəmməd Haşimi xəlifəyə göndərdiyi məktubda İmam Əliyyən-Nəqi əleyhissəlamın Mədinədə topladığı sosial baza haqqında məlumat verərək onu bərk qorxuya salır.[5] Ancaq İmam Əliyyən-Nəqi (əleyhissəlam) Mütəvəkkilə bir məktub yazaraq Abdullahın dediklərinin yalan olduğunu bildirərək

[1] Tənqihül-məqal, c.3, səh.271.
[2] Tənqihül-məqal, c.3, səh.271.
[3] İxtiyari-mə’rifətir-rical, səh.611–612.
[4] İxtiyari-mə’rifətir-rical, səh.603–607.
[5] Biharül-ənvar, c.50, səh.200.

ondan xəlifəyə şikayət etdi. Mütəvəkkil də bir çox siyasətçilər kimi ikibaşlı bir işə əl ataraq bir tərəfdən Abdullah ibn Məhəmmədi işdən çıxarır, digər tərəfdən də öz katibinə tapşırır ki, İmam Əliyyən-Nəqi əleyhissəlama bir məktub yazsın. O, öz məktubu ilə zahirdə İmama olan əlaqəsini göstərmək istəyir, həqiqətdə isə məqsədi İmamı öz nəzarəti altına almaq idi. Az sonra Mütəvəkkilin İmama göstərdiyi təzyiqlər və onun üçün yaratdığı müşkülat barədə söhbət edəcəyik. Mütəvəkkilin İmama yazdığı məktub aşağıdakı məzmunda olmuşdur: "Allahın adı ilə! Şükürlər olsun Allaha ki, xəlifə səni yaxşı tanıyır, sizin şəxsiyyət və Peyğəmbərə (səlləllahu əleyhi və alih) olan qohumluğunuzu nəzər alır. Onun yeganə məqsədi Allahın və sizin razılığınızı cəlb etməkdir. O əmr verdi ki, sizin istəyinizə əsasən, sizə qarşı hörmətsizlik etmiş şəhərimizin ordu başçısı və İmam cüməsi Abdullah ibn Məhəmməd işdən çıxarılıb onun yerinə Məhəmməd ibn Fəzl işə təyin edilsin. Ona tapşırılmışdır ki, Allaha, Peyğəmbərə (səlləllahu əleyhi və alih) və Əmirəl-mömininə (Mütəvəkkilə) yaxın olmaq istəyirsə, sizə itaət edib sizə qarşı hörmətlə yanaşsın. Xəlifə (Mütəvəkkil) sizinlə əhdini təzələmək üçün sizi görmək arzusundadır. Əgər xəlifəni görmək istəyirsinizsə, öz ailə və dostlarınızla birlikdə onun yanına gələ bilərsiniz. Səfər ixtiyarı sizin öz əlinizdədir. Yolda istədiyiniz yerdə dayana bilərsiniz. İstəsəniz xəlifənin xadimi Yəhya ibn Hərsəmə sizin karvanı bura gətirib sizə qulluqçu olması ilə fəxr edər. Çünki siz bizim yanımızda böyük hörmətə maliksiziniz. Biz də öz növbəmizdə sizə böyük ehtiramla yanaşarıq. Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh."[1]

Şübhəsiz ki, İmam Əliyyən-Nəqi (əleyhissəlam) Mütəvəkkilin fikrindəki pis məqsəddən xəbərdar idi. Ancaq Samirraya getməkdən başqa çarəsi yox idi. Çünki Mütəvəkkilin dəvətini qəbul etməmək o Həzrətdən şikayət edənlər üçün qəti bir sübut ola bilər, eyni zamanda Mütəvəkkili daha da qəzəbləndirib o Həzrətə daha artıq təzyiqlər göstərməsi üçün bir bəhanə ola bilərdi. İmam Əliyyən-Nəqi əleyhissəlamın sonralar Samirrada buyurduğu "Məni Mədinədən güclə Samirraya gətirdilər"[2] cümləsi o Həzrətin Mütəvəkkilin məqsədindən xəbərdar olduğuna və məcburiyyət qarşısında qalaraq bu səfərə çıxdığına bir sübutdur. Bir sözlə, İmam Əliyyən-Nəqi (əleyhissəlam) Mütəvəkkilin o Həzrəti Samirraya dəvət etməsi məktubunu aldıqdan sonra Yəhya ibn Hərsəmə ilə Samirraya getməli olur.

## Mütəvəkkilin köməkçilərinin xəbərdarlığı

İmam Əliyyən-Nəqi əleyhissəlamı Mədinədən Samirraya gətirilməsi məsələsini öhdəsinə götürmüş Yəhya ibn Hərsəmə bu hadisəni belə izah edir: "Mədinəyə gəlib Əliyyən-Nəqi əleyhissəlamın evinə getdim. Onun evinə getdikdən və camaat onun Samirraya cəlb edilməsi xəbərini eşitdikdən sonra şəhərdə bərk çaxnaşma düşdü. Camaat elə səs-küy saldı ki, o günə qədər o cür səs-küy eşitməmişdim. Mən əvvəl onları sakitləşdirmək üçün and-aman edib dedim ki, arada heç bir pis fikir yoxdur, mən heç də ona əziyyət etmək üçün bura gəlməmişəm. Sonra isə onun evini axtarmağa başladım. Onun özünəməxsus otağında bir neçə Quran və dua kitabından

[1] Biharül-ənvar, c.50, səh.200.
[2] Yenə orada, səh.129.

başqa heç bir şey yox idi. Bir neçə məmur onu evdən çıxartdı, özüm isə onun evdən Samirraya qədər xidmətində durdum. Bağdada gəldikdə ilk növbədə şəhər başçısı İshaq ibn İbrahim Tahiri ilə qarşılaşdım. O, mənə dedi: "Yəhya, bu ağa Peyğəmbər (səlləllahu əleyhi və alih) övladıdır, Mütəvəkkili onu öldürməyə cəlb etsən, bil ki, sənin düşmənin məhz Peyğəmbər (səlləllahu əleyhi və alih) olacaqdır." Onun cavabında dedim: "Allaha and olsun ki, mən bu vaxta qədər ondan bir pislik görməmişəm ki, Mütəvəkkili onu öldürməyə cəlb edəm." (Sonra Samirraya tərəf hərəkət etdim.) Samirraya gəldikdən sonra hadisəni türk Vasifə[1] danışdım. O da mənə dedi ki, əgər onun başından bir tük əskik olsa, sən cavabdehsən. İshaq ibn İbrahim və türk Vasifin sözlərindən çox təəccübləndim, Mütəvəkkilin sarayına daxil olub ona təzim etdikdən sonra gördüm ki, xəlifə də ona çox hörmətlə yanaşır.[2]

## İmam Əliyyən-Nəqi əleyhissəlamın Samirraya gəlişi

Mütəvəkkilin göstərişinə əsasən, İmam Əliyyən-Nəqi əleyhissəlamın Samirraya gəlişi üçün təyin edilmiş gün, o Həzrət üçün hələ yer hazırlanmaması bəhanəsi ilə təxirə salınır və o Həzrət bir gecə "Xanus-səvalik" (kimsəsizlər karvansarası) adlanan bir yerdə qalmalı olur. Bu hərəkətdən məqsəd siyasi baxımdan bir növ İmamı zəhmətə salaraq təhqir etmək olmuşdur. Səhəri gün o Həzrət üçün bir ev təyin olunur. Bundan sonra İmam həmin evdə qalmağa başlayır.[3] İmam Əliyyən-Nəqi (əleyhissəlam) bu şəhərdə zahirdə azad olsa da, əslində elə bil ki, həbsdə saxlanılırdı. Çünki o Həzrətin qaldığı yer, onun yanına gəlib-gedənlər və bütün işləri daima nəzarət altında idi.

Məsihi həkimi və Bəxtişuyun şagirdi Yəzdad, İmam Əliyyən-Nəqi əleyhissəlamın güclə Samirraya gətirilməsinə işarə edərək deyir: "Əgər qeyb aləmindən xəbəri olan bir nəfər varsa, o da məhz odur (İmam Hadidir). Onu bura gətizdirməkdə məqsəd camaatın ona tərəf meyl etməsinin qarşısını almaqdır. Çünki onun olması ilə öz hakimiyyətlərini təhlükə altında görürdülər."[4]

Mütəvəkkilin İmam Əliyyən-Nəqi əleyhissəlamın camaat arasında olan mənəvi nüfuzundan qorxmasını o Həzrətin qalması üçün təyin edilmiş yaşayış yerindən başa düşmək olar. Mütəvəkkilin o Həzrəti bu qədər nəzarət altında saxlamasına baxmayaraq, yenə də onu öz hökuməti üçün ciddi bir təhlükə hesab edir və qorxurdu ki, İmamın dost və tərəfdarları onunla gizli əlaqə saxlayıb hökumət əleyhinə qiyam planı hazırlayaraq bu işi həyata keçirmək üçün pul və silah toplayıb camaatı da bu işə cəlb edərlər. Xəlifənin ərtafında olanlar da, bəzi vaxtlar onu İmamın və dostlarının qiyam ehtimalından xəbərdar edirdilər. Buna görə də, Mütəvəkkil vaxtaşırı İmamın evini yoxlatdırır, axtarış aparanların hər dəfə əliboş qayıtmalarına baxmayaraq, Mütəvəkkil yenə də nigaran idi və qorxu içərisində yaşayırdı. İndi gəlin həmin məqamlardan birini nəzərdən keçirək.

---

[1] Türk Vasif Mütəvəkkilin sarayında nə nüfuzlu şəxslərdən biri olmuşdur.
[2] Təzkirətül-xəvass, səh.359–360.
[3] Əl-İrşad, səh.334.
[4] Biharül-ənvar, c.50, səh.161.

## Şərab məclisi bir-birinə dəyir

Bir dəfə yenə İmam Əliyyən-Nəqi əleyhissəlamdan Mütəvəkkilə yalandan şikayət edərək deyirlər ki, o, evində qiyam qaldırmaq məqsədi ilə Qum şəhərinin şiələrinin göndərdikləri silah, məktub və başqa əşyalar saxlayır. Mütəvəkkil o Həzrətin evini yoxlamaq üçün bir neçə nəfəri axtarış üçün oraya göndərir. Onlar gecə vaxtı İmamın evinə hücum çəkib evi axtarsalar da, bir şey tapa bilmirlər. İmamın isə qapısı bağlı bir otaqda yun paltar geyib boş torpaq üzərində oturub Allaha ibadət etməsini, Quran oxumasını görürlər. İmamı elə həmin vəziyyətdə Mütəvəkkilin yanına gətirib deyirlər: "Onun evindən heç nə tapa bilməyib özünü isə üzü qibləyə oturub Quran oxuyan gördük." Mütəvəkkil İmamı görcək o Həzrətin əzəmət və heybətindən özünü itirib ixtiyarsız olaraq o Həzrətə qarşı hörmətlə rəftar etməyə başlayır və onu öz yanında otuzdurur. Şərab dolu piyaləni İmama uzatdıqda, o Həzrət buyurur ki, mənim ətim və qanım buna qatışmamışdır, məni üzürlü say. Mütəvəkkil piyaləni geri çəkib dedi: "Onda bir şer de!" İmam buyurdu: "Mən çox az şer bilirəm." Mütəvəkkil dedi: "Mütləq bir şer oxumalısan". İmam Əliyyən-Nəqi (əleyhissəlam) çarəsiz qalıb aşağıdakı məzmunda bir şer oxudu: *"Qüdrətli kişilər (zalım hakimləri) qoruduğu halda, onlar yüksək dağ qüllələrində gecələri sübhə qatıblar, lakin o qüllələr onları (ölümdən) qurtara bilmədi. Onlar bir müddət yüksək vəzifədə qaldıqdan sonra nəhayət, yerləri qəbirlər oldu. Nə pis mənzil tutdular! Torpağa basdırıldıqdan sonra bir nida gəldi ki, hanı o taxtlar, hanı o taclar, hanı o xələtlər? Hanı naz-nemət içində olmuş, hörmət əlaməti olaraq otaqlarına pərdələr çəkilmiş simalar? Qəbir onların əvəzinə cavab verər ki, indi qurd-quş həmin simaları didib-dağıtmaq üstə bir-birini qırır. Onlar dünyada uzun müddət yeyib-içdilər, ancaq bu qədər yeyib-içmələrinə baxmayaraq indi özləri qurd-quşa yem olmuşlar. Onlar özlərinə təm-təraqlı evlər tikib ölümdən uzaq olmaq istəyirdilər, ancaq bir müddət keçdikdən sonra həmin evləri ailələri ilə birlikdə tərk edib qəbir evinə gedəsi oldular. Çoxlu mal-dövlət toplamışdılar, ancaq onlardan ayrılıb hamısını düşmənləri üçün saxladılar. Onlar abad ev-eşikləri, sarayları xarabalıqlara çevirərək zülmət qəbirlərə getdilər."*

İmam Əliyyən-Nəqi əleyhissəlamın bu sözünün təsirindən Mütəvəkkil elə ağlayır ki, saqqalı tamamilə islanır. Məclisdə oturanlar da ağlayırlar. Mütəvəkkil əmr edir ki, içki (şərab) məclisini yığışdırsınlar. İmama isə dörd min dirhəm pul verərək hörmətlə evinə qaytarır.[1]

## İmam Əliyyən-Nəqi (əleyhissəlam) Mütəvəkkilin zindanında

Mütəvəkkilin qəlbində İmam Əliyyən-Nəqi əleyhissəlama qarşı böyük kin-küdurət var idi və həmişə o Həzrəti incitmək fikrində olmuşdur. İmamın Samirrada olması həqiqətdə onun zindanda qalması demək idi. Çünki o Həzrət Mədinədən Samirraya gəldiyi ilk vaxtlarda Mütəvəkkil onu həbs edir. Səqər ibn Əbu Dələf deyir: "İmam Əliyyən-Nəqi (əleyhissəlam) Samirraya gətirildikdən sonra onun əhvalından xəbər tutmaq üçün yanına getdim. Mütəvəkkilin qapıçısı Zərrafi məni görüb dedi ki, gəl içəri. İçəri keçdikdən sonra məndən soruşdu ki, nə üçün gəlmisən? Dedim ki,

[1] Mürucuz-zəhəb, c.4, səh.11.

xeyirdir. Dedi: “Otur.” Oturdum, ancaq yaman qorxuya düşdüm və fikrə gedərək özlüyümdə dedim ki, səhv eləmişəm (ki, belə bir təhlükəli işə əl atıb İmamın görüşünə gəlmişəm).

Zərrafi camaatın işini həll edib oradakıları yola saldı. Ara sakitləşdikdən sonra məndən soruşdu ki, nə üçün gəlmisən, işin nədir?

Dedim: Xeyir iş üçün gəlmişəm.

— Yoxsa öz ağandan xəbər tutmağa gəlmisən?

— Ağam kimdir? Mənim ağam xəlifədir.

— Sus, həqiqət sənin ağanladır. Qorxma, mən də səninlə həmfikirəm və onu İmam bilirəm.

(Bunu eşitcək) Allaha şükr etdim. Sonra o mənə dedi: “Onu görmək istəyirsən?” Dedim ki, bəli. Dedi ki, bir az otur, qoy qasid getsin. Qasid getdikdən sonra məni xadiminə göstərərək dedi: “Bunu Əliyyən-Nəqi əleyhissəlamın saxlanıldığı otağa apar, özün isə qayıt.”

İmamın hüzuruna yetişdikdə, gördüm ki, o Həzrət bir həsirin üstündə oturub, qarşısında isə bir qəbir qazılmışdır. Salam verdim. Buyurdu ki, əyləş. Oturduqdan sonra məndən soruşdu ki, nə üçün gəlmisən? Dedim ki, gəlmişəm sizdən bir xəbər tutam. Sonra qəbrə baxıb ağladım. İmam buyurdu: “Ağlama, bu çətinlikdən mənə bir zərər dəyməz.” Allaha şükr etdim. Sonra o Həzrətdən bir hədisin mənası barədə soruşdum. İmam cavabımı verdikdən sonra buyurdu: “Bəsdir, dur get, qorxuram sənə bir zərər dəyə!”[1]

Bu hadisə bir tərəfdən Mütəvəkkilin İmam Əliyyən-Nəqi əleyhissəlama qarşı təzyiqlərinin nə qədər ciddi və ağır olduğunu, digər tərəfdən isə İmamın hətta xəlifənin xüsusi və ən yaxın adamlarının da yanında nüfuz tapmasını çatdırır. Mütəvəkkil ömrünün son günlərində öz xadimi Səid ibn Hacibə əmr edir ki, İmamı öldürsün, ancaq İmam Əliyyən-Nəqi (əleyhissəlam) buyurur ki, iki gün keçməz Mütəvəkkili öldürərlər. Həqiqətən də, elə bu cür oldu.[2]

## Mütəvəkkilin şiələrə qarşı təzyiq və cinayətləri

Mütəvəkkil Abbasi xəlifələri arasında ən çox cinayət törədənlərdən biri olmuşdur. O, Həzrət Əli (əleyhissəlam), onun ailə və şiələrinə qarşı ürəyində həddən artıq kin-küdurət bəsləyirdi. Onun hakimiyyət dövrü şiə və Ələvilər üçün ən pis dövrlərdən biri sayılır. Mütəvəkkilin törətdiyi bütün cinayətləri qeyd edə bilməyəcəyimizi nəzərə alaraq məcbur olub bəzi cinayətlərinə qısaca da olsa, işarə edirik.

**1)** Mütəvəkkilin hakimiyyəti dövründə Ələvilərdən bəzisi ya həbs edildi, ya da axtarışda oldu. Buna misal olaraq (İmam Həsən əleyhissəlamın nəvələrindən olmuş) Məhəmməd ibn Saleh və (Təbəristanda qiyam qaldırmış Həsən ibn Zeydin təbliğçilərindən olan) Məhəmməd ibn Cəfərin adını qeyd etmək olar.[3]

**2)** Mütəvəkkil hicrətin iki yüz otuz altıncı ilində əmr verir ki, şəhidlər ağası İmam Hüseyn əleyhissəlamın məqbərəsi və onun ətrafında olan binalar (tikililər) sökülərək

---

[1] Biharül-ənvar, c.50, səh.194.
[2] Kəşfül-ğümmə, c.3, səh.184.
[3] Məqatilüt-talibin, səh.397, 418.

əkin sahəsinə çevrilsin.[1] Eyni zamanda o Həzrətin ziyarətinin qarşısını almaq məqsədilə, o yaxınlıqda gözətçilər saxlanılsın.

İmam Hüseyn əleyhissəlamın qəbrini heç bir müsəlman sökməyə hazır olmadığı üçün bu işi əsli yəhudi olan Dizəc adlı bir şəxs yerinə yetirir. Mütəvəkkil İmam Hüseyn əleyhissəlamın qəbrinin ziyarət edilməsini qadağan edərək bildirir ki, əgər bir nəfər ora ziyarətə gedərsə, mütləq cəzalandırılacaq.[2] O qorxurdu ki, İmam Hüseyn əleyhissəlamın məqbərəsi hökumət əleyhinə bir qərargaha çevrilib o Həzrətin şəhadəti xilafətin zülmlərinə qarşı yönəldilmiş qiyamlara ilham bağışlasın. Ancaq o Həzrətin şiə və dostları (o Həzrəti sevənlər) bir an olsun belə, o müqəddəs qəbrin ziyarətindən qalmır və min bir müsibətə, əzab-əziyyətə qatlaşaraq yenə oranı ziyarət etməyə gedirdilər. Mütəvəkkilin ölümündən sonra şiələr yenə əl-ələ verib İmam Hüseyn əleyhissəlamın məqbərəsini yenidən bərpa etdilər.[3]

İmam Hüseyn əleyhissəlamın məqbərəsinin sökülməsi müsəlmanları bərk qəzəbləndirdi. Bağdad əhalisi bütün küçələrə, divarlara, məscidlərə Mütəvəkkilin əleyhinə şüarlar yazmağa, mübariz şairlər isə onun əleyhinə şerlər yazaraq onu tənqid etməyə başlayırlar. Bu şerlərdən birinin məzmununu sizin nəzərinizə çatdırırıq: "And olsun Allaha ki, əgər Bəni-Üməyyə öz Peyğəmbərinin (səlləllahu əleyhi və alih) qızının oğlunu (yəni nəvəsi İmam Hüseyn əleyhissəlamı) zülm nəticəsində şəhid etmişsə, indi onun atasının nəslindən olanlar (Bəni-Abbas) Bəni-Üməyyənin cinayəti kimi bir cinayət törətmişlər. Bu, öz canıma and olsun ki, Bəni-Abbas tərəfindən uçurulmuş Hüseyn əleyhissəlamın qəbridir. Onlar İmam Hüseyn əleyhissəlamın qətlində iştirak etmədikləri üçün təəssüflənir, ona görə də, indi onun qəbrinə təcavüz etməklə onun sümüklərinə daraşmışlar."[4]

**3)** Mütəvəkkil öz hakimiyyəti dövründə İbn Səkkit[5] kimi İslam aləminin böyük şəxsiyyətini və Əhli-beytə (əleyhimussəlam) sadiq olan bir sıra şəxsləri qətlə yetirmişdir. İbn Səkkit İmam Cavad əleyhissəlamla İmam Əliyyən-Nəqi əleyhissəlamın vəfalı dostlarından, tanınmış şiə ədib və şairlərindən biri olmuş, lakin Mütəvəkkil onu, Əli əleyhissəlamın tərəfdarı olduğu üçün qətlə yetirmişdir. Bir gün Mütəvəkkil öz iki oğluna işarə edərək İbn Səkkitdən soruşur: "Sənin üçün mənim bu iki oğlum daha sevimlidir, yoxsa Həsən (əleyhissəlam) və Hüseyn (əleyhissəlam)?" Bu yersiz müqayisədən bərk əsəbləşən və qanı cuşa gələn ibn Səkkit dayanmadan deyir: "Allaha and olsun ki, mənim nəzdimdə Əli əleyhissəlamın nökəri Qənbər də, səndən və bu iki oğlundan üstündür." Öz qüdrət və imakanatına, öz nəfsinə uymuş Mütəvəkkil əmr edib onun dilini çıxartdırır.[6]

**4)** Xətib Bağdadi Mütəvəkkilin Əhli-beyt (əleyhimussəlam) tərəfdarlarına verdiyi işkəncələrə işarə edərək yazır: "Mütəvəkkil Nəsr ibn Əli Cəhzəmiyə Həzrət Əli (əleyhissəlam), xanım Zəhra (səlamullahi əleyha), İmam Həsən (əleyhissəlam) və

[1] Məasirül-anifə fi məalimil-xilafə, c. 1, səh. 231.

[2] Məqatilüt-talibin, səh.395; Mürucuz-zəhəb, c. 4, səh. 51; Tarixül-xüləfa, səh. 347; Əmali (Şeyx Tusi), səh. 326-328.

[3] Məqatilüt-talibin, səh.396.

[4] Tarixül-xüləfa, səh.347; Əmali, səh, 329.

[5] Onun əsl adı Yə'qub, atasının adı isə İshaq olmuşdur.

[6] Tarixül-xüləfa, səh.348.

İmam Hüseyn əleyhissəlamın fəzilətinə dair bir hədis dediyinə görə min şallaq vurdurur. Bununla da, ondan əl çəkmir, axırda onun sünni olduğu barədə şəhadət verib Mütəvəkkilin əlindən qurtarırlar.[1]

**5)** Mütəvəkkil öz mənliyini satmış şairlərə külli miqdarda pul verib onları Abbasi hökumətinin qanuni hökumət olması barədə və eləcə də, Əhli-beyt (əleyhimussəlam) əleyhinə şerlər yazmağa məcbur edirdi.[2]

**6)** Mütəvəkkil Şakiriyyə adlı yerdə yeni ordu təşkil edərkən əsasən Suriya, Əlcəzair, Cəbəl, Hicaz və Ənbada Ələvilərin ziddinə ad çıxarmış şəxslərdən istifadə edir.[3]

**7)** Mütəvəkkil Misir hakiminə əmr edir ki, Misirdə olan bütün Ələviləri İraqa sürgün etsin. Misir hakimi də onun əmrini yerinə yetirir. Sonra isə Mütəvəkkil onların hamısını hicrətin 236-cı ilində Mədinəyə köçürür.[4]

**8)** Mütəvəkkil idarələrdə işləyən bütün şiələri işdən çıxartmaqla onların camaatın yanındakı mövqeyini zəiflədirdi. Misal üçün İshaq ibn İbrahimin işdən çıxarılmasını qeyd etmək olar. Mütəvəkkil onu şiə olmasına görə Cəbəl vilayətindəki Samirra və Seyrəvan şəhərlərinin hakimliyindən çıxarır. Bir çox başqa şəxslər də, bu səbəbə görə öz mövqelərini itirməli oldular.[5] Mütəvəkkil bu cür hərəkətləri ilə öz hökumətinə qarşı şiələr tərəfindən ehtimal verilən hər hansı bir hərəkatın qarşısını alsa da, ancaq onların gizli fəaliyyətlərini dayandıra bilmədi. Bundan öncə də qeyd etdiyimiz kimi, tarix göstərir ki, İmam Əliyyən-Nəqi (əleyhissəlam) öz şiələri ilə gizli əlaqə saxlayırmış.

## Şiələrə qarşı iqtisadi çətinlik

Mütəvəkkil şiələri zəifləδib onların mübariz qüvvələrini aradan götürmək üçün onlara qarşı iqtisadi təzyiq siyasətini işə salır. Şiələr o vaxta qədər hələ bu cür iqtisadi çətinliklə üzləşməmişdilər. Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından sonra şiələr daima iqtisadi çətinlik içərisində olmuşlar. Bu sahədə siyasi məqsəd daşıyan və əsas məqsədi Əli əleyhissəlamın və Bəni-Haşimin iqtisadi mövqeyini zəiflətmək olan, Fədəyin Həzrət Zəhradan (səlamullahi əleyha) alınmasından başqa, İslam tarixində bir çox hallara da təsadüf olunur. Bunlardan biri də, Müaviyənin şiələrə, xüsusən də, Bəni-Haşimə qarşı işlətdiyi siyasət olmuşdur. Müaviyənin İmam Hüseyn əleyhissəlamdan Yezid üçün beyət alması məqsədilə irəli sürdüyü siyasətlərdən biri, özünün Mədinəyə səfəri zamanı (başqalarından fərqli olaraq) beytül-maldan Bəni-Haşimdən olanlara heç bir hədiyyə verməməsi olmuşdur. Onun bu işdən məqsədi o olmuşdur ki, bəlkə İmam Hüseyn əleyhissəlamı maddi çətinliyə salıb beyət etməyə məcbur edə.[6] Başqa bir nümunə isə (ikinci Abbasi xəlifəsi) Mənsur Dəvaniqinin iqtisadi təzyiqi olmuşdur. Mənsur camaatı acından qırmaq, cəmiyyəti müflisləşdirmək proqramını çox geniş miqyasda icra edirdi. Onun isə bu işdən məqsədi, camaatın ac qalaraq ona tabe olması, ona göz dikməsi, bunun da nəticəsində, həmişə öz qarınlarını

[1] Bağdad tarixi, c.13, səh.289.
[2] İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatı, səh.292.
[3] On ikinci İmamın qeybə çəkilməsinin siyasi tarixi, səh.82.
[4] On ikinci İmamın qeybə çəkilməsinin siyasi tarixi, səh.84.
[5] On ikinci İmamın qeybə çəkilməsinin siyasi tarixi, səh.84.
[6] Əl-Kamilu fit-tarix, c.3, səh.511.

doyuzdurmaq fikrində olub böyük ictimai məsələlər haqqında düşünməyə macal tapmaması olmuşdur. O, bir dəfə saray adamlarının toplaşdığı məclisdə yürütdüyü bu siyasətə işarə edərək demişdir: "Öz itini ac saxla, qoy həmişə çörək üçün sənin ardınca düşsün."[1] Bu ifadə eyni zamanda müsəlman millətinin Bəni-Abbasın gözündə nə qədər aşağı səviyyədə olduğunu göstərir. Bu iqtisadi çətinlikdə şiə və Ələvilər daha çox təzyiqə məruz qalmışlar. Çünki onlar zalım xəlifələrə qarşı yönəldilmiş hərəkatın önündə dururdular. Harun ər-Rəşidin hakimiyyəti dövrü də, bu işdə istisna edilmir. Çünki o da müsəlmanların beytül-malını qəsb edərək onu kef, əyləncə və eyş-işrət məclislərinə sərf etməklə şiələri öz hüquqlarından məhrum edir və bu vasitə ilə onların mübariz qüvvələrini zəiflədirdi. Deməli, şiələr bu cür çətinliklərlə əvvəldən tanış olmuş, ancaq bundan əvvəl qeyd etdiyimiz kimi, Mütəvəkkilin dövründəki iqtisadi çətinlik daha geniş olmuş və aşağıdakı cəhətlərinə görə digər dövrlərdən fərqlənmişdir:

**1)** Mütəvəkkil şiələrə qarşı o qədər maddi təzyiq göstərir ki, deyilənlərə görə Mədinə şəhərindəki Ələvi qadınların namaz qılmağa bir yaxşı paltarları olmamış, əyinlərindəki bir ədəd köhnə paltarı növbə ilə geyib namaz qılardılar. Onlar Mütəvəkkil ölənə qədər bu cür çətinlik içərisində olmuşlar.[2]

**2)** Mütəvəkkil Ömər ibn Fərəc Rüxxəcini Məkkə və Mədinə şəhərlərinə hakim təyin edir. O, camaatı Əli əleyhissəlamın nəslindən olanlara (Ələvilərə) kömək etməkdən, əl tutmaqdan çəkindirərək bu işə elə diqqət yetirirdi ki, camaat canlarının qorxusundan onlara kömək etməkdən əl çəkir və nəticədə onların vəziyyəti çox acınacaqlı hala düşürdü.[3]

**3)** Mütəvəkkil Ələvilərin mülkü olan Fədəyi[4] müsadirə edir. Rəvayətdə qeyd olunmuşdur ki, o vaxt Fədəyin gəliri iyirmi dörd min dinara çatırmış. Mütəvəkkil onu öz dostlarından olan Abdullah ibn Ömər Bazyara bağışlayır[5].

**4)** Mütəvəkkil Misir hakiminə Ələvilərlə aşağıdakı şərtlər əsasında davranmağı əmr edir:

**a)** Ələvilərdən heç birinə mülk verilməsin, həmçinin, onlara ata minmək və Fustat şəhərindən digər şəhərlərə getmək qadağan edilsin.

**b)** Ələvilərdən heç birinə bir nəfərdən artıq qul saxlamaq icazəsi verilməsin.

**v)** Bir Ələvi ilə qeyri-Ələvi mübahisə edərsə, hakim ilk növbədə qeyri-Ələvinin şikayətinə qulaq assın və Ələvinin şikayətini isə heç dinləmədən onun əleyhinə hökm versin.[6]

---

[1] İmam Kazim əleyhissəlamın həyatı, c.1, səh.369.

[2] Tətimmətül-müntəhil-amal, səh.238.

[3] Yenə orada, səh.239.

[4] Fədəkdə Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz əli ilə əkdiyi on bir xurma ağacı var idi. Həzrət Fatimənin (səlamullahi əleyha) övladları bu xurmalardan hacılara hədiyyə verir və bunun bərəkəti nəticəsində də, onlara çoxlu sərvət və mənfəət nəsib olurdu. Əbdullah ibn Ömər Bazyar, Bəşran ibn Əbu Üməyyə Səqəfini xurma ağaclarını kəssin deyə, Mədinəyə göndərir. O, tapşırığı yerinə yetirib Bəsrəyə qayıdır. Bu işi gördüyünə görə o, sonradan iflic olur. (Fədək, səh.195).

[5] On ikinci İmamın qeybə çəkilməsinin siyasi tarixi, səh.84.

[6] Həmin mənbə.

## Zinətli saray və məclislər

Şiələrə qarşı yönəldilmiş bu çətinliklərlə yanaşı, Mütəvəkkil beytül-malı qəsb edərək zinətli və əzəmətli saraylar tikdirməkdə, kef məclisləri təşkil etməkdə həddini aşmışdı. O, çoxlu saraylar tikdirir və onların tikintisinə külli miqdarda pul sərf edirdi. Buna misal olaraq, Şah, Gəlin, Şəbdaz, Bədi, Qərib və Bürc saraylarını nümunə göstərmək olar. Təkcə Bürc sarayının tikilməsi üçün o, bir milyon yeddi yüz min dinar pul xərcləmişdi.[1] Həmçinin sarayların ən böyük və qəşənglərindən biri olan, Burkuva adı ilə məşhur olmuş sarayın tikilməsi üçün iyirmi milyon dirhəm pul xərcləmişdi.[2] Eləcə də, əyləncə məqsədi ilə tikdirilmiş Cəfəri, Məlih, Qərv, Muxtar və Heyr saraylarının da hər biri milyonlarla dirhəmə başa gəlmişdi. Tarixçilər bunların hamısını qələmə almışlar.[3]

Mütəvəkkil, oğlu Abdullah əl-Mötəzzi sünnət etdirmək istəyərkən, həddən artıq çox və ağılasığmaz miqdarda pul xərcləyir. Tarixçilər bu barədə çox geniş məlumat vermişlər. Nümunə üçün indi bu məqamlardan bəzilərinə nəzər salaq.

Uzunluğu yüz dirsək, eni isə əlli dirsək[4] olan eyvan üçün həmin ölçüdə bir xalça hazırlanmış, qonaqlar üçün qızıldan hazırlanıb ləl-cəvahirlə bəzədilmiş dörd min stul düzülür. Mütəvəkkilin əmrilə camaatın başına səpmək üçün ayrılmış iyirmi milyon dirhəm pulu qadın, xadim və kənarda oturanların, üzərində şənlik və sünnət məclisinin şəkli döyülmüş bir milyon dirhəm isə bərbər, dəllək və xüsusi xidmətçilərin başına səpilir. Həmin gün Mötəzzi sünnət edən dəlləkdən soruşurlar ki, nahara qədər nə qədər pul yığmısan? O cavab verir ki, zinətli əşya, ləl-cavahir və üzükdən əlavə, səksən neçə min dinar pul qazanmışam.

Sünnət məclisinin bütün hesabatını Mütəvəkkilə verdikdə, səksən altı milyon dirhəmə çatmışdı.[5]

Bunlar Mütəvəkkilin beytül-maldan boş yerə və kef məclislərinə xərclədiyi pullardan bir qismidir. Onun bütün kef məclislərini şərh etmək isə bu qısa bəhsimizə sığmaz. Əlavə olaraq bir məqama da işarə edək. Süyuti yazır: "Mütəvəkkilin sarayda dörd min kənizi olmuş və o, onların hamısı ilə əlaqədə olmuşdur."[6] Görkəmli tarixçi Məsudi isə belə yazır: "Mütəvəkkilin hakimiyyəti dövründəki kimi heç vaxt pul xərclənməmişdi."[7]

## Tarixi bir sənəd

Ali-Bəviyyənin müasiri olmuş görkəmli yazıçı Əbu Bəkr Xarəzmi (vəfatı 383 ya da 393 h.q) Abbasilərin şiələrə qarşı təzyiqləri və şiələrin məzlumluğuna dair yazdığı bir məktubda Mütəvəkkilin törətdiyi cinayətlərə toxunaraq bu biabırçı şənlik barəsində də, qeyd etmişdir. O deyir: "Hidayət rəhbərlərindən biri, Peyğəmbər

[1] Tarixi-Yə'qubi, c.3, səh.223.
[2] Ali-Bəviyyə, səh.415.
[3] İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatı, səh.309, 315.
[4] Ölçü vahididir.
[5] Ali-Bəviyyə, səh.417.
[6] Tarixül-xüləfa, səh.350.
[7] Mrucuz-zəhəb, c.4, səh.40.

(səlləllahu əleyhi və alih) ailəsindən olan bir şəxs vəfat etdikdə, heç kəs onun dəfninə gəlmir və qəbri də (bir dəfə də olsun) ağardılmır. Ancaq Bəni-Abbasın bir təlxəyi öldükdə, bütün qazılar, hakimlər onun dəfninə gəlir, onun üçün əza məclisləri qururlar. Dəhrilər[1] (dünyaya inanlar) və yunan filosofları onların şərrindən uzaqdırlar. Onlar (Bəni-Abbas) şiə bildikləri hər hansı bir şəxsi qətlə yetirir və oğlunun adını Əli qoymuş adamın qanını tökürlər. Şiə şairi Peyğəmbər (səlləllahu əleyhi və alih) canişini barədə şer dedikdə dilini kəsir, şerlər divanını cırıb tullayırlar. Harun və Cəfər Mütəvəkkil, Əli əleyhissəlamın övladlarını söyən Abdullah ibn Müsəb Zübeyr, Vəhəb ibn Vəhəb Buxturi, Mərvan ibn Həfsə Əməvi, Əbdülməlik ibn Qüreyb Əsməi və Bukkar ibn Abdullah kimi adamlara mükafat verirdi. Min ay (Bəni-Abbasın hakimiyyətdə olduğu müddətdə) Həzrət Əli əleyhissəlama nalayiq sözlər dedilər, ancaq biz bir an olsun belə, onun nəsihətinə şəkk etmədik.

Ələviləri yeməkdən məhrum edir, ancaq Misir, Əhvaz, Hicaz, Məkkə və Mədinənin bütün gəlirləri İbn Əbu Məryəm Mədəni, İbrahim Museli, İbn Cami Səhmi, Zəlzəl Zarib və Bərsuma Zamir[2] kimi çalıb-oxuyanlara sərf olunurdu. Mütəvəkkilin on iki min kənizi, ancaq Əhli-beyt seyyidlərinin yalnız bircə zənci kənizi olmuşdur. Bütün xərac vergiləri təlxəklərə, sünnət məclislərinə, it və meymun oynadanlara, Məxariq və Ələviyyə kimi xanəndələrə, Zərzər və Əmr ibn Banə kimi aktyorlara xərclənirdi. Fatimə (səlamullahi əleyha) övladlarına bir tikə çörək və bir içim suyu çox bilirdilər. Hansı ki, onlara xüms halal, sədəqə isə haram edilmiş və onları sevib hörmətlərini saxlamaq vacib buyurulmuşdur. Onlar kasıblığın şiddətindən az qala ölsünlər. Biri qılıncını girov qoyur, digəri isə paltarını satırdı. Onların günahı babalarının Peyğəmbər (səlləllahu əleyhi və alih), atalarının Peyğəmbər (səlləllahu əleyhi və alih) canişini, analarının Fatimə (səlamullahi əleyha), analarının anasının Xədicə (səlamullahi əleyha), əqidələrinin Allaha imanlı və yol göstəricilərinin Quran olmasıdır. İmam Hüseyn əleyhissəlamın məqbərəsini yerlə yeksan edib şumlayanlar, o Həzrətin qəbrini ziyarət edənləri (ucqar) şəhərlərə sürgün edənlər barədə mən nə deyim?..."[3]

## Mütəvəkkilin öldürülməsi və Müntəsirin hakimiyyətə gəlişi

Nəhayət, Mütəvəkkil bir gecə sarayda əyləncə məclisində məst olub qaldığı halda, oğlu Müntəsirin çoxdankı planı əsasında türklərin həmkarlığı ilə vəziri Fəth ibn Xəqanla birlikdə (hicrətin iki yüz qırx yeddinci ili şəvval ayında) qətlə yetirildikdən sonra Müntəsir hakimiyyətə gəlir.[4]

Mütəvəkkilin qətlə yetirilməsi aşağıdakı plan əsasında qurulmuşdu. Onun Übbadə Müxənnəs adlı bir şərab dostu var idi. Saçı tökülüb keçəl qalmış Übbadə, Mütəvəkkilin məclisində paltarının altında qarnına balış bağlayıb onun qarşısında rəqs edərdi. Xanəndələr isə hamı bir səslə "bu keçəl kişi gəlib müsəlmanların xəlifəsi olmaq istəyir" - deyə səs-səsə verirdilər. Bu işlə onlar Həzrət Əli əleyhissəlama işarə

---

[1] Ancaq bu dünyaya e'tiqad bəsləyib deyirlər ki, bizim həyatımız ancaq bu dünyadadır.
[2] Axırıncı şəxs zurnaçı və ney çalan olmuşdur.
[3] Rəsail, səh.76-83; Zühəl-İslam, c. 3, səh. 297-298.
[4] Murucuz-zəhəb, c.4, səh.38.

edərək onu təhqir edirdilər.[1] Mütəvəkkil isə şərab içərək sərxoş halda gülürdü. Günlərin birində Übbadə yenə də həmişəki kimi təlxəklik ilə məşğul olarkən, Müntəsir də orada idi. O, bu hadisəni görüb narahat oldu və işarə ilə Übbadəni təhdid etdi. Übbadə qorxusundan sakit oldu. Mütəvəkkil soruşdu: "Nə olub?" Übbadə qalxıb hadisəni olduğu kimi danışdı. Bu vaxt Müntəsir ayağa qalxıb dedi: "Ey Əmirəl-möminin! Übbadə oynunu çıxardığı və camaatı ona güldürdüyü şəxs sənin əmioğlun, sənin nəslinin böyüyü və sənin fəxrindir. Özün onun qanını içirsənsə, iç, ancaq bunun kimi itlərə onun qanını içməyə icazə vermə!" Mütəvəkkil istehza ilə xanəndələrə deyir ki, hamı birlikdə aşağıdakı məzmundakı şeri oxusunlar: "Bu gənc əmioğlusundan ötrü qeyrətə gəlmişdir. Bu gəncin başı anasının ... olsun."[2] Bu hadisədən sonra Müntəsir çoxdan hazırladığı planı türklərin köməkliyi ilə həyata keçirərək atasını qətlə yetirir.

Müntəsir atasından fərqli olaraq Əli (əleyhissəlam) və onun övladlarına olan məhəbbətini aşkar edərək camaata İmam Hüseyn əleyhissəlamın qəbrinin ziyarətinə getməyə icazə verir və atasının hakimiyyəti dövründə qorxu içərisində yaşayan Ələvilərə aman verir.[3] Üstəlik o, daha üç gözəl addım atır:

**1)** Fədəyi Ələvilərə qaytarır.

**2)** Ələvilərə vəqf olunmuşları özlərinə qaytarır.

**3)** Mədinə valisi Saleh ibn Əlini Bəni-Haşim tayfasından olanlarla pis rəftar etdiyinə görə işdən çıxardır, onun yerinə Əli ibn Hüseyni bu vəzifəyə təyin edərək ona Bəni-Haşimə qarşı hörmətlə rəftar etməyi tövsiyə edir.[4] Lakin Müntəsirin hakimiyyət dövrü qısa müddətli olduğu üçün ondan sonra yenə də çətinliklər başlayır.

## İmam Əliyyən-Nəqi (əleyhissəlam) saray fəqihləri ilə üz-üzə

Abbasi xəlifələrinin əsas siyasəti camaatın diqqətini saray fəqihlərinə (alimlərinə) cəlb etmək və onların verdiyi fətvaları rəsmi fətva elan etmək olsa da, lakin İmam Əliyyən-Nəqi (əleyhissəlam) Samirrada olduğu müddət ərzində neçə dəfə saray fəqihləri arasında fətva müxtəlifliyi baş verməsi nəticəsində onlar məcbur olub İmama müraciət etmiş, o Həzrət isə öz İmamət elmi sayəsində aydın sübutlarla məsələnin həqiqətini üzə çıxarmış və nəticədə saray fəqih və alimləri o Həzrətin elmi qarşısında baş əyməli olmuşlar. İndi bu cür məqamlardan ikisini oxucuların diqqətinə çatdırırıq.

### 1. Zina etmiş məsihinin cəzası

Bir gün müsəlman qadınla zina etmiş məsihi bir kişini Mütəvəkkilin hüzuruna gətirirlər. Mütəvəkkil onun üzərində şəri hədd icra etmək istəyir. Lakin məsihi dönüb müsəlman olur. Baş qazı Yəhya ibn Əksəm deyir: "Onun müsəlman olması, onun bütün günahını aradan apardı və ona heç bir hədd icra edilməməlidir." Fəqih və alimlərdən bəziləri dedilər ki, onun haqqında şəri hədd üç dəfə icra olunmalı, bəziləri isə başqa cür hökm verdilər. Verilən hökm və fətvaların müxtəlif olması Mütəvəkkili

---

[1] Həzrət Əli (əleyhissəlam) kök olduğundan Übbadə özünü ona oxşadaraq o Həzrətə rişxənd edirdi.
[2] Əl-Kamilu fit-tarix, c.7, səh. 5–6;
[3] Məasirül-ənafət fi məalimil-xilafət, c.1, səh.230-237.
[4] Əl-Kamilu fit-tarix, c.7, səh.116.

İmam Əliyyən-Nəqi əleyhissəlama müraciət etməyə məcbur edir. Məsələni İmama dedikdə, o Həzrət buyurur ki, ona ölənə qədər şallaq vurulmalıdır. İmam Əliyyən-Nəqi əleyhissəlamın verdiyi bu fətva Yəhya ibn Əksəm və digər fəqih və alimlərin ciddi narazılığına səbəb oldu. Onlar dedilər: "Heç bir ayə və hədisdə bu cür fətva yoxdur." Sonra da Mütəvəkkilə dedilər ki, İmama bir məktub yazıb bu fətvanın istifadə edildiyi əsası öyrənsin. Mütəvəkkil də onların dediyi kimi edir. İmam Əliyyən-Nəqi (əleyhissəlam) məktubun cavabında yazır: ***"Onlar əzabımızı gördükdə dedilər: "Biz yalnız Allaha iman gətirdik, [Rəbbimizə] qoşduğumuz şərikləri [bütləri] isə inkar etdik." Amma əzabımızı gördükləri zaman iman gətirmələri Allahın Öz bəndələri barəsində öncə olub keçmiş (tətbiq edilmiş) adətinə, qayda-qanununa müvafiq olaraq heç bir fayda vermədi. (Əzab gəlməmişdən əvvəl iman gətirmək lazımdır, əzabı gördükdə gətirilən imanın heç bir faydası olmaz). Onlar elə oradaca ziyana uğradılar (məhv oldular)."***[1]

Mütəvəkkil İmamın verdiyi fətvanı qəbul edərək zina etmiş məsihinin həddinin o Həzrətin verdiyi fətvaya uyğun olaraq icra edilməsini tələb etdi.[2]

İmam Əliyyən-Nəqi (əleyhissəlam) bu ayəni qeyd etməklə onlara başa salmaq istəyirdi ki, kafirlərin (müşriklərin əzabı görərkən) iman gətirmələri Allahın əzabını onlardan götürmədiyi kimi bu məsihinin də müsəlman olması şəri həddi onun boynundan götürmür.

## 2. Mütəvəkkilin nəzri

Bir dəfə Mütəvəkkil bərk xəstələnir. O nəzir edir ki, əgər sağalsa, Allah yolunda çoxlu qızıl sikkə paylayacaq. Sağaldıqdan sonra fəqih və alimləri yığıb soruşur ki, "çoxlu" hesab olmaq üçün neçə qızıl sikkə verməliyəm? Onlar müxtəlif fətvalar verirlər. Mütəvəkkil yenə məcbur olub İmam Əliyyən-Nəqi əleyhissəlama müraciət etməli olur. O Həzrət buyurur ki, "çoxlu" hesab olmaq üçün səksən üç qızıl sikkə verməlisən.

Fəqih və alimlər İmamın bu fətvasından təəccüblənib deyirlər ki, ondan soruşun, görək bu fətvanı hansı əsasa görə deyir?

Mütəvəkkil İmam Əliyyən-Nəqi əleyhissəlamdan verdiyi fətvanın əsası barədə soruşduqda, o Həzrət buyurur: "Allah-taala Quranda buyurmuşdur: ***"Allah sizə [müsləmanlara] bir çox yerlərdə kömək etmişdir."***[3] Bütün Əhli-beytimiz də buyurur ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) dövründə səksən üç döyüş olmuşdur."[4]

## İmam Əliyyən-Nəqi (əleyhİssəlam) və müxtəlif firqələr

İmam Əliyyən-Nəqi əleyhissəlamın dövründə Mötəzilə və Əşairə kimi müxtəlif məzhəb və firqələr yayılmış, İslam cəmiyyəti arasında əqaid elminin çoxsaylı nəzəriyyələri yaranmış, "məcburiyyət" ("cəbr"), "ixtiyar", "Allahın görünməsinin

---

[1] "Qafir" ("Mu'min") surəsi, 84–85.

[2] Vəsailuş-şiə, c.18, səh.408.

[3] "Tövbə" surəsi, ayə 25.

[4] Təzkirətül-xəvass, səh.360; Əl-ənsab (Əbu Sə`d Əbdülkərim Təmimi Səm`ani) c. 4, səh. 196 (Əskəri ləfzinin şərhi).

mümkün olub-olmaması", "Allahın cisim olması" və bu kimi elmi mübahisələr getməkdə idi. Buna görə də, o Həzrət bəzi vaxtlar elə suallarla üzləşməli olurdu ki, o sualların bu kimi məzhəblərdən meydana gəlməsi açıq-aşkar bəlli idi. Şiə məclislərinə bu cür batil əqidələrin yol tapması ehtimalı şiələrin o Həzrətin başçılığı ilə hidayət edilməsi və onların İmam kimi bir rəhbərə ehtiyac duyduqları zərurətini daha da artırırdı. Bu baxımdan İmam Əliyyən-Nəqi (əleyhissəlam) öz məktub və elmi mübahisələrində "cəbriyyə", "Allahın cisim olmasına inam" və bu kimi məzhəblərin əqidə və nəzəriyyələrinin əsassız olduğunu qəti və aşkar dəlillərlə isbat edir və əsl İslam əqaidini heç bir təhrif olmadan cəmiyyətə təqdim edirdi. Təbii ki, bu da o Həzrətin elmi məqamının yüksək olduğuna dair bir nümunədir.[1]

İmam Əliyyən-Nəqi əleyhissəlamın elmi həyatını mütaliə etdikdə məlum olur ki, o Həzrətin elmi mübahisələrinin əksəriyyəti bu kimi əqaid bölməsinə aid olan mövzular barədə olmuş, həmçinin, o Həzrətdən bu sahədə söylənilmiş hədislər şiə məzhəbinin əsaslarının açıq-aşkar üstün olduğunu göstərir. Misal üçün o Həzrətin Əhvaz camaatının "məcburiyyət" və "ixtiyar" nəzəriyyələri haqqında olan sualına yazdığı və orada aydın və qəti dəlillərlə nə məcburiyyət, nə də ixtiyar olan düzgün (şiə) nəzəriyyəsini sübut etdiyi məktubu qeyd etmək olar.[2] Əsasən tarixi mahiyyət daşıyan bu elmi mübahisələr bu kitabın mövzusundan kənar olduğu üçün bu barədə məlumat vermirik, əlavə məlumat almaq istəyənlər isə buna dair yazılmış kitablara müraciət edə bilərlər.

## Qulatlarla[3] mübarİzə

İmam Əliyyən-Nəqi əleyhissəlamın dövründə fəaliyyət göstərən azğın, batil və yanlış firqə və məzhəblərdən biri də Qulat məzhəbi olmuşdur. Onlar əsassız və boş əqidələrə malik olub özlərini şiə kimi qələmə verirdilər. Onlar İmam barədə ifrat dərəcəsinə vararaq, onu Allah kimi qələmə verir və bəzi vaxtlar özlərini İmamın nümayəndəsi adlandırıb bu yolla şiə məzhəbini digər məzhəblər yanında ləkələyirdilər. İmam Əliyyən-Nəqi (əleyhissəlam) bu firqəyə qarşı öz etirazını bildirib onlarla mübarizə aparır, onları rədd etməklə şiə məzhəbinin ləkələnməsinin qarşısını almağa çalışırdı. Bu məzhəbin puç və əsassız əqidəsinin yaranmasına bəlkə də, aşağıdakı məsələlər şərait yaratmışdır:

**1)** İmamdan müşahidə olunmuş kəramət, qeybdən xəbər vermə və bəşər qüdrətindən xaric olan işləri düzgün anlamaq qüdrətində olmayan bu məzhəb nümayəndələri onları (bu hadisələri) bidət, mövhumat və İslama zidd olan hərəkətlərinə bəhanə qərar verirdilər.

**2)** Bu məzhəbə xidmət edən şəxslər İslam qayda-qanunlarını, şəriəti, İslami hökmlərini ayaq altına alıb öz istədikləri kimi hərəkət etmək istəyirdilər. Buna görə də, İslamın (şəriətin) haram buyurduğu bütün şeyləri halal sanırdılar.

---

[1] İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatı, səh.130.

[2] Tühəfül-üqul, səh. 458–475.

[3] Qulat batil və yanlış məzhəblərdən biridir. Bu məzhəbə xidmət edənlər İmamların məqamını həddən artıq şişirdərək, ifrat dərəcəsinə varıb onları Allah, Peyğəmbər, yaxud da mələk hesab edirlər. Xüsusən də, Əli əleyhissəlamı Allah hesab edirlər.

**3)** Onlar camaatın malına tamah salaraq şiələrin İmama verdikləri şəri vergiləri birtəhər ələ keçirmək istəyirdilər.

Qulat məzhəbi sözün əsl mənasında çox təhlükəli və adamı yoldan çıxaran bir məzhəb olmuşdur. Bu məzhəbin başçıları sırasında aşağıda adları çəkilmiş şəxsləri göstərmək olar:

**1)** Əli ibn Həsəkə Qummi;

**2)** Qasim Yəqtini;

**3)** Həsən ibn Məhəmməd ibn Baba Qummi;

**4)** Məhəmməd ibn Nüseyr Fəhri;

**5)** Faris ibn Hatəm.

Misal üçün qeyd edək ki, Əli ibn Həsəkənin əqidəsi belə olmuşdur:

**a)** İmam Əliyyən-Nəqi (əleyhissəlam) Allah, yaradan və dünyanı idarə edəndir.

**b)** İbn Həsəkə (özü) İmam tərəfindən camaatın hidayət olunması üçün göndərilmiş peyğəmbərdir.

**v)** Zəkat, həcc, oruc və bu kimi İslami hökmlərin heç biri vacib deyil.

Məhəmməd ibn Nüseyr Fəhri isə deyirdi:

**a)** İmam Əliyyən-Nəqi (əleyhissəlam) Allah və dünyanın yaradanıdır.

**b)** Ana, bacı, insanın öz qızı və insana məhrəm sayılan bu kimi şəxslərlə evlənmək olar.

**v)** Ləvat caizdir və Allah heç də, onu haram etməmişdir.

**q)** Ölülərin ruhu sonrakı insanlara keçir.[1]

Şiələrin bu barədə olan suallarına cavab verən məktublar göndərən İmam Əliyyən-Nəqi (əleyhissəlam) bu məzhəbdə olanları azğın və kafir tanıtdırıb şiələri onlardan uzaq olmağa dəvət edirdi. O Həzrət, İbn Həsəkə və onun azğın fikirləri haqqında sual etmiş şiələrdən birinə belə yazır: "(Allahın lənətinə gəlmiş) İbn Həsəkə yalan deyir. Mən onu öz dostlarımdan hesab etmirəm, o nə danışır? Allah ona lənət etsin! And olsun Allaha ki, Allah-taala Məhəmmədi (səlləllahu əleyhi və alih) və eləcə də, ondan qabaqkı peyğəmbərləri ancaq təkallahlığa, namaz qılıb zəkat verməyə, həccə getməyə və camaata rəhbərlik etməyə göndərmişdir. Məhəmməd (səlləllahu əleyhi və alih) camaatı yalnız şəriksiz olan tək Allaha etiqad bəsləməyə dəvət etmişdir. Biz də onun canişini olub Allahın bəndələriyik və Allaha şərik qoşmuruq. Əgər Ona itaət etsək, Onun mərhəmətinə nail olacağıq, ancaq Onun əmrlərindən çıxsaq, onda Onun əzabına düçar olacağıq. Bizim yox, əksinə, Allahın bizim və bütün məxluqatın boynunda haqqı və hüccəti var. Mən bu cür sözlər deyən şəxsə (İbn Həsəkəyə) nifrət edir və bu cür sözlərdən Allaha pənah aparıram! Siz də onlardan uzaq olun, onları çətinliklərə, təzyiqlərə məruz qoyun və onların biri əlinizə düşəndə, daşla vurub başını yarın."[2]

Həmçinin, İmam Əliyyən-Nəqi (əleyhissəlam) Übeydiyə yazdığı məktubda Fəhri və İbn Babaya nifrət etdiyini bildirmiş və onlar barədə belə yazmışdır: "Mən (Məhəmməd ibn Nüseyr) Fəhri və Həsən ibn Məhəmməd ibn Baba Qummiyə nifrət edirəm! Səni və bütün şiələrini də onun fitnə-fəsadından uzaq olmağa çağırır, onlara

[1] İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatı, səh.335.
[2] İtxiyari-mə'rifətir-rical, səh.519.

lənət edirəm! Bu iki nəfər camaatın malını bizim adımızla yeyir və fitnə-fəsad törədib camaata mane olurlar. Allah onlara bəla verib müsibətə düçar etsin!

İbn Baba belə güman edir ki, guya mən onu Peyğəmbər seçmişəm və o, camaatla mənim aramda bir vasitədir. Allah ona lənət etsin! Şeytan onu yoldan çıxarıb. Bacarsan, onun başını daşla yar. O, məni əziyyətə salıb. Allah onu dünya və Axirətdə əzaba salsın!”[1]

Qulatların rəhbərlərindən biri olduğunu dediyimiz Faris ibn Hatəm də İmam Əliyyən-Nəqi (əleyhissəlam) tərəfindən lənətlənmiş, onunla Əli ibn Cəfər[2] arasında yaranmış ixtilafda İmam (əleyhissəlam) onu təkzib edərək Əli ibn Cəfəri haqlı hesab etmişdir. Farisin azğınçılıq və fitnə-fəsadı o dərəcəyə çatmışdı ki, İmam onun öldürülməsi barədə hökm vermiş və onun qatilini Cənnətlə müjdələyərək yazmışdır: “Faris mənim adımdan istifadə edib camaatı aldadır, onları dində bidətə çağırır. Onun qanı halaldır (öldürənə günah yoxdur). Onu öldürməklə kim məni rahat edər? Mən isə bunun müqabilində ona Cənnəti müjdə verirəm.” İmamın dostlarından olan Cüneyd adlı şəxs İmamın əmrini yerinə yetirərək onu öldürməklə İslam cəmiyyətini onun şərrindən xilas etdi.[3]

## Quranın məxluq olması fitnəsi

İmam Əliyyən-Nəqi əleyhissəlamın dövründə haqqında möhkəm söz-söhbət gedən, elmi məclislərdə hökm sürən əqidəvi məsələlərdən biri də Quranın məxluq olub-olmaması məsələsi haqqında mübahisə olmuşdur. Yalnız ağıla arxalanan və bütün əqidəvi məsələlərdə ağıla həddən artıq müraciət edən mötəzilə məzhəbindən olanlar Quranın məxluq olması[4] məsələsini Allahın sifətləri ilə əlaqələndirib əşairə məzhəbinin irəli sürdüyü “Quranın əzəli olması” (məxluq olmaması) nəzəriyyəsinə qarşı çıxış edirlər. Beləliklə də, bu iki dəstə arasında mübahisə başlayır. Tədqiqatçıların dediyinə görə Quranın məxluq olması haqqında söz-söhbət Bəni-Üməyyə hakimiyyətinin sonlarında (hicrətin ikinci əsrinin əvvəllərində) meydana çıxmışdır.[5] Bu barədə ilk dəfə İslami məclislərdə söhbət açmış şəxs sonuncu Əməvi xəlifəsi Mərvan ibn Məhəmmədin müəllimi Cəd ibn Dirhəm olmuşdur. O, bu məsələni Əban ibn Səmandan, Əban isə Talut ibn Əsəm adlı yəhudi bir şəxsdən öyrənmişdir. Cəd bu fikri irəli sürdükdən sonra təqib edilmiş və bunun nəticəsində Kufəyə qaçaraq bu nəzəriyyəni Cəhm ibn Səfvan Tirmiziyə öyrətmişdir. Bəziləri belə fikirləşirlər ki, Quranın əzəli və qeyri-məxluq olması fikri İslam cəmiyyətinə məsihiyyətdən keçmişdir. Çünki onlar (məsihilər) Həzrət Məsihi (İsa əleyhissəlamı) “Allah kəlməsi” bilir, nəticədə onların fikrincə bu “Allah kəlməsi” əzəli hesab olunur. Bu məsələni Məmunun Bağdad hakimi İshaq ibn İbrahimə yazdığı məktub da təsdiq edir. Məktubda Məmun əşairə məzhəbini (Quranı əzəli hesab edənləri) Quran barədə eynilə məsihilərin İsa (əleyhissəlam) barədə dedikləri sözləri demələrində

---

[1] İxtiyari-mə’rifətir-rical, səh.520.

[2] Əli ibn Cə’fər İmam Əliyyən-Nəqi əleyhissəlamın ən əsas nümayəndələrindən biri olmuşdur.

[3] İxtiyari-mə’rifətir-rical, səh.524.

[4] Bu, o deməkdir ki, guya Qur’an Peyğəmbərə (səlləllahu əleyhi və alih) Allah tərəfindən nazil olmamış və yalnız sonradan meydana çıxmışdır.

[5] Əl-kamilu fit-tarix, c. 7, səh. 75.

töhmətləndirmişdi. Harunun hakimiyyəti dövründə isə deyilənlərə görə yəhudi Bişr Mərisi bu məsələni davam etdirmiş və qırx il Quranın məxluq olması fikrini təbliğ etmişdir. Harunun onun sözlərini eşitməsini və onu ölümlə hədələməsini bildikdə, qaçıb aradan çıxmışdır. İki məzhəb arasında bu mübahisənin davam etdiyi bir halda Məmun da məsələyə qoşularaq ixtilafı daha da gücləndirdi. O, alim, fəlsəfə, fiqh, ərəb ədəbiyyatından xəbərdar və elmi mübahisə tərəfdarı olduğundan, gənc yaşlarında ikən mötəzilə məzhəbinə üz tutmuş və Quranın məxluq olması fikrini müdafiə etmişdir. Fəqih və alimlər onun gələcəkdə xəlifə olub bu fikri təbliğ edəcəyindən bərk narahat idilər. Hətta Füzeyl ibn Əyaz aşkar şəkildə deyirdi ki, mən Məmunun xəlifəlik şərrindən uzaq olum deyə, Haruna Allahdan uzun ömür diləyirəm.[1]

Onların ehtimalı tamamilə doğru idi. Məmun hakimiyyətə gəldikdən sonra rəsmi surətdə mötəzilə məzhəbini və bunun da nəticəsi olaraq Quranın məxluq olması fikrini himayə etməyə başlayaraq mötəzilə məzhəbini rəsmi məzhəb elan edir. Bu məzhəbin əleyhinə olanlara qarşı isə ciddi tədbir görməyə başlayır. Bu məzhəbin sünnə əhli olan müxalifləri ona qarşı ciddi mübarizəyə qalxdığı üçün böhran kulminasiya mərhələsinə çatır və bu məsələ öz elmiliyindən kənara çıxaraq böyük cəncəl və siyasi bir məsələyə çevrilir. Artıq hər yerdə, hətta savadsız kütlələr arasında da bu məsələ barədə söz-söhbət başlayır və əsas diqqət mərkəzinə çevrilir.

Məmun hicrətin iki yüz on səkkizinci ilində Bağdad hakimi İshaq ibn İbrahimə məktub yazaraq əmr edir ki, bütün hakimlər çağırılıb yoxlanılmalıdır. Quranın məxluq olması fikrində olanlar öz işlərində saxlanılmalı, bu fikirdə olmayanlar isə vəzifəsindən azad edilməlidir.[2] Əslində bir növ əqidə təftişi sayılan bu hərəkət tarixdə "Quran yoxlanışı" kimi tanınmışdır.

Məmunu (eləcə də, ondan sonra ardıcıl olaraq xəlifə olmuş Mötəsim və Vasiqi) bu işə cəlb edən şəxs sarayın məşhur qazısı İbn Əbu Duad olmuşdur. O, baş qazı Yəhya ibn Əksəm vəzifəsindən azad edildikdən sonra sarayın baş qazısı vəzifəsinə təyin edilmişdi. Onun elmi məqamı hər tərəfə səs salmış və Abbasilər sarayındakı nüfuzuna, mərhəmət və səxavətinə görə Bərməkilər nəsli ilə müqayisə olunurdu. "Quranın yoxlanılması" məsələsində onun böyük rolu olmuş, bəzilərinin dediyinə görə hətta bu nəzəriyyənin banisi məhz o olmuşdur. (Əlbəttə, bu heç də belə deyil.)

Abbasi hökumətinin müxaliflərə qarşı təzyiqi o dərəcəyə çatır ki, artıq bu fikrə qarşı çıxanlar döyülərək həbs edilirdi. Öz əqidəsindən dönməyən Əhməd ibn Hənbələ şallaq vurdurulur.[3] Vasiqin hakimiyyəti zamanı Əhməd ibn Nəsr Xəzai qətlə yetirilir, Şafeinin şagirdi Yusif ibn Yəhya Büreyti ciddi təzyiqlərə məruz qalaraq Misir zindanında həlak olur.

Görkəmli tarixçi Yəqubi bu barədə maraqlı bir əhvalat qeyd etmişdir. O yazır: "Roma imperatoru Abbasi xəlifəsi Vasiqə məktub yazaraq bildirir ki, çoxlu sayda müsəlman əsir tutmuşam. Əgər xəlifə onları azad etmək üçün fidyə verərsə, mən onları buraxmağa hazıram. Vasiq bu təklifi qəbul edib sərhədə bir neçə nümayəndə göndərir. Xəlifənin nümayəndələri əsirləri bir-bir təhvil alaraq onlardan Quranın məxluq olub-olmaması barədə fikirlərini soruşurdular. Müsbət cavab verənləri azad

---

[1] İslam mədəniyyətinin tarixi, c.3, səh.214.
[2] Əl-Kamilu fit-tarix, c.6, səh.423.
[3] Mürucuz-zəhəb, c.3, səh.464.

edib onlara pul və geyim verirdilər. (Müsbət cavab verməyənləri isə azad etmirdilər)."[1]

Bu kimi təzyiqlər camaatda Mötəzilə məzhəbinə qarşı nifrət hissi yaradırdı. Buna görə də, Mütəvəkkil hakimiyyətə gəldikdən sonra hədis yolunu tutub Quranın yoxlanılmasına son qoyur. Ancaq bu məsələ elə bu tezlikdə yaddaşlardan silinmir və bir müddət İslam cəmiyyəti arasında öz mövqeyini qoruyub saxlayır.[2]

## İmam Əliyyən-Nəqi əleyhissəlamın mövqeyi

Əsl İslami əqidəyə rəhbərlik edən məsum İmamlar bu cür fikri mübahisələr qarşısında sükut etməyib bu kimi azğın fikirlərin üstündən qırmızı xətt çəkərək həqiqəti olduğu kimi təyin edir, öz həqiqi və hidayətedici əqidəsini bəyan etməklə müsəlmanları bu cür boş və faydasız mübahisələrdən uzaq olmağa çağırırdılar. Rəyyan ibn Silət İmam Riza əleyhissəlama deyir: "Quran barədə sizin fikriniz nədir?" O Həzrət buyurur: "Quran Allah kəlamıdır, vəssəlam. Bu barədə bundan artıq bəhs etməyin, yoxsa yolunuzu azarsınız!"

İmam Əliyyən-Nəqi əleyhissəlamın bu barədə buyurduğu ifadə daha geniş və aydın məfhuma malikdir. O Həzrət Bağdad şiələrindən birinin sualına cavab olaraq yazır: "Bismillahir-rəhmanir-rəhim. Allah bizi və səni bu fitnəyə düçar olmaqdan qorusun! Belə olarsa, onda O, (Allah) bizə ən böyük nemət bəxş etmiş olar. Əks təqdirdə azğınlaşıb həlak olarıq. Bizim fikrimizcə Quran barədə (onun məxluq, yoxsa əzəli olması barədə) sual etmək bir bidətdir. Bu günahda həm sual verən, həm də cavab verən şərikdir. Çünki sual verən səlahiyyəti çatmadığı bir şey haqqında soruşur, cavab verən isə heç özünün başa düşmədiyi əbəs bir şey haqqında düşünür.

Yaradan məhz Allahdır və Ondan başqa hamı məxluqdur (yaranmışdır). Quran da Allah kəlamıdır. Özündən onun üçün başqa bir ad çıxarma, yoxsa yolunu azarsan. Allah bizi və səni ***"O kəslərdən ötrü ki, onlar öz Rəbbindən Onu görmədikləri halda qorxar və Qiyamətdən lərzəyə gələrlər"[3]*** - deyə buyurduğu şəxslərin sırasına qatsın."

İmamların belə bir mövqedə durması şiələrin bu cür boş və mənasız mübahisələrdən uzaq olub bidətə və azğınçılığa düşməməsinə səbəb olur.[4]

## İmam Əliyyən-Nəqi əleyhissəlamın şagirdləri

İmam Əliyyən-Nəqi əleyhissəlamın dövrünün çox sıxıcı və pis dövrə təsadüf etməsinə, o Həzrətin maarif təbliğ etməsi üçün geniş şəkildə azad olmamasına və o Həzrətin yaşadığı dövrün İmam Baqir (əleyhissəlam), xüsusən də, İmam Sadiq əleyhissəlamın dövrü ilə müqayisədə böyük təfavütə malik olmasına baxmayaraq, o Həzrət, belə bir pis şəraitdə İslam maarif və mədəniyyətini elmi müzakirə və bəhslər, məktublar, müşkülatı həll etmək, suallara cavab vermək və azğın məzhəblər qarşısında düzgün fikri aşkar etməklə yanaşı, bir sıra şiə rəvayətçi, alim və ziyalılar

---

[1] Tarixi-Yə'qubi, c.3, səh.215.

[2] Tarixül-xüləfa, səh. 306–312.

[3] "Ənbiya" surəsi, ayə 49.

[4] İmam Sadiq (ə)-ın Ə`məşə buyurduğu hədis bu mövzu ilə münasibdir: "Qur`an Allahın kəlamıdır, nə xaliqdir, nə də məxluq (Xisal, c. 2, səh. 609; Bihar, c. 10, səh. 228).

yetişdirərək onlara İslam maarifini öyrətmişdir. Onlar da öz növbəsində bu böyük maarif mirasını sonrakı nəsillərə ötürmüşlər. İslam dünyasının tanınmış alimi Şeyx Tusi o Həzrətin müxtəlif İslami elmlər sahəsindəki şagirdlərinin sayının yüz səksən beş nəfər olduğunu qeyd etmişdir.[1] Bu şagirdlər arasında Fəzl ibn Şazan, Hüseyn ibn Səid Əhvazi, Əyyub ibn Nuh, Əbu Əli (Həsən ibn Əli), Həsən ibn Əli Nasir Kəbir, Əbdüləzim Həsəni və Osman ibn Səid Əhvazi kimi parlaq elmi və mənəvi simalar olmuşdur. Bunlardan bəziləri müxtəlif İslami elmlər sahəsində bir sıra əsərlər yazmış, onların yazdığı əsərlər, göstərdiyi xidmətlər tarix səhifələrində qeydə alınmışdır.

## İmam Əliyyən-Nəqi əleyhissəlamın şəhadəti

İmam Əliyyən-Nəqi əleyhissəlamın Samirra şəhərində ciddi nəzarət altında olmasına baxmayaraq, çətinliklər nəticəsində bir an olsun belə, zalımlarla saziş etmir. Məlum məsələdir ki, İmamın İlahi bir şəxsiyyət olması, onun ictimai mövqeyi və eləcə də, xəlifələrlə həmkarlıq etməyib onlara qarşı apardığı mənfi mübarizə o dövrün hökuməti üçün təhlükəli olub dözüləsi deyildi. Onlar daima bu məsələdən narahat idilər. Axırda yeganə çıxış yolunu Allah nurunu söndürməkdə görüb İmam Əliyyən-Nəqi əleyhissəlamı öldürmək fikrinə düşdülər. Beləliklə, o Həzrət də özündən qabaqkı İmamlar kimi təbii ölümlə deyil, xəlifə Mötəzzin hakimiyyəti dövründə zəhərlənərək[2] hicrətin iki yüz əlli dördüncü ili rəcəb ayında şəhid olur və Samirra şəhərində öz evində dəfn edilir.[3]

[1] Ricali-Tusi, səh. 409–429.
[2] Nurul-əbsar, səh.166.
[3] Əl-İrşad. səh.334.

# XI FƏSİL

## İMAM HƏSƏN ƏSKƏRİ ƏLEYHİSSƏLAMIN HƏYATI

*** İmam Həsən Əskəri əleyhissəlamın dövründə siyasi-ictimai vəziyyət**
*** İmamın təhlükəsizlik tədbirləri**
*** İmamın yeddicəhətli fəaliyyəti**
*** Qeyb elmindən geniş istifadə**
*** Şiələri qeybə çəkilmə dövrünə hazırlamaq**
*** Həqiqətin parlaq siması**

## İmam Həsən Əskəri əleyhissəlamın həyatı barədə qısa məlumat

Şiələrin on birinci İmamı Həzrət Həsən Əskəri (əleyhissəlam) hicrətin iki yüz otuz ikinci ilində anadan olmuşdur.[1] Atası onuncu İmam Həzrət Əliyyən-Nəqi (əleyhissəlam), anası isə Hüdeysə adlı təqvalı bir qadın olmuşdur.[2] Bəzi tarixçilər onun adını Süsən qeyd etmişlər.[3] Bu qadın təqvalı və İslam baxışına malik bir qadın olmuşdur. Onun fəzilətinə gəldikdə isə bunu demək kifayət edər ki, o, İmam Həsən Əskəri əleyhissəlamın şəhadətindən sonra o cür böhranlı bir vəziyyətdə şiələrin pənahgahına çevrilmişdi.[4]

İmam Həsən Əskəri (əleyhissəlam) Abbasi xəlifəsinin əmrilə məcburi şəkildə Samirrada Əskər adlı bir yerdə saxlanıldığı üçün Əskəri adlandırılmışdı.[5] O Həzrətin digər məşhur ləqəblərindən biri Nəqi, başqa birisi Zəki,[6] künyəsi isə Əbu Məhəmməd olmuşdur. O Həzrət iyirmi iki yaşında ikən atası şəhadətə yetişmişdi. Altı il şiələrin İmamı olmuş, ümumilikdə isə iyirmi səkkiz il yaşamışdır. Hicrətin iki yüz altımışıncı ilində şəhid olmuş və Samirra şəhərində öz evindəcə, atasının qəbrinin yanında dəfn olunmuşdur.[7]

## İmam Həsən Əskəri əleyhissəlamın müasiri olmuş xəlifələr

İmam Həsən Əskəri (əleyhissəlam) İmam olduğu qısa müddət ərzində bir-birindən zalım olan üç Abbasi xəlifəsinin müasiri olmuşdur. Bu üç xəlifə aşağıdakılar olmuşlar:

**1)** Əl-Mötəzz Billah (252–255 h.q);
**2)** Əl-Mühtədi Billah (255–256 h.q);
**3)** Əl-Mötəmid (256–279 h.q).

Qiyama başladıqları ilk gündə Ələviləri himayə etmək və Bəni-Üməyyədən onların intiqamını almaq adı ilə ayağa qaxmış Bəni-Abbas, camaata verdiyi vədlərə əməl etməkdən imtina edərək Bəni-Üməyyə xəlifələri kimi, bəlkə onlardan da çox zülm etməyə, özbaşınalığa başlayırlar. İmam Həsən Əskəri əleyhissəlamın dövründə yaşamış Abbasi xəlifələrinin çirkin əməllərini göstərmək üçün onların hakimiyyətinə və bu müddət ərzində baş vermiş hadisələrə qısa nəzər salaq.

### 1. Əl-Mötəzz

Mötəzz Mütəvəkkilin oğlu olub xəlifə Müstəinin hakimiyyətdən salınmasından sonra (252. h.q) xilafət başına keçərək öz əcdadlarının yolunu davam etdirmişdir.

Mütəvəkkilin ölümündən sonra dövlətin mühüm vəzifələrini türklər ələ keçirərək hakimiyyəti ələ alaraq xəlifə onlara rəhbərlik etmək əvəzinə onlar xəlifəyə rəhbərlik edirlər. Əgər xəlifə onların dediyinə əsasən hərəkət etməsəydi, dərhal onu devirər, ya

[1] Üsuli-kafi, c.1, səh.503.
[2] Əl-İrşad, səh.335.
[3] Üsuli-kafi, c.1, səh.503.
[4] Əl-ənvarül-bəhiyyə, səh.151.
[5] İləlüş-şərayi, c.1, səh.230.
[6] Dəlailül-imamət, səh.223.
[7] Əl-İrşad, səh.345.

da qətli üçün plan cızardılar. Aşağıda qeyd edəcəyimiz hadisə də bu həqiqəti sübut edir:

Bir gün Mötəzz öz yaxın adamlarını bir yerə toplayır. Sonra bir münəccim çağırtdırıb hakimiyyətdə olacağı müddəti müəyyənləşdirmək istədi. Bu zaman məclisdə hazır olub peşəsi lətifə danışmaq olan bir şəxs deyir: "Mən onun nə qədər hakimiyyətdə olacağını və hətta nə qədər yaşayacağını münəccimdən daha yaxşı bilirəm." Sonra isə öz fikrini belə açıqladı: "Nə qədər ki, türklər onu (Mötəzzi) himayə edib hakimiyyətdə qalmasını istəyirlər, o, hakimiyyətdə qalacaq, ancaq elə ki onların əlaqəsi ondan kəsildi, həmin gün onun hakimiyyətinin sonudur."[1]

## Mötəzzin öldürülməsi

Türklərin sarayda böyük nüfuza malik olması nəticəsində vəziyyət elə alınmışdı ki, xəlifə ancaq simvolik bir məna daşıyır, bütün işləri isə türklər yerinə yetirirdi. Bir gün bir dəstə türk Mötəzzin sarayına girib onu sürüyə-sürüyə bir otağa aparırlar. Sonra onu kötəklə döyüb köynəyini yandırır, özünü isə sarayın həyətində günün altında qoyurlar. Həmin gün hava həddən artıq isti idi və heç kim ayağını yerə basa bilmirdi. Türklər Mötəzzi hakimiyyətdən çıxardıb bir neçə nəfəri də buna şahid tutdular. Sonra isə vəzifədən kənarlaşdırılmış xəlifəni öldürmək məqsədilə bir nəfərə tapşırırlar. Ona deyirlər ki, onu öldürmək üçün ac-susuz saxla, çoxlu əziyyət ver. Beləliklə, yarımcan olmuş xəlifəni bir sərdabəyə salıb sərdabənin qapısını bağlayırlar və Mötəzz diri-diri torpağa basdırılır.[2]

## 2. Əl-Mühtədi

İmam Həsən Əskəri əleyhissəlamın müasiri olmuş ikinci, ümumilikdə isə on dördüncü Abbasi xəlifəsi olmuş Mühtədi hicrətin iki yüz əlli beşinci ilində qardaşı Mötəzzin ölümündən sonra hakimiyyətə gəlir. O da qardaşı kimi heç bir sərbəstliyə malik olmur və Abbasilər sarayındakı türklərin oyuncağına çevrilir. Mühtədi digər Abbasi xəlifələrilə müqayisədə ədalətli və orta səviyyəli bir şəxs olmuş, əxlaq, rəftar və davranış baxımından Bəni-Üməyyə xəlifələri arasında Ömər ibn Əbdüləzizdən heç də geri qalmırdı. O, bəzi vaxtlar deyirdi: "Əməvi xəlifələri arasında heç olmasa bir nəfər (Ömər ibn Əbdüləziz) ədalətli xəlifə olmuşdur. Bizim üçün eybdir ki, Abbasi xəlifələri arasında bir nəfər ona oxşamasın." Buna görə də, o da Ömər ibn Əbdüləziz kimi mümkün qədər camaatın şikayətlərinə yetişir, yemək-içmək və geyimdə nisbətən ədaləti qoruyurdu. O, hakimiyyətə gəldikdən sonra saraydan əyləncə və şərab məclislərini yığışdırdı. Tarixçilər bu barədə kifayət qədər yazmış və onun bu hərəkətini təqdirəlayiq bilmişlər.[3] Belə nəzərə çarpır ki, Mühtədinin bu işdən məqsədi siyasi-ictimai gedişatı qorumaq olmuşdur. O, yaxşı başa düşürdü ki, cəmiyyət arasında ondan da layiqli və savadlı şəxslər var və belə olduğu halda, o, hökuməti onlara təhvil verməli, özü isə kənara çəkilməlidir. Bu hərəkətləri ilə o, özünə sosial baza toplamaq istəyirdi. Yoxsa tarixçilər demişkən günlərini oruc halında keçirib duz-

---

[1] İbn Təqtəqa, Əl-Fəxri, səh.243.
[2] İbn Təqtəqa, Əl-Fəxri, səh.243.
[3] İslamın siyasi tarixi, c.3, səh.377.

çörək və sirkə ilə iftar edən şəxs öz nəfsini elə ram etməlidir ki, əsla hakimiyyət fikrində olmasın. Halbuki, Mühtədi də qardaşı Mötəzz kimi öldürüldüyü günə qədər hakimiyyətdə olmuşdur. Tarix onun kimi xəlifələri çox görüb və bu cür hərəkətlərin İlahi məqsəd daşıması ağıla batası deyil. Mühtədinin dünyatələb və zalımlığının ən aşkar sübutu budur ki, o, İmam Həsən Əskəri əleyhissəlamı həbs etdirir və o Həzrət onun hakimiyyətinin son gününə qədər zindanda qalır. Hətta Mühtədi İmamı öldürmək fikrinə də düşmüşdü.[1]

## 3. Əl-Mötəmid

İmam Həsən Əskəri əleyhissəlamın müasiri olmuş üçüncü Abbasi xəlifəsi Mötəmid olmuşdur. İmam Həsən Əskəri (əleyhissəlam) İmamət dövrünün dörd ilini onun hakimiyyəti vaxtında keçirmişdir. Mötəmid hicrətin iki yüz iyirmi doqquzuncu ilində anadan olmuş, iki yüz əlli altıncı ildə türklər vasitəsilə hakimiyyətə gəlmiş və iki yüz yetmiş doqquzuncu ildə vəfat etmişdir. Tarixçilər (Mötəmidin əmisi oğlu) Mühtədi[2] barədə təqdirəlayiq sözlər yazıb onu nisbətən tərifləmişlərsə, ondan fərqli olaraq Mötəmidin əxlaq pozğunluğuna dair kifayət qədər məlumat yazmışlar. Hamı yekdilliklə qeyd etmişdir ki, o, kef-damağ, eyş-işrət vurğunu olmuş və əsla camaatın çətinliklərinə yetişməmişdir. Buna görə də, camaat ondan əl götürmüş və onun qardaşı Müvəffəqə (Təlhəyə) ümid bəsləmişdi. Mötəmidin başı həddən artıq əyyaşlığa qarışdığından,[3] hakimiyyəti onun qardaşı Müvəffəq idarə edirdi. Tarixçilər Müvəffəqin Mötəmidin xəlifə olduğu müddət ərzində iqtidarda olduğu barədə yazırlar: “Zahirdə Mötəmidin xəlifə olmasına baxmayaraq, hökuməti əsas idarə edən Müvəffəq olmuşdur və Mötəmidin yalnız quru adı var idi.[4]

## İmam Həsən Əskəri əleyhissəlamın dövründə siyasi-ictimai vəziyyət

Qeyd etdiyimiz kimi Abbasi xəlifələri İmamlara qarşı əllərindən gələn bütün təzyiqləri həyata keçirirdilər. Bu təzyiqlər İmam Cavad (əleyhissəlam), məxsusən İmam Əliyyən-Nəqi (əleyhissəlam) və İmam Həsən Əskəri əleyhissəlamın Samirrada olduğu dövrdə özünün son həddinə çatır. Abbasilərin hökuməti zamanı yaşamış üç İmam bu təzyiqlərin şiddətindən cavan yaşlarında ikən şəhadət şərbətini içmişdir. İmam Cavad (əleyhissəlam) iyirmi beş, İmam Əliyyən-Nəqi (əleyhissəlam) qırx bir, İmam Həsən Əskəri (əleyhissəlam) isə iyirmi səkkiz yaşında şəhid olmuşdur. Üçünün yaşını bir-birinin üstə gəldikdə cəmi doxsan dörd il edir. Bu isə onlara qarşı yönəldilmiş təzyiqlərin nə dərəcədə güclü olduğunu göstərir. İmam Həsən Əskəri əleyhissəlama qarşı olunan təzyiqlər özündən qabaqkı iki İmama olunmuş təzyiqlərdən çox olmuşdur. Bunun isə iki səbəbi var:

**1)** İmam Həsən Əskəri əleyhissəlamın dövründə şiələr İraqda böyük bir qüdrətə sahib olmuşdular. Bütün camaat da bilirdi ki, onlar rəsmi xəlifəyə qarşı mənfi mövqedə durur və Abbasi xəlifələrinin heç birini rəsmən xəlifə kimi qəbul etmirlər.

---

[1] Biharül-ənvar, c.50, səh.313.
[2] Mühtədi, Vasiq ibn Mö’təsimin oğlu Mö’tədi isə Mütəvəkkil ibn Mö’təsimin oğlu idi.
[3] Tarixül-xüləfa, səh. 363–367.
[4] İbn Təqtəqa, Əl fəxri, səh.250.

Onların fikrincə, İslamda xəlifəlik məqamı Həzrət Əli əleyhissəlamın övladlarına məxsusdur. O dövrdə də bu ailənin parlaq nümayəndəsi məhz İmam Həsən Əskəri (əleyhissəlam) olmuşdur. Şiələrin böyük bir qüdrətə çatmasını Mötəmidin vəziri Übeydullahın bu məsələyə etiraf etməsi də təsdiq edir. Belə ki, İmam Həsən Əskəri əleyhissəlamın şəhadətindən sonra o Həzrətin qardaşı Cəfər Kəzzab Übeydullahın yanına gəlib deyir: "Əgər sən məni qardaşımın yerinə (İmam) təyin etsən, mən bu işə görə sənə ildə iyirmi min dinar pul verərəm." Vəzir (Übeydullah) onun bu sözündən qəzəblənib deyir: "Axmaq, xəlifə sənin atanı (İmam Əliyyən-Nəqi (əleyhissəlamı)) və qardaşını İmam bilənlərin üstünə bu fikirlərindən dönmək üçün o qədər qılınc çəkdi, ancaq onları öz fikirlərindən döndərə bilmədi, nə qədər çalışsa da buna nail olmadı. Əgər sən də şiələrin fikrində İmamsansa, onda xəlifəyə-filana ehtiyac yoxdur, yox, əgər onların fikrincə İmam deyilsənsə, onda bizim səyimizin bir xeyri olmayacaq."[1]

**2)** Abbasilər sülaləsi və onların davamçıları bir çox rəvayətlərə əsasən bilirdilər ki, bütün azğın hökumətləri tar-mar edəcək vəd edilmiş Məhdi (əleyhissəlam) İmam Həsən Əskəri əleyhissəlamın nəslindən olacaq. Buna görə də, onlar daima İmam Həsən Əskəri əleyhissəlamı təqib edirdilər ki, oğlunu ələ keçirib öldürsünlər. (Necə ki, Firon Musa əleyhissəlamı uşaqlığından ələ keçirmək üçün əbəs yerə səy edirdi.) Bu barədə İmam Həsən Əskəri əleyhissəlamın şəhadəti bölməsində ətraflı məlumat verəcəyik.

Yuxarıda qeyd etdiyimiz iki səbəbə görə on birinci İmama qarşı təzyiqlər həddən artıq çox idi və hər tərəfdən o Həzrət nəzarət altına alınmışdı. Abbasi xəlifəsi, İmam Həsən Əskəri əleyhissəlamın mühüm ictimai nüfuz və mövqeyindən o qədər narahat idi ki, o Həzrəti həftənin birinci və dördüncü günləri saraya gəlməyə məcbur etmişdi.[2]

Xəlifə Mühtədi də İmam Həsən Əskəri əleyhissəlamı tutub həbs edir və Mötəzz kimi o da, İmamı qətlə yetirmək istəyir. Lakin Allah buna icazə vermir və türklər onun öz əleyhinə qiyam edərək onu öldürürlər.[3]

## İmam Həsən Əskəri əleyhissəlamın təhlükəsizlik təbdirləri

Dediklərimizdən əlavə, əldə olan bir sıra tarixi sübutlar bir tərəfdən Abbasilərin İmama və eləcə də, o Həzrətin şiələrinə qarşı yönəltdiyi hiylə və xaincəsinə işlətdikləri planların nə dərəcədə olduğunu, digər tərəfdən isə İmamın çox diqqətli olduğunu və həyata keçirdiyi təhlükəsizlik tədbirlərini müəyyənləşdirir. Aşağıda qeyd edilmiş məqamları buna dair nümunə göstərmək olar:

**1)** Əbu Haşim Davud ibn Qasim Cəfəri deyir:[4] "Biz bir neçə nəfər zindanda olarkən İmam Həsən Əskəri (əleyhissəlam) və qardaşı Cəfəri də zindana gətirirlər. İmam Həsən Əskəri əleyhissəlama hörmət əlaməti olaraq ona xidmət etmək məqsədilə, o Həzrətə yaxınlaşdıq. Orada bizimlə birgə əcəm (qeyri-ərəb) bir şəxs də var idi və o, Ələvilərdən olduğunu iddia edirdi. İmam diqqətini ona cəlb edib

---

[1] Kəşfül-ğümmə, c.3, səh.197.

[2] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.434; Dəlailül-imamə, səh.226.

[3] Kitabül-qeybət, səh.134.

[4] Əbu-Haşim, Cə'fər Təyyarın nəslindən olub şiə məzhəbinin parlaq nümayəndələrindən biri olması ilə yanaşı, həm də İmam Cavad (əleyhissəlam), İmam Əliyyən-Nəqi (əleyhissəlam) və İmam Həsən Əskəri əleyhissəlamın səhabələrindən olmuşdur. (Qamusur-rical, c.4, səh. 255–258.)

buyurdu: “Əgər aranızda sizdən olmayan bir şəxs olmasaydı, sizin nə vaxt azad olcağınızı deyərdim.” Sonra isə həmin əcəm şəxsə buyurdu ki, qırağa çıxsın. O da qırağa çıxdı. Sonra o Həzrət buyurdu: “O, sizin danışdıqlarınız barədə xəlifə üçün məlumat toplayıb onu kağıza yazaraq paltarlarının arasında gizlətmişdir.” Orada olanlardan biri onun paltarlarını axtarıb yazdığı məlumatı tapdı. Bizim haqqımızda çox əhəmiyyətli, eyni zamanda təhlükəli məlumatlar yazmışdı.”[1]

Bu hadisədən belə başa düşülür ki, Abbasilər İmama və şiələrə nəzarət etmək məqsədilə hətta zindanda da, onların üstündə gizli nəzarətçi saxlayırmışlar.

**2)** İmam Həsən Əskəri əleyhissəlamın Əhməd ibn İshaq adlı bir səhabəsi deyir: İmam Həsən Əskəri əleyhissəlamın hüzuruna gedib ondan bir şey yazmasını xahiş edərək dedim: “Sizin xəttinizi görmək istəyirəm, qoy bir məktub gəldikdə xəttinizi tanıyım” (və düşmən sizin adınızdan məktub yaza bilməsin). O Həzrət buyurdu: “Mənim xəttim (bir məktubda) bəzi hissələrdə nazik qələmlə, bəzi hissələrdə isə enli qələmlə yazılmışdır. Əgər bir məktubda bu cür xətt fərqi görsən, qorxma (mənim məktubumdur)...”[2]

**3)** İmamın səhabələrindən biri deyir: “Biz bir neçə nəfər Samirra şəhərinə getdik. Gözləyirdik ki, İmam Həsən Əskəri (əleyhissəlam) evdən çıxsın və biz onu küçədə görək. Bu vaxt o Həzrətdən bizə bu məzmunda bir məktub yetişdi: “Heç biriniz mənə salam verməyin, heç biriniz də mənə tərəf yaxınlaşmayın. Çünki bu, sizin canınız üçün təhlükəyə səbəb olar.”[3]

**4)** Əbdüləziz Bəlxi deyir: “Bir gün qoyun bazarına tərəf gedən küçədə oturmuşdum. Birdən şəhər darvazasına tərəf gedən İmam Həsən Əskəri əleyhissəlamı gördüm. Ürəyimdə dedim yaxşı olar ki, “Ey camaat, bu, Allahın hüccətidir, onu tanıyın!” – deyə qışqırım. Ancaq fikirləşdim ki, onda məni öldürərlər. O Həzrət mənə yaxınlaşarkən mən ona baxdıqda, barmağını ağzına tutub mənə işarə etdi ki, sakit olum. Mən tez ona tərəf gedib əl-ayağını öpməyə başladım. O, mənə buyurdu: “Ehtiyatlı ol, əgər bu sirri faş etsən, həlak olarsan.” Həmin gün axşam İmamın hüzuruna getdim. O Həzrət mənə buyurdu ki, gərək sirri saxlayasınız, yoxsa öldürülərsiniz. Özünüzü həlak etməyin!”[4]

**5)** İmam Həsən Əskəri əleyhissəlamın dövründə Ələvilərdən biri işləmək məqsədilə Samirradan çıxıb Cəbəl (İranın Qərb hissəsindəki dağlardan Həmədan və Qəzvinədək olan ərazi) şəhərlərindən birinə gedir. İmamın dostlarından olan hələvanlı bir şəxs onunla rastlaşıb soruşur: Haradan gəlmisən?

— Samirradan.

— Filan məhəllə və küçəni tanıyırsan?

— Bəli!

— İmam Həsən Əskəri əleyhissəlamdan xəbərin varmı?

— Xeyr!

— Bura nə üçün gəlmisən?

---

[1] Əl-Fusulul-muhimmə, səh.304.

[2] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.433.

[3] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.433.

[4] İsbatul-vəsiyyə, səh.243.

— İşləmək üçün.

— Mənim əlli dinar pulum var, onu götür, birlikdə Samirraya gedək. Məni orada İmam Həsən Əskəri əleyhissəlamın evinə apar.

Ələvi şəxs qəbul edib onu İmamın evinə aparır...[1]

Bu hadisədən məlum olur ki, hökumətin ciddi təqibi nəticəsində İmam Həsən Əskəri əleyhissəlamın yanına getmək həddən artıq çətin olmuşdur. Bundan əlavə, Hələvandan olan kişinin Ələvi şəxsə onu İmam Həsən Əskəri əleyhissəlamın evinə aparmasına görə bu məbləğdə pul verməsi, o dövrdə İmamla görüşməyin nə qədər əhəmiyyətə malik olduğunu göstərir. Çünki o vaxt əlli dinar pul böyük məbləğ olmuşdur. Ona görə ki, bəzi alimlər (tarixçilər) o vaxt bir dinarı bir dəvənin pulu (bir dəvəyə bərabər) hesab etmişlər.[2] Deməli, o vaxtın əlli dinarı dəyər baxımından indiki dövrdə əlli dəvənin qiymətinə bərabər olmuşdur.

## İmam Həsən Əskəri əleyhissəlamın yeddicəhətli fəaliyyəti

Abbasilər hökumətinin amansız təqibinə, bu qədər əzab-əziyyətlərinə baxmayaraq İmam Həsən Əskəri (əleyhissəlam) bir sıra siyasi-ictimai və elmi fəaliyyətlər göstərmişdir. O Həzrətin fəaliyyətlərini aşağıdakı şəkildə xülasə etmək olar:

**1)** İslam dininin müdafiəsi uğrunda göstərdiyi elmi fəaliyyətlər, müxaliflərin şübhə və iradlarını rədd etmək və əsl İslam ideyasını camaata çatdırmaq;

**2)** Nümayəndələr təyin etmək, qasid və məktublar vasitəsilə uzaq yerlərin şiələri ilə əlaqə saxlamaq;

**3)** Abbasilər hökumətinin son dərəcə nəzarətinə baxmayaraq gizli siyasi fəaliyyət;

**4)** Şiələri, xüsusən də, yaxın dostlarını maliyyə cəhətdən təmin etmək;

**5)** Mühüm şiə ünsürlərini müşkülat qarşısında siyasi baxımdan qüvvətləndirmək;

**6)** İmaməti inkar edənləri cəlb etmək və şiələri arxayınlaşdırmaq üçün qeybi məlumatlardan geniş istifadə etmək;

**7)** Şiələri öz oğlu on ikinci İmamın qeybə çəkilməsi dövrünə hazırlamaq.

İndi isə bu fəaliyyətlərin hər birini ayrı-ayrılıqda şərh edirik.

## 1. Elmi fəaliyyətlər

Düzdür, İmam Həsən Əskəri (əleyhissəlam) Abbasilər hökumətinin yaratdığı o cür pis və məhdud şəraitdə öz geniş elmini bütün cəmiyyətə çatdıra bilməzdi. Lakin buna baxmayaraq, o Həzrət çətinliklə də olsa, hər birinin İslam maarifini yaymaqda və düşmənlərin iradlarını rədd etməkdə böyük rolu olmuş və neçə şagird yetişdirmişdi. Şeyx Tusi o Həzrətin şagirdlərinin sayının yüzdən çox olduğunu qeyd etmişdir.[3] Onların arasında Əhməd ibn İshaq Əşəri Qummi, Əbu Haşim Davud ibn Qasim Cəfəri, Abdullah ibn Cəfər Himyəri, Əbu Əmr Osman ibn Səid Əmri, Əli ibn Cəfər və Məhəmməd ibn Həsən Səffar kimi böyük şəxsiyyətlər də olmuşdur. Əgər onların göstərdiyi xidmət və fəaliyyətləri barədə yazsaq, bu kitaba sığmaz. Onlar haqqında geniş məlumatı yalnız "rical" kitablarından ələ gətirmək olar.[4]

---

[1] Kəşfül-gümmə, səh.216.
[2] İmam Həsən Əskəri əleyhissəlamın həyatı, səh.181.
[3] Rical, səh.427.
[4] Rical elmi hədis deyənlərdən bəhs edir.

Bu cür şagirdlər yetişdirməkdən əlavə, bəzi vaxtlar müsəlmanlar üçün elə çətinliklər yaranır və müsəlmanlar elə çıxılmaz vəziyyətə düşürdülər ki, onu İmam Həsən Əskəri əleyhissəlamdan başqa heç kəs həll edə bilmirdi. İmam bu cür hallarda öz İmamət elmi sayəsində fövqəladə bir tədbir töküb müşkülü həll edir və müsəlmanları çıxılmaz vəziyyətdən qurtarırdı. Buna dair aşağıdakı iki nümunəni göstərmək olar.

## a) Filosofun səhvi

İbn Şəhr Aşub yazır: "İraq sakini, İslam və ərəb filosoflarından biri hesab olunan İshaq Kendi "Quranın ziddiyyətləri" adlı bir kitab yazır.[1] O, uzun müddət cəmiyyətdən aralanıb evdə oturaraq bu kitabı yazmışdı. Bir gün onun şagirdlərindən biri İmam Həsən Əskəri əleyhissəlamın hüzuruna gəlir. İmam onu görcək buyurur: "Sizin aranızda müəlliminiz Kendiyə cavab verə bilən rəşadətli bir kişi yoxdur?" Şagird deyir: "Biz hamımız onun şagirdiyik və müəllimin səhvinə etiraz edə bilmərik." İmam buyurdu: "Bəzi məsələləri sənə başa salsam, onu öz müəlliminə deyə bilərsənmi?" Şagird "Bəli!" - deyə cavab verir. İmam buyurur: "Buradan qayıtdıqdan sonra müəlliminin yanına get və onunla ünsiyyətdə ol. Tamamilə ünsiyyət tapdıqdan sonra ona de ki, mənim üçün bir məsələ irəli çıxıb və onu sizdən başqa heç kəsin həll etməyə səlahiyyəti yoxdur. Məsələ isə budur ki, Quranı söyləyən şəxs sizin ondan başa düşdüyünüz mənadan başqa bir məna nəzərdə tuta bilərmi? O, sənin cavabında deyəcək: Ola bilər. Onda sən ona deyərsən ki, bəlkə Allah-taala Quranda buyurduğu ifadələrdən sizin başa düşdüyünüz mənadan başqa bir məna nəzərdə tutmuşdur, lakin siz isə Onun ifadəsini başqa mənaya yozursunuz." Sonra İmam əlavə edərək buyurdu: "O, ağıllı adamdır, bu məsələ onun səhvini özünə başa salmaq üçün kifayət edər." Şagird müəlliminin yanına gəlib İmamın buyurduğu kimi etdi. Nəhayət, məsələni ortaya atmağın vaxtı gəlib çatdı. O, İmamın sualını bu cür irəli sürdü: "Ola bilərmi ki, bir nəfər bir söz deyib ondan müəyyən bir mənanı nəzərdə tutsun, ancaq həmin mənanı oxucu, yaxud dinləyici başa düşməsin? Başqa sözlə desək, bir sözü deyən şəxsin məqsədi həmin sözü dinləyən şəxsin başa düşdüyü məna ilə fərq edə bilərmi?" İraqlı filosof diqqətlə şagirdin sualını dinləyib dedi: "Sualını bir də de!" Şagird sualı təkrar etdi. Müəllim bir öz fikirləşib dedi: "Bəli, ola bilər ki, sözü deyən şəxs nəzərində müəyyən bir məna tutur, dinləyici isə onun nəzərində tutduğu mənadan başqa bir mənanı başa düşür." Belə bir sualı öz şagirdinin düşünüb deyə bilməməsini və onun fikrinə bu sualın gələ bilməməsini yaxşı başa düşən müəllim üzünü şagirdə tutub deyir: "Səni and verirəm ki, həqiqəti mənə deyəsən. Bu sual haradan sənin fikrinə gəldi?" Şagird deyir: "Belə bir sualın mənim fikrimə gəlməsinin nə eybi var?"

Müəllim: "Yox, sənin hələ bu məsələni başa düşməyinə çox var. De görüm bu sualı sənə kim deyib?"

Şagird: "Doğrusunu bilmək istəyirsənsə, bu sualı mənə İmam Həsən Əskəri (əleyhissəlam) öyrədib."

Müəllim: "Bax indi düz dedin."

---

[1] Əslində bu kitabı onun oğlu yazmışdır.

Sonra müəllim əlavə edib dedi: "Bu cür suallar ancaq onların ailəsinə yaraşıb. (Həqiqəti üzə çıxaran yalnız onlardır.)

Müəllim öz səhvini anlayıb həqiqəti başa düşdükdən sonra böyük bir ocaq qalanmasını əmr edir və öz nəzərinə görə "Quranın ziddiyyətləri" barədə yazdıqlarını oda atıb yandırır.

## b) Rahibin əli açılır

Bir dəfə Samirrada bərk quraqlıq düşür. Xəlifə Mötəmid əmr edir ki, camaat "istisqa"[1] namazına çıxsın. Camaat üç gün dalbadal istisqa namazına gedib dua etsə də, lakin yağış yağmır. Dördüncü gün isə xristian yepiskopların baş kotoliki, rahiblər və xristanlanlarla birlikdə səhraya gedir. Rahiblərdən biri hər dəfə əlini göyə qaldırıb dua etdikdə dolu yağmağa başlayırdı. Sonrası gün baş katolik də həmin işi təkrar edir. O qədər yağış yağır ki, camaat daha yağış istəmir. Bu iş camaatın təəccübünə və müsəlmanların böyük bir qisminin İslam dinində şəkk edib xristianlığa meyl etməsinə səbəb olur. Xəlifə bu işdən narahat olur, məcbur olub zindanda olan İmam Həsən Əskəri əleyhissəlamı saraya çağırtdırıb deyir: "Cəddin Peyğəmbərin (səlləllahu əleyhi və alih) ümməti yolunu azır, onların dadına çat!" İmam Həsən Əskəri (əleyhissəlam) buyurdu: "Baş katolik və rahiblərə de ki, sabah səhraya gəlsinlər." Xəlifə dedi: "Camaat daha yağış istəmir. Kifayət qədər yağış yağıb, daha səhraya getməyin nə mənası var?" İmam buyurdu: "Şəkk-şübhəni aradan götürmək istəyirəm." Xəlifə əmr edir ki, sabah xristianların başçısı rahiblərlə birlikdə səhraya getsin. İmam Həsən Əskəri (əleyhissəlam) da çoxsaylı müsəlmanlarla birlikdə səhraya gedir. Baş katolik və rahiblər yağış yağması məqsədilə əllərini duaya qaldırırlar. Göy üzü tutularaq yağış yağmağa başlayır. Bu vaxt İmam Həsən Əskəri (əleyhissəlam) buyurur ki, gedin, filan rahibin əlində nə varsa, çıxarın. Onun ovcunda bir parça qara rəngli adam sümüyü var idi. İmam sümük parçasını bir parçaya büküb rahibə buyurur: "Yenə də Allahdan istə ki, yağış yağsın!" Rahib yenə əlini göyə qaldırdı. Ancaq bu dəfə əvvəlkindən fərqli olaraq, bulud çəkilir və günəş çıxır. Camaat hamı təəccüblənib mat qalmışdı. Xəlifə İmamdan soruşdu: "Bu sümük nədir?" İmam Həsən Əskəri (əleyhissəlam) buyurdu: "Bu, peyğəmbərlərdən birinin sümüyüdür, onu qəbirdən çıxarmışlar. Hansı peyğəmbərin sümüyü görünərsə, həmin an mütləq yağış yağmalıdır." Xəlifə İmamı alqışladı. Sümüyü yoxlayıb gördülər ki, o, həqiqətən də, Peyğəmbər sümüyüdür. Bu hadisə İmamın zindandan azad olmasına və o Həzrətin camaatın yanında hörmətinin daha da artmasına səbəb olur. İmam Həsən Əskəri (əleyhissəlam) bu fürsətdən istifadə edib onunla bir yerdə zindanda olan dostlarının azad edilməsini xəlifədən istəyir. Xəlifə İmamın istəyini qəbul edib onları da azad edir.[2]

---

[1] İstisqa namazı quraqlıq düşərkən və yağış yağmayan zaman Allahdan yağış istəmək məqsədilə qılınan namazdır.

[2] Nurul-əbsar, səh.167.

## 2. Şiələrlə əlaqə yaratmaq

İmam Həsən Əskəri əleyhissəlamın dövründə bir çox şəhərlərdə şiələrin sayı artmış və onlar müxtəlif yerlərdə mərkəzləşdirilmişdilər. Kufə, Bağdad, Nişabur, Qum, Abe (Ave), Mədain, Xorasan, Yəmən, Rey, Azərbaycan, Samirra, Qorqan (Corcan) və Bəsrə kimi yerlər artıq şiələrin mərkəzinə çevrilmişdi. Bu şəhərlər arasında Samirra, Kufə, Bağdad, Qum və Nişabur bir sıra səbəblər üzündən xüsusi əhəmiyyətə malik idi.[1]

Şiə mərkəzlərinin çoxalması və müxtəlif yerlərdə olması, onların həm İmamət xətti ilə, həm də bir-biri ilə əlaqə saxlamaları üçün tənzimlənmiş bir əlaqə mərkəzi tələb edirdi. Belə ki, bu mərkəz onları siyasi və dini baxımdan idarə etməli idi. Belə bir mərkəzə olan ehtiyac artıq doqquzuncu İmamın dövründən hiss olunmağa başlanmışdı. İmam Cavad (əleyhissəlam) və İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatından danışarkən artıq o vaxtdan belə bir mərkəzin yarandığını qeyd etmişdik. Bu iş İmam Həsən Əskəri əleyhissəlamın dövründə də, davam etdirilirdi. Tarixi qaynaqlara əsasən, İmam Həsən Əskəri (əleyhissəlam) şiələr arasında tanınmış şəxsləri seçib müxtəlif yerlərə nümayəndə göndərmiş, onlarla əlaqə saxlayaraq bütün şiələrə nəzarət edə bilmişdir. Bu nümayəndələr arasında o Həzrətin Nişabur şəhərindəki nümayəndəsi İbrahim ibn Əbduhu nümunə göstərmək olar. İmam Həsən Əskəri (əleyhissəlam) İshaq ibn İsmayıl və Nişabur şiələrinə yazdığı geniş məktubda İslam ümmətinin hidayət edilməsində (düz yola yönəldilməsində) İmamətin rolunu, İmamlardan itaət etməyin nə dərəcədə vacib olduğunu izah etdikdən və İmamın əmrindən çıxmamağı tapşırdıqdan sonra yazmışdır: “İshaq, sən İbrahim ibn Əbduhu yanında mənim nümayəndəmsən. O da Məhəmməd Musa Nişaburi vasitəsilə ona göndərdiyim məktuba əməl etsin. Sən və şəhərinizdə olanların hamısı məktubda göstərilənlərə əməl etməlisiniz! İbrahim mənim məktubumu hamıya oxusun. Qoy heç kimdə şəkk-şübhə qalmasın... Allahın sonsuz rəhməti İbrahim ibn Əbduha, sənə və bizdən itaət edən bütün şəxslərə olsun. Mənim bu məktubu oxumuş şəhərinizdəki bütün şiələrim və o tərəflərdə haqdan dönməyən bütün şəxslər bizə çatdırılacaq şəri vergiləri İbrahim ibn Əbduha, o isə Raziyə,[2] ya da onun dediyi bir şəxsə təhvil verməlidir. Bu, mənim əmrimdir...”[3]

Bu məktubdan şiələrin maddi vəziyyətini dirçəltməkdə böyük rol oynayan şəri vergilərin yığılması məsələsindən əlavə, belə başa düşülür ki, İmamın nümayəndələrinin müəyyən mərtəbələri olmuş, hər birinin fəaliyyət dairəsi həmin mərtəbəyə əsasən, müəyyən edilmişdi. Toplanmış şəri vergilər axırda əsas nümayəndəyə, ondan da birbaşa İmama çatdırılmalı idi. İmam Həsən Əskəri (əleyhissəlam) sanki İbrahim ibn Əbduhun fəaliyyət dairəsini müəyyənləşdirmək və onun mövqeyini möhkəmlətmək məqsədilə Abdullah ibn Həmdiveyh Beyhəqiyə yazdığı məktubda buyurur: “Mən İbrahim ibn Əbduhu o tərəflərin və sizin məntəqənin şəri vergilərini toplamaq üçün təyin etmişəm. O, şiələr yanında mənim

---

[1] İmam Həsən Əskəri əleyhissəlamın həyatı, səh.223.

[2] Çox güman ki, Razidən məqsəd Rey şəhərindəki görkəmli şiə başçılarından və İmamın nümayəndələrindən biri olan Əhməd ibn İshaq Razidir.

[3] İxtiyari-mə’rifətir-rical, səh. 575–580.

sədaqətli və etibarlı nümayəndəmdir. Təqvalı olun, özünüzü gözləyin, şəri vergilərinizi ödəyin, heç kəs onu ödəməkdən boyun qaçırmaqda, ya onu kecikdirməkdə üzürlü sayılmır..."[1] Deyəsən bəzi şiələr İmam Həsən Əskəri əleyhissəlamın İbrahim ibn Əbduh barədə yazdığı məktubda şəkk edib onun saxtalaşdırıldığını zənn etmiş, buna görə də İmam başqa bir məktubda yazmışdır: "Oranın (Nişaburun) şəri vergilərinin toplanılması üçün İbrahim ibn Əbduhun mənim vəkilim olması barədə oxuduğunuz məktub mənim öz xəttimlədir..."[2]

İmam Həsən Əskəri əleyhissəlamın digər bir nümayəndəsi isə o Həzrətin yaxın dostlarından və Qum şiələrinin adlı-sanlı şəxslərindən olan Əhməd ibn İshaq ibn Abdullah Qummi Əşəri olmuşdur. Bəzi "rical" mütəxəssisləri onu qumlularla İmam Həsən Əskəri (əleyhissəlam) arasında vasitəçi və o Həzrətin yaxın dostlarından biri kimi qələmə vermişlər.[3] Başqa alimlər isə onu İmamın vəkil və nümayəndəsi bilmişlər.[4] "Biharül-ənvar" kitabında gəlmiş bir hədisdən belə başa düşülür ki, o, İmamın Qumdakı nümayəndəsi olmuşdur.[5] Görkəmli tarixçi Məhəmməd ibn Cərir ət-Təbəri yazır: "Əhməd ibn İshaq Qummi Əşəri Şeyx Səduqun müəllimi və İmam Həsən Əskəri əleyhissəlamın nümayəndəsi olmuşdur. İmam Həsən Əskəri (əleyhissəlam) vəfat etdikdən sonra isə Həzrət Sahib əz-Zaman əleyhissəlamın nümayəndəsi olmuşdur. O Həzrət ona məktublar yazır, o da Qum və onun ətraf məntəqələrindən şəri vergiləri toplayıb ona çatdırırdı."[6] O, (Əhməd ibn İshaq) Qum şiələrindən topladığı yüz altımış kisə qızıl-gümüşü İmam Zaman əleyhissəlama çatdırır[7] ki, bu da toplanmış şəri vergilərin külli miqdarda olduğunu göstərir.

Əhvazlı İbrahim ibn Məhziyar da İmam Həsən Əskəri əleyhissəlamın nümayəndələrindən biri olmuşdur. O, topladığı bir qədər şəri vergini İmam Həsən Əskəri əleyhissəlama çatdıra bilməmiş, o Həzrətin şəhadətindən sonra İbrahim xəstələndiyindən oğlu Məhəmmədə vəsiyyət edir ki, yığılmış şəri vergiləri Həzrət Məhdi əleyhissəlama çatdırsın. O, atasının vəsiyyətini yerinə yetirərək atasının əvəzinə on ikinci İmamın nümayəndəsi təyin olunur.[8]

İmam Həsən Əskəri əleyhissəlamın nümayəndələrinin başında Məhəmməd ibn Osman Əmri dururdu. Digər nümayəndələr isə onun vasitəsilə İmamla əlaqə saxlayırdılar. Onlar adətən topladıqları şəri vergiləri Məhəmmədə, o isə onları İmam Həsən Əskəri əleyhissəlama çatdırırdı.[9]

## Qasidlər və məktublar

İmam Həsən Əskəri (əleyhissəlam) şiə mərkəzlərində nümayəndələr təyin etməkdən əlavə, qasidlər vasitəsilə də şiələrlə əlaqə saxlayır və bu yolla onların müşkülatını həll edirdi. Bu sahədə İmam Həsən Əskəri əleyhissəlamın ən yaxın

---

[1] İxtiyari-mə'rifətir-rical, səh.580.
[2] İxtiyari-mə'rifətir-rical, səh.580.
[3] Fihristi-əsmai müsənnifiş-şiə, səh.66.
[4] İmam Əskəri əleyhissəlamın həyatı, səh.333.
[5] Biharül-ənvar, c.50, səh.323.
[6] Dəlailül-imamət, səh.272.
[7] Ehticac, səh.257.
[8] Əl-İrşad, səh.351.
[9] İxtiyari-mə'rifətir-rical, səh.532.

dostlarından biri olan Əbül-Ədyanın misilsiz xidmətlərini nümunə göstərmək olar.[1] O, İmamın məktublarını müxtəlif yerlərdə yaşayan şiələrə çatdırır, eləcə də şiələrin İmama yazdığı məktubları, sualları, həmçinin, onların çətinlik və müşkütlatını, habelə İmama göndərdikləri şəri vergiləri Samirraya gətirərək İmama çatdırırdı. Onun İmam Həsən Əskəri əleyhissəlamın ömrünün son günlərində göstərdiyi fəaliyyəti barədə o Həzrətin şəhadəti bölməsində şərh verəcəyik.

Qasidlərdən başqa İmam Həsən Əskəri (əleyhissəlam) məktublaşma yolu ilə də şiələrlə əlaqə saxlayır və onları öz hidayət qanadı altına alırdı. İmamın ibn Babəveyhə yazdığı məktub bu məktublaşmalardan bir nümunədir.[2] (Bu barədə "mühüm şiə ünsürlərini müşkülat qarşısında siyasi baxımdan qüvvətləndirmək" bölməsində söhbət edəcəyik.)[3] Bundan əlavə, o Həzrət Qum və Ave şəhərlərinin şiələrinə də iki məktub yazmışdır. Bu məktublar hədis kitablarında dərc olunmuşdur.[4] Müxtəlif münasibətlərlə o Həzrətin yazdığı başqa məktublar da vardır.[5] Bir rəvayətə görə İmam Həsən Əskəri (əleyhissəlam) şəhadətindən bir neçə gün qabaq hicrətin iki yüz altımışıncı ili rəbiül-əvvəl ayının səkkizində Mədinə camaatına çoxlu məktub yazmışdır.[6]

## 3. Gizli siyasi fəaliyyətlər

Abbasilər hökumətinin son dərəcə nəzarətinə baxmayaraq İmam Həsən Əskəri (əleyhissəlam) bir sıra gizli siyasi fəaliyyətlər aparmış, bu fəaliyyətlər zamanı çox incə və gizli metodlardan istifadə edərək saray casuslarının gözündən uzaq olmuşdur. Bu fəaliyyətlərə dair çoxlu nümunələr vardır, lakin biz aşağıda qeyd etdiyimiz iki nümunə ilə kifayətlənirik:

**1)** İmam Həsən Əskəri əleyhissəlamın ən yaxın və səmimi dostlarından olan Osman ibn Səid Əmri yağ satmaq adı altında gizli fəaliyyət göstərirdi. Şiələr şəri vergilərini İmama göndərmək istəyəndə onu Osmana verir, o isə yağ qablarına qoyub onu İmama çatdırırdı.[7]

**2)** İmam Həsən Əskəri əleyhissəlamın hamamını qızdırmaq üçün odun daşıyan Davud ibn Əsvəd deyir: Bir gün İmam məni çağırıb mənə qalın, uzun və dairəvi bir çubuq verib buyurur ki, bu çubuğu apar ver Osman ibn Səidə. Mən çubuğu götürüb yola düşdüm. Yolda bir nəfər su daşıyanla rastlaşdım. Onun qatırı yolu kəsmişdi. O, məndən qatırı kənara çəkmək üçün kömək istədi. Mən İmamın verdiyi çubuğu qaldırıb qatıra çəkdim. Çubuq sındı, gözüm çubuğun içərsində olan məktublara sataşdı. Tez çubuğu qoltuğuma vurub geri qayıtdım. Su daşıyan isə məni söyə-söyə qaldı... İmamın evinə çatdıqda o Həzrətin xadimi qabağıma çıxıb dedi: "Ağa deyir ki, nə üçün çubuğu qatıra vurub sındırdın?" Dedim ki, bilmirdim çubuğun içərsində məktub var. İmam buyurdu: "Nəyə görə elə bir iş görürsən ki, sonradan üzr istəməli

---

[1] Reyhanətül-ədəb, c.7, səh.570.
[2] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.425.
[3] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.428.
[4] Məadinül-hikmət fi-məkatibil-əimmə, səh.264.
[5] Tühəfül-üqul, səh.486.
[6] Biharül-ənvar, c.50, səh.331.
[7] Əl-Qeybət, səh.214.

olasan? Bundan sonra bir də belə bir iş görmə. Əgər eşitsən ki, bir nəfər bizi söyür, yenə də işin olmasın, çıx yolunu get. Biz çox pis şəhərdə yaşayırıq. Sən ancaq öz işini gör. Bunu da bil ki, sənin bütün işlərin bizə çatdırılır."[1]

Bu hadisədən məlum olur ki, İmam Həsən Əskəri (əleyhissəlam) gizli məktubları çubuğun arasına qoyub sirsaxlayan və etimadını doğrultmuş Osman ibn Səidə göndərir. Özü də bu işi vəzifəsi hamam qızdırmaq üçün odun daşıyan və heç kəsin gümanına gəlməyən bir şəxsə tapşırır. Ancaq onun ehtiyatsızlığı ucbatından az qala bu sirrin üstü açılacaqdı.

## 4. Şiələri maddi cəhətdən təmin etmək

İmam Həsən Əskəri əleyhissəlamın fəaiyyətlərindən biri də şiələri, xüsusən də, yaxın dostlarını maddi cəhətdən təmin etmək idi. O Həzrətin həyatı barədə mütaliə edilsə, bəzi vaxtlar şiələrdən bir neçəsinin İmamın hüzuruna gedib yoxsulluqdan şikayətlənməsinin, İmamın da onların maddi ehtiyacını ödəməsinin şahidi olarıq. Hətta bəzi vaxtlar onlar özləri şikayətlənməzdən qabaq İmam özü onların maddi ehtiyacını aradan qaldırırdı. İmam Həsən Əskəri əleyhissəlamın bu hərəkəti şiələrin maddi çətinlik ucbatından hökumətə tərəf cəlb olunmasının qarşısını alırdı. Buna dair aşağıdakı nümunələri qeyd etmək olar:

**1)** Əbu Haşim Cəfəri deyir: "Maddi cəhətdən çox pis vəziyyətə düşmüşdüm. Vəziyyətimi məktub vasitəsilə İmam Həsən Əskəri əleyhissəlama bildirmək istədim, ancaq utandığımdan bu fikirdən əl çəkdim. Evə gəldikdə, İmam mənim üçün yüz dinar pul göndərib məktubda da yazır ki, nə vaxt ehtiyacın oldu, bizə xəbər ver, utanma, Allahın sayəsində öz istədiyinə çatarsan."[2]

**2)** Əli ibn Zeyd Ələvi deyir: İmam Həsən Əskəri (əleyhissəlam) mənə bir qədər pul verib buyurur: "Get bu pula özün üçün bir kəniz al. Sənin kənizin ölüb." Evə qayıtdıqda gördüm ki, doğurdan da, kənizim ölüb."[3]

**3)** Əbu Haşim Cəfəri deyir: "Maddi çətinliyim barədə İmama xəbər çatdırdım. O Həzrət mənə beş yüz dinar pul verib buyurdu ki, Əbu Haşim, bunları götür, az olsa, bizi bağışla."[4]

**4)** Əbu Tahir ibn Bilal bir dəfə həcc ziyarətinə gedib orada görür ki, Əli ibn Cəfər külli miqdarda pul paylayır. Həcdən qayıtdıqdan sonra hadisəni İmam Həsən Əskəri əleyhissəlama çatdırır. İmam onun cavabında yazır: "Əvvəl demişdim, ona yüz min dinar versinlər, sonra bir o qədər də əlavə etdik, ancaq o, bizi nəzərə alıb bunu qəbul etmədi." Bu hadisədən sonra Əli ibn Cəfər İmamın hüzuruna gedir və İmamın əmrinə əsasən, ona otuz min dinar pul verirlər."[5]

Bu hadisədən belə başa düşülür ki, Əli ibn Cəfər Hicazda külli miqdarda pul paylamışdır. Onun payladığı pulların hara sərf edildiyi hədisdə müəyyən edilməsə də onun miqdarından belə başa düşülür ki, bu, geniş və qabaqcadan hazırlanmış (nəzərdə tutulmuş) bir proqram əsasında qurulmuş və təbii ki, ehtiyacı olan, sayılıb-seçilmiş,

---

[1] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.427.
[2] Əl-İrşad, səh.343.
[3] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.431.
[4] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.431.
[5] Əl-Qeybət, səh.212.

mübarizə aparan şiə başçıları həmin puldan istifadə etmişlər. Şübhəsiz ki, bu iş İmam Həsən Əskəri əleyhissəlamın göstərişi və maddi köməyi ilə həyata keçmişdir.

İmam Həsən Əskəri əleyhissəlamın şəraitinin məhdud olmasına baxmayaraq bu kimi böyük məbləğlərin ödənilməsi heç də təəccüblü gəlməməli, yaxud inkar edilməməlidir. Çünki İmamın siyasi-ictimai fəaliyyəti Abbasi hökumətinin ciddi nəzarəti altında olsa da, müxtəlif yerlərdə yaşayan çoxsaylı şiələr o Həzrətə külli miqdarda pul (şəri vergilər) göndərirdilər. Məsələn, tarix deyir: “Qorqan (Corcan) şəhərindən bir nəfər İmam Həsən Əskəri əleyhissəlamın hüzuruna gəlib yerlilərinin göndərdiyi şəri vergiləri o Həzrətin Mübarək adlı xadiminə təhvil verir.”[1] Yaxud Cəbəl məntəqəsindən bir nəfər Ələvinin vasitəsilə İmamın yanına gəlmiş şəxs o Həzrətə dörd min dinar pul verir.[2] Yaxud bundan qabaq qeyd etdiyimiz kimi İmamın Qumdakı nümayəndəsi (Əhməd ibn İshaq) şiələrdən topladığı yüz altmış kisə qızıl-gümüşü o Həzrətə çatdırır.[3] Bunlardan əlavə, İmam Həsən Əskəri əleyhissəlamın müxtəlif şəhərlərdə olan nümayəndələri külli miqdarda şəri vergi toplamış, lakin onu İmamın şəhadətinə qədər o Həzrətə göndərə bilmədiklərindən İmam Zaman əleyhissəlama çatdırmışlar. Buna misal olaraq Əli ibn Məhziyarın topladığı, onun vəfatından sonra isə oğlu Məhəmmədin İmam Zaman əleyhissəlamın nümayəndəsinə çatdırdığı külli miqdarda pulu qeyd etmək olar.[4] Həmçinin, Cəbəl əhalisindən olan bir nəfərin[5] yanındakı yeddi yüz dinar, eləcə də İmran Həmədani adlı bir şiədəki beş yüz dinarı buna misal göstərmək olar.

## 5. Mühüm şiə şəxsiyyətlərini müşkülat qarşısında siyasi baxımdan qüvvətləndirmək

İmam Həsən Əskəri əleyhissəlamın ən əsas fəaliyyətlərindən biri də şiələrin görkəmli şəxslərini siyasi mübarizə çətinlikləri qarşısında şiə amalını müdafiə etmək məqsədilə himayə etməsi olmuşdur. Şiələrin görkəmli nümayəndələri çətinliklərlə üzləşdiyindən İmam Əskəri (əleyhissəlam) müxtəlif məqamlarda yeri gəldikcə onlara təskinlik verib öz himayəsi altına alır, çətinliklər, yoxsulluq, təzyiqlər qarşısında daha dözümlü olmaları və böyük siyasi-ictimai məsuliyyətlərini, dini vəzifələrini layiqincəsinə yerinə yetirmələri üçün onları ruhlandırırdı. Məhəmməd ibn Həsən ibn Meymun deyir: Bir dəfə İmam Həsən Əskəri əleyhissəlama bir məktub yazıb kasıbçılıqdan şikayətləndim. Ancaq sonra öz-özümə dedim ki, məgər İmam Sadiq (əleyhissəlam) buyurmayıbmı ki, bizimlə birgə kasıb yaşamaq başqaları ilə varlı yaşamaqdan, bizimlə birlikdə ölmək düşmənlərlə birgə yaşmaqdan yaxşıdır?

İmam Həsən Əskəri (əleyhissəlam) cavabında yazdı: “Bizim dostlarımızın günahları çoxaldıqda, Allah-taala onları kasıblıqla imtahana çəkir. Bəzi vaxtlar onların bir çox günahlarından keçir. Özün dediyin kimi bizimlə kasıb yaşamaq başqaları ilə varlı yaşamaqdan yaxşıdır. Biz, bizə arxalananlar üçün arxa, bizdən hidayət diləyənlər üçün bir nuruq. Biz (azğınlıqdan qurtarmaq üçün) bizə üz tutmuş

---

[1] Kəşfül-ğümmə, c.3, səh.217.
[2] Kəşfül-ğümmə, c.3, səh.216.
[3] Ehticac, səh.257.
[4] Əl-İrşad, səh.351.
[5] Ə’lamül-vəra, səh.448.

şəxslərin gözətçisiyik. Bizi istəyən şəxslər (Allah dərgahında) yüksək mərhələdə bizimlə birlikdə olacaqlar. Bizim yolumuzu getməyənlər isə Cəhənnəmə tərəf getməli olacaqlar."[1] İmam Həsən Əskəri əleyhissəlamın böyük şiə fəqihlərindən biri olmuş Əli ibn Hüseyn ibn Babəveyh Qummiyə yazdığı məktub da bu məsələyə dair bir sübut ola bilər. İmam bu məktubda bir sıra lazımi məsləhətləri qeyd etdikdən sonra yazır: "Səbirli ol, (İmamın) zühurunu gözlə. Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur ki, mənim ümmətim üçün ən yaxşı əməl zühuru gözləməkdir. Şiələrimiz, oğlum (İmam Zaman (əleyhissəlam)) zühur edənə qədər daima qəm-qüssə içərisində olacaqlar. Peyğəmbər (səlləllahu əleyhi və alih) onun barəsində buyurub ki, yer üzü zülm və haqsızlıqla dolduğu zaman o gəlib yer üzünü haqq-ədalətlə dolduracaq. Ey mənim etibar etdiyim böyük fəqih! Səbr et, şiələrimizi də səbirli olmağa çağır. Yer kürəsi Allahın ixtiyarındadır və bəndələrindən kimi istəsə, ora (yer kürəsinə) hakim seçər. Yaxşılıq yalnız təqvalılara, Allahdan qorxanlara məxsusdur. Sənə və bütün şiələrə Allahın rəhmət və bərəkəti olsun!"

## 6. Qeybi məlumatlardan geniş şəkildə istifadə etmək

Məlumdur ki, İmamlar Allahla əlaqədə olmaları sayəsində qeybi məlumatlardan bəhrələnmiş, İslam əsasının, yaxud ümmətin ali məsləhətləri təhlükə ilə üzləşdiyi zaman onlar da, bu məlumatlardan bir növ hidayət vasitəsi kimi istifadə etmişlər. İmamların qeyb aləmindən xəbər vermələri onların həyatında mühüm yer tutur. İmam Həsən Əskəri əleyhissəlamın həyatı ilə tanış olduqda isə məlum olur ki, o Həzrət digər İmamlara nisbətən qeybi məlumatlarından daha çox istifadə etmişdir.

Dövrümüzün müasir alimlərindən birinin təhqiqatına əsasən, İmam Həsən Əskəri əleyhissəlamın qeybi məlumatlardan istifadə etdiyi məqamlardan, Qütb Rəvəndi "Xaric" kitabında qırxını, Seyyid Bəhrani "Mədinətül-məaciz" kitabında yüz otuz dördünü, Şeyx Hürr Amili "İsbatül-hudat" kitabında yüz otuz altısını, Əllamə Məclisi isə "Biharül-ənvar" kitabında səksən birini qeyd etmişdir.[2] Bu isə o deməkdir ki, o Həzrət qeybi məlumatlardan çox geniş şəkildə istifadə etmişdir. Belə başa düşülür ki, bu işin səbəbi İmam Həsən Əskəri (əleyhissəlam) və atası İmam Əliyyən-Nəqi əleyhissəlamın düşdüyü vəziyyətin çətinliyi olmuşdur. Çünki İmam Əliyyən-Nəqi (əleyhissəlam) məcburi şəkildə Samirraya köçdükdən sonra daima ciddi nəzarət altında olmuş, buna görə də, oğlu İmam Həsən Əskəri əleyhissəlamı bütün şiələrə özündən sonrakı İmam kimi tanıtdırmağa fürsət tapmışdır. Digər tərəfdən də, bu işi həyata keçirmək (özündən sonrakı İmamı təyin etmək) onu hökumət qarşısında ciddi təhlükə ilə üzləşdirirdi. Məhz buna görə də, İmam Həsən Əskəri əleyhissəlamı sonrakı İmam kimi tanıtdırıb şiələrdən onun üçün beyət almaq məsələsi İmam Əliyyən-Nəqi əleyhissəlamın ömrünün son aylarında həll olunmuşdur.[3] Hətta İmam Əliyyən-Nəqi (əleyhissəlam) vəfat edərkən şiələrin bir çoxu İmam Həsən Əskəri əleyhissəlamın İmam olduğunu bilmirdi.[4]

---

[1] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.435.
[2] İmam Əskəri əleyhissəlamın həyatı, səh.121.
[3] İmam Əskəri əleyhissəlamın həyatı, səh.217.
[4] İsbatul-vəsiyyə, səh.234.

Bəzi tarixçilərin fikrincə, bu məsələdə başqa bir səbəb öz təsirini göstərmişdir. O da bəzi şiələrdə İmam Həsən Əskəri əleyhissəlamın qardaşı Məhəmməd ibn Əlinin hələ İmam Əliyyən-Nəqi əleyhissəlamın dövründə İmam olmasına inam yaranması olmuşdur. Onlar buna görə də, ona İmam Əliyyən-Nəqi əleyhissəlamın yanında hörmət göstərirdilər. Ancaq İmam Əliyyən-Nəqi (əleyhissəlam) onların bu fikrinə qarşı mübarizə aparır və onlarda oğlu İmam Həsən Əskəri əleyhissəlamın İmam olduğuna dair inam yaratmağa çalışırdı.

İmam Əliyyən-Nəqi əleyhissəlamın şəhadətindən sonra da İbn Mahəviyyə kimi bəzi xainlər bu əqidəni əllərində bayraq tutaraq camaatı İmam Həsən Əskəri əleyhissəlamın İmam olması fikrindən yayındırırdılar.

Bu amillər cəm olaraq bəzi şiələrdə İmam Həsən Əskəri əleyhissəlamın İmam olmasına aid şəkk-şübhə yaratmışdı. Onların bəziləri İmamı yoxlamaq fikrinə düşür,[1] bəziləri isə bu barədə İmamla məktublaşırdılar[2]. Bu şəkk-şübhələr o dərəcəyə çatmışdı ki, İmam Həsən Əskəri (əleyhissəlam) bu barədə bəzi şiələrə yazdığı cavabda ürək ağrısı ilə buyururdu: "Ata-babalarımdan heç birinin İmaməti şiələrin mənim İmamətim məsələsində şəkk etdikləri kimi şəkkə düçar olmamışdır."[3] İmam Həsən Əskəri (əleyhissəlam) bu şəkk-şübhələri aradan qaldırmaq, eləcə də, öz dostlarını təhlükədən qurtarmaq, yaxud onları arxayınlaşdırmaq və ya azğınları düz yola yönəltmək məqsədilə məcbur olurdu ki, həqiqət üzərindən pərdələri kənara çəkib qeyb aləmindən xəbər versin. Bu isə müxaliflərin nəzərini cəlb etmək, eləcə də, şiələrin imanını möhkəmlətmək üçün istifadə olunan ən yaxşı metod idi. Əbu Haşim Cəfəri deyir: "Hər dəfə İmam Həsən Əskəri əleyhissəlamın yanına gedəndə onda İmamətə dair yeni bir nişanə müşahidə edirdim."[4]

İmam Həsən Əskəri əleyhissəlamın bu sahədəki mövqeyi məlum olduqdan sonra o Həzrətin gələcək hadisələr barədə qabaqcadan verdiyi məlumatların bir neçəsini oxucuların nəzərinə çatdırırıq:

**1)** İmam Həsən Əskəri əleyhissəlamın ən yaxın və səmimi dostlarından olan Məhəmməd ibn Əli Səməri deyir: "İmam Əskəri (əleyhissəlam) bir məktub vasitəsilə mənə bildirdi ki, sizə bir bəla üz verəcək. Özünüzü gözləyin!

Üç gündən sonra Bəni Haşim qəbiləsi arasında ixtilaf yaranır. İmama məktub yazdım ki, dediyiniz bəla budurmu? İmam cavab yazdı ki, xeyr, bu, o deyil, özünüzü gözləyin! Bir neçə gündən sonra xəlifə Mötəzz öldürüldü."[5]

**2)** İmam Həsən Əskəri (əleyhissəlam) xəlifə Mötəzzin qətlindən iyirmi gün qabaq İshaq ibn Cəfər Zübeyriyə məktub yazaraq tapşırır: "Öz evində otur, (bu yaxınlarda) mühüm bir hadisə baş verəcək."

İshaq ibn Cəfər Zübeyri deyir ki, Büreyhə öldürüldükdən sonra İmama məktub yazıb dedim ki, dediyiniz hadisə baş verdi, indi nə edim? İmam onun cavabında buyurdu ki, dediyim hadisə başqa hadisədir. Çox çəkmir ki, Mötəzz də öldürülür.[6]

---

[1] İsbatul-vəsiyyə, səh.246.
[2] İsbatul-vəsiyyə, səh.238.
[3] Tuhəfül-üqul, səh.487.
[4] Ə'lamül-vəra, səh.375.
[5] Kəşfül-ğümmə, c.3, səh.207.
[6] Əl-İrşad, səh.340.

**3)** Məhəmməd ibn Həmzə Sərvi deyir: "İmam Əskəri əleyhissəlamın yaxın dostlarından olan Əbu Haşim Cəfərinin vasitəsilə o Həzrətə məktub yazaraq varlanmağım barədə dua etməsini istədim. O Həzrət öz xətti ilə mənə cavab yazıb bildirdi: "Gözün aydın olsun! Allah tezliklə səni varlandıracaq. Əmioğlun Yəhya ibn Həmzə vəfat edib və heç bir vərəsəsi yoxdur. Tezliklə onun yüz min dirhəm pulu sənə yetişəcək."[1]

**4)** Əbu Haşim Cəfəri deyir: "Mən zindanda idim. Vəziyyətimin ağır olmasından İmam Həsən Əskəri əleyhissəlama şikayət etdim. İmam mənə məktub yazıb bildirdi ki, bu gün günorta namazını öz evində qılacaqsan. Çox çəkmir ki, zindandan azad olub (İmamın buyurduğu kimi) namazımı öz evimdə qıldım.[2]

**5)** Əhməd ibn Məhəmməd deyir: "Abbasi xəlifəsi Mühtədi mövliyaları[3] kütləvi şəkildə qırmağa başlayarkən İmam Həsən Əskəri əleyhissəlama məktub yazıb dedim: "Allaha şükr olsun ki, xəlifənin başı qarışıb və sizə əziyyət verməyə fürsət tapmır. Eşitmişəm ki, o, sizi təhdid edərək deyirmiş ki, bunları yer üzündən silib qurtarmaq lazımdır."

İmam cavabında öz xətti ilə yazır: "Onun bu təhdidləri icra etməyə ömrü çatmayacaq. Bu gündən saymağa başla, düz altıncı gün zillət və alçaqcasına öldürüləcək."

Altı gündən sonra İmamın buyurduğu kimi Mühtədi öldürülür."[4]

**6)** Cəfər ibn Məhəmməd Qəlanisi deyir: "Həyat yoldaşı hamilə olan qardaşım Məhəmməd, İmam Həsən Əskəri əleyhissəlama məktub yazıb ondan xahiş edir ki, yoldaşının doğuşunun asan və uşağının oğlan olması üçün Allaha dua etsin.

İmam onun cavabında yazır: "Allah-taala sənə oğlan uşağı bağışlayar. Məhəmməd və Əbdürrəhman adlarının ikisi də gözəl addır."

Onun yoldaşı əkiz oğlan uşağı doğur. Birinin adını Məhəmməd, o birininkini isə Əbdürrəhman qoyurlar."[5]

**7)** Məhəmməd ibn Əyyaş deyir: "Bir neçə nəfər yığışıb İmam Həsən Əskəri əleyhissəlamın fəzilətləri barədə söhbət edirdik. Bir nəfər nasibi (Əhli-beytin düşmənlərindən) dedi: "Mən ona mürəkkəbsiz bir məktub yazacağam. Əgər o, mənim məktubuma cavab yazsa, onun haqq olduğunu qəbul edərəm."

Hərə öz məsələləri barədə İmama məktub yazdı, nasibi də bir vərəq üzərinə mürəkkəbsiz nə isə yazıb İmama göndərdi.

İmam Əskəri (əleyhissəlam) bizim cavablarımızı məktuba yazdı, nasibinin yazdığı məktubun üzərinə isə onun özünün və atasının adını yazdı. Nasibi bunu gördükdə huşunu itirir. Huşa gəldikdən sonra İmamın haqq olduğunu qəbul edib şiələrə qoşuldu."[6]

---

[1] Kəşfül-ğümmə, c.3, səh.214.
[2] Ə'lamül-vəra, səh.372.
[3] Mövliya ərəb xilafəti tabeçiliyində olan vilayətlərdə İslam dinini yenicə qəbul etmiş qeyri-ərəb millətlərə deyilir.
[4] Ə'lamul-vəra, səh.375.
[5] İsbatül-vəsiyyət, səh.241.
[6] Mənaqibi-Ali-Əbutalib, c.4, səh.240.

**8)** İsmayıl ibn Məhəmməd deyir: "Bir gün gedib İmam Həsən Əskəri əleyhissəlamın qapısının ağzında oturdum. İmam evindən çıxanda kasıblıqdan şikayətlənib and içdim ki, hətta bir dirhəm belə pulum yoxdur.

İmam mənə buyurdu: "İki yüz dinar torpağa basdırdığın halda and içirsən ki, pulum yoxdur? Bunu ona görə demirəm ki, sənə pul verməyəm." Sonra üzünü xadiminə tutub buyurdu: "Üstündə nə qədər pul varsa, ver ona!" Xadim mənə yüz dinar pul verdi. Mən Allaha şükr edib geri döndüm. Bu vaxt İmam Əskəri (əleyhissəlam) buyurdu: "Qorxuram ki, gizlətdiyin o iki yüz dinar sənə lazım olan vaxt onu tapmayasan." İmamın bu sözündən sonra pulları gizlətdiyim yerə gedib oranı qazdım. Pullar yerində idi. Götürüb yerini dəyişdim və elə bir yerə qoydum ki, heç kəsin xəbəri olmasın. Bu hadisədən bir müddət keçdi. Pula ehtiyacım oldu. Pulları gizlətdiyim yerə getdim. Qazıb pulları yerində görmədikdə çox narahat oldum. Sonra bildim ki, oğlum pulların yerini tapıb onları götürüb getmişdir. Bir sözlə, İmamın buyurduğu kimi gizlətdiyim pullardan mənə bir şey nəsib olmadı."[1]

**9)** Hələbi adlı bir şəxs deyir: "Samirrada yığışıb İmam Həsən Əskəri əleyhissəlamı yaxından görmək üçün onun evdən çıxmasını gözləyirdik. Bu vaxt o Həzrətdən bizə aşağıdakı məzmunda bir məktub gəldi: "Heç kim mənə salam verməsin və heç kim əli ilə mənə tərəf işarə etməsin. Yoxsa canınız təhlükəyə düşər." Mənim yanımda cavan bir oğlan dayanmışdı. Ondan soruşdum ki, haradansan? Cavab verdi ki, Mədinə şəhərindənəm. Dedim: "Buraya nə üçün gəlmisən?" Dedi: "İmam Həsən Əskəri əleyhissəlamın İmaməti barədə bir balaca mübahisə yaranmışdı. Ürəyim sakit olsun deyə, gəlmişəm ki, ondan ya bir söz eşidəm, ya da bir nişanə müşahidə edəm. Mən Əbuzər Qəffarinin[2] nəvələrindənəm." Bu vaxt İmam Həsən Əskəri (əleyhissəlam) öz xadimi ilə birlikdə evdən çıxdı. Bizə çatanda mənim yanımda durmuş cavan oğlana baxıb buyurdu: "Sən Qəffarinin nəslindənsən?" Oğlan cavab verdi ki, bəli! İmam Əskəri (əleyhissəlam) buyurdu: "Anan Həmdəviyyə necədir?" Oğlan cavab verdi ki, yaxşıdır. Bu qısa söhbətdən sonra İmam bizim yanımızdan uzaqlaşdı. Mən üzümü cavan oğlana tutub dedim: "Onu bundan qabaq görmüşdün?" O, "Xeyr" - deyə cavab verdi. Dedim: "Sənin üçün bu kifayət edirmi?" Cavab verdi ki, bundan az da kifayət edərdi."[3]

**10)** Cəfər ibn Məhəmməd deyir: "Biz İmam Həsən Əskəri (əleyhissəlam) ilə birlikdə yol gedirdik. Mən istəyirdim ki, bir uşağım olsun. Ürəyimdə dedim ki, ey İmam Həsən Əskəri (əleyhissəlam), görəsən, mənim uşağım olacaq? Bu vaxt o Həzrət mənə baxıb başı ilə işarə etdi ki, bəli (uşağın olacaq). Ürəyimdə dedim: Görəsən, uşağım oğlan olacaq? İmam başı ilə işarə etdi ki, xeyr. Bir neçə gündən sonra Allah-taala bizə bir qız uşağı verdi."[4]

**11)** Əli ibn Məhəmməd ibn Ziyad deyir: "Bir gün İmam Həsən Əskəri əleyhissəlamdan mənə bir məktub gəldi. Məktubda yazılmışdı: "Səni bir təhlükə gözləyir, evdən çıxma!" Elə bu ərəfədə mənim üçün bir çətinlik irəli çıxdı. Mən çox

[1] Əl-Füsulul-muhimmə, səh.303.
[2] Qifar Əbuzərin qəbiləsinin adıdır.
[3] Biharül-ənvar, c.50, səh.269.
[4] İmam Əskəri əleyhissəlamın həyatı, səh.136.

narahat oldum. İmama məktub yazıb soruşdum ki, dediyiniz təhlükə budurmu? İmam cavab yazdı ki, xeyr, dediyimiz təhlükə bundan da pisdir. Çox çəkmədi ki, Cəfər ibn Mahmuda görə ciddi nəzarət altına düşdüm. Belə ki, hökumət məni tutan şəxs üçün yüz min dirhəm pul mükafat təyin etmişdi.”[1]

## 7. Şiələri on ikinci imamın qeybə çəkilməsi dövrü üçün hazırlamaq

Hər hansı bir cəmiyyətin rəhbər və İmamının qeybə çəkilməsi qeyri-təbii bir hadisə olduğundan, eləcə də, ona inanmaq və onun qeybə çəkilməsi nəticəsində qarşıya çıxan çətinliklərə dözmək camaat üçün son dərəcə çətin olduğundan İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) və həmçinin, İmam Həsən Əskəri əleyhissəlamdan qabaqkı İmamlar yavaş-yavaş camaatı bu məsələ ilə tanış edir və onlarda bu məsələyə dair inam yaratmağa çalışırdılar. On ikinci İmamın qeybə çəkiləcəyi dövr yaxınlaşdıqca camaatda bu məsələyə dair inam yaratmaq səyi İmam Əliyyən-Nəqi (əleyhissəlam) və İmam Həsən Əskəri əleyhissəlamın dövründə daha çox hiss olunurdu. Necə ki, İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatından danışarkən qeyd etdik ki, o Həzrət öz işlərini əsasən, nümayəndələr vasitəsilə həyata keçirir və özü isə çox nadir hallarda şəxsən şiələrlə əlaqədə olurdu. İmam Həsən Əskəri əleyhissəlamın dövrünə gəldikdə isə bu məsələ özünü daha çox büruzə verirdi. Çünki İmam Həsən Əskəri (əleyhissəlam) bir tərəfdən Həzrət Məhdi əleyhissəlamın anadan olmasına təkid etməsinə baxmayaraq, onu yalnız özünün ən yaxın şiə dostlarına göstərir, digər tərəfdən də, özü ilə şiələrin əlaqəsi azalaraq məhdudlaşırdı. Belə ki, hətta Samirra şəhərinin şiələrinin suallarına, müraciətlərinə məktubla və ya nümayəndələr vasitəsilə cavab verərək onları İmamın qeybə çəkiləcəyi dövrün çətinliklərinə dözməyə və İmamla nümayəndə vasitəsilə əlaqə saxlamağa alışdırırdı. Sonralar on ikinci İmamın özü də, kiçik qeyb dövründə bu vasitədən istifadə etmiş və şiələri böyük qeyb dövrünə hazırlamışdır. (Bu barədə on ikinci İmamın həyatı bölməsində ətraflı söhbət edəcəyik.)

Qeyd etdik ki, İmam Həsən Əskəri əleyhissəlamın ən yaxın dost və şiələrindən bəziləri İmam Zaman əleyhissəlamı görməyə nail olurdular. İndi həmin məqamlardan birini nümunə olaraq oxucuların diqqətinə çatdırırıq.

### Həzrət Məhdi əleyhissəlamın qeybə çəkiləcəyi barədə qabaqcadan xəbər vermə

İmam Həsən Əskəri əleyhissəlamın ən yaxın və ən səmimi dostlarından olan Əhməd ibn İshaq deyir: “İmam Həsən Əskəri əleyhissəlamın yanına gedib ondan sonrakı İmam barədə soruşmaq istəyirdim. Mən sual verməzdən qabaq o Həzrət üzünü mənə tutub buyurdu: “Ey Əhməd ibn İshaq! Allah-taala Həzrət Adəm əleyhissəlamı yaratdığı gündən Qiyamət gününə qədər yer üzünü bir an olsun belə, İlahi hüccətsiz (rəhbərsiz) qoymayıb və qoymayacaq. Allah həmin hüccətin hesabına yer üzündəki bəlanı dəf edərək camaata rəhmət yağışı göndərir və yerin alt təbəqələrində gizlənmiş nemətləri (sərvətləri) üzə çıxarır”. Mən ona dedim: “Sizdən sonra İmam kim olacaq?” Bunu deyəndən sonra o Həzrət qalxıb o biri otağa keçdi və

[1] Kəşfül-gümmə, c.3, səh.207.

çox çəkmədi ki, qucağında sifəti on dörd gecəlik ay parçası kimi parıldayan təxminən üç yaşlı bir uşaqla geri qayıtdı. Sonra isə mənə buyurdu: "Əhməd, əgər Allah və İmamlar yanında hörmətin olmasaydı, bu oğlumu sənə göstərməzdim. Onun adı Peyğəmbərin (səlləllahu əleyhi və alih) adından, künyəsi Peyğəmbərin (səlləllahu əleyhi və alih) künyəsindəndir. Dünya zülm və haqsızlıqla dolduğu zaman o gəlib hər tərəfi haqq-ədalətlə dolduracaq. O, (uzunömürlü olması baxımından) bu ümmət arasında Xızr və Zülqərneyn kimi olacaq. O, uzunmüddətli qeybə çəkiləcək və bir çoxları (qeyb dövrünün həddən artıq uzun çəkəcəyinə görə) bu barədə şəkk edəcək, təkcə Allahın, onun İmamətinə möhkəm əqidədə saxladığı və onun zühurunun tez baş verməsi haqqında dua etməyə nail olan şəxslər azğınlıqdan qurtaracaqlar..."[1]

## Həqiqətin parlaq siması

Hökumət nümayəndələrinin İmam Həsən Əskəri əleyhissəlama qarşı olan düşmənçiliklərinə baxmayaraq, bəzi vaxtlar o Həzrətin mənəvi məqamı onları elə təsirləndirirdi ki, onlar İmamı tərifləyib ona hörmətlə yanaşmaq məcburiyyətində qalırdılar. Übeydullah ibn Xaqan hökumətin əsas işçilərindən biri idi. Onun oğlu Əhməd Qum şəhərində şəri vergiləri toplamaq işinə baxırdı. O, İmamlara qarşı əks mövqedə dururdu. Həsən ibn Məhəmməd Əşəri, Məhəmməd ibn Yəhya və başqaları qeyd etmişlər ki, bir gün Übeydullahın oğlu Əhmədin məclisində şiələrdən (Ələvilərdən) və onların əqidəsindən söhbət açılır. Əhməd deyir: "Mən Samirra şəhərində Ələvilərdə vüqar, nəcabət, fəzilət və əzəmət baxımından öz ailəmiz və bütün Bəni-Haşim arasında İmam Həsən Əskəri (əleyhissəlam) kimi şəxs görməmişdim. Onların nəsli ona qocalar və qəbilə başçılarından çox hörmət edirdilər. Onun mövqeyi ordu başçıları, vəzir-vəkil, ümumiyyətlə, bütün camaat arasında da, bu cür idi. Yadıma gəlir ki, bir gün atamın yanında olarkən qapıçılar gəlib dedilər ki, Əbu Məhəmməd İmam Həsən Əskəri (əleyhissəlam) içəri gəlmək istəyir. Atam uca səslə onlara dedi ki, qoy gəlsin. Mən qapıçıların atamın yanında onun adını künyə ilə və hörmətlə çəkməsindən çox təəccübləndim. Çünki atamın yanında xəlifə, vəliəhd və adını künyə ilə çəkilməsinə xəlifə tərəfindən icazə verilmiş şəxsdən başqa heç kəsin adını künyə ilə çağırmırdılar. Bu vaxt buğdayı, xoşqamətli, gözəlsifətli, yaraşıqlı, vüqarlı bir cavan içəri daxil oldu. Atam onu görcək yerindən qalxıb onu qarşılamaq üçün bir neçə addam irəli getdi. Mənim yadıma gəlmir ki, atam o vaxta qədər Bəni-Haşimdən, yaxud ordu başçılarından birini o cür qarşılamış olsun. Atam onunla qucaqlaşıb üz-gözünü öpməyə başladı, daha sonra əlindən tutub öz namaz qıldığı yerdə əyləşdirdi. Özü isə onunla üzbəüz oturub söhbət etməyə başladı. Atam onunla söhbəti zamanı arabir "qurbanın olum" (başına dönüm) ifadələrini işlədirdi. Mən gördüyüm bu hadisədən təəccüb edirdim. Birdən qapıçılardan biri gəlib dedi ki, xəlifənin qardaşı Müvəffəq bura gəlmək istəyir. Adətən Müvəffəq gəlməzdən əvvəl qapıçılar və onun xüsusi ordu başçıları sarayın qapısından atamın oturduğu (işlədiyi) yerə qədər fəxri qaravulda dayanar, Müvəffəq də gəlib onların qarşısından keçərdi.

[1] Kəmalüddin, c.2, səh.384.

Bəli, atamın bütün diqqəti İmam Həsən Əskəri əleyhissəlamda idi və fasiləsiz olaraq onunla söhbət edirdi. Atam Müvəffəqin xüsusi xadimlərini görəndə o Həzrətə dedi: "Qurbanın olum, istəyirsinizsə, siz gedin." Qapıçılara da tapşırdı ki, Müvəffəq görməsin deyə, onu fəxri qaravulun arxa tərəfindən aparın. İmam Həsən Əskəri (əleyhissəlam) ayağa qalxdı. Atam da durub onunla qucaqlaşaraq ayrıldı. O, otaqdan çıxıb getdi.

Mən atamın xadim və qapıçılarına dedim: "Bu şəxs kim idi ki, onun adını atamın hüzurunda künyə ilə çağırırdınız və atam onunla bu cür rəftar edirdi?" Onlar cavab verdilər ki, o, Ələvilərdən biri, İbnur-Riza adı ilə tanınmış[1] Həsən ibn Əli (əleyhissəlam) (İmam Həsən Əskəri (əleyhissəlam)) idi. Mən bir az da təəccübləndim və o günü axşama qədər onun haqqında və atamın onunla o cür rəftar etməsi barədə fikirləşdim. Adətən atam (xiftən) işa namazından sonra oturub xəlifəyə çatdırılası məlumatları araşdırırdı. Namazı qılıb qurtardıqdan sonra gəlib onun yanında oturdum. Onun yanında heç kəs yox idi. Atam məndən soruşdu: "Əhməd, işin var?" Dedim: "Bəli, ata! İcazə verirsənsə, deyim." Dedi: "İcazə verirəm, de!" Mən dedim: "Ata, səhər gördüyüm o kişi kim idi ki, sən ona o cür hörmət edir, danışığında "qurbanın olum" ifadəsini işlədərək özünü, ata-ananı ona fəda edirdin?" Atam dedi: "Oğlum, o, rafizilərin[2] İmamı, İbnur-Riza adı ilə tanınmış Həsən ibn Əli (İmam Həsən Əskəri (əleyhissəlam)) idi." Sonra bir az sükut etdi. Mən də sakitcə oturmuşdum. Atam davam edib dedi: "Oğlum, əgər Bəni-Abbas hakimiyyətdən getsə, Bəni-Haşimdə hakimiyyətə gəlməyə ondan başqa heç kimin səlahiyyəti yoxdur. Bu da onun fəzilət, ismət, ibadət, gözəl əxlaq və ləyaqətinə görədir. Onun atası da fəzilətli və böyük bir şəxsiyyət olmuşdur." Atamın bu sözlərindən nigarançılığım və atama nifrətim daha da artdı. Artıq İmam Həsən Əskəri (əleyhissəlam) haqqında məlumat toplamaqdan başqa heç bir fikrim qalmamışdı. Onun haqqında istər Bəni-Haşimdən, istər ordu başçılarından, istər yazıçılardan, istər qazı və fəqihlərdən, istərsə də digər camaatdan nə soruşdumsa, hamı onun adını son dərəcə hörmətlə xatırladı. Hamı onu müsbət qələmə verir və öz tayfa və qəbilə başçılarından üstün tuturdu. (Beləliklə də) ona hörmətim artdı. Çünki onu, həm dostları, həm də düşmənləri yaxşı adla xatırlayaraq tərifləyirdilər..."[3]

## İmam Həsən Əskəri əleyhissəlamın şəhadəti və faydasız kələklər

İmam Həsən Əskəri əleyhissəlamın cəmiyyət arasındakı nüfuz və hörmətinin günbəgün artmasından nigaran olan Abbasi xəlifəsi Mötəmid camaatın o Həzrətə olan diqqətinin artdığını, zindanın, təzyiq və işkəncələrin mənfi nəticə verməsini gördükdə, öz köhnə kələklərinə əl atıb İmamı gizlincəsinə zəhərləyir. Şiə aləminin görkəmli alimi Təbərsi yazır: "Bizim alimlərimizin əksəriyyəti yazmışlar ki, ata-

[1] O vaxtlar İmam Riza əleyhissəlamdan sonrakı imamlara İbnur-Riza, yə'ni Rizanın oğlu deyirdilər.

[2] Burada şiələr nəzərdə tutulub.

[3] Əl-İrşad, səh.338.

babası və ümumiyyətlə, bütün İmamlar şəhid olduğu kimi İmam Həsən Əskəri (əleyhissəlam) da zəhərlənmə nəticəsində şəhid olmuşdur.[1]

Tanınmış şiə alimi Kəfəmi yazır: "Onu (İmam Əskəri əleyhissəlamı) Mötəmid zəhərləmişdir."[2]

Dördüncü əsr (hicri tarixi ilə) şiə alimlərindən olan Məhəmməd ibn Cərir ibn Rüstəm ət-Təbəri də qeyd edir ki, İmam Həsən Əskəri (əleyhissəlam) zəhərlənmə nəticəsində şəhadətə qovuşmuşdur.[3]

İmam Həsən Əskəri əleyhissəlamın Abbasi hökuməti tərəfindən öldürülməsinin nişanələrindən biri Mötəmidin o Həzrətin zəhərləndiyi günlərdə İmamın ölümünü adi və təbii bir ölüm kimi qələmə verməsi üçün etdiyi səylərdir.

Sünni məzhəbinin görkəmli alimlərindən biri olan ibn Səbbaq Maliki, Abbasilər sarayında işləyən Übeydullah ibn Xaqanın dilindən yazır: "... İmam Həsən Əskəri (əleyhissəlam) vəfat edərkən Abbasi xəlifəsi heyrətamiz bir halda idi. Biz onun bu halından təəccübləndik, (onun xəlifə olduğundan) belə bir hala düşməsini heç fikrimizə belə gətirməzdik. İmam Həsən Əskəri (əleyhissəlam) zəhərlənərkən xəlifə hamılıqla saray alimlərindən olan beş yaxın dostunu onun evinə göndərir. Xəlifə onlara tapşırır ki, İmam Əskəri əleyhissəlamın evində qalıb baş verən bütün hadisələri ona xəbər versinlər. Eyni zamanda o, bir neçə nəfəri o Həzrətə xidmət etmək üçün onun evinə göndərir. Həmçinin, xəlifə Qazi ibn Bəxtiyara tapşırır ki, etibar etdiyi şəxslərdən on nəfərini seçib gecə-gündüz İmam Əskəri əleyhissəlamın halına nəzarət etmək üçün onun evinə göndərsin. İki-üç gündən sonra xəlifəyə xəbər verilir ki, İmam Əskəri əleyhissəlamın halı çox ağırdır və çətin ki, yaxşılaşsın. Xəlifə onlara tapşırır ki, o Həzrətin evinə daha da ciddi nəzarət edilsin. Onlar da xəlifənin dediyinə əsasən, İmam Həsən Əskəri (əleyhissəlam) vəfat edənə qədər o Həzrətin evinə nəzarəti daha da artırdılar. İmam Həsən Əskəri əleyhissəlamın şəhadət xəbəri Samirraya yayıldıqda, şəhərdə ah-nalə, şivən səsi ucalmağa başlayır və bütün dükan-bazar bağlanır. Bəni-Haşim, divan işçiləri, ordu başçıları, şəhər qazıları, şairlər, vəkil və şahidlər, adi camaat hamı o Həzrətin dəfn mərasiminə getdi. Sanki həmin gün Samirrada qiyamət qopmuşdu. İmam Həsən Əskəri əleyhissəlamın cənazəsi dəfn üçün hazır olduqda xəlifə öz qardaşı İsa ibn Mütəvəkkili o Həzrətin meyyit namazını qılmağa göndərir. Cənazə, namaz qılmaq üçün yerə qoyulduqda, İsa irəli gedib o Həzrətin üzündən kəfəni kənara çəkir və onu Ələvilərə, Abbasilərə, qazılara, yazıçı və şahidlərə göstərərək deyir: "Bu, İmam Həsən Əskəri əleyhissəlamdır. O, təbii ölüm nəticəsində vəfat etmişdir. Xəlifənin filan-filan xadimləri də buna şahiddir." Sonra cənazənin üzünü örtüb ona namaz qılır və dəfn edilməsini əmr edir..."[4]

Əlbəttə, qeyd etmək lazımdır ki, xəlifənin qardaşının İmam Həsən Əskəri əleyhissəlamın cənazəsinə meyyit namazı qılması simvolik bir məna kəsb edirdi və hökumət İmamın şəhadətinin səs-küyünün qarşısını almaq üçün bu addımı atırdı.

[1] Ə'lamül-vəra, səh.367.
[2] Əl-ənvarül-bəhiyyə, səh.162.
[3] Dəlailül-imamə, səh.223.
[4] Əl-füsulül-mühimmə, səh. 307–308.

Əslində isə şiə alimlərinin dediyinə görə İmam Məhdi (əleyhissəlam) özü o Həzrətin cənazəsinə xüsusi meyyit namazı qılmışdır.[1]

## Cəfər Kəzzabın əbəs yerə etdiyi səy

Əbül-Ədyan deyir: "Mən İmam Həsən Əskəri əleyhissəlamın xadimlərindən biri idim və o Həzrətin məktublarını müxtəlif şəhərlərə aparırdım. İmam xəstə olduğu son günlərdə onun yanına getdim. O Həzrət bir neçə məktub yazıb buyurdu: "Bunları Mədainə apar, sən on beş gün Samirrada olmayacaqsan. On beşinci gün şəhərə gəldikdə isə görəcəksən ki, mənim evimdən şivən səsi gəlir və mənim meyyitimi qüsul verməyə qoyublar." Mən dedim: "Ey mənim ağam! Bəs onda sizdən sonrakı İmam kim olacaq?" Buyurdu: "Məktubların cavabını səndən istəyəcək şəxs." O Həzrət buyurdu: "Mənim cənazəmə meyyit namazı qılan şəxs məndən sonra İmam olacaq." Dedim ki, başqa bir nişanə verin. İmam buyurdu: "Kəmərin arasındakı şeydən xəbər verəcək şəxs məndən sonrakı İmamdır." İmamın heybət və əzəməti kəmərin arasındakı şeyin nə olduğu barədə soruşmağıma mane oldu. İmamın verdiyi məktubları Mədainə apardım. Cavabları alıb on beş gündən sonra Samirraya qayıtdıqda, İmamın buyurduğu kimi o Həzrətin evindən şivən səsinin gəldiyini eşitdim. İmamın qardaşı Cəfər (Kəzzab)[2] İmamın evinin kənarında oturmuş, şiələrdən bir dəstəsi də onu dövrəyə alıb başsağlığı verir, digər tərəfdən də, İmam seçilməsi münasibətilə onu təbrik edirdilər. Mən bu hadisədən çox təəccübləndim və özüm-özümə dedim ki, əgər Cəfər İmam seçilibsə, onda İmamətin vəziyyəti dəyişilmişdir. Çünki mən onun şərab içməsini, qumar oynamasını, çalıb-oynamasını öz gözlərimlə görmüşdüm. Mən də irəli gedərək ona başsağlığı verib İmam seçilməsi münasibəti ilə onu təbrik etdim. Ancaq o, məndən heç nə soruşmadı. Bu vaxt İmam Həsən Əskəri əleyhissəlamın evinin xadimi Üqeyd evdən çıxıb Cəfərə dedi ki, qardaşının nəşini kəfənlədilər, gəlin ona namaz qılın. Cəfər evə daxil oldu. Şiələr onun dövrəsini əhatə etmiş, Osman ibn Səid Əmri və Sələmə adı ilə məşhur olmuş Həsən ibn Əli isə onların qarşısında durmuşdular. İmam Həsən Əskəri əleyhissəlamın həyatinə daxil olduqda, o Həzrətin nəşini kəfənləyib tabuta qoymuşdular. Cəfər meyyit namazı qılmaq üçün irəli keçdi. Namaza başlamaq istərkən buğdayı, qarasaç və qabaq dişləri bir-birindən bir az aralı olan bir uşaq evdən çıxıb Cəfərin paltarından yapışaraq onu kənara çəkir və deyir: "Əmi, çəkil kənara, atama meyyit namazını mən qılmalıyam." Üz-gözündən narahatçılığı açıq-aşkar hiss olunan Cəfər kənara çəkilir. O uşaq İmam Həsən Əskəri əleyhissəlamın cənazəsinə namaz qılır, sonra isə İmamı öz evində atası İmam Əliyyən-Nəqi əleyhissəlamın yanında dəfn edirlər. Sonra həmin uşaq üzünü mənə tutub dedi: "Ey bəsrəli kişi, apardığın məktubların cavablarını ver." Məktubların cavabını ona verib öz-özümə dedim: "Bu iki nişanə (cənazəyə namaz qılmaq, məktubların cavablarını istəmək), bircə qaldı kəmərin arasındakı şeydən xəbər vermək."

Cəfərin yanına gəldikdə səs-küyü aləmi basmışdı. Haciz Vəşşa Cəfərdən soruşur: "O uşaq kim idi?" O, bu sualla (yalandan İmamlıq iddiası edən) Cəfəri məhkum

---

[1] Kəmalüddin, səh.475.

[2] O, özünü yalandan imam adlandırdığı üçün Kəzzab (yalançı) adlandırılmışdır.

etmək (susdurmaq) istəyirdi. Cəfər cavab verir ki, vallah heç bu vaxtacan onu görməmişdim, tanımıram.

Biz orada oturmuşduq ki, bir də gördüm Qum şəhərindən bir neçə nəfər gəlib İmam Həsən Əskəri əleyhissəlamı soruşdular. İmamın dünyadan köçdüyünü bildikdə dedilər: "İmamın canişini kimdir?" Oradakılar Cəfəri göstərdilər. Onlar Cəfərə salam verib başsağlığı və təbrik dedilər. Sonra isə dedilər: "Bir neçə məktub və bir qədər pul gətirmişik. Buyurun, görək məktubları kim yazmış və pullar nə qədərdir?" Cəfər bu sualdan narahat olub ayağa qalxdı və paltarının tozunu çırpa-çırpa dedi: "Bunların fikri budur ki, biz qeybdən xəbər verək!" Bu vaxt evdən bir xadim çıxıb dedi: "Məktubları filan-filan kəslər yazmış, kəmərin arasında isə min dinar pul vardır. Özü də onlardan on dənəsini qızıl suyuna çəkiblər." Qumdan gələnlər məktubları da, pulları da xadimə verib dedilər: "Səni kim kəmərin dalınca göndəribsə, İmam da məhz odur..."[1]

## Faydasız səylər

Öz xam xəyalına görə İmam Həsən Əskəri əleyhissəlamı şəhid etmiş Abbasi xəlifəsi Mötəmid elə hesab edirdi ki, öz istədiyinə çatmış və artıq onun özbaşına hakimiyyətinin qarşısında heç bir maneə qalmamışdır. Ancaq daha da arxayın olsun deyə, yeni bir hiyləyə əl atır ki, bu da onun son dərəcə məqampərəst olduğunu və İmam övladı tərəfindən olan nigarançılığını göstərir. O, bir neçə nəfəri İmam Əskəri əleyhissəlamın evinə göndərib onlara tapşırır ki, İmamın evinə gedib orada olan bütün şeyləri yoxlayıb möhürləsinlər. Digər tərəfdən də, İmam Həsən Əskəri əleyhissəlamdan bir uşaq qalması xəbərini eşitdiyi üçün onu tapıb ələ keçirmək fikrinə düşür. Bu məqsədlə o, bütün uşaq tutan qadınlara (mamalara) tapşırır ki, İmam Həsən Əskəri əleyhissəlamın bütün kəniz və arvadlarını müayinədən keçirsinlər. Onlardan hansının hamilə olduğunu görsələr, mütləq xəbər versinlər. Rəvayət olunmuşdur ki, mamalardan biri İmamın kənizlərinin birindən şübhələnib xəlifəyə xəbər vermişdi. Xəlifə əmr edir ki, həmin kəniz müəyyən bir yerdə saxlanılsın və bu xəbərin doğru, ya yalan olması müəyyən olsun deyə (xəlifənin xüsusi xadimi) Nəhir bir neçə qadınla birlikdə ona nəzarət etsin.[2] Həmin kəniz iki il nəzarət altında saxlanılsa da, axırda onun hamilə olmadığı, verilmiş xəbərin isə yalan olduğu məlum oldu.[3]

Mötəmid İmam Həsən Əskəri əleyhissəlamdan heç bir övlad qalmadığını və bundan sonra şiələrin heç bir İmamı olmayacağını sübut etmək məqsədilə əmr edir ki, o Həzrətin bütün qalmış mirasını onun anası ilə qardaşı Cəfər arasında bölüşdürsünlər.[4] Ancaq şiələr öz əqidələrindən dönməyib İmaməti öhdəsinə götürmüş digər bir İmamın (o Həzrətin övladının) olması fikrində idilər.[5] Çünki onlardan bir çoxu İmamın oğlunu görmüşdü.

[1] Kəmalüddin, səh.475.
[2] Üsuli-kafi, c.1, səh.505.
[3] Üsuli-kafi, c.1, səh.505.
[4] Üsuli-kafi, c.1, səh.505.
[5] Kəşfül-gümmə, c.3, səh.199.

Xorasan əyalətində Yəqub ibn Leys Səfari qiyam qaldırana qədər, həmçinin, Übeydullah ibn Yəhya ibn Xaqanın qəfil ölümünə və Sahib əz-Zənc Bəsrə şəhərində qiyam edənə qədər on ikinci İmamın tapılması məqsədilə İmam Həsən Əskəri əleyhissəlamın ailəsinə qarşı müxtəlif təzyiqlər davam edirdi. Yuxarıda qeyd etdiyimiz hadisələr irəli gəldikdən sonra isə Abbasilər hökuməti (xilafət) bütün qüvvəsini bu hərəkətlərin qarşısını almağa yönəldir və artıq İmamın ailəsinə qarşı təzyiqlərə fürsət qalmır.[1]

[1] Biharül-ənvar, c.50, səh.331.

# XII FƏSİL

# İMAM MƏHDİ ƏLEYHİSSƏLAMIN HƏYATI

*** İmam Məhdi əleyhissəlamın qeybə çəkilməsinin ictimai-siyasi səbəbləri**
*** İmam Məhdi əleyhissəlamın xüsusi naibləri (nümayəndələri)**
*** İmam Məhdi (əleyhissəlam) şiə mənbələrində**
*** İmam Məhdi (əleyhissəlam) sünni mənbələrində**
*** Quranda İmam Məhdi əleyhissəlamın quracağı hökumətin siması**
*** İmam Məhdi əleyhissəlamın qeyb dövründəki faydaları**

## İmam Məhdi əleyhissəlamın həyatı barədə qısa məlumat

On ikinci məsum İmam Həzrət Məhdi ibn Həsən Əskəri (əleyhissəlam) hicrətin iki yüz əlli beşinci ili şəban ayının on beşində Samirra şəhərində anadan olmuşdur.[1]

Onun adı İslam Peyğəmbərinin adından, yəni, MƏHƏMMƏD, künyəsi də Peyğəmbərin künyəsindəndir, yəni, Əbülqasimdir.[2] Məsum İmamlar onun əsl adının çəkilməsini qadağan etmişlər.[3] Onun ləqəblərindən Hüccət, Qaim, Xələfisaleh, Sahib əz-zaman[4] və Bəqiyyətullahı[5] qeyd etmək olar. Ən məşhur ləqəbi isə Məhdidir.[6] Atası on birinci İmam Həzrət Həsən Əskəri (əleyhissəlam), anası isə çox hörmətli Nərcis[7] (Nərgiz) xanım olmuşdur. Anası, Reyhanə, Süsən və Səqil adları ilə də tanınmışdır.[8] Nərcis xanımın fəzilət və mənəviyyatı o dərəcədə çox olmuşdur ki, özü İmamət ailəsinin fəzilətli qadınlarından biri olan İmam Əliyyən-Nəqi əleyhissəlamın bacısı Həkimə xanım onu (Nərcisi) öz nəslinin ən fəzilətli xanımı, özünü isə onun xadiməsi adlandırmışdır.[9]

Həzrət Məhdi (əleyhissəlam) iki dəfə qeybə çəkilmişdir. Bunlardan biri qısamüddətli (kiçik qeyb dövrü), digəri isə uzunmüddətli (böyük qeyb dövrü) olmuşdur. Kiçik qeyb dövrü o Həzrətin anadan olduğu gündən[10] xüsusi naiblərin naiblik dövrünün sonuna qədər davam etmiş, böyük qeyb dövrü isə birinci mərhələnin (yəni, kiçik qeyb dövrünün) qurtarması ilə başlamış və o Həzrət zühur edənə qədər davam edəcəkdir.[11]

[1] Əl-İrşad, səh.346. Bə'zi mənbələrdə on ikinci İmamın hicrətin 256-cı ilində anadan olduğu qeyd olunmuşdur. Məsələn, Şeyx Səduqun "Kəmalüddin" kitabı, səh.432.

[2] Əl-İrşad, səh.346. On ikinci İmamın əsl adı Peyğəmbərin (səlləllahu əleyhi və alih) adındandır. Lakin bə'zi hədislərdə onun əsl adını çəkmək qadağan olunduğu üçün onun adını yuxarıdakı şəkildə yazırlar.

[3] Kəmalüddin, səh.648. O Həzrətin adının qadağan olunması onun qeybə çəkildiyi ilk mərhələyə qədər olmuş və siyasi məqsəd daşımışdır, lakin onun zühuruna qədər qadağan edilməsi barədə şiə alimləri arasında fikir müxtəlifliyi var. Bu barədə ətraflı mə'lumat almaq üçün Hacı Mirzə Hüseyn Təbərsi Nurinin "Ən-Nəcmus-saqib" kitabına müraciət etmək olar. səh. 48–49.

[4] Ə'lamül-vəra, səh.418.

[5] İsbatül-vəsiyyə, səh.248.

[6] Əl-füsulül-mühimmə, səh.310.

[7] Əl-İrşad, səh.346.

[8] Əl-İrşad, səh.346.

[9] Rəvzətül-vaizin, səh.283; Biharül-ənvar, c.51, səh.12.

[10] Bə'ziləri İmam Zamanı atası vəfat edən gündən onun kiçik qeyb dövrünü hesablamışlar.

[11] Əl-İrşad, səh.346.

## Sünni alimlərinin nəzərində Həzrət Məhdi əleyhissəlamın təvəllüdü

Həzrət Məhdi əleyhissəlama inanmaq təkcə şiə məzhəbinə xas olan bir məsələ deyil. (Bu barədə növbəti səhifələrdə ətraflı söhbət edəcəyik.) Peyğəmbərdən (səlləllahu əleyhi və alih) yetişmiş hədislərə əsaslanaraq sünni məzhəbi də bu məsələyə inanır. Lakin şiələrdən fərqli olaraq onlar deyirlər ki, İslam peyğəmbərinin (səlləllahu əleyhi və alih) həmin şəxsin qeybə çəkildikdən sonra zühur edəcəyi barədə məlumat verdiyi Məhdi hələ dünyaya gəlməmiş və yalnız bundan sonra dünyaya gələcəkdir.[1] Buna baxmayaraq sünni məzhəbinin bir çox tarixçi və hədisyazarları o Həzrətin təvəllüdünü öz kitablarında qeyd edərək onu bir həqiqət kimi qəbul etmişlər. Tədqiqatçılardan bəziləri onların yüzdən çoxunun adını qeyd etmişdir.[2]

## Həzrət Məhdi (əleyhissəlam) ilə görüş

İmam Həsən Əskəri əleyhissəlamın həyatından danışarkən geniş məlumat verdiyimiz kimi, zalım Abbasi hökuməti o Həzrətin (İmam Əskəri əleyhissəlamın) oğlunu ələ keçirib öldürmək məqsədilə İmam Əskəri əleyhissəlamın evini ciddi nəzarət altında saxladığından, İmam Məhdi əleyhissəlamın anadan olması İmam Həsən Əskəri əleyhissəlamın qabaqcadan hazırladığı dəqiq və ölçülmüş plan əsasında çox gizli şəkildə və camaatın (hətta şiələrin) gözündən uzaq bir şəraitdə baş vermişdir. Bu barədə ən mötəbər xəbəri o Həzrətin anadan olmasının yaxından şahidi olmuş İmam Həsən Əskəri əleyhissəlamın bibisi Həkimə xanım vermişdir. Qeyd etmək lazımdır ki, o Həzrətin gizli şəkildə anadan olması bu demək deyil ki, sonralar, yəni, İmam Həsən Əskəri əleyhissəlamın sağ olduğu müddətdə Həzrət Məhdi əleyhissəlamı beş-altı yaşına qədər heç kəs görməmişdir. Xeyr, şiələrdən xüsusi adamlar müxtəlif vaxtlarda və müxtəlif münasibətlərlə o Həzrəti görməyə nail olmuş, beləliklə də, onun anadan olmasına yəqinlik taparaq, lazım gəldikdə başqa şiələrə də bu haqda məlumat verirdilər. (Necə ki, bu görüşlərdən birini İmam Həsən Əskəri əleyhissəlamın həyatından danışarkən qeyd etmişdik.) Alimlər bu görüşlər barədə geniş şəkildə açıqlamalar vermiş,[3] lakin bunların içərisində ən əsası çox güman ki, İmam Həsən Əskəri əleyhissəlamın qırx səhabəsinin o Həzrətlə görüşü olmuşdur. Bu görüş aşağıdakı şəkildə baş vermişdir.

Həsən ibn Əyyub ibn Nuh[4] deyir: "İmam Həsən Əskəri əleyhissəlamdan sonrakı İmamın kim olacağı barədə soruşmaq üçün o Həzrətin yanına getdik. Biz qırx nəfər idik. (Sonradan İmam Məhdi əleyhissəlamın xüsusi vəkillərindən biri olmuş) Osman ibn Səid Əmri ayağa qalxıb dedi: "Sizin məndən daha yaxşı bildiyiniz bir məsələ barədə soruşmaq istəyirəm." İmam Həsən Əskəri (əleyhissəlam) Osmana "Əyləşin" - deyə cavab verdi. Osman narahat halda məclisdən çıxmaq istədi. İmam buyurdu: "Heç kim durub getməsin." Buna görə də, kimsə qırağa çıxmadı. Bir qədər keçdikdən sonra İmam Əskəri (əleyhissəlam) Osmanı dilləndirdi. O ayağa qalxdı. İmam ona

[1] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c.7, səh.94, c.10, səh.96.
[2] Nəhcül-bəlağədə gözlənilən Məhdi (əleyhissəlam), səh. 23, 39.
[3] Kəmalüddin, səh. 434–478.
[4] Həsən ibn Əyyub ibn Nuh İmam Əskəri əleyhissəlamın vəkillərindən olmuşdur.

buyurdu: “İstəyirsiniz, bura nə üçün gəldiyinizi deyim?” Hamı “Buyurun!” -deyə cavab verdi. İmam buyurdu: “Bura məndən sonra kimin İmam olacağı barədə soruşmaq üçün gəlmisiniz.” Hamı “Bəli” dedi. Bu vaxt ay kimi işıqlı (nurani), İmam Həsən əleyhissəlama oxşayan bir oğlan (uşağı) içəri daxil oldu. İmam Həsən Əskəri (əleyhissəlam) ona işarə edərək buyurdu: “Bu, məndən sonra sizin İmamınız, mənim sizin aranızdakı canişinimdir. Onun əmrinə tabe olun və məndən sonra ixtilaf yaratmayın. Yoxsa özünüz həlak, dininiz isə məhv olub gedər...”[1]

## Həzrət Məhdi əleyhissəlamın qeybə çəkilməsinin siyasi-ictimai səbəbləri

İmamların camaatı düz yola yönəltməkdə məqsədləri, onları kamalın son həddinə çatdırmaq olmasında şübhə yoxdur. Bu isə o vaxt həyata keçər ki, camaat bu yönəltmədən istifadə etməyi bacarsın. Əgər camaatda belə bir hazırlıq olmasa, onda Allah tərəfindən təyin edlilmiş rəhbərin camaat arasında olmasının heç bir xeyri olmayacaq. Təəssüflər olsun ki, İmamların, xüsusən də, İmam Cavad əleyhissəlamdan sonrakı İmamların dövründəki təzyiqlər və son dərəcə məhdudiyyətlər göstərir ki, cəmiyyətin İmamların rəhbərliyindən istədikləri kimi istifadə etməsi üçün lazımi şərait olmamışdır. (Belə ki, bu təzyiqlər nəticəsində onuncu və on birinci İmamın fəaliyyəti ən aşağı səviyyəyə çatmışdı.) Bu göstərir ki, İmamların cəmiyyətdə rəhbərlik və hidayətindən istifadə etmək üçün əlverişli şərait yox idi. Buna görə də, cəmiyyət lazımi hazırlığı tapana qədər Allah-taala on ikinci İmamın qeybə çəkilməsini məsləhət bilmişdir. (Bu barədə irəlidə söhbət edəcəyik.) Əlbəttə on ikinci İmamın qeybə çəkilməsinin bütün sirləri bizə məlum deyil, ancaq dediyimiz amil o Həzrətin qeybə çəkilməsinin əsas səbəbi ola bilər. İslami rəvayətlərdə on ikinci İmamın qeybə çəkilməsinin səbəbləri sahəsində üç məsələ əsas götürülür:

## 1. İnsanları sınama

Bildiyimiz kimi Allahın sabit adət-ənənələrindən biri də, bəndələri imtahana çəkib pak və təmiz insanları seçməkdir. Həyat daima imtahan və sınaq səhnəsi olmuş, bəndələr bu yolla öz iman və səbrləri sayəsində və özlərini Allahın əmrlərinə təslim etmək nəticəsində tərbiyə olunaraq kamala yetişməli və onların gizli istedadları çiçəklənməlidir. Həzrət Məhdi (əleyhissəlam) qeybdə olduğu müddətdə insanlar sınağa çəkilir. İman və əqidəsi möhkəm olmayan şəxslərin iç üzü aşkar olaraq şəkkə düçar olur, lakin iman və əqidəsi qanına işləmiş şəxslər o Həzrətin zühurunu gözləmək və çətinliklərə sinə gərmək nəticəsində əqidələri daha da möhkəmlənir və Allahın daha böyük mükafatlarına layiq görülürlər.

İmam Museyi-Kazim (əleyhissəlam) buyurmuşdur: *“Beşinci oğlum qeybə çəkildikdə dininizi qoruyun, muğayat olun kimsə sizi yolunuzdan çıxarmasın. O, istər-istəməz (məcburiyyət qarşısında) qeybə çəkiləcək. Onda bəzi möminlər öz*

[1] Əl-Qeybət, səh.217.

*əqidələrindən dönəcəklər. Allah-taala onu qeybə çəkməklə Öz bəndələrini sınağa çəkir..."*[1]

İslam rəhbərlərinin sözlərindən belə başa düşülür ki, Allahın İmam Məhdi əleyhissəlamı qeybə çəkməklə bəndələri sınağa çəkməsi Allahın ən çətin sınaqlarından biridir.[2] Bu çətinlik isə iki cəhətə görədir:

**1)** Qeyb dövrünün özünə görə, yəni, qeyb dövrü həddən artıq uzun çəkəcəyindən insanların çoxu buna şəkk edəcək. Bəziləri ümumiyyətlə, İmam Məhdi əleyhissəlamın doğulmasında (dünyaya gəlməsində), bəziləri isə o Həzrətin ömrünün uzanmasında şəkk edəcək. O Həzrətin İmamətinə sınaqdan çıxmış və əqidəsi möhkəm olan şəxslərdən başqa heç kəs inanmayacaq. Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurduğu geniş bir hədisdə söyləmişdir: "Məhdi (əleyhissəlam) şiə və ardıcıllarının gözündən itəcək, Allah-taala qəlblərini iman üçün ləyaqətli etmiş şəxslərdən başqa heç kəs onun İmamətinə olan əqidəsini qoruyub saxlaya bilməyəcək."[3]

**2)** İmam Məhdi əleyhissəlamın qeybdə olduğu müddət ərzində adamların dəyişilməsinə səbəb olan, baş vermiş və verəcək çətinliklər, təzyiqlər və gözlənilməz hadisələrə görə; Yəni, inam və əqidəni qorumaq, dində sabit qalmaq çətin bir işə çevriləcək və insanların imanı bir sıra çətinliklərlə, təhlükələrlə üzləşəcək.[4]

## 2. İmamın canını qorumaq

Allah-taala on ikinci İmamı qeybə çəkməklə onu ölümdən qurtarmışdır. Çünki əgər o Həzrət ömrünün ilk günlərindən camaatın arasında olsaydı, onu mütləq öldürəcəkdilər. (Bu barədə kifayət qədər söhbət etmişik). Deməli, o Həzrət münasib vaxtdan qabaq da zühur etsə, yenə həyatı təhlükədə olar, nəticədə öz İlahi vəzifələrini yerinə yetirməyə, cəmiyyəti islah etmək sahəsindəki ali məqsədlərini icra etməyə nail olmaz. İmam Sadiq əleyhissəlamın səhabələrindən olmuş Zürarə deyir: İmam Sadiq (əleyhissəlam) buyurdu: "Gözlənilən İmam qiyam etməzdən qabaq bir müddət gözlərdən itəcək." Soruşdum ki, nəyə görə? Buyurdu: "Çünki canı təhlükədə olacaq.[5] "

## 3. Zəmanə zalımları ilə beyət etmək zülmündən qurtarmaq

On ikinci İmam heç bir rejimi, hətta təqiyyə[6] üzündən də olsa belə, rəsmi tanımamış və tanımır. O, heç bir hakimin hökumətini qəbul etmək məcburiyyətində olmayıb və olmayacaq. O, öz vəzifəsinə uyğun olaraq rəftar edir, Allahın dinini mükəmməl şəkildə, çəkinmədən və heç bir bəhanəni qəbul etmədən icra edir. Belə olduqda isə kiminləsə beyət etməyə lüzum qalmır. Həsən ibn Fəzzal deyir: "İmam

[1] Əl-Qeybət, səh. 204.
[2] Əl-Qeybət, səh. 203–207.
[3] Müntəxəbül-asar, səh.101, hədis 4.
[4] Əmin-amanlıq müjdəsi, səh.177–178.
[5] Üsuli-kafi, c.1, səh.337.
[6] Təqiyyə hər hansı bir şəxsin (millətin) qəbul etmədiyi rejimin, məzhəbin qayda-qanunlarına zahirdə əməl etməsinə deyilir. Məsələn, şiə olan bir şəxs sünnilər içərisinə düşdükdə əgər şiə qayda-qanunlarını yerinə yetirmək mümkün olmasa, sünni məzhəbinin qayda-qanunlarına əməl edə bilər.

Riza (əleyhissəlam) buyurdu: "Sanki üçüncü oğlumun (İmam Həsən Əskəri əleyhissəlamın) ölümündən sonra öz İmamını axtaran, lakin onu tapa bilməyən şiələrimi görürəm." Mən dedim: "Nə üçün o, gözlərdən itəcək?" İmam cavab verdi: "Ona görə ki, əlində qılınc qiyam edəcəyi zaman heç kəsə tabe olmasın."[1]

## Kiçik və böyük qeyb dövrü

*(İmam Məhdi əleyhissəlamın qeybə çəkilməsinin birinci və ikinci mərhələləri)*

Qeyd etdiyimiz kimi İmam Məhdi əleyhissəlamın qeyb dövrü iki hissəyə bölünür: Kiçik qeyb dövrü və böyük qeyb dövrü. Kiçik qeyb dövrü (qısamüddətli qeyb) (İmam Həsən Əskəri əleyhissəlamın şəhadətindən) hicrətin iki yüz altımışıncı ilindən başlayaraq üç yüz iyirmi doqquzuncu ilinə qədər (dördüncü xüsusi naibin vəfatına qədər) davam etmişdir. Bu müddət təxminən altmış doqquz il çəkmişdir.[2] Kiçik qeyb dövründə şiələrin əlaqəsi İmamla tamamilə kəsilməmiş, onlar xüsusi şəkildə və çox məhdud şəkildə İmamla əlaqə saxlayırdılar. Bu müddət ərzində müəyyən şəxslər o Həzrətin xüsusi vəkili olmuş, şiələr də onların vasitəsilə öz məsələ və müşkülatını İmamın hüzuruna çatdırıb cavab alırdılar. Bəzi vaxtlar İmamla görüşə də bilirdilər. Buna görə deyə bilərik ki, İmam Məhdi (əleyhissəlam) bu müddət ərzində həm qeybdə, həm də aşkarda olmuşdur. (Əlbəttə əgər belə demək mümkünsə).

Kiçik qeyb dövrünü şiələri böyük qeyb dövrünə hazırlamaq mərhələsi adlandırmaq olar. Çünki sonrakı mərhələdə şiələrin İmamla əvvəldə olan azacıq əlaqələri də kəsilir, şiələr öz məsələlərində o Həzrətin ümumi vəkillərinə, yəni, müctehidlik səlahiyyəti olan və İslam hökmlərinə dərindən bələd olan alimlərə müraciət etməli olurlar. Böyük qeyb dövrü birdən-birə başlasaydı, fikirlərin çaşqınlığına səbəb olar və zehinlər onu qəbul edə bilməzdi. Ancaq əvvəlki İmamların qeyb dövrünə zəmin yaratmaları üçün ağıllı tədbirlərindən əlavə kiçik qeyb dövrünün özü də, yavaş-yavaş zehinləri hazırlayır və bunun ardınca da böyük qeyb dövrü başlayır. Həmçinin, kiçik qeyb dövründə xüsusi vəkillərin o Həzrətlə əlaqədə olması və eləcə də, bəzi şiələrin bu müddət ərzində o Həzrəti görməyə nail olması, İmam Məhdi əleyhissəlamın doğulmasını və hal-hazırda da yaşaması məsələsini daha da təsdiqlədi.[3]

İmam Məhdi əleyhissəlamın qeybə çəkilməsinin birinci mərhələsi başa çatdıqdan sonra uzunmüddətli və böyük qeyb dövrü başlamış, bu mərhələ indiyədək davam edir və bundan sonra da, Allah-taala o Həzrətə qiyam etmək üçün zühur - üzə çıxma icazəsi verənə qədər davam edəcək. On ikinci İmamın qeybə çəkilməsinin hər iki mərhələsi ondan əvvəlki İmamlar tərəfindən qabaqcadan xəbər verilmiş və elə həmin dövrdən də ravi və hədisyazarlar tərəfindən öyrənilərək hədis kitablarında qeyd edilmişdir. İndi isə nümunə üçün bir neçə hədisə nəzər yetirək:

**1)** Əmirəl-möminin Həzrət Əli (əleyhissəlam) buyurmuşdur: "Bizim qeybə çəkiləcək (İmamımızın) iki qeyb dövrü olacaq. Onlardan biri digərindən daha çox

---

[1] Kəmalüddin, səh.480.

[2] Mərhum Şeyx Müfid on ikinci İmamın kiçik qeyb dövrünü o Həzrətin anadan olduğu ildən, yə'ni 255-ci ildən hesab edir. (Əl-İrşad, səh.346.)

[3] Əl-Məhdi, səh.183.

olacaq. Onun qeybdə olduğu müddət ərzində onun İmamətinə yalnız imanı möhkəm və mərifəti kamil olan şəxslər inanacaq."[1]

**2)** İmam Baqir (əleyhissəlam) buyurmuşdur: "Qeybə çəkiləcək (İmamın) iki qeyb dövrü olacaq. Bu iki dövrün birində deyəcəklər ki, o ölüb..."[2]

**3)** Əbu Bəsir deyir: İmam Sadiq əleyhissəlama dedim: "İmam Baqir (əleyhissəlam) buyurmuşdur ki, Məhəmməd (səlləllahu əleyhi və alih) nəslinin (qeybə çəkildikdən sonra) qiyam edəcəyi şəxsin iki qeyb dövrü olacaq ki, bunlardan da biri digərindən daha (çox) uzun sürəcək. İmam Sadiq (əleyhissəlam) buyurdu ki, bəli, belədir..."[3]

**4)** İmam Sadiq (əleyhissəlam) buyurmuşdur: "Qiyam edəcək İmamın iki qeyb dövrü olacaq: Biri qısamüddətli, digəri isə uzunmüddətli..."[4]

Tarix qabaqcadan deyilmiş bu xəbərləri təsdiqlədi və əvvəlki İmamların buyurduğu kimi İmam Məhdi (əleyhissəlam) barədə deyilmiş hər iki qeyb dövrü həqiqətə çevrildi.

## İmam Məhdi əleyhissəlamın xüsusi nümayəndələri

Həzrət Məhdi əleyhissəlamın kiçik qeybdə olduğu müddət ərzində qabaqkı İmamların sabiqəli səhabələrindən və şiələrin böyük və təqvalı alimlərindən dördü o Həzrətin xüsusi nümayəndəsi olmuşdur. Onlar öz dövrlərinə görə aşağıdakı tərtiblə nümayəndəlik etmişlər:

**1.** Əbu Əmr Osman ibn Səid Əmri;

**2.** Əbu Cəfər Məhəmməd ibn Osman ibn Səid Əmri;

**3.** Əbülqasim Hüseyn ibn Ruh Nobəxti;

**4.** Əbülhəsən Əli ibn Məhəmməd Səməri.

Həzrət Məhdi əleyhissəlamın müxtəlif yerlərdə, o cümlədən Bağdad, Kufə, Əhvaz, Həmədan, Qum, Rey, Azərbaycan, Nişabur və s. yerlərdə başqa vəkilləri olmuş, lakin onlar ya vəkillər silsiləsinin başında duran bu dörd nəfərin vasitəsilə camaatın (şiələrin) məsələlərini İmama çatdırır[5] və eləcə də, onların həllinə dair İmamdan məktublar alırdılar,[6] ya da (bəzi tədqiqatçıların verdiyi ehtimala görə) bu dörd nəfərin nümayəndəliyi ümumi və hərtərəfli olmuş, başqaları isə müəyyən məsələlər üzrə nümayəndəlik etmişlər.[7] Bu nümayəndələrdən aşağıdakıları misal göstərmək olar: Məhəmməd ibn Cəfər Əsədi, Əhməd ibn İshaq Əşəri Qummi, İbrahim ibn Məhəmməd Həmədani, Əhməd ibn Həmzə ibn əl-Yəsə[8], Məhəmməd ibn İbrahim ibn

---

[1] Yənabiül-məvəddə, c.3, səh.82.
[2] Əl-Qeybət, səh.173.
[3] Əl-Qeybət, səh.173.
[4] Əl-Qeybət, səh.170.
[5] Əl-Qeybət, səh.225.
[6] Əl-Məhdi, səh.189.
[7] Ə'yanüş-şiə, c.2, səh.48.
[8] Əl-Qeybət, səh. 257–258.

Məhziyar,[1] Haciz ibn Yezid, Məhəmməd ibn Saleh,[2] Əbu Haşim Davud ibn Qasim Cəfəri, Məhəmməd ibn Əli ibn Bilal, Ömər Əhvazi, Əbu Məhəmməd və Cinai.[3]

## 1. Əbu Əmr Osman İbn Səid Əmri

Osman ibn Səid Bəni-Əsəd qəbiləsindən olmuş, Samirra şəhərində yaşadığı üçün Əskəri də adlandırılmışdır. Şiələr onu Səmman (yağsatan) deyə çağırırdılar. O, siyasi fəaliyyətinin üzə çıxmaması məqsədilə yağ satmaqla məşğul olur, şiələrin İmama çatdırmaq istədiyi malları onlardan alaraq yağ qablarına qoyub İmam Həsən Əskəri əleyhissəlama çatdırırdı.[4] O, etimadını necə lazımdısa doğrultmuş, şiələrin hamısı ona inanırdı.[5] Qeyd etmək lazımdır ki, Osman ibn Səid elə İmam Əliyyən-Nəqi (əleyhissəlam) və İmam Həsən Əskəri əleyhissəlamın da, nümayəndə və yaxın dostlarından olmuşdur.

Özü şiə başçılarından olan Əhməd ibn İshaq deyir: “Bir gün İmam Əliyyən-Nəqi əleyhissəlamın yanına gedib dedim: “Mən bəzi vaxtlar burada olur, bəzi vaxtlar isə olmuram, burada olanda da, həmişə sizin yanınıza gələ bilmirəm. Kimin sözünü qəbul edim, kimə qulaq asım?” İmam buyurdu: “Bu Əbu Əmr (Osman ibn Səid Əmri) inanılmış və etibar etdiyim bir şəxsdir. O, sizə nə desə, bilin ki, mənim tərəfimdən çatdırır.”

Sonra Əhməd ibn İshaq əlavə edib deyir: “İmam Əliyyən-Nəqi əleyhissəlamın vəfatından sonra İmam Həsən Əskəri əleyhissəlamın yanına gedib həmin sualı təkrar etdim. O da atası kimi buyurdu: “Bu Əbu Əmr məndən əvvəlki İmamın etibar etdiyi, eləcə də, mənim həm həyatımda, həm də öldükdən sonra inandığım bir şəxsdir. O, sizə nə desə, bilin ki, mənim tərəfimdən demiş, sizə nə çatdırsa, bilin ki, mənim tərəfimdən çatdırmışdır.”[6]

İmam Həsən Əskəri (əleyhissəlam) vəfat etdikdə də, zahirdə ona qüsul verib kəfənə tutduqdan sonra dəfn etmiş şəxs Osman ibn Səid olmuşdu.[7] Həmçinin, bir gün bir dəstə şiənin gözü qarşısında İmam Həsən Əskəri əleyhissəlamın göstərişi ilə Yəmən şiələrinin göndərdiyi şəri vergiləri təhvil alan şəxs Osman ibn Səid idi. İmam Əskəri (əleyhissəlam) şiələrin qarşısında öz hərəkəti ilə Osman ibn Səidə olan hörmət və etibarın nə dərəcədə böyük olmasını göstərərək buyurmuşdur: “Şahid olun ki, Osman ibn Səid mənim, oğlu Məhəmməd isə oğlum Məhdi əleyhissəlamın vəkili (naibi) olacaqdır.”[8] Eyni zamanda qırx nəfər şiənin İmam Həsən Əskəri əleyhissəlamla görüşünün sonunda o Həzrət onlara buyurdu: “Osman ibn Səid nə deyirsə, qəbul edin, onun əmrinə tabe olun, sözünə qulaq asın. O, sizin İmamınızın nümayəndəsidir və ixtiyar sahibidir.”[9]

---

[1] Üsuli-kafi, c.1, səh.518.
[2] Üsuli-kafi, c.1, səh.521.
[3] Ə’lamül-vəra, səh.444.
[4] Əl-Qeybət, səh.214.
[5] Əl-Qeybət, səh.216.
[6] Əl-Qeybət, səh.215.
[7] Əl-Qeybət, səh.216.
[8] Əl-Qeybət, səh.216.
[9] Əl-Qeybət, səh.217.

Osman ibn Səidin vəfat etdiyi tarix məlum deyil. Bəziləri ehtimal vermişlər ki, o, hicrətin iki yüz altımış-iki yüz altımış yeddinci illəri arasında vəfat etmişdir. Bəziləri isə onun iki yüz səksəninci ildə vəfat etdiyini qeyd edir.[1]

## 2. Məhəmməd İbn Osman İbn Səid Əmri

Məhəmməd ibn Osman da atası kimi şiə böyüklərindən olmuş, təqva, ədalət, ehtiram baxımından bütün şiələrin onu qəbul edib hörmət etdiyi və İmam Həsən Əskəri əleyhissəlamın etibar etdiyi yaxın dostlarından olmuşdur. İmam Əskəri (əleyhissəlam) Əhməd ibn İshaqın "Kimə müraciət edək?" sualının cavabında buyurmuşdu: *"Osman ibn Səid və oğlu Məhəmməd hər ikisi mənim etibar etdiyim şəxslərdir. Sənə nə çatdırsalar, bil ki, mənim tərəfimdən çatdırır, nə desələr, bil ki, mənim tərəfimdən deyirlər. Onların sözünə qulaq as və onlardan itaət et! Çünki onların ikisinə də mən etibar edirəm."*[2]

Osman ibn Səid vəfat etdikdən sonra İmam Məhdi (əleyhissəlam) tərəfindən ona başsağlığı verilərək özünün də, nümayəndə təyin olunması haqqında bir məktub yetişir.[3]

Abdullah ibn Cəfər Himyəri deyir: "Osman ibn Səid vəfat etdikdən sonra İmam Məhdi əleyhissəlamdan əvvəllər bizimlə məktublaşdığı xətlə yazılmış bir məktub gəlir. Məktubda Məhəmməd ibn Osman atasının yerinə naib təyin edilmişdi."[4] Həmçinin, İmam Məhdi (əleyhissəlam) İshaq ibn Yəqubun suallarına cavab verdiyi məktubda belə yazmışdı: *"Allah Məhəmməd ibn Osman ibn Səid və vəfat etmiş atasından razı olsun. O, mənim inandığım bir şəxsdir və onun yazdığı mənim yazdığımdır."*

Məhəmməd ibn Osman fiqh (müsəlman hüquqları) elmi sahəsində bir neçə əsər yazmış, o vəfat etdikdən sonra isə həmin əsərlər İmamın üçüncü naibi Hüseyn ibn Ruha (ya da dördüncü naib Əbülhəsən Səməriyə) çatmışdır.[5]

Məhəmməd ibn Osman təxminən qırx il İmam Məhdi əleyhissəlamın nümayəndəsi olmuş, bu müddət ərzində müxtəlif məntəqələr üzrə təyin olunmuş nümayəndələrə başçılıq etmiş, onların işlərinə nəzarət etmiş və şiələrin işini səliqə-səhmana salmışdır. İmam Məhdi əleyhissəlamdan ona çoxlu məktub yetişmiş, o isə həmin məktubları öz sahiblərinə (məktub yazıb cavabını gözləyən şəxslərə) çatdırmışdır. Nəhayət, hicrətin üç yüz dörd, ya da üç yüz beşinci ilində vəfat etmişdir.[6] O, ölümündən qabaq vəfat edəcəyi tarixi müəyyən etmiş və müəyyən etdiyi vaxtda da vəfat etmişdir.[7]

---

[1] Əl-Qeybət, səh.217.
[2] Əl-Qeybət, səh.219.
[3] Əl-Qeybət, səh.219–220.
[4] Əl-Qeybət, səh.220.
[5] Əl-Qeybət, səh.221.
[6] Əl-Qeybət, səh.223.
[7] Əl-Qeybət, səh.222.

## 3. Əbülqasim Hüseyn İbn Ruh Nobəxti

Məhəmməd ibn Osmanın həyatının son günlərində bir dəstə şiə onun yanına gedir. O deyir: "Mən vəfat etdikdən sonra mənim yerimə İmamın nümayəndəsi Əbülqasim Hüseyn ibn Ruh Nobəxti olacaq. Bundan sonra ona müraciət edin və işlərinizdə ona etibar edin."[1]

Hüseyn ibn Ruh ikinci naibin ən yaxın adamlarından olmuş və Məhəmməd ibn Osman (ikinci naib) özündən sonra onun naib olması üçün əvvəldən zəmin yaradır, şəri vergiləri təhvil vermək üçün şiələrə ona müraciət etməyi göstəriş verirdi. O, Məhəmməd ibn Osman ibn Səidlə şiələr arasında bir vasitə idi.[2] Hüseyn ibn Ruh şiə məzhəbinin əhkamına dair "Ət-Tədib" adlı bir kitab yazmışdı. Yazdığı bu kitaba öz münasibətlərini bildirmək məqsədilə onu Qum fəqihlərinə göndərir. Onlar bu kitabı nəzərdən keçirdikdən sonra ona məktub yazıb bildirirlər ki, bir məsələdən başqa bütün məsələlər şiə fiqhinə uyğundur.[3] Hüseyn ibn Ruhla bir dövrdə yaşamış bəzi şəxslər onun düşüncə və istedadını tərifləyərək demişlər: "İstər onunla müvafiq olan, istərsə də müxalif olan şəxslərin dediyinə əsasən, Hüseyn ibn Ruh dünyanın ən ağıllı adamlarından biridir."[4]

İmam Məhdi əleyhissəlamın üçüncü nümayəndəsi Hüseyn ibn Ruh Nobəxti Abbasi xəlifəsi Müqtədirin hakimiyyəti dövründə beş il həbsdə olmuş, üç yüz on yeddinci ildə azad edilmişdir.[5] İyirmi bir il nümayəndəlikdən sonra hicrətin üç yüz iyirmi altıncı ilində vəfat etmişdir.[6]

## 4. Əbülhəsən Əlİ İbn Məhəmməd Səməri

İmam Məhdi əleyhissəlamın göstərişinə[7] və üçüncü nümayəndə Hüseyn ibn Ruh Nobəxtinin vəsiyyətinə əsasən, ondan sonra Əli ibn Məhəmməd Səməri İmamın xüsusi nümayəndəsi təyin olunaraq şiələrin başçısı seçilir.[8] Səməri İmam Həsən Əskəri əleyhissəlamın səhabələrindən olmuşdur.[9] O, vəfat etdiyi üç yüz iyirmi doqquzuncu ilə qədər İmam Məhdi əleyhissəlamın xüsusi nümayəndəsi vəzifəsində çalışmışdır. Hüseyn ibn Ruh vəfat etməzdən bir neçə gün əvvəl İmam Məhdi əleyhissəlamdan aşağıdakı məzmunda ona bir məktub gəlir: *"Bismillahir-rəhmanir-rəhim! Ey Əli ibn Məhəmməd Səməri! Allah-taala sənin vəfatından mömin qardaşlarına əcr əta etsin. Sən altı gündən sonra vəfat edəcəksən. İşlərini səliqə-səhmana sal və heç kəsi öz yerinə canişin təyin etmə! Böyük qeyb dövrü çatıb və mən bir də Allahın icazə verdiyi vaxt zühur edəcəyəm. Mənim zühurum uzun müddət keçdikdən, qəlblər sərtləşdikdən, yer üzündə zülm və haqsızlıq baş alıb getdikdən sonra olacaq. Şiələrim arasında məni görmək (mənim xüsusi nümayəndəm olması)*

---

[1] Əl-Qeybət, səh. 226–227.
[2] Əl-Qeybət, səh. 224, 225, 227.
[3] Əl-Qeybət, səh.240.
[4] Biharül-ənvar, c.51, səh.356.
[5] On ikinci imamın qeybə çəkilməsinin siyasi tarixi. səh.199.
[6] Əl-Qeybət, səh.238.
[7] Ə'lamül-vəra, səh.445.
[8] Əl-Qeybət, səh.242.
[9] Tarixül-qeybətis-suğra, səh.412.

*iddasını edənlər olacaq. Süfyaninin qiyamından və göy sədasının eşidilməsindən*[1] *qabaq kim belə iddia edərsə, bilin ki, o, yalançıdır və dedikləri iftiradır (böhtandır). Allahdan başqa heç bir qüdrət və qüvvə yoxdur."*[2]

Məktub gəldikdən düz altı gün sonra Əbülhəsən Səməri vəfat edir.[3] Vəfat etməzdən qabaq ondan soruşurlar ki, səndən sonra İmamın nümayəndəsi kimdir? O isə cavab verir ki, mənim kimisə nümayəndə təyin etməyə icazəm yoxdur.[4]

Əbülhəsən Səmərinin vəfatından sonra şiə tarixində "böyük qeyb dövrü" adı ilə məşhur olmuş yeni bir mərhələ başlayır. Gələn səhifələrimizdəki bəhslər də məhz bu barədə olacaq.

## İmam Məhdi əleyhissəlamın xüsusi nümayəndələrinin əsas vəzifə və fəaliyyətləri

On ikinci İmamın özü üçün nümayəndə və səfir təyin etməsi həqiqətdə vəkillik əlaqəsinin davamı idi. Bu əlaqə doqquzuncu İmamın dövründə yaranmış, İmam Əliyyən-Nəqi (əleyhissəlam) və İmam Həsən Əskəri əleyhissəlamın dövründə daha genişlənmiş, İmam Məhdi əleyhissəlamın dövründə isə özünün son mərhələsinə çatmışdır. İmam Məhdi əleyhissəlamın xüsusi nümayəndəlirinin əsas vəzifə və fəaliyyətlərini aşağıdakı mərhələlərdə konkretləşdirmək olar.

## 1. İmam Məhdi əleyhissəlamın adını və yerini gizli saxlamaq

Kiçik qeyb dövründə İmam Məhdi əleyhissəlamın görünməsi xüsusi naiblər və bəzi şiələr üçün mümkün olub və arabir görünsə də[5] bir sıra siyasi çətinliklər üzündən dörd naibin heç birinin öz dövründə o Həzrətin adını çəkməyə və onun yerini bütün camaata bildirməyə ixtiyarı yox idi. Çünki əks təqdirdə İmam üçün hökumət tərəfindən təhlükə yaranardı. İmamın ad və yerinin gizli saxlanılması siyasəti o Həzrətin öz göstərişi əsasında icra olunurdu. Bir dəfə İmamdan bu barədə heç bir sual olunmadan aşağıdakı məzmunda ikinci nümayəndə Məhəmməd ibn Osmana bir məktub gəlməsi də, bu məsələni təsdiqləyir: "(Mənim) adımı soruşanlar bilməlidirlər ki, sükut etsələr, onları Cənnət, danışsalar, Cəhənnəm gözləyir. Əgər onlar mənim adımı bilsələr, onu hamıya deyər, yerimi bilsələr hamıya göstərərlər."[6]

Həmçinin, ikisi də İmamların ən yaxın səhabə və səmimi dostlarından olan Abdullah ibn Cəfər Himyəri və Əhməd ibn İshaq Əşəri bir gün (birinci nümayəndə) Osman ibn Səidlə görüşərkən ondan "İmam Həsən Əskəri əleyhissəlamın canişinini görməsi" barədə soruşurlar. Osman ibn Səid müsbət cavab verir. Onun adını soruşduqda isə o, adı deməkdən imtina edib buyurur: "Bu barədə soruşmaq sizə haramdır. Özü də bunu mən demirəm. Çünki hansısa halal şeyi haram, haramı isə halal etməyə mənim ixtiyarım yoxdur. Bunu (İmamın adını soruşmağın qadağan

---

[1] Süfyani adlı bir şəxsin qiyam edəcəyi və göy sədasının eşidiləcəyi İmam Məhdi əleyhissəlamın zühur əlamətlərindəndir. Bu nişanələr zühurdan qabaq baş verməlidir.

[2] Əl-Qeybət, səh. 242–243.

[3] Əl-Qeybət, səh.243.

[4] Əl-Qeybət, səh.242.

[5] Əl-Qeybət, səh.222, 246.

[6] Əl-Qeybət, səh.222.

olunmasını) onun özü buyurmuşdur. Çünki Abbasi hökuməti elə bilir ki, İmam Həsən Əskəri (əleyhissəlam) vəfat etmiş, özündən sonra isə heç bir övladı qalmamışdır. Buna görə də, onlar İmam Əskəri əleyhissəlamın əmlakını heç onun vərəsəsi olmayanlar (Cəfər Kəzzab və anası) arasında bölüşdürdülər. İmam bu məsələ barədə sükut və səbr ixtiyar etmişdir. İndi İmamın ailəsi ilə əlaqə saxlamağa, yaxud onlardan bir şey soruşmağa heç kəsin cürəti yoxdur. Əgər İmamın adı bəlli olarsa, onda o, hökumət tərəfindən axtarışda olar. Çəkinin, çəkinin, Allahı yadınıza salın və bu cür məsələlərdən uzaq olun."[1]

İmam Məhdi əleyhissəlamın üçüncü naibi Əbülqasim Hüseyn ibn Ruh Nobəxtinin dövründə şiələrin seçilmiş şəxslərindən olan Əbu Səhl Nobəxtidən soruşurlar ki, nəyə görə bu vəzifəyə (nümayəndəliyə) sən yox, Hüseyn ibn Ruh seçildi? O cavab verir ki, onu bu vəzifəyə təyin edənlərin özləri daha yaxşı bilirlər. Mənim işim ancaq müxalif düşmənlərlə mübahisə və müzakirə etməkdir. Əgər mən də Hüseyn ibn Ruh kimi İmamın yerini bilsəydim, ola bilərdi ki, çətinliyə düşəndə onun yerini göstərəm. Ancaq İmam, Əbülqasim Hüseyn ibn Ruhun əbasının altında gizlənsə, onu (Hüseyni) tikə-tikə doğrasalar da, əbasını qaldırmaz.[2]

## 2. Vəkillərə (nümayəndələrə) rəhbərlik etmək

Qeyd etdiyimiz kimi İmam Məhdi əleyhissəlamın qeyb dövründə müxtəlif yerlərdəki nümayəndələri şiə mərkəzlərində fəaliyyət göstərirdilər. Bu nümayəndələrin onuncu və on birinci İmamın dövründə əsasən, birinci (əsas) nümayəndənin vasitəsilə İmamlarla əlaqə saxlamasına baxmayaraq, onlar İmamın özü ilə də bilavasitə əlaqə saxlaya bilirdilər. Kiçik qeyb dövründə isə bu nümayəndələrin on ikinci İmamla adi surətdə əlaqəsi kəsilir, onlar da məcbur olub İmamın xüsusi nümayəndəsinin nəzarəti altında fəaliyyət göstərməli olurlar. Belə ki, onlar İmam Məhdi əleyhissəlama çatacaq məktub, sual və şəri vergiləri İmamın xüsusi nümayəndəsinin vasitəsilə ona çatdırırdılar. Bundan öncə də qeyd etdiyimiz kimi Əbu Cəfər Məhəmməd ibn Osmanın nümayəndə olduğu müddət ərzində Bağdad şəhərində onun xüsusi nəzarəti altında on nəfər nümayəndə fəaliyyət göstərirdi.[3]

İmamın xüsusi nümayəndələri şəri vergiləri təhvil aldıqda qəbz vermir, lakin şiələr digər nümayəndələrdən qəbz tələb edirdilər. Şeyx Tusinin qeyd etdiyinə görə (ikinci nümayəndə) Məhəmməd ibn Osmanın ömrünün son günlərində onun göstərişi ilə bir nəfər İmama məxsus olan şəri vergisini (üçüncü nümayəndə) Hüseyn ibn Ruha verib ondan qəbz tələb edirmiş. Hüseyn ibn Ruh onun bu hərəkətindən şikayətləndikdə Məhəmməd ibn Osman Hüseyndən qəbz tələb edilməməsi barədə əmr edərək buyurmuşdur: "Əbülqasimə nə verirsinizsə, (yəqin bilin ki,) mənə çatır (və bu barədə şəkk etməyə dəyməz.)"[4]

---

[1] Əl-Qeybət, səh.146, 219.
[2] Əl-Qeybət, səh.240.
[3] Əl-Qeybət, səh.225.
[4] Əl-Qeybət, səh. 225–226.

## 3. İmama məxsus olan şəri vergilərin toplanıb paylanması

İmam Məhdi əleyhissəlamın xüsusi naiblərinin hər biri öz növbəsində şiələrdən İmama məxsus olan (İmama çatacaq) şəri vergiləri bilavasitə, yaxud da yerli nümayəndələrin vasitəsilə təhvil alıb bir yolla İmamın özünə çatdırır, ya da İmamın göstərişi ilə lazımi yerlərə xərcləyirdilər.

İmam Həsən Əskəri əleyhissəlamın şəhid olduğu ilk günlərdə Qum və İranın başqa şəhərlərindən bir neçə şiə Samirra şəhərinə gəlib İmamın şəhid olduğunu eşidirlər. Onlar öz yaşadıqları məntəqənin şiələrinin şəri vergilərini yığıb İmam üçün gətirmişdilər. İmam şəhid olduğu üçün onlar İmamın canişinini xəbər aldılar. Bəziləri İmam Əskəri əleyhissəlamın qardaşı Cəfər Kəzzabı göstərib deyirlər ki, İmamın canişini budur. Qumdan gəlmiş şiələr onun həqiqətən İmam olub-olmamasını öyrənmək üçün həmişəki kimi ondan gətirilmiş pulların nişanələrini soruşurlar. Cəfər onların sualına cavab verə bilmədikdə, onlar da pullarını ona verməkdən imtina edərək məcbur olub öz ölkələrinə qayıtmaq məqsədilə Samirradan çıxırlar. Samirradan kənarda İmam Məhdi əleyhissəlamın gizli qasidi yetişib onları İmamın hüzuruna aparır. İmam pulların bütün nişanələrini deyib onları təhvil aldıqdan sonra buyurdu: “Bundan sonra Samirraya heç nə gətirməyin. Mən Bağdadda bir nəfər təyin edərəm, siz də pulları ona verərsiniz. Bütün məktubları da ona çatdıraram.”[1]

Bu hadisədən sonra İmam Məhdi (əleyhissəlam) Osman ibn Səidi xüsusi nümayəndə təyin edir, o da Bağdadda öz vəzifəsini yerinə yetirməyə başlayır.

## 4. Fiqhi sual və əqidəvi müşkülata cavab vermək

İmam Məhdi əleyhissəlamın xüsusi nümayəndələrinin fəaliyyəti təkcə qeyd etdiyimiz bəndlərlə qurtarmır. Onlar eyni zamanda müxtəlif şəri və fiqhi sullara cavab verir, əqidəvi müşkülatı həll edir və müxaliflərin irəli sürdüyü şübhələri aradan qaldırırdılar. Beləliklə də, onlar şiə əqidəsinin zəifləməsinin qaşısını alırdılar. İmamın xüsusi nümayəndələri bu vəzifələri o Həzrətin təlimindən istifadə edərək öz yüksək elmləri sayəsində layiqincəsinə yerinə yetirirdilər. Bu nümayəndələrin həyatına qısa bir baxış onların bu sahədəki səy və uğurlarını çox yaxşı şəkildə oxucuya çatdırır. Onlar bir tərəfdən İmamın olmamasına dair yürüdülmüş iddiaları dəf edir, bu yolda bəzi vaxtlar məcbur olub İmamla gizli əlaqələrinin üstünü açır,[2] bəzi vaxtlar isə bu barədə İmamdan məktub gələrək o Həzrətin özü onların köməyinə gəlirdi.[3] Digər tərəfdən də, şiələrin müxtəlif şəri və fiqhi suallarını İmama göndərib onların cavabını öyrənir, sonra da camaata çatdırırdılar. Nümunə olaraq İmamın Məhəmməd ibn Osmana yazdığı və onda İshaq ibn Yəqubun suallarına cavab verdiyi məktubu qeyd etmək olar.[4] Həmçinin, İmamın Qum camaatının nümayəndəsi Məhəmməd ibn Abdullah ibn Cəfər Himyərinin suallarına verdiyi geniş məktubu da qeyd etmək olar.[5]

Qeyd etdiklərimizdən əlavə, bəzi vaxtlar xüsusi nümayəndələr müxaliflərlə elmi mübahisələr edib onları məhkum edir və verdikləri cavabların İmamdan

---

[1] Kəmalüddin, səh. 476-479.
[2] Kəmalüddin, səh. 440–441.
[3] Əl-Qeybət, səh. 176–177.
[4] Ə’lamül-vəra, səh. 452–453.
[5] Əl-Qeybət, səh.229–236.

öyrəndiklərini təkid edirdilər. Məsələn, Hüseyn ibn Ruh bir mübahisə zamanı İmam Hüseyn əleyhissəlamın şəhadətinə dair şübhə irəli sürmüş bir müxalifə çox gözəl cavab verir. Onun səhərisi gün isə bu cavabın onu öz şəxsi fikrinə əsasən, verilməsini güman edən bir şiəyə deyir: "Göydən yerə düşərək quşlara yem olmağım, yaxud şiddətli bir küləyin məni uzaqlara aparıb atması mənim üçün Allahın dinində şəxsi nəzərimi söyləməkdən daha yaxşıdır. Dünən eşitdiklərinin hamısı Allahın hüccətinin (İmam Məhdi əleyhissəlamın) buyurduqlarıdır." Həmçinin, o, əqaid elmində öz dövrünün görkəmli şəxslərindən birinin İmam Museyi-Kazim əleyhissəlamın şəhadətinin səbəbi, məsum İmamların qılıncla, yoxsa zəhərlə öldürülməsi və eləcə də, xanım Zəhranın (səlamullahi əleyha) Peyğəmbərin (səlləllahu əleyhi və alih) digər qızlarından üstün olmasının səbəbini soruşduqda, ona aydın və qaneedici cavab vermişdir. Belə ki, onun bu cavabı həmin şəxsi heyran qoymuş, nəticədə o, "bu barədə bundan gözəl və qısa cavab eşitməmişəm" demişdir.[1]

## 5. İmamın naibi olmaq haqda iddia edənlərlə mübarizə

Qulat və İmamın nümayəndəsi olub onunla camaat arasında bir vasitə olmaq haqda iddia edənlərə qarşı mübarizəni də, xüsusi nümayəndələrin fəaliyyəti sırasına daxil etmək lazımdır. İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatından danışarkən qeyd etdik ki, yolunu azmış və bir sıra məqampərəst şəxslər İmamları Allah səviyyəsinə çatdırmaq kimi əsassız məsələləri irəli sürməklə özlərini onların nümayəndəsi, onların bəndələr arasındakı vasitəçisi adlandıraraq İmamın adı ilə camaatdan xüms və bu kimi şəri vergiləri təhvil alırdılar. Təbii ki, bu məsələ də, şiənin adını ləkələyərək İmamlar üçün bir sıra çətinliklər yaradırdı. Kiçik qeyb dövründə bunlardan əlavə, özlərini yalandan İmamın xüsusi nümayəndəsi adlandıran şəxslər də meydana çıxır. Onlar İmama məxsus olan əmlakda yersiz təsərrüf edir, fiqhi və əqidəvi məsələlərdə azdırıcı və həqiqətdənkənar sözlər deyirdilər. Belə olduqda İmamın xüsusi nümayəndələri İmamın öz göstərişi ilə onlarla mübarizə etməyə başladılar. Bəzi vaxtlar onların qeyri-məqbul və lənətlənmələrinə dair İmamdan məktublar da gəlirdi. Əbu Məhəmməd Şərii, Məhəmməd ibn Nəsir Nümeyri, Əhməd ibn Hilal Kərxi, Əbu Tahir Məhəmməd ibn Əli ibn Bilal, Hüseyn ibn Mənsur Həllac və Məhəmməd ibn Şəlməğani bu cür şəxslərdən olmuşlar.[2] Adını sonda qeyd etdiyimiz Şəlməğani əvvəllər şiə fəqihlərindən olmuş və hətta "Təklif" adlı bir kitab da yazmışdı. Lakin sonradan yolunu azıb ifrat dərəcəsinə vararaq küframiz iddialar irəli sürmüşdür. O cümlədən "Ruhun başqa bədənə keçməsi" nəzəriyyəsinə təkid edərək deyirdi ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) ruhu (ikinci nümayəndə) Məhəmməd ibn Osmanın, Əli əleyhissəlamın ruhu (üçüncü nümayəndə) Hüseyn ibn Ruhun, xanım Fatimeyi-Zəhranın (səlamullahi əleyha) ruhu isə Məhəmməd ibn Osmanın qızı Ümmü-Külsümün bədəninə keçmişdir. Hüseyn ibn Ruh onun bu fikrini kafirlik əqidəsi hesab etmiş, onu məsihilərin əqidələrindən sayaraq Şəlməğaninin batil fikirlərini öz tayfası arasında ifşa edərək onu rüsvay edir. Şəlməğaninin ziyankar təbliğatı nəticəsində hicrətin üç yüz on ikinci ilinin zilhiccə ayında İmam Məhdi

[1] Əl-Qeybət, səh. 238–239.
[2] Əl-Qeybət, səh.244.

əleyhissəlamdan onun kafir və mürtədd (dindən çıxmış) olması haqqında Hüseyn ibn Ruha bir məktub gəlir. Nəhayət hicrətin üç yüz iyirmi üçüncü ilində Şəlməğani öldürülür.[1]

## Böyük qeyb dövrü

Dördüncü naibin ölməsi ilə İmam Məhdi əleyhissəlamın böyük qeyb dövrü başlayır. Bu dövrdə müctehidlik səlahiyyətinə malik olan alimlər İmamın ümumi nümayəndələri hesab olunur. Ötən səhifələrdə qeyd etdik ki, xüsusi nümayəndəlik o idi ki, İmam Məhdi (əleyhissəlam) özü müəyyən bir şəxsi nümayəndə təyin edir, ancaq ümumi nümayəndə odur ki, İmam nümayəndə üçün lazım olan ümumi şəraiti deyir və bütün dövrlər boyu həmin şəraitə malik olan şəxslər (alimlər) də, İmamın nümayəndəsi olaraq şiələrin dini və dünyəvi işlərdə müraciət obyektinə çevrilir. Məsum İmamlar, xüsusən də, İmam Məhdi əleyhissəlamın özü bir çox rəvayətlərdə bu şəraiti müəyyənləşdirmiş və müsəlmanları böyük qeyb dövründə həmin şəraitə malik olan alimlərə müraciət edərək onlara tabe olmağı əmr etmişdir. İndi həmin rəvayətlərdən ikisini oxucuların nəzərinə çatdırırıq:

**1)** Ömər ibn Hənzələ deyir: "İmam Sadiq əleyhissəlamdan soruşdum ki, əgər iki nəfər şiənin borc, yaxud irs məsələsində mübahisələri olsa, bu məsələni aydınlaşdırmaq üçün dövlət qazısına müraciət edə bilərlərmi? İmam buyurdu: "Haqla batili ayırd etmək üçün onlara (dövlət qazılarına) müraciət edən şəxs həqiqətdə zalıma müraciət etmiş olur. Onun hökmü ilə əlinə gələn bütün şeylər hətta onun öz haqqı da olsa belə, haramdır. Çünki onu zalımın hökmü ilə ələ gətirmişdir. Halbuki, Allah-taala zalıma müraciət etməyi qadağan edərək buyurmuşdur: ***"Onlar zalım məhkəməsinə müraciət etmək istəyirlər. Halbuki, onlara zalıma müraciət etməmələri əmr olunmuşdur."***[2] Soruşdum ki, bəs onda nə etsinlər? İmam buyurdu: "Fikir verməlidilər ki, bizim rəvayətlərimizi kim söyləmişsə, halal-haramımıza nəzər salıb hökmləri tanımışsa, onu hakim təyin etməlidirlər. Çünki mən onu sizin üçün hakim təyin etmişəm. Əgər o, bizim buyurduğumuza əsasən hökm versə, lakin kimsə onun hökmünü qəbul etməsə, Allahın hökmünü yüngül tutmuş və bizi inkar etmişdir. Bizi inkar edən isə Allahı inkar etmişdir. Bu isə eynilə Allaha şərik qoşmağa bənzər..."[3]

İmam Sadiq əleyhissəlamın bu əmri ümumi bir əmr olub bütün müctehidlik səlahiyytinə malik olan alimlərə şamil olur. Əgər İmam Sadiq (əleyhissəlam) kiçik bir məsələdə mübahisə yaranarkən onun həllində zalım hakimə müraciət etməyə razı deyilsə, şübhəsiz ki, müsəlmanların digər işlərinə də zalımların nəzarət etməsinə razı olmaz. Buna görə də, o Həzrət bu kimi işləri ədalətli şiə müctehidlərinin öhdəsinə buraxmışdır.

**2)** İshaq ibn Yəqub deyir: "(İkinci nümayəndə) Məhəmməd ibn Osmandan məktubumu İmam Məhdi əleyhissəlama çatdırmasını istədim. Məktubda qarşılaşdığım çətin məsələləri yazmışdım. İmam məktuba öz xətti ilə cavab yazmışdı.

[1] Əl-Qeybət, səh. 248–254.
[2] "Nisa" surəsi, ayə 60.
[3] Üsusli-kafi, c.1, səh.67.

Yazdığım məsələlərdən biri də bu idi ki, (böyük) qeyb dövründə mübahisəli məsələlərdə kimə müraciət edək? İmam sualımın cavabında belə yazmışdı: "Qarşılaşdığınız məsələlərdə bizim hədisləri söyləyənlərə müraciət edin. Onlar mənim sizə olan hüccətim, mən isə Allahın (sizə olan) hüccətiyəm."[1]

## Həzrət Məhdi (əleyhissəlam) şiə mənbələrində

İslam Peyğəmbəri Həzrət Məhəmməd (səlləllahu əleyhi və alih) və həmçinin, digər məsum İmamlar Həzrət Məhdinin (səlləllahu əleyhi və alih) anadan olması, qeybə çəkilməsi, zühur edərək cahanşümul qiyamı və sair xüsusiyyətləri barədə çoxlu hədislər buyurmuşlar. Hələ İmam Məhdi (əleyhissəlam) dünyaya gəlməzdən neçə il əvvəl onun Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsindən, Fatimə (səlamullahi əleyha) övladlarından və İmam Hüseyn əleyhissəlamın nəslindən olacağı, öz cahanşümul qiyamı ilə bütün dünyada haqq-ədalət bərpa edəcəyi barədə xəbər verilmişdir. Bu barədə Peyğəmbər (səlləllahu əleyhi və alih) və İmamlardan söylənilmiş rəvayətlərin sayı həddən artıq çoxdur. Belə ki, İslami mövzular sahəsində çox az məsələ barədə bu qədər rəvayət söylənilmişdir. İndi isə biz ilk növbədə Həzrət Məhdi (əleyhissəlam) barədə İmamların buyurduğu hədisləri və eləcə də, şiə alimlərinin bu sahədə yazdığı kitabların adını qeyd edəcək, sonra isə sünni məzhəbinin bu barədə Peyğəmbərdən (səlləllahu əleyhi və alih) söylədikləri hədislərə və bu sahədə yazdığı kitablara nəzər yetirəcəyik.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, İmamların hər birinin dövrünün özünəməxsus xüsusiyyətləri olmasına və İmamların diqqətinin əsasən, həmin xüsusiyyətlərə cəlb olunmasına baxmayaraq Həzrət Məhdi əleyhissəlamın məsələsi daima onların nəzərində olmuş və onlar yeri gəldikcə bu məsələyə toxunmuşlar. İndi İmamların bu məsələ barədə buyurduğu hədislərin qısaca siyahısını oxucuların diqqətinə çatdırırıq:

**1)** Əmirəl-möminin Əli (əleyhissəlam) – 51 hədis;
**2)** İmam Həsən (əleyhissəlam) – 5 hədis;
**3)** İmam Hüseyn (əleyhissəlam) – 14 hədis;
**4)** İmam Zeynül-abidin (əleyhissəlam) – 11 hədis;
**5)** İmam Baqir (əleyhissəlam) – 63 hədis;
**6)** İmam Sadiq (əleyhissəlam) – 124 hədis;
**7)** İmam Museyi-Kazim (əleyhissəlam) – 6 hədis;
**8)** İmam Riza (əleyhissəlam) – 19 hədis;
**9)** İmam Cavad (əleyhissəlam) – 6 hədis;
**10)** İmam Əliyyən-Nəqi (əleyhissəlam) – 6 hədis;
**11)** İmam Həsən Əskəri (əleyhissəlam) – 22 hədis.[2]

İndi isə nümunə olaraq bir neçə hədisi nəzərdən keçirək:

**1)** Əmirəl-möminin Əli (əleyhissəlam) buyurmuşdur: *"Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur ki, dünyada zülm və haqsızlıq baş alıb getdiyi zaman*

---

[1] Əl-Qeybət, səh.177.

[2] Dünya ədalətçisi, səh. 74–82. Peyğəmbərin (səlləllahu əleyhi və alih) bu barədə buyurduğu hədisləri sünnilərin Həzrət Məhdi (əleyhissəlam) barədə nəql etdikləri hədislər bölməsində danışacağıq.

*Hüseyn əleyhissəlamın nəslindən bir nəfər ümmətimə rəhbərlik edib haqq-ədaləti barpa etməyənə qədər dünyanın axırı gəlib çatmaz."*[1]

Əli (əleyhissəlam) "Nəhcül-bəlağə" kitabında bu barədə çox söhbət etmişdir. O cümlədən: "Dünya eynilə südünü sağmağa imkan verməyən (və balasına tərəf qaçan), yalnız sakitləşdikdən sonra bizə tərəf üz çevirən gic dəvəyə bənzəyir.[2]

Allah-taala Quranda buyurmuşdur ki, ***Biz yer üzündə zəif düşüb əzilənlərə bol nemət vermək, onları yer üzünün (rəhbər və) varisi etmək istəyirik."***[3]

**2)** İmam Hüseyn (əleyhissəlam) buyurmuşdur: *"Əgər dünyanın sonuna təkcə bir gün qalsa, Allah-taala həmin günü, mənim nəslimdən bir kişinin qiyam edib zülmlə dolu olan dünyanı haqq-ədalətlə dolduracağına qədər uzadar. Mən Peyğəmbərin (səlləllahu əleyhi və alih) bu cür buyurduğunu eşitmişəm."*[4]

**3)** İmam Cavad (əleyhissəlam) Əbdüləzim Həsəniyə buyurmuşdur: *"Bizim qiyam edəcək şəxsimiz elə gözlənilən Məhdi əleyhissəlamın özüdür. Onun qeybdə olduğu müddət ərzində zühurunu gözləməli, zühur etdikdən sonra isə əmrinə tabe olmaq lazımdır. And olsun Məhəmmədi (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçmiş və İmaməti bizim ailəyə məxsus etmiş Allaha ki, əgər dünyanın sonuna təkcə bir gün də qalsa, Allah həmin günü Məhdi əleyhissəlamın zühur edib zülmlə dolu olan dünyanı ədalətlə dolduracağına qədər uzadar. Allah Musa peyğəmbərin işini bir gecədə həll etdiyi kimi onun da işini bir gecədə həll edər. Musa (əleyhissəlam) həyat yoldaşı üçün od gətirməyə getmiş, lakin Peyğəmbər olaraq geri qayıtmışdır."*

Sonra İmam Cavad (əleyhissəlam) əlavə edib buyurdu: *"Şiələrimiz üçün ən gözəl iş onun (Məhdi əleyhissəlamın) zühur və qiyamını gözləməkdir."*[5]

## İmam Məhdi (əleyhissəlam) doğulmazdan qabaq onun haqqında yazılmış kitablar

Həzrət Məhdi əleyhissəlamın qeybə çəkilməsi, daha sonra isə qiyam edəcəyi İslam aləmində o qədər qəti olmuşdur ki, onun haqqında çoxlu sayda kitablar yazılmış, hətta bu kitabların bəzilərinin yazılma tarixi o Həzrətin doğulmasından qabaqkı tarixə aiddir. Məsələn, şiə məzhəbinin görkəmli hədisçilərindən biri olmuş Həsən ibn Məhbub Zərrad (vəfatı hicri 224-cü ildə) böyük qeyb dövründən yüz il qabaq "Əl-Məşixə" kitabını yazmış və həmin kitabda İmam Məhdi əleyhissəlamın qeybə çəkiləcəyi haqqında olan hədisləri qeyd etmişdir.[6]

Mərhum Təbərsi yazır ki, şiə hədis söyləyənləri İmam Baqirlə (əleyhissəlam) İmam Sadiq əleyhissəlamın zamanında qeyb dövrünü vurğulayan hədisləri öz əsərlərində qeyd etmişlər.[7]

Həmçinin, İmamların bəzi səhabələri İmam Məhdi (əleyhissəlam) və onun qiyamı barədə kitab yazmışlar. O cümlədən İbrahim ibn Saleh Ənmati[1] (İmam Baqir

---

[1] Dəlailül-imamət, səh.240.
[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c.19, səh.29.
[3] "Qəsəs" surəsi, ayə 6.
[4] Kəmalüddin, c.1, səh.318.
[5] Kəmalüddin, c.2, səh.377.
[6] Ə'lamül-vəra, səh. 443–444.
[7] Ə'lamül-vəra, səh.443.

əleyhissəlamın səhabəsi), Həsən ibn Məhəmməd ibn Səmaə[2] (İmam Kazim əleyhissəlamın səhabəsi), Məhəmməd ibn Həsən ibn Cümhur[3] (İmam Riza əleyhissəlamın səhabəsi), Əli ibn Məhziyar[4] (İmam Cavad əleyhissəlamın səhabəsi) və Fəzl ibn Şazan Nişaburini[5] (İmam Riza (əleyhissəlam), İmam Cavad (əleyhissəlam) və İmam Əliyyən-Nəqi əleyhissəlamın səhabəsi) qeyd etmək olar.

## İmam Məhdi (əleyhissəlam) sünni mənbələrində

Qeyd etdiyimiz kimi Həzrət Məhdi əleyhissəlama və onun zühuruna əqidə bəsləmək təkcə şiə məzhəbinə aid deyil, eyni zamanda sünni məzhəbinin görkəmli hədisçiləri də, o Həzrətə aid olan hədisləri səhabə və tabeinlər vasitəsilə Peyğəmbərdən (səlləllahu əleyhi və alih) rəvayət etmiş və öz kitablarında qeydə almışlar. Belə ki, şiə kitabları bir yana, İslamın digər məzhəblərində (Hənəfi, Şafei, Maliki və Hənbəli məzhəblərində) yazılmış kitablar da, Peyğəmbərin (səlləllahu əleyhi və alih) Həzrət Məhdi (əleyhissəlam) və onun zühuru barədə buyurduğu hədislərlə doludur. Bir sıra böyük tədqiqatçıların araşdırmalarına əsasən, sünni məzhəbinin hədisçiləri Həzrət Məhdi əleyhissəlama aid olan hədisləri Peyğəmbərdən (səlləllahu əleyhi və alih) otuz üç səhabə vasitəsilə öz kitablarında qeyd etmişlər.[6] Sünni məzhəbinin böyük alimlərindən yüz altısı Həzrət Məhdi əleyhissəlamın zühuruna aid olan hədisləri öz kitablarında qeyd etmiş,[7] onlardan otuz iki nəfəri isə bu barədə ayrıca kitab yazmışdır.[8] Əhməd ibn Hənbəlin "Əl-Müsnəd" (vəfatı – hicri 241-ci ildə) və Buxarinin (vəfatı – hicri 256-cı ildə) "Səhih" kitabları sünni məzhəbinin ən mötəbər kitablarından olub Həzrət Məhdi əleyhissəlamın doğulmasından qabaq yazılmış və həmin kitablarda o Həzrətə aid olan hədislər qeyd edilmişdir.[9] Əhməd ibn Hənbəlin qeyd etdiyi hədislər sırasında aşağıdakı hədis də vardır: "Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: *"Əgər dünyanın sonuna bircə gün də qalsa, Allah-taala həmin gün mütləq bizim nəsildən bir nəfəri üzə çıxarar, o da dünyanı zülmlə dolduğu kimi haqq-ədalətlə doldurar."*[10]

Peyğəmbərin (səlləllahu əleyhi və alih) Həzrət Məhdi (əleyhissəlam), onun xüsusiyyət və nişanələrinə dair buyurduğu hədislər qədim sünni mənbələrində o qədər çoxdur ki, sünni hədisyazar və hədis əzbərləyənləri bu hədislərin təvatür həddində olduğunu bildirmişlər.[11] Qısa bir araşdırmaya əsasən, sünni məzhəbinin on yeddi görkəmli alimi Həzrət Məhdi əleyhissəlama aid olan hədislərin təvatür həddinə

---

1 Fihrist, səh.14.
2 Fihristi-əsmai-müsənnifiş-şiə, səh.11.
3 Əl-Qeybət, səh.284.
4 Fihristi-əsmai-müsənnifiş-şiə, səh.178.
5 Fihristi-əsmai-müsənnifiş-şiə, səh.17.
6 Əmin-amanlıq müjdəsi, səh. 91–92.
7 Əmin-amanlıq müjdəsi, səh. 92–95.
8 Əmin-amanlıq müjdəsi, səh. 95–99.
9 Səhihi-Buxari, c.4, səh.633; Əhməd ibn Hənbəl, Əl-Müsnəd, c.1, səh. 84, 99, 448.
10 Əl-Müsnəd, c.1, səh.99.
11 Hədisin təvatür həddinə çatması o deməkdir ki, həmin hədisi çoxlu sayda hədisçi eyni məzmunla rəvayət etmişdir.

yetişməsini öz kitablarında qeyd etmişlər.[1] Əllamə Şövkani bu hədislərin təvatür həddində olmasını sübut etmək məqsədilə “Ət-Tozihu fi-təvaturi ma caə fil-Müntəzəri vəd-Dəccali vəl-Məsih” adlı ayrıca bir kitab yazmışdır.[2] Yaxşı olar ki, indi nümunə üçün sünni məzhəbinin bir neçə görkəmli aliminin bu barədə buyurduqlarını oxucuların nəzərinə çatdıraq:

**1)** Şövkani yuxarıda adını çəkdiyimiz kitabda Həzrət Məhdi əleyhissəlama aid olan hədisləri qeyd etdikdən sonra deyir: “Bununla məşğul olanlar bilirlər ki, qeyd etdiyimiz bütün hədislər təvatür həddinə çatmışdır. Deməli, bu hədislərin təvatür həddində olmasına yəqin etdik... Bütün bu dediklərimiz bir zərrə iman və düşüncəsi olan şəxslər üçün mənə elə gəlir ki, kifayət edər.”[3]

**2)** Hafiz[4] Əbu Abdullah Gənci Şafei (vəfatı hicri 658-ci ildə) “Əl-Bəyan fi-əxbari Sahibəzzaman” kitabının on birinci fəslində deyir: “Peyğəmbərin (səlləllahu əleyhi və alih) Həzrət Məhdi (əleyhissəlam) barədə buyurduğu hədislər çoxlu ravilər tərəfindən söylənildiyinə görə təvatür həddinə çatmışdır.”[5]

**3)** Görkəmli alim İbn Həcər Əsqəlani Şafei (vəfatı – hicri 852-ci ildə) “Səhihi-Buxari” kitabına yazdığı “Fəth əl-bari” adlı şərh kitabında deyir: “Məhdi əleyhissəlamın bu ümmətdən olması və İsa peyğəmbərin göydən enərək onun arxasında namaz qılacağına dair təvatür həddinə çatmış hədislər vardır.”[6]

**4)** Mömin Şəbəlnəci yazır: “Peyğəmbərdən (səlləllahu əleyhi və alih) söylənilmiş və təvatür həddinə çatmış hədislər göstərir ki, Məhdi (əleyhissəlam) onun nəslindən olub yer üzündə ədaləti bərpa edəcək.”[7]

**5)** Şeyx Məhəmməd Səbban yazır: “Məhdi əleyhissəlamın Peyğəmbər (səlləllahu əleyhi və alih) nəslindən olması və onun qiyam edərək yer üzündə haqq-ədaləti bərpa edəcəyi barədə Peyğəmbərdən (səlləllahu əleyhi və alih) söylənilmiş hədislər təvatür həddindədir.”[8]

**6)** “Əl-Əzhər” universitetinin professoru və “Ət-Tacül-camii lil-üsul” kitabının müəllifi Şeyx Mənsur Əli Nasir yazır: “Keçmiş və müasir alimlər arasında yayılmışdır ki, dünyanın axırında mütləq, Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsindən Məhdi (əleyhissəlam) adlı bir şəxs zühur edəcək. O, bütün İslami ölkələrə hakim olacaq. Müsəlmanların hamısı ona tabe olacaq, o da müsəlmanlarla ədalətlə rəftar edib dini (İslam dinini) möhkəmlədəcək. Sonra Dəccal peyda olacaq. Həzrət İsa (əleyhissəlam) göydən enərək Dəccalı öldürəcək, ya da Dəccalı öldürməkdə Həzrət Məhdi əleyhissəlama kömək edəcək.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) Həzrət Məhdi (əleyhissəlam) barədə buyurduğu hədisləri Peyğəmbərin (səlləllahu əleyhi və alih) bir sıra fəzilətli səhabəsi

---

[1] Əmin-amanlıq müjdəsi, səh. 90–91.

[2] Əmin-amanlıq müjdəsi, səh. 91.

[3] Qayətül-mə’mul fi-şərhit-tacil camii-lil-üsul, c.5, səh.327.

[4] Hafiz o şəxsə deyilir ki, Peyğəmbər sünnəsinə dərindən yiyələnib bu barədə ixtilaflı və müvafiq məsələləri bilsin və hədis söyləyənlərin avtobioqrafiyasından xəbərdar olsun. (Elmül-hədis, c.2, səh.22.)

[5] Müntəxəbül-asar, səh.5.

[6] Fəthəl-bari bişərhi-Səhihi-Burxari, c.6, səh. 493–494.

[7] Nurul əbsar, səh.171.

[8] Nurul-əbsar, səh.140.

rəvayət etmişdir. Əbu Davud, Tirmizi, İbn Macə, Təbrani, Əbu Yəla, Bəzzar, İmam Əhməd ibn Hənbəl və Hakim Nişaburi kimi böyük hədisçilər həmin hədisləri öz kitablarında qeyd etmişlər."[1]

Sünni məzhəbinin ən görkəmli alimlərindən olan İbn Əbil-Hədid bu barədə yazır: "Bütün İslami firqələr bu əqidədədirlər ki, dünyanın və bəşərin İlahi hökmləri icra etmə təklifinin sonu Məhdi (əleyhissəlam) zühur etdikdən sonra yetişəcək."[2]

## "İslam dünyası əlaqələri" təşkilatının bəyanatı

Bu bölməni, Məkkədə yerləşən böyük vəhhabi təşkilatı – "İslam dünyası əlaqələri" təşkilatının yaydığı və bütün İslam aləminin Həzrət Məhdi (əleyhissəlam) məsələsinə inanmasına bir sübut olan rəsmi bəyanatı ilə başa çatdırırıq. Bu bəyanatın mühüm cəhətlərindən biri də odur ki, onda şiə məzhəbi ilə ziddiyyətdə ifrat dərəcəsinə varmış vəhhabilərin də, bu məsələni qəbul etməsi göstərilir. Onlar nə təkcə bu məsələni qəbul edir, hələ üstəlik bu məsələni ciddi müdafiə edərək onu qəti İslami əqidələrdən biri sayırlar. Təbii ki, bu da, bu məsələ haqqındakı hədis və sənədlərin çoxluğundan irəli gəlmişdir. Özü də bu qurum beynəlxalq İslami bir təşkilat kimi fəaliyyət göstərir.

Min doqquz yüz yetmiş altıncı ildə Kenuyadan Əbu Məhəmməd adlı bir şəxs "İslam dünyası əlaqələri" təşkilatına müraciət edərək oradan "Gözlənilən Məhdi əleyhissəlamın zühuru" haqqında bir sual soruşmuşdur. Təşkilatın baş katibi ona yazdığı cavabda vəhhabi məzhəbinin banisi İbn Teymiyyənin də Məhdi (əleyhissəlam) haqqında deyilmiş hədisləri qəbul etdiyini vurğulamış və hazırda Hicazın görkəmli alimlərindən olan beş nəfərin bu barədə hazırladığı kitabçanı ona göndərmişdir. Bu kitabçada Həzrət Məhdi (əleyhissəlam) və onun zühur edəcəyi yerin, yəni, Məkkə şəhərinin adı çəkildikdən sonra deyilir:

... Dünyada fəsad, pozğunluq, zülm və haqsızlıq baş alıb getdikdən sonra Allah-taala onun (Məhdi) vasitəsilə dünyanı haqq-ədalətlə dolduracaq. O, Peyğəmbərin (səlləllahu əleyhi və alih) "Səhih" kitablarında haqqında xəbər verdiyi on iki raşidi xəlifələrinin sonuncusudur. Peyğəmbərin (səlləllahu əleyhi və alih) Məhdi (əleyhissəlam) barədə buyurduğu hədisləri səhabələrin bir çoxu, o cümlədən Osman ibn Əffan, Əli ibn Əbutalib, Təlhə ibn Übeydullah, Əbdürrəhman ibn Ovf, Abdullah ibn Abbas, Əmmar ibn Yasir, Abdullah ibn Məsud, Əbu Sədr Xudəri, Sovban, Qürrə ibn Əyas Məzəni, Abdullah ibn Haris, Əbu Hüreyrə, Hüzeyfə ibn Yəman, Cabir ibn Abdullah, Əbu Əmamə, Cabir ibn Macid, Abdullah ibn Ömər, Ənəs ibn Malik, İmran ibn Hüseyn, Ümmü Sələmə və başqaları rəvayət etmişlər.

Daha sonra əlavə olunur:

İstər Peyğəmbərdən (səlləllahu əleyhi və alih) yuxarıda qeyd etdiyimiz hədislər, istərsə də burada səhabələrin buna dair hədis hökmünü daşıyan şəhadətləri bir çox məşhur İslami kitablarda və Peyğəmbərin (səlləllahu əleyhi və alih) hədislərinin orijinalının qeyd olunduğu sünən, möcəm və müsnədlərdə qələmə alınmışdır. O cümlədən, "Sünəni-Əbi Davud", "Sünəni-Tirmizi", "Sünəni-ibn Macə", "Sünəni-ibn Ömər əd-Dani", "Müsnədi-Əhməd", "Müsnədi-Əbu Yəla", "Müsnədi-Bəzzaz",

---

[1] Ət-Tacul-camii lil-üsul, c.5, səh.310.

[2] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c.10, səh.96.

"Səhihi-Hakim", "Möcəmi-Təbrani", "Möcəmi-Ruyani", "Möcəmi-Dari-Qutni", Əbu Nüeymin "Əxbarül-Məhdi", Xətib Bağdadinin "Tarixi-Bağdad", İbn Əsakirin "Tarixi-Dəməşq" və bir çox başqa kitablarda bu barədə məlumatlar verilmişdir. Bəzi İslam alimləri bu barədə ayrıca kitablar da yazmışlar. Əbu Nüeymin "Əxbarül-Məhdi", İbn Həcər Heytəminin "Əl-Qəvlül-muxtəsər fi-əlamatil-Məhdil muntəzər", Şövkaninin "Ət-Tozihu fi-təvaturi ma caə fil-müntəzəri vəd-Dəccali vəl-Məsih", İdris İraqi Məğribinin "Əl-Məhdi" və Əbulabbas ibn Əbdülmömin Məğribinin "Əl-Vəhmül-məknun fir-rəddi əla ibn Xəldun" kitablarını buna misal göstərmək olar. Bu barədə geniş məlumat vermiş sonuncu şəxs Mədinə İslam Universitetinin rektoru olmuşdur. O, universitetin buraxdığı jurnalın bir neçə sayında bu barədə ətraflı söhbət etmişdir.

Bir sıra keçmiş və müasir İslam alimləri, o cümlədən Səxavi "Fəthül-məğis", Məhəmməd ibn Səfavini "Şərhül-əqidə", Əbülhəsən Əbri "Mənaqibüş-Şafei", İbn Teymiyyə öz fətvalarında, Süyuti "Əl-Havi", İdris İraqi Məğribi "Əl-Məhdi", Şövkani "Ət-Tozihu fi-təvaturi ma caə fil-muntəzəri vəd-Dəccali vəl-Məsih", Məhəmməd ibn Cəfər Kətani "Nəzmül-mütənasir fil-hədisil mütəvatir" və Əbülabbas ibn Əbdülmömin "Əl-Vəhmül-məknun fir-rəddi əla ibn Xəldun" kitablarında Məhdi (əleyhissəlam) haqqında deyilmiş hədislərin təvatür həddinə çatmasını (və danılmasının heç cür mümkün olmadığını) qeyd etmişlər.

Bəyanatın sonunda deyilir: "Təkcə İbn Xəldun Həzrət Məhdi əleyhissəlama aid olan hədisləri qəbul etmir və "Məhdi elə Həzrət İsa əleyhissəlamın özüdür" məzmunlu əsassız bir hədislə qeyd etdiyimiz hədislərə irad tutur. Lakin dini rəhbərlər onun bu iddiasını rədd etmiş və İbn Əbdülmömin onun rəddinə dair ayrıca bir kitab yazmışdır. Həmin kitab otuz il bundan əvvəl bütün Şərq və Qərbdə nəşr edilmişdir. Hədis əzbərləyən və hədisyazarlar da qeyd etmişlər ki, Məhdi (əleyhissəlam) haqqında deyilmiş hədislər arasında həm səhih hədis, həm də həsən (yaxşı) hədislər vardır. Təbii ki, bunları da üst-üstə gəldikdə təvatür həddinə çatır. Beləliklə, Həzrət Məhdi əleyhissəlama inanmaq (hər bir müsəlmana) vacib olub həm sünni, həm də şiə məzhəbinin əqidələrindən biri hesab olunur və nadan, cahil, ya da bidətçi şəxsdən başqa heç kim bu məsələni dana bilməz."

(İslam hökmlər şurasının sədri Məhəmməd Müntəsəri Kənani).

Oxucuların nəzərinə çatdırdığımız bu bölmə həmin kitabçanın əsas hissələrinin tərcüməsi idi.

## Məhdi əleyhissəlamın atası kimdir?

Qeyd olunması lazım olan məsələlərdən biri də budur ki, bəzi sünni mənbələrində Həzrət Məhdi əleyhissəlamın atasının adı Abdullah qeyd edilmişdir.[1] Halbuki şiə və sünni mənbələrindəki bir çox hədislər o Həzrətin atasının adının Həsən olduğuna dəlalət edir. Bu ixtilafın mənşəyi o olmuşdur ki, bəzi sünni mənbələrində o Həzrətin nişanələri sırasında Peyğəmbərin (səlləllahu əleyhi və alih) aşağıdakı ifadəsi qeyd olunmuşdur: *"Onun (Məhdinin) adı mənim adımdan, atasının da adı mənim atamın*

[1] Qeyd etdiyimiz bəyanatda məhz bu mənbələrə istinad edilmişdir.

*adından olacaq..."*[1] Əldə olan faktlar göstərir ki, "atasının adı da mənim atamın adından olacaqdır" ifadəsi Peyğəmbərin (səlləllahu əleyhi və alih) sözündə olmamış və hədis söyləyən özü onu bilərəkdən, ya da bilmədən Peyğəmbərin (səlləllahu əleyhi və alih) cümləsinə əlavə etmişdir. Peyğəmbər (səlləllahu əleyhi və alih) isə yalnız "onun adı mənim adımdan olacaqdır" - deyə buyurmuşdur.

Hafiz Gənci Şafei bu barədə deyir: "Tirmizi[2] bu hədisi rəvayət etmiş, lakin həmin hədisdə sonuncu cümlə gəlməmişdir.[3] Həmçinin, bu kimi məsələlərə çox diqqətlə yanaşan Əhməd ibn Hənbəl bu hədisi öz "Müsnəd"ində bir neçə yerdə qeyd etmiş, lakin həmin hədisdə sonuncu cümlə gəlməmişdir."[4] Sonra Gənci əlavə edib deyir: "Sünnilərin mötəbər hədisçilərinin bu barədə söylədikləri rəvayətlərin heç birində sonuncu cümlə qeyd olunmamışdır. Təkcə Zaidə adlı bir şəxsin Asimdən söylədiyi rəvayətdə bu cümlə qeyd olunmuşdur. Zaidə isə hədislərə özündən bəzi şeylər əlavə etdiyindən onun söylədiyi hədisə etibar edilmir. Bu məsələnin şahidi də odur ki, bu hədisi Asim adlı bir şəxs rəvayət etmiş, Hafiz Əbu Nüeym "Mənaqibül-Məhdi" kitabında bu hədisi söyləmiş otuz bir nəfərin adını çəkmiş və onların hamısı onu Asimdən rəvayət etmiş və heç birinin hədisində sonuncu cümlə gəlməmişdir. Yalnız Zaidənin rəvayətində o cümlə gəlmişdir. Təbii ki, bir nəfərin də rəvayəti bu qədər adamın rəvayətinin müqabilində etibarlı sayıla bilməz."[5]

## İbn Xəldun və Məhdi (əleyhissəlam) haqqında nəql olunmuş rəvayətlər

Sünni alimlərinin demək olar ki, hamısının Məhdi (əleyhissəlam) barədə deyilmiş rəvayətləri qəbul etdiyi məlum oldu. Lakin onlardan bir neçəsi, o cümlədən də İbn Xəldun bu hədisləri inkar etmiş, ya da onlara şübhə ilə yanaşmışdır. İbn Xəldun deyir: "Əsrlər boyu bütün müsəlmanlar arasında belə bir inam olmuşdur ki, dünyanın son vaxtlarında Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsindən bir nəfər mütləq, zühur edib dini möhkəmlədəcək, haqq-ədaləti bərpa edəcək və müsəlmanların hamısı ona tabe olacaq. O, bütün müsəlman ölkələrinə hakim olacaqdır. Həmin şəxsin adı Məhdidir. Qiyamətin qəti müqəddimələrindən olan Dəccalın gəlməsi və sair hadisələr onun zühurundan sonra olacaq. İsa Peyğəmbər göydən enib Dəccalı öldürəcək, ya da onu öldürməkdə Məhdiyə kömək edəcək. İsa (əleyhissəlam) Məhdinin arxasında namaz qılacaq...

Məşhur hədisçilərdən bir dəstəsi, o cümlədən, Tirmizi, Əbu Davud, Bəzzar, İbn Macə, Hakim, Təbrani, Əbu Yəla Məhdi (əleyhissəlam) haqqında olan hədisləri öz kitablarında bir qrup səhabənin, o cümlədən, Əli (əleyhissəlam), İbn Abbas, Abdullah ibn Ömər, Təlhə, Abdullah ibn Məsud, Əbu Hüreyrə, Ənəs, Əbu Səid Xudəri, Əli Hilali və Abdullah ibn Harisin dilindən rəvayət etmişlər. Bu hədisləri inkar edib onların sənədində mübahisə edənlər də çoxdur. Hədis elminin mütəxəssisləri arasında

---

[1] Sünəni-Əbu Davud, c.1, səh.106.
[2] Məhəmməd ibn İsa ibn Surə Tirmizi sünnilərin altı məşhur kitabından birinin müllifidir.
[3] Sünəni-Tirmizi, c.4, səh.505.
[4] Müsnədi-Hənbəl, c.1, səh.448.
[5] Müntəxəbül-əsər, səh. 231–235.

belə bir qayda var ki, cərh tədildən[1] irəlidir. Belə olduğu halda əgər biz bu hədisləri söyləmiş ravilərin bəzilərində unutqanlıq, əqidə çatışmamazlığı və ya pozğunluğu kimi zəif cəhətlər müşahidə etsək, həmin hədislər etibardan düşür..."[2]

Sonra o, (İbn Xəldun) bu hədislərdən bir neçəsini qeyd etmiş, onları söyləmiş ravilərin avtobioqrafiyasını araşdıraraq bəzilərini etibar oluna bilməyən hesab etdikdən sonra deyir: "Budur, hədisçilərin Məhdi (əleyhissəlam) və onun qiyamı barədə söylədikləri rəvayətlər. Özünüz də gördünüz ki, onların bir neçəsi istisna olmaqla hamısı mübahisəlidir."[3]

Bu, İbn Xəldunun Məhdi (əleyhissəlam) barədə deyilmiş rəvayətlərə münasibətinin qısa məzmunu idi.

Hədis elminin mütəxəssisləri, istər şiə olsun, istərsə də sünni hamı bir nəfər kimi onun iddialarını qəti sübutlarla inkar edərək sözlərini əsassız hesab etmişlər.[4] İndi nümunə üçün Mədinə Universitetinin ustadı Şeyx Əbdülmöhsün İbadın bu barədə dediklərinin qısa məzmununu oxucuların nəzərinə çatdırırıq.

O, "Sünnə əhlinin gözlənilən Məhdi haqqında əqidəsi" mövzusuna dair keçirilmiş konfransda İbn Xəldunun nəzəriyyəsini rədd edərək demişdir:

**a)** Əgər Məhdi (əleyhissəlam) haqqında deyilmiş hədisləri hədis mütəxəssisi olan bir şəxs inkar etsəydi, bu barədə şəkk etməyə dəyərdi. Ancaq bu barədə mütəxəssis olmayan tarixçilərin şübhəsi yersizdir. Şeyx Əhməd Şakir yaxşı deyib ki, İbn Xəldun bilmədiyi bir işə baş qoşmuş, əhli olmadığı bir meydana girmişdir. O, öz yazdığı "Əl-Müqəddimə" kitabında Məhdiyə ixtisas verdiyi fəsildə təəccüb ediləsi sözlər demiş və açıq-aşkar səhvlərə yol vermişdir. O, hədisçilərin hədis elmində "cərh tədildən üstündür" demələrindən məqsədin nə olduğunu heç anlamamışdır.

**b)** İbn Xəldun "Əl-Müqəddimə"də Məhdi əleyhissəlama ixtisas verdiyi fəsildə etiraf edir ki, tarix boyu bütün müsəlmanlar arasında belə bir inam olmuşdur ki, dünyanın axır vaxtlarında Peyğəmbər (səlləllahu əleyhi və alih) ailəsindən mütləq, bir nəfər zühur edəcək...

Tarix boyu bütün müsəlmanlarda belə bir inamın olmasına etiraf etdiyi halda, İbn Xəldunun özünün də hamının qəbul etdiyi bu əqidəni qəbul etməsi daha məqsədəuyğun olmazdımı? Bütün müsəlmanların əqidəsinin onun şəxsi əqidəsilə zidd olduğu bir halda bu, necə deyərlər özünü kənaraçəkmə demək deyilmi? Deməli, bütün müsəlmanlar səhv başa düşmüş, təkcə İbn Xəldun doğru anlamışdır? Ümumiyyətlə, bu, araşdırılası, əqli yolla başa düşüləsi bir məsələ deyil. Əksinə, bu, nəqli və qeybi bir məsələdir. Kiminsə onu Quran və Peyğəmbər (səlləllahu əleyhi və alih) sünnəsindən başqa bir sübutla isbat etməsi düzgün deyil. Bu isə bütün müsəlmanların nəzəriyyəsini təsdiqləyir və onlar bu nəqli məsələdə mütəxəssislərdir.

**v)** İbn Xəldun bu hədisləri araşdırıb öz etirazını bildirməzdən qabaq deyir: "İndi bu barədə deyilmiş hədisləri qeyd edəcəyik."[5] Hədisləri qeyd etdikdən sonra deyir:

---

[1] Cərh və tə'dil hədis elminin terminlərindəndir.
[2] "Əl-Müqəddimə," səh. 311–312.
[3] "Əl-Müqəddimə," səh. 322.
[4] Ədalət carçısı, səh. 30–49.
[5] "Əl-Müqəddimə," səh.311.

“Budur, hədisçilərin Məhdi (əleyhissəlam) və onun dünyanın sonunda qiyam edəcəyi barədə rəvayət etdiyi hədislər.” Başqa bir yerdə isə deyir: “Hədisçilərin Məhdi (əleyhissəlam) haqqında rəvayət etdiyi hədislərin hamısını bacardığımız qədər qeyd etdik.”[1] Halbuki, o, Məhdi (əleyhissəlam) haqqında deyilmiş hədislərin çoxunu qeyd etməmişdir. Bunu Süyutinin “Əl-Ürfül-virdi fi-əxbaril Məhdi” kitabından da əldə etmək olar. İbn Xəldun, İbn Qəyyimin “Əl-Minarül-münəyyif” adlı kitabında mötəbər sənədlə qeyd etdiyi hədisdən də xəbərsiz qalmışdır.

**q)** İbn Xəldun bu hədislərin bəzisini qeyd etmiş, onların bəzilərinin sənədini ravilərinə görə etibarsız saymışdır. Halbuki, Buxari və Müslim, ya heç olmasa onların biri öz səhihlərində həmin ravilərdən hədislər rəvayət etmiş və alimlər onların sənədlərində heç bir irad tutmamışlar.

**d)** İbn Xəldun özü etiraf edir ki, Məhdi barədə deyilmiş hədislərin az bir qismi sənəd cəhətdən mötəbər və iradsızdır. Elə isə qeyd etməliyik ki, İbn Xəldunun özünün qəbul etdiyi həmin hədislər də bu məsələnin isbata yetməsi üçün kifayət edir və başqa hədislər də onları təsdiqləyir.[2]

## Məhdi əleyhissəlamı gözləmək və Məhdilik iddiası edənlər

İslam tarixinə nəzər saldıqda, məlum olur ki, tarix boyu bir sıra məqam və mənfəət ardınca olan şəxslər Məhdilik iddiası edərək özlərini Məhdi adlandırmış, ya da bir dəstə avam insan kimlərisə Məhdi hesab etmişlər. Bu hərəkət göstərir ki, “Məhdi” məsələsi və qeybi bir nicat verənin zühuruna inam müsəlmanlar arasında qəti məsələlərdən biri olmuşdur.[3] Məhdilik iddiası etmiş şəxslərin də adı, ya bəzi xüsusiyyətləri o Həzrətlə uyğun gəldiyindən onlar bu məsələdən istifadə edib özlərini Məhdi adlandırmışlar. Əlbəttə, onlardan bəziləri heç də özləri belə bir iddia etməmiş, lakin bir dəstə avam insan ya nadanlıq üzündən, ya hakim dairələrin son dərəcə zülmü nəticəsində, ya Məhdi əleyhissəlamın zühurunda tələsmələrinə görə, ya da başqa səbəblər üzündən Həzrət Məhdi əleyhissəlamın nişanələrinin hamısına fikir vermədən səhvə yol verərək onları Məhdi hesab etmişdir. Məsələn, müsəlmanlardan bir dəstəsi Məhəmməd ibn Hənəfiyyəni Peyğəmbərlə (səlləllahu əleyhi və alih) eyniadlı və eynikünyəli olduğuna görə Məhdi hesab etmiş və belə fikirləşiblər ki, o ölməyib qeybə çəkilmiş, sonradan zühur edərək dünyanın hakimi olacaqdır.[4] İsmailiyyə firqəsinin bir dəstəsi bu əqidədə olmuşdur ki, İmam Sadiq əleyhissəlamın oğlu

---

[1] “Əl-Müqəddimə,” səh.327.

[2] 1388 hicri, № 3, Camiətül-İslamiyyə jurnalı, Mədinə.

[3] Məqatilüt-talibin (təhqiq), səh. 138, 184, 154, 440. İbad ibn Yaqub Əsədi Rəvacini Kufi (təv. 255 hicri), görkəmli tarixçi Zəhəbinin yazdığına görə əhli sünnənin böyük mühəddislərindən çoxu ondan hədis və rəvayət nəql ediblər ki, Həzrətə yardım etmək üçün qabaqcadan özünə bir qılınc hazırlayıb saxlayırmış. Hədis öyrənmək üçün onun yanına getmiş Qasim ibn Zəkəriya Mitrəz adlı bir şəxs deyir: Mən onun yanına gedəndə artıq gözləri görmürdü. Kənarında bir qılınc var idi. Soruşdum ki, bu qılınc kimindir? Dedi: Onu Mehdinin kənarında döyüşmək üçün hazırlamışam (Mizanül-e`tidal, c. 2, səh. 379).

Mə`lum oludğu kimi onun vəfatı “kiçik qeybət”in başlanğıc dövrlərinə təsadüf edir. Belə çıxır ki, elə o zamanlardan Mehdinin qiyamının intizarı və bu qiyamda iştirakın zəruriliyi məsələsi müsəlmanlar arasında mövcud imiş.

[4] Firəqüş-şiə, səh.27.

İsmayıl ölməmiş, onun ölümü məsləhət üzündən e`lan olmuş, o, elə vəd olunmuş Məhdidir və ölümündən qabaq qiyam edərək bütün dünyaya hakim olacaq.[1]

Necə ki, "İmam Sadiqin (ə) həyatı" fəslində keçdiyi kimi Abdullah ibn Həsənin oğlu ""Nəfsi-Zəkiyyə"" ləqəbi ilə məşhur olmuş Məhəmməd, Abbasi xəlifəsi Mənsur Dəvaniqinin hakimiyyəti dövründə qiyam etmiş, adının Məhəmməd olmasına görə atası onun Məhdi olduğunu iddia etmiş və bu yolla oğlu üçün çoxlu tərəfdar toplamışdı.[2] "Nəfsi-Zəkiyyə"nin qiyamı zamanı Mədinənin fəqih və abidlərindən olan Məhəmməd ibn Əclan onu himayə edirdi. "Nəfsi-Zəkiyyə" məğlub olaraq öldürüldükdən sonra Mədinə hakimi Cəfər ibn Süleyman Məhəmməd ibn Əclanı çağırtdırıb ona deyir: "Nəyə görə o yalançını himayə edirdin?" Sonra da onun əlini kəsdirmişdir. Məclisdə hazır olan Mədinə əyan-əşrafı Cəfər ibn Süleymandan Məhəmməd ibn Əclanın əfv olunmasını istəyərək deyir: "Ya Əmirəl-möminin! Məhəmməd ibn Əclan Mədinənin fəqih və abidlərindəndir, bu işdə səhvə yol vermiş və "Nəfsi-Zəkiyyə"ni rəvayətlərdə gəlmiş Məhdi ilə oxşadıb qarışıq salmışdır.[3]

Bu hadisədən eynilə Mədinənin böyük hədisçi və alimlərindən olmuş Abdullah ibn Cəfərin də başına gəlmiş və o da Mədinə hakiminin cavabında demişdi: "Mənim Məhəmməd ibn Abdullah ("Nəfsi-Zəkiyyə") ilə həmkarlıq etməyimin səbəbi onun rəvayətlərdə vəd olunmuş Məhdi olduğuna inamım olmuşdur. O ölənə qədər bu məsələ barədə heç bir şübhə etmirdim, lakin o öldükdən sonra bildim ki, o, Məhdi deyil. Bundan sonra heç kimin hiyləsinə aldanmaram.[4]

Əsl adı Abdullah və oğlunun adı Məhəmməd olan xəlifə Mənsur isə öz oğluna Məhdi ləqəbi qoyub iddia edirdi ki, vəd olunmuş Məhdi "Nəfsi-Zəkiyyə" deyil, məhz mənim oğlumdur.[5]

Tarixə nəzər saldıqda bəzi firqələrin keçmiş İmamlardan bəzilərinin Məhdi olması haqda əqidəsini də müşahidə edirik. Məsələn, Navusiyyə firqəsi İmam Sadiq əleyhissəlamı Məhdi, sağ və qeybə çəkilmiş İmam kimi tanıyırdı.[6] Vaqifiyyə məzhəbi isə eynilə bu əqidəni İmam Museyi-Kazim əleyhissəlama aid edirdi.[7] Onlar belə güman edirdilər ki, İmam Kazim (əleyhissəlam) dünyanın Şərq və Qərbini tutmayınca, dünya zülmlə dolduğu kimi ədaləti bərpa etməyincə ölməyəcək. Onların fikrincə vəd edilmş Məhdi elə İmam Kazim (əleyhissəlam) olmuşdur.[8] Nəhayət, bəziləri də İmam Həsən Əskəri əleyhissəlamın vəfatından sonra onun ölməsini inkar edərək demişlər ki, o, diridir və qeybə çəkilmişdir. Məhdi onun özüdür.[9]

Bunlar Həzrət Məhdi əleyhissəlama inamın həm Peyğəmbər (səlləllahu əleyhi və alih) dövründə, həm də ondan sonra olmasını təsdiqləyən nümunələrdir. Bu hadisələr göstərir ki, İslam ümməti daima qiyam edərək zülmə qarşı mübarizə edəcək və dünyada ədalət bayrağı dalğalandıracaq bir şəxsin intizarında olmuşdur. Təbii

---

[1] Firəqüş-şiə, səh. 67–68.
[2] Əl-Fəxri, səh. 165–166.
[3] Məqatilüt-talibin, səh.193.
[4] Məqatilüt-talibin, səh.195.
[5] Məqatilüt-talibin, səh.162.
[6] Əl-Miləlü vən-nihəl, c.1. səh.148.
[7] Əl-Miləlü vən-nihəl, c.1. səh.150.
[8] Firəqüş-şiə, səh.80, 83.
[9] Firəqüş-şiə, səh.96.

məsələdir ki, tarix boyu bəzi şəxslərin məhdilik mövzusundan istifadə edərək özlərini Məhdi adlandırması bu məsələnin əsl mahiyyətini inkar edə bilməz. Çünki əsrlər boyu bir çox həqiqətlərdən kimlərsə mənfi istifadə etmişdir. Dünyada Allahlıq, peyğəmbərlik, yaxud başqa mənəvi məqamlar iddiasında olanlar da az olmamışdır. Yalançı dinlərin də sayı az deyil. Ancaq bunlar heç vaxt Allahı, yaxud peyğəmbərliyi inkar etmək üçün kiməsə sübut ola bilməz. Hal-hazırda bəziləri elm, texnika və sənayedən bəşəriyyətə zidd olan işlər məqsədilə istifadə edirlər, ancaq bu, heç də bizə elm, texnika və sənayenin əsl mahiyyətini inkar etməyə əsas vermir.

## Quranda Məhdi (əleyhissəlam) hökumətinin siması

Qurani-Kərim Həzrət Məhdi əleyhissəlamın zühur və qiyamı barədə (bir çox başqa sahələrdə olduğu kimi) xırdalıqlara toxunmadan ümumi şəkildə söz açmışdır. Yəni, Quran ümumdünya ədalətli hökumət qurulacağından, əməlisaleh insanların yer üzündəki kamil və son qələbəsindən söhbət etmişdir. Bu ayələri İslam təfsirçiləri hədislərə istinad edərək Həzrət Məhdi əleyhissəlama, onun qiyamı və zühuruna aid etmişlər. Alimlərin bu məsələyə aid etdikləri[1] ayələrdən və bu məsələ haqqında daha aşkar söhbət açmış ayələrdən üçünü oxucuların nəzərinə çatdırırıq.

**1)** ***"Biz kitabdan [Tövratdan, yaxud lövhi-məhfuzdan] sonra Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin hakim olacağını yazmışdıq."***[2]

Bu ayəni izah edərkən qeyd etmək lazımdır ki, ayədə gəlmiş "zikr" (kitab) sözü əslində "nəyisə xatırlamaq" mənasınadır, ancaq bu ayədə Həzrət Musa əleyhissəlama Allah tərəfindən göndərilmiş kitab – Tövrat nəzərdə tutulmuşdur. Buna sübut isə onun Zəburdan qabaq qeyd olunmasıdır. Başqa bir təfsirə əsasən, ayədəki "zikr" (kitab) sözü Qurana işarədir. Çünki Quranın özündə bir neçə yerdə Quran "zikr" adı ilə qeyd olunmuşdur. Məsələn, "Təkvir" surəsinin iyirmi yeddinci ayəsində deyilir: ***"O, [Quran] aləmlər [bütün insanlar və cinlər] üçün ancaq bir zikrdir [öyüd-nəsihətdir]."*** Belə olduqda isə ayənin mənası ***"Biz kitabdan [Tövratdan] sonra Zəburda da..."*** yox, ***"Biz kitabdan [Qurandan] əlavə Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin hakim olacağını yazmışdıq"***[3] olur.

Mərhum Şeyx Müfid ("Əl-İrşad" kitabında) Həzrət Məhdi əleyhissəlama ixtisas verdiyi fəslin başlanğıcında bu ayəyə və bundan sonra qeyd edəcəyimiz ayəyə istinad etmişdir.[4] Bu ayənin təfsiri barədə İmam Baqir əleyhissəlamdan rəvayət olunmuşdur ki, ayədə deyilmiş "saleh bəndələr"dən məqsəd Həzrət Məhdi əleyhissəlamın dünyanın axırında olacaq tərəfdarlarıdır.[5]

Quranın görkəmli təfsirçisi mərhum Təbərsi "Məcməül-bəyan" təfsirində bu ayədən bəhs edərkən qeyd etdiyimiz hədisi yazdıqdan sonra deyir: "Şiə və sünnilərin Peyğəmbərdən (səlləllahu əleyhi və alih) rəvayət etdiyi aşağıdakı hədis bu məsələyə aiddir: *"Əgər dünyanın sonuna bircə gün belə qalsa, Allah-taala həmin günü mənim*

[1] Günbatan günəşi, səh. 140–151.
[2] "Ənbiya" surəsi, ayə 106.
[3] Məhdi – böyük bir inqilab, səh. 121–122.
[4] Əl-İrşad, səh.346.
[5] Məcməül-bəyan, c.7, səh.66.

*nəslimdən saleh bir kişinin zühur edib dünyanı, zülmlə dolduğu kimi haqq-ədalətlə dolduracağına qədər uzadar."*[1]

Quranın Allahın saleh bəndələrinin yer üzünün hakimi olacağı məsələsinin Tövrat və Zəburda da yazılmasına işarə etməsi bu mövzunun əhəmiyyətini göstərir. Belə ki, bu məsələ ilkin peyğəmbərlərin də kitablarında vurğulanmışdır. Diqqəti cəlb edən məsələ budur ki, bu mövzu Davud peyğəmbərin dua, münacat və nəsihətlərini əhatə etmiş və hal-hazırda Tövratın "Əhdi-qədim" hissəsində yer tapmış "Davudun nəğmələri" kitabında da müxtəlif ifadələrlə gözə dəyir. Məsələn, otuz yeddinci nəğmədə deyilir: "...Zalımların kökü kəsiləcək, Allaha arxalananlar isə yer üzünün hakimi (varisi) olacaqlar. İndi isə zalımların olmaması çox çətin məsələdir. (Yəni, indi zalımlar çoxdur). Yer üzünün hakimi (varisi) olacaq təvazökarlar son dərəcə əmin-amanlıqdan ləzzət alacaqlar" Həmin nəğmənin başqa bir hissəsində deyilir: "...Allaha təbərrük edənlər (üz tutanlar) yer üzünün hakimi olacaq, məlunların (Allahdan üz döndərmişlərin) isə kökü kəsiləcək."[2]

**2) *"Yer üzündə zəif düşüb əzilənlərə [nemət verib] mərhəmət göstərib onları öndə gedən və yer üzünün varisləri [hakimi] etmək istəyirik."*[3]**

"Məhdi (əleyhissəlam) şiə mənbələrində" adlı başlıqda danışarkən qeyd etdik ki, Həzrət Əli (əleyhissəlam) Məhdi əleyhissəlamın qayıdacağı (zühur etməsi) və camaatın yenidən vəhy ailəsinə tərəf üz tutacağı barədə söhbət etdikdən sonra indi qeyd etdiyimiz ayəni oxumuşdu.[4]

Ələvilərdən olub Abbasi xəlifəsi Məmuna qarşı qiyam qaldırmış Məhəmməd ibn Cəfər deyir ki, bir gün rastlaşdığım çətinlikləri Malik ibn Ənəs üçün açıqladım. O, mənə dedi ki, səbr et, qoy "Yer üzündə zəif düşüb əzilənlərə mərhəmət göstərib onları öndə gedən və yer üzünün varisləri etmək istəyirik" ayəsi çin çıxsın.[5]

**3) *"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün Allahın Özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla [arxayınçılıqla] əvəz edəcəyini vəd buyurmuşdur."*[6]**

Mərhum Təbərsi bu ayənin təfsirində deyir: "Peyğəmbər ailəsindən rəvayət olunmuşdur ki, bu ayə Həzrət Məhdi (əleyhissəlam) barədə nazil olmuşdur. Əyyaşi İmam Zeynül-abidin əleyhissəlamdan rəvayət etmişdir ki, o Həzrət bu ayəni oxuyaraq buyurmuşdur: "And olsun Allaha ki, onlar (ayədə deyilmiş şəxslər) biz əhli-beytin şiələridir. Allah bu işi bizim nəslimizdən olan bir şəxs vasitəsilə həyata keçirəcək. Həmin şəxs bu ümmətin Məhdisidir. O, həmin şəxsdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) onun barəsində *"Əgər dünyanın sonuna bircə gün belə qalsa, Allah-taala həmin günü mənim nəslimdən olan bir şəxsin (zühur edib) dünyaya hakim olacağı vaxta qədər uzadar. Onun adı mənim adımdandır. Dünyada zülm və haqsızlıq*

---

[1] Məcməül-bəyan, c.7. səh.67.
[2] Tövrat. "BRİTSH FAİN BABLE SWİSTS" kompaniyası. Londan çapı 1856, səh.1030.
[3] "Qəsəs" surəsi ayə 6.
[4] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c.19, səh.29.
[5] Məqatilüt-talibin, səh.359.
[6] "Nur" surəsi, ayə 55.

*baş alıb getdiyi bir halda o, dünyada haqq-ədaləti bərpa edəcək”* - deyə buyurmuşdur.”

Təbərsi daha sonra əlavə edib deyir: “Bu məna qeyd etdiyimiz ayənin təfsirində İmam Baqir (əleyhissəlam) və İmam Sadiq əleyhissəlamdan da rəvayət olunmuşdur.”[1]

## İmamın qeyb dövründə olmasının faydaları

İndi ki, Həzrət Məhdi (əleyhissəlam) haqqında söhbətimiz bura yetişdi, onda ona aid olan əsas suallardan birinə cavab verməyimiz lap yerinə düşər. Sual budur ki, İmamın qeyb dövründə olmasının nə kimi faydası var? Başqa sözlə desək, İmamın qeyb dövründə yaşaması bir rəhbər kimi ümumi həyat tərzi deyil, xüsusi yaşayışdır. Belə olduğu halda, onun müqəddəs vücudunun ümumi müsəlmanlar üçün nə kimi xeyri ola bilər və camaat ondan nə kimi istifadələr edə bilər?

Nəzərə almaq lazımdır ki, İmamın qeybdə olması heç də o demək deyildir ki, o Həzrətin vücudu görünməz bir ruha, yaxud görünməz bir dalğaya və bu kimi şeylərə çevrilmişdir. Əksinə, o da təbii həyat sürür, sadəcə olaraq onun ömrü uzundur. O Həzrət camaat arasında, cəmiyyət içərisindədir, müxtəlif yerlərdə yaşayır, lakin naməlum şəkildə. Naməlum olmaqla görünməz olmaq arasında isə (yerdən göyə qədər) fərq vardır.[2] İmam Sadiq (əleyhissəlam) buyurardı: “Bizim Qaimimizin iki dəfə qeybəti olacaq. Onlardan birində o, həcc mərasimində hazır olacaqdır. O, insanları görür, insanlar isə onu görmürlər.[3]

Həzrətin həcc mərasimində iştirakı onun təbii, adi ömür sürməyinə dəlalət edir. Belə düşünülür ki, İmam Sadiqin (ə) sözündəki xalqın onu görə bilməməsindəki məqsədi onu tanıya, təbii baxışla ayırd və seçə bilməmələri nəzərdə tutulmuşdur.

## Gizli Günəş

Qeyd etdiyimiz sualın cavabında xatırlamaq lazımdır ki, bu sual heç də yeni və təkcə müasir dövrümüzə aid bir sual deyil. İslami rəvayətlərdən belə başa düşülür ki, hətta Həzrət Məhdi (əleyhissəlam) anadan olmazdan qabaq da, bu sual irəli sürülmüş və istər Peyğəmbər (səlləllahu əleyhi və alih), istərsə də İmamlar Həzrət Məhdi (əleyhissəlam) və onun uzun sürəcək qeybindən söhbət açdıqda bu sualla üzləşib ona cavab vermişlər. Məsələn:

**1)** İslam Peyğəmbəri Həzrət Məhəmməd (səlləllahu əleyhi və alih) “Şiələr Həzrət Məhdi əleyhissəlamın qeybdə olduğu müddət ərzində ondan istifadə edə biləcəklərmi?” sualının cavabında buyurmuşdur: “Bəli, and olsun məni Peyğəmbər seçmiş Allaha ki, günəş bulud arxasında olarkən insanlar onun nurundan istifadə etdikləri kimi onun qeybdə olduğuna baxmayaraq, şiələr ondan istifadə edəcək, İmamətinin nurundan bəhrələnəcəklər.”[4]

**2)** İmam Sadiq (əleyhissəlam) buyurmuşdur: “Allah-taala Həzrət Adəm əleyhissəlamı yaratdığı gündən Qiyamətə qədər yer üzü heç vaxt İlahi hüccətsiz

---

[1] Məcməül-bəyan, c.7, səh.152.
[2] Məhdi (əleyhissəlam) – böyük bir inqilab, səh.250.
[3] Üsuli-kafi, c.1, səh.339.
[4] Biharül-ənvar, c.52, səh.93, c.36. səh.250.

olmamış və olmayacaqdır. İstər zahiri və aşkar hüccət olsun, istərsə də qeybdə və gizlində olan hüccət. Əgər yer üzündə İlahi bir hüccət olmasa, Allaha sitayiş olunmaz.” Rəvayəti söyləyən şəxs İmamdan soruşur ki, camaat qeybdə olan İmamdan necə istifadə edəcək? İmam Sadiq (əleyhissəlam) buyurur: “Günəşdən bulud arxasında olarkən istifadə etdikləri kimi.”[1]

**3)** Həzrət Məhdi əleyhissəlamın özü də bu məsələ üzərində çox təkid etmişdir. O Həzrət İshaq ibn Yəqubun[2] yazdığı suala cavab verərək buyurmuşdur: “Camaatın məndən istifadə etməsi eynilə bulud arxasında gizlənmiş günəşdən istifadə etmələri kimidir.”[3] Bu bənzətmənin açıqlamasında qeyd etmək lazımdır ki, günəşin işıq verməsi iki növdür. Biri bilavasitə, digəri isə vasitəli yolla işıq verməsidir. Günəş bilavasitə işıq verəndə onun şüaları görünür, vasitəli işıqvermədə isə bulud günəşin qarşısını alır və onun nurunu cəzb edərək ətrafa paylayır.

Günəşin canlı aləmin inkişafında misilsiz xidməti onun bilavasitə təbiətə işıq verdiyi vaxta aiddir. Lakin onun istilik verməsi, bitkilərin açılması və yetişməsi, həyat üçün lazım olan enerji istehsalı, ağacların bəhrə verməsi, güllərin açılması kimi işlərdə təsiri bulud arxasında olarkən də özünü göstərir. İmamın qeyb pərdəsi arxasında olarkən mənəvi şüasının da bir sıra təsirləri vardır ki, təlim-tərbiyənin və bilavasitə rəhbərlik etməsinin dayanması onun vücudunun fəlsəfəsini aşkar edir. İndi həmin təsirlərdən bir neçəsini qısaca olaraq oxucuların nəzərinə çatdırırıq.

## 1. Dünyanın döyünən ürəyi

İmamət mövzusuna dair rəvayət olunmuş hədislərə və eləcə də, alimlərin gətirdiyi sübutlara əsasən, İmam dünyanın ürəyidir. Dünya bütün əzəmətilə ona bağlıdır. İmam varlıq aləminin qəlbi, dünyanın mərkəzi və Allahla məxluqat arasında bir vasitədir. Buna görə də, onun açıqda olması ilə qeybdə olmasının heç bir fərqi yoxdur. Lakin o, dünyada olmazsa bütün aləm bir-birinə dəyər. İmam Sadiq əleyhissəlamın dili ilə desək “Əgər yer üzü (bir an) İmamsız qalsa, öz sakinlərini kamına çəkər.”[4] İmam Zeynül-abidin (əleyhissəlam) buyurmuşdur: “Bizə görə Allah-taala asimanı yerə gəlməkdən, yerin lərzəyə gəlib sakinlərini məhv etməkdən saxlamışdır. Bizə görə Allah-taala yağış yağdıraraq Öz rəhmətini yayır və yerdə olan nemətləri üzə çıxarır. Ancaq yer üzündə bizim nəsildən olan bir şəxs olmasa, yer öz sakinlərini kamına çəkər.”[5]

## 2. Allah dinini qorumaq

Əmirəl-möminin Həzrət Əli (əleyhissəlam) hər vaxt İlahi bir rəhbərin olmasının zərurətini vurğuladığı çıxışlarından birində buyurur: *“İlahi, həqiqətən də belədir, yer üzü heç vaxt zühur edəcək və Allahın hüccəti olan bir şəxssiz olmamışdır. İstər həmin*

[1] Biharül-ənvar, c.52, səh.92.
[2] Məktubu İshaqa Məhəmməd ibn Osman təhvil vermişdir.
[3] Əl-Qeybət, səh.177.
[4] Üsuli-kafi, c.1, səh.179.
[5] Əmaliyi-Səduq, səh.112.

*şəxs aşkarda olsun, istərsə də qeybdə. Bu, ona görədir ki, açıq-aşkar İlahi sübutlar itib batmasın...”*[1]

Zaman keçdikcə şəxsi fikirlərin məzhəbi (dini) məsələlərə qarışması və xəyanətkar əllərin səmavi təlimlərə tərəf uzadılması nəticəsində bir sıra İlahi qanunlar öz həqiqətini itirir və din bəzi təhriflərə məruz qalır. Allahın göndərdiyi səmavi dinin həqiqətinin qorunub saxlanılması və təhriflərin qarşısının alınması məqsədilə bu vəzifə (dini qorumaq vəzifəsi) Allah tərəfindən seçilmiş bir İmam vasitəsilə davam etdirilməlidir. Hər hansı bir mühüm müəssisədə həmin idarənin sənədlərini oğrudan, yanğından və bu kimi hadisələrdən qorumaq məqsədilə seyflər qoyulur. İmamın qəlbi və böyük ruhu da səmavi təlimləri ilk nazil olduğu gün kimi gözləmək məqsədilə İlahi qayda-qanunları qoruyub saxlamaq üçün bir seyfdir.[2] Hafiz ibn Həcər Əsqəlani “Səhihi-Buxari” kitabına yazdığı şərhdə Həzrət Məhdi əleyhissəlamın zühuru zamanı Həzrət İsa əleyhissəlamın göydən enərək onun arxasında namaz qılacağı barədə rəvayət olunmuş hədisləri qeyd etdikdən sonra yazır: “Həzrət İsa əleyhissəlamın dünyanın sonunda və Qiyamətə yaxın vaxtda göydən enərək bu ümmətdən olan bir nəfərin arxasında namaz qılması İslam alimləri arasında tamamilə düzgün olan bu nəzəriyyəni təsdiq edir ki, yer üzü heç vaxt aşkar sübutlarla Allaha görə qiyam edəcək bir hüccətsiz olmamışdır.”[3]

## 3. Ümid vermək

Döyüş meydanlarında fədakar döyüşçülərin bütün diqqəti düşmən qarşısında öz bayraqlarının dalğalanmasında olur. Bunun əksinə olaraq düşmən ordusunun da yeganə məqsədi onların bayrağını aşağı endirməkdir. Bunun səbəbi də odur ki, bayrağın dalğalanması döyüşçüləri həvəsləndirərək onlara ümid verir və daha artıq səy göstərmələrinə səbəb olur. Həmçinin, ordu başçısının da öz yerində olması döyüşçülərdə ruh yüksəkliyi yaradır. Ordu başçısı nə qədər sakit dursa da, yenə döyüşçüləri həvəsləndirir və daha artıq qəhrəmanlıq göstərməyə cəlb edir. Ancaq ordu başçısının öldürülməsi xəbəri yayıldıqda, böyük bir ordu bütün ruhiyyəsini itirir, hazırlığını əldən verərək başsız qalır. Nə qədər ki, bir ordu, yaxud bir cəmiyyətin başçısı sağdır, bu onların ruhiyyəsinin artmasına səbəb olur. Hətta başçı səfərdə, yaxud ölüm yatağında olsa belə, yenə də ordu, ya cəmiyyətin fəaliyyətdə olmasına gətirib çıxarır. Lakin onun ölüm xəbəri bütün ordunu, cəmiyyəti ruhiyyədən salır. Şiə məzhəbi sağ qalmış İmama olan əqidəsinə görə onu öz aralarında görməsə də, özünü başçısız hiss etmir. Təbii ki, bu əqidə qəlblərdə ümid işığını saxlamaqda və camaatı özlərinə yetişib böyük bir ümumdünya qiyamına hazırlaşmaqda öz təsirini göstərir. Fransanın Sarbon universitetində fəlsəfə dərsi deyən görkəmli fransız şərqşünası, professor Hanri Kerben deyir: “Mənim fikrimcə şiə məzhəbi Allahla bəndələr arasında əlaqəni həmişə qoruyub saxlamış və İmamətə əbədiyyət qazandırmış yeganə məzhəbdir. Yəhudilər Allahla insanlar arasında əsl vasitə olan nübüvvəti (peyğəmbərliyi) Həzrət Musa əleyhissəlamla qırılmış hesab edərək ondan sonra gəlmiş Həzrət İsa (əleyhissəlam) və Həzrət Məhəmmədi (səlləllahu əleyhi və alih)

---

[1] Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c.18, səh.347.
[2] Məhdi (əleyhissəlam) – böyük bir inqilab.
[3] Fəth əl-bari bişərhi-Səhihi-Buxari, c.6, səh.494.

Peyğəmbər kimi qəbul etməmişlər. Eləcə də, məsihilər. (Onlar da bu vasitəni Həzrət İsa əleyhissəlamla sona çatmış bilirlər.) Müsəlmanların sünni məzhəbi də, Həzrət Məhəmməddən (səlləllahu əleyhi və alih) o tərəfə getməmiş və nübüvvətin Məhəmmədlə (səlləllahu əleyhi və alih) sona çatdığından sonra Allahla məxluqat arasında heç bir vasitə olduğuna inanmamışdır. Lakin şiə məzhəbi Həzrət Məhəmmədlə (səlləllahu əleyhi və alih) nübüvvətin başa çatması əqidəsində olsa da, təkamül və hidayət vasitəsi olan "İmamət"i həmişə qoruyub saxlayan yeganə məzhəbdir."[1]

[1] "Şiə məktəbi" jurnalının 2-ci nömrəsi. Tehran çapı 1960-cı il. səh.20. (Əllamə Təbatəbainin professor Hanri Kerbenlə söhbəti.)

Mündəricat


*I FƏSİL* ... 3

*ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİB ƏLEYHİSSƏLAMIN HƏYATI* ... 3

*Əmirəl-möminin Həzrət Əli əleyhissəlamın həyatı barədə qısa məlumat* ... 4

*Həzrət Əli əleyhissəlamin həyatinin bölmələri* ... 4

*1. Əli əleyhissəlamın dünyaya gəlməsindən Həzrət Məhəmmədin (səlləllahu əleyhi və alih) besətinə (peyğəmbərliyə seçilməsinə) qədər* ... 5

*Əli (əleyhissəlam) Peyğəmbər qucağında* ... 5

*Əli (əleyhissəlam) hira mağarasında* ... 6

*2. Besətdən Peyğəmbərin hicrətinədək* ... 7

*İslamı qəbul etmiş ilk insan* ... 7

*Əli əleyhissəlamın ilk müsəlman olması haqda sübutlar* ... 8

*Peyğəmbərin (səlləllahu əleyhi və alih) hamisi və canişini* ... 9

*Böyük bir şücaət* ... 11

*3. Hicrətdən Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatınadək* ... 13

*Əli (əleyhissəlam) Peyğəmbərin qardaşı* ... 13

*Əli (əleyhissəlam) döyüş meydanlarında* ... 14

*1) Əli (əleyhissəlam) Bədr döyüşündə* ... 14

*2) Əlİ əleyhİssəlamın Ühüd döyüşündəkİ mİsİlsİz şücaətİ* ... 16

*3) Əlİ (əleyhİssəlam) «Əhzab» (Xəndək) döyüşündə* ... 19

*Həssas və böhranlı günlər* ... 20

*4) Əlİ - Xeybər qalasının fatehİ* ... 24

*Peyğəmbərin (səlləllahu əleyhi və alih) xüsusi nümayəndəsi* ... 25

*4. Peyğəmbərin (s) vəfatından Əli əleyhissəlamın zahiri xilafətinədək* ... 27

*Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatı və İmamət məsələsi* ... 28

*İki əsas yol ayrıcı* ... 28

*Daxili və xarici təhlükələr* ... 29

*Əli əleyhissəlamın xəlifələr dövründəki fəaliyyəti* ... 32

*Əlİ (əleyhİssəlam) və xəlİfələrİn elmİ və sİyasİ müşkülatının həllİ* ... 33

*Romalılarla müharİbə* ... 33

*Əlİ (əleyhİssəlam) və İkİncİ xəlİfənİn onunla sİyasİ məsləhətlərİ* .......... *34*

*5. Xilafətdən şəhadətədək* .......... *36*

*Əli əleyhissəlamla beyət tərzi* .......... *36*

*Əli əleyhissəlamın parlaq məqamı* .......... *36*

*Üç cəbhədə mübarizə* .......... *38*

*Nakisin döyüşü (cəməl döyüşü)* .......... *39*

*Qasitin döyüşü (siffeyn döyüşü)* .......... *39*

*Mariqin döyüşü (Nəhrəvan döyüşü)* .......... *40*

*Əlinin (ə) dövləti idarə sistemİndə tutduğu əhəmiyyətli islahat addımları* .......... *40*

*II FƏSİL* .......... *44*

*İMAM HƏSƏN MÜCTƏBA ƏLEYHİSSƏLAMIN HƏYATI* .......... *44*

*İmam Həsən əleyhissəlamın həyatı barədə qısa məlumat* .......... *45*

*Məzlumların köməkçisi* .......... *45*

*İbrətamiz incəlik* .......... *45*

*Elm və fəzilət ailəsi* .......... *46*

*Misilsiz bəxşiş* .......... *46*

*Vasitəli köməklik* .......... *46*

*İmam Həsən əleyhissəlamın Müaviyə ilə bağladığı sülhün səbəbləri haqqında araşdırmalar* .......... *47*

*1. İmam Həsən əleyhissəlamın imamətindən qabaqkı mübarizələri* .......... *48*

*İmam Həsən (əleyhissəlam) Cəməl döyüşündə* .......... *48*

*İmam Həsən (əleyhissəlam) Siffeyn döyüşündə* .......... *48*

*2. İmam Həsən əleyhissəlamın Bəni-Üməyyə ilə kəskin mübarizələri* .......... *48*

*3. İslamda sülhün qaydası* .......... *49*

*Xarici siyasət nöqteyi-nəzərindən* .......... *50*

*Daxili siyasət nöqteyi-nəzərindən* .......... *51*

*Döyüş yorğunluğu* .......... *51*

*Müxtəlif ünsürlü cəmiyyət* .......... *52*

*Pərakəndə ordu* .......... *53*

*Canlı sənəd* .......... *53*

*İmam Həsən əleyhissəlamın ordunu səfərbər etməsi* .......... *54*

*Əhdini danan camaat* ........ *54*
*Xain sərkərdə* ........ *55*
*Xaincəsinə görülmüş hiylələr* ........ *55*
*Xəvaricin xəyanəti* ........ *56*
*Sülhün səbəbləri barədə İmam Həsən əleyhissəlamın buyurduqları* ........ *56*
*Sülh müqaviləsi və İmam Həsən əleyhissəlamın məqsədləri* ........ *57*
*Sülh müqaviləsinin mətni* ........ *58*
*İmam Həsən əleyhissəlamın Müaviyə ilə sülh etməkdə məqsədi* ........ *59*
*Kufədə toplanış* ........ *59*
*Müaviyənin cinayətləri* ........ *60*
*Xalqın oyanıb xəbərdar olması* ........ *60*
*Qorxu içində saxlamaq və aclıq siyasəti* ........ *61*
*Kufə və Bəsrədə təzyiqlərin artması* ........ *61*
*Sülh – Aşura hərəkatı üçün zəminə yaradan* ........ *62*
*Qiyam etmək üçün hazırlığı bildirmək* ........ *62*
**Hadisələrin Mədinədə təsiri** ........ **63**
**Nəyə görə İmam Həsən (əleyhissəlam) sülh, İmam Hüseyn (əleyhissəlam) isə qiyam etdi?** ........ **63**
**Müaviyənin baş aldatmaları** ........ **63**
**Münasib olmayan mühit** ........ **64**
**Yezid – İslam cəmiyyətinin nifrətamiz siması** ........ **65**
**Qiyamçılar qüvvə toplayır** ........ **65**
**İlhamverən qiyam** ........ **66**
**Tərəfdarların fərqi** ........ **67**
**Bir vəzifənin iki tərəfi** ........ **67**
**Sülh, yoxsa məsləhət?** ........ **68**
**Yol seçmək mübarizənin ən əsas cəhətidir** ........ **69**
**Sabat və Aşura – Əməvilərin çirkin cahiliyyətinin ifşaçısı** ........ **70**
**Ən böyük istək və bacarmamaq** ........ **70**
**Geniş meydanlarda cihad** ........ **70**
*III FƏSİL* ........ *72*
*İMAM HÜSEYN ƏLEYHİSSƏLAMIN HƏYATI* ........ *72*

**İmam Hüseyn əleyhissəlamın həyatı barədə qısa məlumat** ........ 73
**İmam Hüseyn əleyhissəlamın həyat mərhələləri** ........ 73
**Hüseyn ibn Əli əleyhissəlamın İmamətdən qabaqkı mübarizələri** ........ 73
İmam Hüseyn (əleyhissəlam) Cəməl və Siffeyn döyüşlərində ________ 73
**İmam Hüseyn əleyhissəlamın İmaməti dövründəki siyasi-ictimai vəziyyət** ........ 74
**Müaviyə dövründə qiyamın maneələri** ........ 75
1. İmam Həsən əleyhissəlamin Müaviyə ilə sülh müqaviləsi ________ 75
***2. Müaviyənin dini jesti*** ........ ***76***
**İmam Hüseyn əleyhissəlamın Müaviyənin hökumətinə qarşı mübarizələri** ........ 77
***1) Etirazlı məktublar və çıxışlar*** ........ ***77***
***Yezidin vəliəhdliyinə qarşı mübarizə*** ........ ***77***
***Müaviyənin İmam Hüseyn əleyhissəlamın qiyamından nigarançılığı*** ........ ***78***
***İmam Hüseyn əleyhissəlamın Müaviyəyə yazdığı tarixi cavab*** ........ ***78***
***2) İmam Hüseyn əleyhissəlamın böyük həcc mərasimində ifşaedici və sərt çıxışı*** ........ ***80***
***3) Dövlət əmlakının müsadirə edilməsi*** ........ ***81***
**Aşura inqilabının mahiyyəti və səbəbləri** ........ 82
**İmam Hüseyn əleyhissəlamın inqilabının səbəbləri** ........ 82
***1. Yezidə beyət etməyə qarşı müxalifət*** ........ ***83***
***2. Kufəlilərin dəvəti*** ........ ***83***
***3. Əmr be-məruf və nəhy əz-münkər amili*** ........ ***84***
***Hər üç amilin öz dəyəri*** ........ ***85***
***1) İmam Hüseyn əleyhissəlamın əqidəvi-siyasi vəsiyyətnaməsi*** ........ ***86***
***2) Bağışlanılmaz sükut*** ........ ***86***
***3) Sünnənin məhv olması, bidətlərin yayılması*** ........ ***87***
***4) Artıq haqqa əməl olunmur*** ........ ***87***
**Düşünülmüş və hazırlıqlı qiyam** ........ 88
**Əməvilərin iqtidar daxilində nüfuzu** ........ 88
***Müaviyənin İslama zidd olan hərəkətləri*** ........ ***89***
***Yezidin fəsadları*** ........ ***90***
***Yezidin təhrif olunmuş məsihiyyətə meyli*** ........ ***91***
**Kərbəla qiyamının mübəlliğləri** ........ 93

**Müaviyənin Şamdakı hakimiyyət dövrü ... 93**
**Çirkin təbliğlər ... 94**
**Əsirlərin səfər sovqatı ... 95**
**1. İmamət ailəsinin «Hirrə» faciəsində qorunması ... 96**
**2. Əbdülməlik ibn Mərvanın Həccaca əmri ... 97**
**Əməvilərin ideoloji təbliğatı ... 97**
***Cəbriyyə məzhəbinə meyl ... 98***
***Məstedici ədəbiyyat ... 99***
**Xanım Zeynəb İbn Ziyadın sarayında ... 99**
**Xanım Zeynəbin (səlamullahi əleyha) Kufədə buyurduğu xütbə ... 101**
**Xanım Zeynəb (səlamullahi əleyha) Yezidin sarayında ... 103**
**Xanım Zeynəbin (səlamullahi əleyha) fəryadı ... 103**
**Dördüncü İmamın təbliği mübarizələri ... 105**
***İmam Səccad əleyhissəlamın ibn Ziyadla söhbəti ... 106***
***İmam Səccad əleyhissəlamın Şamda buyurduğu xütbə ... 107***
**Aşura inqilabının nəticələri ... 110**
***1. Hakim dairələrin rüsvayçılığı ... 110***
***2. Şəhadət sünnəsinin dirçəlməsi ... 112***
***3. İslam ümmətində qiyam ... 113***
***4. Bəni-Üməyyənin süqutu ... 117***
***IV FƏSİL ... 119***
***İMAM ZEYNÜL-ABİDİN ƏLEYHİSSƏLAMIN HƏYATI ... 119***
**İmam Səccad əleyhissəlamın həyatı barədə qısa məlumat ... 120**
**İmam Səccad (əleyhissəlam) ilə həməsr olmuş xəlifələr ... 120**
**İmamın xəstəliyi İlahi bir məsləhət idi ... 120**
**Kərbəla inqilabının carçısı ... 122**
**Diktatura mühiti ... 122**
***Əbdülməlikin çirkin hakimiyyəti ... 123***
***Zalım valilər ... 125***
***Həccac İraqda ... 126***
***Diktatura və qırğın dalğası ... 127***
***Vəlid ibn Əbdülməlikin müsbət və mənfi cəhətləri ... 127***

*Zalım hakimlər* ........ *128*

Nə üçün İmam Səccad (əleyhissəlam) qiyam etmədi? ........ 128

*İki çətin yolayrıcı* ........ *129*

Mədinə əhalisinin qiyamı ........ 130

Abdullah ibn Zübeyrin rolu ........ 131

Nə üçün İmam Səccad (əleyhissəlam) Mədinə qiyamçıları ilə həmkarlıq etmədi? ........ 132

Pənah gətirmişlərin aman yeri ........ 132

İmam Səccad əleyhissəlamın dövrün zülm və fəsadlarına qarşı mübarizə üsulları ........ 132

*1. Aşura xatirəsini əbədi saxlamaq* ........ *133*

*2. Ümmətə nəsihət* ........ *133*

*Tələbələr yetişdirmək* ........ *135*

*Ümmətin əxlaqının tənəzzülə uğraması* ........ *135*

*Əhkamı bəyan etməyin və əsl İslam mədəniyyətini yaymağın labüdlüyü* ........ *137*

*3. Dua qalibində maarifin bəyanı* ........ *138*

*4. Saray alimləri ilə mübarizə* ........ *141*

Zühri kimdir? ........ 141

*Zührinin İmam Səccad əleyhissəlamın hüzurunda şagirdliyi* ........ *142*

*Zühri Bəni-Üməyyə sarayında* ........ *143*

*Zalım xəlifələrin saray alimlərinə ehtiyacı* ........ *144*

*Zührinin saxta hədisləri* ........ *145*

*İmam Səccad əleyhissəlamın Zühriyə kəskin məktubu* ........ *148*

Pak və təqvalı olmaq dərsi ........ 150

*5. Əhkam, əxlaqi və tərbiyəvi əsərlərin nəşri* ........ *151*

*6. Kimsəsizlərə yardım* ........ *152*

*7. Tərbiyə ocağı* ........ *153*

*V FƏSİL* ........ *155*

*İMAM MƏHƏMMƏD BAQİR ƏLEYHİSSƏLAMIN HƏYATI* ........ *155*

İmam Baqir əleyhissəlamın həyatı barədə qısa məlumat ........ 156

İmam Baqir əleyhissəlamın müasiri olmuş xəlifələr ........ 156

Elmi inqilabın banisi ........ 156

İmam Baqir (əleyhissəlam) alimlər baxımından ........ 157

**İmam Baqir (əleyhissəlam) məktəbinin şagirdləri** ........ **157**
**Elmləri fəth edən, bilik qapılarını açan** ........ **158**
**Bir incəlik** ........ **158**
**İctimai-siyasi durum** ........ **159**
***Vəlid ibn Əbdülməlik*** ........ ***159***
***Süleyman ibn Əbdülməlik*** ........ ***160***
***İntiqam alovu*** ........ ***160***
***Hökumət sarayının özbaşınalığı və fəsad işləri*** ........ ***160***
***Ömər ibn Əbdüləziz*** ........ ***161***
***Özbaşınalıq, fəsad və ayrıseçkiliyə qarşı mübarizə*** ........ ***161***
***Əli əleyhissəlamı söymək qadağandır!*** ........ ***162***
***Bir müəllimin təsir şüası*** ........ ***162***
***Böyük bir etiraf*** ........ ***163***
***Fədəyin xanım Zəhranın (səlamullahi əleyha) övladlarına qaytarılması*** ........ ***164***
**Hədis yazmağın qadağan edilməsi** ........ **164**
***Siyasi məqsəd*** ........ ***166***
***Əvəzi çıxılmaz bir ziyan*** ........ ***166***
***Əsassız bəhanələr*** ........ ***167***
**Peyğəmbər (səlləllahu əleyhi və alih) hədis yazmağı qadağan etmişdimi?** ........ **168**
**Şiə - hədis toplamağın banisi** ........ **169**
**Yezid ibn Əbdülməlik** ........ **170**
**Yalan şəhadət** ........ **171**
**Çalıb-oxumaq və qumar** ........ **171**
**Hişam ibn Əbdülməlik** ........ **172**
**Azğın ünsürlərin nüfuzu** ........ **172**
**İmam Baqir (əleyhissəlam) Şamda** ........ **173**
***Ox atma yarışı*** ........ ***173***
***Məsihi yepiskopu ilə münazirə*** ........ ***174***
***Nalayiq bir töhmət*** ........ ***175***
***İmam Baqir (ə) və sıradan çıxmaqda olan dini mədəniyyətin təhlili*** ........ ***176***
***İmam Baqir əleyhissəlamın münazirələri*** ........ ***176***
***VI FƏSİL*** ........ ***178***

***İMAM CƏFƏR SADİQ ƏLEYHİSSƏLAMIN HƏYATI......178***
**İmam Sadiq əleyhissəlamın həyatı barədə qısa məlumat......179**
**İmam Sadiq əleyhissəlamın müasiri olmuş xəlifələr......179**
**İmam Sadiq əleyhissəlamın elmi səviyyəsi......179**
**İmam Sadiq əleyhissəlamın dövründəki siyasi, ictimai və mədəni vəziyyət......181**
**Xüsusi mədəni şərait......181**
**Məzhəb və firqələrin bir-biri ilə rəftarı......182**
**Böyük Cəfəri məktəbi......182**
**“Tövhidi Müfəzzəl” risaləsi......183**
**İmam Sadiq (əleyhissəlam) məktəbinin genişliyi......184**
**İmam Sadiq əleyhissəlamın münazirələri......185**
**Əhkamın şiəliyə xas olan şəkildə bəyan olunması......187**
**İmam Sadiq (əleyhissəlam) məktəbinin hökumətə qarşı olan etirazının məfhumu......188**
**İmam Sadiq (əleyhissəlam) məktəbinin şagirdlərindən bir nümunə......189**
***Hişam ibn Həkəmin elmi əzəməti......189***
***Hişam həqiqət axtarışında......189***
***Fikirlərin mübarizə dövrü......190***
***İlk tanışlıq......191***
***Hişamın əsərləri......192***
**İmam Sadiq əleyhissəlamın siyasi fəaliyyəti......193**
***İmaməti təbliğ etmək məqsədi ilə nümayəndələrin göndərilməsi......193***
***Əməvilər sülaləsinin süquta uğramasının səbəbləri......194***
***Abbasilərin qiyamı İslami mahiyyət daşıyırdımı?!......196***
***Qiyam başçılarının İmam Sadiq əleyhissəlama yazdığı məktublar......197***
***Nə üçün İmam Sadiq (ə) Abbasilərin başçılarının təklifini rədd etdi?......198***
***İbrahimin Əbu Müslimə söylədiyi dəhşətli vəsiyyətlər......199***
***Əbu Müslimin cinayətləri......200***
***Seçim və proqramlaşdırma......201***
***İmam Sadiq (əleyhissəlam) Abbasilərlə üz-üzə......202***
***İqtisadi təzyiq siyasəti......202***
***Qırğın, qantökmə siyasəti......203***

*Mədinə iqtisadi blokadada* ........ *204*
*İmam Sadiq (əleyhissəlam) və Mənsur* ........ *205*
**Qondarma müftilər** ........ **206**
**Məcburi yazılmış kitab** ........ **206**
**Zeyd ibn Əli ibn Hüseyn əleyhissəlamın qiyamı** ........ **207**
*Zeydin Dəməşqə çağırılması* ........ *207*
*Məcburi səfər* ........ *208*
*Kufədə* ........ *208*
*Böyük vuruşma* ........ *209*
*Zeydin şəhid olması* ........ *209*
*İmam Sadiq (ə) və qiyamlar* ........ *209*
*Zeydin qiyamında İmam Sadiq əleyhissəlamın razılığı olmuşdurmu?* ........ *211*
1. Məhəmməd "Nəfsİ Zəkərİyyə"nİn İnqİlabı ________ 213
*Qiyamın başlanğıcı* ........ *213*
*Artıq təzyiqlər* ........ *214*
*Silahlı qiyam və onun sonu* ........ *215*
*İmam Sadiqin (ə) Məhəmməd "Nəfsi Zəkiyyə"nin inqilabına münasibəti* ........ *215*
*VII FƏSİL* ........ *218*
*İMAM MUSEYİ-KAZİM ƏLEYHİSSƏLAMIN HƏYATI* ........ *218*
**İmam Kazim əleyhissəlamın həyatı barədə qısa məlumat** ........ **219**
**İmam Kazim əleyhissəlamın müasiri olmuş xəlifələr** ........ **219**
**Cəfəri məktəbinin hamisi** ........ **220**
**İmam Kazim əleyhissəlamın dövründə xilafətin gördüyü çirkin işlər** ........ **221**
*1. Məhdi Abbasi* ........ *221*
*2. Hadi Abbasi* ........ *223*
*3. Harun ər-Rəşid* ........ *227*
*Hökm çıxaran şura* ........ *234*
*Məsləhətə görə verilmiş fətva* ........ *235*
*Vicdanı aldatmaq* ........ *235*
**Əli ibn Yəqtin – İmam Kazim əleyhissəlamın Harunun sarayındakı elçisi** ........ **236**
*Əli ibn Yəqtinin elmi məqamı* ........ *237*

*Əli ibn Yəqtinin vəzir olması şiələr üçün arxa və dayaq olmuşdur* ... *237*
*İmam Kazim əleyhissəlamın şərti razılığı* ... *238*
*Təhlükəli və gizli bir tapşırıq* ... *239*
*Şiələrin iqtisadi vəziyyətinin dirçəlməsi* ... *239*
*Həcc naibləri* ... *241*
*Bu paltarı saxla!* ... *242*
**İslam dövləti təşkil etmək arzusunda** ... 242
*Beytül-malın toplanması* ... *243*
*VIII FƏSİL* ... *244*
*İMAM RİZA ƏLEYHİSSƏLAMIN HƏYATI* ... *244*
**İmam Riza əleyhissəlamın həyatı barədə qısa məlumat** ... 245
**İmam Riza əleyhissəlamın müasiri olmuş xəlifələr** ... 245
**İmam Riza (əleyhissəlam) Harunun dövründə** ... 245
**Əmin və Məmun – təfavütlər, təzadlar** ... 246
**Xəlifə Əminin məğlub olması** ... 247
**İmam Riza əleyhissəlamın xəlifə Əminin dövründəki nisbi azadlığı** ... 247
**Məmun kimdir?** ... 247
*Məmunun xüsusiyyətləri* ... *248*
*İmam Riza (əleyhissəlam) Məmunun dövründə* ... *248*
*Məmunun İmam Riza əleyhissəlamı Xorasana dəvət etməsi* ... *249*
*İmam Rizaya (ə) xilafətin təklifi* ... *250*
*Həyata keçirilməyən vəliəhdlik məqamı* ... *250*
**Məmunun, xilafəti imam Rizaya (ə) təklifində qəsdi** ... 251
*1. Abbasilərin Məmundan narazılığı* ... *251*
*2. Əminin daha üstün mövqeyi* ... *252*
Məmunun arxalandığı nə idi? ... 252
*1. Ələvilərin Məmuna olan münasibəti* ... *252*
*2. Ərəblərin Məmuna və yaratdığı sistemə münasibəti* ... *253*
*3. Əmini öldürmək və arzuların boşa çıxması* ... *253*
*Çıxılmaz bir vəziyyət* ... *254*
*Ələvilərin qiyamları* ... *254*
*Çoxcəhətli çıxış yolu* ... *254*

**Şübhələr və cavablar** ..... 255
**İmam Riza əleyhissəlamın vəliəhdliyi qəbul etməsinin səbəbləri** ..... 256
**İmam Riza (əleyhissəlam) həqiqətən də, vəliəhd olmaq istəyirdimi?** ..... 257
**Yalnız mənfi mövqe tutmaq düzgün idi** ..... 257
**İmam Riza əleyhissəlamın Məmunun hiylələri qarşısındakı mənfi mövqeyi** ..... 257
***Birinci mövqe*** ..... *258*
***İkinci mövqe*** ..... *258*
***Üçüncü mövqe*** ..... *258*
***İmamət məsələsi ilə tövhidin əlaqəsi*** ..... *259*
***Dördüncü mövqe*** ..... *259*
***Beşinci mövqe*** ..... *260*
***Altıncı mövqe*** ..... *260*
***Yeddinci mövqe*** ..... *260*
**Abbasilər dövründə İslam cəmiyyətinin xüsusi mədəni şəraiti** ..... 261
***Məmun, fəlsəfə və məntiq*** ..... *263*
***Məmun və mötəziləçilik*** ..... *263*
***Xarici elmi kitabların tərcüməsi*** ..... *264*
***İmam Riza əleyhissəlamın yad fikirlər qarşısında tutduğu mövqe*** ..... *266*
***Məmunun elmi müzakirələr təşkil etməkdən əsl məqsədi*** ..... *267*
***İmam Riza əleyhissəlamın sair din və məktəblərin nümayəndələri ilə müzakirələri*** ..... *270*
***Məmunun səyi*** ..... *270*
***Katolikosla bəhs*** ..... *272*
***IX FƏSİL*** ..... *276*
***İMAM MƏHƏMMƏD TƏQİ ƏLEYHİSSƏLAMIN HƏYATI*** ..... *276*
**İmam Məhəmməd Təqi əleyhissəlamın həyatı barədə qısa məlumat** ..... 277
**İmam Cavad əleyhissəlamın müasiri olmuş xəlifələr** ..... 277
**Xeyir-bərəkətli bir təvəllüd** ..... 277
**Azyaşlı İmam** ..... 279
**Bu barədə İmamların buyuruqları** ..... 280
**Əqidə çaşqınlığı** ..... 281
**İmam Cavad əleyhissəlamın elmi müzakirələri** ..... 282

*Yəhya İbn Əksəmlə elmi mübahisə* ... *283*

*Ehram bağlamış şəxsin heyvan ovlamasının müxtəlif hallarının hökmü* ... *284*

*Baş qazı heyran qalır* ... *285*

*İmam Cavad əleyhissəlamın tükənməz elmindən nümunələr* ... *285*

*1. İmam Cavad əleyhissəlamın fətva verməsi və saray fəqihlərinin rüsvay olması* ... *285*

*2. Hədis uyduranlar rüsvay olurlar* ... *286*

**Alimlərin nəzərində İmam Cavad əleyhissəlamın şəxsiyyəti** ... **288**

**Hiylə əsasında qurulmuş nikah** ... **289**

**Məmunun məqsədi** ... **290**

**Vəkillik əlaqə vasitəsi kimi** ... **291**

**İmam Cavad əleyhissəlamın elmi məktəbi** ... **292**

**İmam Cavad əleyhissəlamın şəhadəti** ... **292**

*X FƏSİL* ... *294*

*İMAM ƏLİYYƏN-NƏQİ ƏLEYHİSSƏLAMIN HƏYATI* ... *294*

**İmam Əliyyən-Nəqi əleyhissəlamın həyatı barədə qısa məlumat** ... **295**

**İmam Əliyyən-Nəqi əleyhissəlamın müasiri olmuş xəlifələr** ... **295**

**İmam Əliyyən-Nəqi əleyhissəlamın dövründə siyasi-ictimai vəziyyət** ... **295**

**Qiyamların məğlubiyyətə uğramasının səbəbləri** ... **296**

**İmam Əliyyən-Nəqi əleyhissəlamın gizli fəaliyyətləri** ... **297**

Vəkillik əlaqə vasitəsi kimi ... 298

**İmam Əliyyən-Nəqi əleyhissəlamın Mədinədən Samirraya gəlməsi** ... **300**

Mütəvəkkilin köməkçilərinin xəbərdarlığı ... 301

İmam Əliyyən-Nəqi əleyhissəlamın Samirraya gəlişi ... 302

Şərab məclisi bir-birinə dəyir ... 303

İmam Əliyyən-Nəqi (əleyhissəlam) Mütəvəkkilin zindanında ... 303

Mütəvəkkilin şiələrə qarşı təzyiq və cinayətləri ... 304

**Zinətli saray və məclislər** ... **308**

**Tarixi bir sənəd** ... **308**

**Mütəvəkkilin öldürülməsi və Müntəsirin hakimiyyətə gəlişi** ... **309**

*İmam Əliyyən-Nəqi (əleyhissəlam) saray fəqihləri ilə üz-üzə* ... *310*

1. Zina etmiş məsihinin cəzası ... 310

2. Mütəvəkkilin nəzri ... 311

*İmam Əliyyən-Nəqi (əleyhİssəlam) və müxtəlif firqələr* ... *311*

*Qulatlarla mübarİzə* ... *312*

Quranın məxluq olması fitnəsi ... 314

İmam Əliyyən-Nəqi əleyhissəlamın mövqeyi ... 316

***İmam Əliyyən-Nəqi əleyhissəlamın şagirdləri* ... *316***

***İmam Əliyyən-Nəqi əleyhissəlamın şəhadəti* ... *317***

***XI FƏSİL* ... *318***

***İMAM HƏSƏN ƏSKƏRİ ƏLEYHİSSƏLAMIN HƏYATI* ... *318***

***İmam Həsən Əskəri əleyhissəlamın həyatı barədə qısa məlumat* ... *319***

İmam Həsən Əskəri əleyhissəlamın müasiri olmuş xəlifələr ... 319

***1. Əl-Mötəzz* ... *319***

***Mötəzzin öldürülməsi* ... *320***

***2. Əl-Mühtədi* ... *320***

3. Əl-Mötəmid ... 321

İmam Həsən Əskəri əleyhissəlamın dövründə siyasi-ictimai vəziyyət ... 321

İmam Həsən Əskəri əleyhissəlamın təhlükəsizlik təbdirləri ... 322

**İmam Həsən Əskəri əleyhissəlamın yeddicəhətli fəaliyyəti ... 324**

1. Elmi fəaliyyətlər ... 324

a) Filosofun səhvi ... 325

b) Rahibin əli açılır ... 326

2. Şiələrlə əlaqə yaratmaq ... 327

Qasidlər və məktublar ... 328

3. Gizli siyasi fəaliyyətlər ... 329

4. Şiələri maddi cəhətdən təmin etmək ... 330

5. Mühüm şiə şəxsiyyətlərini müşkülat qarşısında siyasi baxımdan qüvvətləndirmək ... 331

6. Qeybi məlumatlardan geniş şəkildə istifadə etmək ... 332

7. Şiələri on ikinci imamın qeybə çəkilməsi dövrü üçün hazırlamaq ... 336

**Həzrət Məhdi əleyhissəlamın qeybə çəkiləcəyi barədə qabaqcadan xəbər vermə ... 336**

**Həqiqətin parlaq siması ... 337**

**İmam Həsən Əskəri əleyhissəlamın şəhadəti və faydasız kələklər ... 338**

**Cəfər Kəzzabın əbəs yerə etdiyi səy ... 340**

Faydasız səylər ... 341

***XII FƏSİL* ... *343***

***İMAM MƏHDİ ƏLEYHİSSƏLAMIN HƏYATI* ... *343***

**İmam Məhdi əleyhissəlamın həyatı barədə qısa məlumat ... 344**

Sünni alimlərinin nəzərində Həzrət Məhdi əleyhissəlamın təvəllüdü ... 345

Həzrət Məhdi (əleyhissəlam) ilə görüş ... 345

Həzrət Məhdi əleyhissəlamın qeybə çəkilməsinin siyasi-ictimai səbəbləri ... 346

1. İnsanları sınama ... 346

2. İmamın canını qorumaq ... 347

3. Zəmanə zalımları ilə beyət etmək zülmündən qurtarmaq ... 347

Kiçik və böyük qeyb dövrü ... 348

İmam Məhdi əleyhissəlamın xüsusi nümayəndələri ... 349

1. Əbu Əmr Osman İbn Səid Əmri ... 350

2. Məhəmməd İbn Osman İbn Səid Əmri ... 351

3. Əbülqasim Hüseyn İbn Ruh Nobəxti ... 352

4. Əbülhəsən Əlİ İbn Məhəmməd Səməri ____ 352
İmam Məhdi əleyhissəlamın xüsusi nümayəndələrinin əsas vəzifə və fəaliyyətləri ____ 353
1. İmam Məhdi əleyhissəlamın adını və yerini gizli saxlamaq ____ 353
2. Vəkillərə (nümayəndələrə) rəhbərlik etmək ____ 354
3. İmama məxsus olan şəri vergilərin toplanıb paylanması ____ 355
4. Fiqhi sual və əqidəvi müşkülata cavab vermək ____ 355
5. İmamın naibi olmaq haqda iddia edənlərlə mübarizə ____ 356
Böyük qeyb dövrü ____ 357
Həzrət Məhdi (əleyhissəlam) şiə mənbələrində ____ 358
İmam Məhdi (əleyhissəlam) doğulmazdan qabaq onun haqqında yazılmış kitablar ____ 359
İmam Məhdi (əleyhissəlam) sünni mənbələrində ____ 360
“İslam dünyası əlaqələri” təşkilatının bəyanatı ____ 362
Məhdi əleyhissəlamın atası kimdir? ____ 363
İbn Xəldun və Məhdi (əleyhissəlam) haqqında nəql olunmuş rəvayətlər ____ 364
Məhdi əleyhissəlamı gözləmək və Məhdilik iddiası edənlər ____ 366
Quranda Məhdi (əleyhissəlam) hökumətinin siması ____ 368
İmamın qeyb dövründə olmasının faydaları ____ 370
Gizli Günəş ____ 370
1. Dünyanın döyünən ürəyi ____ 371
2. Allah dinini qorumaq ____ 371
3. Ümid vermək ____ 372